# TARİX VƏ ONUN PROBLEMLƏRİ

1



BAKI - 2023

TARİX VƏ ONUN PROBLEMLƏRİ
1
BAKI
2023

***"Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır".***

**Heydər ƏLİYEV**

# TARİX VƏ ONUN PROBLEMLƏRİ

1997-100

**HİSTORY AND İTS PROBLEMS** **ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ**

**N Ə Z Ə R İ, E L M İ, M E T O D İ K J U R N A L**

**ISSN 2708-0641 (print)**
**2708-065X (online)**

1

**ADİLOĞLU**
**BAKI – 2023**

*Baş Redaktor -* **Əsməd İmammәmmәd qızı Muxtarova -** *Bakı Dövlət Universiteti*
*Baş redaktorun müavini -* **İsmayıl Məhəmməd oğlu Məmmədov -** *Bakı Dövlət Universiteti*
*Məsul katib -* **Qabil Əli oğlu Əliyev -** *Bakı Dövlət Universiteti*

Redaksiya heyəti (əlifba sırası ilə)

**Axundova Nərgiz Çingiz qızı -** *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**Andrzej L.Bonusiak -** *Jeşuva Universitetinin Tarix İnstitutu (Polşa)*
**Barış Özdal -** *Bursa Uludağ Universiteti (Türkiyə)*
**Danish Miroslav -** *Bratislava Komenski Universiteti (Slovakiya)*
**Əliyeva Sevinc İsrafil qızı -** *Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**Əlizadə Hikmət Əbdül oğlu -** *Bakı Dövlət Universiteti*
**Hacıyev İsmayıl Muxtar oğlu -** *AMEA Naxçıvan bölməsi*
**Hacıyev Sani Tofiq oğlu -** *Bakı Dövlət Universiteti*
**Hacıyev Zeynəddin Camal oğlu -** *Bakı Dövlət Universiteti*
**Hatice Palaz Erdemir -** *Manisa Calal Bayar Universiteti (Türkiyə)*
**Hüseynova İradə Mehtiqulu qızı -** *Bakı Dövlət Universiteti*
**Hüseynova Lalə Cavid qızı -** *AR Prezidentinin İşlər İdarəsi Siyasi sənədlər arxivi*
**İsgəndərov Anar Camal oğlu -** *Bakı Dövlət Universiteti*
**İsmayılov Qüdrət Seyfulla oğlu -** *Bakı Dövlət Universiteti*
**Qasımlı Musa Cəfər oğlu -** *AMEA Qafqazşünaslıq İnstitutu*
**Quliyeva Nərgiz Məlik qızı -** *AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
**Kvitsiani John Jokiyevich -** *İ.V.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" Elmi-Tədris İnstitutu (Gürcüstan)*
**Mahmudov Yaqub Mikayıl oğlu -** *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**Mamoulia Georges Quramovich -** *Sosial Elmlər üzrə Ali Araşdırmalar Məktəbi (Fransa)*
**Mehdiyeva Nisbət Canməmməd qızı -** *Bakı Dövlət Universiteti*
**Mirabdullayev Adil Mirabdulla oğlu -** *Bakı Dövlət Universiteti*
**Mohammad Salmansızadeh -** *Təbriz Universiteti (İran)*
**Turichın İqor Victoroviç -** *Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu (Rusiya)*
**Vəlixanlı Nailə Məmmədəli qızı -** *Azərbaycan tarx müzeyi*
**Yusifzadə Sevinc Ziya qızı -** *Bakı Dövlət Universiteti*
**Zeynalov İbrahim Xudaverdi oğlu -** *Bakı Dövlət Universiteti*

web-sayt: - http://publish.bsu.edu.az/az/content/tarix_ve_onun_problemleri_jurnali_illerle
http://ek.anl.az/search/query?term_1=Tarix+v%C9%99+onun+probleml%C9%99ri&theme=e-kataloq
*Redaksiya ilə əlaqə:* TarixVeOnunProblemleri@gmail.com
Şəhadətnamə № 0060079 (1997)
©Lisenziya ser.AB - №22477

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR** | |
| İSMAYILZADƏ S.C. | *Sabirlərin etnik tarixinə dair* | 5-9 |
| ИСМАЙЛОВА С.А. | *"Женский султанат" в период Османской империи* | 10-15 |
| МАМЕДОВА Э.К. | *Исторические корни искусственно созданной армянской государственности на Южном Кавказе* | 16-22 |
| | **YENİ DÖVR** | |
| MUSA RƏHIMOĞLU (QULİYEV) | *A.S.Qriboyedov və Naxçıvan* | 23-27 |
| HƏSƏNOV H.N. | *XIX əsrin birinci rübündə Qarabağ xanlığında siyasi proseslərə dair* | 28-35 |
| NOVRUZOVA A.Z. | *XIX əsrdə Qarabağ əhalisi və etnodemoqrafik proseslər* | 36-41 |
| MƏMMƏDOV A.A. | *Şimali Azərbaycanın Şəki bölgəsində ipəkçilik sənaye sahəsində əmtəə-pul münasibətlərinin formalaşması haqqında* | 42-46 |
| ƏHMƏDOVA E.İ. | *Hacı Zeynalabdin Tağıyev (sxemli təhlil)* | 47-67 |
| | **MÜASİR DÖVR** | |
| ƏSGƏROVA Z.Q., MƏMMƏDOVA A.M. | *Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti* | 68-76 |
| ABBASOVA G.Ə., MİRZƏYEV K.İ. | *Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsində parlamentin rolu* | 77-85 |
| İSMAYILOV S. | *1920-ci illərdə Azərbaycanda aparılmış ali məktəb islahatlarının Bakı Dövlət Universitetinin tədris həyatına təsirləri* | 86-91 |
| АББАСОВ Т.Н. | *Опыт борьбы с международным терроризмом в контексте политико-правовой базы США* | 92-96 |
| АХУНДОВ Р. | *Энергетическая политика Азербайджанской Республики на современном этапе (2022-2023)* | 97-101 |
| BABAZADƏ M.V., ƏFQANLI C. | *ABŞ və Avropa İttifaqı dünyanın bipolyar şəraitində* | 102-107 |
| İSMAYILZADƏ X. | *ABŞ - CXR münasibətlərinin təşəkkülünə dair* | 108-112 |
| MƏMMƏDOV Z. | *UNESCO-nun 43-cü Bakı sessiyası* | 113-119 |
| ASLANLI G.M. | *Azərbaycan Respublikasının regionlarında idmanın inkişafına dair* | 120-125 |
| XOŞQƏDƏM İSLAM, PƏNAHOV A. | *Şuşa -Azərbaycanın milli mədəni sərvətidir* | 126-132 |
| QULİYEVA G.Ş. | *XX əsrin əvvələrində (20-30-cu illər) Türkiyə-İran münasibətləri* | 133-138 |
| CƏFƏROVA G.M. | *1946-1950-ci illərdə Bakı Dövlət Universitetində tədris və elmi-tədqiqat işləri* | 139-142 |
| HEYDƏROV İ. | *Azərbaycanda sənaye və nəqliyyatın inkişafı (1969-1982-ci illər)* | 143-147 |
| ŞELEMANOV E. | *Azərbaycan Respublikası xarici siyasətində Şərqi Avropa ölkələri ilə qarşılıqlı siyasi əlaqələr* | 148-151 |
| MƏHƏMMƏDLİ D., QASIMLI H. | *Şəki-Zaqatala iqtisadi regionunun turizm sahəsinə dair kitabxana-informasiya təminatı* | 152-158 |
| НАГИЕВА Ш. | *Стратегическое значение Зангезурского коридора* | 159-162 |
| İBADLI V.Ə. | *Fransa prezidenti Jak Şirakın xarici siyasət konsepsiyası* | 163-166 |

| | | |
|---|---|---|
| MƏMMƏDLİ C. | *Gerhard Şröder dövründə Almaniya Federativ Respublikası-nın xarici siyasətində Avro-Atlantika təhlükəsizlik istiqaməti (1998-2005)* | 167-176 |
| HÜSEYNLİ O. | *Azərbaycanın Baltikyanı ölkələrlə mədəni əlaqələri (Latviya, Litva, Estoniya timsalında)* | 177-182 |
| ABDULLAYEVA N.F. | *Cənubi Qafqazda ərazi-sərhəd məsələləri: tarixə ekskurs* | 183-188 |
| MƏMMƏDOVA A. | *Azərbaycan Respublikası beynəlxalq və regional sülhməramlı fəaliyyətin tərəfdaşıdır* | 189-194 |
| SALİHA GİZEM ÖNDER | *Sovyetler Birliğinin "Bir Etni-Bir Toprak" İlkesi Çerçevesinde Türkistan Halklarının Kendi Kaderini Tayin Hakkının Mümkünlüğü* | 195-200 |


**ARXEOLOGİYA, ETNOQRAFİYA, MUZEYŞÜNASLIQ**


| | | |
|---|---|---|
| DADAŞOV Ə.N. | *Paleometal dövrünün maldarlıq təsərrüfatı və onun əsas istiqamətləri* | 201-208 |
| AVŞAROVA İ.N. | *Xocalı-Gədəbəy tayfalarının maddi-mədəniyyətində qrifon təsvirləri* | 209-213 |
| ОРУДЖЕВА Л.Р. | *Роль культуры и искусства в изучении общественного строя на основе археологических материалов в эпоху средней бронзы в Азербайджане* | 214-219 |
| ƏLİZADƏ A.M. | *Azərbaycanda sənətkarlığın inkişaf tarixindən* | 220-225 |
| ƏLİYAROVA V. | *Böyük Borsunlu kurqanından tapılmış təbərzin balta və onun Azərbaycanda paralelləri haqqında* | 226-231 |
| VƏLİYEVA A.A. | *Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə-ev muzeyləri* | 232-235 |
| SƏMƏDZADƏ Ü. | *Gənclərə sosial kateqoriya kimi yanaşma* | 236-239 |


**MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, DEMOQRAFİYA, METODİKA**


| | | |
|---|---|---|
| HACIYEV İ. | *Mirzəbağır Əliyevin "Qanlı günlərimiz"əsəri Naxçıvanın 1918-1920-ci illər tarixi üçün mühüm və etibarlı mənbədir* | 240-248 |
| MƏMMƏDOV A.B. | *XX əsrin II yarısı Rusiya alimlərinin ailə ilə bağlı tədqiqat əsərlərində tarixi demoqrafiya məsələləri* | 249-254 |
| ƏMİRLİ İ.C. | *Formasiyalararası torpaq formaları* | 255-258 |
| HÜSEYNOVA K. | *Türkiyə tarixçilərinin tədqiqatlarında Qarabağ problemi* | 259-264 |
| HƏSƏNOVA S.N. | *Azərbaycan Səfəvi imperiyasının tənəzzülünə dair tarıxşünaslıq materiallarının qısa təhlili* | 265-269 |
| HƏŞİMOVA A.Q. | *Orta əsrlər dövründə Qarabağın ərazisi və sərhədləri* | 270-274 |
| MƏMMƏDLİ B.A. | *Tarixi idrak və onun prinsiplərinə dair* | 275-281 |


**YUBİLEYLƏR, XATİRƏLƏR**


| | | |
|---|---|---|
| SADIQOVA İ. | *İ.H.Nərimanov məktəbinin qadın yetirmələri* | 282-285 |

**UOT 94**

**SAİDƏ İSMAYILZADƏ**
*Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasının dosenti*
**saida.ismailzade@mail.ru**

# SABİRLƏRİN ETNİK TARİXİNƏ DAİR

*Avropa Hun imperyası parçalandıqdan sonra ərazisində çoxlu tayfa birlikləri və yeni dövlət qurumları meydana gəldi. Onqur dövləti dağıldıqdan sonra Sabirlər köçəri türk və uqor tayfalarını öz ətraflarında birləşdirərək Qafqaz ərazisində qüdrətli tayfa ittifaqı yaratdılar. Sasani Bizans müharibələrində hər iki orduda muzdlu əsgər kimi iştirak etdilər. Cənubi Qafqaz ərazisində məskunlaşan Sabirlər tədricən oturaq həyat tərzini mənimsədilər.*

*Açar sözlər:* Sabirlər, Hunlar, Onqurlar, Tayfa ittifaqı, Sasani dövləti, Bizans, Türklər.

***Giriş***. Böyük Hun imperyası dağıldıqdan sonra Hunlar şimali Çin və müasir Monqlustan ərazisindəki torpaqlarda dayana bilmədilər. Çin dövlətinin əvvəlki qüdrətini bərpa edən Xan sülaləsi hunlara qarşı aparılan müharibələrdə uğurlar qazanmağa başladı. Ard-arda Çinlilərə məğlub olan Hunlar qərbə doğru köç etmək məcburiyyətində qaldılar.

Mərkəzi Asiyada yaşayan müxtəlif etnik quruplar Hunlarla birlikdə cənub şərqi Avropa çöllərinə gəldilər. Hunlarla birlikdə qərbə doğru köç edən Hunlarla eyni soy kökünə mənsub olan xalqlardan biri də Sabir (suvar) türkləri idi. Sabirlərin ana vətəni Altay dağlarıyla Ural çayı arasındakı ərazilər sayılırdı [1, 424].

Şərqi Avropa ərazisində Qot tayfalarını ard arda məğlub edən Hunlar Mərkəzi Avropada qüdrətli imperiya yaratdılar. Sabirlər əsasən Onqur Kutiqur Utiqur və digər türk, uqor tayfalarıyla Avropa Hun imperyasının şərq sərhədlərini qoruyurdular. Atillanın hakimiyyəti illərində Qafqaz dağlarını aşan Sabirlər Dərbənd keçidi vasitəsiylə Sasani dövləti ərazisinə kəşfiyyat yürüşü təşkil etdilər. Sasanilər üzərinə edilən həmən yürüş olduqca uğurlu keçdi Sabirlər yürüş zamanı çoxlu qənimət və hərbi əsirlər ələ keçirdilər. Onlar əldə etdikləri qənimətlərlə gəldikləri kimi Dərbənd keçidi vasitəsiylə geriyə cənub şərqi Avropa çöllərinə qayıtdılar [1, 424].

Məhz Sabirlərin bu uğurlu səfəri Hun hökümdarı Atillanın gələcəkdə İran üzərinə yürüş etmək fikrin qətiləşdirdi ancaq Onun qəfil ölümü Hunların Sasanilər üzərinə planlaşdırdıqları səfəri təxirə saldı. Atillanın ölümünün həmən ardından nəhəng imperya parçalandı. Qafqaz ərazisində yaranan Onqur dövlətidə uzun ömürlü olmadı. Onqurların ardından Sabirlər yeni hərbi siyasi ittifaq yaratdılar. Yeni ittifaqa Sabirlərlə yanaşı Bulqarlar və Hunlarda daxil idi (2, 321). Antik müəlliflərin verdiyi məlumata görə Sabir tayfa başçıları döyüşə 120 min əsgər çıxara bilirdilər. Bu sayı əslində Sabirlərin nə qədər böyük hərbi gücə malik olduqlarını göstərir.

V əsrin sonu VI əsrin əvvəllərindən Sabirlər cənubi Qafqaz və ön Asya ölkələri üzərinə müntəzəm yürüşlər etməyə başladılar. Hərb sənətinin bütün incəliklərinə bələd olan Sabirlər Sasani – Bizans müharibələrində hər iki tərəfdən muzdlu döyüşçülər kimi iştirak edirdilər.

516-ci ildə Qafqaz dağlarını aşan Sabirlər Sasanilərin təhrikiylə Bizansın kiçik Asiyadakı ərazilərinə yürüşə başladılar. Mərkəzi Anadoluya qədər irəlləyən Sabirlər Kapadokiya Ermənistan və Pont əyalətlərində yerləşən şəhərləri tutaraq talan etdilər. Sabirlərin istehkam dağıdan qurğuları qarşısında Bizansın qala divarları duruş gətirə bilmirdi. Divar dələn qurğulardan məharətlə istifadə edən Sabirlər çətinlik çəkmədən Bizans şəhərlərini bir birinin ardıyla ələ keçirirdilər. Bizanslı tarixci Prokopios qeyd edirki *Sabirlərin istifadə etdiyi istehkam dağıdan qurğular o günə qədər nə romalılarda nədə Sasanilərdə mövcud olmamışdır* [6, 818].

521-ci ildə Bizans imperatoru Yustinian sabirləri Sasanilərə qarşı yürüşə təhrik etdi ancaq İran hakim darələri Sabirlərə dah çox dah pul və torpaqlar vəd edərək onları öz tərəflərinə çəkməyi bacardılar. Sabirlərlə döyüşə bilməyəcəyini anlayan Yustinian Sasanilərdən Sabirlərin yürüşünün dayandırılması müqabilində sülh bağlamağı öhdəsinə götürdü. Yustinyanın sülh təklifin qəbul edən Sasanilər Sabirlərə xəyanət edərək gözlənilmədən onların düşərigəsinə hücum etdilər. Sabirlərin gözləmədiyi bu xain hücum zamanı 20 mindən artıq Sabir döyüşcüsü Sasanilər tərəfindən qılıncdan keçirdildi. An-

caq Sasani xəyanəti Sabirlərin gücünü zəiflədə bilmədi [2, 341]. Qüdrətli hökmdar Balak xandan sonra Sabirlərə onun dul xanımı Boğarık xatun başçılıq edirdi. Balak xanın ölümü Sabirlər arasındakı İran və Bizans meyilli qüvvələrin mübarizəsini kəskinləşdirdi.

527 ci ildə Bizansla ittifaqa girən Boğarık xatun 100 minlik ordusunu Sasanilərin sərhəddinə gətirdi. Ancaq İrana qarşı vuruşmaq istəməyə digər iki Sabir tayfa başçısı Qolam və Tironis öz tərəfdarlarıyla birlikdə Sasanilərin tərəfinə keçdilər. Həlledici döyüşdə Qolam öldürüldü. Tiranis əsir alınaraq Konstantinopola göndərildi. Uzun müddətli Sasani Bizans müharibələrində Sabirlərin tez tez tərəf dəyişmələri tayfa ittifaqı arasında iki tirəliyi dərinləşdirdi. Tayfa ittifaqı mənsublarının fərqli cəbhələrə yönəlməsi arası kəsilməyən müharibələr Sabirlərin əvəlki qüdrətlərinin itirməsiylə nəticələndi.

528-531-ci illərdə baş verən Sasani Bizans müharibələrində Sabirlər Sasanilər tərəfdən döyüşürdülər.

531 ci ildə Sabirlər Bizansın Kilikya və Ermənistan əyalətlərinə soxularaq bir çox yaşayış məntəqələrini ələ keçirərək qarət etdilər.

550-556-cı iillərdə baş verən Sasani Bizans müharibələrinin nəticəsinə Sabirlərin təsiri böyük olmuşdur. Sasanilər Qaradəniz sahilində yerləşən Laz dövləti üzərinə hücum etdilər. Laz hökmdarı Qubaç pul müqailində Lazlar tərəfdən döyüşmək üçün Sabirlərdən yardım istədi. Döyüşlərin davam etdiyi zaman Laz hakimi Sabirlərə vəd etdiyi pulu ödəməkdən boyun qaçırdı. Aldadıldıqlarını görən Sabir tayfa başçıları Sasanilər tərəfə keçmək qərarına gəldilər. Bundan xəbər tutan Bizans imperatoru Yustinian çoxlu pul və hədiyyələr müqabilində Sabirləri öz tərəfinə çəkməyi bacardı. Bizansın tərəfinə keçən Sabirlər Lazların paytaxtını Yustinyana təslim etdilər [3, 137]. 554-555-ci illərdə Sabirlər Sasanilərin müttəfiqi olan Delmentləri məğlub etdilər. Dərbənd ətrafı ərazilərdə məskunlaşan Sabirlər Qafqaz Albnyasının şimal şərq ərazilərində əsas etnik qurupa çevrildilər. Oturaq həyata keçən türklər yerli əhaliylə qaynayıb qarışdılar [3,138].

Arası kəsilməyən müharibələr Sabirlərin gücünü tükəndirdi. 557-ci ildə Sabirlərin əsas qüvvələri Avarlar tərəfindən darmadağın edildi. Toparlana bilməyən Sabirlər 562 ci ildə Sasani şahı Xosrov tərəfindən məğlub edildilər. Sabirlərin bir hisəsini əsir götrən Xosrov onları Albanyanın Qəbələ vilyətində məskunlaşdırdı. Sabirlərin salamat qalan digər hissəsi Dərbənd keçidindən keçərək cənubi Dağıstan ərazisində möhkəmləndilər. Şahənşahı Xosurov gələcəkdə Türklərin Dərbənd keçidi vasitəsiylə İran üzərinə yürüşlərinin qarşısını almaq məqsədiylə dağıdılmış Dərbənd qalasını bərpa etdirdi. Dərbənd keçidini yeni sədlərlə kəsdi. Dərbənd qalasının möhkəmlədirilməsi sabir axınların müvəqqəti dayandırsada gələcək türk yürüşlərini dayandıra [4, 207]. VII əsrin əvvəllərində Sabirlərin mərkəzi Dağıstan ərazisində yarım müstəqil dövlətləri mövcud olmuşdur. Ancaq sonrakı dövrlərdə sabirlərdə şimali Qafqazda yaşayan digər türk xalqları kimi Göytürk xaqanlığına tabe edildilər. 658-ci ildə qərbi Göytürk dövlətini parçalandıqdan sonra Sabirlər yenidən az bir müddət müstəqil oldular. Ancaq bölgədə yeni hərbi siyasi gücə çevirilən Xəzər dövləti ətrafdakı digər xalqlar kimi Sabirləri də özlərinə tabe etdilər. Onlar Xəzər xaqanlığının tərkibində öz milli kimliklərini uzun müddət qoruya bildilər. Göytürk dövləti zamanında olduğu kimi Xəzər xaqanlığınında cənub sərhədlərini Sabirlər mhavizə edirdilər.

Gücülü Ərəb xilafəti yarandıqdan sonra Xəzər Ərəb müharibələri başlandı Ərəb ordusub Xəzər dövlətinin içlərinə doğru irəlilədi. Sabirlərin bir hissəsi Şimali Qafqazdan kanrda əsasən Don çayı ətrafındakı torpaqlarda yaşayırdılar. Ərblərin təzyiqinə tab gətirməyən Sabirlər şimala doğru köç etdilər. Onlar orta Volqaboyu ərazilərə glərək onlara qohum xalq olan Bulqar türklərinin yaxınlığında məskunlaşdılar. Volqa Bulqar dövlətinin təbəliyin keçən Sabirlər X əsrin əvvəllərində Suvar şəhərini saldılar. Sonrakı əsirlərdə Volqa Sabirləri Çuvaş adlyla tanınırdılar. Sibir bölgəsinə öz adlarını verən bir çox volqaboyu xalqların əcdadları olan Sabirlər kimlər idi. Sabirlər geniş ərazilərdə yaşamış və bir çox etnik qrupların formalaşmasına səbəb olan köçəri türk tafa birliklər idi. Müxtəlif dövlətlərin mənbələrində həmçinin fərqli dövrlərdə Sabirlərə fərqli adlar verilmişdir. II əsrdə Ptolemey onları Savarlar, VI əsrdə yaşamış Qeysəriyyəli Prokopi - Sabirlər, IX əsrdə İbn Xordadbeh - Suvarlar, X əsrdə Əhməd ibn Fədlan - Suvaz olaraq adlandırmışdır. Necə adlandırılmalarından asılı olmayaraq, qərbi Xəzər vilayətləri tutub VI əsrin əvvəllərində Qafqazın şimal hissəsinə köçmüş, sonra Avarlar və Sasani İranına məğlub olduqdan sonra bir hissəsi cənubi Qfqaz Albanyası ərazisində məskunlaşan

qalan hissəsi volqa boyu və qərbi Sibir ərazisinə yayılmış xalq idi Sabirlər. Bir çox tarixçilər haqlı olaraq Sibirin adını Sabirlərin verdiyinə inanırlar [6, 76]. Savirlərin ilk tarixi qeydlərini araşdıran bir çox tədqiqatçılar 463-cü ildə Prisk tərəfindən yazılmış “Pirsk tarixini” götürürlər. Lakin Savirlər Priskdən bir neçə əsr əvvəl fərqli adlar altında tanınırdılar. II əsrin ortalarında. Savirlər Ptolemey tərəfindən Qafqazda Aorsi və Pagiritlərdən aşağıda yaşayan xalqlar kimi qeydə alınmışdır [2, 171]. Çuvaş tarixini araşdıran bir çox tarixçi onları səhvən hunlarla eyniləşdirmişdilər. Şimali Qafqazda bulqar və suvar tayfaları köçəri həyat tərzindən oturaq həyat tərzinə keçiməyə başlamışdılar. Tayfa üzvləri arasında sinifli cəmiyyət erkən feodal münasibətləri formalaşmışdır. V-VI əsrlərdə bolqarların ardınca Savirlər barsillərlə birlikdə VI əsrdə müasir Dağıstan ərazisində öz tayfalar ittifaqını - Savir knyazlığını yaratdılar. Onların öz yazı dili var idi. V-VIII əsrlərin müəllifləri Dərbənddən Azov dənizi və Volqaboyuna qədər çölləri məskunlaşmış müxtəlif Hun tayfalarını nəzərdə tuturdular. VI əsrdə Bizans tarixçisi Qeysəriyyəli Prokopinin məlumatına görə “Burada hunlar, savir adlananlar və bəzi başqa hun tayfaları yaşayırlar. Sabirlər hun tayfasıdır, Qafqaz dağlarının yaxınlığında yaşayırlar”. Xəzər qapılarına (Dərbənd keçidi) sahib olan suvarlar Cənubi Qafqaz- Albaniyaya (müasir Azərbaycan ərazisində), Ermənistan və Gürcüstana, Kiçik Asiya və Qərbi Asiyaya yürüşlər təşkil edirdilər. Böyük Bolqar dövləti qurduqdan sonra Bulqarlar özlərinə paytaxt olaraq IV əsrin 60 cı illərində Hunlar tərəfindən dağıdılmış Fanaqoriya şəhərini seçdilər. VII əsrdə Kubrat xan vəfat etdikdən sonra Böyük Bolqar dövləti Kubratın oğulları Batbay (Batbayan) və Asparux (İsperix) xan arasında iki yerə parçalandı. Kubrat Xan ölkənin şərq hissəsini Asparux xan isə qərb hissəsinə sahib oldular. VII əsrin əvvəllərində suvar tayfalarını özünə tabe edən xəzərlər bolqarları məğlub edən Xəzərlər güclü dövlət yaratdılar. Türkdilli xəzərlər mədəniyyət və dil baxımından bolqarlara yaxın idilər. Xəzərlər tərəfindən sıxışdırılan bolqarlar Asparux xanın başçılığı altında 675-ci ildə Dunaytərəf çəkildilər. Burada slavyanlarla ittifaq quran bulqarlar Dunay çayının orta axarındakı torpaqları işğal etmiş avarlarıqərbə doğru sıxışdırdılar. 679-cu ildə Bizans ordusu üzərində mühüm qələbə qazanan və Dunay bölgəsindəki Cənubi Slavyan tayfalarının bir hissəsini özünə tabe etdirən Asparux xan Bulqar dövlətinin yardaıldığını elan etdi. Dunay Bulqarları cənub slavyanlarıyla qaynayıb qarışaraq slavyanlaşdılar. Ancaq Bulqar xalqının adını onlara tabe olan slavyanlar götürdülər Bulqarların digər qrupu, sözdə "gümüş bolqarlar", VII əsrin 70 ci illərində Donun yuxarı axınına köç etdilər, sonrakı illərdə onların əsas hissəsi Bersula (Barsilya) ilə birlikdə Orta Volqa bölgəsində məskunlaşdılar. Tarixçilərin fikirincə Bulqarlara Kubrat Xanın digər oğlu Kotraqın başçılıq etmişdir. Kubratın digər oğlu - Batbayın başçılıq etdiyi bolqar tayfalarının üçüncü qrupu ("qara bulqarlar") öz yelərində qaldılar və xəzərlərə tabe oldu. Bu tayfalar VIII əsrin ortalarına qədər burada yaşamağa davam etmişlər. VII əsrin 60-cı illərdən suvarlar Xəzər xaqanlığına tabe edilmişdilər. Xəzərlər suvarlardan İran, Bizans xalqlarına və Qafqazda ərəb ekspansiyasına qarşı müharibələrdə istifadə edirdilər. Bolqarların və suvarların əsas tanrısı nəhəng Tanqrixan idi (tanqri "cənnət" deməkdir), onu tanrıların xilaskarı, həyat verən və bütün nemətlər bəxş edən kimi hörmətlə anırdılar Suvarlar sonrakı bütpərəst çuvaşlar kimi, makrokosmosu üç dünyaya böldülər: yuxarı, orta və aşağı dünya. Tanqrıxan kultu müqəddəs yarpaqlı palıd bağlarına ehtiramla bağlı idi, burada nəhəng bir ağacın ağsaqqal kimi seçildiyi və yanında bütlər olan kiçik məbədə bənzər tikililər olurdu. Xristian yepiskopu İsrail 684-cü ildə Suvarlar ölkəsinə səfər edərək onların dinlərini belə təsvir edir: “... Onlar oda və suya qurban kəsir, yolların bəzi tanrılarına, həmçinin aya və bütün yaradılışlara sitayiş edirdilər heyrətamiz, hündür yarpaqlı palıd ağaclarının altında atları qurban kəsərək sitayiş edirdilər, qurbanlıq heyvanların bədənini və qanını yeyib-içir, qanları ağacların ətrafına səpir qurbanın başını və dərisini ağacın budağından asırdılar. Tanqrixandan sonra ən çox hörmət edilən tanrı “ildırım çaxması və efir odları qığılcımları” yaradan Kuar idi (qeyd edək ki, qədim iran dilindəki kvar “günəş”, çuvaş dilində isə “kəvar” “yanan kömür” sözünə bənzəyir). Suvarların bütpərəstlik dininin əsas elementləri bulqarlara, xəzərlərə və digər türk xalqlarınada xas idi. Suvarların inancları XVI-XVIII əsrlərdəki çuvaşların bütpərəstlik dininin eyni əlamətlərini daşıyırdı. VIII əsrin 30 cu illəində Ərəblər Xəzər xaqanlığının torpaqlarına yürüşlərə başladılar Suvar torpaqlarında döyüşlər. 732-737-ci illərdə başladı. 737-ci ildə ərəb ordusu Xəzər ordusunu darmadağın edərək, xaqanlığın paytaxtı Səməndər şəhərini tutdular və Volqanın sağ sahilində yaşayan Burtasların torpaqlarına çatdılar. Barsillərlə birlikdə öz yurdlarını tərk edərək, Orta Volqa bölgəsinə köçərək Kama bölgəsinin meşə-çöl bölgələrində yaşayan bolqarların cənubunda məskun-

laşdılar. Çuvaş əfsanələrində və xalqın yaddaşında qorunan adət-ənənələrdə çuvaşların məhz Qafqazdan, Aramazi dağları bölgələrindən Orta Volqaboyuna köçmələri qeyd olunur. Tədqiqatçıların qeyd etdiyi kimi, çuvaşların və Volqaboyu tatarların mahnı süjetlərinin mifoloji motivlərində dağların təsviri ilə bağlı oxşar süjet kompleksi mövcuddur.Bolqarların və suvarların Qafqaz xalqları ilə keçmiş yaxınlığı onların arisi sayılan çuvaşların ənənəvi mədəniyyətində və dilində öz təzahürünü tapmışdır. Məsələn, bu gün çuvaş dilində işlənən onlarla gürcü sözü var (gürcü sözü simes "yemək" – çuvaş çimĕç; tsivi "soyuq" - sivĕ; humalak "hops" - hămla və s.) [27, 17].

***Nəticə***. Şimali Qafqaz, Azov və Qara dəniz ətafınd yaşayan suvarlar və bolqarlar irandilli sarmatlar və alanlar, türk dilli xəzərlər və Qafqazın yerli xalqları ilə qarışmışlar ki, bu da Suvarların fiziki görkəmində dəyişiklikdə öz əksini tapmışdır. Tədricən Suvarlarda xarici görkməmcə avropoid irqinin qafqaz tipi hakim olmuşdur. Sabirlər və Bulqarlar tarix boyu məhv educi istilalara məruz qalmayıblar. Onlar daha çox məğlub olduqdan sonra daha təhlükəsiz bölgələrə köçməyi üstün tutmuşlar. Bu səbəbdəndir ki, Sabirlər bir çox türk xalqlarının formalaşmasında önəmli rol oynamışlar.

## ƏDƏBİYYAT


1. Golden Peter B. Studies on the Peoples and Cultures of the Eurasian Steppes / ed. by Cătălin Hriban. Bucureşti: Editura Academiei Române, 2011, 424.
2. Ptolemaei Claudii Geographia. T. I. Lipsiae: Simptibus et typis Caroli Tauchnitii, 1843. XXIV, 284.
3. Иордан. О происхождении и деяниях геттов. Getica / вступ. ст., пер., ком. Е.Ч. Скржинской. СПб.: Алетейя, 2013, 512 с.
4. Prisci Panitae Fragmenta. A cura di Fritz Bormann. Firenze : Le Monnier, 1979. LVI, 207 .
5. Procopii Caesariensis Opera omnia. Recognovit Jaecobus Haury. Vol. I: De bellis libri I–IV. Lipsiae: In aedibus B.G. Teubneri, 1905. LXIV, 552 p.
6. Stephani Byzantii. Ethnicorvm. T. I. Berolini: Impensis G. Reimeri, 1849. VI, 818 p.
7. Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку : Элм, 1985. 124 с.
8. Фёдоров Я.А. Хазария и Дагестан // Кавказский этнографический сборник. V. М.: Наука, 1972. С.18-40.
9. Феофан Исповедник. Хронография. Текст на древне-греческом и русском языках / пер. и ком. И.С. Чичурова // Чичуров И.С. Византийские исторические сочинения. М.: Наука, 1980. С.24-144.
10. Malalas Joannes Chronographia. Bonnae: Impensis E.D. Weberi, 1831. LXXVIII, 798 p.
11. Прокопий Кесарийский. Война с персами. Война с вандалами. Тайная история. М.: Алетейя, 1998. 544 с.
12. Németh Gyula. A honfoglaló magyarság kialakulása. Közzéteszi Berta Árpád. Budapest: Akadémiai Kiadó, 1991. 399 p.
13. Стриттер Иван. Известия византийских историков, объясняющие российскую историю древних времен и переселения народов. Ч. 2: О тотфах, вандалах, гепидах, ерулах, уннах и о аварах. СПб.: Имп. АН, 1771. 166 с.
14. Golden Peter B. The peoples of the south Russian steppes // The Cambridge History of Early Inner Asia. Cambridge Univ. Press, 2008, P.256–284.
15. Скржинская Е.Ч. Вступ. ст., пер., коммент. // Иордан. О происхождении и деяниях гетов. Getica. СПб.: Алетейя, 2001. 512 с.
16. Адонц Николай. Армения в эпоху Юстиниана. Ереван: ЕГУ, 1971. 528 с.
17. Артамонов М.И. История хазар. Л.: Гос. Эрмитаж, 1962. 524 с.
18. Чекалова А.А. Примечания // Прокопий Кесарийский. Война с персами. Война с вандалами. Тайная история. М.: Алетейя, 1998. С. 504–511.
19. Procopii Caesariensis Opera omnia. Recognovit Jaecobus Haury. Vol. II: De bellis libri V–VIII. Lipsiae: In aedibus B.G. Teubneri, 1905a. II, 678 p.
20. Агафий Миринейский. О царствовании Юстиниана / пер., ст. и прим. М.В. Левченко. М. : Арктос, 1996. 256 с.

21. Захария Ритор. Хроника // Пигулевская Н.В. Сирийская средневековая историография. Исследования и переводы / сост. Е.Н. Мещерская.СПб.: Дмитрий Буланин, 2011. С. 570–597.
22. Ашурбейли Сара. Государство Ширваншахов (VI–XVI вв.). Баку: Элм, 1983. 344 с.
23. Мерперт Н.Я. Кочевые племена в степной полосе Восточной Европы // Очерки истории СССР: Кризис рабовладельческой системы и зарождение феодализма на территории СССР. III–IX вв. М. : Изд-во АН СССР, 1958. С. 551–569.
24. Agathiae Myrinaei. Historiarum libri quinque. Iστoριων. Bonnae: Impensis Ed. Weberi, 1828. XXXVII, 420 p.
25. Менандр Византиец // Византийские историки / пер. с греч. Спиридона Дестуниса ; прим. Гавриила Дестуниса. Рязань : Александрия, 2003. 229–335.
26. Чичуров И.С. Византийские исторические сочинения. М. : Наука, 1980. 215 с.
27. Багратуни Псевдо-Шапух. История анонимного повествования / пер., сост. и ред. М.О. Дарбинян-Меликян, М.О. Мелик-Оганджанян. Баку :Изд-во АН АрмССР, 1971. 238 с.
28. Theophylacti Simocattae Historiae / ed. Carolvs de Boor. Lipsiae: I Aedibvs B.G Tevbneri, 1887. XIV, 438 p.
29. Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку, Elm, 1985, 123 с.

**САИДА ИСМАИЛЗАДЕ**
*Доцент Гянджинского государственного университета*

## К ЭТНИЧЕСКОЙ ИСТОРИИ САБИРОВ

После распада Гуннской империи в Европе на ее территории появилось множество племенных объединений и новых мелких государств. После распада Онгурского государства Сабиры (Савиры) объединили кочевые тюркские и угорские племена и создали на Кавказе мощный племенной союз. Сабиры, поселившиеся на Южном Кавказе, постепенно перешли к оседлому образу жизни.

*Ключевые слова*: Савиры, Онгуры, Племенной Союз, Государство Сасанидов, Византия, Тюрки.

**SAIDA ISMAILZADE**
*Associate Professor of Ganja State University*

## ON THE ETHNIC HISTORY OF SABIRS

After the collapse of the European Hun empire, many tribal unions and new state institutions emerged on its territory. After the collapse of the Ongur state, the Sabirs united the nomadic Turk and Ugor tribes to form a strong tribal alliance in the Caucasus. The Sabirs, who settled in the South Caucasus, gradually settled down.

*Keywords:* Savirs, Huns, Ongurs, Tribal Union, Sasanid state, Bizantium, Turks.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Vüsalə Veysəlova, t.e.d. İsmayıl Məmmədov.*

UOT 94

**САНУБАР ИСМАЙЛОВА**
*К.и.н., доцент Бакинского Государственного Университета*
**sanubar.is@gmail.com**

# "ЖЕНСКИЙ СУЛТАНАТ" В ПЕРИОД ОСМАНСКОЙ ИМПЕРИИ

*Одной из актуальных проблем в истории тюркских народов является история государственной и политической жизни женщин в Османской Империи. В данной статье освещается роль женщин в социальной жизни государства. Целью статьи является изучение роли женщин гарема в формировании государственной политики османов на различных этапах его существования и кратко осветить образы жизни и политической деятельности в государственном строе известных дворцовых женщин.*

*Ключевые слова:* Женский султанат, гарем, османская империя, Валиде султан, мечеть.

***Введение.*** Во главе Османской Империи стояли сильные женщины, которые прошли длинный путь от безвольных рабынь до османских королев. В этот период женщины играли существенную роль в управлении государством. Влияние женщин гарема на государственные и внешнеполитические аспекты жизни Османской империи имело огромное значение в истории тюркских народов. Особое место занимали могущественные женщины-султанши того времени, как Хюррем Султан, Нурбану Султан и Кесем Султан, чьи имена были внесены в историю "Женского Султаната" в период Османской империи.

***Исторический обзор о " Женском султанате".*** Изучению истории "Женского султаната" в период Османской империи посвящено несколько работ, что затрудняется малочисленностью достоверных сведений о гареме, иерархии управления. Надо отметить, что научно-популярные работы, в которых изучается данная тема, основаны на рассказах и воспоминаниях женщин в последующие века, точнее XIX-XX вв. Естественно, самыми важными источниками для изучения гарема являются архивные материалы. Главными архивами являются Центральный архив Дворца Топкапы и Османский архив при премьер-министре.

Работы европейских авторов являются одним из главных источников для освещения некоторых деталей жизни гарема османских султанов. Альберт Бобовский (он же Сантури Али-бей или Али Уфки) является одним из наиболее известных авторов, который писал о дворцовой жизни. Посол Венеции в Стамбуле в 1604-1607 гг. Оттавиано Бон был первым европейцем, который сообщал некоторые подробности о "жёнах" и наложницах султана.

В работах Ч.М.Улучая "Любовные письма османских султанов", "Письма из гарема", в которых были опубликованы письма Хюррем-султан к Сулейману Великолепному, Ибрагим паши к Хадидже-султан и другие письма матерей, жён, дочерей, наложниц гарема.

В 1915-1923 гг. турецкий историк Ахмет Рефик Алтынай (1881-1937) опубликовал 4-х томное историческое сочинение под названием "Правление женщин".

Большинство книг о гареме на русском языке являются переводными изданиями. В работах Орешкова С.Ф. "Султанский двор и гарем в Османской империи первой половины XVII вв.", Мамедова И.Б. "Эволюция института султанского гарема в XV-XVIII вв. и его роль в политической и социальной жизни Османского государства" введены вопросы о роли женщин в гаремах султанов (13).

***О повелительнице Хюррем-Султан.*** Османское государство, образованное в конце XIII века, достаточно стремительно развивалось и уже к середине XVI века могущество империи достигло своего апогея.

Одной из самых важных тем в истории Османской империи является тема султанского гарема и положения его обитательниц. Следует отметить, что в то время гарем был запретным учреждением. Сначала гарем предназначался для содержания рабынь, так как в жёны брали дочерей христианских правителей из соседних государств. Но, после правления Баязида II

(1481-1512) эта традиция изменилась, и жён султаны стали выбирать из обитательниц гарема. Главным гостем гарема был сам султан. Заходила туда и его мать (валиде), и жёны (кадын-эфенди).



Восточные князья сами отправляли туда дочерей, чтобы они стали избранницами султана. Рабынь покупали в 5-6 летнем возрасте. Девушек обучали танцам, музыке, игре на музыкальных инструментах, этикету и искусству доставлять наслаждение мужчине. Надо отметить, что, если девушка не была мусульманкой, она должна была обязательно принять ислам. Получив статус жены, они основывали благотворительные учреждения и строили мечети. Первым этого титула удостоил свою жену Хюррем (Роксолана) султан Сулейман Великолепный.

В течении 623 лет османская династия управляла принадлежавшими стране землями, с 1299 г. по 1922 г., когда монархия прекратила своё существование. Женщины, в отличие от монархий Европы, не допускались к управлению государством. Такое положение было во всех исламских странах. Однако в истории имеется период, называемый Женским султанатом. Они активно участвовали в управлении государством.

Историки считают Хюррем Султан первой представительницей Женского султаната. Её настоящее имя - Лисовская Александра (Анастасия), а в Европе она известна как Роксолана, родилась в 1505 г. в Западной Украине.

В 1520 году Хюррем Султан попала в стамбульский дворец Топкапы. Здесь Сулейман I, турецкий султан, дал Александре новое имя - Хюррем (перевод с арабского языка приносящая радость") и даровал этой женщине титул "Хасеки Султан", которая получила большую власть и ещё укрепилась в 1534 году, когда умерла мать султана. С этого времени Хюррем начала управлять гаремом. Хюррем-султан, первая рабыня, которая оказалась у власти. До неё ни одна госпожа не вмешивалась в государственные дела, а управляла лишь гаремом. Она была женщиной повелителя, поэтому сама хотела быть не простой женой султана, а османской правительницей. Она имела право принимать послов, отвечала на письма иностранных правителей, влиятельных вельмож и художников. По её инициативе в Стамбуле построено несколько мечетей, баня и медресе.

Хюррем султан вела активную общественную деятельность, вела переписки с выдающимися людьми со всего мира и открыла благотворительный фонд, бесплатные кухни для паломников и бедняков и других важных объектов. Благодаря своему мужу она стала хозяйкой земель, сёл и ферм в Стамбуле, Мекке, Омане, Египте и Иерусалиме.

Огромную часть своей прибыли Хюррем султан получала от благотворительных вакфов. Первым её проектом стал комплекс Хасеки, построенный до 1550 года в городе Стамбул. В этот комплекс входила мечеть, школа, больница и столовая для бедняков. За год только столовая для бедняков требовала затрат 120 тысяч акче (примерно 360 тысяч долларов). В этой столовой для бедных и бездомных каждый день кормили людей рисом, мясом со специями и маслом, в сезон кормили овощами и фруктами, а по праздникам даже сладостями. Имелся у неё, и управленческий талант. К примеру, в отсутствие Сулеймана ей удалось залатать огромнейшую дыру в султанской казне довольно-таки хитрым способом, традиционным, скорее, для славянских правителей. Хюррем просто распорядилась открыть винные лавки в европейском квартале Стамбула (12).

Хюррем султан построила множество архитектурных объектов, один из которых – мечеть Хасеки Хюррем. Строительство здания завершилось в 1539 году. Оно представляло собой квадратное сооружение с куполом высотой 11,3 метра. Автором проекта стал знаменитый Синан. Мечеть расположилась в центре Стамбула, там, где прежде шумел невольничий рынок (5).

Годом позже возвели медресе. И мечеть стала превращаться в часть внушительного религиозно-хозяйственного комплекса. Появились школы и больница, столовая, бани. Внутрен-

ний двор, окружённый купольной галереей, украсили изящным фонтаном. Но, надо отметить, что после нескольких землетрясений мечеть тоже приняла сокрушительный удар стихии и была практически разрушена. Только в 1969 году началась масштабная реставрация. Из прежнего комплекса до наших дней сохранилась больница. Мечеть вместе с прочими постройками стала третьей в ряду аналогов, и она играет важную роль в истории империи и Турции в целом (10).



***Нурбану-Султан.*** Вторая из Женского султаната, венецианская рабыня из гарема султана, подобно её предшественнице Роксалане, Нурбану султан взяла Турцию под свой контроль. О происхождении Нурбану султан разные точки зрения. Одни утверждают, что она была еврейкой, другие, что она родилась на греческом острове Корфу, третьи называют её черкешенкой. Сама султанша, однако, упомянула, что она происходила из Венеции. Сегодня принято считать, что она принадлежала к знатной венецианской фамилии Веньеров. По некоторым источникам её настоящее имя Сесилия Ваньер-Баффо или Ракель Мария Насси.

Когда девочке исполнилось двенадцать лет, вспыхнула третья турецко-венецианская война, и на Парос напал знаменитый османский пират Хайр-ад-дин Барбаросса. Разорив остров, он погрузил на свои корабли добычу и невольников. В их числе была и дочь губернатора, которую вернувшись в Стамбул Барбаросса сделал щедрый подарок правителю империи. Её отправили в гарем, где распределили в наложницы наследника престола Селима. Девушка сменила вероисповедание и приняла ислам, после чего её нарекли - Афифе Нурбану (Афифе – целомудренная, порядочная; Нурбану-принцесса света). Она сумела очаровать Селима, который в 1553 году получил титул официального наследника престола. Во всех провинциях, где управлял Селим, Нурбану повсюду сопровождала своего господина. Она всегда продолжала оставаться любимой подругой султана, главой его гарема. Её сын Мурад был провозглашён наследником престола, что дало его матери особый статус. В 1568 году она стала официальной женой Селима.

В гареме того времени её называли "Средней Валиде", потому ,что она была второй из троицы первых королев гарема: Хюррем, Нурбану и Сафие. Она первая, кто возвёл в статусе матери Падишаха, поэтому она прославилась при дворе султаната. Смерть Селима II в 1574 году стала неожиданностью для Нурбану-султан, но не поколебала её влияние во власти, а даже усилила её. Её сын Мурад III, став султаном, посвящал делам меньше времени, чем его отец. Нурбану стала первой в истории империи использовать полученный ею после смерти супруга титул валиде-султан официально (9).

Став первой дамой государства, Нурбану развернула широкую деятельность. Занималась благотворительностью, строила мечети, медресе и другие социальные объекты. Стала оказывать влияние и на внешнеполитические вопросы: вела переписку с королевой Франции Екатериной Медичи, налаживая хорошие отношения между двумя странами, а также принимала у себя венецианских послов, стала налаживать связи с родной Венецией (11).

Венецианский посол Джакопо Сарондзо писал: "Говорят, что Его Величество горячо и преданно любит хасеки как за красоту, так и за необычайный ум" (8).

Мечеть Атик Валиде - османская имперская мечеть XVI века в Стамбуле. Она была построена для Нурбану-султан и представляла собой часть большого комплекса, который включал в себя медресе, гостевые комнаты и двойной караван-сарай. Закладка фундамента началась в 1571 году и закончилось строительство в 1586 году, после кончины Нурбану-султан. Все изменения в строительстве были под руководством султанши, в результате повышения её статуса.

Мечеть являлась частью большого комплекса, включавшего также в себя медресе, школу хадисов, школу чтения Корана, начальную школу монастырь дервишей, больницу и богодельню, в которой находились гостевой дом и двойной караван-сарай. Также был

воздвигнут и хаммам (7). Атик Валиде стала первой мечетью с двумя минаретами, построенной женщиной.

После смерти Селима II, его сын Мурад III вплоть до самой смерти своей Валиде-султан, прислушивался к её советам и во многих вопросах принимал сторону своей матери и позволял ей вмешиваться в дела империи и даже вести переписку со многими европейскими правителями. Французский посланник писал: "Мать султана-Нурбану султан приобрела такое влияние на пашей, что они раздают по её указанию все милости и высшие государственные должности" (4). Мать султана старалась соблюдать интересы Османской империи,но одновременно вела провенецианскую политику.

Нурбану-султан скончалась в декабре 1583 года, не получив особых почестей при жизни, она удостоилась их после смерти. Мурад III устроил матери пышные похороны, он лично сам нёс гроб с телом валиде в мечеть Мехмеда Завоевателя, где четыре дня непрерывно читался Коран в комплексе мечети Ая-Софья. Она стала первой наложницей султана, погребённая рядом со своим господином. Этим поступком Мурад признал свою валиде полноправным членом правящей династии.



***Кёсем-Султан.*** Одной из самых влиятельных женщин в Османской империи являлась мать султанов Мурада IV и Ибрагима I Махпейкер Кёсем-султан (около 1590-1651 гг.). В общей сложности находилась у власти около 30 лет. Нет достоверных свидетельств о её жизни до попадания в гарем, однако считается, что она была гречанкой или боснийкой, звали её Анастасией. Когда она была в гареме, ей дали имя Махпейкер, что означает "луноликая". Другое её имя – Кёсем ("самая любимая"), дал ей Ахмед, наложницей которого она была. Благодаря своему уму и красоте Кёсем стала любимой хасеки Ахмеда. Кёсем имела множество детей от султана, что позволило ей добиться большой власти путём организации браков своих дочерей и внучек с чиновниками высокого ранга.

Во время правления сыновей носила титул Бююк Валиде Султан и переехала из старого дворца в дворец Топкапы. Мурад IV стал султаном в возрасте всего 11лет, в связи с чем до 1632 года фактически вся власть была в руках у Кёсем и её партии. Сама Кёсем официально носила титул регента. Несмотря на то, что Кёсем эффективно справлялась с обязанностями валиде-регента, в народе начинались волнения из-за большого влияния янычар на политику страны.

Мурад IV всегда прислушивался к мнению матери, ценя её опыт и ум, кроме того, она располагала властью во время частых военных экспедиций Мурада. Она сумела спасти Ибрагима, когда Мурад приказал казнить своих братьев.

В 1640 году после смерти Мурада Ибрагим наследовал ему как единственный представитель династии. В первые годы правления Ибрагима власть снова находилась в руках Кёсем.

Кёсем-султан была инициатором строительства мечети Чинили в Ускюдаре. Это единственная мечеть, построенная во время правления Мурада. А также у неё были небольшие мечети и фонтан медресе Валиде в Анадолу Каваги, построен фонтан в Еникапы, мечети Валиде Хан, фонтаны в Бешикташ и Эйюп и Валиде Каравансарай в Чакмакчилар Йокушу. Также известно, что она также заложила фонтаны, построенные за пределами Стамбула.

Она финансировала ирригационные работы в Египте и оказывала помощь бедным в Мекке. Кёсем была известна своей благотворительной деятельностью и освобождением рабов после 3 лет службы (6).

Кёсем слыла женщиной властной и жестокой. Но простой люд любил ее: она много занималась благотворительностью, оплачивала долги бедняков, часто посещала тюрьмы, приюты и больницы, помогала девушкам-сиротам выйти замуж, наделяя их приданным, опекала работу общественных столовых: несколько тысяч человек ежедневно ели здесь бесплатно (3).

Новым витком эпохи "женского султаната" Османов стала борьба, развернувшаяся между Кёсем султан и Турхан султан (мать её внука Мехмеда) - последняя сама желала быть регентом при сыне, султане Мехмете IV. 3 сентября 1651 года задушили Кёсем султан, спящей в собственных покоях евнухи, подкупленные Турхан (2). Когда она умерла, жители Константинополя соблюдали трёхдневный траур.

Кёсем стала единственной властительницей в истории Османов, у которой правили оба сына и внук, единственной женщиной, официально получившей, да еще трижды, право регентства. А фактически именно она была на престоле империи со дня кончины мужа до дня собственной смерти, и историки считают эпоху Кёсем султан благоприятной для Османского государства.

***Заключение.*** Началом "Женского Султаната" принято считать 1550 год, а окончанием 1656 год. Термин "женский султанат" ввёл турецкий историк Ахмет Рефик Алтынай в 1916 году в своей с одноимённым названием работе, в которой он рассматривал женский султанат как причину упадка Османской империи.

Надо отметить, что трудность решения состоит в том, что данная тема мало изучалась в отечественной и зарубежной историографии. Не раскрыта достаточно роль женщины в социальной и политической жизни империи. Проблема затрудняется малочисленностью сведений о гареме османских султанов.

И в то же время, гарем на довольно длительный период превратился в место решения важнейших государственных дел. Активное участие могущественных женщин султанского гарема в области благотворительности, в сооружении многочисленных мечетей, медресе, приютов, больниц и хамамов свидетельствовало о прогрессе Женского султаната в период Османской империи.

ЛИТЕРАТУРА

1. История жизни и любви загадочной Хюррем Султан. - Elenaruvel.com https://elenaruvel.com>hurrem- [12.01.2023].
2. Кёсем-султан. - https://ru.m.wikipedia.org>wiki [12.01.2023].
3. Кёсем-султан:что мы знаем о "преемнице" Хюррем?. - https://domashniy.ru>kino_i_serialy [12.01.2023].
4. Мечеть Атик Валиде. - https://ru.m.wikipedia.org>wiki [12.01.2023].
5. Мечеть Хасеки Хюррем в Стамбуле-Турфирма / ТАЛОРА. tolora.ru. - https://www.talora.ru>mechet- [12.01.2023].
6. Мурад III - Сын Султана Селима и Нурбану Султан.Реальная II биография.Великолепный век. - https://sultan_tv.ru> султаны [12.01.2023].
7. Нурбану Афифе Султан, история жизни. Как было на самом деле. - dzen.ru https://dzen.ru [12.01.2023].
8. Нурбану-султан - биография, фото, личная жизнь...-24 СМИ. -24smi.org https://24smi.org> [12.01.2023].
9. Нурбану-султан:как наложница накрыла подолом всю. - homsk.com https://homsk.com>martin>nu [12.01.2023].
10. Смотреть исторические факты Хюррем и Сулеймана. … - https://eurodomik.ru >buildinas [12.01.2023].
11. Самые красивые султанши в Османской империи. - https://pulse.mail.ru>article>samy [12.01.2023].
12. Хюррем султан. Как тратила свои деньги самая богатая султанша. Опубл.4 мая 2020 г. https://sultan-tv.ru>samava-vo [12.01.2023].
13. Эволюция института султанского гарема в XV-XVIII вв. и его роль в политической и социальной жизни Османского государства. - dissercat.com https://www.dissercat.com>co [12.01.2023].

**SƏNUBƏR İSMAYILOVA**
*Bakı Dövlət Universitetinin dosenti,t.ü.f.d.*

**OSMANLI İMPERİYASI DÖVRÜNDƏ "QADIN SULATNLIĞI"**

Türk xalqlarının tarixinin actual problemlərindən biri də Osmanlı imperiyası dövründə qadınların siyasi həyatının tarixidir. Elmi məqalənin əsas məqsədi tarixdə silinməz iz qoymuş saray qadınlarının, o cümlədən Hürrəm-sultan, Nurbanu-sultan və Kösəm sultanın həyat tərzini, onların dövlət quruculuğunda siyasi fəaliyyətini müəyyən qədər işıqlandırmaqdır.

*Açar sözlər:* Qadın sultanlığı, hərəm, osmanlı imperiyası, Validə-sultan, məscid.

**SANUBAR ISMAYILOVA**
*Associate Professor of Baku State University*

**FEMALE SULTANATE DURİNG THE OTTOMAN PERİOD**

One of the actual problems of the Turkish peoples is the history of the political life of women during Ottoman Empire. The main goal of the scientific article is to shed some light on the lifestyle of prominent court women who left an indelible mark on history,including Hurram-sultan,Nurbanu-sultan and Kosam-Sultan,and their political activity in state building.

*Keywords: Female sultanate, harem, Ottoman Empire, Valide Sultan, mosque.*

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. İsmayıl Məmmədov, t.e.d. Qabil Əliyev.*

**UOT 94**

**ЭЛЬМИРА МАМЕДОВА**
*доктор философии по истории,*
*Азербайджанский Государственный Педагогический Университет*
**süleymanova.elmira1954@mail.ru**

# ИСТОРИЧЕСКИЕ КОРНИ ИСКУССТВЕННО СОЗДАННОЙ АРМЯНСКОЙ ГОСУДАРСТВЕННОСТИ НА ЮЖНОМ КАВКАЗЕ

*Главная идея статьи – доказательство того, что армяне – не кавказцы. Они – пришлый элемент, аллохтоны, появившиеся в массовом количестве на Кавказе лишь в XIX веке. И произошло это эпохальное для армянского этноса событие благодаря целенаправленной переселенческой политике Российской империи. Начиная с XV века Армянская церковь избрала для армян на Кавказе в качестве очередной «родины» азербайджанские исторические земли. Исследуется попытки создания здесь армянского государства в XVII-XVII веках. Проясняются итоги попыток реализации этих планов в результате восточной политики российских императоров Петра I и Екатерины II.*

*Ключевые слова*: истинная родина, миграционные волны, этнические компоненты, многоступенчатый процесс, страна Хайяса, этнолингвистическая и конфессиональная разнородность.

***Введение***. Весьма запутанной и неоднозначной теме армянской государственности на Южном Кавказе посвящены горы работ. Однако они противоречивы в интерпретациях того, что известно об армянском этносе и армянской государственности на Южном Кавказе.

В связи с этим требуется принципиальное разъяснение, что наряду с Грузией, Южный Кавказ включает весь исторический Азербайджан, который представляет собой единую территорию площадью около 421,6 тыс кв км, изначально населенную абсолютным большинством тюркского автохтонного этноса, этнически наследниками которых являются азербайджанцы, имеющие преемственную историю и общий язык, материальную и духовную культуру, религию, менталитет и самоидентификацию (11, с.13). Армяне, являющиеся аллохтонами на Южном Кавказе, то есть пришлыми этносами, ныне проживают компактной массой на азербайджанских землях бывшего Иреванского ханства, куда они попали, с исторической точки зрения, недавно, в начале XIX века, сделав ставку на Российскую империю. Здесь же ими основана южнокавказская государственность – Армянская Республика.

Массовое переселение армян на Южный Кавказ в начале XIX века, сопровождающееся на протяжении всего века, вскружило им головы, армяне стали грезить о «Великой Армении, простиравшейся от Средиземного до Черного морей и от Черного до Каспийского морей.

В то время как их массовое появление на Южном Кавказе имело крайне негативные последствия для азербайджанцев, так как на протяжении XIX -XX веков путем гонений, геноцида, депортаций, терроров происходила «этническая чистка» исконных азербайджанских территорий.

До тех пор, пока существуют территориальные амбиции армян, их стремления и дальше расширить территорию массового проживания за счет азербайджанских земель, тема создания армянской государственности на исторических азербайджанских землях не потеряет своей актуальности и научной значимости.

***Основное содержание***. Исторически сложилось так, что армяне стали народом-путешественником, этносом-мигрантом (11, с.107). Их появление на Южном Кавказе результат миграции на Восток с истинной родины Балкан (22, с.27).

Переселение армян на Южный Кавказ было многоступенчатым процессом, растянувшимся на столетия. Если проследить эту миграцию, получается в общем-то картина полностью доказывающая, что нынешние армяне антропологически не являются автохтонами ни в Малой Азии, ни на Южном Кавказе, этноним армяне и топоним Армения к ним никакого отношения

не имеет, просто-напросто присвоен ими. В конце второго тысячилетия до н.э. армяне осели в верховьях Ефрата в Малой Азии, то есть на территории, которая составляла пеструю этническую среду племен, говорящих на общем арамейском языке, за что позднее мидяне, персы, греки и римляне стали называть их арамеями или арменами, а этнически пеструю область их расселения - Арминой. Через них и появился этноним армяне и топонимы Армения и Армянское нагорье. Сами же нынешние армяне называли и продолжают называть себя хайями или хайками, свою прародительницу Хайкануш, а свою страну Хайястаном. Несмотря на то, что в пестрой среде арамеев/арменов самих хаев было мизерное количество, нынешняя армянская историография «узаконила» топоним – Хайяса, где якобы «сформировался» этнос хайи, хотя известно, что этот топоним никакого отношения к нынешним армянам не имеет.

Термин «Хайаса» впервые появляется в хеттских клинописях в начале II тысячелетия до н.э. Хетты называли страну в верховьях Тигра и Ефрата Хайасой. Когда исчезли хетты - исчез сам термин. Ассирийцы называли ту же страну Урарту. Ассирийского государства нет на карте - термин Урарту также исчез. Остался равнозначный всем остальным термин «Армина», который греки превратили в Армению. Это название и распространилось в Европе благодаря грекам. Антропология четко опеделила, что хайи/хайки являются не автохтонами, а аллохтонами в верховьях Тигра и Еврата. По результатам заключения ученых, равнозначный терминам Урарту и Армина, хетский термин Хаяса никак не может отностся к нынешним армянам. Основываясь на внешнем сходстве этнонимов «хайаса» и «хайк», некоторые авторы своеобразно используют лингвистические материалы, без веского аргумента строят различные конфигурации, выдвигают версии и любой ценой пытаются связать хайский народ с Хайасой. Однако, до сих пор ни один исследователь не мог представить обоснованных данных в пользу этой версии. Даже определенное сходство между топонимом «Хайаса» и этнонимом «хайк» не доказывает наличия органической связи между этими терминами, так как не были доказаны родственные связи между языком хайасы и армянским языком.

В хеттских документах совершенно ясно и не двусмысленно повествовалось о нахождении на территории верховья Тигра и Ефрата страны Хайаса. Древнейшее население территории, на которой сформировалось это государство, в науке называют протохеттами. Хеттское государство было создано говорящими на разных языках племенами протохеттов, палайцев, лувийцев и неситов. В ходе длительного процесса неситский язык возобладал над остальными, и в пределах Хеттского государства было сформировано хеттско-неситское этническое единство. В этих процессах нет место армянскому языку и армянам, потому что их в это время не существовало. Иными словами, у армян нет никаких научных оснований претендовать на Хайасу, существовавшую в период, когда не было самих армян, и это утверждение отвергается серьезными научными кругами.

В довольно пестрой по своим этническим компонентам истории Южного Кавказа также нет показателей автохтонности армян. (11, с.3). Частичное заселение армянами Южного Кавказа началось лишь в IV веке н.э. в период господства сасанидов (21, с.80, (16, с.7) 100, 152, 203; 22, с.95, 150).

Наиболее позитивные перспективы для миграции представил период арабо-византийских войн VII-VIII веков, когда арабские халифы, к враждующим с византийцами армянам, относились благожелательно. С помощью Арабского халифата в 705 году Армяно-григорианская церковь подчинила Албанскую церковь и уничтожила библиотеку албанского католикоса Нерсеса Бакура. Это положило начало григорианизации и арменизации местных албан-автохтонов верхней нагорной части Карабаха, где располагался центр Албанского католикосата.

На волне этих миграционных волн организатором была Армянская Григорианская церковь, центр которой также мигрируя в направлении Южного Кавказа из Двина в Армонк, затем в Ахтамар, Себастию, Ани и ряд других городов в Малой Азии (23, с.483), лишь на последнем этапе в 1441 году при правителе Карагоюнлу Джаханшахе обосновался в албанском поселении Уч Кился - Эчмиадзине. Здесь издревле находились албанские святилища – св. Гайянэ, св. Шафакат, св.Репсимэ. В V веке после Агуэнского собора при албанском царе Вачагане III началось преследование идолопоклонников и колдунов. Это сказалось и на

судьбе этих трех албанских святилищ. На их месте были основаны три албанские церкви, сохранившие свои названия святилищ. Албанское поселение вокруг этих церквей стало называться Уч Килсе, в значении три церкви. В период арабского господства албанские церкви стали называться в арабском лексиконе – Учмуэдзин и лишь после обоснования в Уч Кился армянского католикосата в середине XV века арабское название Учмуадзин трансформировалось в Эчмиадзин, а три албанские церкви были превращены в армянские церкви. Правда, их названия - св. Гайянэ, св. Шафакат, св. Репсимэ сохранились.

В середине XV века, дойдя в конце своего миграционного движения до Эчмиадзина на Южном Кавказе, Армянский католикосат теперь уже наметил план «возрождения» якобы утерянной армянской государственности там, где она никогда не существовала. Для его реализации Армянская церковь шла на всякого рода ухищрения и фальсификации.

Началом осуществления этого плана стало приобретение наследственных земель азербайджанцев через торговые сделки (1; 24, с.41, 46-47, 48-49, 51-52, 54-57; 15, 11, 83). Приобретение частновладельческих владений у азербайджанцев проводилась с целью «узаконить» пребывание армян на азербайджанских землях. И таким образом, в XV веке на азербайджанских землях, появляется наследственный вид землевладения под названием «хайреник», соответсвующий термину «мюльк» (12; 15, с.64-95; 24, с.42).

С тем, чтобы «удревнить» корни наследственного землевладения «хайреник» и придать им правовую основу армянскими церковниками во время переселения в Эчмиадзинский монастырь из Ахтамарского монастыря в Османской империи в XV веке были вывезены тексты так называемых «грамот», датируемые VII-XV веками, Это были арабо-мусульманские документы, якобы выданные армянским церквям и армянским общинам от имени авторитетных лиц Ислама - халифов, имамов и даже самого пророка Мухаммеда. Тексты этих «грамот», оригиналы которых до сих пор еще никто не видел, сфальсифицированы и подтасованы армянским духовенством, чтобы таким путем «удревнить» корни армянского существования на азербайджанских землях. В 1950-60-е гг среди церковных документов в архивах Матенадарана А.Д.Папазяном были обнаружены некоторые копии этих фальшивок. Среди них показательны, сфабрикованные в XVI веке письма, якобы выданные армянским католикосам лично пророком Мухаммедом. Об этих письмах, составленных якобы от имени пророка Мухаммеда, А.Д.Папазян отмечал: «текст документа искажен и написан с вопиющими грамматическими и орфографическими ошибками». Армянский ученый констатирует: «...в действительности это фальшивый документ компилятивного характера, который хотя и связывается по своему содержанию с такого рода «договорами» предыдущих веков, но позднейшие копировщики-составители так отклонились от предыдущих текстов, делая много добавлений и приноравливая их к потребностям дня...» (14).

Со времен Петра I начинается армянское движение за создание на Южном Кавказе армянского государства под протекторатом России. В течении XVII - XX веков армянскими горе-дипломатами проектируется Армянское государство за счет исторических азербайджанских земель. Этот однозначный по своему происхождению, сути и последствиям многоэтапный процесс связан одной сутью проектирования Армянского государства на исторических азербайджанских землях.

В начале XVIII века при Петре I Исраил Ори и Минас Вардапет, разработали «Пфальцская программу освобождения Армении», под влиянием которой в ноябре 1724 года был издан указ Петра I о расселении армян на территории Дербента и Ширвана (29, с.192; 27, с.68-69; 28, с.165-166). Однако смерть Петра I и последовавшая вслед за этим дворцовая чехарда остановили первоначальные порывы армян создать свое государство на территории Ширвана. По условиям Рештского 1732 года и Гянджинский 1735 года договоров Россия вынужденно вернула захваченные при Петре I прикаспийские провинции и вывести войска из Южного Кавказа. Переселенные армянские семьи частично остались, а частично вместе с русскими войсками покинули азербайджанские земли.

Вопрос об образовании Армянского государства вновь приобрел особый интерес во второй половине XVIII века в период правления Екатерины II, когда на авансцене появился но-

вый армянский дипломат Иосиф Эмин. Это период феодально-раздробленной государственности в Азербайджане, образование которой связано с существованием ханств, султанств, меликств, джамаатов. К междоусобным неурядицам ханского периода прибавилась проблема армяно-грузинских территориальных претензий. В эпоху азербайджанских ханств при Екатерине II Иосиф Эмин вёл переговоры с русским правительством о создании федеративного армяно-грузинского государства во главе с грузинскими Багратионами, которым присывалось армянское происхождение. По этому проекту планировалось низложение иреванского, нахчыванского, гянджинского, карабахского ханов и присоединение их территории к Грузии (20). В этот же период джульфинские купцы Лазарев, Оганес Егиазаров и глава российской армянской епархии Овсеп Аргутян спроектировали Армянское царство на территории Иреванского и Карабахского ханств (6; 5; 3; 4, с.160). Ими Екатерине II был подарен дорогой бриллиант, принадлежащий Надир шаху. Тогда же с индийского города Мадрас Шамир Шамирян и Мовсес Баграмян через грузинского царя Ираклия II вели переговоры с Екатериной II по созданию конституционного государства «Великая Армения» за счет турецких и азербайджанских земель. По этому плану в политический оборот впервые вводится понятие «возрождение» никогда не существующей «Великой Армении» (13, с.222-225). Но и при правительстве Екатерины II, несмотря на практические шаги русского правительства на пути этого так называемого «возрождения» армянской государственности возникли препятствия. После победоносного похода екатерининского фаворита В.Зубова в 1796 году Екатерина II скоропостижно скончалась. Русские войска были отозваны из Южного Кавказа наследником трона Павлом I из-за наполеоновской угрозы.

Вопрос образования армянской государственности приобрел очередной интерес после Туркманчайского договора, когда началась организованная миграция армян на Южный Кавказ. Католикос Нерсес Аштаракеци подготовил специальный проект миграции. (19, с.440). Посол России А.С.Грибоедов и главнокомандующий И.Паскевич добились включения вопроса в XV статью Туркманчайского договора, став авторами массового переселения армян в пределы Южного Кавказа. В Тебризе был создан Миграционный Комитет, руководимый армянином Лазаревым, создавались миграционные комиссии на местах. Комиссия, руководимая армянином Бебудовым целенаправленно расселяла армян в Карабахе, Нахчыване, Иреване. В результате в 1828 году за счет территории Иреванского и Нахчыванского ханств появилась Армянская область (17, с.178-179).

Массовая миграция армян продолжалась до конца XIX века. Точные сведения по этому поводу даны в сведениях царских чиновников, стоящих у истоков этого массового переселения. После изучения процесса переселения армян на Южный Кавказ известный русский исследователь Н.Шавров в 1911 году писал: «До завоевания Южного Кавказа армянский народ не имел здесь прочных позиций. В основном армяне жили на территории Османского государства и в Иране. Переселение армян на Южный Кавказ началось после войны 1828-1829 годов с Ираном и Османами. С 1828 по 1830 год мы переселили более 40 тысяч иранских и 84 тысячи турецких армян и разместили их в Елизаветпольской и Иреванской губерниях и на лучших государственных землях Тифлисского, Борчалинского, Ахалцихского и Ахалкалакского уездов. В настоящее время из живущих на Южном Кавказе 1млн 300 тыс. армян более 1 млн не являются коренными жителями края. Они переселены сюда нами» (25, с.59-61).

Русский ученый-историк В. Величко писал: «Паскевич был послан в Иран к полковнику Лазареву с тем, чтобы пригласить около 40 тысяч армян в Закавказье. В этом участвовал также патриарх Эчмиадзина. Так, он дал указание о переселении армянских священников из Ирана. Согласно, Адрианопольскому соглашению, более 100 тысяч армян было переселено из Турции. Архиепископ из Эрзерума по имени Карапет привел около 70 тысяч армян. После этого переселение армян из мусульманских стран в Россию приняло непрерывный характер и в последние годы приобрело даже массовый характер» (7, с.121-122).

Другой русский ученый С.Глинка писал о переселении армян: «9-го марта 1828 года последняя русская армия покинула Тебриз... По Туркменчайскому договору армяне из различных деревень стали двигаться в сторону Карабаха... Лазарев, задерживающий князя Аргутин-

ски-Долгорукого в Тебризе для переселения армян, в сопровождении нескольких чиновников отправился к армянам, ждущим его в нетерпении в Мараге» (8, с.81).

Не менее важны высказывания автора идеи переселения армян А.Грибоедова, который небезосновательно отметил: «Проблема преодоления страха, возникшего среди мусульман, из-за боязни, что армяне станут вечными хозяевами территорий, на которые они однажды были допущены и проблема их заверения в недолговечности тяжелой ситуации, в которой они оказались, была нами... многократно взвешена» (9).

Здесь уместно отметить, хотя считается, что армянский этнос сложился в Малой Азии на рубеже II-I тыс. до н.э., однако утеря государственности, а также своеобразный и разветвленный путь миграций стали важнейшими причинами тому, что армяне в большинстве своем никогда не проживали на определенной территории и потому сформировались как этнически не монолитный армянский народ (11, с.110-111). Подчеркнем, что даже через 89 лет после массового переселения армян на Южный Кавказ с различных регионов Каджарской и Османской империй в рапортах царских чиновников указывается на различие армян, как акулисских, ахалкалакских, ахалцихских, елизаветпольских, карабахских, иранских, османских, тифлисских, и особо отмечается, что они «почти не понимают друг друга и браки между ними крайне редки» (18, с.145).

Их этнолингвистическую и конфессиональную разнородность, то есть различие по месту их обитания и менталитету, по самоидентификации, по языку и религиозной принадлежности, по материальной и духовной культуре, констатируют и арменисты, четко обозначая проживающих сегодня в широкой диаспоре (спюрке) 11 субэтнических групп армян (10, с.7, 32-53, 59-92, 96-118, 122-159).

Здесь суть одна, что армяне в своем многовековом миграционном движении с Запада - из Юго-Восточной Европы, на Восток – через Малую Азию дошли до Кавказа и потому никак не могли быть коренными жителями Кавказа, в том числе и Западного Азербайджана (11, с.60). Армянская государственность возникла там, где она никогда до этого не существовала. Здесь к месту отметить знаменитый афоризм римского историка Тита Ливия, по которой «истина может порой быть затемненной, но никогда не гаснет». Так что истинная история образования Армянского государства на Южном Кавказе за счет азербайджанских исторических земель, переживет любую борьбу и обязательно восторжествует.

***Заключение***. Итогом миграции армян с запада на восток стало приобретение на исконных азербайджанских землях армянской государственности. В организованном порядке целенаправленно переселив на Южный Кавказ массу армян из Османской и Каджарской империй, Российская империя создала основу для основания армянской государственности на землях Азербайджана. Провозгласив на землях Иреванского и Нахчыванского ханств административную единицу под названием «Армянская область» царское правительство импульсировало армянские территориальные аппетиты. И тем самым заложила в местные межнациональные отношения «армянскую мину замедленного действия», которая дает о себе знать вплоть до сего дня (11, с.59). В начале XX века выдвигаются территориальные притязания армян, которые представляются общественности как армянское национально-освободительное движение. Это так называемое «армянское национально-освободительное движение» на протяжении всего XX века сопровождается вооруженными армяно-азербайджанскими столкновениями.

ЛИТЕРАТУРА

1. Абрамян А. Купчие и разные другие архивные документы по хозяйственным сделкам (на др.-арм.яз) Ереван, 1941.

2. Арутюнян Б.М. Крупное монастырское хозяйство в Армении в XVII- XVIII вв. Ереван, Изд-во Арм ФАН СССР, 1940.

3. Амирханян А.Т. Тайны дома Лазаревых: Фрагмент истории московской армянской общины XIV-XX вв. М., изд-во Все для Вас, 1992, 142 с.

4. Базиянц А.П. Над архивом Лазаревых: (Очерки) / Отв. ред. акад. Б.Б. Пиотровский. М.: Наука (ГРВЛ), 1982, 159 с.
5. Багдыков М.Г. Архиепископ Иосиф, князь Аргутинский-Долгорукий, предводитель армян России: Штрихи к портрету. Р.-н/Д, 2002, 112 с.
6. Вартанян В. Г., Казаров С.С. История Армянской Апостольской церкви на Дону (XVIII–XX вв.). Р.-н/Д, 2004.
7. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы, «Элм», 1990, 224 с. Гусейнзаде Р.А. Кавказ и армяне. Баку, Печатный дом «Апострофф», 2014, 486 с.
8. Глинка С. Описание переселения армян Азербайджанских в пределы России. Баку «Элм». 1990, 142 с.
9. Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области, с.339-341. В кн.: Сочинения в двух томах. Т.2. Москва, Изд-во «Правда», 1971, 368 с.
10. Григорьян К.Э. Грани идентичности. Социокультурное пограничье как фактор формирования этнического самосознания (на примере субэтнических групп армян). М., Центр цивилизационных и региональных исследований, 2006, 169 с.
11. Гусейнзаде Р.А. Кавказ и армяне. Баку, Печатный дом «Апострофф», 2014, 486 с.
12. Есаян А. Поземельная собственность в бывшем Ереванском ханстве // Научные труды Ергосуниверситета, т.23, 1946 (на арм.яз).
13. Зурначан А.С. Конституционно-правовые взгляды Шаамира Шаамиряна // «Молодой ученый», 2014, с.222-225
14. Папазян разнес «многовековую армянскую историю» / Факты, 06.12.2019. - https://ru.axar.az/news/vmire/381839.html [17.01.2023].
15. Папазян А.Д. Аграрные отношения в Восточной Армении в XVI-XVII вв. Ереван, изд-во АН Арм.ССР, 1972, 302 с.
16. Саркисян Г.Х., Худавердян К.С., Юзбашян К.Н. Потомки Хайка. Очерк истории и культуры Армении с древнейших времен до становления Третьей республики. Ереван, Арм. энцикл., 1998, 326 с.
17. Собрание актов, относящихся к обозрению истории армянского народа, ч.1. Москва, Типография Лазеревых Института восточных языков, 1833. – М., 2011, 407 с.
18. Справка прокурора Эчмиадзинского Синода А.Френкеля, представленная в 1907 году св. Синоду //ИАН Азербайджана, СИФП, 1989, №2, 145.
19. Тунян В.Г. Защитник Отечества. Католикос всех армян Нерсес Аштаракеци (1826-1857). Под ред Ж.С.Сейраняна. Ереван: Св.Эчмиадзин, 2007, 440 с.
20. Иоаннисян А.Р. Иосиф Эмин. Ереван, изд-во Арм.ССР, 1989, 290 с.
21. История армянского народа. Часть первая. Под ред Б.Н.Аракеляна и А.Р.Иоаннисяна. Ереван, Айпетрат, 1951.
22. История армянского народа. Ереван, изд-во: Ереванский Университет, 1980, 335 с.
23. Кавказский календарь на 1883 год: 38-й год. Тифлис, Канцелярия наместника по воен.-нар.упр., 1882, - [5], 253, 204с.
24. Мамедов С.А. Азербайджан по источникам XV- первой половины XVIII вв. Баку, Элм, 1993, 240 с.
25. Шавров Н. Новая угроза русскому делу в Закавказье. СПб, Рус. Собрание, 1911, 78 с.
26. Формы феодальной земельной собственности и владения на Ближнем и Среднем Востоке. М., Наука, 1979, 227 с.
27. Указ Петра 1 М.А.Матюшкину о предложении армянам поселиться в Прикаспийских областях и отводе им земли в удобных местах 10 нояюря 1724 года //АВПР, ф. 100, 1724, д.2, л. 68-69. Подлинник.
28. Указ Петра 1 об отведении армянским переселенцам земли при крепости св. Креста 1724 г. // Собрание актов, относящихся к обозрению истории армянского народа. Ч.1, с.165-166.
29. Экозьянц Ф.В. Исраэл Ори. Ларец Пандоры. Книга 1: Персия. М.: Издатель Воробьёв А.В., 2020, 192 с.

**ELMİRA MƏMMƏDOVA**
*tarix üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## CƏNUBİ QAFQAZDA ERMƏNİ SÜNİ DÖVLƏTÇİLİYİNİN YARANMASININ TARİXİ KÖKLƏRİ

Məqalənin əsas ideyası ondan ibarətdir ki, ermənilərin qafqazlı olmadığınını sübut etmək. Onlar Qafqaza qəlmədir, alloxtondur və burada kütləvi şəkildə ancaq XIX əsrdə peydə olublar. Erməni etnosu üçün bu çox əhəmiyyətli hadisə Rusiya imperiyasının məqsədyönüllü köcürmə siyasəti nəticəsində baş vermişdi.

XV əsrdən başlayaraq Erməni kilsəsi Qafqazda Azərbaycanın tarıxı torpaqlarını ermənilə növbəti "vətən" kimi secmişdi. Məqalədə tarixi Azərbaycan torpaqlarında XVII-XVIII əsrlərdə erməni dəvləti yaradılması cəhdlərinin təhlili verilmişdir. Rusiya imperatorları I Pyotrun və II Yekaterinanın Şərq siyasətini həyata kecirməsi prosesində bu planın reallaşdırması üçün qöstərilən təçəbbüslər və onun nəticələri aydınlaşdırılmışdır.

*Açar sözlər*: əsas vətən, miqrasiya dalğaları, etnik komponentlər, çoxpilləli prosess, Xayasa ölkəsi, etnolinqvistik və konfessional fərqlilik.

**ELMIRA MAMEDOVA**
*PhD in history, Azerbaijan State Pedagogical University*

## HISTORICAL ROOTS OF THE ARTIFICIALLY CREATED ARMENIAN STATEHOOD IN THE SOUTH CAUCASUS

The main idea of the article is to prove that Armenians are not Caucasians. They are an alien element, allochthons, which appeared in large numbers in the Caucasus only in the 19th century. And this epoch-making event for the Armenian ethnos happened thanks to the purposeful resettlement policy of the Russian Empire.

Since the 15th century, the Armenian Church has chosen the Azerbaijani historical lands for the Armenians in the Caucasus as their next "homeland".The article analyzes the attempts to establish the Armenian state in the historical lands of Azerbaijan in the 17th and 18thcenturies. The results of the attempts to implement those plans as a result of the Eastern policy of the Russian emperors, Peter I and Catherine II, are clarified.

*Keywords*: true homeland, migration waves, ethnic components, multistage process, Hayas country, ethnolinguistic and confessional heterogeneity.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Xəqani Məmmədov, t.e.d.Qabil Əliyev.*

**UOT 94(479.24)**

**MUSA RƏHİMOĞLU (QULİYEV)**
*AMEA Naxçıvan Bölməsi, tarix üzrə fəlsəfə doktoru*
**kuliyevm@yandex.ru**

# A.S.QRİBOYEDOV VƏ NAXÇIVAN

*Məqalədə rus yazıçısı, dramaturqu, diplomatı və ictimai-siyasi xadimi Aleksandr Sergeyeviç Qriboyedovun 1819-cu ildən başlayaraq Peterburq - Моздок – Tiflis – İrəvan – Naxçıvan – Təbriz – Tehran xətti ilə İrana diplomatik fəaliyyətə getdiyi zaman və həmin ilin sentyabrında İrandan qayıdan zaman Naxçıvanda, Əlincə çayı sahilində yerləşən Qazançı kəndində qalmasından, oradan rəisi Mazaroviçə yazdığı məktubdan və digər məktublardan danışılır. Məqalədə A.S.Qriboyedovun hazırladığı və A.A.Bakıxanovla birlikdə iştirak etdiyi Türkmənçay müqaviləsinin bağlanmasından danışılır.*

*Açar sözlər*: A.S.Qriboyedov, A.A.Bakıxanov, Peterburq, Naxçıvan, Qazançı kəndi, Abbasabad qalası, Təbriz.

***Giriş.*** Rusiyanın Şərq siyasi tarixində şair, diplomat və ictimai-siyasi xadim A.S.Qriboyedovun hərtərəfli fəaliyyəti diqqəti həmişə cəlb edir. A.S.Qriboyedov 15 yanvar 1795-ci ildə Moskva şəhərində zadəgan ailəsində doğulmuşdur. O, 1810-cu ildə Moskva Universitetinin hüquq və ədəbiyyat fakültəsini bitirmşdir. Həmin fakültəni bitirdikdən sonra o, həmin universitetin fizika və riyaziyyat fakültəsinə daxil olmuş və 1817-ci ildə universitetdə təhsilini əla qiymətlərlə başa vurmuşdur [1, s.238]. Elə həmin ildə Peterburqda Xarici İşlər Kollegiyasında qulluğa girmiş, köhnə stillə (təqvimlə) 15 aprel 1818-ci ildə öz dostu S.N.Beqiçevə bu haqda məktubunda yazmışdı: "... Təsəvvür et ki, məni mütləq harasa göndərmək istəyirlər, səncə hara göndərsələr yaxşıdır?! – İrana, özü də orada yaşamalıyam. Nə qədər boyun qaçırıramsa bir şey çıxmır..." A.S.Qriboyedovun yazdığı səfər gündəliyindən məlum olur ki, o, Moskvadan Tiflisə olan birinci səfərində at arabasında üç min kilometrdən çox yol getməli olur. A.S.Qriboyedov yanvar ayında Tiflisə çatır. O, buradan dostu Stepan Nikitiç Beqiçevə ətraflı məktub yazıb [11, s.5].

A.S.Qriboyedov birinci səfərində 28 nəfər müşayiətçi atlı dəstəsi ilə Tiflis-Qazax yolu ilə hərəkət edərək Xram çayının sahilinə yetişir. Şair-diplomatın yol gündəliyindən məlum olur ki, onlar Qazağın içindən ötüb Dilican dərəsi istiqamətində İrəvana yola düşüblər. O, bu haqda 1819-cu il fevralın 2-də yazdığı məktubunda bildirir: "... Dörd gündür ki, atlı-eşşəkli Tiflisdən yola düşmüşük. İrəvana çatmağa üç günlük yol qalır; bizi Dilican dərəsi ilə çox qorxudurlar..." [2, s.13-15]. O, fevral ayının əvvəlində İrəvana çatır.

Fevralın 9-da Naxçıvana çatdıqları məlum olur. O yazır: "3 gündən sonra ayın 7-də, biz İrəvandan yola düşdük və bu gün bura (Naxçıvana – müəllif) çatdıq. Ümumilikdə yol 133 1/2 verstdir. Yorğunluq məni əzir. Qışın soyuqqluğu dözülməzdir. Heç kəs buralarda belə soyuğu xatırlamır. Cənub bitkilərinin hamısı donub. Bir sözlə burada hər şey məni boğaza yığıb..." [8, s.404]. A.S.Qriboyedovun yazdığı gündəlikdən aşkar olur ki, onlar Naxçıvanda az qalıblar. Atlı dəstə sonra Təbrizə yola düşüb. Rusiyanın Xarici İşlər Kollegiyası 16 iyulda (1818) rəsmi məktub göndərərək bildirir ki, İranla aparılacaq danışıqlarda Mazaroviç başçı təyin edilib. Onun katibi kollegiyanın tərcüməçisi A.S.Qriboyedovdur, dəftərxana xidmətçisi isə Amburgerdir [11, s.101]. Araşdırmalar göstərir ki, A.S.Qriboyedov 1819-cu ilin sentyabrına qədər İranda qalmışdır.

Qeyd edək ki, Rusiya diplomatı A.S.Qriboyedov Naxçıvandan 10 məktub yazmışdır. O, 11-13 sentyabr 1819-cu ildə fransız dilində yazdığı məktubda olduğu yeri Qazançı-Pırnaut kimi qeyd etmişdir. A.S.Qriboyedov məktubu rəisi S.İ.Mazaroviçə yazmışdır. Məktubun mətnindən məlum olur ki, diplomat İranda olan rus əsirlərindən 158-ni Tiflisə aparmaq üçün sentyabrın 11-də Naxçıvana gəlmişdir. O yazdığı məktubunda Naxçıvan xanlığı və Naxçıvan xanı Kalbalı xan Kəngərli haqqında da məlumat vermişdir [8, s.459-464].

Rus diplomatının yazdığı məktubdan məlum olur ki, o, əsir düşmüş rus əsgərlərinin müəyyən bir dəstəsi ilə sentyabrın 4-də Təbrizdən yola düşüblər. 6 gündən sonra, yəni sentyabrın 10-da Naxçıvana gəlib çatmışlar. Naxçıvanda iki gün gözlədikdən sonra dəstə ilə birlikdə Əlincə çayı kənarında yerləşən

Qazançı kəndinə yola düşmüşlər. O, məktubunda yazır: "Biz dağlara qalxdıq, bir neçə saatlıq yoldan sonra, təxminən dörd yarım fərsəng keçəndən sonra, məşhur İlanlı dağın (Haça dağın) yanına çatdıq. Buradan Qazançı adlanan kəndə qalxdıq, oradan sizə məktub yazıram. Deyilənlərə görə sabah mən səkkiz fərsəng daşlı dağ yolu ilə gedəndən sonra bizə məxsus olan Pirnaut kəndinə çatacağıq". A.S.Qriboyedov Qazançı-Ərəfsə yolu ilə Kəbinqaya yüksəkliyindən aşıb, çətin yolla əsir rus əsgərlərini Pırnauta aparmış, Gorus-Şuşa-Yevlax yolu ilə Gəncəyə, oradan isə Tiflisə getmişdir [8, s.459-464].

1826-cı il avqust ayında rus diplomatı A.S.Qriboyedov üçüncü dəfə Tiflisə gəlir. İkinci Rusiya-İran müharibəsinin ağır vaxtları idi. Rusiya çarı I Nikolay 1828-ci ilin martında Rusiyanın Qafqazdakı ordusunun baş komandanı Yermalovu yenisi ilə- qraf Paskeviçlə- əvəz etmişdi. O, işə başladığı ilk gündən diplomat A.S.Qriboyedova belə bir tapşırıq vermişdi: "Türkiyə və İranla olan mübahisəli sərhəd məsələlərinin həllini sənə tapşırıram. Buna görə dəftərxana və arxivdə olan rəsmi yazışmalardan istifadə etmək üçün sizə lazım olan tərcüməçilərdən kimi məsləhət bilirsinizsə, ondan istifadə edin" [8, s.57]. Aparılan araşdırmalar göstərir ki, A.S.Qriboyedov Tiflisdən dostlaşdığı Abbasqulu ağa Bakıxanovu özünə ən yaxın köməkçi və tərcüməçi təyin edir. İran və Türkiyənin sərhəd məsələləri ilə bağlı, həmçinin Türkmənçay müqaviləsinin hazırlanması ərəfəsində aparılan bütün danışıqlarda Abbasqulu ağa Bakıxanov A.S. Qriboyedova yaxından köməklik göstərmişdir.

Fətəli şahın iradəsizliyi, Abbas Mirzənin istər Şimali, istərsə də Cənubi Azərbaycan xanlıqlarına ögey münasibəti, onların müstəqilliklərini qəbul etməməsi onun meydanda tək qalmasına səbəb oldu və bu təklik məğlubiyyətlə nəticələndi. Naxçıvan Kəngərli süvari qoşunlarının bir hissəsi də Abbasabad qalasında idi. Abbas Mirzə atası Fətəli şahın tapşırığı ilə Naxçıvan kəngərlilərinə ögey münasibət bəsləyirdi. Belə bir münasibət Abbas Mirzəyə baha başa gəldi. Rus şairi. diplomatı V.N.Qriqoryev 1833-cü ildə yazdığı kitabında qeyd edirdi ki, Naxçıvan kəngərliləri çox cəsur və bacarıqlı döyüşçülərdir [10, s.39].

Rus qoşunları Abbasabad qalasını işğal etdikdən sonra Rusiya dövləti Irana öz şərtlərini və təkliflərini qəti şəkildə bildirməyə başladı. Bu şərtlər o qədər ciddi və gözlənilməz idi ki, Abbas Mirzə kimi hünərli bir sərkərdə çaş-baş qaldı. O, hər vəchlə danışıqları yubatmaqla vaxt qazanmağa çalışdı. Amma Paskeviç tələsirdi. O, rus diplomatı A.S.Qriboyedova hələ Peterburqdan hazırlanmış şərtlər daxilində sülh müqaviləsi bağlamaq üçün lazım olan məsələləri həll etməyi həvalə etdi [4, s.101].

Abbasabad qalasında gedən döyüşlərdə məğlub olan Abbas Mirzə iyul ayında yenidən Rusiya ilə danışıqlara başlamağı qərara aldı. O, öz katibi Mirzə Salehi məktubla qraf Paskeviçin yanına göndərdi. İran ilə danışıqlara diplomat A.S.Qriboyedov göndərildi [9, s.76].

19 iyul 1827-ci ildə Qriboyedov özünün baş tərcüməçisi Abbasqulu ağa Bakıxanovla Abbas Mirzənin hərbi düşərgəsinə gəldi. Danışıqlar Qaraziyəddin deyilən yerdə bir neçə gün davam etdi. Rusiya tərəfi hərbi təzminat, həmçinin Naxçıvan və İrəvan xanlığını istəyirdi. Abbas Mirzə isə döyüşlərin 10 ay müddətinə dayandırılmasına çalışırdı. Qaraziyəddində aparılan danışıqlar nəticəsiz qaldı [9, s.76-77].

Gürcüstan Milli Arxivində Türkmənçay danışıqlarına qədər və o danışıqlara aid maraqlı arxiv sənədləri saxlanılır. 11-ci fondda saxlanılan "Diplomatik dəftərxananın işi" başlığı ilə "Türkmənçayda İran ilə bağlanan sülh müqaviləsi haqqında" olan iş orijinal olduğu üçün çox maraqlıdır.Sənədlər 1828-ci ilə aiddir [12].

Qeyd edək ki, 11-ci fondda saxlanılan "Abbas Mirzə ilə danışıqlara saray müşaviri Qriboyedovun Qarababadan göndərilməsi" adlı işdə çox maraqlı dialoqlar var. Bu sənəd 6 saatlıq danışığın mətnidir [13]. Yeni baş komandan qraf İ.F.Paskeviç danışıqların nəticəsiz olduğunu görən kimi oktyabr ayında İrəvanı da işğal etdi. Hələ 1826-cı ilin axırından Cənubi Azərbaycan torpaqlarına daxil olan rus qoşunları Təbriz istiqamətində hücumu genişləndirdilər. 13 oktyabrda Təbriz şəhəri rusların əlinə keçdi. Rus qoşunlarının bu qələbəsini görən İran hökuməti danışıqlara başlamaq arzusunda olduğunu Rusiya tərəfinə bildirdi [9, s.81-82].

Rəsmi olaraq danışıqlar 6 noyabr 1827-ci ildə başlandı. Danışıqlar Dehqarqan kəndində 10 noyabr gündüz saat 12-də başlandı. Rusiya nümayəndə heyətinə general İ.F.Paskeviç, A.S.Qriboyedov, A.M.Obrezkov, A.K.Amburger, N.D.Kiselyov və tərcüməçilər A.B.Bakıxanov və Rusiya Xarici İşlər Nazirliyinin kollegiya üzvü Q.M.Vlanqalı daxil idilər. İran tərəfindən vəliəhd Abbas Mirzə, qaimməqam Fərrahani, bəylərbəyi Fətəlixan, katib Mirzə Məhəmməd Əli və fransız dili tərcüməçisi Mirzə Məsud danışıqlarda iştirak edirdi. Qraf Paskeviç aşağıdakı şərtləri qoymuşdu: 1) İrəvan və Naxçıvan

xanlıqlarının Rusiyaya güzəşt edilməsi, 2) Talış xanlığından İran qoşunlarının çıxarılması, 3) 15 kurur (təxminən 30 milyon rus rublu) miqdarında təzminat verilməsi.

Qraf Paskeviçin belə bir şərti də vardı ki, əgər İran tərəfi bu pulu verməkdən imtina etsə, onda Rusiya tərəfi Azərbaycan əyalətini–Təbrizlə birlikdə–Cənubi Azərbaycan xanlıqlarının hamısını Rusiya ərazisinə birləşdirəcək. İki iclasın nəticələri haqqında məlumat İrana bildirildi. 26 noyabrda İran tərəfinin təklifləri dinlənildi. İran şahı Rusiyanın tələbləri ilə razılaşırdı, amma təzminatın 10 kurur olmasını istəyirdi [3, s.63; 12].

Konfransın 4-cü və 5-ci iclası (29 noyabr, 9 dekabr) sakit keçdi. Burada müzakirə edilən o qədər də vacib məsələlər olmadığı üçün mübahisə yaratmırdı. Ancaq kapitan Volxovskinin gətirdiyi xəbər yenə də münasibətləri kəskinləşdirdi. Onun məlumatına görə, İran tərəfi belə qərara alır ki, əgər Rusiya qoşunları Cənubi Azərbaycandan çıxarılarsa, 5 kurur təzminat ödəniləcək. Qalan təzminat hissə-hissə ödəniləcək. Bu xəbər Abbas Mirzəni çox narahat etdi. Çünki hərbi əməliyyatlar yenidən başlayacaqdı. Narazılıqlar yanvarın 7-də danışıqların kəsilməsinə gətirib çıxardı. Rus qoşunları yenidən hücuma keçməklə İrana təzyiqi gücləndirdilər. Yanvarın 28-də Urmiya, fevralın 8-də Ərdəbil tutuldu [5]. Rus qoşunları Miyanəyə gəlib çatdılar. Ucan qalasına çatmamış İngiltərənin Tehrandakı səlahiyyətli səfiri Makdonald xəbər gətirdi ki, şah şərtlərə razıdır.

Miyanədən 33 kilometr şimal-qərbdə olan Türkmənçay kəndi sülh danışıqları üçün seçildi. Fevralın 6-da rus diplomatik korpusu da gəlib buraya çıxdı. İran tərəfindən Mənuçöhr xan və Mirzə Əbülhəsən xan da səlahiyyətli nümayəndələr kimi nümayəndə heyətinə daxil edildilər. Adı çəkilən Mənuçöhr xan əslən erməni və yəhudi qarışıqlı olub, bir vaxtlar İrana əsir gətirilsə də danışıqlarda şahın vəziri kimi iştirak edirdi. Familyası Yenikolopov olan bu şəxs Azərbaycana İran ermənilərinin köçürülməsində əlahiddə işlər görüb.

Sayca 7-ci iclas 10 fevrala təyin edildi. Rusiya tərəfi konfransın materiallarının işini Qriboyedova tapşırdı [9, s.109].

1828-ci il fevralın 9-dan 10-na keçən gecə (hicri tarixlə 1243-cü il şaban ayının 5-də) saat 12.00-da Abbas Mirzənin münəccimi tərəfindən müəyyən edilmiş vaxtda Türkmənçay müqaviləsi imzalandı. Müqavilənin orijinalına qraf İ.Paskeviç və A.Obrezkov qol çəkmişlər. Bu müqavilə imzalandıqda rus toplarından 101 yaylım atəşi açıldı. Müqavilə 16 maddədən ibarət idi [12].

Tbilisidə Milli Tarix Arxivində saxlanılan sənədləri araşdırarkən aydın oldu ki, bu sənədlərdən istifadə edərək çox məsələlərə aydınlıq gətirmək olar. Arxivdə 84 vərəqlik bir iş yenə bu müqaviləyə aiddir [14]. Digər maraqlı sənədlər də vardır.

Rusiya diplomatı A.S.Qriboyedovun İrandakı diplomatik fəlaiyyəti baş komandanlar A.Yermolov və İ.Paskeviç tərəfindən yüksək qiymətləndirilmişdir. 1828-ci il martın 16-da Peterburqda, Qış sarayında A.S.Qriboyedov üçün böyük qəbul təşkil edildi. Rusiya çarı özü bu qəbulda iştirak etdi. A.S.Qriboyedov mülki müşavir rütbəsi, II dərəcəli Müqəddəs Anna ordeni və qraf Paskeviçin xahiş etdiyi kimi 4000 çervon məbləğində pulla mükafatlandırıldı. A.S.Qriboyedovun Rusia çarı tərəfindən qəbul edildiyi gün İranla müharibənin qurtarması şərəfinə "İran müharibəsi uğrunda" medalı təsis edildi və rusiyalılardan birinci olaraq A.S.Qriboyedov bu medalın kavaleri oldu [2, s.59].

A.S.Qriboyedovun yol gündəliyindən məlum olur ki, o, 12 may – 1 iyul 1827-ci il tarixdə İrəvan yürüşündə iştirak edən Rusiya qoşunlarının içində olub. O, 22 iyunda Sədərəkdə, 23 iyunda Şərur dağlarında və Arpaçayında, 25 iyunda Xok kəndində, 26 iyunda isə Naxçıvana gəlib və Xan sarayında yerləşib [8, s. 439-440]. Həmin ilin 28 iyununda, sübhçağı Naxçıvandan Tiflisdə yaşayan P.N.Axverdovaya məktub yazıb. Qriboyedov bu məktubunda Axverdovların kürəkəni N.N.Muravyovdan, onun Abbasabad qalasının tutulması üçün gördüyü işlərdən və digər məsələlərdən söhbət açıb. Hətta temperaturun 47 dərəcə olduğunu da qeyd edib. Məktub fransız dilində yazılıb [8, s. 543-544]. 7 iyul 1827-ci ildə Qriboyedov yenə də fransız dilində Praskovya Nikolayevna Axverdovaya məktub yazıb. Bu məktubun əvvəlində qeyd edilib: 3 iyul 1827. Abbasabad qalasının divarları altındakı Baş mənzil.

O, bu məktubunda qalanın yaxınlığına göndərilən 50 nəfər kazakın olduğu qalanın divarlarına yaxın bir yerə atını sürməsindən, Rusiya qoşunları ilə qalanın mühasirəyə alınmasından söhbət açır. Qeyd edir ki, səhər saat 10-na kimi başımıza güllələr yağdırırdılar. Sonra baş komandanın əmrinə görə 2 ulan, 2 kazak və 1 draqun polku 22 yüngül artilleriya silahları ilə ciddi hərəkətə keçdilər. Buradakı hərbi istehkamları və gedişləri qələmə alan Qriboyedov Abbasabad qalasını və ətrafının təbii

mənzərəsinə maraqlı dillə təsvir edir. Ətrafı dövrələyən qayaları Pompey qayaları adlandıraraq dağları təbiətin möcüzəsi adlandırır və s. Daha sonra yazır ki, üç gündür ki, Abbasabad qalasının ətrafında saldığımız düşərgədəyik. Açdıqları tranşeya ilə generalın arxasınca gedərək orada nələr baş verdiyini izləməsindən də söhbət açır [8, s. 543-546].

A.S.Qriboyedov P.N.Axverdovaya fransız dilində olan digər məktubu Şahbuz dağlarında olan Qarababadan yazıb. Məktubun əvvəlində qeyd belədir: 15-19 iyul 1827. Qarababa. Məktub kiçik məzmunludur. O, qeyd edir ki, iyunun 5-dəki işlərdən və Abbasabad qalasının alınması bizim xoşbəxt günlərimiz sayıla bilər. İsti, dözülməz hava şəraitinə baxmayaraq Mazaroviçin missiyası öz işini davam etdirir və s. [6, s.546].O,Abbasabadda olarkən P.N.Axverdovaya yazırdı:”Mən istərdim ki,siz bir rəssam kimi hər şeyi,xüsusən döyüşün getdiyi gözəl düzənliyi görəsiniz.Burada bizim dörd yanımızı təbii gözəlliyi ilə insanı heyran edən sıra dağlar əhatə edir.Pompey qayası ildırımın vurub külə döndərdiyi nəhəng bir ağacın gövdəsi kimi göylərə baş vurur.Bu , bizim Qarabağ sərhədi istiqamətindədir [8, s.42].

A.S.Qriboyedovun İ.F.Paskeviçə fransız dilində 26 iyul 1827-ci ildə Abbasabad qalasından yazdığı məktubda o, İran tərəfi ilə Qaraziyəddin kəndində apardığı danışıqlar haqqında baş komandan qraf Paskeviçə məlumat verir və bəzi məsələlərdə onun əmrini gözlədiyini yazır. 30 iyul 1827-ci il tarixdə Qarababa kəndinin yaxınlığındakı düşərgədən Xarici İşlər Kollegiyasının saray müşaviri A.S.Qriboyedovun Qafqaz Əlahiddə korpusunun komandiri, infanteriya generalı, general-adyutant və kavaler Paskeviçə yazdığı rəsmi məktubda Naxçıvan hərb tarixi ilə bağlı məsələlər qələmə alınıb. Məktub geniş yazılıb. Burada A.S.Qriboyedovun Abbas Mirzə və digər İran rəsmi ilə görüşlərində aparılan söhbətlərin məzmunu haqqında rəsmi məlumat vardır [8,s. 546-547]. 14 avqust 1828-ci ildə diplomat Qriboyedovun P.N.Axverdovaya Qarababadan fransızca yazdığı məktubda özünün vəziyyətindən, yayın çox isti keçməsindən, Salvartı yaylağına və oradakı dəmirli suya getməsindən, orada Rayevski ilə görüşməsindən söhbət açır [8, s.562].

1 oktyabr 1828-ci ildə, Culfanın əks tərəfində olan Arazın ətrafındakı keçiddən A.S.Qriboyedovun knyaz A.Q.Çavçavadzeyə yazdığı məktubunda Naxçıvana köçən Mərənd xanlarından söhbvət açır. Bu məktubda o, əsasən Türkmənçay müqaviləsinin XIV maddəsinin necə yerinə yetirilməsindən bəhs edir [8, s.589].

1 oktyabr 1828-ci ildə A.S.Qriboyedovun yenə həmin yerdən qraf İ.F.Paskeviçə yazdığı məktubda ermənilərin İrandan Naxçıvanın Nehrəm, Qaraxanbəyli, Tumbul, Qazançı, Bənəniyar, Ərəzin və Küznüt, Yarımca kəndlərinə köçürülməsindən məlumat verir. Onun yazdığı məktubda yeni köçürülən ermənilərin sayı da göstərilib. Həmin tarixdə bütün əyalətə köçürülən ermənilərin sayı, şəhərlərdən başqa, 943 nəfər olmuşdur. Naxçıvan şəhərinə isə 285 erməni ailəsi köçürülüb. Ermənilər yaratdığı sıxlığı və çətinlikləri qələmə alan diplomat Naxçıvan xanlarından Nəzərəli xana, Şeyxəli xana və Ehsan xana ehtiram göstərməyin, pul mükafatı və s. təqdim etməyin zəruriliyindən söhbət açır [8, s.611-614].

***Nəticə***. Bu yazılanlardan belə nəticəyə gəlmək olar ki, Naxçıvan və onun tarixi A.S.Qriboyedovun diplomatik fəaliyyətində xüsusi yer tutmuşdur. 1829-cu ilin yanvarında diplomat Qriboyedov Tehrana gəlir. O, burada yenə də əsir düşən rus əsgərlərinin vətənə qayıtmaları üçün ciddi cəhdlə işə girişir. Amma Tehranda bəzi qaragüruh adamlar Rusiya səfirliyinə hücum edirlər. A.S.Qriboyedovu və diplomatik missiyanın üzvlərini vəhşicəsinə öldürürlər. O illərdə yazılan məlumatlara görə 54 adam bu hücum nəticəsində həlak olub. May ayının 1-də vəziri-muxtar Qriboyedovun cənazəsi Naxçıvana gətirilir. Elə həmin gün diplomatın cənazəsinin Araz çayının şimalında qarşılanma mərasimi oldu.Naxçıvanlılar diplomatın cənazəsini ehtiramla qarşıladılar.Ayin ikisində yas mərasimi davam etdirildi. Mayın 3-də şair-diplomat Qriboyedovun cənazəsi Naxçıvandan Tiflisə yola salındı [7, s.699].

## ƏDƏBİYYAT

1. ASE (Azərbaycan Sovet Ensiklopediyası), III cild, Bakı: 1979, 599 s.
2. A.S.Qriboedov: şair-diplomat. Naxçıvan: 2018, 120 s.
3. Enikolopov I.K. A.S.Qriboyedovun həyatı. Bakı: Azərnəşr, 1946, 100 s.
4. Əliyev F.M., Əliyev M.M. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, 106 s; təkrar nəşr- Bakı:Şərq-Qərb, 2007,120 s.

5. Əliyarov S., Şükürov K. Türkmənçay müqaviləsi. "Vətən səsi" qəzeti, 1990, 30 may.
6. Sadıqov M. A.S.Qriboyedov və Azərbaycan.//"Ulduz"jurnalı, 1969, №1.
7. Süleymanov M.Türkmənçay müqaviləsi.Bakı:2015,744s.
8. Грибоедов А.С. Сочинения. Москва: 1998, 751 с.
9. Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области//История Азербайджана по документам и публикациям. Баку:Элм,1990, 384 с.
10. Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург: 1833, 263 с.
11. Ениколопов. Грибоедов и Восток. Баку: 1998, 184с.
12. НАГ (Национальный Архив Грузии): Ф. 11, оп. 1, д. 11142л.
13. НАГ: Ф. 11, оп.1, д. 9, 1828 г (текст в копии)
14. НАГ: Ф. 11, д. 10, 84л.

**МУСА РАГИМОГЛЫ (КУЛИЕВ)**
*Нахчыванское отделение НАНА, доктор философских наук*

## ИССЛЕДОВАНИЯ, ПРОВЕДЕННЫЕ С ДНЕВНИКАМИ И ПИСЬМАМИ НАПИСАННЫМИ А.С.ГРИБОЕДОВЫМ В СВЯЗИ С ИСТОРИЕЙ НАХЧЫВАНА

В статье рассказывается о дипломатической деятельности русского писателя, драматурга, дипломата и общественно- политического деятеля А.С. Грибоедова. Начиная с1819 года он по линии Петербург-Тегеран прибыл в Иран и в сентябре того же года во время возвращении из Ирана остановился в Нахчыване, деревне Казанчы, которая расположена в окрестности Алинджачая, оттуда написал письмо своему начальнику Мазаровичу. В статье также подчеркивается, что А.Грибоедов Бакихановым участвовали в написании и подписании Туркменчайского договора.

*Ключевые слова*: А.С.Грибоедов, А.А.Вакыханов, Петербург, Нахчыван, Хачадаг, деревня Казанчы, крепость Аббасабад, Тавриз.

**MUSA RAHİMOGLU (GULIYEV)**
*Nakhchivan Department of ANAS, Doctor of Philosophy in History*

## INVESTIGATIONS ON NAKHCHIVAN HISTORY IN THE DIARIES AND LETTERS WRITTEN BY A.S.GRIBOYEDOV

The article deals with the Russian writer, dramaturge, diplomat, political and public fugure A.S.Griboyedov's letters to his chief Mazarovich and others beginning from 1819, that he wrote on his way for diplomatic mission to Iran via Petersburg-Mozdok-Tiflis-Iravan-Nakhchivan-Tabriz-Tehran route, and during his return from Iran in September of the same year, staying in Nakhchivan, in Gazanji village on the the river Alinja. The paper speaks about A.S.Griboyedov's attendance together with A.Bakikhanov in the signing ceremony of Turkmenchay treaty, which was prepared by him.

*Keywords*: A.S.Griboyedov, A.Bakikhanov, Petersburg, Nakhchivan, Hacha dagh, Gazanchi village, Abbasabad fortress, Tabriz.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçi: Akademik İsmayıl Hacıyev.*

**UOT 94(479.24)**

**HACI HƏSƏNOV**
*AMEA A.A.Bakixanov adınaTarix İnstitutu*
**hacihasanov@mail.ru**

# XIX ƏSRİN BİRİNCİ RÜBÜNDƏ QARABAĞ XANLIĞINDA SİYASİ PROSESLƏRƏ DAİR

*Mövcud məqalədə mötəbər qaynaqlara söykənilməklə 1805-1822-ci illərdə, yəni Qarabağ xanlığının Rusiya imperiyasına ilhaq edilməsini bəyan etmiş 1805-ci il 14 may tarixli Kürəkçay müqaviləsinin imzalanmasından ta öz təhəddüdlərini kobud şəkildə pozan Rusiya imperiyası tərəfindən bu xanlığın ləğv edilməsindən Azərbaycanın bu əzəli tarixi bölgəsində baş vermiş bir sıra proseslərə, onların bəzi məqamlarına nəzər salınır. Müəllif xanlığın durumu, yeni müstəmləkəçi orqanların apardıqları qaba siyasət, bu siyasətin məqsədləri, bu müstəmləkəçi işğalın nəticələrinə söykənərək əsarət rejiminin bölgədə yaratdığı durum, onun nəticələri haqqında bir sıra faktları ortaya qoyur, yeni rejimin soyğunçu və xəbis mahiyyətini açıb göstərməyə çalışır.*

*Açar sözlər*: Qarabağ, Azərbaycan, Kürəkçay, işğal, müstəmləkə, qarət, təzminat.

***Giriş***. Mövcud məqalədə əsas elmi məqsəd Qarabağ xanlığının işğal edilərək Rusiya imperiyasına ilhaq olunmasını rəsmiləşdirmiş Kürəkçay müqaviləsinin imzalanmasından öz rəsmi siyasi təhəddüdlərinə xaincəsinə xilaf çıxmış Rusiya imperiyası tərəfindən bu xanlığın ləğv olunduğu vaxtadək xanlıqda getmiş bir sıra mühüm proseslərə nəzər salmaq, onları dəyərləndirmək, işğalın gedişi və nəticələri haqqında bir sıra əvvəlki və çağdaş tarixşünaslıq mövqe və iddialarına fərqli münasibətin bildirilməsidir.

Araşdırma XIX əsrin əvvəllərindən 30-cu illərin ortalarına qədər olan dövrü əhatə edir. Müəllif bu məqalədə mötəbər qaynaqların obyektiv məlumatlarını elmi iddiaların təməlini qoymaq prinsipini rəhbər tutub.

***Əsas hissə***. XIX əsrin ilk sülsündə Quzey Azərbaycanın Rusiya tərkibinə daxil olması, (və ya "könüllü surətdə daxil olması"), bəzi xanlıqların "dinc yolla, müharibə aparmadan" Rusiya himayəsinə keçməsi (Qarabağ, Şəki, Şirvan və s.), hətta bu cür daxilolmanın "mütərəqqi əhəmiyyəti" haqqında keçmiş sovet, elə indiki bəzi postsovet məkanlarının, ilk növbədə də Rusiya Federasiyasının tarixşünaslığında kifayət qədər tarixi gerçəkliyin saxtalaşdırılmasından başqa heç bir şey olmayan saxta "elmi" fərziyyələr kifayət qədər olmuş və olmaqdadır (Bu yerdə Gülüstan müqaviləsinin 150 illik yubileyinin Azərbaycan SSR-də dövlət səviyyəsində "Rusiya tərkibinə könüllü daxilolmanın 150 illik bayram kimi qeyd edilməsini, bu ilhaqın "mütərəqqi nəticələri" barədə böyükhəcmli kitabın nəşrini yada salmaq, düşünürük ki, kifayətdir).

Bu saxta məntiq baxımından Rusiyaya ilk "könüllü" daxil olan Qarabağ xanlığı olmuşdur. Bəzi faktlara nəzər salaq və daxilolmanın "könüllü" dərəcəsini müəyyənləşdirməyə çalışaq:

- əvvəla heç bir zaman heç bir yerdə mütləq hakimiyyətə malik olan hökmdar öz hakimiyyətindən öz xoşu ilə imtina etməyib. Azərbaycan xanları da – İbrahimxəlil Qarabağlı, Səlim Şəkili, Mustafa Şirvanlı, Mirmustafa Lənkəranlı və b. xanlar da belə hakimi – mütləq idilər. Axı niyə onlar bu statusdan əl çəkməli idilər. Düzdür, bu hakimiyyəti bu və ya digər yolla qoruyub saxlamaq məqsədi ilə dildə, sözdə özgə hökmdarın təbəəliyini qəbul etmək, ondan kömək istəmək hallarını tam istisna etmək olmaz. Konkrüt olaraq Qarabağ xanlığına gəldikdə isə bu "daxilolma" könüllü olsa idi həmin hadisə Gəncə qalasının 1804-cü ilin ilk günlərində Sisianov tərəfindən işğalından dərhal sonra baş verərdi təxminən ilyarım sonra yox, İbrahimxəlil hətta bu hadisədən sonra Gəncə ərazilərinə silahlı-soyğunçu yürüş-səfərlər etməzdi; ilyarım Sisianovdan təhqirlər və hədələr eşitməzdi.

Bu, könüllü olsa idi, İbrahimxəlil xanın doğmaca oğlu Əbülfət ağa əvvəldən axıradək Abbas Mirzənin qoşunlarının tərkibində tanınmış sərkərdə kimi doğma torpaqların qorunması naminə işğalçılarla çırpışmazdı.

İbrahimxəlil xan Qarabağ əsilzadələrinin qəti "yox" qərarına, Qacar qohumlarının hədə və vədlərinə baxmayaraq Sisianovun təzyiqinə məğlub olaraq "Kürəkçay"ı imzalamağa məcbur olanda qo-

humu Cavad xanın aqibətini, öz varisləri içərisindəki dartışmaları, qüvvələrin son dərəcə qeyri-bərabərliyini, özünün kifayət qədər qoca olduğunu, təbii ki, nəzərə almışdı. Lakin bunlarla yanaşı istər o özü Kürəkçayadək və Kürəkçaydan sonra, istərsə də onun varisi, sonuncu Qarabağ xanı Mehdiqulu heç vaxt Abbas Mirzə və bütövlükdə Qacar rəhbərliyi ilə əlaqələri tam kəsməmişdilər. Elə 1822-ci ildə Mehdiqulu xanı mühacirətə gedərkən məhz Qacarların himayəsinə sığınması təsadüfi deyildi.

Sonuncu Qarabağ xanı özünün təxminən onaltıillik hakimiyyəti dövründə həmişə Rusiya hakimiyyət orqanlarında şübhələr oyatmış, yeni müstəmləkəçilərin ciddi narazıqlarına səbəb olan addımlar atmış, rusiyalı ağaların ondan umduqları gözləntiləri doğrultmamışdı. Məsələn, 1810-cu il sentyabrın 10-da Qafqazdakı Rusiya qoşunlarının baş komandanı, əslində bütün Qafqazın idarəçiliyinin əsl başçısı general Tormasov Mehdiqulu xana 921-saylı məktubunda xandan narazılığını, xanın imperatorun ümidlərini doğrultmadığını açıqdan-açığa bildirirdi: "... deməliyəm ki, bu yaz siz alihəzrət özünüzü İmperator Əlahəzrətlərinin qulluğuna o qədər zəif həsr etdiniz ki, mən sizə öz öhdəliklərinizi xatırlatmağa məcburam. ... Mötəbər şəxslərdən dəfələrlə təəssüflə eşitmişəm ki, siz alihəzrət deyibsiniz Hökmdar İmperator sizdən təzminat alır və Rusiya qoşunları da elə buna görə Qarabağı müdafiə edir...." (1).

Elə həmin günlərdə general-mayor Nebolsin komandan Tormasova şikayət edirdi ki, Mehdiqulu xan Rusiya qoşunlarını ot-ələflə təchizatı işini aşıqdan-açığa pozur (2). Tormasovun xandan narazılıqları bütün 1811-ci il ərzində də dəfələrlə bəyan edilmişdi (3).

Elə Kürəkçay müqaviləsinə əsasən Rusiya xəzinəsinə Qarabağ xanlığı tərəfindən ödənilməli olan təzminat üzrə "borcların" əmələ gəlib sürətlə "şişməsi" də müstəmləkəçilərə passiv müqavimətin təzahürlərindən biri idi. 1812-ci il iyunun 5-də general Kotlyarevski Ağoğlandakı düşərgəsindən baş komandan general Rtişşevə ünvanladığı 303 saylı raportunda bildirirdi ki, "sabiq Qarabağ hakimi İbrahim xanla bağlanılmış traktata görə, o, Qarabağ xanlığından (Rusiya] xəzinəsinə [hər il] 8 min çervon təzminat ödəməli idi; cari ilədək həmin təzminat üzrə 17 min çervon borc yığılıb..." (4).

Doğrusu, hələ Paskeviçin baş komandanlığı dövründə sonuncunun xahişi ilə I Aleksandr Qarabağ xanlığından təzminatın alınmasının 6 illiyə təxirə salınmasına icazə verilmişdir (5). Amma həmin müddətin başa çatmasına baxmayaraq vəziyyət kökündən dəyişmişdi, durum elə idi ki, 17 min çervonluq təzminat qalığı bir yana, hətta hər hansı vergi yığımı mümkünsüz hala gəlmişdi. Kotlyarevski həmin raportunda yazırdı ki, "Qarabağ son illərdə ... 5 min ailə, demək olar ki, bütün əhalisinin yarısını itirib; qalanları da elə müflisləşmişdi ki, general təzminat yığılmasını daha 5, heç olmasa 3 illiyə təxirə salınmasını rica edirdi. General yazırdı ki, əks halda qalan sakinlər də hər şeyi itirəcək, xaricə qaçacaqlar və onda "Qarabağ tamamilə boş bir çöl olaraq qalacaqdır" (6).

Faktiki olaraq vergilərin yığılmaması, sakinlərin qaçıb dağılması da müstəmləkəçilərə qarşı passiv mübarizə və müqavimətin geniş yayılmış bir forması idi.

Yenə həmin Kotlyarevski özünün Rtişşevə növbəti raportlarından birində - 1812-ci il sentyabrın 30-da yazırdı ki, baş komandanın göstərişinə əsasən Qarabağın vəziyyəti barədə toplanmış məlumatlara görə Kürəkçay müqaviləsi imzalanan dövrdə Qarabağda 10000 ailə, 1808-ci ildə 7474 ailə yaşamışdır. 1806-1812-ci illərdə buradan 4845 ailə ya Qacar qoşunlarına qoşulub getmiş və ya özləri qaçmışdılar. 1812-ci ildə bu xanlıqda 3080 ailə qalmışdı (7).

Müstımləkəçilərin bütün cəhdlərinə baxmayaraq müharibələr dövründə nə kütləvi mühacirətin qarşısını almaq mümkün olurdu, nə də təzminatı bütövlüklə toplamaq. Mötəbər qaynaqların məlumatına görə, 1806-1816-cı illərdə çar xəzinəsinə Mehdiqulu xan 30.808 çervon və 1.5 rubl gümüş pul, habelə 11683 çervon və 36,5 gümüş qəpiklik ərzaq; Xanlar ağa 1376 çervon və 398 çervon, 2,20 gümüş rublluq ərzaq; iki qardaş birlikdə cəmisi 44266 çervon və 61 gümüş qəpik ödəmişdilər (8).

Bir neçə ay sonra, 1817-ci ilin martında Qafqazın yeni ağası – məşhur general Yermolov çara raportunda yazırdı ki, Qarabağ xanlığı 1806-1817-ci illərdə çar xəzinəsinə ödəməli olduğu 88000 çervon təzminatın ancaq 53128 çervonun ödəyib və 34872 çervon "borcu" var (9). Yermolov müharibə dövründə Qarabağın məruz qaldığı bəlaları nəzərə alaraq bu "borcu" bağışlamağı çardan xahiş edirdi. Əslində general bu borcun yığılmasının qeyri-mümkünlüyünü yaxşı başa düşdüyündən bu addımı atırdı: 1805-1812-ci illər ərzində xanlığın əhaisi 3 dəfə azalmış, 10000 ailədən 3080 ailəyə enmişdi (10). Təsadüfi deyildi ki, I Aleksandr dörd aydan sonra – iyulun 4-də generalın bu xahişini nəzərə alıb Qarabağ xanlığının 34832 çervonluq təzminat "borcu"nu "silmək" barədə imperiyanın ma-

liyyə nazirinə hökm verdi (11). İş o həddə çatmışdı ki, Qarabağın nəinki imtiyazlı təbəqələrinin nümayəndələri – bəylər, ağalar, sultanlar və b. doğma diyarı tərk edirdilər, hətta formal olaraq burada xanlığın başında duran xan nəslinin nümayəndələri belə Rusiyanın müstəmləkəçi əsarətindən yaxa qurtarmağın yeganə yolunu mühacirətdə görürdülər. Məsələn, vaxtilə öz yalançı donosları ilə babasının Lisaneviçin başçılığı altında öldürülməsi ərəfəsində rus hakimiyyət orqanlarının əlinə çoxlu dəstəvuz vermiş Cəfərqulu ağa 1812-ci ildə (12), onun əmisi Əbülfəz ağa çox-çox əvvəl Qacarların himayəsi və müdafiəsi altında sığınmışdılar.

Qarabağın xristian alban məlikləri xanlığın həyatında həmişə olduğu kimi, XVIII əsrin sonlarında da təxribatçı – xəyanətkar hərəkət xəttini davam elətdirir, dövlətin siyasi sabitliyinin pozulmasına can atırdılar. Məsələn, təxminən 1798-ci ildə Gülüstan məliyi Firudin (qaynaqda – Fridon – H.H.) rus çarı I Pavelə (1796-1801) yazırdı ki, "belə 20 il əvvəl qraf Suvorov Həştərxanda olarkən mənim atam Bəylər İosifə yazmışdı və sizin rəhmətlik ananızın adından təklif etmişdi ki, atam təbəələri ilə birlikdə Rusiya təbəəliyinə keçmək istəsə qəbul olunacaqdır. Atam cavab vermişdi ki, müzəffər Rusiya ordusu buraya gələndə o, bu ordunu öz hesabına saxlayacaq və təbəələri ilə birlikdə çox həvəslə Rusiyaya daxil olacaqdır" (13).

Sözün doğrusu bir neçə kənddən ibarət məlikliyin rus ekspedisiya korpusunu necə "saxlayacağı" böyük sual altında olsa da hər iki tərəfin təcavüzkar-təxribatçı mövqeləri göz qabağındadır.

Çarizmin əzəli Azərbaycan torpaqlarına qarşı təcavüzkar-müstəmləkəçi niyyətlərini, habelə xristian-alban məliklərinin satqın mövqelərini ilk baxışdanca aşkar edən qaynaqlar, özü də çar məmurlarının əlindən "çıxmış" qaynaqlar saysız-hesabsızdır.

Elə həmin məlik Firudin Bəylərov və onun dayısı (əmisi? – H.H.) Vərəndə məliyi Cəmşid Şahnəzərovun (Rusiyanın "Mosfilm" kinostudiyasının indiki baş direktoru, "Şuşa mənim ulu babalarımın torpağı olub" deyən, amma Qarabağın Azərbaycan torpağı olduğunu etiraf edən Koren Şahnəzərovun ulu babası – H.H.) habelə yüzbaşı Petros Madatovun I Pavelə ünvanlayıb onların köməyinə 12 minlik rus qoşununun göndərilməsini xahiş etdikləri müraciəti (14), I Pavelin Qarabağın qaçqın məliklərinə gürcü çarlarının ixtiyarında olan torpaqlarda yerləşdirilmələri barəsindəki 2 və 3 iyun 1799-cu il fərmanlarına (15), Kartli-Kaxetiya çarı Georginin Loru qalası və mahalının məlik Cümşüdə verilməsi haqqındakı 29 fevral 1800-cü il tarixli fərmanını (16) və b.-na nəzər salmaq kifayətdir.

Sovet tarixşünaslığında, elə indiki bəzi ölkələrin tarixşünaslığında (buna 2017-ci ildə Qarsda keçirilən beynəlxalq konfransda Moskvanın ciddi elmi mərkəzlərinin birini təmsil edən tarixçinin, - Anadolulu qardaşlarımız bu zatı beynəlxalq konfransın rəyasət heyətində əyləşdirib ona plenar iclasda çıxış etmək şərəfi əta etmişdilər, - çıxışından sonra bir daha əmin oldum – H.H.) Şimali Azərbaycanın, o cümlədən də Qarabağ xanlığının Rusiya tərkibinə "daxil olmasından", bunun "mütərəqqi nəticələrindən" dəm vurur və bu mövqedən çəkilmək istəmirlər. Aşağıda göstərəcəyimiz bir neçə tarixi sənəddə, Rusiyanın rəsmi dairələrinin hələ XIX əsrdə çap etdikləri mötəbər sənədlərdə bu "daxilolma", "mütərəqqi nəticələr"in arxasında əslində nəyin dayandığını əyani surətdə göstərir:

Sisianovun İbrahim xana 1804-cü il 8 yanvar tarixli məktubu. – Gəncə:

"Çox təəccüblənirəm ki, mən artıq bir aydan çoxdur ki, böyük şöhrətli və basılmaz Rusiya qoşunları ilə buradayam, elə oğlu Hüseynqulu xan və 1500 adamla birlikdə Rusiya süngüsündən həlak olmuş Cavad xan Gəncəlinin inadkarlığı və dəliqanlığı üzündən qalanın hücumla alınmasından artıq 6 gün keçib, siz belə yaxın qonşuluqda olduğunuz və güclünün himayəsini axtarmalı olduğunuz halda, mənə təbrik göndərmirsiniz. Cavad xanın vüqarlılığı qanla yuyuldu... Mən ümid edirəm ki, ona oxşamağa çalışmayacaq və belə bir ümumi qaydaya əməl edəcəksiniz ki, zəif güclüyə ram olur və onunla bəhsə girməyi arzulamır...

Məktubun sonunda Sisianov Cəmşid məliyin İbrahim xanın əlində olan oğlu Bəhramın və nəvəsi Asaturu ruslara təhvil verməyi, Gəncədən aparılmış mal-qaranı qaytarmağı, xanlığın Rusiyaya daxil edilməsi şərtlərini müzakirə etmək üçün nümayəndə və ya xan uşağının göndərilməsini tələb edirdi" (17).

Təxminən bir ay sonra, fevralı 4-də Sisianov xana məktubunda İbrahim xanın onun yanına Mirzə Məmmədəli vasitəsi ilə möhürsüz məktub göndərilməsindən, Qarabağ hökmdarının Rusiyaya tabe olmağa tələsmədiyindən qəzəblənərək yazırdı: "sənin şifahi ismarıcını da, Mirzə Məmmədəliyə verdiyiniz möhürsüz və imzasız tövsiyyələrinizi qəbul etmirəm və siz belə Persiya siyasətinizi Cavad

xan kimi öz qanınızla ödəyəcəksiniz.... Dünyada heç eşidilibmi ki, milçək qartalla danışıqlar aparsın; güclüyə əmr etmək [hüququ] xüsusiyyəti məxsusdur, zəif isə güclüyə itaət etmək üçün doğulubdur...

Sizi təbəəliyə (o mənə lazım deyil) yox, tövbəyə çağırıram və sağ və dinc qalmaq istəyirsinizsə bu məktubda tələb etdiyimi yerinə yetirin..." (18).

Burada Qarabağdan ildə 10 min çervon (19) təzminat tələb edən Sisianov payızda iştahını bir qədər "bassa"da (8 min çervona razılaşırdı) (20) başqa ağır tələblərindən imtina etmir, xanı hədələməkdə davam edirdi.

Erməni siyasətbazları və onların havadarlarının, xüsusən də Rusiyadan olan havadarlarının "Qarabağ Ermənistandır" kimi saxta və çox geniş yayılmış iddialarına cavab olaraq bu xanlığın Rusiyaya ilhaqını rəsmiləşdirmiş 14 may 1805-ci il tarixli Kürəkçay müqaviləsinə, onun ətrafında getmiş prosesləri əks etdirən sənədlərə nəzər salmaq kifayətdir. Əvvəla, bu müqavilə Azərbaycan torpağında, Gəncədən 3 ağac aralı Kürəkçay çayının sahilində imzalanıb (21); dübarə, onu Sisianovla birlikdə imzalayan "Şuşalı və Qarabağlı İbrahim xan" idi, hansısa Vartazart yox (22); saniyən, Sisianovun özü tərəfindən "Azərbaycanın (Güney Azərbaycanın – H.H.), oradan da İranın darvazası" (23) adlandırılmış Qarabağın ilhaqından uçmağa qanadı olmayan Sisianov bu müqaviləyə görə qarşı tərəfdən mükafatlandırılmasını Rusiya çarı I Aleksandrdan (1801-1825) xahiş etdiyi adamlar sırasında bir nəfər də qeyri-azərbaycanlı, qeyri-türk yox idi: Sisianov çara 22 may 1805-ci il tarixli raportuna əsasən Qarabağ hökmdarı İbrahimxəlil xan general-leytenant rütbəsi, onun böyük oğlu və müqavilədə hakimiyyət varisi adlandırılmış Məhəmmədhəsən ağa general-mayor rütbəsi, habelə almazlarla bol-bol bəzədilmiş, üzərində rus və "Persiya" dilində "Sədaqətə görə" sözləri yazılmış medalla, ortancıl oğlu Mehdiqulu ağa general-mayor və kiçik oğlu Xanlar ağa "briqadir" (əslində polkovnik rütbəsi aldı – H.H.) rütbələri və gümüş pulla ödəniləcək əmək haqqı ilə (xan oğullarının ümumi "əmək haqqı" ildə 8405 rubl 80 qəpik təşkil edib Qarabağ xanlığının çar xəzinəsinə ödəyəcəyi təzminatdan, 8 min çervon və ya təxm. 24 min gümüş rubldan, verilməli idi) mükafatlandırılmışdılar (24). Bəs hanı Qarabağa əbədi sahiblik iddiası ilə 30 ildən bəri yüzminlərlə insanı məşəqqətlərə düçar etmiş ermənilərin babaları, əcdadları? Nəyə görə Rusiya çarı I Aleksandr 1805-ci il iyulun 8-də Sankt-Peterburqda məxsusi olaraq "İbrahim xan Qarabağlının adına verilmiş ali fərman" imzalayıb İbrahimxəlil xana Rusiya general-leytenant rütbəsi verdi və Rusiya dövləti gəlirlərindən bu rütbəyə müvafiq məvacib təyin etdi? (25).

Qarabağ xanlığının ilhaqından sonrakı tarixindəki ən qaranlıq məqamlardan biri də İbrahimxəlil xanın ailə üzvləri ilə birlikdə podpolkovnik Lisaneviçin və mayor Corayevin başçılığı altında qətlə yetirilməsi idi. XX əsr tarixşünaslığında bu qatı cinayətə və yekəbaş zabit saymazlığına bir çox hallarda, guya ki, xanın qaçaraq Qacarlara pənah apara bilməsinin qarşısının alınması məqsədi ilə yerinə yetirilməsi bəhanəsi ilə haqq qazandırmaq cəhdləri, bu cinayəti "unutdurmaq" meylləri az olmamışdır. Podpolkovnik və mayorun Rusiya general-leytenantına əl qaldırması, onu körpələrinə qədər ailə üzvləri və məiyyəti ilə birlikdə qətlə yetirilməsi əslində dövləti cinayət idi. Cəmi bir ildən bir qədər artıq müddət əvvəl təntənəli surətdə Rusiya təbəəliyinə qəbul edilmiş, özü və oğulları general rütbələri ilə təltif olunmuş, adına imperatorun adlı fərmanı əta olunmuş Qarabağ xanının bu qətlinin heç bir əsas və səbəb olmadan törədildiyini elə o vaxtdaca ən yüksək rütbəli və vəzifəli Rusiya məmurları belə etiraf etmişdilər. Qaynaq sənədlərinə müraciət edək:

Qraf Qudoviçin general-mayor Nesvetayevə 20 avqust 1806-cı il tarixli, 15 saylı tapşırığından:

"General-mayor Nebolsinin raportları ... kəşfiyyatın məlumatları əsasında general-mayor Nebolsin podpolkovnik Liseneviç və mayor Corayevin heç bir törədici səbəb olmadan İbrahim xan Şuşalıya hücum etdiklərini təsdiqləyir... ...bu hərəkət məmurların nə rütbələrinə, nə də vəzifələrinə yaraşmır, ona görə də onların üzərində f o r m a l (!!! seyrəltmə bizimdir – H.H.) istintaq keçirməyi sizə əmr edirəm ... İbrahim xandan qarət edilib götürülmüş əşyaları ... dərhal axtarıb tapıb geri qaytarmağı əmr edin" (26).

Qafqazdakı Rusiya qoşunlarının baş komandanı qraf Qudoviç 1806-cı ilin iyununda Rusiya zabit-məmurlarının Xanbağında törətdikləri qətl və qırğınları haqqındakı bu mövqeyini və həmin kütləvi cinayətin təfərrüatını 1806-cı il avqustun 21-də Rusiya imperiyası Hərbi Quru qüvvələri naziri Vyazemitinova yazdığı məktubda belə açıqlayırdı: "Mənim Gürcüstandakı qoşunların komandanı general-mayor Nesvetayevdən aldığım raportlardan aşkara çıxır ki, 17-ci yeger alayının podpolkovniki

Lisaneviç və onunla birlikdə olmuş mayor Corayev heç bir qızışdırıcı səbəb olmadan yeger dəstəsi ilə birlikdə İbrahim xan Şuşalıya hücum etmişdilər. Sonuncunun yanında (İbrahimxəlil xan – H.H.) 35 nəfər kişi və qadın qulluqçudan, habelə 1 arvadı, 3 körpə uşağından başqa heç bir "qoşun" yox imiş. O, Şuşa qalasından bu tərəfdə bağların yanında, heç bir istehkamı olmayan dağın başında olmuş və çadırdan özü heç bir atəş açmadan dəstəni qarşılamağa çıxmışdır; lakin yegerlər atəş açmağa və süngülərlə zərbələr endirməyə başlamışdılar; buradaca İbrahim xan öldürülmüş və onun yanında olan bütün əşyalar qənimət kimi hücum edənlərin əlinə keçmişdir. ... Bütün bu məlumatlar general-mayor Nebolsin tərəfindən aparılmış araşdırmalarla təsdiq olunmuşdur. ... ona görə də ... podpolkovnik Lisaneviç və mayor Corayev üzərində f o r m a l (?! – seyrəltmə bizimdir – H.H.) istintaq qurmağı əmr etdim ki, bununla İbrahim xanın qohumlarına və başqa ram olmuş xalqlara göstərilsin ki, qanunların gücü və Əla həzrəti İmperatorun ədalət məhkəməsi heç bir yerdə cinayətə yer vermir və həmişə ədalətli müdafiəni təmin edir..." (27).

Bütün bunlar necə də sonuncu Çeçenistan müharibəsində adicə dua oxuyan silahsız çeçenin ailəsi ilə birlikdə küçədə güllələnməsinə, bu cinayətə cani əsgər tərəfindən həyasızcasına "Daha bir antiterror əməliyyatı uğurla reallaşdırıldı!" deməsinə, Budanov kimi vəlisi Rusiya zabitlərinin zorakılıqlarına necə də oxşayır: tarix təkrarmı olunur?

1806-cı il sentyabrın 6-da Lisaneviç general-mayor Nesvetayevə raportunda bu cinayətə haqq qazandırmaq, həqiqəti gizlətmək üçün yazırdı ki, güya ki, İbrahimxəlil xan Xanbağına "Baba xan" və Abbas Mirzə ilə rahat əlaqə saxlamaq, Qacar qoşunlarını Qarabağa, Şuşaya dəvət etmək, onların yanına qaçmaq üçün getmiş, habelə ruslara silahlı müqavimət göstərmişdi (28). Lakin yuxarıda da göstərildiyi kimi Rusiya məmurlarının özlərinin apardıqları formal istintaq belə Lisaneviçin yalan danışdığını sübut etmişdir. Lakin maraqlı olan məsələ bu işin başqa tərəfidir: necə oldu ki, bu cinayətə rəhbərlik etmiş Lisaneviç, və onun cinayətdaşı mayor Corayev ciddi cəzalandırılmadılar. Lisaneviç isə hətta Rusiya ordusunun general-mayor rütbəsinədək yüksələrək ta 1825-ci ilədək yaşamışdır. Uzun müddət Şuşada, azərbaycanlılar içərisində yaşayaraq Azərbaycan türkcəsini yaxşı mənimsəmiş Lisaneviç 1825-ci ilin iyulunda general-mayor Qrekovla birlikdə kumık mollası Uçar Hacı tərəfindən Qərbi Dağıstanda (bəzi məlumatlara görə Çeçenistanda dağlıların azadlıq hərəkatına qarşı cəza əməliyyatlarında iştirak edərək) Gerzel aulunda cəhənnəmə vasil edilmişdir (29).

Bəzi rəvayətlərə görə, bu türk mollası bu pravoslavlğı qəbul etmiş yəhudi əsilli Rusiya generalleytenantını onun Azərbaycan türkcəsində çox pis söyüşlər söydüyünə görə xəncərlə bağırsaqlarını çölə tökərək o dünyaya "yola salmışdı".

Qarabağ tarixinin ən çox saxtalaşdırmalara və təhriflərə məruz qalmış problemlərindən biri Alban kilsəsinin statusu, onun taleyi məsələsidir ki, bu problem üzrə erməni tarixçiləri və siyasətbazlarının çirkin əməlləri bu gün də davam etməkdədir (təkcə Amaras monastırı ətrafındakı hay-küylü kampaniyanı yada salmaq kifayətdir – H.H.). Erməni qriqoryan kilsəsinin bütün cəhdlərinə baxmayaraq bu alban kilsəsinin ta XIX əsrin 30-cu illərinin ortalarınadək müstəqil qaldığına əmin olmaq üçün məşhur "Akt"lardakı bir neçə sənədə nəzər salmaq kifayətdir. "Aqvan patriarxı İzrailin" (sənədin dili olduğu kimi saxlanılıb – H.H.) Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Qudoviçə 1806-cı il 19 avqust tarixli məktubuna nəzər salaq: "1400 il əvvəl Müqəddəs Qriqorinin nəvəsi Qarabağdakı Amaras monastırına patriarxlığa xeyir-dua alandan sonra Qarabağ, Elisavetpol, Şəki və Şirvanda yaşayan xristianların hamısı, yəni A ğ v a n   v i l a y ə t i (seyrəltmə bizimdir – H.H.) onun yeparxiyası olmuşdur, - onun tam səlahiyyətinə düşmüşdür, həmin monastır üçün bu hüquq indiki vaxtadək davam etmişdir, və keçmiş Ararat patriarxları buna toxunmamış və [onların] burada heç bir işləri olmamışdır; bu yeparxiya həmişə təkcə Amaras patriarxının tam sərəncamından asılı olmuşdur. Bu, ən həqiqi mübahisəsizlikdir, monastır bu yeparxiyaya sahib olması barədə əvvəlki mütləq hökmdarların bəxş etdikləri müxtəlif fərmanlara malikdir. ... mən 40 ildən artıqdır ki, patriarx vəzifəsində bu monastıra və yeparxiyaya başçılıq edirəm..." (30).

Alban kilsəsi tarixinin ən çox təhrifə məruz qalan məsələlərindən biri 1836-cı ilin martında I Nikolayın (1825-1855) imzaladığı məşhur "Əsasnamə"nin adlandırılmasıdır. Azərbaycan sovet tarixşünaslığında (elə indiki, müasir tarixşünaslığımızda da bu sənəd çox vaxt "Alban kilsəsinin müstəqilliyinin ləğv edilməsi haqqında Əsasnamə" adlanır. Həmin Əsasnamə mahiyyət etibarən, doğrudan da, Quzey Azərbaycan ərazisindəki bütün xristian yeparxiyalarını Eçmiədzin qriqorian kilsəsinin rəh-

bərliyinə tabe etdi. Amma sənəd əslində "Rusiyadakı Erməni Qriqorian kilsəsinin işlərinin idarə edilməsi haqqında Əsasnamə" adlanır və 10 fəsil və 141 maddədən ibarətdir (31). Həmin sənədə görə, yuxarıda da deyildiyi kimi, Qarabağ, Elisavetpol, Şəki, Şirvan və b. yeparxiyalar Eçmiədzin kilsəsinə tabe edildi, Tatev mitropolitliyi isə Qarabağ yeparxiyasının tərkibindən çıxarılaraq birbaşa Eçmiədzin kilsəsinin başçısının idarəsində olan İrəvan yeparxiyasına tabe olundu (32).

***Nəticə***. Tarixi materiallarla yaxından tanışlıq açıq-aşkar göstərir ki, bütün az-çox dinc yolla Rusiyanın əlinə keçmiş xanlıqlarda müstəmləkəçilər xan hakimiyyətini heç də əbədi saxlamaq fikrində deyildilər, xan hakimiyyətini ləğv etmək üçün müxtəlif yol və vasitələr axtarır və tapırdılar. Təsadüfi deyildi ki, 1827-ci ildən sonra Şimali Azərbaycanda, demək olar ki, bir dənə də xanlıq qalmamışdı (Naxçıvan xanlığının mövcudluğu sırf fiksiyadan başqa bir şey deyildi - ən kiçik rütbəli rus zabitləri belə bu xanlıqda Kalbalı xandan da, onun Ordubadı idarə edən yaxın qohumundan da daha böyük səlahiyyətlərə malik idi – H.H.). Nə müstəmləkəçilər, nə də yerli əsilzadələr arasında mövqeyi o qədər də etibarlı olmayan Mehdiqulu xanın Qarabağdakı hakimiyyətini ləğv etmək isə müstəmləkəçilər üçün o qədər də çətin olmadı. Qarabağ əsilli Madatovun hikkə və hiyləgər donosları, Yermolovun özünün Mehdiqulu xana ünvanladığı çox ustalıqla tərtib edilmiş məktubları (33) artıq 1822-ci ilin noyabrında Mehdiqulu xan çox azsaylı məiyyəti (15-20 nökərlə) Qarabağdan qaçmağa vadar etdi (34).

General Yermolovun dərhal xüsusi intibahnamə ilə Qarabağ əhalisinə müraciət edərək xanlığın bilavasitə "Rusiyanın tabeçiliyinə", yəni idarəçiliyinə götürüldüyünü elan etməsi, yerli bəylərə hədə-qorxu gəlməsi (35), artıq dekabrın 4-də, xanın qaçmasından bir neçə gün sonra, xanın arvadları və bacılarının Qarabağdan Qacar imperiyasına getmələrinə icazə verməsi, onların lazımi pulla və silahlı mühafizəçi müşaiyət dəstəsi ilə təmin olunması barədə Madatova xüsusi göstəriş verməsi (36) mübahisəsiz şəkildə sübut edir ki, xanın qaçması müstəmləkə rejiminin ürəyindən idi, faktiki olaraq onların öz məqsədyönlü tədbirlərinin qanuni nəticəsi idi.

Çox tezliklə - 1822-ci ilin dekabrında Yermolovun əmri ilə "Qarabağda dinclik üçün" Mehdiqulu xanın qardaşı oğlu, böyük iddialarından əl çəkməyən polkovnik Cəfərqulu ağa da Rusiyaya – Simbirsk quberniyasına sürgün edildi (37).

Beləliklə də Cavanşirlər nəslinin Qarabağdakı xan hakimiyyətinə son qoyuldu, romanovlar öz arzularına çatdılar və bütövlükdə hər il xan gümüş pulu ilə 185,6 min rubl və rus gümüş pulu isə təxm. 63 min rubl gəlir götürməyi nəzərdə tutduqları (38) bu cənnətməkanı birbaşa öz əllərinə aldılar.

## ƏDƏBİYYAT

1. Ведомость доходам с Карабахской провинции // АКАК, т. VI, ч. I, док. 1308, с.857-858.
2. Всеподданнейший рапорт ген. Ермолова, от 4-го марта 1817 года, №32 // АКАК, т. VI, ч. I, док. 1265, с.836.
3. Всеподданнейший рапорт кн. Цицианова, от 22-го мая 1805 года, №19. // АКАК, т. II, док. 1436, с.702-705.
4. Высочайшее повеление министру финансов от 4-го июля 1817 года. – С.-Петербург // АКАК, т. VI, ч. I, док. 1266, с.836-837.
5. Грамота е.в. царя Грузинского мелику Джимшиду, от 29-го февраля 1800 года (подлинника не оказалось) // АКАК, т. I, док. 877, с.637.
6. Грамота Е.И.В. армянским меликам (по большом титуле) // АКАК, т. I, док. 875, с.635-636.
7. Грамота к Карталинскому и Кахетинскому царю Георгию (по меньшом титуле) // АКАК, т. I, док. 876, с.635-636.
8. Марта 11. Высочайше утвержденное положение об управлении делами Армяно-Грегорианской Церкви // ПСЗРИ, Собрание второе. Т. XI, отд. I, 1836 г. – СПб. В типографии II отделения собственной е.и.в. канцелярии, 1897. №8970, с.194-209.
9. Отношение ген. Ермолова к гр. Гурьеву, от 7-го ноября 1822 года, №235// АКАК, т. VI, ч. I, док. 1292, с.844.
10. Отношение гр. Гудовича к министру военно-сухопутных сил Вязмитинову, от 21-го августа 1806 года, №19. // АКАК, т. III, док. 605, с.331-332.

11. Отношение кн. Чарторыйского к кн. Цицианову, от 11-го июля 1805 года // АКАК, т. II, док. 1456, с.712-713.
12. Отчет о состоянии Карабагского ханства, от 28-го июня 1816 года, №60 // АКАК, т. V, док. 707, с.589.
13. Письмо Агванского патриарха Израиля к гр. Гудовичу, от 19-го августа 1806 года // АКАК, т. III. – Тифлис, 1869, док. № 149, с.79-80.
14. Письмо армянских меликов Джимшида Варандинского и Фридона Гулистанского к Е.И.В. // АКАК, т. I, док. 872, с.632.
15. Письмо барона Розена к т.с. Бебутову, от 17-го сентября 1835 года, №62 // АКАК, т. VIII, Тифлис, 1881, док. 211, с. 293-295.
16. Письмо ген. Ермолова к ген.-л. Вельяминову, от 26-го декабря 1822 года. – Шуша // АКАК, т.VI , ч.I , док. 1302, с.851.
17. Письмо ген. Ермолова к Джафар-Кули-аге, от 27-го ноября 1822 года, №3755 // АКАК, т. VI, ч. I, док. 1296, с.849-850.
18. Письмо ген. Ермолова к Мехти-Кули-хану, от 12-го сентября 1820 года, №213 // АКАК, т.VI, ч. I, док. 1274, с.840.
19. Письмо ген. Тормасова к Мехти-Кули-хану, от 15-го сентября 1810 года, №921 // АКАК, т. IV, док. 845, с.564-565.
20. Письмо ген. Тормасова к Мехти-Кули-хану, от 29-го апреля 1811 года, №408 // АКАК, т. IV, док. 856.
21. Письмо ген. Тормасова к Мехти-Кули-хану, от 29-го апреля 1811 года, №413 // АКАК, т. IV, док. 857, с.571.
22. Письмо ген.-м. Лазарева ген.-л. Кноррингу, от 15-го декабря 1802 года №599 // АКАК, т. I, док. 831, с.631-632.
23. Письмо кн. Цицианова к Ибрагим-хану, от 4-го февраля 1804 года, №79. // АКАК, т. II, док. 1417, с.696.
24. Письмо кн. Цицианова к Ибрагим-хану, от 8-го января 1804 года – Гянджа. // АКАК, т. II, док. 1416, с.696.
25. Потто В.А. Кавказская война в отдельных очерках, легендах и биографиях, 2-е издание, т.II. – СПб., тип. Евдокимова, 780 с.
26. Предписание ген. Ермолова кн. Мадатову, от 25 ноября, 1822 года, №3752 // АКАК, т. VI, ч. I, док. 1294, с.849.
27. Предписание ген. Ермолова кн. Мадатову, от 4-го декабря, 1822 года, №3873 // АКАК, т. VI, ч. I, док. 1300, с.850.
28. Предписание гр. Гудовича ген.-м. Несветаеву, от 20-го августа 1806 года, №15. // АКАК, т. III, док. 604, с.331.
29. Предписание кн. Цицианова Грузинскому дворянину Ниниа Джораеву от 13 октября 1804 года. // АКАК, т. II, док. 1422, с.698.
30. Прокламация ген. Ермолова жителям Карабагского ханства, от ноября 1822 года // АКАК, т. VI, ч. I, док. 1299, с.850.
31. Рапорт ген.-м. Котляревского ген. Ртищеву, от 30-го сентября 1812 года, №672 – Лагерь при р. Кура-чай // АКАК, т. V, док. 696, с.579.
32. Рапорт ген.-м. Котляревского ген. Ртищеву, от 5-го июня 1812 года, №303. – Лагерь при р. Аг-оглан // АКАК, т. V, док. 690, с.577.
33. Рапорт ген.-м. Небольсина ген. Тормасову от 18-го сентября 1810 года, № 317. – Лагерь при канале Арасбар // АКАК, т. IV, док. 846, с.565.
34. Рапорт кн. Мадатова ген. Ермолову, от 27-го ноября 1822 года, №957. – Кр. Шуша // АКАК, т. VI, ч. I, док. 1295, с.849.
35. Рапорт кн. Мадатова к ген.-л. Вельяминову, от 28-го ноября 1822 года, №969. – Шуша // АКАК, т. VI, ч. I, док. 1298, с.850.
36. Рапорт кн. Мадатова к ген.-л. Вельяминову, от 28-го ноября, 1822 года, №966. – Шуша // АКАК, т. VI, ч. I, док. 1297, с.850.

37. Рапорт князя Мадатова ген.-л. Вельяминову, от 21-го ноября 1822 года, №916 // АКАК, т. VI, ч. I, док. 1293, с.848-849.
38. Рапорт подполк. Лисаневича ген.-м. Несветаеву, от 4-го сентября 1806 года. // АКАК, т. III, док. 610, с.334-335.
39. Лисаневич Дмитрий Тихонович. - https://ru.wikipedia.org/wiki/%D0%9B%D0%B8%D1%81%D0%B0%D0%BD%D0%B5%D0%B2%D0%B8%D1%87,_%D0%94%D0%BC%D0%B8%D1%82%D1%80%D0%B8%D0%B9_%D0%A2%D0%B8%D1%85%D0%BE%D0%BD%D0%BE%D0%B2%D0%B8%D1%87 [10.01.2023].

**ГАДЖИ ГАСАНОВ**
*к.и.н., Институт Истории имени А.А.Бакиханова НАНА*

## К ПОЛИТИЧЕСКИМ ПРОЦЕССАМ В ГАРАБАХСКОМ ХАНСТВЕ В ПЕРВОЙ ЧЕТВЕРТИ XLX ВЕКА

В данной статье, опираясь на достоверные источники, рассмотрены ряд процессов, их некоторые моменты, происходившие на исконно исторической азербайджанской земле - в Гарабахском ханстве в период с 1805 по 1822 годы, т.е. от подписания 14 мая 1805 года Кюрекчайского договора, провозгласившего аннексию ханства Российской империей, и до ликвидации этого ханства грубо нарушавшей свои обязательства Россией.

Приводя целый ряд фактов о состоянии ханства, об осуществляемой новыми колониальными органами жестокой политике, о целях этой политики, о положении, созданном кабальным режимом в результате этого колониального завоевания, автор стремится раскрыть грабительскую и подлую сущность нового режима.

*Ключевые слова*: Гарабах, Азербайджан, Кюрекчай, оккупация, колония, ограбление, контрибуция.

**HAJI HASANOV**
*PhD, ANAS Institute of History named after A.A. Bakikhanov*

## POLITICAL PROCESSES IN KARABAKH KHANATE IN THE 1st QUARTER OF XIX CENTURY

According to reliable sources, a series of processes that took place in the old historical region of Azerbaijan, from the signing of the Kurakçay Treaty dated 14 May 1805, which stated the annexation of the Karabakh khanate to the Russian Empire, from the abolition of the khanate by the Russian Empire, which greatly violated its mandate, in 1805-1822. The author tries to reveal the predatory and cruel nature of the new regime by revealing some facts about the situation of the khanate, the brutal policy followed by the neo-colonial authorities, the goals of this policy, the situation created by the slavery regime in the region based on the results of this colonial occupation.

*Keywords*: Karabakh, Azerbaijan, Kurakcay, occupation, colonization, robbery, compensation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix:10 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Sevinc Mustafayeva, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); 94"16/18"**

**AYSEL NOVRUZOVA**
*Gəncə Dövlət Universiteti, dissertant*
**aysel.novruzova1505@gmail.com**

# XIX ƏSRDƏ QARABAĞ ƏHALİSİ VƏ ETNODEMOQRAFİK PROSESLƏR

*Azərbaycan xalqı mövcud olduğu minilliklər ərzində daim qonşu xalqlarda mədəni, iqtisadi, siyasi əlaqə yaratmış, dinc, mehriban qonşuluq prinsiplərinə sadiq qalmışdır. Mühüm starteji, əlverişli coğrafi mövqedə yerləşdiyimiz üçün daim hücumlara məruz qalmış, zaman-zaman məqsədyönlü şəkildə köçürülmələr aparılmış, lakin əksər hallarda həmin köçürülənlər daha üstün yerli, avtoxton əhalinin mədəni təsirinə məruz qalaraq, assimilyasiya olunmuşlar. Bununla belə, tarixi torpaqlarımızda müxtəlif məqsədlərlə məskunlaşdırılan ermənilər (haylar) isə sepataçılıq meylləri ilə daim tariximizi ləkələməyə çalışmışdılar. Rusiyanın Azərbaycana olan istilaçı marağı nəticəsində etnik, dini amillərdən daim istifadə olunmuş, hər hansı etiraz, üsyan, müqavimətlə rastlaşdıqda dərhal ermənilərdən bölgədə alət kimi istifadə etmişdilər. XIX əsr Azərbaycan tarixi də bu proseslərdən kənarda qalmamışdır. Hətta bu dövr daha da kəskin, uzun müddət üçün nəzərdə tutulmuş tədbirlərlə xarakterik olmuşdur. Ardıcıl qalib gəldiyi müharibələrdə imzaladığı müqavilələrlə tarixi torpaqlarımız olan Qarabağda çox sayda ermənilər ən münbit torpaqlarda məskunlaşdırılmış, onlara maksimum güzəştlər edilmiş, yerli xristian albanların dini ibadətgahları belə onların sərəncamına verilmişdir.*

*Açar sözlər:* Qarabağ, miqrasiya, əhali, köçürmə, tarixi həqiqət.

***Giriş***. Müasir dövrün mühüm və aktual məsələlərindən olan Qarabağ bölgəsinin tarixi, əhalisi, əhalinin etnik tərkibi, dini mənsubiyyəti və s. vacib məsələlərdəndir. Avtoxton və müxtəlif dövrlərdə buraya gəlmiş, köçürülmüş əhali arasında müəyyən fərqlərin olması təbii ki, labüddür və bu, istər rəsmi statistik sənədlərdə, istərsə də, müxtəlif elmi ədəbiyyatlarda öz əksini tapır. XIX əsrdə, Qarabağ xanlığının işğalı dövründə, Kürəkçay müqaviləsi imzalandıqdan sonra bu bölgədə maraqlarını açıq göstərən imperiya buradakı hərbi nümayəndələri - generalları vasitəsilə əhalinin sayı, etnik tərkibi haqda ətraflı məlumat əldə etməyə çalışırdı. Təbii ki, bu məlumatlar sadəcə statistik sorğu xarakteri daşımır, gələcək məqsədyönlü tədbirlərin həyata keçirilməsi üçün hazırlanan planlarda istifadə olunmaq üçün nəzərdə tutulurdu.

***Əsas mətn.*** Azərbaycanı daim öz nüfuz dairəsində saxlamağa çalışan Rusiya imperiyası Xəzərsahili bölgələrlə yanaşı, Qarabağı da prioritet olaraq görürdü. Qarabağın əsas diqqət mərkəzində olması ilə bağlı XVIII əsrdə, daha dəqiq, 1783-cü ildə Q.Potyomkinin Yekaterinaya məktubunda da aydın görmək mümkündür: "Fürsət tapınca Qarabağı ermənilərin nəzarətinə vermək və bununla da Asiyada bir xristian dövləti yaratmaq üçün lazım olanları etmək vacibdir" [1, s.60-61]. Təbii ki, belə bir məqsədlə lazım olan tədbirlərin həyata keçirilməsinə hərtərəfli cəhd edilmiş, yerli əhalinin sayı, sıxlığı, milli-konfenssional tərkinbi, məhsuldar torpaqları və s. haqqında ətraflı məlumat toplanmışdı. "Qafqaz Suvorovu" adlandırılan, Gəncə qalasının işğalındakı xidmətlərinə görə "III dərəcəli Müqəddəs Anna ordeni", Lənkəranın işğalına görə "II dərəcəli Müqəddəs Georgi ordeni" alan general Pyotr Kotlyarevskiy tapşırıq üzrə Qarabağda siyahıyaalma keçirmiş və 1805-ci ildə burada 10000 ailənin yaşadığını göstərmişdir [4, sənəd 696, s.579]. Təbii ki, belə hesabatlar ardıcıl olaraq aparıldığından, əhalinin dinamikasını da izləmək mümkün olur. Müharibə ilə əlaqədar demoqrafik proseslərdə baş verən dəyişikliklər, I Rus-Qacar müharibəsi gedişində hökumətin diqqətindən yayınmamış, əksinə, daim məlumatlar yenilənmişdir. Belə ki, 1808-ci ilin məlumatında Qarabağ xanlığında 8 minə yaxın (7474) ailənin yaşadığı bildirilirdi [4, sənəd 696, s.579]. Eyni statistik göstərici 1812-ci ilə aid məlumatda da verilir, hətta həmin sənəddə müqayisə aparılaraq, müharibənin əvvəlində və sonuna yaxın əhalinin azalma səbəbi kimi, qaçqınlığın və əhaliyə dəyən zərərəin çox olması göstərilirdi. Belə ki, Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında yerləşdirilən general Aleksey Yermolovun hesabatında da yeni siyahıya alma keçirildiyi, 7872 ailənin qeydə alındığı bildirilirdi [5, sənəd 1265, s.836].

Əhalinin say dinamikası təksə bu istiqamətdə dəyişməmiş, eyni zamanda etnik dayaq yaradılması, təzyiq vasitəsi və xristianlaşdırma amilləri nəzərə alınmaqla, məqsədyönlü şəkildə, həm rəsmi müqavilələrlə, həm də qeyri-rəsmi olaraq, Qarabağa ermənilərin (hayların) köçürülərək, yerləşdirilməsinə başlanılmışdır. Tariximizdə çox təssüfverici yer tutan Türkmənçay müqaviləsinin məşhur XV madddəsində bildirilir ki, " ... Şah Həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırkı müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam barışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir....." [2, s.39]. Məhz bu şərlərlə, sərbəst, heç bir təzyiqə məruz qalmadan, hökumət himayəsinə alınmış ermənilərin ardıcıl yerləşdirilməsi sistemli şəkildə aparılmağa başladı. Təbii ki, köçürmə prosesi hələ I Pyotrun dövründən rəsmi şəkildə başlasa da, Türkmənçay və Ədirnə müqavilələri etnik yerdəyişmənin daha nizamlı, sistemli aparılmasına hüquqi əsas verdi. Bu isə daha sonrakı onilliklərə, yüzilliklərə hesablanmış bir plan idi. Hökumət yaxşı bilirdi ki, haylar separatçı qövm olaraq, istənilən zaman lazım ola bilərdilər. Hətta ermənilərə yaxşı bələd olan A. Qriboyedov onların xarakterini izah edərək, qətiyyən Rusiya torpaqlarında yerləşdirilməməsini məsləhət görür və yazırdı ki, "..Onlar elə tayfalardır ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim-qədim dədə-baba torpaqlarımızdır" [1, s. 62].

XX əsrin əvvəllərində N.Şavrov II Rus-Qacar müharibəsindən sonra müqavilələrə əsasən, Qacarlardan (İrandan) 40000, Osmanlıdan 84600 erməninin köçürüldüyünü, onların Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarında 200 min desyatindən artıq məhsuldar dövlət torpaqlarında və müsəlman əhalidən satın aldıqları 2 milyon manatlıq xüsusi torpaqlarda məskunlaşdırıldıqlarını təsdiq edir [10, s.59-60]. Təbii ki, qeyri-rəsmi gələnlər və ya gətirilənlər də kənarda qalmamış, on minlərlə erməni tarixi torpaqlarımızda yerləşdirilmişdir. Çox maraqlıdır ki, hətta imperiya məmurları özləri belə nəinki Azərbaycanda, hətta Cənubi Qafqazda ermənilərin yerli əhali olmadığı, Rusiya hakimiyyət orqanları tərəfindən köçürüldükləri etiraf olunur [10, s.60-61). Yelizavetpol (Gəncə) quberniyasının Qarabağ, Zəngəzur bölgələrinin dağlıq hissəsi, Göyçə gölü ətrafında ermənilərin yerləşdirilməsi ilə onların sayının ilbəli artırılmasına başlanmışdır. Təbii ki, bu da özünü rəqəmlərdə büruzə vermişdi. XIX əsrin 20-30-cu illəri arasında Qarabağda erməni əhalisinin 4528-dən 6491 ailəyə qədər arması, cəmi 10 il ərzində əhalinin təbii artımı deyil, məskunlaşdırılmaların nəticəsi ola bilərdi [8, s.267]. Məşhur rus generalı, İrəvanın alınmasındakı xidmətinə görə "İrəvanskiy" ləqəbi verilən İvan Paskeviç həm də köçürmə işinə birbaşa rəhbərlik edir, hansı ərazilərə ermənilərin yerləşdirilməsi barədə göstərişlər verirdi. Erməni mənşəli polkovnik Lazar Lazarev gəlmə erməniləri Qarabağda yerləşdirilməsi zamanı yay aylarına üstünlük verir, yaylaqda olan kənd sakinlərinin ərazilərini hədəf alırdı. İlkin olaraq, gələnlərə birdəfəlik 25 rubl verilsə də, sonradan 30 min gümüş rubl və 2 min çervonun da ayrılması, daha məqsəqyönlü xərclənməsi nəzərdə tutulurdu. A.Qriboyedov hətta yerli xanlığa aid 30 min mal-qaranın hərbçilərin qidalanması üçün deyil, köşürülənlərə verilməsinin onların yeni ərazidə ehtiyaclarını azalda biləcəyi ilə bağlı məsələni də vurğulayır [7, s.267-270].

Məlumdur ki, gəlmə ermənilərə kifayət qədər vergi güzəştləri, əlavə maliyyə yardımları olunur, onların yeni məskunlaşdıqları bölgədən geri qayıtmaması üçün mümkün şirnikləşdirici tədbirlər görülürdü. Təbii ki, 1836-cı ildə Alban katolikosluğunun ləğvi də bu məsələdə onların xeyrinə oldu, yerli xristian əhalinin ibadət yerləri ermənilər tərəfindən məsnimsənilməyə başlandı. Rus qoşunlarının Qafqaz üzrə baş komandanı A.P.Yermolov (1816-1827) Qarabağ xanlığında əhalinin sayı ikə bağlı "Təsvir" hazırlatmış, burada əhalinin sayı və etnik tərkibi məsələsinə diqqət yetirmişdir. A. Yermolun göstərişi əsasında hazırlanan "Təsvir"də görə Qarabağda yaşayan 20.095 ailədən 15.729-nun azərbaycanlı (1.111-i şəhərdə, 14.618-i kənddə), 4366-sı erməni, o cümlədən alban idi (421-i şə-

hərdə, 3.945-i kənddə) olması bildirilir. Təbii ki, burada göstərilən ermənilərin böyük əksəriyyəti qriqorianlaşdırılmış və sonradan erməniləşdirilmiş yerli xristian alban olmuşdu [2, s.24].

Köçürmələr nəticəsində tədricən, imperiya qüvvələri öz istəklərinə qismən çatırdılar. Belə ki, artıq 1832-ci ildə Qarabağda əhalinin 64,8% azərbaycanlılar, 34,8% isə ermənilərdən ibarət idi. Bu istiqamətdə ardıcıl tədbirlər görüldüyündən, XIX əsrin sonlarına doğru ermənilərin sayı artırılaraq, 53%-ə çatdırıldı. Təbii ki, birbaşa müdaxilə, köçürmə, xristian albanların qriqoryanlaşdırılması, azərbaycanlıların kütləvi qırğınlarının törədilməsi hesabına əldə olunan bir göstərici idi [2, s.59]. Bütövlükdə, XIX əsrin sonlarında Cənubi Qafqazda erməni əhalisi 19,54% təşkil edirdisə, XX əsrin əvvəllərində 22.34% olmuşdu. Göründüyü kimi, nəinki Azərbaycan ərazisinin əhalisinin statistik göstəricilərində, eləcə də bütün Qafqazla bağlı hesabatlarda erməni əhalisinin sayında artım müşahidə olunur ki, bu da sırf köçürmələrin nəticəsi idi. Bütövlükdə, Azərbaycan ərazisinə yeni məqsədyönlü miqrasiya nəticəsində strateji əhəmiyyətli bütün bölgələrimizdə etnokonfessional tərkib kifayət qədər dəyişmişdi. Belə ki, Qarabağda olduğu kimi, Naxçıvanda da 1832-ci il siyahıyaalmasına əsasən, 4 minə yaxın azərbaycanlı və 1100 yeni məskunlaşdırılmış erməni, İrəvanda 50 minə yaxın azərbaycanlı, 45min köçürülmüş erməni var idi [10, s.59-61]. Təbii ki, həlı birinci Rus-Qacar müharibəsi başlayandan az sayda da olsa qeyri-rəsmi məskunlaşdırılma başlamış, 1828 və 1829-cu illərdən sonra isə rəsmiləşdirildiyindən dərhal sürətləndirilmişdir. Bütün bunlara baxmayaraq, 1897-ci il məlumatlarına əsasən, İrəvan şəhərində azərbaycanlı əhali ermənilərdən sayca daha artıq idi. Maraqlı məqamlardan biri də təhsil müəssisələri ilə bağlı olmuşdur. Belə ki, 1830-cu il məlumatlarına əsasən, burada 8 Azərbaycan, cəmi 1 erməni dilli təhsil müəssisəsi var idi. [2, s.66]. Təbii ki, paralel olaraq, bu tendensiyanı digər sahələrdə də görmək mümkün idi. Hələ XIX əsrdə Şuşada 17 məscid mövcud olmuş, onların içərisində Aşağı və Yuxarı Gövhərağa məscidləri, Culfalar məscidi, Hacı Yusifli, Köçərli, Mamay, Mərdinli, Saatlı, Xoca Mərcanlı məscidləri məşhur idi.

Qeyd etmək lazımdır ki, nəinki bütün Qarabağda, həm də Şuşada XIX əsrin əvvəllərinə qədər erməni mənşəli əhali hədsiz az olmuşdur. Bütün bölgədə olduğu kimi, burada da XIX əsrin sonlarında (1897) 26 minə yaxın, XX əsrin əvvəllərində (1913) isə 43 minə yaxın sakin olduğu bildirilir. Təbii ki, təxminən 6 il ərzində əhalinin say dinamikasının təbii atrımı ilə bu nəticəni görmək qeyri-mümkün idi. Bununla belə, rəsmi dairələrin səyi nəticəsində gəlmələrin sayı yerli əhalinin sayından daha da artıq olur. Məlumdur ki, etnodemoqrafik proseslərə, xüsusən, əhalinin say dinamikasında müsbət artima bir çox amillər təsir edir. Bunların içərisində əhalinin etnik, dini və regional mənsubiyyəti, qadınların ictimai əməyə cəlb olunması və cəmiyyətdə rolu, dövlətin sosial tədbirləri, müharibələr, epidemiyalar, qadın və kişilərin sayının disproporsiyaları, əhalinin cins və yaş tərkibi kimi amillər mühüm yer tutur. Təbii ki, miqrasiyalar da etnodemoqrafiya probleminin tərkib hissəsi olduğu üçün, bu proseslərə birbaşa təsir edir. Burada əhalinin sayının artması isə sonrakı dövrlərdə tədqiqatçılat tərəfindən fərqli qaydada şərh edilərək, tarixi həqiqətlərdən diqqət yayındırılmışdır. Belə ki, tədqiqatçı A.Məmmədov Azərbaycan tarixşünaslığında tarixi demoqrafiya məsələlərini şərh edərkən, müxtəlif araşdırmalara istinad edərək, həm Rusiyanın Azərbaycanı işğalının, həm də XIX əsrdə Qarabağda əhali artımının izahına fərqli yanaşmanın birbaşa rəsmi dairələrin ideoloji təsirinin nəticəsi olduğunu göstərir. XX əsrin 50-ci illər tarixşünaslığında bu məsələlərin necə yer almasından bəhs edən tədqiqatçı bildirir ki, məşhur sülh müqavilələrindən sonrakı əhali artımı buradakı "dinclik və əmin-amanlığın" nəticəsi kimi təsvir olunur, bölgədə məskunlaşmanın səbəbinin bu qaydada izahına üstünlük verildiyini göstərir. Hətta tədqiqatçıların AKAK-a (Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları) istinadən əldə etdikləri rəqəmləri belə düzgün şəhr etməyərək, 1805-ci il və 1823-cü illər arasındakı dövrdə əhali sayının iki dəfədən çox artmasını mexaniki ststistik göstərici kimi verdiklərini, milli məsələləri nəzərə almadıqlarını təəssüflə bildirir [3, s.167]. Həqiqətən də, sovet dövrü tarixşünaslığında Azərbaycanın sosial-iqtisadi, siyasi tarixi ilə bağlı əsərlərdə hakim ideoloji fikir üstünlük təşkil etdiyindən, etnik-milli problemlər nisbətən kölgədə qalmışdı. Odur ki, müharibə və münaqişələr dövründə Qarabağda əhalinin artıb-azalması və bu prosesin gedişinin tədqiqi zamanı etnokonfessional və milli məsələlərin nəzərə alınmaması demək olar ki, o dövr üçün etalon idi.

Birinci Rus-Qacar müharibəsi dövründə, əsasən, Kürəkçay müqaviləsindən sonra, əvvəlcə Qarabağ xanlığından 5 minə yaxın, sonra isə ümumilikdə 20 minə yaxın əhali Araz çayını keçərək, cənub şəhərlərində məskunlaşmışdılar. Belə ki, 1816-cı ildə İbrahimxəlil xanın oğlu Əbülfəht ağa ilə 4

mindən artıq ailə Qarabağdan köçmüşdülər [5, sən. 1261, s.834]. Bütövlükdə, Şuşada azərbaycanlı əhalisinin azalması ilə bağlı verilən məlumatlarda, ilkin səbəb olaraq, vaxtilə Ağa Məhəmməd şah Qacarın hücumları, sonra isə Rusiya işğalı nəticəsində məhz köçmələr əhalinin etiraz və müqavimət üsulu kimi göstərilir. Bu proseslər nəticəsində XIX əsrin əvvəllərində daxili miqrasiya da genişlənmişdi. Belə ki, Qarabağdan Şamaxı xanlığına təxminən 1500 ailə köçərək, burada 8 yeni kənd salmışdılar. Eyni zamanda, incidilən əhalinin bir hissəsi də, Şəki xanlığı ilə qohumluq əlaqəri olduğundan buraya köçərək, məskunlaşmışdılar [4, sən. 660, s.551]. Qarabağ əhalisi eyni zamanda, həmin dövrdə qonşu xanlıqlara da köçürdülər. Əhalisi əsasən azərbaycanlılardan ibarət olan və sakinləri Əbülfəht xana məxsus olan 5 kənddən ibarət Baqabürd mahalında 243 ailə isə sonradan geri qayıtmışdılar [9, s.77]. Qarabağın Püsyan mahalı Məhəmməd Hüseyn bəyin idarəsində idi və burada 29 kənd və oymaqda 612 ailə yaşayırdı ki, onlardan yalnız 6-sı erməni ailəsi var idi. Əslən azərbaycanlı-müsəlman olan 20 oymağın əhalisi müddət dövrdə Qacarlar dövlətinə köçmüş, sonradan geri qayıtdıqları üçün, bəzi vergilərdən azad edilmişdilər. Bu da siyahıyaalma zamanı qeyd olunmuşdur. Yerdə qalan 9 kənd və oymaq isə müxtəlif mülkədarlara məxsus olmuş, onlarda da oxşar miqrasiya hərəkətləri müşahidə olunmuşdur. Qeyd edək ki, siyahıyaalamalarda bəzi kəndlərin əhalisinin vergilərdən azad olunması əslində hər hansı güzəşt olunması deyil, onların öz yerlərinə siyahıyaalınma dövründə qayıtması ilə əlaqədar idi [9, s.146-151]. Əhalinin geri qayıtması daim münaqişələr nisbətən zəiflədiyi dövrə, sabitliyin bu və ya digər dərəcədə mövcud olduğu dövrə uyğun gəlir.

***Nəticə***. Göründüyü kimi, Qarabağ ərazisinin avtoxton əhalisi türkmənşəli azərbaycanlılar olmuş, müəyyən qədər xristian albanlar istisna olmaqla, burada erməni demək olar ki, olmamışdır. Təbii ki, təxminən XV əsrdən başlayaraq onların tarixi torpaqlarımıza gəlməsi, sonradan I Pyotrun 1724-cü il fərmanı ilə rəsmi köçürülmələrinin əsasının qoyulması və həmin dövrdən başlayaraq, ardıcıl, məqsədyönlü yerləçdirilmələrin aparılması sonrakı tarixi proseslərə təsir göstərmişdir. Qarabağ məhsuldar torpağı ilə diqqət çəksə də, təkcə bu bölgə deyil, digər ərazilərimiz də erməni amilinin təsirinə salınmışdı. Belə ki, sırf köçürmələrlə əlaqədar, tarixi Azərbaycan torpaqlarında, keçmiş Çuxursəd bəylərbəyliyinin (sonradan İrəvan və Naxçıvan xanlıqlarının) ərazisində XIX əsrin 40-cı illərində yeni vilayət yaradılsa da, bir müddət sonra həmin vilayət yenidən ləğv olunmuşdur. Təbii ki, bu imperiya maraqları çərçivəsində həyata keçirilən tədbirlər idi və müəyyən müddət yerli ali müsəlman təbəqəsinin rəğbətini qazanmaq, onların əllərindən alınmış torpaqların yenidən geri qaytarılması ilə bölgədə iqtisadi, siyasi nüfuzunu möhkəmlətmək istəyirdi. Ali müsəlman silkinin misalında özünə sosial dayaq yaratdıqdan və bölgədə hakimiyyətini möhkkəmləndirdikdən sonra, yenidən erməni amilindən istifadə etməyə başlamışdı. Məhz bu səbəbdən də milli-etnik, konfessional münaqişə ocağı yaradaraq, bölgəni nəzarətində saxlamaqda daim maraqlı olmuşdur.

## ƏDƏBİYYAT

1. Əliyeva Firuzə Erməni işğalları və demoqrafik təhlükəsizlik // Qarabağ. Dünən, bu gün və sabah // Qarabağ General-Qubernatorluğunun 90 illiyinə həsr olunmuş 8-ci elmi əməli konfransının materialları, Bakı, 2009, s.61-62.
2. Ermənistan – Azərbaycan münaqişəsi: Tammətnli materiallar məcmuəsi.- Bakı, 2005-Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 2005, 395 s.
3. Məmmədov A.B. Azərbaycanın 40-50-ci illər tarixşünaslığında tarixi demoqrafiya məsələləri // Tarix və onun problemləri, 2021, N1, s.165-168.
4. Акты, собранные Кавказской археографической комиссией. В 12-и тт. / Под ред. А. Берже. т.V, Тифлис: Типография Глав.Управ. Наместника Кавказа, 1873, 1187с.
5. Акты, собранные Кавказской археографической комиссией. В 12-и тт. / Под ред. А. Берже. т.VI, ч. I. Тифлис: Типография Глав.Управ. Наместника Кавказа, 1874. 957 с.
6. Глинка С.Н. Описание переселения армян Азербайджанских в пределы России. Баку, Элм, 1990, 142 с.
7. Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области // Полное собрание сочинений: в 3 т. Изд. Разряда изяшной словености Акад. Наук., 1911-1917, т.3. - 1917. - с.267-270.

8.Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом, финансовом отношениях: В 4-х ч. СПб. Типография департамента внешней торговли, 1836, ч.3, 392 с.
9. Описание Карабагской провинции (составленное в 1823 году по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м, Тифлис, 1866.
10. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказе: предстоящая распродажа Мугани инородцам. СПб., 1911; Переизд. Баку, 1990, 156 с.

**АЙСЕЛЬ НОВРУЗОВА**
*Докторант Гянджинского государственного университета*

## НАСЕЛЕНИЕ КАРАБАХА И ЭТНО-ДЕМОГРАФИЧЕСКИЙ ПРОЦЕСС В XIX ВЕКЕ

За тысячелетия своего существования азербайджанский народ всегда устанавливал культурные, экономические и политические связи с соседними странами и оставался верен принципам мирного, дружественного соседства. Из-за нашего важного стратегического и выгодного географического положения мы постоянно подвергались нападениям и время от времени подвергались перемещению, но в большинстве случаев эти перемещенные лица ассимилировались под культурным влиянием преимущественно коренного населения. Однако армяне (хаи), поселившиеся на наших исторических землях с различными целями, всегда пытались запятнать нашу историю сепаратистскими тенденциями. В результате агрессивного интереса России в Азербайджане постоянно использовались этнические и религиозные факторы, а когда они сталкивались с любым протестом, восстанием, сопротивлением, они сразу использовали армян как инструмент в регионе. История Азербайджана XIX века не осталась в стороне от этих процессов. Даже этот период характеризовался еще более решительными, долговременными мерами. В соответствии с договорами, которые были подписаны в последовательных победоносных войнах, большое количество армян поселилось на наших исторических землях, в Карабахе, на самых плодородных землях, им были предоставлены максимальные привилегии, и даже религиозные места поклонения местных албанцев-христиан были предоставлены в их распоряжения.

*Ключевые слова:* Карабах, миграция, население, расселение, историческая правда.

**AYSEL NOVRUZOVA**
*Doctoral student of Ganja State University*

## THE POPULATION OF KARABAKH AND ETHNO-DEMOGRAPHIC PROCESS IN THE 19th CENTURY

Over the millennia of its existence, the Azerbaijani people have always established cultural, economic and political ties with neighboring countries and remained committed to the principles of peaceful, friendly neighborhood. Due to our important strategic and favorable geographic location, we have been constantly attacked and displaced from time to time, but in most cases these displaced persons have been assimilated under the cultural influence of the predominantly indigenous population. However, the Armenians (Hays), who settled on our historical lands for various purposes, have always tried to tarnish our history with separatist tendencies. As a result of Russia's aggressive interest in Azerbaijan, ethnic and religious factors were constantly used, and when they faced any protest, uprising, resistance, they immediately used the Armenians as a tool in the region. The history of Azerbaijan in the 19th century did not remain aloof from these processes. Even this period was characterized by even more decisive, long-term measures. In accordance with the agreements that he

signed in successive victorious wars, a large number of Armenians settled in our historical lands, Karabakh, in the most fertile lands, they were given the maximum privileges, and even the religious places of worship of the local Christian Albanians were placed at their disposal.

*Keywords:* Karabakh, migration, population, resettlement, historical truth.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Səidə İsmayılzadə, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24)**

**ANAR MƏMMƏDOV**
*Sumqayıt Dövlət Universitetinin dissertantı*
**TarixVeOnunProblemleri@gmail.com**

# ŞİMALİ AZƏRBAYCANIN ŞƏKİ BÖLGƏSİNDƏ İPƏKÇİLİK SƏNAYE SAHƏSİNDƏ ƏMTƏƏ-PUL MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASI HAQQINDA

*İpəkçilik XIX əsrdə Azərbaycan qəzaları arasında emal sənayesinin ən mühüm sahələrindən biri idi. Şimali Azərbaycanda ipəkçiliyin sənaye əsasları üzərində formalaşması əsrin ikinci yarısına aid olsa da, müstəmləkə iqtisadi siyasətində bu gəlirli sahəyə diqqətin artaması əsrin ilk yarısına təsadüf edirdi. Şimali Azərbaycan qəzalarında ipək emalı sənayesində texnikadan istifadə edilməsi özlüyündə mütərəqqi hal sayılsa da, lakin kiçik müəssisələrin sayının durmadan azalmasına da səbəb olurdu. Şəki bölgəsində ipəkçilik sahəsində kapitalist münasibətlərinin formalaşması ilə bağlı tədqiq olunan materiallar göstərir ki, Şimali Azərbaycan qəzaları arasında kapitalist sənayesinin formalaşması prosesinin daha tez başladığı və başa çatdığı istehsal sahəsi ipəkçilik, ərazi isə Şəki bölgəsi olmuşdur.*

*Açar sözlər*: Şəki, region, iqtisadi, sənaye, kapitalizm, ipəkçilik, fabrik.

***Giriş.*** Şimali Azərbaycanda kapitalist münasibətlərinin formalaşmasının tədqiqi böyük nəzəri və siyasi əhəmiyyəti olan aktual elmi problemdir. Bu problem indiyədək sovet və milli tarixşünaslığında bütün istiqamətlər üzrə tam olmasa da, hər halda tədqiq olunmuşdur. 1991-ci ildə dövlət müstəqilliyimiz bərpa olunanadək tarixşünaslıq ədəbiyyatlarında Şimali Azərbaycanda kapitalist münasibətlərinin meydana gəlməsi vaxtından danışarkən müəyyən məqamlarda birmənalı nəticələrə gəlmək çətin olurdu. XX əsrin ortalarına qədər Azərbaycan sovet tarixşünaslığında, demək olar ki, bütün tədqiqatlarda Azərbaycanda 1917-ci il oktyabr çevrilişinə qədər yarımfeodal münasibətlərin qalması haqqında konsepsiya sovet tarixşünaslığında, demək olar ki, hamılıqla qəbul olunurdu. Kapitalist münasibətlərinin yaranması və inkişafı ilə əlaqəli bir çox məsələlər bəzən diqqətdən kənarda qalırdı.

Azərbaycan sovet tarixşünaslığında ilk dəfə Ə.Sumbatzadənin, M.İsmayılovun, T.Vəliyevin, K.Şükürovun, Q.Əliyevin və dogərlərinin tədqiqatlarında bu ənənəyə fərlqi yanaşmanın nəticəsi olaraq qəzalarda kapitalist münasibətlərinin yaranması problemlərinin tədqiqinə başlanıldı.

Məsələ bundadır ki, kapitalizm dövrü tarixinin bütün gedişi boyu muzdlu əməkdən istifadə, bu münasibətlərin meydana çıxması, onların sosial-iqtisadi münasibətlərə təsirinin nəticələri, milli burjuaziyanın və fəhlə sinfinin təşəkkülü tarixi, habelə adını çəkmədiyimiz onlarla digər istiqamətlər üzrə bir sıra vacib məsələlərin ciddi araşdırmasına ehtiyac duyulur. Belə tam araşdırılmamış məsələlər dedikdə bu münasibətlərin bölgələr üzrə nə vaxt yaranması da nəzərdə tutulur.

Kapitalist sənayeinin formalaşmasının vacib problemlərindən biri də tək neft mərkəzi Bakıda deyil, müxtəlif bölgələrdə bu prosesin necə cərəyan etməsinə münasibət bildirilməsidir. Belə bölgələrdən biri də çoxsahəli ənənələri və zəngin tarixi ilə ərazimizin hüdudlarındn çox uzaqlarda da tanınan Şəki bölgəsidir. Bölgədə kapitalist münasibətlərinin, o cümlədən ənənəvi və yeni istehsal sahələrinin formalaşması baxımdan tədqiqatlarda mühüm istiqamət kimi dəyərləndirilməlidir.

Lakin bu da məsələnin tam əhatə olunması demək deyildir. Şəki bölgəsində kapitalist münasibətlərinin formalaşmasının sosial-iqtisadi nəticələri olaraq muzdlu əməkdən istifadə, icarə münasibətlərinin genşlənməsi, alqı-satqı əməliyyatların çoxalması və nəhayət bölgənin iqtisadıyımızın ümumi çəkisində iştirak payının artması kimi məsələlərin ətraflı tədqiqinə ehtiyac duyulur.

Məqalədə hesabatlar, xülasələr, dövri mətbuat, habelə problemə ümumi şəkildə yanaşılmış tədqiqat materialları əsasında, müqayisəli şəkildə bizim tədqiqat probleminin aydlnlaşdırılmasına yeni nəzər salınmasına, problemlə bağlı bir çox məsələlərə yanaşma tərzinin müəyyən edilməsinə bir növ cəhd də sayıla bilər.

***Müstəmləkə iqtisadi siyasətində yeni istiqamətlərdən biri***. Kapitalist münasibətləri və iqtisadiyyatının yaranması birdən birə baş verməyərək bəzən onillərlə, bəzən də bir neçə əsr davam

etmişdir. Ona görə də bu cəmiyyətin, yeni iqtisadi ukladın formalaşması prosesini sənaye və kənd təsərrüfatında kapitalizmin inkişaf tarixi ilə əlaqəsiz nəzərdən keçirmək olmaz. Təbii ki, bir-biri ilə sıx bağlı olan bu proseslər də xronoloji cəhətdən bir-biri ilə əlaqədardır. Şimali Azərbaycan Rusiyanın daxili quberniyaları ilə müqayisədə kapitalist inkişaf yoluna bir qədər gec qədəm qoyduğuna görə yeni iqtisadi münasibətlər, kapitalist sənaye sahələrinin formalaşması, habelə onlarla bağlı olan sosial-iqtisadi münasibətlərin yaranması kapitalist iqtisadiyyatının yaranması prosesi ilə eyni vaxtda baş verirdi [6, s.211].

Qeyd etmək lazımdır ki, XIX əsrin II yarısında təhkimçilik hüququ ləğv edildikdən sonra Rusiyada kapitalizmin inkişafı sürətlə getdi. Kapitalizm öz hökmranlıq dairəsini daim genişləndirmədən, yeni ölkələri müstəmləkə etmədən və onları dünya iqtisadiyyatının burulğanına çəkmədən inkişaf edə bilməz. Rusiyada kapitalizmin bu mülkiyyəti xüsusi ilə Rusiya tarixinin islahatdan sonrakı kapitalist dövründə müstəmləkəçiliyə təkan verən əyalətlərə, yaxud da bölgələrə münasibətdə özünü göstərdi. Avropa Rusiyasının cənubi və cənub-şərqi, Qafqaz, Mərkəzi Asiya, Sibir rus sənayesinə müstəmləkə kimi xidmət edir və onun inkişafını təmin edirdi.

Kapitalizmin inkişafı, bir tərəfdən, Azərbaycan üçün onun mərkəzi Rusiya sənayesi üçün xammal bazasına və satış bazarına çevrilməsi demək idisə, digər tərəfdən, obyektiv olaraq, çar hökumətinin siyasətindən asılı olmayaraq, bütövlükdə imperiyanın gəlirlərinin daha da genişlənməsi, yeni kapitalist münasibətlərin Rusiyanın kənarlarına, o cümlədən Azərbaycana daha çox nüfuz etməsi demək idi. Rusiyanın mərkəzi sənaye rayonlarına və müəssisələrinə xammal növlü kənd təsərrüfatı mallarının daşınması ilə məşğul olan sənayeçilər xammalın ilkin emalı üçün bu məhsulların olduğu ərazilərdə, yerindəcə sənaye müəssisələri yaradırdılar.

Şimali Azərbaycanda belə müəssisələrin yaranması XIX əsrin II yarısından başlayır. Bu dövrdə Şimali Azərbaycan iqtisadiyyatı üçün daha çox xarakterik olan dağ-mədən sənaye sahələri əsasən Bakıda və Abşeron yarmadasında yaransa da, digər sənaye sahələri ilə bağlı müəssisələr yerlərdə Şimali Azərbaycan qəzalarında da yaranırdı [10; 14]. Onların arasında ipəkçilik sənayesi xüsusi yer tuturdu.

***Yeni iqtisadi münasibətlərin ilk formalaşdığı sənaye sahələrindən biri.*** Şimali Azərbaycanda imperiyanın müstəmləkə iqtisadi siyasətinin mahiyyəti, xarakterik xesusiyyətləri və əsas vəzifələrini əks etdirən ilk qanunlar və sənədlər arasında ilklər sırasında olan Şəki əyalətinin təsviri adlı nəşrdə bizim tədqiqat mövzumuzla bağlı bəzi vacib məqamlardan mütləq bəhs etməliyik (11).

Əvvəla, dəqiq bilinməlidir ki, Şəki əyaləti dedikdə, tək Şəki şəhəri və onun ətrafı deyil, rəsmi imperiya sənədlərində əyalət ərazisi hesab edilən şəhər ətrafı kəndlər və və qəzalar da götürülməlidir. Bəhs edilən mənbədə vergilərə dair hesabatlarda Biləcik, Baş Şahbulat, Aşağı Şahbulat, Layski, Göynük, Kiş, Oxut, Dodu, Zəyzit, Küngüt, Çayqırağı, Gəldək, Suçma, Böyük Hapıt, Kiçik Hapıt, ümumiyyətlə isə 66 kəndin, Ağdaş, Ərəş, Alpout, Xaçmaz, Padar, Qutqaşen, Bum və Şəki mahallarının (ətraf kəndləri ilə birgə) adları və onlarla əlaqədar müxtəlif faktik məlumatlar verilir.

Bu məlumatlar tam olmasa da, müəyyən dərəcədə burada bəhs edilən mövzu ətrafında müəyyən məqamları dəqiqləşdirəyə və nəticələr əldə etməyə imkan verir.

Ümumiyyətlə, bəhs edilən dövrdə ipəkçilik Azərbaycan qəzaları arasında emal sənayesinin ən mühüm sahələrindən biri idi. Bu isə tədqiq olunan dövrdə daha çox Cənubi Qafqazda artıq kifayət qədər öz mövqelərini möhkəmləndirmiş Rusiya imperiyasının yeni sahələrindən biri olan ipəkçilik sənayesinin tələbatı ilə bağlı idi. Təkcə bir faktı qeyd etmək kifayət edir ki, imperiya sənayesinin Qafqazdan daşıyıb apardığı xammalın 2/3 hissəsi Şimali Azərbaycanın payına düşürdü [1, s.29]. Həmin xammalın böyük hissəsini neft məhsulları təşkil etsə də, ikinci yerdə balıqçılıq, sonrakı yerdə ipəkçilik məhsulları gəlirdi. Bu məhsulun böyük bir hissəsini Şəki bölgəsində hazırlanan ipək məhsulu təşkil edirdi.

Hələ 1860-cı ildə Moskva sənayeçiləri Alekseyev və Voronin qardaşları Azərbaycanda ən böyük ipəkdorma zavodunu tikmək qərarına gəldilər. Onlar 1861-ci ilə qədər ipəkçilik müəssisələrində xam ipəyinn əsas hissəsinin alıcıları olan Cənubi Qafqaz İpəkçiliyin Təbliği Cəmiyyəti ilə müqavilə bağladılar və Nuxa şəhərinin ətrafında fabrik tipli ipəkçilik müəssisəsi tikməyə icazə aldılar [8, s.29].

Yenicə inşa edilmiş bu fabrikdə 432 dəzgah, buxar mühərriki ilə işləyən 64 barama açan hovuz var idi [3, s.6]. Bu fabrikin gücü ildə 1000 pud ipək istehsal edilməsi üçün nəzərdə tutulmuşdu [12, s.66], illik dövriyyə isə 0,5 milyon rublu keçmişdi [12, s.67]. Qeyd edək ki, miqyasına görə, həm is-

tehsal gücünə, həm də müəssisədə çalışan işçilərin sayı baxımından Şəki ipək fabriki öz dövrü üçün nəinki Rusiyada, həmçinin Qərbi Avropada ön sıralarda idi [13, s.188].

Təəssüflə qeyd etməliyik ki, bu müəssisənin fəaliyyətində çox keçməmiş ciddi problemlər yarandı. İlk mənbə xarakterli nəşrlərdə bu barədə elə bir tutarlı izah verilmir. Yalnız bəzi ümumi xarakterli yazılarda və məqalələrdə səbəb kimi ya o vaxtlar xarici firmalar tərəfindən Şimali Azərbaycana gətirilən barama toxumunun və ya qurdunun çirklənməsi ilə bağlı barama çatışmazlığı, yaxud da sahibkarların istehsal fəaliyyəti istiqamətini dəyişmələri, hətta müəaaisənin zərərlə işləməsi göstərilir. Bu variantlardan hansının həqiqətə daha yaxın olduğunu söyləmək çətindir. Lakin nəticə bu oldu ki, müəssisə göstərilən səbəblərin dəqiq olmasından asılı olmayaraq bu iri sənaye müəssisəsi fəaliyyətini dayandırdı [4, s.309].

***İpəkçilik sənaye sahəsində inkişafın sürətlənməsi.*** Lakin Şəki bölgəsində ipəkçilik sənayesi daha çox orta və xırda müəssisələr hesabına fəaliyyətini davam etdirdi. Artıq 1886-cı ilə qədər Nuxa şəhərində 12 fabrik tipli ipək emalı müəssisəsi var idisə, 1900-cü ildə bu rəqəm 39-a çatmışdı [9, s.42].

Nuxa şəhərində ən böyük zavodlardan biri 1883-cü ildə M.Gəncinsev tərəfindən icarəyə götürülmüş keçmiş Alekseevskaya idi [16, s.73]. Bu dövrdə bu müəssisədə 192 ipəksarıma maşını, buxar maşını ilə işləyən, 488 əyrici qurğu var idi. Faabrikdə hər il, orta hesabla 3 min pud quru barama açılırdı [16, s.74].

Bu isə o demək idi ki, buradakı əsrin ilk yarısında daha çox üstünlük təşkil edən sənətkarlıq ipək emalı müəssisələri ilə yanaşı, bir sıra kapitalist ipək emalı zavodları da fəaliyyətə başlaması və ilbəil istehsal güclərini artırması bölgədə yeni kapitalist sənaye sahəsinin formalaşmasına ciddi təsir göstərmiş, sosial-iqtisadi nəticələri baxımından da regionun simasını xeyli dərəcədə dəyişmişdi. göstərirdi.

Ümumiyyətlə, 1899-cu ildə Şimali Azərbaycan qəzalarında 60 ipək emalı müəssisəsi, fabrik inkişaf mərhələsində olan 27 müəssisə fəaliyyət göstərirdi ki, bu da bu sənaye müəssisələrinin ümumi sayının 13%-ni təşkil edir [1, s.73]. Qeyd etmək lazımdır ki, bu 60 müəssisə bu sənayenin bütün məhsullarının 2/3-dən çoxunu istehsal etmişdir. Azərbaycanın ipək emalı sənayesinin bütün məhsulu Rusiyaya, oradan da xaricə ixrac edilir və ixrac olunan məhsulların sayı durmadan artırdı. Belə ki, 1894-cü ildə Azərbaycandan 40 min puda yaxın ipək və barama yetişdirilmişdisə, 1900-cü ildə bu rəqəm artıq 161 min puda yaxın olmuşdu [2, s.31-32]. Bütün fabriklərdə 50 buxar qazanı, 3868 çarxlı 1676 ipək sap əyirən maşın var idi [7, s.3].

Bu rəqəmlərin illər üzrə hansı hissənin Şəki bölgəsinin payına düşdüyünü demək çətin olsa da, amma məlum olan bu idi ki, ipək məhsulunun az qala yarıya yaxın hissəsinin Şəkidəki ipəkçilik müəssisələrində istehsalı təkzib olunmazdır.

Əsrin 80-90-cı illərdə iki Şimali Azərbaycan quberniyasıında ipək emalı sənayesinin inkişaf sürətini bütün ipək emalı müəssisələrinin ümumi istehsal etdikləri məhsulun dəyərinin 1882-ci ildəki 490 min rubldan 1899-cu ildə 2,057 min rubla yüksəlməsi, başqa sözlə, 4,2 dəfə artması da sübut edir [15, s.398, 420, 422].

***İpəkçilk sənayesinin inkişafında yeni xüsusiyyətlər.*** Lakin bu məsələnin yalnız bir tərəfidir. İş bundadır ki, ipəkçilikdə yeni kapitalist münasibətlərinin yaranmasının doğurduğu nəticələr birmənalı olaraq müsbət və ya mütərəqqi sayıla bilməz. Hər şeydən əvvəl bu nəticələrin bəzi, ilk baxışda sosial xarakterli, eyni zamanda iqtisadi xarakterli olanları ilk olaraq qeyd edilməlidir.

Bu mənada Şimali Azərbaycan qəzalarında ipək emalı sənayesində texnikadan istifadə edilməsi özlüyündə mütərəqqi hal sayılsa da, lakin kiçik müəssisələrin sayının durmadan azalmasına da səbəb olurdu. Əgər 1873-cü ildə Azərbaycanın ipəkçilik qəzalarında 800 ipək emalı müəssisəsi var idisə, 1900-cü ilə qədər onların sayı 463-ə enmiş, istehsalın həcminin davamlı artması ilə 2 dəfə azalmışdı [5, s.211]. Bu cür azalma Şəki bölgəsindən də yan keçməmişdi.

Azərbaycan əyalətlərində ipək emalı sənayesinin kapitalist təkamülünün bariz sübutu ipəkçilik sənaye sahəsində Salam Lətif oğlu, Ağa Musa Hacı Məmmədov, Məşədi Fətulla Lütvəli oğlu və digər sahibkarlara məxsus kapitalist mülkiyyətinin nisbətən inkişaf etmiş formaları ticarət evlərinin yaranmasıdır [4, s.309]. Onların, əksəriyyəti istehsalın təşkili, mal dövriyyəsi baxımından xırda istehsal demək idi.

Deyilənlərə baxmayaraq Şəki bölgəsində ipəkçilik sahəsində kapitalist münasibətlərinin formalaşması və inkişaf etməsi promleminin hərtərəfli tədqiqinin bütövlükdə Şimali Azərbaycanda

kapitalist sənayesinin necə, hansı mərhələrdə və ərazilərdə yaranmasının müəyyən edilməsi üçün mühüm əhəmiyyəti var.

İş bundadır ki, Şimali Azərbaycanda kapitalist münasibətlərinin inkişafının başlıca xüsusiyyətlərindən biri onun bütövlükdə olmasa belə, Rusiya ilə müqayisədə bəzi sahələrdə, o cümlədən ipəkçilikdə daha sürətli inkişaf idi. Əgər Rusiyada kapitalizmin yaranması və formalaşması əsr yarım, yəni XVIII əsrin əvvəllərindən sənaye çevrilişinin başa çatmasına qədərki dövrü əhatə etmişdisə, Şimali Azərbaycanda bu proses bir qədər gec, XIX əsrin ortaları və II yarısını əhatə edirdi.

Bu baxımdan Şəki bölgəsində ipəkçilik sənaye sahəsində kapitalist münasibətlərinin formalaşması və daha da inkişaf etməsi ilə bağlı tədqiq olunan materiallar göstərir ki, neft sənaye sahəsi istisna olmaqla, Şimali Azərbaycan qəzaları arasında kapitalist sənayesinin formalaşması prosesinin daha tez başladığı və başa çatdığı istehsal sahəsi ipəkçilik, ərazi isə Şəki bölgəsi olmuşdur.

Prosesin digər əhəmiyyətli nəticəsi isə cəmiyyətin yeni təbəqələri - milli burjuaziya və fəhlələrin formalaşmasının əvvəli idi. Bu iki prosesin Şəki bölgəsində də cərəyan etdiyini göstərən faktlar müxtəlif statistik nəşrlərdə də öz əksini tapır.

***Nəticə.*** Apardığımız təhlillərdən məlum oldu ki, Şəki bölgəsində ipəkçilik sənaye sahəsinin formalaşması prosesi bir sıra məqamlar baxımından nəinki bölgəni, habelə ümumi ölkə üzrə müvafiq göstəriciləri qabaqlamışdır. Aydın oldu ki, ipəkçilik sahəsi həm bölgələr üzrə, həm də sənaye müxtəlif sahələrindəki eyni vəziyyət baxımından digər sahələri qabaqlamışdır. Kapitalist sənaye istehsalına xas cəhətlər məhz Şəki bölgəsində, xüsusi ilə ipəkçilikdə istehsalın əvvəlki manufaktura pillələrindəki ənənələrə əsaslanaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

XIX əsrin II yarısında Şimali Azərbaycan qəzalarında kapitalist sənayesinin formalaşması nəticəsində sənaye mərkəzləri sırasında ipək sənayesinin aparıcı rol oynaması Şəki şəhəri və xüsusi ilə də bölgəsinin simasını tamamilə dəyişmiş oldu.

Məhz ipəkçilik sənaye istehsal sahəsinin nəticəsi olaraq bölgə yeni sosial-iqtisadi münasibətlərin formalaşması baxımından da diyarda ilk sıralarda idi.

Lakin tədqiqat mövzumuzun tam, özü də bir məqalənin imkanları çərçivəsində araşdırılması müvafiq statistik məlumatların az olmaması, nəslən fəhlə kadrlarının yaradılması, bu rəqəmlərin diyar miqyasında, digər quberniyalarla müqayisə edilməsi və s. kimi məsələlərin tədqiqi ilə əlaqədar çətinliklər də qarşılaşdıq. Güman edirik ki, növbəti tədqiqatlarda bu çətinliklərin aradan qaldırılması mümkün olacaq. Bu məqalədə tədqiq edilmiş məsələlərin əldə edilmiş qənaət və ümumiləşmələrin bu istiqamətdə gələcək araşdırmalara səbəb olacağı şübhəsizdir.

## ƏDƏBİYYAT

1.Vəliyev T. XX əsrin əvvəlllərində Azərbaycanın ipək emalı sənayesi. Elm, Bakı: - 1977. 129 s.
2.Велиев Т.Т. Развитие капитализма в шелкообрабатывающей промышленности Азербайджана // Известия АН Азербайджанской ССР, серия экономики, 1971, №1, с. 31.
3.Гулишамбаров С.И. Историко-экономический обзор шелководства. Закавказского края. СПб., - 1893. - 336 с.
4.Гулишамбаров С. И. Обзор фабрик и заводов Закавказского края. Тифлис, 1894. - 418 с.
5.Гусейнов Г.Г. Характер экономических отношений в шелкомотальном и шелкоткацком производствах Азербайджана в XIX- нач. XX в. Автореферат канд. дисс. Баку: 1961. 32 s.
6.Исмаилов М.А. Влияние экономики России на хозяйственное развитие Азербайджана…. в XIX- нач. XX вв. В кн. // Присоединение Азербайджана к России и прогрессивные последствия. Академия Наук, Баку: -1955 -292 s.
7.Кавказ, 1896, 12 ноября.
8.Записки КОСХ, 1861, №1-2.
9.Литвинов-Фалинский В.П. Шелковая промышленность России. тип. В. Киршбаума, Санкт-Петербург: - 1902. - с.
10.Обзор Елизаветпольской губернии за (1892- … 1899 гг.). Тифлис.
11.Описание Шекинской провинции, составленное в 1819 году по распоряжению главноуправляющего в Грузии Ермолова, генерал-майором Ахвердовым и действительным статским советником Могилевским. Тип. Главного Управления Наместника Кавказского, Тифлис: - 1866. - 99 с.

12.Присоединение Азербайджана к России и прогрессивные последствия… в XIX - нач. XX вв. Академия Наук, Баку: - 1955 - 295 s.
13.Свод материалов по изучению экономического быта государственных крестьян Закав. края, Тип. Михельсона., т. IV, ч. II, Тифлис: - 1888. - 384 с.
14.Свод данных о фабрично-заводской промышленности в России... за 1885-1887 годы». СПб., - 1889. - 115 с.
15.Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Издательство Академии наук А.С.С.Р., Баку: - 1964. - 504 с.
16.Шавров Н.Н. Описание кавказского шелководства. Тип. Канцелярии Главнокоманд. Гражданской частью на Кавказе, Тифлис: - 1891. - 323 с.

**АНАР МАМЕДОВ**
*Диссертант Сумгаитского государственного университета*

## О ФОРМИРОВАНИИ ТОВАРНО-ДЕНЕЖНЫХ ОТНОШЕНИЙ В ШЕЛКОВОЙ ПРОМЫШЛЕННОСТИ В ШЕКИНСКОМ РЕГИОНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА

В XIX веке шелководство было одной из важнейших отраслей перерабатывающей промышленности азербайджанских провинций. Хотя, как мы уже говорили, формирование шелководства на промышленных базах в Северном Азербайджане относится ко второй половине века, усиление внимания к этому прибыльному направлению колониальной экономической политики совпало с первой половиной века. Хотя использование машин в шелковой промышленности Северного Азербайджана само по себе считалось прогрессивным, оно также приводило к постоянному сокращению числа мелких предприятий.

Исследуемые материалы по становлению капиталистических отношений в области шелководства в Шекинском регионе показывают, что среди районов Северного Азербайджана производственной зоной, где раньше начался и закончился процесс формирования капиталистической промышленности, была шелковая промышленность, а областью был Шекинский регион.

*Ключевые слова*: Шеки, район, экономика, промышленность, капитализм, шелководство, фабрика.

**ANAR MAMEDOV**
*Doctoral student of Sumgayit State University*

## ON THE FORMATION OF COMMODITY AND MONEY RELATIONS IN THE SILK INDUSTRY IN THE SHEKIN REGION OF NORTHERN AZERBAIJAN

In the 19th century, sericulture was one of the most important branches of the processing industry in the Azerbaijani provinces. Although, as we have already said, the formation of sericulture on industrial bases in Northern Azerbaijan dates back to the second half of the century, increased attention to this lucrative direction of colonial economic policy coincided with the first half of the century. Although the use of machines in the silk industry of North Azerbaijan was considered progressive in itself, it also led to a constant reduction in the number of small enterprises.

The studied materials on the formation of capitalist relations in the field of sericulture in the Sheki region show that among the regions of Northern Azerbaijan, the production zone, where the process of formation of the capitalist industry began and ended earlier, was the silk industry, and the region was the Sheki region.

*Keywords*: Shaki, region, economy, industry, capitalism, sericulture, factory.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Adil Baxşəliyev, t.e.d. Qabil Əliyev.*

UOT 94(479.24)

**ELLARA ƏHMƏDOVA**
*T.ü.f.d., ADNSU nəzdində Sənaye və Texnologiya kolleci*
**bike787@mail.ru**

# HACI ZEYNALABDİN TAĞIYEV (SXEMLİ TƏHLİL)

***" Xalqının böyük oğlu Hacı Zeynalabdin Tağıyev Azərbaycan xalqı haqqında müsbət fikirlər formalaşdırmış, gənclərin maariflәndirilməsinə böyük töhfələr vermişdir"***

***Azərbaycan Prezidenti İlham Əliyev***

*Milyonçu, sahibkar, mesenat, xeyriyyəçi, sağlığın da abidəsi qoyulan ilk azərbaycanlı H.Z.Tağıyev bir insan kimi sadə, cəsarətli, müdrik, səxavətli, diqqətçil, mərhəmətli, imanlı idi. Yerli iqtisadiyyatın müstəmləkə xarakterini sındıran ilk sahibkar kimi sənayenin bütün sahələrinə; kənd təsərrüfatına; nəqliyyata; ticarətə; rabitəyə; enerji sahəsinə sərmayə qoydu, Azərbaycan iqtisadiyyatının möhkəmləndirdi, inkişafına təkan verdi. Xeyriyyəçi kimi müsəlman Şərqində ilk qızlar məktəbinin, toxuculuq fabrikinin, Bakıda teatr binasının əsasını qoydu, Bakı-Şollar su kəmərinin tikintisində, xeyriyyə cəmiyyətlərinin açılmasında mühüm rol oynadı. Azərbaycanda xeyriyyəçilik ənənələrinin, maarifçilik ideyalarının banisinə çevrildi.*

*Açar sözlər*: Sahibkar, mesenat, xeyriyyəçi, maarifpərvər, ictimai xadim, insan.

***Giriş***. Azərbaycanın milli iftixarı, böyük mesenatı Hacı Zeynalabdin Tağıyevin xatirəsi Azərbaycan xalqı və dövləti tərəfindən uca tutulur, ehtiramla anılır. Qəlbi daim millət üçün çırpınan Hacı Zeynalabdin Tağıyevin parlaq xatirəsi və bəşəri ideyaları tarix boyu qədirbilən insanlar tərəfindən böyük hörmətlə yada salınır. "Kaspi" qəzeti yazır: "Əgər biz cənab Hacının himayədarlığından və xalqə olan səxavətindən yazsaq, onda gərək qəzetimiz bir il bütün saylarını buna həsr edə". Əfsanəyə çevrilən Hacı[1] Zeynalabdin Tağıyevin xeyriyyəçilik dəyərləri, sahibkarlıq istedadı haqqında daimi danışılır, yetəri qədər elmi əsərlər yazılır, sənədli filimlər çəkilir. Biz istədik ki, bu məqalədə Hacının örnək və ibrət olacaq həyatını, sahibkarlıq və xeyriyyəçilik fəaliyyətini gənc nəsillərə yeni üslubda təqdim edək, nəslin təlim-tər-biyəsində "el atası" – Tağıyevin timsalında töhfələrimizi çatdıraq, mesenant ənənələ-rinin davamçılarını yetişdirək. Məqsədimizin əsasını "el atası"nın qazandıqlarını, yaratdıqlarını qoruyub, irsimizi zənginləşdirmək, gələcək nəsillərə ötürməkdir.

[1] ***"Tağıyev Azərbaycanda yeganə adam idi ki, gördüyü xeyirxah işlərə görə Məkkəni ziyarət etməmişdən Hacı adına layiq görülmüşdü. Tağıyev öz əməlləri, mötəbərliyi ilə Hacı adını ən layiqli, müqəddəs niyyətli anlama ucaltmışdı. Belə ki xalq arasında Hacı deyiləndə Məkkə ziyarətində olmuş minlər, milyonlarla zəvvarlar yox, vətəninə, millətinə o qədər canı yanan, xeyirxahlığı dillər əzbəri olan Hacı Zeynalabdin Tağıyev nəzərdə tutulurdu". http://www.anl.az/down/meqale /525/2010 / dekabr/ 148388.htm***

HACI ZEYNALABDİN TAĞI OĞLU TAĞIYEV

(1838– 1924)

SAHİBKAR MİLYONÇU

Yerli iqtisadiyyatın müstəmləkə xarakterini sındıran ilk sənayeçi

RUSİYA İMPERİYASININ HƏQİQİ DÖVLƏT MÜŞAVİRİ

MESENAT

II VƏ III DƏRƏCƏLİ MÜQƏDDƏS STANİSLAV ORDENİ LAUREATI *[1]

SAĞLIĞINDA ABİDƏSİ QOYULAN İLK AZƏRBAYCANLI

ŞƏRQİNDƏ İLK MÜSƏLMAN QIZLAR MƏKTƏBİNİN YARADICISI

SAHİBKARLIQ — FƏALİYYƏTİ — XEYRİYYƏÇİLİK

**SAHİBKARLIQ FƏALİYYƏTİ**

- AĞIR
- YÜNGÜL
- YEYİNTİ

sənaye sahəsinə sərmaye qoydu

Sahib idi:
- ✓ 2 qazanxanadan ibarət kerosin , 2 – ağ neft və sürtgü yağı (1870) zavodlarına
- ✓ Balaxanıda, Bibiheybətdə yerləşən 30 desyatin torpağa
- ✓ neft məhsullarının daşıyan: 2 şxunna (yelkənli gəmi), 3 gəmiyə, 2 quru doka, körpüyə
- ✓ Tsaritsında (Volqoqrad), Nijni Novqorodda, Moskvada anbarlara;
- ✓ Neft kəməri aksioner şirkətininə (1889)
- ✓ Balıqçılıq vətəgələrinə (Kür ətrafı və Xəzər qırağı (1890)); Dəyirmana (1907)

- ✓ Qafqazda ilk toxuculuq fabrikini (1900), Cavadda pambıqtəmizləmə zavodunu (1909) tikdirdi;
- ✓ Bakıda ticarət evi açdı;
- ✓ Balıq məhsullarının saxlamaq üçün Mahaçqalada: soyuducu zavodu, buz istehsalı zavodu, çəllək zavodu inşa etdirdi;
- ✓ 1-ci gildiya tacir rütbəsinə (1882), Ali Fərmana əsasən Həqiqi Mülki Müşavir (1907) tituluna layiq görüldü;
- ✓ "Enerji gücü (Ağ Şəhərdə və Bayıl burnunda iki elektrik stansiyası olan)" səhmdar cəmiyyətinin (1899) sədr müavini, Bakı Tacir Bankının (1914) şura sədri vəzifəsində çalışırdı;
- ✓ Londonda "Rusiya nefti və maye yanacağın hasil edilməsi cəmiyyəti" (*"Oleum"* (1897)) təsis edən Şuranın 6 üzvündən biri seçilmişdi və s.

**XEYRİYYƏÇİLİK FƏALİYYƏTİ**

- Quba tərəfdə Atlıxanda, Yevlax ətrafında, Ənzəli və Rəşt arazisində böyük meşələrin;
- İranda karvansaraların
- Şəhərlərdə böyük malikanələrin binaları və nümayəndəliylərin
- Moskvada 4 mərtəbəli iri sarayın

sahibi

MESENANT, MAARİFPƏRVƏR İDİ

- ✓ Bakı orta-texniki məktəbin (1888) 1897-ci ildən fəxri himayəçisi oldu; [7, 38-47]
- ✓ Mərdəkanda bağçılıq məktəbini açdı (1895);
- ✓ Gəncədə (1896), Naxçıvanda (1896), Şamaxıda (1897), Tiflisdə (1906) məktəblərin açılmasın da yardımçı oldu;
- ✓ Bakıda ilk qızlar məktəbini (1898-1901) tikdirdi*[2]; "Kaspi" qəzetini*[3] (red. – Ə. Topçubaşov) satın aldı (1895). "Müsəlman Kaspi"si adı ilə naşirliyini öz üzərinə götürdü;
- ✓ "Həyat" qəzetin (1905), "Füyuzat" dərgisinin (1906) nəşrinə maddi köməklik göstərdi;
- ✓ Bakıda "Ticarət mərkəzi" inşa etdirdi (memar K. B. Skureviçin layihəsi əsasında (1896));

**2.Z.Tağıyev qızlar məktəbini xanımı təhsilsiz Sona xanımın təklif ilə açdı. Binanı Nikolayevski (Kommunist) küçəsində milli-romantik üslubunda inşa etdirdi. Bakıda Dövlət Universitetinin yaradılmasına da külli miqdarda vəsait ayırdı. *3. "Kaspi" - Bakıda 1881-ci ildən 1919-cu illədək rus dilində çıxan burjua qəzeti idi. "Mən mətbuatı xalqın mənəvi-maarif və iqtisadi cəhətdən yüksəlişinin güclü vasitələrindən biri kimi görürəm, buna görə də qəzetlərə maddi yardım göstərməyi öz mənəvi borcum sayıram" /**Hacı Zeynalabdin Tağıyev** [8,3]*

**1. Müqəddəs Stanislav ordeni (1931-1917) "Mükafatlandırmaq, həvəsləndirmək" məqsədi ilə aşağı və böyük ictimai xidmət və ictimai əhəmiyyətli fəaliyyətə görə təltif olunurdu. I dərəcəli — gümüş ulduz, böyük qızıl xaç və sol tərəfə taxılan böyük lent; II dərəcəli — qızıl xaç və kiçik ölçülü lent; III dərəcəli — kiçik qırmızı xaç (sinə üzərinə taxılır); IV dərəcəli — 1839-cu ilə qədər mövcud olmuşdur.*

HACI ZEYNALABDİN TAĞIYEV

İÇTİMAİ XADİM — SADƏ — CƏSARƏTLİ — MÜDRİK — SƏXAVƏTLİ — DİQQƏTCİL — MƏRHƏMƏTLİ — İMANLI

(SADƏ … İMANLI) İNSANDI

İÇTİMAİ XADİM KİMİ

- ✓ Dəfələrlə Bakı dumasına üzv seçilmişdi*:
  - Şəhərin mühüm problemlərinin həllində
  - Qərarların müzakirə və qəbulunda
  - Qərarların həyata keçməsində

  köməklik edirdi;
- ✓ Bakı Mariinski qadın gimnaziyasının;
  - Aleksandra rus-müsəlman qız məktəbinin;
  - Orta texniki
  - Kommersiya
  - Tiflis şiə müsəlman

  məktəblərinin fəxri hamisi, nəzarətçisi kimi təsdiq olunmuşdu;
- ✓ Bakıda fəaliyyət göstərən müsəlman, rus, erməni və yəhudi xeyriyyə cəmiyyətlərinin fəxri sədri seçilmişdi;

NƏTİCƏ ⟹ Z.Tağıyevin sahibkarlıq, ictimai və xeyriyyəçilik fəaliyyəti diqqətdən kənarda qalmadı. Hökumət onu:

- ➢ 1882-ci ildən "1-ci gildiya tacir"*1 rütbəsinə;
- ➢ 1907-ci ildə Ali Fərmana əsasən "Həqiqi Mülki Müşavir"*1 tituluna
- ➢ 1900-cü ildən "Bakının fəxri vətəndaşı" adına
- ➢ Müqəddəs Stanislav ordeninə
- ➢ "Səylərinə görə" üç qızıl medala

layiq gördü;

- ➢ İranın "Şiri-xurşid" Ordeni*3
- ➢ Buxaranın (2-ci dərəcəli ) Qızıl Ulduzu

ilə təltif edildi.

**Şəhər özünəidarə sahəsində müsəlmanların hüquqlarını məhdudlaşdıran tədbirlərin ləğvini təklif edir (1905) *1. 1876-cı ilin mart ayından etibarən gildiya ticarət qaydası Azərbaycanda da tətbiq edilməyə başlandı. Birinci gildiya taciri: Rusiyanın hər yerində başqa dölətlərin mallarını satmaq üçün kontor və anbar açmaq hüququna malik idi. İkinci gildiya taciri: şəhadətnamə aldığı qəzada Qafqaz canişinliyi tərəfindən siyahıda göstərilən malları satmaq üçün dükan aça bilərdi. *2. Rusiyanın rütbələr cədvəlində bu dördüncü mülki titul hərbi iyerarxiyada general-mayor rütbəsinə uyğun gəlirdi. *3. İranın Qacarlar sülaləsi hakimiyyəti dönəmində dövlət mükafat nişandı. 1808-ci ildə Fətəli şah Qacar tərəfindən təsis edilmişdi. Bəzi qaynaqlarda "Şir-e Xurşid" kimi də yazılır. Bu ordenin I, II və III dərəcələridə vardı.*

İNSAN KİMİ

<u>**SADƏ**</u>: Bakıda, İçəri şəhərdə, başmaqçı ailəsində dünyaya göz açmış H.Z.Tağıyevin doğum tarixi bu günə qədər mübahisə doğurur:

- ➢ 1899-cu ildə Tiflisdə Zaqafqaziya Şiə Ruhani İdarəsinin verdiyi doğum haqqında şəhadətnamədə H.Z.Tağıyevin doğum ili - 1823-cü il göstərilir;
- ➢ Digər ədəbiyyatlarda isə H.Z.Tağıyevin doğum ili - 1838-ci ildən 1842-ci illər arasında dəyişir. EHTİMAL :
  - ✓ H.Z.Tağıyevin valideynlərinin savadsız olması, doğum qeydiyyatında səhvə yol verməsi;
  - ✓ Sona xanım Ərəblinski ilə ikinci evliliyi zamanı H. Z. Tağıyevin özünü "cavanlaşdırması" .

10 yaşı olanda Zeynalabdinin anası Ümmü xanımı itirdi. Bənna yanına da usta köməkçisi, 12 yaşında daş yonan, 15 yaşında bənna işləyir. Tədricən tikinti ustası və təşkilatçısı kimi tanınır.

<u>**CƏSARƏTLİ, TƏMKİNLİ:**</u> 1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğvindən sonra H.Z.Tağıyev «Соучастники» ("Şəriklər") birliyinin təsisçilərindən biri kimi Bakıda keçirilən ilk müzayiqələrdə (torq (1872)) iştirak edir. Cəsarət toplayaraq neft işində bəxtini sınayır. Şəriki ilə birlikdə 1873-cü ildə Bibiheybətdə 9 min rubla torpaq sahəsi alaraq quyu qazdırmağa başlayır, "H.Z.Tağıyev neft sənayesi firması" yaradır. Uzun müddət neft görünmür. Şərikliyə son qoyulur. Təmkinlə, inamla axtarışı davam etdirir. 1878-ci ilin əvvəlində çoxdan gözlənilən neft fəvvarə vurur. Hacı Bakının ən varlı adamlarından birinə, kiçik neftçıxarma müəssisəsi qazma, hasilat, emal və nəqletməni özündə birləşdirən iri istehsalat kompleksinə çevrilir. XIX əsrin 80-ci illərində 10 mln.
1893-cü ildə 20 mln.
1896-cı ildə 32 mln.

pud* neft hasil edir ən iri – "Nobel qardaşları" şirkətini geridə qoyur.

** 1 pud = 16,38 kq*

HACI ZEYNALABDİN TAĞIYEV

İNSAN KİMİ

MUDRİKDI

**H.Z.TAĞIYEV:**

- ✓ mədənlərini →
- ✓ neft kəmərini →
- ✓ neft daşıyan donanmasını →
- ✓ dəmiryolu sisternləri →
- ✓ Rusiyanın müxtəlif şəhərlərində:
- ▪ ağ neft, ▪ mazut } anbarları olan firmasını →

ingilis bankiri E.Qubbardın başçılıq etdiyi qrupa 5 mln. rubla satır. Onun müəssisələri əsasında 1897-ci ildə ingilislər tərəfindən "Rusiyada neft və duru yanacaq çıxaran cəmiyyət" ("Oleum") yaradılır. H.Z.Tağıyev "Oleum"un direktorlarından*1 biri kimi qalır. 1902-ci ildə "Anait", "Yeni Ararat", "Anonim" kimi neftçıxarma şirkətlərinin səhm-lərini əldə edərək yenidən neft biznesinə qoşulur.

UÇUZ SATIŞIN SƏBƏBİ

- ➢ XIX əsrin 90-cı illərinin ikinci yarısında Bakı neft sənayesi iri inhisarlar arasında bölüşdürülməsi;
- ➢ Rəqabətin mənasızlığı.

NƏTİCƏ:

- neft sənayesində yeni böhranın baş verdi;
- neftin hasilatına, daşınmasına çəkilən xərclər artdı;
- ixracla bağlı çətinliklər yarandı

YEKUNDA:

- uzaqgörənlik-müdriklik H.Z.Tağıyevi müflislikdən xilas etdi; şaxələnmiş təsərrüfatın inkişafına təkan verdi;
- H.Z.Tağıyev satışdan əldə etdiyi kapitalı

YÜNGÜL, YESİNTİ (SƏNAYE), ELEKTROENERGETİKA, MALİYYƏ, TİCARƏ, NƏQLİYYAT, RABİTƏ

SAHƏSİNƏ QOYDU

- ▪ Bakı - Tiflis (1883) →
- ▪ Biləcəri - Dərbənd - Petrovsk (Mahaçqala) (1900) } dəmir yolu xəttilərini işə saldı; Şuşa-Yevlax dəmir yolu çəkilişi lahiyəsini təklif etdi;
- ▪ "Atlı-dəmiryol" səhmdar cəmiyyətini(1887)*2 ; Bakıda"Lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti"ni (1897); "Xəzər manufaktura cəmiyyəti"ni; "Enerji gücü" səhmdar cəmiyyətini (1899) } təsis etdi; *"Kür-Xəzər gəmiçilik cəmiyyəti"ni Xəzər dənizində "Qafqaz və Merkuri" və "Şərq" şirkətlərinə qarşı dura biləcək yeganə qüvvəyə çevirdi.*
- ▪ "Bakı-Batum" neft kəməri aksioner şirkətinin Ağabala Quliyev) üzvlərindən biri oldu;

NƏTİCƏDƏ:

- ➢ Toxuculuq fabriki (1900) → tikildi;
- ➢ Cavadda pambıqtəmizləmə zavodu (1909) → salındı;
- Quba qəzasında 43,7 ha üzüm bağları; Metal emalı sahələrində müəssisələr açıldı
- ➢ Ağ Şəhərdə və Bayıl burnunda elektrik stansiyaları yaradıldı; Telefon xətləri çəkildi;
- ➢ Tiflis-Batum dəmir yolu Bakını Qara dəniz sahili ilə əlaqələndirdi ►
- ➢ Cənubi Qafqaz dəmir yolu Ümumrusiya dəmir yoluna birləşdirildi ► } ticarətin genişləndi;
- ➢ Daxili və xarici şəhərlərdə dükan və kontorlar açıldı; Bakı konkası (1889) hərəkətə gəldi;
- ➢ "Bakı-Batum" neft kəməri*3 ilə Bakı nefti beynəlxalq bazara çıxdı.

- ▪ Bakı ticarət evini - (1903) *4satın aldı;
- ▪ Balıq vətəgələrin sayını artırdı (1906); ərazisini - Kürün mənsəbindən cənubda Dərbəndə və şimalda Petrovska (Mahaçqala) kimi genişləndirdi; "balıq sənayesi səhmdar cəmiyyəti"nin (1916)
- ▪ İlk yerli bankın - Bakı Kupeçeski Bankının (1914)
- ▪ "H.Z.Tağıyev və Ko" korporasiyasının (1915) } əsasını qoydu;

**1917-ci ilin sonunda onun sərvətinin miqdarı 30 milyon rubla çatır.*

**1. Direktorlar Şurasınınnın 6 üzvündən biri idi. *2. Beş mesenatla cəmiyyətini təşkil edir. *3.Uzunluğu 800 km olan möhtəşəm kəmərin inşası 1897-ci ildə başlayıb, 1907-ci ildə tamamlandı. *4. Pasaj 1896-1898-ci illərdə polak memarı Kazimir Skureviçin layihəsi əsasında neft milyonçusu Nikita Şagidanovun sifarişi ilə tikilib. Şagidanovun adını daşıyıan bina satıldıqdan sonra Tağıyevin adını daşıyır/ "Пассаж Тагиева в Баку".*

## HACI ZEYNALABDİN TAĞIYEV

İNSAN KİMİ

### SƏXAVƏTLİDİ

- Sagirdlərə maddi yardım göstərir;
- tələbələrə təqaüd *[1] → } verir;
- müəssisələrində çalışan fəhlələrə yaxşı məvacib → } verir;
- fəhlələri üçün məscid → } təşkil edir;
- övladları üçün məktəb → } təşkil edir;
- bilik artırma kursları → } təşkil edir;
- aptek → } açır;
- tibbi məntəqə } açır;
- şəhərdən Bibiheybətə kimi şose yolu çəkir;
- İlk xeyriyyə cəmiyyəti *ˆ yaradır;
- "Nəşr və maarif", "Nicat" cəmiyyətlərinin yaranmasında köməyi olur;
- Bakının infrastrukturunun inkişafına yönəlmiş layihələrin həyata keçirilməsində mühüm işlər görür:
  - at-dəmir yolunun (1889)*[3] salır;
  - vəsaiti hesabına Bakı şəhərinə su kəməri*[4] (1874) çəkdirir;
  - 183 min 533 rubl xərc çəkərək Bakıda (1901)*[5], 300 min rubldan çox vəsait sərf edərək Tiflisdə (1906) ilk müsəlman qızlar məktəbini tikdirir;
  - "Bakını içməli su ilə təmin" layihənin texniki təchizatını maliyyələşdirir*[6]

. **1.Həmin tələbələr arasında sonralar görkəmli ictimai və dövlət xadimləri, alimlər, həkimlər, mühəndislər - Həsən bəy Ağayev, Nəriman Nərimanov, Məşadi Əzizbəyov, M. Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Əziz Əliyev, Ağa Axundov, Qara Axundov, Qarabəy Qarabəyov, Xudadad bəy Məlik-Aslanov, Şahbaz Rüstəmbəyov və bir çox başqaları var idi. *2. "Müsəlman Xeyriyyə Cəmiyyəti"(1905) *3.At - dəmir yol xətinin tikinti işləri B.A.Rotulda tapşırılır. 1890 iln sonunda rəhbərlik L. M. Rijanskiyə həvalə edilir. İlk ildəcə tikintiyə 52 min rubl pul ayrılır. Relslər arasında məsafə 1524 mm-dir idi. 1923-cü ilin payızında xətlər elektrikli tramvayla əvəzlənir.*4.H.Z.Tağıyevin səxavəti "Səyinə görə" ya-zısı olan gümüş medalla mükafatlandırıldı *5. İmpe-ratriça Aleksandra Fyodorovna adına tikilən qız məktəbinin xərcin bəzi ədəbiyyatlar da 150 min rubl göstərilir. *6.1901-ci ildə Tağıyev su axtarışı - kəşfiyyat (yeraltı suların qazılması) işlərinin aparılmasına görə şəxsi vəsaitindən istedadlı Britaniyalı mühəndis Uilyam Lidnleyə 25 min rubl verir. Xudatdan şimal - şərqə doğru meşədə şəffaf, təmiz bulaq suyu olduğu aşkarlanır. Yalnız II Nikolayın 6 oktyabr 1909-cu il tarixli fərmanı ilə Bakı şəhərinə 27 milyon rubldan çox olmamaq şərtilə istiqraz buraxılmasına icazə verməsindən sonra Şollar su kəməri layihəsi fəal tikinti mərhələsinə qə- dəm qoyur. Bakını ən yaxşı içməli su ilə təmin edən*

### DİQQƏTCİLDİ

HACI ZEYNALABDİN TAĞIYEVİN*[1]
DİQQƏT AYIRDIĞI SAHLƏR

ABADLIĞ | MÜTƏXƏSSISLƏRİN YETİŞDİRMƏSİ | MİLLİ KÖK | İNCƏSƏNƏT

- ✓ Küçələrin təmizliyi uğrunda mübarizə aparır; yanğından mühafizə xidmətinin yaradılmasına, şəhərin abadlığı üçün vəsait ayırır. Bu məqsədlə 1895-ci ildə şəhər idarəsinə 35 il müddətinə 750 min rubl borc verir;
- ✓ Azərbaycanlı mütəxəssislərini yetişdirməkdən ötrü Bakıda yaxşı professorların dərs dediyi Dövlət Politexnik məktəbinin*[2] açılmasına nail olur;
- ✓ Xaricə təhsil almağa göndərərkən gənclərdən "vətənə qayıdacaq və yalnız müsəlman qızlarla ailə quracaqlar"ı barədə iltizam alır; Milli kökü qorumaq məqsədlə:
  - qadınların statusunu qaldırır;
  - Şərqdə kübar müsəlman qızlar üçün ilk məktəb-pansion açır (1901);
  - Qız məktəblərinin sayını artırır;1915-ci ildə Bakıda qız məktəbinin sayı 5 çatdı, onlardan biri də Balaxanıda idi;
- ✓ İncəsənətə önəm verir. Məşhur rəssamların əsərlərindən ibarət zəngin kolleksiya yaradır*[3].

**1. Mesenat xeyriyyə işlərinə qızıl pulla 1 milyon rubl xərcləyib. Bugünkü meyarlarla yüz milyonlarla dollara bərabərdir.*2.Qeyd: texniki təhsilin əsası Azərbaycanda ilk dəfə 1887- ci ilin noyabr ayının 10-da Bakı şəhər Duması tərəfindən Bakıda texniki məktəbin yaradıl-ması ilə qoyulmuşdur. Məktəbin mexanika şöbəsi üzrə əlli, inşaat şöbəsi üzrə əlli beş nəfərdən ibarət buraxılışı olur. 1916-cı ildə məktəbdə təhsil alan 494 tələbədən cəmi 20 nəfəri azərbaycanlı idi. 1918-ci ildə verilən qərara əsasən məktəb Politexnikum adlanır. 12 mühəndis olan 62 nəfər ali təhsilli azərbaycanlı var idi.*3.Kolleksiya indiki Rüstəm Mustafayev adına İncəsənət Muzeyinin fondlarında saxlanılır.*

HACI ZEYNALABDİN TAĞIYEV

İNSAN KİMİ

TOLERANTDI

H.Z.Tağıyev qarşı tərəfin konsepsiyasını anlamağı bacarırdı. Başqasının mənəvi hisslərinə, öz mənəvi duyğularına hörmət gözlədiyi üçün hörmətlə yanaşırdı. Məhz buna görə Bakıda müsəlman, rus, erməni və yəhudi xeyriyyə cəmiyyətlərin fəxri sədri seçmişdi. Hətda Bakıda erməni teatr cəmiyyətinin büdcə kəsirini tamaşaların birindən əldə et-diyi gəlirlə bağladı. Erməni truppasının direktoru Ovanes Abelyan Tağıyevə erməni teatrının ink-işafındakı danılmaz böyük xidmətlərini görə tə-şəkkür etdi: "Yaşasın teatrın ilk yaradıcısı Hacı Zeynalabdin Tağıyev" kəlmələri ilə fikrini tama-mladı. Müxtəlif inamda və fikirdə ola biləcəyi və həmin insanlara qarşı münasibətin necə forma-laşacağını aydın görüdü. H.Z.Tağıyev fərqliliyi zənginliyə, müzakirələri inkişafa, iğtişaşları sülhə, fərdiyyətçiliyi harmoniyaya aparan əsas amillərə mənsub idi. "Bir gün Bakı varlıları Hacıya şikayət edirlər ki, ermənilər şəhərin aşağı məhəllələrində evlər tikdirirlər. Tədbir görüb, bunun qabağını al-maq lazımdır. Hacı deyir: "Qoy tiksinlər. Qabağını

*Qeyd:*

TAĞIYEV TEATR BİNASININ

YENİDƏNQURMASI SƏBƏB ⇨ YANĞIN

08.12.1899

Binanın yenidən qurulması inşaat mühəndisi Pavel Koqnovitskinin layıhəsi əsasında həyata keçirildi. Lahiyə Bakı Qubernatorluğunun tikinti idarəsi tərəfindən təsdiq edilmişdi. 1900-cü ildə Tağı-yev teatrının binası bərpa edildi. 80 min rubl xərc-lədi

21.02.1909*[4]

Yanğını söndürülməsin də "Qafqaz və Merkuri" paroxod şirkəti də isti-rak edib. Yenidənqurma layıhədə 600 yeri olan, iki mərtəbəli zal deyil, üç mərtəbəli zal nəzərdə tutuldu. 1910-cu il oktyabrın 1-də teatr yenidən L.Tolstoyun "Maarifçiliyin meyvələri" pyesi ilə tamaşaçıların üzünə açıldı. Tağıyev sonradan teatrı qardaşı oğlu Məmməd Bağır

1918-ci il yanğın

Binanın bərpası haqqında qərar qəbul edildi. Teatrın yalnız fasadları qorundu. 1922-ci ildə təmir

XX əsrin 80-ci illərin sonu

Teatr binası yararsız vəziyyətə düşdü. Şəhər rəhbərliyi binanın sökülməsinə qərar verdi.1992-ci

DİQQƏTÇİLDİ

1873-cü ildə

Azərbaycan tarixində əlamətdar hadisə baş verdi - milli teatrın əsası qoyuldu. Aktyor truppasıbının çoxdan gözlədiyi teatr səhnəsini isə H.Z.Tağıyev bəxş etdi. XALQIN:

- maariflənməsinə →
- mədəni səviyyəsinə →
- doğma dilinin inkişafına →

} diqqət ayıran Hacı

1883-cü ildə öz vəsaiti hesabına Azərbaycanda ilk teatr binasını tikdirdi*[1]. Teatrda:

- ✓ Qadınlar üçün loja ayırdı;
- ✓ xeyriyyə məqsədilə tamaşa*[2]
- ✓ həvəskar truppalar*[3] üçün teatr səhnəsini icarəyə → } verilməsinə şərait yaratdı;
- ✓ milli operanın – Ü. Hacıbəyov "Leyli və Məcnun"(1908) premyerasını etdi.

1900-cü il N. Nərimanov yazır: "Bu möhtərəm şəxsin fəaliyyəti insanları həqiqət işığına aparır! ... Badukübənin ziyallı gəncləri bu teatrda ildə bir neçə dəfə türk dilində komediya tamaşasına baxmaq imkanı əldə edirlər. Kirayə haqqı axşam üçün yüz rubl olsa da, hörmətli Hacı nəinki götürmür, həm də xeyriyyə məqsədləri üçün əlavə töhfələr verir... hətta, teatrın yenidən qurulması üçün yüz minə yaxın pul bağışlayır."

**1. 1882-ci ildə memar Xrisanf Vasilyev tərəfindən hazırlanan binaının layihəsi təsdiq üçün Bakı şəhər dumasına təqdim edildi. 1883-cü il noyabrın 27-də Tağıyev teatrının açılışı, səhnədə N.A.Potemkinin "Ruhcan kasıblar" və "Qaraçılar" dramının nümayişi barədə "Kaspi" qəzeti yazır: "Zalda həmən günü anşlaq idi. Hər şey uğurla oynanıldı, alqış sədaları kəsilmədi və teatrın impresariosu Q.Qonçarov iki dəfə səhnəyə çağırıldı"/bax.*Qeyd. *2.1890-cı il tamaşada toplanan 300 rubl pul Bakı real məktəbinin kasıb şagirdlərinin xeyrinə xərcləndi. *3.1898-ci il aprelin 20-də həvəskarlar truppası İsgəndər bəy Məlikov "Yaxşılığa pis" tamaşasını nümayiş etdirdilər. Məhz ilk qadın aktrisalar bu teatrın səhnəsində fəaliyyətə başladılar. *4. "Molla Nəsrəddin" jurnalı (1909 mart) Karika turada fanatlar və ruhanilər əl-ələ tutaraq sevinclə rəqs edir. Hüseyn Ərəblinski göz yaşı*

HACI ZEYNALABDİN TAĞIYEV

İNSAN KİMİ

**MƏRHƏMƏTLİDİ**

H.Z.Tağıyev rəhm, şəfqət, acıma, insaf hisslərinə malik bir insan idi Nargin adasından dustaqxananı şəhərdə tikdirdiyi dəyiman binasına köçürdür. Bu addımı Hacı bəzi mənbələrdə Nargin adasına gediş gəlişdən əziyyət çəkən insanların, digərlərin də isə yüksək rütbəli rəyisin xahişilə atdığı qeyd olunur. İstinad da oxuyuruq: "O zamanlar dustaqları Nargin adasında saxlayırdılar. Camaat ora gedib-gələndə yaman əziyyət çəkirdi. Axırda Zeynalabdinə müraciət edirlər ki, bu işdə bizə kömək elə, dərdimizə bir çarə qıl. O da, o zaman şəhərin ucqar yeri hesab edilən Quba (Füzuli) meydanı ilə Kömürçü meydanı arasında tikdirdiyi beşmərtəbəli dəyimanı (indiki şirniyyat fabrikini) dustaqxana üçün verir". Digər istinad da isə belə qeyd olunur: " Bakıya yüksək rütbəli təzə məmur təyin edilir. Hacı onun görüşünə gedir və deyir ki, sizə nə kömək lazımsa, utanmayın, söyləyin, mən padşahlıqdan heç nə müzayiqə (əsirgəməm – E. Ə.) edən deyiləm. Yüksək rütbəli şəxs izah edir ki, "dustaqları Nargin adasında saxlayırıq, işçilər gedib-qayıtmağa çox vaxt sərf edirlər. Həm də əziyyət çəkirlər; mümkünsə bu işdə bizə kömək edin". Hacı Zeynalabdin tikilib qurtarmış dəyirman binasını dustaqxana üçün hökumətə verir. Xaricdən gətirdiyi dəyirman avadanlığını toxuculuq fabriki yerləşən əraziyə daşıtdırır, orda dəyirman tikdirir. Özü və ailəsi yaşamaq üçün fabrikin yaxınlığında xüsusi mülk də tikdirir". XX əsrin əvvəllərində Britaniya müstəmləkəsi olan Pakistan ərazisində yerli əhali arasında kütləvi şəkildə ölümlə nəticələnən ağır xəstəlik yayılır. Həmin vaxt Hacı Zeynalabdin Tağıyev şəxsi vəsaiti ilə 300 min ampula peyvənd alıb Pakistana göndərir. Pandemiyanın qarşısı alınır. 1947-ci ildən bu fakt Pakistanın tarix dərsliklərinə daxil edilir. 200 milyonluq qədirbilən Pakistan xaqlı və dövləti Hacı Zeynalabdin Tagıyevin ruhuna bu gün də dualar oxuyur. Xeyirxah ürəyinə görə Tağıyevi xalq arasında "El atası" adlanır [6,3]. Xalqına, tarixinə hörmətlə yanaşıb, uça tutmasını təsdiqləyən hadisələrdən biri: *"Hacı Zeynalabdin Cənubi Qafqaz müsəlmanlarının nümayəndəsi kimi çar III Aleksandrın tac qoyma mərasimində iştirak edirmiş. Nazirlər sovetinin sədri çarın sağ*

*cı Zeynalabdinə çatır. Nazirlər sovetinin sədri elə güman edir ki, Hacı rus dilini bilmir. Çara deyir: "Ваше величество, это представитель дикого народа (Zati-aliləri, bu, vəhşi xalqın nüma-yəndəsidir). Tağıyev təmkinini pozmadan cavab verir: "Мы не дикие, мой народ не дикий, он имеет свою многовековую, богатую историю» (Biz vəhşi deyilik, mənim xalqım vəhşi deyil, o, çoxəsrlik zəngin tarixə malik bir xalqdır)"* /https://portal.-azertag.az/az/node/ 675.

**DİQQƏTÇİLDİ**

İnşaat incəsənətinə önəm verən H.Z.Tağıyev bina və arxitektura ansambllarının layihələndirilməsi və tikilməsinə də qiqqət ayırırdı. Bakıda tikilən binaların möhtəşəm arxitekturasına, eksteryer və interyer fərqliliyinə, avropa memarlıq üslubunun Azərbaycan memarlıq ənənələri ilə qarışığına xüsusi fikir verirdi. Özünəməxsus memarlıq dəsti- xətti var idi. H.Z. Tağıyevin tikdirdiyi binalar sırasında: ikimərtəbəli yaşayış evi (1893-95);Abşeronun Mərdəkan kəndindəki bağ evi (1893-95); Abşeronun Zığ kəndindəki toxuculuq fabriki (1896-99); Müsəlman qızlar məktəbinin binası (1898-1901); H.Z.Tağıyevin sarayı (1893-1902); Tağıyev teatrı (1899-1904), bank binası və s. O, üç ilə şəhərin mərkəzində Yuzef Qoslavskinin layihəsi əsasında klassik order sistemində, müxtəlif memarlıq üslubunda (rokoko, barokko, modern) bir üzü Bariyantinski, digəri Starıy politseyski, üçüncüsü Merkuri, dördüncüsü isə Qarçakov küçələrinə baxan böyük bir saray tikdirdi. Sarayın hər dörd fasadı və damdakı nəhəng qübbələri və fərdi kompozisiyası ilə uzaqdan diqqəti cəlb edirdi. Hər cəhətdən, həm xarici ar-xitekturasına, həm də daxili bərbəzəyinə görə şəhərin ən möhtəşəm binalarından biri sayılırdı. Binanın hər dörd tinində və baş girəcəyinin qabağında nəhəng qaz fanarı yanırdı. Qızlar mək-təbinin binası memarlıq baxımından Azərbaycan memarlığının milli-romantik üslubundadı. Əsas fasaddakı divar bir cərgə ağ, digər cərgə isə qızılı daşdan hörülmüşdü. "Neftçilər" prospekti 95/97 ünvanında yerləşən, hazırda sökülmüş olan binaları da 1880-ci illərdə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev tikdirib. https://banker.az.milyoncularin-tikdiyi-

MƏRHƏMƏTLİ → HACI ZEYNALABDİN TAĞIYEVİN VƏSAİTİ HESABINA

[4, 165-16].

- ✓ Petrovsk-Portda tikiş fabriki →
- ✓ Peterburqda məscid →
- ✓ Moskvada yaşayış evi → ticarət müəssisələri →
- ✓ Dərbənddə qızlar üçün təhsil müəssisəsi

tikilir;

- ✓ İranda →
- ✓ İstanbulda →
- ✓ Hindistanda →
- ✓ Misirdə →
- ✓ başqa Şərq ölkələrində

xəstəxanalara, məktəblərə, xeyriyyə cəmiyyətlərinə, məscid və mədrəsələrin inşasına böyük ianələr ayırılır

- ✓ Mahaçqalada
- ✓ Tiflisdə →
- ✓ Krımda →
- ✓ Sibirdə →
- ✓ Moskvada →
- ✓ Odessada →
- ✓ Vladiqafqazda
- ✓ Həştərxanda →
- ✓ Kutaisidə →
- ✓ Peterburqda →
- ✓ Volqaboyunda →
- ✓ Xarkov və s.

yerlərdə ana dilində məktəblər açılır; Yeni tipli təhsil ocaqları ərəb, fars, türk dillərində kitablarla, tədris vəsaiti və məktəb avadanlığı ilə təmin edilməsinə yardım göstərilir; Quberniya mərkəzində texniki, kommersiya və ya peşə məktəblərinin açılmasına da 100.500 manat pul köçürülür; Təbrizli Seyid Həsənin Beyrutdakı Amerika Məktəbində təhsil almaq, Soltan Məcid Qənizadənin Qori Seminariyasının Azərbaycan şöbəsinə 2 nəfər şagirdin qəbulu üçün xahişləri yerinə yetirilir[1];

- ✓ 4 müsəlman →
- ✓ 2 gürcü →
- ✓ 2 erməni →

uşağının da təhsilhaqqını ayrılır;

- ✓ Peterburq müsəlman xeyriyyə cəmiyyətinə 11 min manat bağışlanılır;
- ✓ İsmayıl bəy Qaspıralının "Tərcüman" qəzetinə Qafqazdan abunələr təşkil edilir, abunəçilərin pulu ödənilir.
- ✓ "Difai" partiyasının təsisinə (1905), gizli fəaliyyətdə olan "Musavat" partiyasına (1911) maddi yardım göstərilir;
- ✓ 1917-ci ilin aprelində Bakıda keçirilmiş Qafqaz müsəlmanları qurultayının Milli fonduna 50 min rubl məbləğində pul bağışlanılır; 1918-ci ilin mart hadisələrində müsəlman müdafiə dəstələrinə maddi təminat göstərilir, talan olunmuş kəndlərə İrandan ərzaq gətizdirilərək paylanılır[2] .

- ✓ Mərdəkanda tikilmiş elektiklə işləyən dəyirman(1899) ətraf kəndlərin camaatını Birinci Dünya müharibəsi illərində aclıqdan xilas etmişdir [3];
- ✓ 1902-ci ildə Şamaxı zəlzələsi zamanı şəhər əhalisinə böyük köməklik göstərilmişdir

**HACI ZEYNALABİDİN SAĞLIĞINDA ABİDƏSİ QOYULAN İLK AZƏRBAYCANLIDR**

XIX əsrin 90-cı illərində Hacının qonağı olan ingilis zadəganı Con Daltner onun mesenatlıq, xeyriyyəçilik və maarifçilik fəaliyyətinə o qədər heyran olmuşdu ki, vətəninə qayıtdıqdan sonra İngiltərənin Edinburq şəhərində öz vəsaiti hesabına mərhəmətli Hacının abidəsini ucaltdırmışdı.

***Qeyd: 1. Azərbaycan mətbuat tarixinin görkəmli nümayəndəsi Haşım bəy Vəzirov "Təzə həyat" qəzetində yazırdı:"Hacı Zeynalabdin Tağıyevin müsəlman milləti üçün etdiyi xidmətlərini durub burada bir-bir saymaq fikrinə düşsək, heç olmasa, bir ay qəzetimizi ancaq bu təfsilatla doldursaq, yenə hamısını deyə bilmərik..." (10.04.1907). Qeyd: 2. 1918-ci ilin martında ermənilərni törətdiyi soyqımının qarşısını almaq üçün Dağıstan qüvvələrinin başçısı imam Nəcməddin Qotsinski ilə saziş əldə edilməsində Tağıyevin mühüm xidməti olmuşdur. Qeyd: 3. Abdulla Şaiqi: " Neçənci ildə olduğunu bilmirəm. Türkan kəndində taun xəstəliyi zühur etdi. Həkimlər kənddə olan ərzağı yandırdılar. Çar hökumətinin əmrilə kazaklar kəndi dörd tərəfdən bürüyüb, kənddən qaçanları vururdular. Xalq taun xəstəliyindən daha müdhiş olan aclıq içində ölməyə məhkum idi. Hacı hər gün dəniz vasitəsilə paroxodlarla çörək, qənd, çay, düyü, papiros, tütün göndərirdi. Xəstəlik ay yarım davam etdi" 28 mart 1956- ci il.***

HACI ZEYNALABDİN TAĞIYEV

İNSAN KİMİ

REALİSTDİ

Real düşünən, öz işində, fəaliyyətində real şəraiti nəzərə alan və düşüncələrini gercəkləşdirməyi bacaran insandır. Realizm yolunda qarşıa çıxan maneələri:

TOXUCULUQ FABRİKİNİN — QIZ MƏKTƏBİNİN — AÇILIŞINDA

BAKI-ŞOLLAR SU KƏMƏRİNİN — ÇƏKİLİŞİNDƏ

CƏTİNLİKLƏ MADDİ VƏ MƏNƏVİ İMKANLARI HESABINA QALDIRA BİLDİ

**TOXUCULUQ FABRİKİNİN**

- Rusiya hökuməti, sahibkarları H.Z.Tağıyevin toxuculuq fabriki açmaq istəyinə qarşı çıxdı*[1];

Hökumətin mane olma səbəbləri:

- Azərbaycanda xammalı hazır məhsula çevirən müəssisənin açılmasına imkan verməmək;
- Azərbaycan iqtisadiyyatının müstəmləkəçi mahiyyətini qoruyub saxlamaq*[2]

Sahibkarların*[3] rəqabət qorxusunun səbəbləri:

- pambıq tarlalarının Bakıya daha yaxın olması
- məhsulun ucuzlaşması
- İran, Türkiyə, Türküstan bazarının əldən çıxması

NƏTİCƏDƏ

Hökumət → fabrikin açılışına*[4] yalnız bez istehsal etməklə icazə verdi } səbəb ➡ Sahibkarların ▶ fabrikin çit və digər parçaların istehsal olunmasına imkan verməmələri

YEKUNDA

MİLLİ SAHİBKAR RUSİYANIN İNHİSARÇI MÖVQEYİNİ SARSITDI
İQTİSADİYYATIMIZIN GƏLƏCƏYİNİ DÜŞÜNDÜ

- 1,6 milyon manat xərc çəkərək 1900-cü ildə Şimali Azərbaycanda hazır məhsul istehsal edən ilk böyük müəssisənin əsasını qoydu; Avropadan 2500 maşın və dəzgah getizdirdi;
- Memar İ.Qoslavskinin layihəsi əsasında Bakının Əhmədli kəndində tikilən fabrik vahid istehsal-yaşayış kompleks, ilk fəhlə qəsəbəsi kimi də məşhurlaşdı. Nəzdində fəhlə və qulluqçular üçün:
  - pulsuz evlər
  - elektrik stansiyası
  - ambulatoriya
  - məktəb və kurslar

  } açıldı

Tağıyevin fabriki → təkcə Bakıda yox, ümumiyyətlə Qafqazda yeganə və ilk parça toxuculuq fabriki oldu.

***1.1897-ci il Bakıda lifli maddələrin emalı üzrə səhimdar cəmiyyəti yaratmaq barədə çar idarəsinə müraciət edilir. Bakı quberniyası bildirir: “qeyd olunan cəmiyyətin müəssisəsi çox faydalıdır və ticarət baxımından böyük əhəmiyyətə makikdir, sahibkar Tağıyevin mötəbər sima olması isə tamamilə uğurlu nəticələr vəd edir”. Müraciət müsbət qarşılanır. Bir müddətdən sonra işin dayandırılması barə də sərəmcan verilir. *2.Yerli orqanlar icazə gözlənilmədən fabrikin tikintisinə başlanmasını bəhanə gətirir. H.Z.Tağıyev bir necə dəfə cərimə olunur, tikinti üçün icarəyə götürülən torpağın məsələsi ilə əlaqədar hakimiyyət orqanları ilə çəkişmələr başlanır. 1906- cı il II Nikolay H.Z.Tağıyevin nümayəndələrinin xahişini nəticəsiz qoymağı əmr verir. /D. Seyidzadə Azərbaycan XX əsri əvvəllərində: müstəqiliyyə apara yol. B.,2004,s.11 *3.Mane olan sahibkarlar: Rus “toxuculuq sənayesinin şahı” hesab edilən Savva Morozov başda olmaqla nəhəng 28 fabrikantlar. *4.Fabrik tikmək üçün icazə məsələsi düz üç il uzadılır. Hətta fabrik tikilib qurtardıqdan sonra da hakimiyyət orqanları ilə torpaq icarəsi məsələsi ilə bağlı çəkişmə davam edir.***

HACI ZEYNALABDİN TAĞIYEV

TOXUCULUQ FABRİKİNİ XAMMALLA TƏMİN ETMƏK MƏQSƏDİ İLƏ

YEVLAXDA
pambıq əkini üçün torpaq sahəsi alır

CAVADDA
pambıqtəmizləmə zavodu tikdirir (1909)

TOXUCULUQ FABRİKİNİN
İSTEHSAL

HƏCMİ

1904-CÜ İL
2,2 milyon rubl

1911-Cİ İL
Port-Petrovski*[1] filyalı ilə birgə 3,5 milyon rubl

*Qeyd:*1.İndiki Mahacqala*

1915-Cİ İL
PARCA:
- ✓ BEZ - 4
- ✓ PARUSİN- 300

milyon arşın hazırlandı

MİLLİ MARAQLARA DƏYƏR VERƏN H.Z.TAGIYEV
DAİMA

- XEYRİYYƏÇİLİK
- SAHİBKARLIQ

FƏALİYYƏTİNDƏ

ÇAR RUSİYASININ MÜSTƏMLƏKƏ SİYASƏTİ İLƏ QARŞILAŞIR
NƏTİCƏDƏ

MANEƏLƏR MÜSTƏQİL FƏALİYYƏT GÖSTƏRMƏSİNƏ ƏNGƏL TÖRƏDİR
YEKUNDA

XEYRİYYƏÇİ TAĞIYEV | SAHİBKAR TAĞIYEV

MƏQSƏDƏ NAİL OLMAQ ÜÇÜN MANEƏLƏRƏ

MÜQAVİMƏT GÖSTƏRİR | MÜQAVİMƏTƏ TAB GƏTİRMİR

1908-ci il Azərbaycan gəmiçilik idarələrini birbaşa Qafqaz- Zakaspisk və Qara dəniz - Qafqaz – Voljsk-Zakaspisk xətlərinə qoşulması xahişi ilə Tağıyev Dəmir yol idarəsinə müraciyət edir. Gəmicilik idarələrinin bütün istiqamətlərində yük daşınması müddətlərini azaltmağa və yük daşımasının yol xərclərini hər pud üçün 2 qəpik aşağı salmağa razı olduğunu da bildirdi. Çay, dəniz, dəmiryol xəttlərini əllərində cəmləyən inhisarçılar yükdaşımalara qeyri-rus sahibkarların cəlb edilməsinin əlehinə çıxsalarda, sərt şərtlər müqabilində icazə verilir.

Şərtlər: Yük göndərilərkən müəyyən cədvəl

- müddətli reyslər təsis edilməli
- gəmicilik idarələrinin adları göstərilmə
- 300 min rubl məbləğində girov qoyulsun

*qərarı ədalətsiz hesab edən Tağıyev müxtəlif instansiyalar qarşısında vəsadət qaldırır. Mötəbər dairələr Tağıyevi müdafə etsələrdə vəsadət rədd edilir. 8 il güclü müqavimətə rast gələn Tağıyev son anda gəmiçilik sahəsində fəaliyyətini dayandırır, bütün donanmasını "Qafqaz və Merkuri" və "Şərq əmtəə anbarları cəmiyyəti" sintikatlarına satmağa məcbur olur.*

Səbəb: Bakı limanında H.Z.Tağıyevin "Kür-Xəzər cəmiyyəti"nin yük dövriyəsi inhisarçıların yük dövriyyəsi həcminə yaxınlaşaraq artması idi.
Yük dövriyəsi: "Qafqaz- Merkuri" cəmiyyəti 7,1 milyon pud; "Şərq əmtəə cəmiyyəti" 6,2 milyon pud; "Kür-Xəzər cəmiyyəti" 5,2 milyon pud

**QIZ MƏKTƏBİNİN AÇILIŞI**
[11, 115-144]

Bakıda müsəlman qızlar məktəbi açmaqdan ötrü H.Z.Tağıyev icazə üçün müraciət edir ⇨ İMPERATOR

III ALEKSANDRA (1881-1894)
İmperator xahişi rədd etdi

II NİKOLAYA (1894-1917)
Çar xahişi nəzərə aldı. SƏBƏB: Tacgüzarlıq mərasimində (1896) Hacının senator vasitəsilə Nikolayın arvadı Aleksandra Fyodorovnaya çox bahalı hədiyyələr göndərməsi; təkrarən Bakıda qız məktəbi açmaq xahişi və məktəbə Tsaritsa Aleksandra Fyodorovnanın adının verilməsi. NƏTİCƏ: İcazə verildi.

QIZ MƏKTƏBİNİN AÇILMASINA MANE OLANLAR

DÖVLƏT → Çar Rusiyasının müstəmləkəçilik siyasəti

QARAGÜRUHÇU DİNDARLAR → cahillərin təhsilə, elmə, irfana – kamilliyə həqarətlə baxması [12, 115-144]

MANELƏRƏ QARŞI

***"ALACAĞIM ZƏRBƏ NƏ QƏDƏR AĞIR OLSA DA, MƏN BU İŞƏ BAŞLAMALIYAM"/ H.Z.Tağıyev***

MƏQSƏDƏ DOĞRU

- Müstəmləkə zülmü altında yaşayan, müsəlman-tatar adlandırılan millətinin:
  - tərəqqisini
  - qurtuluşunu
  - işıqlı gələcəyini

  → təhsildə, elmdə görən Hacı bu yolda Rusiya imperator idarələrinin süründürməçiliyi ilə üzləşdi (1897):
  - İcazəyə*[1]
  - məktəbin binasının yerinin müəyyən edilməsinə
  - tikilişinə

  → 4 il vaxt sərf etdi. Memar İ.V.Qoslavskinin layihəsi əsasında məktəbin ərsəyə gəlməsinə 183 min 533 rubl pul xərclədi*[2]. Müsəlman qızlar məktəbi üçün bina*[3] düz İsmailiyyə binasının yanında seçildi. NƏTİCƏ*[4]: 1898-ci ildə başlanan tikinti 1901-cu ildə hazır oldu. Tağıyev həmçinin Rusiya Dövlət Bankına məktəbin fəaliyyəti və tələbələrin gələcək təhsili üçün qızıl rubllar şəklində vəsait də qoydu. Məbləğin böyüklüyü çar II Nikolayı Tağıyevə şəxsən məktub yazaraq təşəkkür etməyə sövq etdi.
- Məktəblərdə dərs deyə biləcək müəllimlər problemini də tədricən aradan qaldırdı;
- İbtidai məktəb müəllimlərinin təhsili üçün icazə aldı (1913). Eyni binada ikiillik pedaqoji təhsil verən kurslar açdı (1915).

****1. İki ildən sonra 1896-cı ildə qızlar məktəbi açmağa icazə verildi. "Məktəbi mən (Hacı) bizə padşahlıqdan vəhşi deyiləndən sonra qərara gəldim, açdırdım" *2. Banka illik 5% olmaqla 150 000 manat yatırıldı. İldə 7 500 manat gəlir məktəb xərcinə ödənildi.*3. Mək-təbin binasında indi Məhəmməd Füzuli adına Əl-yazmalar İnstitutu yerləşir.*4."Kaspi" qəzeti yazır: "Nikolayevski küçəsindəki gözəl imarət bayraqlarla bəzənmişdi. İkinci mərtəbədəki böyük zal gündüz saat 12-də dəvətlilərlə və şəhərin əyan-əşrəflərilə dolmuş-du. Məktəbin yaradılması, tikilməsi barədə danışıq-lardan sonra çıxışlar oldu. Məktəbdə oxuyacaq qız-ların xor dəstəsi bir neçə Azərbaycan mahnısı ifa etdi. Sonra məktəbin ünvanına göndərilən təbrik teleq-ramları oxundu. Əlimərdan bəy Topçubaşovun oxu-duğu təbriki Həsən bəy imzalamışdı. "Çox yaşa***

- valideynlər
- tələbələr
- bəzi ruhanilər*[1]

→ mühafizəkarların hücumlarına məruz qaldı. Hacı yerli ruhaniləri sakitləşdirmək üçün*[2]:

- Molla Mirzə Məhəmmədi müqəddəs yerlərə, İslam mərkəzlərinə göndərdi;
- Möhtəbər, rəsmi din xadimlərindən mücdəhidlərindən qız məktəbinin dinə zidd olmadığı barədə zəmanətlər aldı;
- Məsciddə ruhanilər qarşısında çıxış etdi: "Camaat, cavanlarımızın əcnəbi arvadlarla evlənir. Ocağımız Quransız, namazsız, şəriətsiz qalacaq… Qızlarımızın zəmanə dərsi oxumaları vacibdir. Gözləri açılar, külfətlə rəftarı xoş olar"... "Burda nə pis iş var?" sözləri ilə sabitlik yaratdı;
- Bina arxitekturasını Şərq məscidi üslubunda inşa etdirdi. **NƏTİCƏ:** Məktəb müsəlman şərqində ilk dünyəvi qızlar məktəbi oldu*[3]. Həsən bəy Zəradabi isə sadəcə, prosesdə iştirak edirdi.

****1.Qaragüruhçular məktəb açmaq təklifini bəyənmiş qazi Mir Məhəmməd Kərimi qapı-sına ağ neft töküb yandırmaqla, H.Z.Tağıyevi də öldürməklə hədələyirdilər *2.Molla Əli Hacı Xəlil oğlu! Qulaq as! Mən qızları ismətsiz etmək istəmirəm, naməhramlə üzü açıq olmağa çağırmıram. Sırağa gün gecə iyirmi yaşlı ortancıl qızın sancılanmışdı, az qalmışdı ölsün. Lopabığ Ambarsum həkimi gətizdirdin, qızı yoxladı, dava dərman elədi, qız ölümdən qurtardı. İndi de görüm, Lopabığ Ambarsumun əvəzinə müsəlman arvad həkimi olsaydı, şəriətə hansı düzgün gələrdi? Arvad həkimlərinə, müəllimlərinə ehtiyacımız çoxdur". *3 "Mən həqiqətən də başa düşdüm ki, xalqın gələcək xoşbəxtliyi, dəyanəti və irəliləyişi təhsillə, maariflə bağlıdır". / "Təzə həyat" qəzeti, "Mənim təcrübəmdən"/ 12.02. 1908***

TAĞIYEVİN QIZLAR MƏKTƏBİ (1901)

AZƏRBAYCANDA

MÜSƏLMAN ƏNƏNƏLƏRİNİ ⇒ AVROPA MODERNİZMİ

İLƏ BİRLƏŞDİDİ

DÜNYƏVİ QADIN TƏHSİLİNİN ƏSASINI QOYDU

***«BİR OĞLANA TƏHSİL VERMƏKLƏ TƏHSILLİ BİR İNSAN, BİR QIZA TƏHSİL VERMƏKLƏ TƏHSİLLİ BİR AİLƏ QAZANMIŞ OLURUQ»/ Zeynalabdin Tağıyev***

MƏKDƏBDƏ:

- Təhsil müddəti: 4 il*[1]
- Yaş həddi: 7
- Bölmə: rus
- Qəbul sayı: 50*[2]

Hacı ZeynalabdinTağıyev

Bir neçə ildən sonra məktəbə "Qızlar seminariyası" statusunu aldı, tədris müddətini 6 ilə qədər uzatdı. Kasıb ailələrdən olan qızların təhsil alması üçün varlı ailələrdən olan qızların qəbulunu məhdudlaşdırdı.

- Geyim*[3]: Avropa üslubunda ağ yaxalıqlı, başlıqlı uniforma;
- Əl işləri, evdarlıq, Azərbaycan dili, din dərsləri və digər dünyəvi fənlər keçirilirdi.
- Tədris üçün müəllim: Rusiyanın müxtəlif bölgələrindən dəvət olunurdu;

Məktəb müdri: Tağıyevin təqdimatı ilə Hənifə Məlikova * təyin edildi.

Məktəbin məzunları:*[5] Rəhilə Hacıbababəyova, Şəhrəbanu Şabanova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Məryəm Qembitskaya, Nazlı Tahirova*[6], Liza Muxtarova, Züleyxa xanım Vəliyeva və s.

NƏTİCƏ

1917-Cİ İL

TƏHSİL PROSESİ DAYANDI

SƏBƏB

FEVRAL İNQİLABI

1918-Cİ İL

MƏKTƏBİN YATAQXANASI BAĞLANDI

SƏBƏB

ƏRZAQ ÇATIŞMAZLIĞI

MƏKTƏB BİNASINDA*[7]

AZƏRBAYCAN DEMOKRATİK CUMHURİYYƏTİNİN PARLAMENTİ YERLƏŞİDİRİLDİ (1918-1920)

YEKUN

Böyük mesenat Hacı Zeynalabdin Tağıyevin milləti üçün açdığı işıqlı yolu Azərbaycan Demokratik Respublikası (ADR) hökuməti davam etdirdi. Tağıyevin dəstəyi ilə:

- 1919-cu ilin əvvəllərində Bakı qadın müəllimlər seminariyası ümumi müəllimlər seminariyasına çevrildi:
- muzeylər → açıldı
- maarif və sənət ocaqları → açıldı

***H.Z.Tağıyev millətinin maariflənməsinə, təhsilin və mədəniyyətin inkişafına əvəzedilməz təkan verdi, danılmaz əmək sərf etdi!***

**1. İlk məzunlar məktəbi 1905-ci ildə bitirmişdilər. *2.Qəbul üçün 50 nəfər nəzərdə tutulsa da ərizə verənlərin sayı 58-ə çatır. onların 20-si Hacının ianəsi hesabına təhsil alır və pansionda qalırdılar. *3.Sovet məktəblərinin geyimi bu uniformadan götürülmüşdü.*4. Hənifə Məlikova-Abayeva (1856-1929) — Azərbaycanın ilk maarifçi qadınlarından biri. Həsən bəy Zərdabinin həyat yoldaşı. Qızlar məktbində həm də rus ili müəllimi.*5. Məzunlar Azərbaycanın tərəqqisində yaxından iştirak etdilər, Cümhuriyyət fəallarından oldular. *6. Nazlı Məmmədağa qızı Nəcəfova (ilk soyadı Tahirova; 1890 – 1977) — Naxçıvanda ilk qızlar məktəbinin yaradıcısı, Azərbaycan SSR əməkdar müəllimi.*7. Qızlar məktəbinin binasının tikildiyi yer vaxtı ilə Cümə məcidinin tikilməsi üçün nəzərdə tutulmuşdu.*

BAKI-ŞOLLAR SU KƏMƏRİNİN ÇƏKİLMƏSİNDƏ ÇƏTİNLİKLƏR

OBYEKTİV

- Şamaxıda baş verən zəlzələ;
- Bakı əhalisinin artması;
- Şəhərdə yayılan vəba epidemiya
- Bəzi işlək quyularının ləğv ediln

SUBYEKTİV ⇨ Problemin həlli ilə bağlı yerli qurumlar arasın da fikir ayrılığı. İllərlə bu məsələ

müzakirə mübahisə

doğurur

BAKI DÖVLƏT DUMASININ DEPUTATLARI HACI ZEYNALABDİN TAĞIYEV

SƏBƏB

BAKIYA

SUYUN HARADAN ÇƏKİLMƏSİ

LAYİHƏNİN MALİYƏLƏŞDİRİLMƏSİ

DEPUTATLAR → KÜRDƏN

H.Z.TAĞIYEV → ŞOLLARDAN

TƏKLİFİ İRƏLİ SÜRÜR

Hacı təkidlə "içmək üçün Kürdən, Samurdan və ya Şollardan bir stəkan su versələr, hansını seçərsiz?" – deyə dumada Bakıya suyun Kürdən çəkilməsi təklifini irəli sürən deputatlara müraciyət etdi.

YEKUNDA: 1899-cu ilin yanvarında Bakı şəhər su təchizatı komissiyası şəhərin su təchizatının təşkili üçün Samur və Kür çaylarının potensialından istifadə edilməsi təklifinə üstünlük verdi. Bu məqsədlə Bakı Duması şəhərin su təchizatının təşkili üçün layihənin hazırlanmasından ötrü üç avropalı mühəndisə müraciət etdi. Onlardan biri ingilis mülki mühəndisi və inşaatçısı Ser Vilyam Hirleyn Lindley*[1] (1853-1917) idi

*1.Avropanın 30-dan çox şəhərində Frankfurt, Varşava, Praqa və s. kanalizasiya qurğularının tikintisini həyata keçirmişdi.Məhz ilk dəfə Vilyam «Şollar» sözünü dilə gətirib. *2.Həmin iclasda Tağıyev yox idi...Növbəti gün Hacı Dumaya rəsmi məktubla müraciət edir ki, mən həmin 25 min rublu verməyə hazıram, amma bir şərtlə: əgər Şahdağın ətəklərindən Bakını təmin edəcək qədər su çıxarsa, dövlət mənim pulumu geri qaytarır... Yox əgər orda kifayət qədər su tapılmasa, mənim ayırdığım 25 min rubl batır... *3.Bürokratik əngəllər davam edir və Tağıyevin pulundan istifadə olunmur... Unutmaq olmaz ki, 1917-ci ildə Bakıya çatan Şollar suyu çox bahalı layihə idi... Tağıyev hətta istəsə belə, Şollar suyunun çəkilişini maliyyələşdirə bilməzdi... 1911-ci ilin məlumatına görə, H.Z.Tağıyevin varidatı 16 milyon rubl təşkil edib Şollar su kəmərinin tikintisi isə xəzinəyə ümumilikdə 31,3 milyon rubla başa gəlib...*

LAYİHƏNİN MÜƏLLİFİ İNGİLİS MÜHƏNDİS UİLYAM LİNDLEYİN OLDU

U.LİNDLEY:

- 1899-cu ilin iyununda müraciəti qəbul etdi, oktyabrda Bakıya gəldi;
- öz hesabına ümumi tədqiqatlar apardı;
- Kür, Samur çayılarındansa Şahdağ zirvəsinin ətəyindən süzülüb bulağa çevrilən Şolların zəngin su ehtiyatlarına üstünlük verdi.

NƏTİCƏ ⇨ BAKI DUMASI:

- 23 iyun 1901-ci ildə şəhərə su kəməri çəkilməsinə dair U. Lindleylə müqavilə bağladı;
- Bu məqsədlə 35000 rubl büdcə müəyyən edildi;
- Layihənin bahalığı yenidən Bakı Dumasında deputatlar arasında narazılığı artırdı.Layihədən imtina etmək təhlükəsi yarandı. ⇨ SƏBƏB

MÜHƏNDİSİN :

- suyun miqdarını müəyyənləşdirmək
- sınaq quyularını qazm ehtiyacı → } Büdcədən əlavə 25 min rublin ayrılması istəyi.

DUMA ÜZVLƏRİ TƏRƏFİNDƏN*[2]:

- ✓ Layihə ucuz başa gəlsin deyə, mühəndisin büdcədəb əlavə ödəniş istəyi rədd etdildi;
- ✓ Bakıya su kəmərinin Kürdən və ya Samurdan çəkilmə təklifi üzərində dayanıldı; [9, 11.]

HACI ZEYNALABDİN TAĞIYEV:

- ✓ Qabağa çıxdı; Bakıya suyun çaylardan yox, Şahdağın ətəklərindən çəkilməsini istədi;
- ✓ Lindleyin su çəkilişinə elmi yanaşmanı müdafiə etdi; su axtarışının dərhal başlanmasına göstəriş verdi. 25 min rubl ianə ayırdı*[3]. İşlər başlandı.

1905-ci il inqilabı Şahdağ və ona bitişik Qusar yaylasında kəşfiyyat tədbirlərini dayandırsada 1908-ci ildə işlər yenidən bərpa olundu. Çaylarda, qış və yay aylarında gündəlik axan suyun miqdarı ölçüldü, suyun kimyəvi-bakterioloji analizi qızlar gimnaziyasının zirzəmisində yaradılmış laboratoriyada aparıldı

BAKI-ŞOLLAR SU KƏMƏRİNİN ÇƏKİLMƏSİNDƏ ÇƏTİNLİKLƏR

1909-CU İL

RUSİYA SU KƏMƏRLƏRİ İŞÇİLƏRİNİN DOQQUZUNCU QURULTAYINDA

(TİFLİS)

- Çay suyu ilə müqayisədə bulaq suyunun daha üstün olduğu bildirildi;
- Bakının su təchizatında məhz Şahdağdan, Şollar bulaqlarından istifadənin zəruriliyi qeyd edildi;

**QURULTAYIN QƏRARI**:
**Bakı su kəmərinin Şollardan çəkilməsi məqsədəuyğundu YEKUN** :

- **Duma Bakı-Şollar su kəmərinin çəkilməsinə dair qərar qəbul etdi**

1910-1911ci illər

- Şollar - Bakı su kəmari üzrə son hesablamalar başa çatdırıldı; Kəmərin bütün:
- ölçmə
- hesablama
- çertyoj
- sahələr üzrə bölgü

işləri tamamlandı;

- boru istehsalı üçün tikinti tenderi* elan edildi; Tikinti tenderində qalib gələn İngiltərənin «Qriffits» şirkəti:

✓ Xaçmazda
✓ Dəvəçidə

beton zavodu tikintisinə başladı. **NƏTİCƏ**

Şəhər İdarəsi Qriffitslərlə*[2] müqaviləni pozdu.

**SƏBƏB**:

- tikinti işləri ləng getməsi;
- boruların zay hesab edilməsi. **YEKUN**

- Şəhər İdarəsi inşaat işlərini üzərinə götürdü;
- baş mühəndis vəzifəsi Stefan Skşivana*[3] tapşırıldı. Tikinti prosesinə nəzarət:

su kəmərinin inşası şöbəsi*[4]
su kəmərləri icraçı kommisiyası*[5]
Şəhər rəhbərliyi Bakı su kəmərinin çəkilişi üçün 23,5 milyon rubl məbləğində hökümət qarşı-sında vəsatət qaldırdı*[6]

*1.Tender-Hər hansı bir işin, xidmətin ən səmərəli üsul və aşağı xərclə yerinə yetirilməsi üçün müqavilə əsasında keçirilən müsabiqə.*2. İki il yarım ərzində şirkət müqavilədə nəzərdə tutulmuş işlərin yalnız 16 %-i əməl edə bilir. *3. Stefan Skşivan (1876-1932) polyak mühəndisi. Lindleyin etibarlı adamı idi *4.Bakı Şəhər İdarəsi nəzdində yaradılmışdı*5.H. Z. Tağıyevin üzvü olduğu şirkətdi.

1914-CÜ İL

BİRİNCİ DÜNYA MÜHARİBƏSİ BAŞLADI (1914-1918)

MÜHARİBƏ İLLƏRİ

BAKI-ŞOLLAR SU KƏMƏRİNİN TİKİNTİ PROSESİNİNƏ ZİYAN VURDU SƏBƏB:

- 44 mühəndis və texnik
- 200 daimi fəhlə

müharibəyə çağırıldı;

- malyariya yayıldı;
- müharibənin gedişində Rusiada inqilab baş verdi və s. NƏTİCƏ

KƏMƏRİN İNŞASI DAVAM ETDİ

YEKUN ➡ 1917-Cİ İL

- 22 YANVAR:
  Su 187 kilometr məsafəni 63 saata qət edərək Bakıya çatdı;
- FEVRAL:
  Çənlər yuyuldu / doldu
- 1MART:
  Bakı-Şollar su kəmərinin istismara verildi. Uzunluğu -180 km-dı

Bakı şəhər Duması layihəyə 182000 rubl vəsait sərf etdi. Yüz vedrəyə 75 qəpik istifadə haqqı müəyyənləşdiridi.

ŞOLLAR SUYU BAKIYA İANƏLƏR HESABINA YOX, DÖVLƏT VƏSAİTİ HESABINA ÇƏKİLDİ

Qeyd: Lindley*[7] gələcək də Bakı əhalisinin artımını nəzərə alaraq Şollar su kəmərinin 3-cü və 4-cü növbələrinin tikintisi əsasında, kəmərin gücünün gündə 3 milyondan 12 milyon vedrəyədək artırılmasını planlaşdırdı*[8].

*6. II Nikolay məbləği 27 milyon rubla qədər artıraraq vəsatəti təmin edir. *7 Bakıda Şollar suyunun istismara verilməsindən 9 ay sonra Vilyam Harleyn Lindley Londonda ürək xəstəliyindən dün-yasını dəyişdi. *8. layihə Sovet hakimiyyəti illərində reallaşdırıldı. Su kəmərinin gücü gündə 28 milyon vedrəyədək artırıldı. /meqale/hafta_ichi/2017/fevral/528537.htm.

HACI ZEYNALABDİN TAĞIYEV

İNSAN KİMİ

UZAQGÖRƏNDİ

Nəcib və xeyirxah insanın ən böyük varı xalqına böyük məhəbbəti, millətinin inkişafı, maariflənməsi idi. Bunun üçün o, bütün imkanlarından istifadə edirdi. Sahibkarlıq, xeyriyyəçilik və maarifçilik fəaliyyəti onu Azərbaycan mesenatlığının ən yüksək zirvəsinə qaldırdı. Hacı Zeynalabdinin vəsaiti hesabına Azərbaycanın oğul və qızları İngiltərə, Almaniya, Fransa və Rusiyada təhsil alır, Bakıda, Yelizavetpolda (Gəncədə), Şamaxıda, Naxçıvanda, Tiflisdə, Dərbənddə, İrəvanda, eləcə də Rusiyanın digər bölgələrində məktəblər fəaliyyət göstərirdi. Ehtiyacı olan şagirdlərə maddi yardım, ali tədris müəssisələrində təhsil alan onlarla tələbəyə təqaüd verirdi. İ.Əliyev: "Bu gələcəyə yönəlmiş bir addım idi, gələcəyi duşunürdü... O tələbələrin arasında mənim babam Əziz Əliyev də olmuşdur. Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində doğulmuşdur. O da Tağıyev kimi kasıb ailədən idi, oxumaq istəyirdi. Tağıyevə məktub yazmışdı, xahiş etmişdi ki, ona maddi kömək göstərilsin. Tağıyev də onu təbii ki, tanımırdı, sadəcə olaraq, bir gəncin təhsilə olan belə marağını nəzərə alaraq ona pul göndərmişdir 300 manat və Əziz Əliyev bu pul hesabına o vaxt Sankt-Peterburq Hərbi Tibb Akademiyasında oxumuşdur. Hesab edirəm ki, bu hadisə onun gələcək taleyində həlledici rol oynamışdır. Çünki o, həm gözəl həkim, eyni zamanda, böyük dövlət xadimi olmuşdur. İkinci Dünya müharibəsində onu Bakıdan Dağ-ıstana ezam etmişlər. Bir neçə il Dağıstanın rəhbəri vəzifəsində işləmişdir və dağıstanlıları sürgündən xilas etmişdir. Çünki o vaxt başqa Qafqaz xalqları ilə bərabər, dağıstanlıları da Qazaxıstana sürgün etmək istəyirdilər, sovet hökumətinin belə planları var idi. Məhz Əziz Əliyevin qətiyyətli mövqeyinə görə bu, baş vermədi. Dağıstanlılar bunu yaxşı bilirlər, yaxşı xatırlayırlar və təsadüfi deyil ki, Mahaçqalada dağıstanlıların təşəbbüsü ilə Əziz Əliyevin abidəsi ucaldılmışdır" /*https:// president.az/ az/view/55273.* Halbu ki, sağlığında yardımı ilə ucalıb, dəstəyini qiymətləndirmiyənlər də,

İNAMLIDI

Z.Tağıyev Qurani-Kərimi ilk dəfə Kərim Mircəfərzadə tərəfindən Azərbaycan dilinə tərcümə etdirmişdir. Onun təşəbbüsü və maliyyə vəsaiti he-sabına Azərbaycanda bir çox dini abidə inşa və təmir olunmuşdur. Hətta Təzəpir məscidinin (1905-1914) özülünə birinci, 9 ildən sonra, məscidin baş günbəzinə sonuncu daşı Nabat xanım dəvəti ilə Tağıyev qoymuşdu. İnadcıl insan kimi taleyin hökmünü görən Hacı bənna-memar işləyərkən istifadə etdiyi baltanı qapı ilə üzbəüz iki böyük seyfindən birinin iç tərəfindən asmışdır. Özünün dediyi kimi: "hər dəfə qapını açanda keçmişini xatırlayıb bu günü ilə lovğalanmasın"

Sovet Rusiyasının 28 aprel 1920-ci ildə Azərbaycanı işğalı ilə vəziyyət kökündən dəyişir. Şəxsi mülkiyyətlər müsadirə olunur, milli kadrlar və ziyalılar təqib edilir. Yeni hökumət H.Z.Tağıyevin bütün fabriklərini, neft mədənlərini, balıq vətə-gələrini və imarətlərini əlindən alır o, unudulmaz Axun Abuturab ağanın sözlərini: "Əgər Allah istəsə, bir göz qırpımında səni dövlətindən məh-rum edər. Ona görə də əbədi olanı çox düşün ..." yada saldı və onun ayaqları altında dəfn olun-masını vəsiyyət edir.

***1.Onlardan biri 1877-ci ildə Şuşa qəzasının Bayat kəndində doğulmuş Lütfəli bəy Behbudovdur. H.Z.Tağıyevin maddi köməy ilə Sankt-Peterburqda Dağ-Mədən Akademiyasını bitirən Lütfəli bəyi sonralar öz şirkətində mühəndis kimi işə götürüb, müdir vəzifəsinə qədər yüksəltmişdir. Onların arasının dəyməsinə Bakıda yayılan söz-söhbət olur. Məsələ məhkəmə səviyyəsinə qədər çatır. Behbudov xatirələrində yazır ki, 1911-ci il mayın 15-də vacib görüşdən sonra Tağıyevə məruzə edir. Evə qaydanda arxasınca adam göndərir, malikanəsinə gəlməli olduğunu bildirir. Behbudov gedir, Tağıyev onu qapıda qarşılayır, evində döydürür. Faytonla gələn Behbudov evinə at arabası ilə yola salınır. Təhqir olunan Lütfəli bəy heç nəyə məhəl qoymadan milyonçunu məhkəməyə verir. Bakı Dairə Məhkəməsi Lütfəli bəyin döyülməsində iştirak etmiş 7 nəfərə: Tağıyevə 2.5 il, qalan şəxslərə (oğlu Sadıxa, bacısının əri İrza bəyə, qardaşı oğlu Məmməd Rzaya) 2 il iş verir. Tağıyev təxminən 350 min rubl xərcləyərək məsələni həll edir. Hacının bu davranışını V.İ. Lenin, neft milyonçusunu qudurğanlığı kimi qələm verir. Hadisədən dərhal sonra şirkətlərində işləyən bütün qarabağlılar qovulur. Əbdürrəhim bəy Haqverdiyev də işsiz qalır.***

UZAQGÖRƏN → HACI ZEYNALABDİN TAĞIYEV

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ
(1918-1920)

MÜSTƏQİL DÖVLƏTÇİLİK MƏNAFELƏRİNİ DƏSTƏKLƏYİR

DÖVLƏT TƏDBİRLƏRİNƏ QOŞULUR

YÜKSƏK DÖVLƏT QONAQLARINI MÜLKÜNDƏ QONAQ EDİR

- Britaniya diplomatik missiyasının başçısı O.Uordrop
- General C.Harbord başda olmaqla, Amerika missiyasının üzvləri

mülkündə qalır[1]

MƏQSƏDİ

GƏNC RESPUBLİKANIN

İQTİSADİ MÜSTƏQİLLİYİ ÜÇÜN ZƏMİN YARATMAQ

DİGƏR DÖVLƏTLƏRİNİN SIRASINDA TAMHÜQUQLU, ŞƏRƏFLİ DÖVLƏTƏ ÇEVİRMƏK[2]

MƏQSƏDƏ NAİL OLMAQ ÜÇÜN

SƏNAYE

TİCARƏT SƏRBƏSTLİYİNİ

’

MÜDAFİƏ ETDİR [3]

DÖVLƏT QADAĞALARININ VƏ MƏHDUDİYYƏTLƏRİNİN İNKİŞAFA ƏNGƏL OLDUĞUNU GÖSTƏRİR

Yerli sənaye sahəsində hökümət orqanlarının yeritdiyi siyasətin tənqidi edən Tağıyev hökümətin maliyyə və iqtisadi siyasəti ilə bağlı mülahizələrini bildirir:

- Milli pulun dəyərdən düşmə səbəblərini
- İxracata qoyulan qadağaları →
- İqtisadiyyata vurulan zərərləri →

araşdırmaq;

- Azərbaycan valyutasını gücləndirmək. [2,347-391]

Tağıyev AXC hökümətinin başçısı N.Yusifbəyliyə məktubla müraciət edir. Məktubun sonunda: “Mənim sizə müraciətim tacir və sənayeçinin şəxsi marağından deyil, səmimi vətənpərvərlik hissindən və dövlətin əsl siyasi müstəqilliyinin yalnız onun maliyyə və iqtisadi müstəqilliyi əsasında mümkünlüyünə dərin inamından irəli gəlir ki, bunsuz siyasi mənada azad vətəndaşlar özlərinin sənaye və ticarət baxımından daha güclü qonşularının quluna çevrilirlər”.

**Obyektiv və subyektiv səbəblərdən**

**AXC uzun müddət milli müstəqillik və dövlətçilik amalını qoruya bilmir**

***Qeyd:1. Həmçini Tağıyevin mülkündə Nuru Paşa qarşılanıb, 1905-ci ildə erməni-müsəlman barışıq iclası da bu binada keçirilib, AXC hökümət başçısı Nəsib bəy Yusifbəyli də xarici qonaqları bu binada qəbul edib. Qeyd:2. Azərbaycan Respublikası Dövlət vəsaiti hesabına 100 nəfəri xarici ölkələrə oxumağa göndərmişdi. Onlardan 10 nəfəri İngiltərəyə, 23 nəfəri İtaliyaya, 45 nəfəri Fransaya, 9 nəfəri Türkiyəyə, 13 nəfəri isə Almaniya və Rusiyaya getmişdi. H. Z.Tağıyev həmin tələbələrə də maddi yardım göstərmişdi./https://az.wikipedia.org/wiki/Hacı ZeynalabdinTağıyev. Qeyd:3.Tağıyev özü sahibkar idi, ona sahibkarlar üzərində dövlət nəzarəti sərf etmirdi.***

HACI ZEYNALABDİN TAĞIYEV

HƏYATIN QƏRİBƏLİYİ

1920-ci ilin mayında, yeni hakimiyyətin rəhbəri simasında qayıdan N. Nərimanov Tağıyev barədə Leninə, Stalinə: "Onun Azərbaycanda qızlar məktəbi açması, Bakıda və Rusiyada çoxlu xeyriyyə işləri görməsi, Çara qarşı çıxış edənlərə, fəhlə və kəndilərə dəstək olması" haqqında teleqramla məlu-mat verir və adını ölüm siyahısından çıxarır.

N.NƏRİMANOV VƏ H.Z.TAĞIYEVİN QEYRİ-ADİ DOSTLUĞU [1]

N. NƏRİMANOV — 1894-cü il şəxsi tanışlığın əsası qoyulur — H. Z. TAGIYEV

| N. NƏRİMANOV | H. Z. TAGIYEV |
|---|---|
| ➢ Pulsuz kitabxana - qiraətxana açır; Dram truppası yaradır (1894); | ➢ Kitabxana-qiraətxana açlışı işdə, Tağıyev tea-trının səhnəsində tamaşaların oynanılmasın da N.Nə-rimanova mənəvi və maddi yardım göstə-rir, kirayə haqqı almır, əlavə pul da verir; |
| ➢ İlk dram əsərlərini («Nadanlıq» və «Dilin bəlası») Tağıyev teatrında tamaşaya qo-yur; «Nadir şah» faciəsini yazır (1899); | ➢ N.Nərimanovun «Nadir şah» faciəsini kitab şək-lində vəsaiti hesabına nəşretdirir [2]. |
| ➢ «Hacı Zeynalabdin Tağıyevin 50 illik məişəti və cəmaətə xidmətləri» adlı kitab (1900) hazırlayır; [10, 22] | ➢ N.Nərimanovun ali təhsil alıb həkim olmaq üçün köməklik müracini qəbul edir (1902); |
| ➢ Z.Tağıyevdən təhsili üçün qaytarmaq şərti ilə – borc pul götürür; | ➢ Odessaya oxumağa gedən N.Nərimanova ayda 25 rubl, ailəsinə isə 50 rubl verir; |

1906-cı ilin avqustunda müəllimlər qurultayında
Nərimanovla Tağıyev arasında böyük ictimai əks-səda doğuran münaqişə baş verir
SƏBƏB ⟹ FİKİR AYRILIĞI

Qurultayın ⟶ Sədri: H. B. Zərdabi; Sədr müavini: N. Nərimanov; Katibi: Fərhad Ağayev — seçilir;

Müzakirə edilir: Azərbaycanda xalq maarifinin bir sıra mühüm məsələləri;

Qərar: Qafqaz canişininə ana dilini sərbəst dərs keçmək barədə sərəncam verilməsini xahiş etmək.

Nəriman Nərimanov etiraz etdir: "Qurultay tələb edir! Xahiş yox!"
Həsən bəy Zərdabi: "tələb" yox xahiş daha müvafiqdir, nəzakətlidir... — Münaqişə başlanır; Z. Tağıyev qurultaya gəlir

Hacı Nərimanovun kasıb olduğunu və onun puluyla oxuduğunu dilə gətirir. Nərimanov cavabında: «Mən heç kəsə ixtiyar verməm ki,... qızılın gücüylə məni susdursun… Bütün qurultay qarşısında cənab Tağıyevin təqaüdündən məmnuniyyətlə imtina edirəm». Onların şəxsi münasibətlərində soyuqluğun başlanğıcı qoyulur. Bu cür münasibət on ildən artıq davam etdi. Nərimanovun Tağıyevə məktubunda: "Mən hər dəfə kontorunuza gəlib pulu qaytarmaq istədiyimi deyəndə sizin müdir mənə deyir Hacı dedi sonra qaytarar". Görünür, Hacı da peşman olmuşdur, sözdür də, əsəbiləşib demişdir. Ümumilikdə mesenat xeyriyyə işlərinə qızıl pulla 1 milyon rubl xərcləymişdir

***Qeyd:1. Adlarının eyni çəkildiyi ilk hadisə 1892-ci il martın 29-da Krımda çıxan «Tərcüman» qəzetində Tağıyev teatrında xeyriyyə məqsədilə oynanılan tamaşa barədə məlumat olur. (Yazının müəllifi 22 yaşlı N. Nərimanov, haqqında yazılan teatrın sahibi 54 yaşlı H. Z. Tağıyevdir.) Qeyd: 2. Onun vəsaiti hesabına Şeyxülislam Əbdüssəlam Axundzadənin "Tari-xi-müqəddəs", Sultan-məcid Qənizadənin kitabları, "Əşari-Seyid Əzim Şirvani" kitabı, Əhməd bəy Ağayev tərəfindən Azərbaycan dilinə çevrilmiş 1864-cü il "Əsasnaməsi" də və s. çap olunur.***

HACI ZEYNALABDİN TAĞIYEV

HƏYATIN QƏRİBƏLİYİ

QEYRİ-ADİ DOSTLUQ (ardı)

N. NƏRİMANOV — H. Z. TAĞIYEV

MÜNASİBƏTLƏRDƏ SOYUQLUQ ÜMUMXALQ İŞİNƏ QARIŞDIRILMADI

- 1908-ci ildə təhsilini tamamlayıb Bakıya qayıdandan sonra Tağıyevin qız məktəbində bir müddət həkim işləyir;
- 1909-cu ildə İran inqilabına kömək etdiyinə görə Metex türməsinə salınır, bir neçə aydan sonra
- Həştərxana sürgün etdilir.

- Nərimanovun "Bahadır və Sona"sı, digər dram əsərləri Tağıyev teatrının səhnəsində tamaşaya qoyulur;
- Səttarxan hərəkatına yardımla kömək edir. Ərzaq, ehtimal var ki, silah da göndərir

1917-Cİ İL İNQİLABI

NƏRİMAN NƏRİMANOVU HACI ZEYNALABDİN TAĞIYEVİ ƏKS CƏBHƏLƏRƏ AYIRIR

1918-Cİ İLİN MART HADİSƏLƏRİ HƏR İKİSİNİN HƏYATI ÜÇÜN EYNİ DƏRƏCƏDƏ TƏHLÜKƏ TÖRƏDİR

- Bakı Kommunasının dib Həştərxana yollanır;

1920-Cİ İL

- XI Qızıl ordunun vəhşiliklərinə qismən son qoyur, əmlakı müsadirə olunan, milliləşdirilən Hacının adını güllələn siyahısından çıxardır.

- Oğlu Lənkəranda "rus ruletkası" oynayaraq özünü öldürür. Nəşi "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilərkən bolşeviklər gəmidə olan zabitləri tərksilah edir, Mart soyqırımına gətirib çıxardır;
- Təlatümlü günləri İranda keçirdir;
- 1920-1924-cü illərdə təhlükəsiz yaşayır,

YEKUN

N.Nərimanov Tağıyevə təqaüd kəsdirir, yaşaması üçün istədiyi Mərdəkandakı bağ evini saxlatdırır və vaxtilə aldığı borcun qalan hissəsini də – son qəpiyinədək qaytarır. Hacının qızı Sara xanımın xatirələrində (1991): "Sovet hakimiyyətinin qurulmasından sonra, bir gün axşam Tağıyevin evinə ÇEKA-dan adamlar gəldilər. Mən Nərimanovun yanına – Yuxarı Təzəpir küçəsinə gedərək, ona məlumat verdim. O, ÇEKA-nın əməkdaşını telefona çağıraraq Tağıyevə dəyməməyi tapşır. Mən evimizə qayıdanda, artıq ÇEKA getmişdir"[1]. 1922-ci il: Tağıyev sovet iqtisadi siyasətlə bağlı N.Nərimanova müraciət edir. Tağıyev: "... artıq fəaliyyətsiz qala bilmərəm, xüsüsən hökümətin səsi və xalqın maraqları iqtisadi siyasətin yeni yoluna qədəm qoyduğu bir dövrdə, bütün canlı qüvvələri xalq təsərrüfatının və sənayenin bərpasına səsləyirəm". N. Nərimanov: "Qərbi Avropa Hacıya daha artıq etibar edər, nəinki bizə. Əgər o, kredit açarsa, həmin pullara Qərbi Avropadan bizə lazım olan hər şeyi əldə edə bilərik". Onların son görüşü 1924-cü ilin may ayına təsadüf edir. Nərimanov Moskvadan Bakıya qonaq gəlir, Mərdəkana gedir Hacını soruşur, yaxşı olmadığını öyrənir: "... O, çox böyük insandır, gedib onu mütləq görməliyəm". Hacıya baş çəkir. Yaşı 100-ü adlamış qoca onu tanımır.. böyük xeyriyyəçi 1924-cü il sentyabrın 1-də vəfat edir, 4-də dəfn olunur. 55 yaşlı Nərimanov ondan sonra cəmi 7 ay yaşayır.

*Qeyd:1. AXC xüsusi xidmət orqanının rəhbəri olan Nağı bəy Şeyxzamanlının xatirələrindən: Bütün sərvətindən məhrum olan Hacının Bakıdakı bez fabrikinin adı bolşeviklər tərəfindən dəyişdirilərək, "Lenin adına bez fabriki" adlandırılır. Bunu eşidən Hacı doktor Nərimanın yanına gedir və ona deyir:- Nəriman, mən öz pulumla türk xalqı üçün teatr tikdirdim və xalqımıza hədiyyə etdim. Dram Cəmiyyəti teatrın adını dəyişdirib Dadaş Bünyadzadənin adını qoymusunuz. Buna heç bir etirazım yoxdur. Yalnız etirazım adını lənət olmuş Lenin adıdır... Mən o alçaq Leninə fabrik satmamışam. Əgər fabrikimin adını dəyişdirib Nəriman qoysaydınız, yenə etiraz etməyəcəkdim! Bu sözlərdən sonra Nəriman Hacını həbs etdirir. /1957-ci ildə "Azərbaycan" kültür dərgisinin 15-ci sayında. Əslində, H.Z.Tağıyev heç vaxt bolşeviklər tərəfindən həbs olunmayıb.[14, 4]*

HACI ZEYNALABDİN TAĞIYEV

AİLƏ BAŞÇISI KİMİ [5,198.] [13, 68-69]

**BİRİNCİ AİLƏSİ**
(üç oğlu, bir qızı)

- Həyat yoldaşı əmisi qızı Zeynəb xanım;
- Oğlanları: İsmayıl (1865–1930) [1], Sadıx (1868–1943), Kazım (kiçik yaşda vəfat edir);
- Qızı Xanım (1871–1916)

**İKİNCİ AİLƏSİ**
(iki oğlu, üç qızı)

- Həyat yoldaşı general leytenant Balakişi bəy Ərəblinskinin qızı Sona xanım [2];
- Oğlanları:Məmməd(1900–1918),İlyas(1903–1931)[3]
- Qızları: Leyla (1898-1947)[4], Sara (1899-1991)[5], Süræyya (1904–1975)

*Qeyd:1. Saibkar, Rusiya imperiyası II Dövlət Duması və Bakı Şəhər İctimai Özünüidarəsinin üzvü İsmayıl atası ilə bacanaq idi. Ərəblinskinin iki qızından böyüyü İsmayılın həyat yoldaşı idi. Bu izdivacdan Əbdürrəhman, İbrahim adlı övladları olur. Qeyd:2. Zeynəb xanımın vəfatından sonra 73 yaşlı (bəzi ədəbiyyatlarda 50 yaşlı) Hacı oğlugildə Balakişi bəy Ərəblinskinin kiçik qızı 16 yaşlı Sonanı görür, bəyənir. Fərhad Cabbarov: "Sona xanımın Tağıyevlə evlənəndə 16 yaşında olması məsələsinə gəldikdə isə, biz bunu qəbul etməyə bilərik, bizə qəribə gələ bilər, 50 və 16 yaş arasında fərq çox görünə bilər. ... baxaq görək, bizim dində bu qadağa var? Yox! Hacı da dindar adam idi. Deyirlər ki, Sona xanım Tağıyevin puluna görə ərə gedib. Məgər Sona xanım Ərəblinskaya kasıb ailədən idi? Çar ordusunun generalının qızı idi. Hələ bilmək olmaz ki, bu izdivacda kim daha çox şöhrət qazandı, kəndli balası Tağıyev, yoxsa general qızı Ərəblinskaya? Nəhayət üçüncüsü, Sona xanımın məktubu var. Həmin məktubda deyilir ki, mən özüm könüllü şəkildə Tağıyevə ərə getmişəm". "Tağıyev haqqında danışırıqsa, Tağıyev, Ərəblinski və Sona xanım mövzusuna da toxunmağa məcburuq. ... Guya Hüseyn Dərbənddə qastrolda olarkən Sona Ərəblinskini görüb, ona aşiq olub və Ərəblinski ləqəbini götürüb. Birincisi, Hüseyn Ərəblinski o təxəllüsü özünə götürəndə Sona xanım artıq Dərbənddə yaşamırdı, Bakıda Tağıyevin arvadı idi. İkincisi, Ərəblinskinin öldürülməsi ilə bağlı istintaq aparılıb və sübut olunub ki, onu məişət zəminində öz qohumu öldürüb". Bir də Ərəblinski Tağıyevin teatrında aktyor kimi tamaşalarda oynayır, rejissorluq edirdi. " Ən əsası, Ərəblinski öldürüləndə Tağıyev heç o hayda da deyildi ki, bir qoçu tapıb Ərəblinskini öldürtdürürsün. ... O qətldən qısa zaman öncə Tağıyevin oğlu özünü öldürür ..., Sona xanım oğlunun vəfat xəbərini eşidəndə havalanır,...soyqırımı da bir tərəfdən". https: // kulis. az/xeber/media/ferhad-cabbarov-tagiyevin-qocusu-olmayib-mu-sahibe-40968 Qeyd: 3. "Dikaya diviziya"nın zabiti Məhəmməd özünü öldürür, İlyas xəstəlikdən ölür. Qeyd:4. Leyla xanım Şəmsi Əsədullayevin oğlu Əli Əsədullayevlə evlənir. Bu izdivacdan Əli, Nadir, Gülnar və Zeynal adlı övladları olur. Qeyd:5. Fərhad Cabbarov Sara Tağıyeva-Sarayevanın arxivi, həyatı, fəaliyyəti, Rusiyada yaşayan iki övladı, Tağıyevlər nəslilə bağlı maraqlı məlumatları açılayır. Belə ki, AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi katibi Fərhad Cabbarov Sara Tağıyeva-Sarayevanın oğlu Oleq Nikolayeviç Sarayevlə görüşmək məqsədilə Rusiyanın Sankt-Peterburq şəhərində ezamiyyətdə olur. Oleq Sarayev Sara Tağıyeva-Sarayevanın arxivini muzeyin elmi katibinə təqdim edir. Həmin arxiv Sara xanımın 1950-1980-ci illərdə H.Z.Tağıyevin şərəfli adının bərpa olunması, ona bəraət verilməsi uğrunda apardığı mübarizəyə dair unikal sənədlərlə zəngindir. Təqdim edilən arxivdə ... qeyd olunur ki, H.Z.Tağıyevin qəbrini tapmaq çox çətin idi. Onun harada dəfn olduğunu öyrənmək üçün qəbri açmağa məcbur olublar. Dəmir tabutu gördükdən sonra əmin olublar ki, bu, Hacı Zeynalabidin Tağıyevin qəbridir. 1991-ci ildə Sara xanım dünyasını dəyişir. Ardınca Səfiyyə xanım (Sara xanımım ilk nigahından Zeynal bəy Səlimxanovdan olan qızı) Türkmənistandan Bakıya biryolluq köçür. Anasının xatirəsini yaşatmaq üçün "Sara xanım Tağıyeva adına Xeyriyyə Fondu" yaradır. 1992-ci ilin ilk dövrlərindən artıq Fond xeyriyyəçilik tədbirlərinə başlayır. Hospitallarda yatan yaralı əsgərlərimizə, uşaq və qocalar evlərinə, imkansız və binəsib insanlara ianə verən "Sara Tağıyeva Fondu"nun xeyriyyəçilik tədbirləri ilə Səfiyyə xanım babası Hacı Zeynalabdinin ən-ənəsini yaşadırır. (Səfiyyə anası Sara xanım, atası Zeynal bəy Səlimxanov və babası Z.Tağıyevlə birlikdə 3 il cah-cəlal (1917-20) içində, 4 il (1920-24) isə məşəqqətlərlə yaşadı. Əsl qara günləri də babası rəhmətə gedəndən sonra başlayır.) Səfiyyə xanım 2005-ci ildə dünyasını dəyişir. Xeyriyyəçilik ənənəsi davam edir. Oğlu Tofiq Abdullayev də əl tutan, yardım edən insandır. https://minval.info › haci-zeynalabdin-tagiyevin-nəticəsi*

HACI ZEYNALABDİN TAĞIYEV

TARİXDƏ ZƏNGİN İNSAN KİMİ DEYİL, XEYRİYYƏÇİ KİMİ QALDI

ZƏNGİN — XEYRİYYƏÇİ

ZEYNALABDİN TAĞIYEV

- Adı uzun müddət unudulmağa məhkum edildi; Ailə üzvləri təqiblərə, bir qismi repressiyalara məruz qaldı;

- Yalnız 1980-ci illərin sonunda xeyriyyəçinin fəaliyyəti öz layiqli qiymətini aldı.
- İ.Əliyevin təşəbbüsü ilə:

✓ 2000-ci ildə qəbrinin yerləşdiyi Pirhəsən ziyarətgahı abadlaşdırıldı;
✓ 2004-2007- ci illərdə evi, hazırda Tarix Muzeyinin binası əsaslı təmir edild;
✓ 2022-ci ildə Bakıda abidəsi ucaldıldı [1]

YEKUN: XIX ƏSRDƏ ƏSASINI QOYDUĞU XEYRİYYƏÇİLİK ƏNƏNƏLƏRİ BU GÜN DƏ MÜSTƏQİL AZƏRBAYCANDA DAVAM EDİR

***Qeyd:1. "Azərbaycan milyonçusu və mesenat Hacı Zeynalabdin Tağıyevin heykəli 18 yanvar 2022-ci il tarixində "İçərişəhər" metro stansiyasının qarşısında ucaldılıb. Tağıyevin abidəsinin məhz bu yerdə yerləşməsinin böyük rəmzi mənası var. Çünki Zeynalabdin Tağıyev ömrü boyu Bakının inkişafına, abadlaşmasına, ümumiyyətlə Azərbaycanın inkişafına böyük töhfələr vermişdir".https://az.wikipedia.org/wiki/Hacı_Zeynalabdin_Tağıyevin_heykəli.***

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Ensiklopediyası Azərbaycan mədəniyyəti, maarifi və iqtisadiyyatının inkişafında böyük rolu olmuş H.Z.Tağıyev haqqında. Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007, 268 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası 2 cilddə / II cild Tağıyev Hacı Zeynalabdin Məmmədtağı oğlu (1823-1924). Bakı: Lider Nəşriyyat, 2005, s.347-391.
3. Abbasov A / Red: "Hacı Zeynalabdin Tağıyev". İstanbul: MAS Matbaacılık, 2010, s.166.
4. Bakı milyonçusu H. Z.Tağıyevin həyatı haqqında. / Varlıq ensiklopedik toplu. – Bakı: "Zaman", 1998, 198 s.
5. Əhmədov, S. Hacı Zeynalabdin Tağıyev (1823-1924) : Böyük xeyriyyəçi və milyonçu Hacı Zeynalabdin Tağıyevin həyatı və fəaliyyəti haqqında / Əhmədov S. Azərbaycan tarixindən 100 şəxsiyyət.- Bakı : Ayna Mətbu Evi, 2006. – s.151-153..
6. Əhmədova Y. / red. P.Qasımova, N.Əsgərova. El atası. Sumqayıt, 2016, 63 s.
7. Əhmədov, H. Hacı Zeynalabdin Tağıyev məşhur xeyriyyəçi-maarifçidir /Əhmədov H.Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti.- Bakı : Mütərcim, 1997.- s.38-478.
8. H.Z.Tağıyevin "Kaspi" yə etdiyi himayədarlığı haqqında // Kaspi. – 2015. –7 aprel.
9. H.Z.Tağıyevin Bakıya su kəmərinin çəkilməsində olan böyük rolu və köməyi haqqında // Azərbaycan müəllimi. – 2015. – 12 dekabr.
10. Nərimanov, N. Hacı Zeynalabdin Tağıyevin 50 illiyi, məişətə və camaata xidmətləri / Nərimanov N. Seçilmiş əsərləri. – Bakı : "Lider nəşriyyat", 2004. – s.397-410.
11.Mərdanov M. XX əsrin əvvəllərində Azərbaycanda təhsil : Böyük xeyriyyəçi və maarifçi Hacı Zeynalabdin Tağıyevin təhsil sisteminin inkişafındakı fəaliyyəti haqqında. - / Mərdanov M. Azərbaycan təhsil tarixi. C.I. – Bakı : Təhsil, 2011. – s.115-144.
12. Süleymanov M. Hacı Zeynalabdin Tağıyev haqqında. / Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim.- Bakı : Azərnəşr, 1987.- s.83-93.
13. Seyidov, Y. Hacı Zeynalabdin Tağıyev : Böyük mesenat və xeyriyyəçi H. Z.Tağıyevin həyatı haqqında / Seyidov Y. Azərbaycan dili. – Bakı : " Bakı Universiteti nəşriyyatı, 2014. – s. 68-69.

**ЭЛЛАРА АХМАДОВА**
*Колледж промышленности и технологий при АГУНП*

## ГАДЖИ ЗЕЙНАЛАБДИН ТАГИЕВ (СХЕМАТИЧЕСКИЙ АНАЛИЗ)

Миллионер, предприниматель, меценат, меценат, первый азербайджанец, в честь которого воздвигнут памятник, как личность Г.З. Тагиев был простым, смелым, мудрым, великодушным, заботливым, сострадательным и верным. Он был первым предпринимателем, который сломал колониальный характер местной экономики, инвестируя во все отрасли промышленности, такие как сельское хозяйство, транспорт, торговля, связь, дал импульс развитию энергетического сектора, что укрепило экономику Азербайджана. Как меценат он основал первую на мусульманском Востоке школу для девочек, текстильную фабрику, здание театра в Баку, играл важную роль в строительстве водопровода Баку-Шоллар и открытии благотворительных обществ. Он стал основоположником меценатских традиций и просветительских идей в Азербайджане.

*Ключевые слова*: Предприниматель, меценат, благотворитель просветитель, общественный деятель, человек.

**ELLARA IBRAHIM AHMADOVA**
*College of Industry and Technology at ASOIU*

## HAJJİ ZEYNALABDİN TAGHİYEV (SCHEMATIC ANALYSIS)

A millionaire, entrepreneur, maecenas, philanthropist, first Azerbaijani in honor of whom a monumnument had been erected, as a person H.Z.Taghiyev was simple, courageous, wise, generous, careful, compassionate and faithful. He was the first entrepreneur who had broken the colonial nature of the local economy investing to all areas of industry such as agriculture, transport, trade, communication, gave impuplse to development to the energy sector which strengthened the economy of Azerbaijan. As a philanthropist, he founded the first girls' school in the Muslimian East, a textile factory, a theater building in Baku, he played an important role in the construction of the Baku-Shollar water pipeline and the opening of charitable societies. He became the founder of philanthropic traditions and ideas of enlightenment in Azerbaijan.

*Keywords*: Entrepreneur, philanthropist, enlightener, public figure, person.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Naibə Əhmədova, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ZƏMİNƏ ƏSGƏROVA**
*AzMİU-nin "İctimai fənlər" kafedrasının dosenti,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*
**zaminacahan2012@gmail.com**

**AYGÜN MƏMMƏDOVA**
*AzMİU-nin "İctimai fənlər" kafedrasının müəllimi,*
*BDU-nun «Fəlsəfə» kafedrasının doktorantı*
**aygun.memmedova.1976@mail.ru**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ

*Məqalədə 28 may 1918-ci ildə müstəqilliyini elan etmiş gənc Azərbaycan Xalq Cümhuriyyəti xarici siyasət məsələlərinə xüsusi diqqət yetirilir. İstiqlaliyyətin qorunub saxlanması daxildən daha çox, xarici amillərlə də bağlı idi. I Dünya müharibəsinin getdiyi mürəkkəb beynəlxalq şəraitdə - iştirakçı ölkələrin Qafqaz və onun zəngin guşələrindən olan Azərbaycan uğrunda hərbi əməliyyatların genişləndiyi dövrdə Azərbaycanın dövlət müstəqilliyinin qorunması onun uğrunda mübarizələrdə yetişmiş siyasətçilərdən və dövlət xadimlərindən hər an dəyişən vəziyyətə uyğun çevik siyasi manevretmə bacarığı tələb edirdi. Azərbaycan diplomatiyasının bu çətin vəzifənin öhdəsindən gəlməsi üçün 1918-1920-ci illər dövründə təşkil olunmuş müxtəlif hökumət kabinetlərində Xarici İşlər Nazirliyinin möhkəmləndirilməsi və təşkilati strukturunun təkmilləşdirilməsinə böyük diqqət yetirilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət idarəsinə müxtəlif vaxtlarda dovrünün ziyalıları, dünya siyasətinin sirlərinə bələd olan, çevik diplomatik bacarığa malik Fətəli Xan Xoyski, Məmməd Həsən Hacınski, Məmməd Yusif Cəfərov, Adil xan Ziyadxanlı başçılıq etmişdilər. Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə.Şeyxülislamov, C.Hacıbəyli, M.Y.Mehdiyev. M.Məhərrəmov, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və digərləri yaxından iştirak etmişlər.*

*Açar sözlər*: AXC-nin xarici siyasəti, Azərbaycan Türkiyə münasibətləri, Mudros barışığı, Azərbaycan – Gürcüstan əməkdaşlığı, Dağlılar Respublikası, Paris Sülh Konfarnsı.

***Giriş***. 1918-1920-ci illərdə AXC-nin xarici siyasətinin əsas məqsədi Azərbaycanın müstəqilliyinin gerçəkləşməsindən ibarət idi. Azərbaycan hökuməti Azərbaycanının müstəqilliyinin tanınması və qorunub saxlanılmasında Qərb ölkələrinin himayəsini əldə etmək işinə birinci dərəcəli əhəmiyyət verirdi. Azərbaycan parlamentinin fəaliyyətinin çox mühüm hissəsini daim özünə cəlb edən məsələlərdən biri də yaxın qoşunlarla münasibətlər və sərhəd məsələləri olmuşdur. Azərbaycan hökumətinin üzvü Ə.M.Topçubaşov İstanbul, Vyana, Berlin eləcədə Ermənistan və Gürcüstanın mərkəzlərinə səlahiyyətli səfir təyin edilmişdi. Verilən məlumata görə Ə.M.Topçubaşov Azərbaycanın maraqları ilə bağlı geniş səlahiyyətlərə malik idi. O, İstanbulda olan zaman Ukrayna, İran, Rusiya, ABŞ, İtaliya, İsveç, Hollandiya, Ermənistanın rəsmi nümayəndələri ilə görüşmüş, fikir mübadiləsi etmiş və onlara memorandum təqdim etmişdir. Memorandumda Qafqazın coğrafiyası, onun Çar dövründə inzibati bölgüsü, regionun demokratik vəziyyəti, Azərbaycan Respublikasında mövcud vəziyyət, aparılan quruluş işləri, erməni probleminin mahiyyəti, mart soyqırımı, Qarabağ məsələsi barədə məlumat verilir. Azərbaycan Respublikasının müstəqil yaşamağa haqqı olduğu əsaslandırılırdı [1: 257].

Milliyyətindən və dini etiqadından asılı olmayaraq qonşu dövlətlərlə mehriban münasibətlər Azərbaycan diplomatiyasının aparıcı istiqaməti olub, onun çıxış nöqtəsini təşkil edirdi. Böyük dünya siyasəti baxımından Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini üç dövrə bölmək olar: Türkiyə oriyentasiyası dövrü (1918-ci il may-oktyabr); Qərb oriyentasiyası dövrü (1918-ci il noyabr-1920-ci il yanvar); geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü - (1920-ci il yanvar-aprel).

XX əsrin əvvəllərindən Azərbaycanda genişlənən milli-azadlıq mübarizəsində onun öncülləri Osmanlı dövlətinə böyük ümid bəsləyirdilər. Əsrin əvvəllərindəki təlatümlü hadisələr Azərbaycanın

türk-müsəlman əhalisinin həyatında milliyyətçilik ideyasının geniş yayılmasına və inkişafına ciddi təkan verdi.

Balkan müharibələri dövründə Rusiyada antitürk əhvali-ruhiyyəsinin qızışdırılması bir tərəfdən Qafqaz müsəlmanlarını ondan narazı saldı, digər tərəfdən isə Azərbaycan xalqında Osmanlı dövlətinə qarşı təbii meyli gücləndirdi. Bu dövrdə milliyyətçi qüvvələrin yaydığı bəyannamədə göstərilirdi: "Biliniz və agah olunuz ki, bizim yeganə çareyi-nicatımız Türkiyənin istiqlalı və onun tərəqqisidir" [5: 40].

I Dünya müharibəsinin son mərhələsində Azərbaycan millətinin müstəqillik arzusu Türkiyənin Qafqaz siyasəti ilə çarpazlaşdığından tərəflər arasında bir-birinə olan təbii meyil onların sosial-siyasi, hərbi-iqtisadi əməkdaşlığında yeni mərhələyə daxil oldu.

Bu yeni mərhələnin səciyyəvi cəhəti ondan ibarət idi ki, Azərbaycanlıların Osmanlı dövlətinə söykənməyi milli idealla yanaşı, millətin fiziki varlığının hifz edilməsi zərurətindən irəli gəlirdi.

1918-ci ilin əvvəllərində Trabzon və Batum danışıqları Zaqafqaziya Seyminə daxil olan xalqların Türkiyəyə münasibətində köklü fikir ayrılıqlarını üzə çıxartdı. Trabzon danışıqları dayandırıldıqdan sonra Batuma səfər edən Ənvər Paşa Trabzonda Zaqafqaziya hökumətinin dağılacağı təqdirdə Türkiyə ilə geniş sərhədləri olan müstəqil Azərbaycan dövlətinin yaradılmasına tərəfdar olduğunu və bu dövlətin Türkiyə tərəfindən müdafiə ediləcəyini bildirdi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə - dövlətlərarası münasibətlər mərhələsinə daxil oldu [3: 72].

1918 il mayın 30-da Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Türkiyə, Almaniya, Avstriya - Macarıstan, Fransa, Böyük Britaniya, İtaliya, ABŞ, Bolqarıstan, Rumıniya, İran, İspaniya, Hollandiya, Rusiya, İsveç, Ukrayna, Danimarka və Yaponiya xarici işlər nazirliklərinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə məlumat göndərdi.

Bu mərhələdə Azərbaycan-Türkiyə münasibətlərinin hüquqi əsasını 4 iyunda imzalanmış Batum müqaviləsi təşkil edirdi. Müqavilədə göstərilirdi: "Bir tərəfdən, Osmanlı imperator hökuməti, digər tərəfdən isə müstəqilliyi elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməklə qarşılıqlı surətdə razılığa gəlirlər". 4 iyun müqaviləsi və iyunun ortalarında imzalanan çoxtərəfli sazişlər Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrini əhatə edən ilk dövlətlərarası sənədlər idi. Hələ Batumda olan Məmməd Əmin Rəsulzadə və M.H.Hacınski xarici hərbi müdaxiləyə son qoymaq və daxili asayişi qorumaq məqsədilə 4 iyun müqaviləsi əsasında hərbi yardım göstərilməsi barədə Türkiyəyə müraciət etdilər. Həmin müraciəti qəbul edən Osmanlı dövləti elə etmək istəyirdi ki, Azərbaycana ordu göndərilməsi Cənubi Qafqazda möhkəmlənməyə çalışan Almaniyanın etirazına səbəb olmasın. Ona görə qarşılıqlı razılıq əsasında osmanlı hərbi hissələri və Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusu yaradıldı.

Azərbaycan-Türkiyə münasibətlərinin genişlənib dərinləşməsində 1918-ci ildə keçirilməsi nəzərdə tutulan İstanbul konfransına M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti göndərilməsinin böyük əhəmiyyəti oldu. Nümayəndə heyətinə bu beynəlxalq konfransa dəvət edilmiş Osmanlı, Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan, Gürcüstan, Ermənistan və Dağlılar dövlətlərinin nümayəndələri ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdi. Nəzərdə tutulan beynəlxalq konfrans keçirilməsə də, Azərbaycan nümayəndələrinin İstanbul missiyası çox faydalı oldu. İyun ayının axırlarından oktyabrın axırlarına qədər Azərbaycan, Osmanlı və digər dövlətlərin İstanbulda olan nümayəndələri səmərəli danışıqlar apardılar.

Sentyabrın 6-da isə Azərbaycan nümayəndələri Mehmet Rəşadın vəfatından sonra taxta əyləşmiş Sultan VI Mehmet Vahideddin tərəfindən qəbul edildi. Həmin gün Sultan taxta çıxması münasibətilə İstanbulda olan diplomatik nümayəndələr üçün təntənəli rəsmi qəbul (audiensiya) mərasimi düzəltmişdi. Gözləmə zalında bir çox xarici nümayəndəliklər olmasına baxmayaraq, Sultanın şəxsi təşəbbüsü ilə Azərbaycan nümayəndələri birinci qəbul edildilər. Onları Ənvər Paşa qarşılayıb Sultana təqdim etdi. Azərbaycan Xalq Cümhuriyyəti adından VI Mehmeti təbrik edən M.Ə.Rəsulzadə yüzillik əsarətdən xilas olmuş Azərbaycan xalqının öz istiqlaliyyətini və hürriyyətini qoruyub saxlamaq yolunda qardaş Türkiyəyə arxalandığını bildirdi. Sultan cavabında qeyd etdi: "Sevimli Azərbay-

canımızın nümayəndələri tərəfindən təbrik edildiyimi həyatımda xoşbəxt bir hadisə qəbul edirəm. Əsarətdən xilas olmuş türk və müsəlman hökumətinin istiqlaliyyət və hürriyyətini təmin etmək mənim hökumətimin ən müqəddəs vəzifəsini təşkil edir. Azərbaycanın həyat və qüvvət kəsb edərək, bizimlə birlikdə ümumi düşmənlərimizə qalib gələcəyinə ümid edirəm" [8: 46].

Bu qəbul barədə Azərbaycan hökumətinə məlumat verən M.Ə.Rəsulzadə yazırdı: "Biz çıxanda Sultanın Ənvər Paşa həzrətlərinə yaxınlaşaraq "bu dəqiqələr ömrümün ən xoşbəxt dəqiqələridir" dediyini eşitdik və bundan köksümüz iftixarla doldu".

1918-ci ilin yayında Azərbaycan ətrafında cərəyan edən beynəlxalq vəziyyət Bakının tezliklə azad edilməsini zəruri edirdi. Dünya müharibəsinin sonunda Bakı Türkiyə, Almaniya, İngiltərə, Sovet Rusiyası arasında mübarizənin əsas obyektinə çevrilmişdi.

1918-ci ilin yayında İstanbulda vəziyyəti müşahidə edən almanlara aydın oldu ki, Türkiyənin müdafiə etdiyi Azərbaycan hökuməti bolşeviklərin əlində olan Bakı quberniyasını heç kimə güzəştə getmək istəmir. Buna görə, almanlar Bakı ilə bağlı planlarına Sovet Rusiyası vasitəsilə çatmaq fikrinə düşdülər və bu məqsədlə onunla gizli danışıqlara başladılar. Berlin danışıqları davam etdiyi zaman Bakı Xalq Komissarları Sovetinin şəhəri əldə saxlamaq üçün çar polkovniki L.Biçeraxovdan yardım almaq ümidləri boşa çıxdı və iyul ayının axırlarında Bakı Kommunası yıxıldı. Sentrokaspiçilər və avqustun əvvəllərində L.Denstervil başda olmaqla Bakıya daxil olan ingilislər şəhəri Qafqaz İslam Ordusunun hücumundan müdafiə etmək iqtidarında deyildilər. Nəhayət, Berlində üç aya qədər davam edən Almaniya-Rusiya danışıqları avqustun 27-də saziş imzalanması ilə nəticələndi. Sazişin 12-ci maddəsində göstərilirdi:"Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü dövlətə heç bir yardım etməyəcək. Rusiya Bakı vilayətində neft çıxarılmasını bütün imkanları daxilində artıracaq, çıxarılan neftin dörddə birini Almaniyaya verəcək.

İstanbulda olan Azərbaycan nümayəndələri bu sazişlə əlaqədar Almaniya səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya - Macarıstan və Bolqarıstan səfirliklərinə, habelə bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi.

1918-ci il sentyabrın əvvəllərində Azərbaycan nümayəndələri Sədr-Əzəm Tələt Paşa tərəfindən qəbul edildi və danışıqlar zamanı Tələt Paşanın Berlinə səfəri ərəfəsində Almaniyanın Bakı məsələsində tutduğu mövqe, Bakının tezliklə azad edilməsinin zəruriliyi müzakirə olundu.

Az sonra Berlinə gedən Tələt Paşa təcili şəkildə 27 avqust sazişinin ləğv edilməsini Almaniyadan tələb etdi. Bu addım Bakının azad edilməsində mühüm əhəmiyyətə malik oldu. Sentyabrın ortalarında Azərbaycan-Türkiyə hərbi qüvvələri Bakıya girdi. Bakının azad edilməsi istiqlalı elan olunmasından sonra Azərbaycanın taleyində ikinci böyük tarixi hadisə idi. Bu qələbənin diplomatik cəhətdən təmin edilməsi Azərbaycan diplomatiyasının ilk uğurlarından idi. Bakının azad edilməsi ilə Azərbaycan Xalq Cümhuriyyəti öz hakimiyyətini gənc Respublikanın ərazisində bərqərar etdi.

Bakının azad edilməsi barəsində məlumatı Ənvər Paşa İstanbulda olan Azərbaycan nümayəndələrinə çatdırdı. İstanbuldan baş nazir F.X.Xoyskiyə və xarici işlər naziri M.H.Hacınskiyə yazdığı məktubda M.Ə.Rəsulzadə göstərirdi ki, Bakının alınması burada əhvali-ruhiyyəni qaldırmışdır. Bakı azad edildikdən sonra Almaniyanın hərbi və ticarət nümayəndəsi baron fon der Qolts, Avstriya-Macarıstan diplomatik nümayəndələri, Osmanlı Sultanlığının Qafqaz Ordusunun hərbi qərargahı Bakıya gəldi.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Ə.M.Topçubaşovun İstanbul missiyasının böyük əhəmiyyəti oldu. O, 1918-ci il sentyabrın 28-də İstanbula gəldi və Azərbaycan hökumətinin fövqəladə səlahiyyətli naziri kimi işə başladı.

Berlin danışıqlarından sonra oktyabrın 2-də Ə.M.Topçubaşovu qəbul edən Tələt Paşa məlumat verərkən bildirmişdi ki, Azərbaycanın mənafeyi naminə nə mümkündürsə, hamısını etmişdir. Danışıqlar zamanı Tələt Paşa Berlindəki rus səfiri A.A.İoffenin Azərbaycana münasibətdə qərəzli mövqeyini də açıqladı.

1918-ci ilin oktyabrında Ə.M.Topçubaşov İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin Türkiyə məğlubiyyət ərəfəsində böhran içərisində olduğu və ay yarım ərzində üç hökumət kabineti dəyişdiyi üçün Azərbaycanla Osmanlı dövləti arasında sabit münasibətləri bərqərar etmək mümkün olmadı.

1918-ci ilin payızında Almaniya, Türkiyə, Avstriya-Macarıstan və Bolqarıstanın daxil olduğu Dördlər İttifaqı məğlub oldu. Oktyabr ayının 30-da təkcə Türkiyə üçün deyil, Azərbaycan Xalq Cümhuriyyəti üçün də son dərəcə ağır olan Mudros barışığı imzalandı. Barışığın 11-ci maddəsinə görə, Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, on beşinci maddəyə görə, Türkiyə Zaqafqaziya Dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi.

Noyabrın 4-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi. Lakin bu etirazın elə bir əhəmiyyəti olmadı. Mudros barışığının Azərbaycana aid maddələrinə görə, Osmanlı dövlətindən narazı qalmasına baxmayaraq, onun dünya müharibəsində məğlub dövlətlərdən biri olmasından ehtiyat etməyərək, noyabrın 10-da Azərbaycan hökuməti Respublikanı tərk edən Türkiyə ordusunun şərəfinə ziyafət verdi. Türkiyə qoşunları həmin gün Bakıdan, az sonra isə bütün Azərbaycandan çıxdı. Bununla da Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Türkiyə oriyentaliyası dövrü başa çatdı.

Cənubi Qafqazın üç yeni respublikası - Azərbaycan, Gürcüstan və Ermənistan arasında sülh və sabitliyin yaradılması çox çətin oldu. Müstəqilliyin ilk günlərində Gürcüstan hökumətinin Borçalı, Sığnaq və ümumilikdə Qarayazıda Gürcüstanın sərhədlərini müəyyən etmək adı altında mövcud vəziyyəti dəyişmək cəhdləri Azərbaycan hökumətinin müqaviməti ilə qarşılaşdı.

Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.H.Hacınski iyunun 14-də Gürcüstan hökumətinin 1918-ci il 5 iyun tarixli qərarına etiraz edərək Gürcüstan hökumətinin xarici işlər idarəsinin başçısına yazırdı: "Borçalı, Tiflis və Sığnaq qəzalarının başdan-başa müsəlmanlardan ibarət olan hissələrinin əhalisi öz nümayəndələri vasitəsilə Azərbaycan Xalq Cümhuriyyəti tərkibində olmaq arzularını ifadə etdiklərini nəzərə alaraq, mənim hökumətim gürcü hökumətinin yuxarıda qeyd olunan sərəncamına qarşı qəti etiraz edir və ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin saxlanması naminə Borçalı qəzasının hüdudlarından qoşun hissələrini çıxarmaq, Azərbaycan ərazisinin yuxarıda qeyd edilən hissələrinin tutulması haqqında sərəncamı ləğv etmək üçün təcili tədbirlər görməyi təkidlə xahiş edir" [2: 314].

Azərbaycan hökumətinin ciddi səyi ilə Qarayazıdakı status-kvo saxlanıldı, Azərbaycan ordu hissəsinin burada qalması şərti ilə beynəlxalq komissiya yaradılması barədə razılıq əldə edildi. Az sonra isə məsələnin müzakirəsi 1919-cu il aprelin 25-də Tiflisdə işə başlayan Qafqaz konfransının gündəliyinə daxil edildi. Lakin 1919-cu ilin iyununda, Şimaldan yaxınlaşan təhlükə ilə bağlı olaraq, Qafqaz konfransı öz işini dayandırdı. Denikin ordusunun Dağıstan üzərinə hücumu və Cənuba doğru irəliləməsi Azərbaycan-Gürcüstan əməkdaşlığını zərurətə çevirdi. Yaranmış vəziyyətdə Ümumqafqaz həmrəyliyinin yaradılmasında Azərbaycan diplomatiyası Gürcüstanla əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. 1919-cu il iyunun 16-da iki dövlət arasında üç il müddətinə hərbi-müdafiə paktının imzalanması Azərbaycan Xalq Cümhuriyyətinin dəyərli diplomatik addımı hesab edilməlidir. Bu pakta görə, Azərbaycan və Gürcüstanın istiqlaliyyəti və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqaviləni bağlayan tərəflər öz öhdələrinə bir-birinə hərbi yardım göstərmək borcunu götürmüşdülər. Eyni zamanda müqavilənin 10-cu bəndində göstərilirdi ki, "bu müqavilə barədə rəsmi məlumat verildikdən sonra Ermənistan iki həftə ərzində bu müqaviləyə qoşula bilər". Həmin müqavilə iyun ayının 27-də hər iki ölkənin parlamentlərində təsdiq edildi.

16 iyun hərbi-müdafiə paktına uyğun olaraq, tərəflər hərbi-texniki saziş imzaladılar və birgə hərbi Şura yaratdılar. İngilis komandanlığının Azərbaycan-Gürcüstan müdafiə paktına münasibəti əvvəlcə mənfi idi, lakin sonralar dəyişdi. Britaniyanın Şərqi Avropa və Qafqazda olan qüvvələrinin baş komandanı general C.Miln Denikinin Cənuba doğru hərəkəti ilə razı olmadığı barədə baş nazir N.Yusifbəyliyə radioteleqram göndərdi.

Müstəqilliyin ilk günlərindən Gürcüstan Respublikası ilə qurulan diplomatik əlaqələr çox çətin və ziddiyyətli bir yol keçsə də, 1920-ci ilin əvvəllərində normal məcraya düşdü. Hər iki respublikanın müstəqilliyi Versal Ali Şurası tərəfindən de-fakto tanındı.

Türkiyə hökuməti 4 iyun 1918 -ci ildə 1918-ci ildə Batumda Gürcüstan və Ermənistanla da müqavilələr bağlayaraq onların da müstəqilliyini tanımışdır. Azərbaycan Cümhuriyyətinin fəaliyyətinin çox mühüm hissəsini daim özünə cəlb edən məsələlərdən biri də yaxın qonşularla münasibətlər və sərhəd məsələləri olmuşdur. Aparılan çox gərgin işdən sonra Gürcüstanla münasibətlər nizama sa-

lınsada. Ermənistan hökumətinin böyük ərazi iddiaları üzündən Azərbaycan Ermənistan münasibətlərini normal məcraya yönəltmək mümkün olmamışdı.

Azərbaycan hökuməti Bakıya gəldikdən sonra Dağlılar Respublikası ilə əməkdaşlığı inkişaf etdirmək üçün 1918-ci ilin oktyabr-noyabr aylarında bir sıra müqavilələr bağladı. İki dövlət arası bağlanmış müqaviləyə əsasən, Azərbaycan hökuməti ciddi maliyyə çətinlikləri ilə qarşılaşmış, Dağlılar hökumətinə 10 milyon manat həcmində yardım göstərmiş və o, Denikinin təcavüzünə məruz qaldıqda əlində olan bütün vasitələrlə ona yardım göstərəcəyini bildirmişdi. 1919-cu il mart ayının əvvəllərində general Tomsona etiraz notasında Azərbaycan hökuməti bəyan edirdi: "Dağlılar üçün ağır bir zamanda Azərbaycan hökuməti onlara lazımi köməklik göstərməyi özünə borc sayır".Təkcə Dağıstanı deyil, bütün Qafqazı hədələyən ağ və qırmızı Rusiyasına münasibətdə Azərbaycan hökumətinin mövqeyi respublika XİN-nin Kuban hökumətindəki səlahiyyətli nümayəndəsi C.Rüstəmbəyova məktubunda öz əksini tapmışdı. Orada deyilirdi: "Bizim hökumətin fikri belədir: kim olursa-olsun, bolşevik, menşevik, denikinçi və s., Azərbaycan istiqlaliyyətinə qəsd edən hər kəs onun düşmənidir" [6: 45].

AXC-nin xarici siyasətinin öyrənilməsinin vacibliyindən qeyd edərkən İranla münasibət xüsusi yer tutur ki, bunun da bir sıra səbəbləri var. Ilk olaraq onu qeyd etmək lazımdır ki İranla münasibətlər AXC-nin 23 aylıq fəaliyyəti boyunca onun xarici siyasətindən mürəkkəb istiqamətlərdən birini təşkil etmiş və çox saylı çətinliklər, mübahisə və gərginliklərlə müşayiət olunmuşdur. 1918-ci ilin 28-mayında demokratik respublika öz müstəqilliyini elan etsədə İran Qacarlar dövləti müsəlman dövləti olmasına baxmayaraq uzun müddət Azərbaycanın istiqlalının tanınması məsələsində gözləmə mövqeyi seçməyə üstünlük verdi [7: 39-40].

1919-cu ilin ortalarından etibarən öz yerini əməkdaşlıq meyllərinə verməyə başladı. Həmin ilin payızında yaradılan birgə Azərbaycan-İran komissiyasının gərgin işi nəticəsində iki dövlət arasında münasibətlərin bir sıra tərəflərini əhatə edən müqavilə və saziş hazırlandı. 1920-ci il mart ayının 20-də iki dövlət arasında əməkdaşlığın bütün sahələrini əhatə edən 7 müqavilə və saziş imzalandı.

Azərbaycanın öz müstəqilliyini elan etdiyi tarixi şəraitdə demək olar ki heçkəs onun gələcəyinə inamla yanaşmırdı. Xüsusi ilə ölkə ərazisinin hakimiyyət qisminin daşnaq – bolşevik qüvvələrinin nəzarətində olması Azərbaycanın istiqlalının yaşayıb- yaşamayacağına dair ciddi suallar doğururdu. Ancaq 1918- ci ilin 15 sentyabrında Azərbaycan əsgərlərinin Qafqaz İslam ordusu ilə bir də apardığı uğurlu əməliyyatlar nəticəsində Bakıya daxil olmasından və ölkə ərazisində nəzarəti təmin etməsindən sonra müsəlman İranın qərb ölkələri kimi dövlətimizin istiqlalına biganə qalması o dövrdə olduğu kimi indidə anlaşılan deyil. Azərbaycan hökuməti İranla əlaqələrini qurulması üçün ciddi cəhdlə çalışsa da bu təşəbbüslər İran tərəfinin irəli sürdüyü müxtəlif bəhanələr səbəbindən yarımçıq qalırdı. İlk vaxtlar Qacar məmurları AXC- ni tanımamaqlarının səbəbini dövlətin adı ilə daha doğrusu “Azərbaycan” sözünün onlar üçün doğurduğu siyasi narahatçılıqla izah edirdilər. Onlar mövqelərini bununla əsaslandırırdılar ki, Azərbaycan İranın şimalında yerləşən və mərkəzi Təbriz olan tarixi bor bölgənin adı olduğu üçün bu toponimin Qafqazda yerləşən, qaynaqlarda isə Arran kimi qeyd edilən əraziyə şamil edilməsi yolverilməzdir. İran Xalq Cümhuriyyətinin yaranmasına ehtiyatla yanaşır , ona 1828 ci ildə ikiyə bölünmüş Azərbaycan torpaqlarının tarixi perspektivində birləşməsinə təkan verə biləcək siyasi və ideoloji təhlükə kimi baxırdı. Lakin İranın tutduğu mövqeyə baxmayaraq Azərbaycan diplomatiyası kifayət qədər təmkinlə hərəkət edirdi. Bütün mümkün vasitələrdən bəhrələnməyə çalışırdı. AXC-nin əsas qurucularından olan M.Ə.Rəsulzadə “Azərbaycan” qəzetinin 28 aprel 1919-cu il tarixli (№ 168) sayında dərc edilmiş “Azərbaycan və İran” adlı məqaləsində Azərbaycan adının sırf tarixi bağlılıq amillərinin qorunması, mənəvi mədəni bağların həmişəlik qopması naminə seçildiyini vurğulamış İranın bu səbəbdən hansısa gizli siyasi məqsədlər axtarmasını mənasız hesab etmişdir. Bənzər fikirlər Cümhuriyyət diplomatiyasının tanınmış siyasi Respublikanın Türkiyədəki ilk səfiri, görkəmli ədib və ictimai xadim Y.V.Çəmənzəminlinin (1887-1943) 1919-cu ildə qələmə alınmış “xarici siyasətimiz” adlı kiçik həcmli əsərində öz təsirini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə İranla bir sıra saziş və müqavilələr imzalanmış və həmin sənədlər Parlamentdə təsdiq olunmuşdur.

I Dünya müharibəsinin sonunda Böyük Britaniyanın Azərbaycana marağı müstəsna dərəcədə artmışdı. Bu, bir tərəfdən, Almaniya-Türkiyə blokunun Qafqaza meylinin güclənməsi, digər tərəfdən

isə dünya neft istehsalının böyük bir hissəsinin Bakının payına düşməsi ilə bağlı idi. Müharibə ərəfəsində Rusiyada hasil edilən neftin 83 faizi Bakıda çıxarılırdı. I Dünya müharibəsində iştirak edən ölkələr isə Bakı neftinə çox vaxt qələbəni müəyyən edən amil kimi baxırdılar. İngiltərənin baş naziri U.Çörçillin fikrincə, müharibənin sonunda Antantanın üstünlüyünə baxmayaraq, alman bloku Bakı neftindən istifadə edərdisə, hərbi əməliyyatların hansı nəticələr verəcəyini qabaqcadan söyləmək olmazdı. Ona görə də Yaxın və Orta Şərqdə möhkəmlənmiş İngiltərə qoşunları 1918-ci ilin mayından başlayaraq Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Türkiyə qoşunları onların hərəkətini dayandırdı və ingilislərin Bakıya müdaxiləsi 1918-ci ilin avqustuna qədər mümkün olmadı. Bakıda XKS-nin hakimiyyəti devrildikdən sonra sentrokaspiçilərin ilk addımı Ənzəlidə dayanmış ingilisləri Bakıya dəvət etmək oldu. Avqustun 4-də polkovnik Stoksun başçılıq etdiyi ilk qoşun dəstəsi Bakıya daxil oldu. Avqustun ortalarında general Denstervil başda olmaqla min nəfərlik ikinci hərbi dəstə Azərbaycana gəldi. Şəhərin xristian əhalisi ingilisləri böyük sevinclə qarşıladı. Mart qırğınlarını törətmiş ermənilər ingilislərin simasında öz xilaskarlarını görürdülər. Lakin Britaniya qüvvələrinin azlığı onların ümidlərini puça çıxartdı.

Bakıya gələn Britaniya qoşununun çoxsaylı olması haqda məlumatların şayiə olduğunu bilən Qafqaz İslam Ordusu şəhəri azad etmək uğrunda son hərbi əməliyyatlara başladı. 1918-ci il sentyabr ayının ortalarında Britaniya qoşunu general Denstervil başda olmaqla Bakını tərk etmək məcburiyyətində qaldı. Lakin 1918-ci ilin payızında ikiaylıq fasilədən sonra onlar yenidən Bakıya qayıtdılar. Bu, Türkiyə və onun müttəfiqlərinin Birinci Dünya müharibəsində tam məğlubiyyəti ilə bağlı idi.

1918-ci il noyabrın 17-də müttəfiqlərin qoşunları Bakıya daxil oldu. Bundan az əvvəl, Azərbaycan hökuməti ABŞ prezidenti V.Vilsona, öz fəaliyyətini bərpa etmiş Milli Şura isə dünya dövlətlərinə müraciətlər qəbul etdilər. Müttəfiqlərin gəlişi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Rus və erməni milli şuralarının cəhdlərinə baxmayaraq, Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra, general V.Tomson bildirdi ki, onun "Bakıda ən bacarıqlı adamlardan biri" saydığı F.X.Xoyskinin hökuməti ölkədə koalisiya hökuməti təsdiq edilənə qədər yeganə təsirli hökumət olaraq qalır.

Balkanda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Milin az sonra Bakıya gələrək V.Tomsonun bəyanatını təsdiqlədi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin bütün ərazisində yeganə qanuni hakimiyyət kimi tanıyır. Azərbaycan hökumətində qəbul zamanı o dedi: "Mən buraya böyük müttəfiq millətlərin nümayəndəsi simasında gəldim. Məqsədimiz məmləkətdə sülh və ədaləti bərpa etməkdir. Müttəfiqlərin qələbəsi hüquqiədalət və millətlərin təyini-müqəddəratının təmininin rəhnidir. Sülh konfransında bu bəyan ediləcəkdir. Qoşunlarımız məmləkətinizdə bulunduqca hüsni-qəbul və hər dürlü müzahirət görəcəklərinə ümidvaram. Məmləkətinizin ticarət sənayesinin tərəqqisinə var qüvvəmiz ilə çalışacağıq" [9: 11].

F.X.Xoyski ilə danışıqlar zamanı C.Miln bildirdi ki, "Azərbaycan dairəsində İngiltərə hökuməti Azərbaycan hökuməti Cümhuriyyətini tanıyır və qəbul edir və hökumətə müttəfiqlər komandanlığı hər barədə kömək edəcəkdir. Ayrı-ayrı millətlərin təyini-müqəddərat hüququ İngiltərə hökuməti nöqteyi-nəzərincə müdafiə edilməlidir. Sülh konfransında İngiltərə nümayəndələri bunu müdafiə edəcəklərdir. Bundan əlavə, general bəyan etmişdir ki, müttəfiqlər komandanlığı təzə təşkil edilmiş Zaqafqaziya hökumətlərinin daxili işlərinə qarışmayacaqdır. Və müttəfiqlərin yeganə məqsədi bu dövlətlərdə asayişə kömək etməkdir". Əlbəttə, bu, tək general C.Milnin fikri deyildi , 1918-ci ilin dekabr ayında Cənubi Qafqaz məsələsi bir neçə dəfə Britaniya hökumətinin iclaslarında müzakirə edilmişdi. Lord Kerzon da bu fikirdə idi ki, Cənubi Qafqazda sabitlik lazımdır, əks təqdirdə "anarxiya, qarma-qarışıqlıq, yaxud bolşevizm" bu regionda ingilis siyasətinə maneçilik törədə bilər.

1919-cu ilin əvvəllərindən başlayaraq İngiltərə-Azərbaycan əlaqələri Bakıda olan ingilis komandanlığı, İstanbuldakı ingilis hərbi və diplomatik nümayəndəliyi, sonralar isə Paris Konfransında təmsil olunan sülh heyəti vasitəsilə həyata keçirilirdi [4: 162].

Dekabr ayında ingilislər Batum, Tiflisi də tutdular və 1919-cu ilin yayına qədər Qafqazda qaldılar. İngilislərin Azərbaycanın daxili işlərinə müdaxilə etməsi tədricən aradan qaldırıldığına görə, Azərbaycan hökuməti bütün işləri öz əlində toplayır, addımbaaddım tam irəliləyərək müstəqilliyini bərqərar edirdi.

U.Çörçill sonralar öz xatirələrində yazırdı ki, Cənubi Qafqaza daxil olmuş 20 minlik Britaniya Ordusunun yardımı ilə Gürcüstan, Ermənistan və Azərbaycan tam müstəqil olmalı idi və bu müstəqil dövlətlər İrana və Türkiyəyə bolşeviklərin gözlənilən müdaxiləsinin qarşısını almalı idilər. Azərbaycan xarici siyasətinin qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə qarşılıqlı mehriban münasibətlər yaratmaq, müəyyən məsələlərə münasibətdə Qafqaz həmrəyliyinə nail olmaq idi. Azərbaycan parlamentinin Dağıstan, Gürcüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: "Qafqaz elə bir vəziyyət qarşısındadır ki, bu ərazi üzərində qurulmuş olan Cümhuriyyətlər müqabil dostluq və həmrəylik yapmadan yaşaya bilməzlər".

Almaniya ilə ittifaqda olan Osmanlı dövlətinin Birinci Dünya Müharibəsində məğlub olaraq Almaniya dövlətləri ilə 1918-ci il oktyabrın 30-da çox ağır şərtlərə malik Mudros barışığını imzalanması Azərbaycan Respublikasının xarici siyasətinə çox mənfi təsir göstərdi. Türkiyənin məğlubiyyəti gənc dövlətimizi yeganə dayağından məhrum etdi və onun gələcək taleyində acınacaqlı rol oynadı. Cümhuriyyətin uzaqgörən siyasi liderləri M.Ə.Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski və başqalarının məqsədyönlü fəaliyyəti nəticəsində qısa müddətdə Qərbi Avropa demokratiyası modelində qanunverici məclis olan Parlamentin çağırılması və 1918-ci il dekabrın 26-sında onun qarşısında məsuliyyət daşıyan Koalision Hökumətin təşkil edilməsi Azərbaycanı xarici işğaldan xilas etdi. Birinci Dünya Müharibəsindən sonra qalib dövlətlər müharibədən sonrakı dünyanın vacib məsələlərini həll etmək üçün Parisdə sülh konfrasının çağırılmasına qərar verildi. Cümhuriyyət Hökuməti 1918-ci yanvarın 18-də isə başlayan Paris sülh konfransında iştirak etmək üçün Əlimərdan bəy Topçubaşovun başçılığı ilə nümayəndə heyəti göndərmişdir. Əsas məqsəd Paris sülh konfransının Ali şurası tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaqdan ibarət idi. 1919-cu il may ayının 28 də. ABŞ prezidenti V.Vilson tərəfindən qəbuk edilən Əlimərdan bəy Topçubaşov 6 maddədən ibarət memorandumu ona təqdim edir. Memorandumda Azərbaycanın müstəqilliyinin tanınması, onun Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilməsi ABŞ-la diplomatik münasibətlərin yaradılması, ABŞ-ın Azərbaycana hərbi yardım göstərməsi və s. tələb olunurdu. AXC Paris sülh konfransı tərəfindəndə de-fakto tanındı. AXC-nin tanınması ilə onun beynəlxalq vəziyyəti sabitləşmiş və dövlətimiz beynəlxalq əməkdaşlıq dövrünə daxil olmuşdu. Artıq Azərbaycanda dünyanın 20-dən çox dövlətinin diplomatik nümayəndələri fəaliyyət göstərirdi. Türkiyə, İran, Gürcüstan, Ermənistan, Dağlılar respublikası, Ukrayna, Krım, Mərkəzi Asiya və digər dövlətlərlə Azərbaycanın səlahiyyətli nümayəndələri diplomatik fəaliyyətə başlamışdılar. 1920 ci ilin əvvəllərində Cənubi Azərbaycanın bütün şəhərləri də Cümhuriyyət hökumətinin baş konsolluğu və yaxud konsolluğu fəaliyyət göstərirdi. 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti tariximizin çox yadda qalan unudulmaz mərhələsidir. O istiqlalımızın ən şanlı səhifələrindəndir. Elə səhifələr ki onlarda Azərbaycan xalqının əzəli arzuları müstəmləkəçiliyə, əsarətə qarşı azadlıq müstəqillik və milli birlik uğrunda şanlı mübarizə uğurları dönməzliyi əks olunmuşdur.

***Nəticə***. Beləliklə Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə müsəlman və Türk dünyasında ilk demokratik siyasi qurum idi. O, Azərbaycan xalqı üçün daim cücərən ənənə bəxş etmişdi. İ.Stalinin "Bu bir il yarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bildiniz?" sualına cavabında M.Ə.Rəsulzadə demişdi: "çox şey verə bilmədik... Amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da olsa, Milli İstiqlal dadızdırdıq. Yüz illik əsarət dərsi ilə iki illik hürriyyət qovğası bizi özümüzə tanıtdı. Biz kərə yüksələn bayraq bir daha enməz".

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) parlament. 1-ci cild. Stenoqrafik hesabatlar. Bakı, Azərnəşr. 1998. -298 s.
2. Документы и материалы по внешней политике Закафказья и Грузии. Тифлис,1919. -350 ст.
**3.** Həsənli C. Azərbaycan Respublikası: Türkiyə yardımından Rusiya işğalına qədər: 1918–1920. Ankara, 1998. -72s.
4.Həsənov C. Azərbaycan Beynəlxalq münasibətlər sistemində (1918-1920) Bakı,1993. – 250s.
5.Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Ankara, 1991.- 40s. (Türk dilində)
6.Həsibzadə H.Azərbaycan Demokratik Respublikası. Bakı, 1990. – 94s.

7.Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı-Elm -1990. -39-40s.
8.Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Bakı, 1991.-96s.
9.Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане [Текст] / Акад. наук Азербайдж. ССР. Ин-т истории. - Баку : Изд-во Акад. наук АзССР, 1957.- 11 ст.

**ЗАМИНА АСКЕРОВА**
*доцент кафедры «Общественных наук» АзМИУ,*
*кандидат философских наук.*

**АЙГЮН МАМЕДОВА**
*Преподаватель кафедры «Общественных наук» АзМИУ,*
*докторант кафедры «Философия» БГУ*

## ВНЕШНЯЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

Молодая Азербайджанская Демократическая Республика, провозгласившая свою независимость 28 мая 1918 года, уделяла особое внимание вопросам внешней политики. Сохранение независимости во многим было связано с внешними факторами, чем с внутренними.

В условиях Первая custom мировай войны - в сложной международной обстановке, страны участники расширяли военные действий за Кавказ чего богатый район Азербайджан.

В этот период для защиты Государственной независимости Азербайджана, в условиях быстро меняющейся обстановки, от государственных деятелей и политиков требовались способность гибкого и оперативного политического маневрирования. Азербайджанская дипломатия, чтобы справиться с этой непростой задачи 1918-1920 годах в различных правительственных кабинетах, большое внимание уделяла укреплению и совершенствованию организационной структуры Министерства иностранных дел.

В разное время внешнеполитическое ведомство Азербайджанской Демократической Республики возглавляли Фатали Хан Хойский, Мамед Гасан Гаджинский, Мамед Юсиф Джафаров, Адиль Хан Зиядханлы, знавшие тайны мировой политики и обладавшие гибкими дипломатическими способностями. А.М.Топчубашов, М.А.Расулзаде, А.Агаев, Н.Юсифбейли, А.Шейхулисламов, Джейхун Гаджибейли и другие принимали непосредственное участие в подготовке и осуществлении азербайджанской дипломатии.

*Ключевые слова*: внешняя политика АДР, азербайджано-турецкие отношения, мудросское примирение, азербайджано-грузинское сотрудничество, Горская республика, Парижская мирная конференция.

**ZAMİNA ASGAROVA**
*Asst. prof. of the “Social Sciences” department in the AUAC PhD in Philosophy*

**AYGUN MAMMADOVA**
*Lecturer of the "Social Sciences" department in the AUAC*
*PhD student of Baku State University*

## THE FOREIGN POLICY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

The Azerbaijan Democratic Republic, which declared its independence on May 28, 1918, paid special attention to foreign policy issues. The preservation of independence was more related to external factors than internal ones. In the complex international conditions of the First World War, when the military operations of the participating countries expanded for the sake of the Caucasus and one of its rich corners - Azerbaijan, the protection of the state independence of Azerbaijan required the ability of flexible political maneuvering according to the ever-changing situation from the

politicians and statesmen who had matured in the struggle for it. In order for Azerbaijani diplomacy to cope with this difficult task, in the various government cabinets organized in the period of 1918-1920, great attention was paid to the strengthening and improvement of the organizational structure of the Ministry of Foreign Affairs. The foreign policy department of the Azerbaijan Democratic Republic was headed by Fatali Khan Khoyski, Mammad Hasan Hajinski, Mammad Yusif Jafarov, Adil Khan Ziyadkhanli, who knew the secrets of world politics and had flexible diplomatic skills. A.M.Topchubashov, M.A.Rasulzadeh, A.Agayev, N.Yusifbeyli, A.Sheikhulislamov, J.Hajibeyli, M.Y.Mehdiyev, M.Maharramov, A.Hagverdiyev, Y.V.Chamanzaminli and others closely participated in the preparation and implementation of Azerbaijani diplomacy.

*Keywords*: ADR foreign policy, Azerbaijan-Turkey relations, the Armistice of Mudros, Azerbaijan-Georgia cooperation, Daghli Republic, Paris Peace Conference.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**GÜLARƏ ABBASOVA**
*AzMİU-nin "İctimai fənlər" kafedrasının dosenti,*
*fəlsəfə üzrə fəlsəfə doktoru.*
**multikultural@mail.ru**

**KƏRAMƏT MİRZƏYEV**
*AzMİU-nin "İctimai fənlər" kafedrasının baş müəllimi*
**multikultural@mail.ru**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏT QURUCULUĞU SAHƏSİNDƏ PARLAMENTİN ROLU

*Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olduğu qısa müddətdə çox işlər həyata keçirdi. Milli dövlətçiliyinə qovuşmuş xalqımız istiqlalın nə demək olduğunu bir daha gördü, onun şirinliyini daddı. Azərbaycan Milli Şurasının qəbul etdiyi "İstiqlal Bəyannaməsi" yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti öz fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində və parlament mədəniyyəti tarixində zəngin iz qoymuşdur. Müstəqilliyini bərpa edən Azərbaycan xalqı azadlıq ideallarını davam etdirərək bu tarixi varislik üzərində yeni müstəqil Azərbaycan dövlətini yaratdı.*

*Açar sözlər*: Azərbaycan Xalq Cümhuriyyəti, parlament, demokratik parlament, hakimiyyət, milli kimlik,müstəqil dövlət, istiqlal, daxili və xarici siyasət.

***Giriş***. Müstəqillik uğrunda ağır, gərgin mübarizə aparan Azərbaycan xalqı XX əsrdə iki dəfə müstəqil dövlətini yaratmışdır. Xalq Cümhuriyyəti Şərqdə ilk parlamentli respublika kimi dövlətçilik tarixində dərin iz qoymuşdur. Tariximizdə Azərbaycan Xalq Cümhuriyyətinin xüsusi bir yeri var. Ziddiyyətli və mürəkkəb tarixi-siyasi şəraitə baxmayaraq, AXC fəaliyyət göstərdiyi müddət ərzində zəngin siyasi təcrübə topladı.

Məlum olduğu kimi, Rusiyada oktyabr çevrilişindən sonra Zaqafqaziya komissarlığını Zaqafqaziya Seymi əvəz etdi. Zaqafqaziya Seyminə daxil olan Gürcüstan birinci olaraq öz müstəqilliyini elan etdi. Bununla da cərəyan edən mürəkkəb ictimai-siyasi proseslər, imperiya daxilində bir araya gətirilmiş xalqların azadlıq uğrunda mübarizəyə qalxması Azərbaycana istiqlaliyyətini elan etmək şansı verdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ölkəmizin çoxəsrlik tarixinin, sosial-iqtisadi və mədəni inkişafının, əsrin əvvəllərində başlanan, Rusiya imperiyasının süqutu ilə daha da genişlənən milli azadlıq mübarizəsinin məntiqi yekunu oldu. Təbii ki, bu dövrdə müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər xalqın gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edirdi.

Bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Müsəlman Şərqində ilk demokratik və hüquqi dövlət kimi istiqlaliyyətini bütün dünyaya bəyan edən Azərbaycan ilk gündən beynəlxalq aləmdə tanınmağı qarşıya məqsəd qoydu.

Zaqafqaziya Seymində Azərbaycandan 4 siyasi partiyanın 44 nümayəndəsi iştirak edirdi. 1918-ci il mayın 27-də Azərbaycanın deputat fraksiyası fövqəladə iclas keçirərək özünün Milli Şura təşkilatını yaratdı.

1918-ci il mayın 28-də Tiflisdə Qafqaz canişininin iqamətgahında doktor Həsən bəy Ağayevin sədrliyi ilə Milli Şuranın ilk iclası keçirildi. Uzun və hərtərəfli müzakirədən sonra Azərbaycanın Müstəqil Xalq Cümhuriyyəti kimi elanı barədə "İstiqlal Bəyannaməsi" qəbul edildi. Bəyannamənin 4-cü bəndində deyilirdi ki, "Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, məslək və cins fərqi gözləmədən bütün vətəndaşlarına hüquqi siyasiyyə və vətəniyyə təmin eylər". Mayın 30-da isə Azərbaycanın müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə məlumatlar verildi.

Müvəqqəti Milli Şuranın yaradılması və onun vəzifələri haqqında məlumat vermək üçün N.Yusifbəyli, Ş.Rüstəmbəyov və X.Sultanovdan ibarət nümayəndə heyəti Tiflisdən Gəncəyə göndərildi.

Hökumətin və ali qanunverici orqanın səlahiyyətlərini eyni zamanda icra edən Milli Şuranın bu istiqamətdə ilk mühüm addımlarından biri 1918-ci il iyunun 4-də qardaş Türkiyə ilə hərbi-siyasi müqavilənin imzalanması oldu. "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi" adlanan həmin sənəddə "Dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyinin təmini üçün əgər zərurət olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür" müddəasının yer alması o zaman gənc müstəqil dövlət üçün taleyüklü məsələ idi.

Bakı şəhəri azad edildikdən sonra isə 1918-ci il oktyabr ayının 21-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Məclisə seçkilər haqqında qanun hazırlamaq üçün komissiya yaradıldı.

Lakin Azərbaycanda siyasi şərait gərgin olduğuna görə parlamentə seçkilər keçirilməsi qeyri - mümkün idi. Buna görə də Milli Şura 1918-ci il noyabrın 19-da "Azərbaycan parlamentinin yaradılması haqqında" qanun qəbul etdi. Bu, Milli Şuranı dövlət qanunvericilik orqanına - Azərbaycan parlamentinə çevirmək demək idi. Milli Şura əvvəlki tərkibində parlamentə daxil oldu.

Parlamentin qalan deputat yerlərinə seçkilər gizli səsvermə yolu ilə keçirildi. 120 deputat yerinə 80 azərbaycanlı, 21 erməni, 10 rus, 4 milli azlığın (yəhudi, alman, gürcü, polyak) nümayəndəsi seçildi; 3 yer həmkarlar təşkilatına, 2 yer isə neft sənayesi işçilərinə ayrıldı. Bu, yarandığı gündən Azərbaycan parlamentinin demokratik prinsiplərə əsaslandığını sübut edən ən dəyərli faktlardandır.

Cümhuriyyət parlamenti 1918-ci il dekabrın 7-də açıldı. Deputatlara müraciətlə çıxış edən M.Ə.Rəsulzadə parlamentin iclasını açaraq, deputatları "xaqın mənafeyini partiya mənafeyindən üstün tutmağa çağırdı" [2: 311].

Görkəmli ictimai - siyasi xadim, 1906-cı ildən Rusiya Dövlət Dumasına deputat seçilən Ə.M.Topçubaşov parlamentin ilk sədri seçildi. Parlamentin tərkibində 9 fraksiya yaradıldı.

Parlamentin ilk iclasında 79 nəfər deputat iştirak edirdi. Azərbaycan parlamenti cəmiyyətin siyasi təşkilini həyata keçirmək üçün koalisyon hökumətə başçılğı F.X.Xoyskiyə tapşırdı. Dekabrın 26-da F.X.Xoyski yeni hökumətin tərkibini elan etdi. İlk olaraq Antanta dövlətlərinin Bakıdakı nümayəndəsi V.Tomson Azərbaycan hökumətini tanıdığını bildirdi. F.X.Xoyski yeni hökumətin təşkilinə həsr edilmiş mərasimdə demişdir: "Bizim də müstəqil yaşamaq, azad yaşamaq haqqımız var" . Parlamentin ilk tədbirlərindən biri müstəmləkə dövründən qalan yer adlarının dəyişdirilməsi oldu. Yelizavetpol-Gəncə, Qaryagin-Cəbrayıl, Nikolayevsk küçəsi Parlament küçəsi adlandırıldı.

Parlamentdə müzakirə edilən qanunlardan 2/3 hissəsi iqtisadi, maliyyə-kredit, vergi, pul siyasəti sahələrinə aid idi. Dağılmış iqtisadiyyatın bərpası haqqında qanunlar qəbul edilməsi həm də siyasi məsələ olub, müstəqil-liyimizin möhkəmləndirilməsinə xidmət edirdi.

1919-cu il martın 17-də Azərbaycan parlamentinin qəbul etdiyi 200 maddədən ibarət təlimat reqlamenti və nizamnaməni əvəz edirdi. Təlimatda parlamentə rəhbər vəzifələrin seçilməsi, gündəlikdə duran işlər, komissiyaların təşkili, deputatların səlahiyyətləri və başqa məsələlər öz əksini tapmışdır. Parlamentin ilk iclasında mandat, reqlament, təsərrüfat, sonrakı iclaslarında maliyyə - büdcə, redaksiya, qanunvericilik təklifləri və s. məsələlər müzakirə olunmuş, sorğu komissiyası, daimi komissiyalar yaradılmışdır.

Hərbi, fəhlə, aqrar, ölkənin məhsuldar qüvvələrindən istifadə, müəssislər məclisinin çağırılması kimi müvəqqəti komissiyalar da fəaliyyət göstərirdi. Parlamentin fəaliyyətinə dair cari məsələləri həll etmək üçün parlamentin Rəyasət heyəti təşkil edildi. Rəyasət heyəti sədr, müavin və katiblərdən ibarət idi. Rəyasət heyəti iclasların gündəliyini parlamentin təsdiqinə verir, deputatların iclaslarda iştirakına, dəftərxana işçilərinə nəzarət edirdi. Parlamentin Rəyasət heyəti ilə yanaşı, parlament fraksiyalarının sədrlərindən ibarət Senyoren Konvent yaradılmışdır. Bu təşkilat siyasi partiyalar arasında razılıq əldə etmək məqsədilə təsis edilmişdir.

Parlamentdə siyasi partiyalardan əlavə müsəlman fraksiyası, milli azlıqların nümayəndələri, rus - slavyan cəmiyyəti, gürcü - yəhudi - polyak cəmiyyətləri, erməni fraksiyası mövcud idi. Musavatdan seçilən 38 deputat fraksiya halında birləşmişdi. Parlamentdə belə bir mühüm məsələ irəli sürüldü ki, müstəqilliyin qorunmasi üçün hakimiyyətdə milləti sevən adamlar təmsil edilməlidir. Bu məqsədlə F.X.Xoyski 26 dekabr 1918-ci ildə parlamentin iclasında demişdir: "Millət özü hökumətə kömək etməlidir" [2: 124].

Yeni yaranmış parlament və onun qəbul etdiyi qanunlar Azərbaycan millətinin öz azadlığı uğrunda mübarizəsinə təkan verdi və müstəqil yaşamağa layiq olduğunu sübuta yetirdi. Əhrar partiyasının nümayəndəsi A.Əfəndiyev parlamentin siyasətini belə ifadə etmişdir: "Hansı siyasət parlamentin əlindədir? O, daxili siyasətdir. Yəni siyasəti elə aparmalısan ki, heç kəs səndən narahat qalmasın. Elə edəsən ki, əhalinin bütün sinfi səndən razı olsun və səni özünə doğma parlament hesab etsin" [3: 760].

İlk gündən sosial siyasət parlamentin əsas vəzifəsi kimi geniş müzakirə obyekti oldu və bu məsələyə dair vacib qanunlar qəbul edildi. Parlamentin 5 may 1919-cu il iclasında müəllimlərin əmək haqqının artırılması məsələsi müzakirə edilərkən deputat A.Əfəndiyev demişdir: "Biz müəllimlərimizin halına qalmaqla öz balalarımızın qayğısına qalırıq. Qarnı acdan ideya məsələsini gözləmək olmaz" [2: 112].

Beləliklə, müstəqilliyi möhkəmlətmək, demokratik idarəetməni genişləndirmək, Avropa ölkələri ilə geniş əlaqələr saxlamaq üçün parlamentli idarəetmə sisteminin yaranması tarixi zərurətə çevrildi. Parlamentdə Azərbaycanda yaşayan bütün milli qruplar, siyasi partiyalar təmsil olunurdu. Parlamentin açılışında çıxış edən M.Ə.Rəsulzadə demişdir: "Burada, Azərbaycanda bulunan bütün millətlərin, təbəqələrin və müxtəlif cərəyanların nümayəndələri olduğundan bu məclis vətənimizi təmsil edə bilər" [3: 502].

Hər bir millətin "müstəqil və hürr" olması ideyası parlamentin fəaliyyətinin əsas istiqamətlərindən biri idi. Demokratik prinsiplər əsasında müstəqil, milli dövlət yaratmadan millətin azadlığının təmin edilməsi qeyri - mümkündür.

Parlament iclasında F.X.Xoyski demişdir: "Bilirsiniz nə halda idik, zülmət zamanı qayalıq içində nazik bir qayığa bənzər idik, hər dəqiqə qayalara toxunub dağılmaq təhlükəsi var idi. İşdə bizim vəzifəmiz bu idi ki, qayığı qayalar arasından keçirə idik" [3: 41].

Sosialistlər parlamentin qəbul etdiyi qanunların əleyhinə çıxış edirdilər. 1919-cu il oktyabrın 30-da mətbuat haqqında nizamnamə layihəsi müzakirə edilərkən sosialistlər bu qanunun əleyhinə çıxış edərək, onu "buruntaq" adlandırdılar. Parlamentdə olan bu cür daxili ziddiyətlər və onların kəsişməsi qanun layihələrinin qəbul edilməsini çətinləşdirirdi. Sosialistlər xarici dövlətlərə səfir göndərilməsi haqqında da parlamentin qərarına qarşı çıxdılar. Parlament Fransa, İngiltərə, İtaliya, İsveç, Polşa, Amerika dövlətlərinə nümayəndəliklər göndərilməsi haqqında qərar qəbul etmişdir. F.X.Xoyskinin biz dünyanın bütün ölkələrində nümayəndə heyyətimizin olmasını istəyirik fikrinə S.Ağamalıoğlu etiraz edərək bildirdi ki, səfirliklərə 80 milyon manat pul sərf edirik. Dərya kənarında divarsız ev tikirik . Parlamentin üzvü Axundzadə isə ona cavabında, hasar var, üstünü örtmüşük ki, o da parlamentdir demişdir [3: 722].

Sivil ölkələrlə münasibətlər yaratmaq və bu işi daim gündəlikdə saxlamaq parlamentin ilk gündən əsas vəzifələrindən biri olmuşdur. Bu baxımdan Avropa dövlətləri ilə əlaqələrin yaradılması xüsusi əhəmiyyət kəsb edirdi.

Parlament bu məqsədlə Ə.M.Topçubaşovun başçılıq etdiyi nümayəndə heyətinin Parisə getməsi haqqında qərar qəbul etdi. Deputatlar israrla bildirirdilər ki, biz öz istiqlalımızı Avropaya tanıtdırmalıyıq.

Yeni yaranmış Azərbaycan parlamentində Avropa dövlətlərinin parlament təcrübəsindən istifadə edilməsinə daha çox diqqət yetirilirdi. Avropa demokratiyasına üstünlük verilərək qeyd edildi ki, : Istiqlalımızı, əmin olunuz, Avropa demokratiyası qiymətləndirəcəkdir . "Zorakılıq yolu ilə cinayətin qarşısını almaq olmaz. İranda oğurluq edənin əlini, yalan danışanın dilini kəsərlər, lakin orada yalançı da çoxdur, oğurluq da. Biz mədəni Avropa yolu ilə getmək istəyirik. Bizə köhnə Asiya yolu gərək deyil" [4: 214].

Müstəqilliyə qədəm qoyan hər bir dövlət özünəməxsus inkişaf yolunu seçir. Azərbaycan Cümhuriyyətinin parlamenti Avropa dövlətlərinin demokratik inkişaf yoluna üstünlük verirdi.

Parlamentin qəbul etdiyi aktlarda kredit, bank və gömrük sahələri xüsusi yer tuturdu. Hökumət vergi toplanması haqqında qanun qəbul edildi. Əkinçilərin üzərinə qoyulan verginin miqdarı aşağı salındı. Parlament pul emissiyasını nəzarət altına aldı, hökumətə icazə olmadan pul kəsilməsini qadağan etdi.

Parlament gömrük sahəsində 20-dən çox qanun qəbul etmiş, sərhədlərdə nəzarət yaradılmasına fəal kömək göstərmişdir. Sosial siyasətə dair qəbul edilmiş qanunlar və müqavilələr fəhlə - sahibkar münasibətlərinin tənzim edilməsinə, əhalinin güzəranının getdikcə yüksəlməsinə təkan verirdi. Ən başlıcası isə bu siyasət etibarlı kadrlara tapşırılmışdı.

Azərbaycan Cümhuriyyətinin "Əksinqilab ilə mübarizə" təşkilatının başçısı N.Şeyxzamanlı "Xatirələr" adlı kitabında yazmışdır: "İstər seçilmiş parlamentin vəkilləri, istərsə də qurulmuş hökumət üzvləri çalışqan şəxslər idi. Bu insanların qayəsi cəmiyyəti yaşatmaq və xalqımızı mədəni millət səviyyəsinə çatdırmaq idi" [11: 189].

Parlament mədəni quruculuq sahəsində də bir sıra tədbirlər həyata keçirdi. 1919-cu ilin martında parlament əlifba islahatı komissiyasının hazırladığı layihəni bəyəndi. Qori seminariyasında müəllimlər hazırlayan şöbə Qazaxa köçürüldü.

1919-cu ilin iyun ayında parlamentin qəbul etdiyi qanun əsasında Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Səlyan, Gəncə və Bakıda ikiillik pedaqoji məktəblər açıldı. 1919-cu il sentyabrın 1-də BDU-nun təşkili haqqında parlamentin qanunu qəbul edildi. Bakıda yaradılan "Türk ocağı" mərkəzi bütün türk xalqları arasında iş aparırdı. Mədəniyyət sahəsində parlamentin əsas məqsədi aşağıdakılardan ibarət idi:

- milli-mədəni özünü dərketmə siyasəti;
- dövlət quruculuğunu təmin edən kadrların hazırlanması;
- inkişaf edən ölkələrlə mədəni əlaqələrin genişləndirilməsi.

Bakı Dövlət Darülfününun açılması parlamentdə ciddi münaqişəyə səbəb oldu. Darülfününun Bakıda açılmasına etiraz edən Yusif Əhmədova görə, "darülfünun olan yerlər həmişə böyük inqilablara bais olmuşdur".

Erməni deputatı Vanisyeviç isə belə bir fikir irəli sürürdü ki, darülfünundakı rus professorları elmi qoyub, rus padşahlığını, samoderjaviyanı, provaslavlığı öyrədəcəklər [9: 70].

M.Ə.Rəsulzadə, S.Ağamalıoğlu, Q.Qarabəyli Bakıda darülfünun açılmasında axıra qədər ardıcıl mövqe tutdular. M.Ə.Rəsulzadə parlamentdəki çıxışında demişdir: “Darülfününun faydalılığından biri budur ki, burada bir kərə elmi müəssisə vücuda gələcək. Bununla məmləkətin məchul qalmış bir çox xüsusiyyətləri öyrəniləcəkdir. İndi camaatımıza və məmləkətimizə ən çox mənfəəti olan bir qanun var ki, o da universitet qanunudur, bizim parlamentə gəlib çıxmışdır. Lakin onu da saxlamaq istəyirlər” [9: 62].

Parlamentdə belə bir fikir irəli sürüldü ki, varlılar uşaqlarını təhsil almaq üçün başqa ölkələrə göndərə bilərlər. Darülfünun isə kasıb-kusubun qisməti, bütün millətin mədəniyyət ocağıdır. Azərbaycanın milli irsinin öyrənilməsi və bu istiqamətdə elmi-tədqiqat işlərinin aparılması parlamentin diqqətində olan əsas məsələlərdən biri idi.

Ordu quruculuğu, ölkənin ərazi bütövlüyünün təmin edilməsi, xarici təhlükənin qarşısının alınması parlamentin fəaliyyətinə daxil olan çox mühüm sahələrdən idi. Parlamentdə Müdafiə Nazirliyinin yaradılması qərara alındı. Hərbi iş haqqında 9 qanun müzakirə edildi, büdcənin 1/4 hissəsi ordu quruculuğuna ayrıldı.

Gəncədə hərbi zavodun tikilməsi layihəsi parlamentdə müzakirə edildi, milli zabit kadrları hazırlamaq üçün hərbi kurslar açıldı.

1919-cu ilin yayında ermənilərin Zəngəzura, Dağlıq Qarabağın ermənilər yaşayan ərazilərinə basqınları nəticəsində yaranan qaçqınlar problemi parlamentdə geniş müzakirə edildi. Deputat Rəfiyev parlamentin 14 iyul 1919-cu il tarixli iclasında demişdir: "Qaçqınları həmişə hökumət öz hesabına götürüb doydura bilməz. Onların çoxu əmək qabiliyyətlidir. Onlara əvvəlcə gərək ev tikilsin, sonra yer və əkinçilik üçün lazım olan istehsal vasitələri verilsin " [5: 49].

Azərbaycan haqqında məlumatı az olan Avropa siyasət adamlarının bəzilərinə elə gəlirdi ki, bu millət müstəqil dövlətini yarada bilməz. Parlamentin 14 yanvar 1920-ci il iclasında Həsən bəy Ağayevin (sədr) fikrinə görə, "Avropa indi gördü ki, azəri türklərinin digər millətlər kimi yaşamağa haqqı var. Buraya gələn Avropa nümayəndələri gördülər ki, biz müstəqil yaşamağa layiqik və bizdə o qabiliyyət vardır" [5: 82].

M.Ə.Rəsulzadə isə parlamentin 12 mart 1920-ci il iclasındakı çıxışında Qarabağdakı hadisələrin səbəbini Bakıda axtarmağı dilə gətirdi. Dövlətçilik atributlarına sadiq qalan cümhuriyyət höku-

məti xalqda milli ruhu da yüksəltməyə çalışır, özünüdərkə xidmət edən addımları xüsusilə diqqət mərkəzində saxlayırdı.

Parlamentdə Zaqafqaziyada olan siyasi hadisələr, bolşeviklərə, denikinçilərə münasibət, ingilislərlə bağlı siyasi proseslər geniş təhlil edilir və nəticələr çıxarılırdı. Dağıstanın işğal edilməsi ilə əlaqədar yaranan siyasi təhlükə parlamentdə geniş müzakirə edilmişdir. M.Ə.Rəsulzadə Dağıstanla bağlı hadisələr haqqında parlamentin iclasında qeyd etmişdir ki, "Dağıstan Azərbaycanın qapısıdır, bu gün Dağıstanda oturan qara qüvvələrin ələlümün yeni təşkil edilmiş cümhuriyyətlər haqqında rəyi və fikri məlumdur. Bu niyyət qara niyyətdir" [3: 745].

Azərbaycana qarşı duran qüvvələrin qarşısını almaq üçün millətin birləşməsi məsələsi parlamentin iclaslarında müzakirə edilən məsələlərdən biri idi. Bu halda "millətin özünə güvənməsi" ideyası mühüm siyasi xətt kimi irəli sürülmüşür. Deputatların böyük əksəriyyəti təklif edirdilər ki, parlament daxilində təfriqəllərdən əl çəkilməli, tədbirlər görülməli, millət yolunda ölüm də olsa, döyüşə gedilməlidir.

AXC-nin əsas vəzifələrindən biri də icra hakimiyyətinin - hökumətin təşkili idi. Xalq Cümhuriyyəti dövründə parlamentdə 5 kabinet dəyişmişdir. Bütün kabinetlər demokratik prinsiplər əsasında parlamentdəki siyasi partiyaların, bitərəflərin koalisiyası ilə yaradılırdı. Hökumət parlament qarşısında məsuliyyət daşıyırdı.Lakin parlamentdə daxili ziddiyyətlərin, mənafe ayrılığının mövcud olması qanunların qəbul edilməsini və ölkənin idarə olunmasını çətinləşdirirdi. Parlamentdə partiyalar arasında ziddiyyətlər "Müsavat", "İttihad", "Sosialistlər" arasında özünü daha kəskin göstərirdi. Parlamentdə müxtəlif siyasi partiya nümayəndələrinin öz mənafelərini müdafiə etməsi bəzən kəskin ziddiyyətlər də yaradırdı.

**Xalq Cümhuriyyəti hökumətinin dövlət quruculuğunda** dövlət hakimiyyəti üç qoldan ibarət idi: Azərbaycan parlamenti, Hökumət, məhkəmə hakimiyyəti. Dövlət Parlamentin qəbul etdiyi qanun və qərarlar əsasında idarə olunurdu. Parlamentdə Azərbaycan ərazisində yaşayan bütün xalqlar, o cümlədən sayları çox az olan xalqlar da öz deputatları ilə təmsil olunmuşdular. İcra hakimiyyəti Hökumətə məxsus idi. Hökumət Parlament qarşısında cavabdeh idi. AXC Hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti, ümumiyyətlə, mövcud olduğu qısa tarixi dövr ərzində, son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitdə olduqca fəal siyasət yeritdi.

27 aprel 1920-ci ildə Azərbaycan parlamenti özünün 145-ci iclasını keçirmişdir. İclasda parlamentin sədri məlumat verir ki, "Azərbaycan kommunist firqəsi tələb edir ki, (rus dilində) axşam saat 7-yə qədər hökuməti onlara təslim edək. Əgər tələbi qəbul etsək, Qızıl Ordu Bakıya daxil olacaq. Nə kimi məmur var, hamısı öz yerində qalacaqdır. Yalnız hökumət başında olanlar kənar edilib, yerlərinə Azərbaycan kommunistləri keçəcək və müsəlmanlardan başqa kimsə olmayacaq" [ 9: 66].

M.Ə.Rəsulzadə çıxış edərək demişdir: "Camaatımız arasında daxili müharibə olmasını istəmirik. Kommunist firqəsinin müstəqilliyimizi müdafiə edəcəklərini nəzərə alaraq, bütün ixtiyarın verilməsinə tərəfdarıq, bu şərtlə ki, kommunistlər istiqlaliyyət, millət və məmləkətimizi layiqincə müdafiə etsinlər" [9: 71].

Azərbaycan Cümhuriyyətinin parlamentində hakimiyyətin bölgüsü, çoxpartiyalılıq prinsipləri təmin edilmişdi. Parlament məmləkətin, millətin mənafeyini, siyasi və hüquqi azadlığı qoruyurdu. Parlamentin üzvü Aslan bəy Səfikürdski demişdir:"Cümhuriyyətimizə türk cümhuriyyəti deyil, Azərbaycan Cümhuriyyəti dedik ki, hamı vətəndaşlara ümumi vətən olsun" [2: 620].

Mürəkkəb tarixi dövrdə yaranan parlament Azərbaycanda qanunverici hakimiyyətin qərarlaşmasında mühüm rol oynadı. Parlamentin işində Azərbaycanın dövlət müstəqilliyi və onun möhkəmləndirilməsi, istiqlalın bütün dünyaya tanıtdırılması əsas məqsəd olmuşdur.

Müstəqilliyin möhkəmləndirilməsi üçün parlament öz fəaliyyəti dövründə aşağıdakı vəzifələri yerinə yetirmişdir:

- müstəmləkə siyasi idarəetmə sistemini ləğv edərək, yeni demokratik idarəetmə sistemi yaratdı;
- daxili və xarici siyasət sahəsində milli mənafeyə xidmət edən islahatlar həyata keçirdi;
- Azərbaycanın istiqlalı məsələsi beynəlmiləl bir məsələyə çevrildi;

- müstəqilliyə qorxu olan əsas təhlükə hədəfləri müəyyənləşdirildi və onların qarşısını almaq üçün tədbirlər həyata keçirdi;
- parlamentdə siyasi mübarizə prosesində millətin özünü dərk etməsi gücləndi.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin demokratik təcrübəsinin öyrənilməsi bu gün üçün də əhəmiyyətli məsələlərdən biridir.

Parlamentin iclası başlayarkən iş qaydası, gündəliyə salınacaq məsələlər müzakirə olunur, qanun layihəsi müzakirədən əvvəl fraksiyalara göndərilir, səsvermə təmin edilir, əks tərəfin təhqir olunmasına yol verilmir, siyasi şəraitə uyğun fikirlər irəli sürülürdü. Beləliklə, parlamentdə getdikcə yüksək siyasi mədəniyyət formalaşırdı.

Parlamentin iclasında H.Yusifbəyli demokratiyanı aşağıdakı kimi izah etmişdir: "Hürriyyəti - kəlam, hürriyyəti - mətbuat, hürriyyəti - ictimai, mədəni və demokratik bir dövlət təşkili əsliyyəsindədir. Hürriyyətin ən müqəddəsi hürriyyəti - vicdan, şəxsiyyət və məsuliyyət - beytiyyədir. Təbii əqidə və vicdana aid məsləklər üçün demokratik cümhuriyyətimizdə kimsə təqib edilməz" [4: 190].

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin tarixi təcrübəsi göstərdi ki, daxili ədavət və ixtilaflar fəlakət və səfalətdən başqa bir şey deyil.

Parlament Azərbaycan milli mentalitetini, milli siyasi ruhunu əks etdirən qanunvericilik təsisatı kimi formalaşdı. Azərbaycanda baş verən demokratik siyasi proseslər öz əksini qanunverici orqanda tapırdı. Parlament ölkənin daxili və xarici siyasətini əks etdirən siyasi düşüncə mərkəzi kimi tanındı. Burada həll edilən məsələlər ölkənin siyasi fəaliyyət istiqamətlərini müəyyən edirdi. Parlamentin apardığı tarazlı siyasət nəticəsində cəmiyyəti idarə etmək qabiliyyətinə malik olan milli ruhlu yeni nəsil formalaşdı. Bu siyasət Azərbaycanın milli dövlətçilik ənənələrini dünya dövlətləri sırasında tanıtdı.

Parlamentdə qəbul edilən qanunlar ölkəni siyasi, iqtisadi, mədəni inkişaf yoluna çıxartdı, onu beynəlxalq aləmdə sülhsevər dövlət kimi tanıtdı. Azərbaycan parlamentinin xarici siyasəti nəticəsində Qafqaz regionu dövlətləri arasında bir müddət sülh şəraiti yarandı. Parlament sübut etdi ki, Azərbaycan xalqı bir millət kimi öz istiqlalını, müstəqil dövlətini, onun daxili və xarici siyasətinin qanunvericilik bazasını yaratmaq qüdrətinə malikdir. Parlamentin qəbul etdiyi qanunlar cəmiyyətin siyasi həyatının demokratikləşməsində mühüm rol oynadı. "Mətbuat haqqında" qanunla mətbuat azadlığına, azad fikrin ifadə olunmasına geniş şərait yaradıldı. 1919-cu ildə ölkədə 90-a yaxın qəzet və jurnal çap edilirdi.

Parlamentin siyasi amnistiya haqqında aktları insanların siyasi hüquqlarının qorunmasında mühüm rol oynadı.

Parlamentin işgüzar fəaliyyəti sayəsində milli mənafe, milli dövlətçilik ənənələri yeni dəyərlərlə zənginləşdirildi.

Azərbaycan müsəlman, Şərq məkanında yerləşsə də, onun parlamenti dünyəvi dəyərlər üzərində qurulmuşdu. N.Şeyxzamanlı "Xatirələr"ində yazmışdır: "F.Xoyskinin yanına şeyxülislam, müfti gəlir ki, biz də dövlətin işində iştirak etmək istəyirik. Fətəli xan: "Təklifinizi yersiz saydım, sizə bir vəzifə bəsdir, hökumətin müzakirələrində dini mövzular müzakirə olunmaz". Müfti: "Osmanlı dövlətində Şeyxülislamın yeri var" - dedikdə Fətəli Xan: "Canım, onların səhv işlərindən biri də budur" deyə cavab verir” [11: 134].

Azərbaycan Respublikasının Milli Məclisi AXC-nin parlamentinin fəaliyyətini yüksək qiymətləndirir, onun tarixi-siyasi təcrübəsini öyrənmək üçün konfranslar, elmi-nəzəri seminarlar keçirir. Azərbaycan Cümhuriyyətinin 80 illiyi münasibətilə Milli Məclis 1998-ci il 26 mayda Bəyanat qəbul etmişdir. Bəyanatda deyilir ki, Cümhuriyyət qurucuları yeni siyasi şəraitdə azərbaycanlıları vahid bir dövlətdə birləşdirmək, ölkənin ərazi bütövlüyünü və milli təhlükəsizliyini təmin etmək vəzifəsinin öhdəsindən şərəflə gəlmişlər.

Cümhuriyyət demokratik prinsiplərə cavab verən dövlət yaratdı. Bütün vətəndaşlara, onların irqi, milli, dini, sinfi və başqa fərqləri nəzərə alınmadan bərabər hüquq verilmişdi. Cümhuriyyət Avropanın və Amerikanın bir sıra inkişaf etmiş dövlətlərini qabaqlayaraq qadınlara seçki hüququ vermişdir.

Milli Məclisin Bəyanatında deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən sülhsevər siyasət yürütmüş, bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa, bir-birinin hüquqlarına hörmət prinsipi əsasında münasibətlər qurmağa cəhd göstərmişdir" [1: 6].

Azərbaycan parlamenti yarandığı tarixi şəraitdə demokratik prinsiplərin tələblərinə cavab verən parlament idi. Bu parlament Şərq və müsəlman aləmində ilk nümayəndəli qanunverici orqan idi. Parlament müstəqil dövlətin fəaliyyəti üçün demokratik prinsiplərə əsaslanan qanunlar qəbul etdi. Həmin qanunlar əsasında dövlətin siyasi, iqtisadi, mədəni inkişafı təmin edildi, diplomatiya sahəsində zəngin təcrübə toplanıldı. Azərbaycan Respublikası Milli Məclisi 1918-ci ildə yaranan parlamentin varisi kimi formalaşmışdır. Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qərarda deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti parlamenti ilə varisliyi təmin etmək məqsədilə onun milli dəyərlər və demokratik prisiplərə əsaslanan qanun yaradıcılığı təcrübəsindən Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətində istifadə edilsin". [1:4].

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qanun və qərarları Milli Məclisin arxivində saxlanılır. M.Ə.Rəsulzadə həmin parlamentin əhəmiyyətindən bəhs edərək yazmışdır: "Millət Məclisi məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin təmamən taleyinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir müharibə başlanmaz, heç bir barışıq bağlanmazdı. Hökumət məclisin etimadını qazananda qalır, itirəndə düşürdü. Orada hakim olacaq vasitə-vəzifə də yox idi. Burada Avropada tətbiq olunmayan həqiqi bir xalq cümhuriyyəti qurulmuşdur" [5: 29].

Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində çıxış edən deputatların dil mədəniyyətinin öyrənilməsi bu gün üçün əhəmiyyətli məsələlərdən biridir. Parlamentdə çıxış edən deputatlardan M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyov, Qarabəyli, S.Ağamalıoğlu və başqaları yüksək siyasi mədəniyyət nümayiş etdirərək, Azərbaycan dilində siyasi nitqi inkişaf etdiriblər. Azərbaycan türkcəsində çıxış edərkən parlamentin deputatlarına "Möhtərəm məbuslar" formasında müraciət edirdilər. Bəzi deputatlar xalq danışıq dilindən geniş istifadə edirdilər.

1920-ci il aprelin 28-də XI Ordu tərəfindən Azərbaycan işğal edildi. Dünyanın böyük dövlətləri tərəfindən tanınmış, suverenliyini qazanmış Azərbaycan Xalq Cümhuriyyəti zor gücünə devrildi. Ali qanunverici və icraedici hakimiyyəti özündə birləşdirən Müvəqqəti İnqilab Komitəsi yaradıldı. İnqilab Komitəsi Xalq Komissarları Şurası adlanan hökuməti yaratdı. Azərbaycan İnqilab Komitəsinə və Xalq Komissarları Şurasına Rusiya Kommunist (Bolşeviklər) Partiyasına tabe olan Azərbaycan Kommunist (Bolşeviklər) Partiyası rəhbərlik edirdi. Beləliklə, 20-ci illərdə Azərbaycanda diktatura siyasi rejimi, 30-cu illərdə vahid siyasi partiyanın rəhbərliyi altında "qanunverici orqan" olan Ali Sovet yaradıldı.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya Aktı"nı qəbul etdi. Həmin sənədin "Azərbaycan dövləti " bölməsinin 13-cü maddəsində deyilir: "Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətin bölünməsi prinsipinə əsaslanır". Bu prinsipə əsasən qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının parlamenti tərəfindən həyata keçirilir. Ali icra hakimiyyəti Azərbaycan dövlətinin başçısı olan Azərbaycan Respublikasının prezidentinə məxsusdur.

Əsrlərin mücadiləsi kimi XX əsrin əvvəllərində - 1918-ci ilin 28 mayında müstəqilliyini elan etmiş Azərbaycan xalqı müəyyən obyektiv və subyektiv səbəblərdən bu nemətin şirinliyini uzun müddət dada bilmədi. Xalqın düşüncəsində dərin iz salmış milli müstəqillik və dövlətçilik amalı növbəti dəfə amansızlıqla boğuldu. Respublikamız uzun illər sovet imperiyasının ideoloji buxovları altında fəaliyyət göstərməyə məcbur oldu.

Azərbaycan Xalq Cümhuriyyəti 23 ay müddətində bütün sahələrdə ciddi dönüş yaratmağa müvəffəq oldu. Bu, cümhuriyyətin xalqın maraqlarına xidmət etdiyini təsdiqləyən fakt kimi hər zaman qiymətləndirilə bilər. Mövcud olduğu qısa vaxt ərzində Cümhuriyyət hökuməti cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən əsaslı islahatlar apardı, bununla da ölkədə davamlı inkişaf prosesinin əsası qoyuldu. Azərbaycanın görkəmli ziyalıları və ictimai-siyasi xadimləri bu prosesin daim ön sıralarında getdilər və məhz onların fərdi təşəbbüskarlığı, qətiyyəti və intellektual səviyyəsi həmin islahatların müvəffəqiyyətlə həyata keçirilməsinə geniş imkanlar yaratdı.

1991-ci ildə Azərbaycan ikinci dəfə özünün dövlət müstəqilliyini elan etdi. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

Azərbaycan Respublikası prezidentinin 29 dekabr 2000-ci ildə "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır".

Ölkə başçısı İlham Əliyevin 21 yanvar 2011-ci il tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında" sərəncamında qeyd edildiyi kimi, "1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu və Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı".

***Nəticə***. Bu gün Prezident İlham Əliyev irs-varislik ənənələrinə sadiq qalmaqla, Azərbaycanın müstəqil ölkə kimi möhkəmlənməsinə və inkişafına, demokratik, hüquqi dövlət quruculuğuna çalışır. Cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın maddi rifah halının yüksəldilməsi, onların sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin olunması, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanların yaradılması isə bu siyasətin əsas qayəsini təşkil edir. Ümumilikdə həyata keçirilən siyasət Azərbaycanın bölgədə tam müstəqil respublika kimi mövcudluğuna ədəbi təminatdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı. 26 may 1998-ci il. Azərbaycan Respublikasının Milli Məclisinin məlumatı. № 2-3 (10-11), 1998, 30 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920. Parlament (stenoqramma), 1-ci hissə. Bakı: Azərbaycan nəşriyyatı, 1998, 974 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920. Parlament (stenoqramma), 2-ci hissə. Bakı: Azərbaycan nəşriyyatı, 1998, 990 s.
4. Azərbaycan Cümhuriyyəti. 1918-1920. Bakı: Elm, 1998, 335 s.
5. Azərbaycan Demokratik Respublikası. Bakı: Azərnəşr, 1992, 190 s.
6. Azərbaycan Respublikası Milli Məclisinin məlumatı. № 93-94. 1999, 24 s.
7. Azərbaycan Respublikası Milli Məclisinin iclaslarının protokolları və stenoqramları. Bakı: 1995, 290 s.
8. Azərbaycan Respublikasının qanunvericilik toplusu. № 1. 2000, 272 s.
9. Rəsulzadə M.Ə.Əsrimizin Səyavuşu. Bakı: Gənclik, 1993, 110 s.
10. Rəsulzadə M.Ə.Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1993, 116 s.
11. Şeyxzamanlı N.Xatirələr. Bakı: Azərbaycan, 1997, 350 s.

**ГУЛАРА АББАСОВА**
*доцент кафедры «Общественных наук» АзМИУ,*
*кандидат философских наук*

**КЕРАМЕТ МИРЗОЕВ**
*Старший преподаватель кафедры «Общественных наук» АзМИУ*

# РОЛЬ ПАРЛАМЕНТА В ГОСУДАРСТВЕННОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

Азербайджанская Демократическая Республика многого добилась за короткий период своего существования с 28 мая 1918 года по 28 апреля 1920 года. Наш народ, достигнув на-

циональной государственности, еще раз увидел, что такое независимость. Принятая Национальным Советом «Декларация независимости» объявила всему миру основные принципы внутренней и внешней политики новообразованной Азербайджанской Демократической Республики. Своим независимым опытом государственного строительства, законодательными актами и решениями на высоком уровне парламент Азербайджанской Демократической Республики оставил богатый след в истории азербайджанской государственности и истории парламентской культуры. Азербайджанский народ, восстановивший свою независимость, продолжил свои идеалы свободы и создал на этом историческом наследии новое независимое Азербайджанское государство.

*Ключевые слова*: Азербайджанская Демократическая Республика, парламент, демократический парламент, власть, национальное самосознание, независимое государство, независимость, внутренняя и внешняя политика.

**GULARA ABBASOVA**
*Assoc. prof. of the "Social Sciences"department, AUAC Ph.D.in Philosophy*

**KARAMAT MIRZAYEV**
*Head teacher of the "Social Sciences"department, AUAC*

## THE ROLE OF THE PARLİAMENT İN THE FİELD OF STATE BUİLDİNG OF THE AZERBAİJAN DEMOCRATİC REPUBLİC

The Azerbaijan Democratic Republic accomplished many things in its short period of existence from May 28, 1918 to April 28, 1920. Our nation, having achieved national statehood, saw once again what independence means and tasted its sweetness. The "Declaration of Independence" adopted by the National Council of Azerbaijan announced the main principles of the internal and foreign policy of the newly formed Azerbaijan Democratic Republic to the whole world. The Parliament of the Azerbaijan Democratic Republic has left a rich mark in the history of Azerbaijan's statehood and the history of parliamentary culture with its independent state-building experience, high-level legislative acts and decisions. The people of Azerbaijan, who regained their independence, continued their ideals of freedom and created a new independent state of Azerbaijan on this historical inheritance.

*Keywords*: Azerbaijan Democratic Republic, parliament, democratic parliament, power, national identity, independent state, independence, domestic and foreign policy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**SAMİR İSMAYILOV**
*BDU-nun Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d.*
**samirismayilov@bsu.edu.az**

# 1920-Cİ İLLƏRDƏ AZƏRBAYCANDA APARILMIŞ ALİ MƏKTƏB İSLAHATLARININ BAKI DÖVLƏT UNİVERSİTETİNİN TƏDRİS HƏYATINA TƏSİRLƏRİ

*Məqalədə 1920-ci illərdə Azərbaycan SSR-də aparılmış ali məktəb islahatlarının Bakı Dövlət Universitetinə təsirləri araşdırılır. Aparılan araşdırmalar göstərir ki, 1923-cü ildən etibarən Azərbaycan SSR Xalq Maarif Komissarlığı Azərbaycan SSR ali məktəblərinin "əsaslı surətdə yenidən qurulması işlərinə" başladı. Azərbaycan ali məktəblərində tədris işinin təşkilini əsaslı surətdə dəyişdirmək, onun fəaliyyətini dövlət iqtisadiyyatının və mədəniyyətin inkişafi ehtiyaclarına maksimum yaxınlaşdırmaq aktual məsələyə çevrildi. Bu islahatlar müsbət nəticələr əldə edilməsi məqsədilə aparılsa da, əslində niyyət yeni sistemin səciyyəvi əlaməti idi. Tezliklə Bakı Dövlət Universitetinin elmi strukturunu, tədris işinin təşkili məsələlərini dövrün tələblərinə uyğunlaşdırmaq üçün əməli addımlar atıldı.*

*Açar sözlər:* Bakı Dövlət Universiteti, ali məktəb, islahat, sovetlər, Xalq Maarif Komissarlığı.

***Giriş***. 1923-cü il dekabrın 15-də Azərbaycan Dövlət Universitetinin rektoru A.D.Qulyayev və Azərbaycan Politexnik İnstitutunun rektoru Smirnov-Loqinov, prorektor Şaxtaxtinski və Yesman, professorlardan Baqri, Udinsev və Fridolinin iştirakı ilə Azərbaycan SSR Xalq Maarif Komissarlığı kollegiyasının iclasında dərs planlarının və proqramlarının nəzərdən keçirilib dəyişdirilməsi məsələsi müzakirə olundu [11, v.16]. Məsələnin qoyuluşunu kollegiya aşağıdakı mülahizə və iddialarla əsaslandırdı: "ADU-nun və APİ-nin bir sıra fakültələri respublika hökumətinin irəli sürdüyü tələblərə cavab vermir, onlar islah olunan gerçəkliklərdən tamamilə uzaqdır. Fakültələrin elmi planlarının çoxpredmetlik, proqramlarının isə praktik cəhətin zərərinə nəzərilik kimi qüsurları var. Bir sıra fənlər üzrə tədris zamanın tələbatına və ruhuna uyğun deyil. Bu fənlər tələbələr üçün artıq yükdür, dövlət vəsaitinin qeyri-məhsuldar xərclənməsinə səbəb olur, bir çox kafedralar elmi qüvvələrlə təmin edilməmişdir. Nəticədə onların mövcudluğu həm akademik nöqteyi-nəzərdən, həm də tələbələrin mənafeyi baxımından məqsədəuyğun deyildir"[11, v.16-16a]. Araşdırmalar göstərir ki, bu "islahat" RSFSR ali məktəblərində müvafiq islahatdan sonra planlaşdırılmışdı və bir növ müttəfiq respublikaların ali məktəbləri arasında varislik yaratmağı qarşıya məqsəd qoymuşdu.

Azərbaycan təhsilində bütün ideoloji, təşkilati və ideya istiqamətlərini öz üzərinə götürmüş Azərbaycan SSR Xalq Maarif Komissarlığı və onun kollegiyası ali məktəblərin dərs planları və proqramlarının nəzərdən keçirilib dəyişdirilməsi haqqında qərar qəbul etdi. İrəli sürülmüş müddəaları ətraflı müzakirə etmək üçün Xalq Maarif Komissarlığı yanında 2 komissiya – ADU və Politexnik İnstitutu üzrə komissiyalar yaratmaq qərara alındı. Universitet komissiyasına Pepinov sədr, Qulyayev, H.Şahtaxtinski, Selixanoviç, Şirokoqorov, Udintsev daxil edildi. Universitet komissiyasına aşağıdakı direktivləri rəhbər tutmaq tövsiyə olundu: 1) fizika-riyaziyyat fakültəsini və ictimai elmlər fakültəsini yenidən təşkil etmək, onlara pedaqoji təmayül vermək, tədris metodlarını dəyişdirib seminarları, laboratoriya işlərini və praktik işlərin başqa növlərini gücləndirmək, habelə nəzəri predmetlərin proqramlarını ləğv etmək və ya ixtisar yolu ilə ictimai fənləri gücləndirmək; 2) tibb fakültəsində praktik işləri (laboratoriya, klinika işlərini) müxtəlif kafedraların nəzəri predmetləri üzrə proqramları ixtisar etmək hesabına gücləndirmək [7, v. 5-11].

Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiyası komissiyanın məqsədlərini aşağıdakı kimi müəyyən etdi: "Mütəxəssislərin həyati tələbatını, mövcud müəllim qüvvələrini, onların ixtisasını nəzərə almaq, yeni qüvvələrin cəlb edilməsində qənaət, fakültələri və şöbələri yaxın 5 il üçün respublikanın tələbatı və mövcud ixtisaslı elmi qüvvələr baxımından nəzərdən keçirmək, ali təhsilin təşkilində möhkəm plan hazırlamaq, yalnız praktik işlər üçün saatların sayının artırılmasına yol vermək və bütün pedaqoji qüvvələrdən məhz bu məqsədlə istifadə etmək vacib vəzifə kimi qarşıya

qoyulsun... Azərbaycanın ali məktəbləri yerli xadimlər hazırlamalı və yerli mədəniyyəti öyrənib yüksəltməlidirlər" [7, v.5-11].

Azərbaycan SSR Xalq Maarif Komissarlığı kollegiyasının "tövsiyələrindən" də göründüyü kimi, Azərbaycan SSR ali məktəblərində tədris işinin təşkilini əsaslı surətdə dəyişdirmək, onun fəaliyyətini yeni ideoloji prinsiplərə maksimum yaxınlaşdırmaq aktual vəzifəyə çevrilmişdi. Beləliklə də, Azərbaycan ali təhsilinin müqəddəratı xalq komissarlarının kabinetlərində həll edilməyə başlandı.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən başladılmış ali təhsilin islahatı məsələləri Azərbaycan SSR elmi-pedaqoji kadrlarını dərindən maraqlandırır və narahat edirdi. Bunu Xalq Maarif Komissarlığının məruzəsi üzrə hazırlanmış qətnamə açıq şəkildə göstərirdi. 1924-cü il 28-30 mayda keçirilmiş respublika elmi işçilərinin konfransında qəbul edilmiş qətnamədə ictimai elmlər fakültəsinin və fizika-riyaziyyat fakültəsinin vahid pedaqoji fakültədə birləşdirilməsi məqsədəuyğun hesab edildi, orada filologiya və riyaziyyat şöbələrinin saxlanılmasının zəruriliyi önə çəkildi. Qətnamənin 4-cü bəndində isə açıq şəkildə deyilirdi ki, Azərbaycan və bütün Yaxın Şərq mədəniyyətini, dillərini, ədəbiyyatını öyrənən mərkəz olan Şərq fakültəsi saxlanılmalıdır [16, v. 9].

Beləliklə, xalq komissarlıqlarının kabinetlərində "geniş və hərtərəfli müzakirələr"dən [3, v. 17; 4, v. 23; 5, v. 25] sonra Azərbaycan ali təhsilini yenidən qurmaq, strukturu, dərs planlarını, tədris metodlarını əhatə edən proqram hazırlandı. 1924-cü il oktyabrın 14-də, 16-da, 18-də və 22-də ali məktəblərin rektorları, dekanları və tələbələrinin AK (b) P Bakı Komitəsi nümayəndələri ilə birlikdə Xalq Maarif Komissarlığının iclaslarında komissiyanın fəaliyyətinin nəticələri haqqında Baş Peşə Təhsli İdarəsinin məruzəsi dinlənildi. Məruzənin mətnindən məlum olur ki, Baş Peşə Təhsili İdarəsi ali məktəblərin yenidən qurulmasında "müttəfiq respublikalar arasında varislik əlaqəsinə" sadiq qalmış və RSFSR-in təcrübəsini əldə rəhbər tutmuşdur [17, v. 2].

Yeni dərs planlarının səciyyəvi cəhətlərindən biri də ali məktəblərin bütün fakültələri üçün məcburi fənlər – tarixi materializm və sovet konstitusiyasının daxil edilməsi idi. Azərbaycan dilinin və bir Qərbi Avropa dilinin öyrənilməsi məcburi idi [17, v. 140].

Komissiyanın işi o qədər "uğurlu" hesab edilmişdi ki, Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiyası universitetin ictimai elmlər və fizika-riyaziyyat fakültələrini ləğv edərək, əvəzində ictimaiyyat-tarix, riyaziyyat şöbələri olan pedaqoji fakültə təsis etdi [9, v. 24-30].

Beləliklə, Azərbaycan SSR Xalq Maarif Komissarlığının həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan SSR ali məktəblərinin bütün fakültələrinin yeni tədris planları təsdiq edildi. Yeni tədris planlarında mühazirə saatları azaldıldı və praktik məşğələlər çoxaldıldı. İslahatlar nəticəsində universitet mahiyyət etibarilə yarımpedaqoji tədris müəssisəsinə çevrildi.

1924-1925-ci ildə ali təhsilin inkişafı haqqında Azərbaycan SSR Xalq Maarif Komissarlığı Baş Peşə Təhsili Komitəsinin hesabatından o da məlum olur ki, tələbələrin tərkibini keyfiyyətcə yaxşılaşdırmaq məsələsini qarşıya qoymuş komissiya bütün tələbələri perspektivli və perspektivsiz "ünsürlərə" bölmüşdü. Akademik yoxlama nəticəsində universitetin 1313 tələbəsi arasında 129 "perspektivsiz" tələbə aşkar olundu və universitet tələbələri sırasından xaric olundu [9, v. 24]. Məlumatlardan açıq şəkildə görünür ki, Azərbaycan SSR Xalq Komissarları Soveti, Azərbaycan SSR Xalq Maarif Komissarlığı praktiki olaraq Universitet Elmi Şurasının səlahiyyətlərini bir növ icra edirdi.

Bununla belə 1920-ci illərdə Azərbaycan SSR Xalq Maarif Komissarlığının Azərbaycan ali məktəblərində başladığı islahatlar elmi işçilərin yaşayış şəraitinin yaxşılaşdırılmasına da müəyyən qədər təsir etdi. Belə ki, 12 may 1927-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığının qəbul etdiyi qərarda ali məktəblərin elmi işçilərinin həyat şəraitinin yaxşılaşdırılması üçün mənzil problemləri rəhbərlik tərəfindən həll edilirdi[14, v. 3].

Azərbaycan ali təhsil sistemində yuxarıda bəhs edilən islahatlardan az sonra Azərbaycan SSR Xalq Maarif Komissarlığı ali tədris müəssisələrinin yeni nizamnaməsini hazırladı.

1926-cı il mayın 18-də Xalq Maarif Komissarlığının kollegiyası "zamanın tələblərinə" uyğun olmadığını əsas gətirərək, universitetin mövcud 1923-cü il nizamnaməsini dəyişdirmək zərurəti haqqında xalq komissarı M.Quliyevin məruzəsini dinlədi. Hazırlanmış layihə 1926-cı ilin aprelin 17-də Xalq Maarif Komissarlığının kollegiya iclasında Elmi Şurası əvəzinə yaradılmış Dövlət Elm Şurası haqqında Əsasnamə kimi təsdiq olundu [10, s. 25].

Az sonra 1926-cı il sentyabrın 28-da Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiya iclası Azərbaycan SSR ali məktəbləri haqqında Əsasnaməni müzakirə etdi. 29 sentyabr 1926-cı ildə Azərbaycan SSR Xalq Komissarları Soveti Əsasnamə haqqında dekret verdi. Hökumətin qəbul etdiyi qərarda deyilirdi: "a) ali tədris müəssisələri haqqında Xalq Maarif Komissarlığının təsdim etdiyi əsasnamə təsdiq olunsun; b) Dövlət Plan Komitəsi "Ali məktəblərin akademik heyətinə daxil olan şəxslərin pensiya təminatı haqqında" Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin qərarının yerinə yetirilməsi məsələsini nəzərdən keçirsin; c) Xalq Maarif Komissarlığı ali məktəblərin milliləşdirilməsi qaydası haqqında XKS-nin ən yaxın iclaslarından birində məruzə etsin [10, s. 25-26].

Yeni qəbul olunmuş ali məktəblər haqqında 1926-cı il Əsasnaməsi Azərbaycan Dövlət Universitetinin 1923-cü il nizamnaməsindən xeyli fərqlənirdi. Əgər 1923-cü il nizamnaməsinə görə, universiteti bilavasitə rektor, prorektor, fakültə dekanları idarə edirdilərsə, universitetin elmi-tədris hissəsi və inzibati hissəsi üzrə ali idarəetmə orqanı universitet Şurası idisə, 1926-cı il Nizamnaməsinin "ali məktəbin idarə edilməsi" bölməsində yazılırdı ki, Azərbaycan SSR ali məktəbləri Xalq Maarif Komissarlığının sərəncamındadır. Yalnız Xalq Maarif Komissarlığı ali məktəblərin təşkilində və şəxsi heyətində dəyişikliklər etmək hüququna malikdir [10, s. 26]. Digər tərəfdən, əvvəlki nizamnamələrdə universitet elmi-tədris müəssisəsi kimi irəli çəkilirdisə, 1926-cı il Əsasnaməsində tədris məqsədlərinə üstünlük verilirdi. Fakültələrdə fənn komissiyalarının yaradılması əsas yeniliklərdən biri idi. Xalq komissarı M.Quliyev bununla bağlı yazırdı: "Əvvəllər fənn komissiyaları yox idi, hər professor öz proqramını tərtib edir, onu Şuraya təklif edir və bu proqram üzrə fənni tədris edirdi. İndi isə fənn komissiyaları yaradılır, bu komissiyaların başında isə professorlar dayanırdı. Fənn komissiyalarına başqa təşkilatlar, həm tələbələr, həm də elmi işçilər cəlb edilirdilər"[10, s. 26]. İlkin məlumatlardan da göründüyü kimi, əsas məqsəd universitetin əvvəlki müstəqilliyini tamamilə məhv etməyə yönəldilmişdi.

Bakı Dövlət Universitetinin 1926-cı il Əsasnaməsi professorların, dosentlərin, privat-dosentlərin əvvəlki statusunu əsaslı surətdə dəyişdirdi. Belə ki, bundan sonra onlar universitetdən kənarda olan müəssisədə - Dövlət Elm Şurasında seçilirdilər. Qalan müəllimlər ali məktəbin İdarə Heyəti və ya Dövlət Elm Şurası tərəfindən, lakin Baş Peşə Təhsili İdarəsinin təqdimatı üzrə seçilirdilər. Yeni seçilən elmi işçilərin hamısı Azərbaycan dilini öyrənməli idilər.

1926-cı il Əsasnaməsində belə bir şərt qoyulmuşdu: "ADU-nun Şərq və pedaqoji fakültələrinin tədris-elmi fəaliyyətinə rəhbərlik qaydası xüsusi əsasnamə ilə müəyyən edilsin. Bu əsasnamədə nəzərdə tutulurdu ki, tədris-elmi fəaliyyətə ümumi rəhbərlik Baş Peşə Təhsili İdarəsi tərəfindən təyin edilən və ona cavabdeh olan dekanların və dekan köməkçilərinin öhdəsinə buraxılsın. ADU-nun Şərq və pedaqoji fakültələrinin dekanlarına hüquq verilirdi ki, fənn komissiyalarının qərarlarının həyata keçirilməsini dayandırsınlar. Bu fakültələrin dekanları professor və müəllim vəzifələrinə namizədləri Dövlət Elm Şurasına təqdim edirdilər. Bu namizədlər Baş Peşə Təhsili İdarəsi tərəfindən təsdiq edilməli idi [1, s. 160-161]."

1926-cı il dekabrın 11-də Azərbaycan SSR Xalq Komissarlığının Baş Peşə Təhsili İdarəsi dekanlıqların aşağıdakı tərkibdə təsdiq edilməsi barədə məlumatı ADU-ya göndərdi: tibb fakültəsi, professor İ.İ.Şirokoqorov - dekan, Şərq fakültəsi, dosent Ə.Qubaydulin – dekan, pedaqoji fakültə - Məmmədzadə - dekan, professor L.A.İşkov – ictimaiyyət-tarix şöbəsi üzrə dekan müavini, professor V.S. Yelpatyevski – təbiyyat-riyaziyyat şöbəsi üzrə dekan müavini [1, s.161]. Beləliklə, Bakı Dövlət Universitetinin sayca 5-ci Nizamnaməsi olan 1926-cı il Əsasnaməsi onun daxili muxtariyyətini, dünyaya pəncərə açmaq imkanlarını bir qədər də məhdudlaşdırdı. Bununla yanaşı akademik kadrlara, elmi işçilərə Azərbaycan dilini bilmə tələblərinin qoyulması onun nisbətən milliliyini qoruyub saxlaya bilmişdi.

Bakı Dövlət Universitetinin professor və müəllim heyətinə, elmi işçilərinə Azərbaycan dili ilə bağlı tələb 1928-ci ildən özünü daha qabarıq şəkildə göstərməyə başladı. Bunu AK (b) MK Rəyasət Heyətinin "Azərbaycan Dövlət Universiteti haqqında əməli təkliflər" adlı sənədində daha aydın görmək olar. Əməli təkliflərdən yerli dili, Azərbaycan SSR Xalq Maarif Komissarlığına təkliflər planı hazırlaması aydın olur. Orada daha sonra deyilirdi: "Bu, ali məktəblərin elmi həyatına xələl gətirməsin. Qarşıya qoyulan vəzifənin tam həyata keçirilməsi 10 illər üçün nəzərdə tutulan gərgin, ardıcıl iş aparılmasını tələb edir. Türk (Azərbaycan) dilini bilən elmi işçilər hazırlamaq məsələsi əsas məsələ-

dir və onsuz qanuni vəzifəmizi – ümumən ali məktəbləri türkləşdirmək (milli tərkib baxımından – S.İ.) vəzifəsini tamamilə yerinə yetirmək olmaz..."[15, v. 4].

Hökumətin təkliflərində Bakı Dövlət Universitetinin milliləşdirmə tədbirlərinin mərhələləri də göstərilmişdi: ADU-nun Şərq fakültəsi, pedaqoji fakültəsi və Azərbaycan Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsi, sonra isə tibb fakültəsi [15, v. 4].

Hökumətin təkliflərini nəzərə alan Xalq Maarif Komissarlığı ali məktəblərin milli tərkib baxımından yerli millətdən olanlara üstünlük verilməsi üçün plan hazırladı. Planda göstərilirdi ki, bu proses pedaqoji fakültədə və Şərq fakültəsində altı ilə başa çatdırılsın [15, v. 4]. Azərbaycan SSR Xalq Maarif Komissarlığının sənədində belə bir tələb də var idi: "Yerli millətdən olmayan, lakin gələcəkdə Azərbaycan dilində dərs deyə biləcək elmi işçilər hazırlamaq üçün onlar kafedralarda təcrübə keçilən dövrdə Azərbaycan dilini öyrənsinlər [15, v. 4]."

Beləliklə, görülən tədbirlər nəticəsində fakültələrdə azərbaycanlıların sayı ildən-ilə artmağa başladı. Bunu illər üzrə aşağıdakı rəqəmlərdən aydın şəkildə görmək olar: "Tibb fakültəsi üzrə azərbaycanlılar 1924-1925-ci tədris ilində 24,5%, 1925-1926-cı tədris ili üzrə 31,7%, 1926-1927-ci tədris ili üzrə 40,7%, pedaqoji fakültə üzrə 1924-1925-ci tədris ili üzrə 18,4%, 1925-1926-cı tədris ili üzrə 11,5%, 1926-1927-ci tədris ili üzrə 93,4%, Şərq fakültəsi üzrə 1924-1925-ci tədris ili üzrə 94,6%, 1925-1926-cı tədris ili üçün 92%, 1926-1927-ci tədris ili üçün 63,4% təşkil edirdi. Universitet üzrə bu göstərici 1924-1925-ci tədris ili üçün bu göstərici 39%, 1925-1926-cı tədris ili üçün 26%, 1926-1927-ci tədris ili üçün 68,9% təşkil edirdi [1, s.190]." Qeyd edək ki, bu göstərici 1929-1930-cu tədris ilində 70,9%-ə qədər yüksəlmişdi.

1930-cu ildə bütün ali və texniki məktəblərdə elmi kadrların hazırlanmasına imkan verən təhsilin aspirantura pilləsinin təşkil edilməsi də universitetdə və azərbaycanlı müəllimlərin sayının artırılmasına əhəmiyyətli dərəcədə təkan verdi.

Bakı Dövlət Universitetinə qəbul planında azərbaycan türklərinin nəzərəçarpacaq dərəcədə artması Azərbaycan dilinə münasibətdə də müsbət mənada dəyişikliyə gətirib çıxarmışdı. Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1927-ci ilin fevralından elmi işçilər qarşısında Azərbaycan dili ilə bağlı qoyduğu tələblər universitetdə də geniş müzakirə olunaraq qəbul edildi. Türk dilinin (Azərbaycan dilinin – S.İ.) öyrənilməsi ilə bağlı Azərbaycan Dövlət Universitetinin 1927-ci il 23 noyabr tarixli toplantısında deyilirdi: "Bütün elmi əməkdaşlar dili bilmək dərəcəsi üzrə 3 qrupa bölünməklə ilk 2 qrup həftədə 3 saat, üçüncü qrup həftədə 2 saat Azərbaycan dilini öyrənməli idilər" [12, v.1]. Əslində, bu addımlar heç də Azərbaycan təhsilinə, dilinə, mədəniyyətinə yüksək qayğıdan qaynaqlanmırdı, sadəcə universitetə yeni qəbul olan tələbələrin böyük əksəriyyətinin, yəni azərbaycanlıların rus dili bazasının zəifliyi bunu tələb edirdi. Bölgələrdən qəbul olunmuş tələbələrə Azərbaycan dilində dərs keçəcək kadrlar lazım idi ki, yaranmış boşluq aradan qaldırılsın. Bu "boşluq" 1920-ci il aprel çevrilişindən sonra milli ziyalıların bir qisminin Azərbaycandan sürgün edilməsi, bir qisminin isə kütləvi repressiyaya məruz qalmasından sonra yaradılmışdı. İndi isə vəziyyətdən çıxış yolu axtarılırdı.

Bakı Dövlət Universitetində görülən bütün bu addımlar akademik işçilər arasında milli tərkib baxımından Azərbaycan türklərinin də artmasına gətirib çıxardı. Belə ki, 1924-1925-ci tədris ilində universitet akademik işçilərinin ümumi sayının 192 nəfərindən 42-si (21,8%) azərbaycanlı idisə, bu göstərici 1929-1930-cu tədris ilində yüksələrək 255 nəfər akademik heyətdən 100 nəfərinin azərbaycanlı türkləri olmasına gətirib çıxarmışdı.

***Nəticə.*** Aparılan araşdırmalar göstərir ki, Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən atılan bu addımlar Bakı Dövlət Universitetində çalışan qeyri-millətlərin nümayəndələri tərəfindən müsbət hal kimi qarşılanmadı, kəskin mübahisələrə səbəb oldu [13, v. 35]. Bu mübahisələr xüsusilə Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1929-cu il mayın 12-də ADU-nun və APİ-nin elmi işçilərinin yığıncağında daha aydın göründü, rus professorları ilə yerli nümayəndələr arasında fikir ayrılığının olduğunu göstərdi. "ADU-nun yanında elmi işçilər hazırlanması qaydası haqqında təlimat"ın layihəsi hazırlanarkən professor A.M.Yevlaxovun çıxışı və səsləndirdiyi fikirlər əsas mübahisə yaratdı. O çıxışında türk millətindən olan tələbələrin intellektual səviyyəsinin aşağı olmasını əsas kimi gətirərkən, Xalq Maarif komissarı M.Quliyev onun sözünü kəsərək bildirdi: "Əgər biz türk milləti ilə rus milləti arasında belə fərq qoysaq, onda bu zəmin əsasında çoxlu anlaşılmazlıq olacaq-

dır” [13, v. 38, 44, 52]. Xalq Maarif komissarı rus professorunu kəskin tənqid edərək göstərirdi ki, azərbaycanlılar arasında olduqca istedadlı tələbələr var, türklərə rus professorlarının aşağı irq kimi baxması yolverilməzdir... [8, v. 48]. Göründüyü kimi, Bakı Dövlət Universitetində milliləşdirmə tədbirlərinin aparılması akademik heyət arasında kəskin fikir ayrılıqlarına səbəb olmuşdu. Xüsusilə universitetdə çalışan qeyri-millətlərin nümayəndələri bunu şovinizm, gələcəkdə universitet sıralarından sıxışdırılması kimi qələmə verirdilər. Lakin anlamırdılar ki, tədrisin rus dilində aparılması, Azərbaycan dilində vəsaitin olmaması Azərbaycan övladlarının gələcəyinə saplanmış balta idi. Yad dilin, yad mədəniyyətin ağalığı milli düşüncəli nəsil formalaşdıra bilməzdi.

## ƏDƏBİYYAT


1. Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. Bakı: Bakı Universiteti nəşriyyatı, 1991, 528 s. + 54 s. şəkil.
2. Заседания Комиссии по реформе ВУЗ-ов от 02.01.1924 г. – ARDA, f.57, siy.1, sax.vah.275, v.17.
3. Заседания Комиссии по реформе ВУЗ- ов от 12.01.1924 г. – v. 19.
4. Заседания Комиссии по реформе ВУЗ- ов от 05.02.1924 г., v. 23.
5. Заседания Комиссии по реформе ВУЗ- ов от 08.04.1924 г., v. 25.
6. Заседания Комиссии по реформе ВУЗ- ов от 10.05.1924 г., v. 27.
7. Заседаний НКП совместно о ректорами и деканами ВУЗ-ов и представителями ЦК пролетстуда от 14, 16, 18, 22 октября 1924 г. – ARDA, f. 57, siy. 1, sax. vah. 275, v. 5, 11.
8. Заседания правления Азгосуниверситета 21-го апреля 1929 г. - ARDA, f. 57, siy. 1, sax. vah. 499, v. 48.
9. Из отчета Главпрофобра Наркомпроса Аз. ССР о развитии высшего образования за 1924-1925 г. – ARDA, f. 57, siy. 1, sax. vah. 385, v. 24-30.
10. Маковельский А.О. Азербайджанский Государственный Университет имени Ленина. Первое десятилетие. 1919-1929 г. Баку: Издание АГУ, 1930.
11. Объединенного заседания Комиссий по пересмотру учебных планов Высших Учебных Заведений. От 15.12.1923 г. – ARDA, f. 57, siy. 1, sax. vah. 275, v. 16.
12. Организационного собрания по изучению тюркского языка научных сотрудников Аз. Гос. Ун-та от 23-го ноября 1927 г. – ARDA, f. 1640, siy. 3, sax. vah. 29, v. 1.
13. Отчет общего собрания научных работников в АГУ и АПИ от 12-го мая 1929 г. - ARDA, f.57, siy. 1, sax. vah. 710, v. 35, 38, 44, 52.
14. Постановление Совета Народных Комиссаров АССР об улучшении жилищных условий научных работников. – ARDA, f. 57, siy. 1, sax. vah. 462, v. 3.
15. Правительственное разяснение о положении Вузов АССР. - ARDA, f. 57, siy. 1, sax. vah. 462, v. 4.
16. Резолюции принятие конференцией науч. раб. 28-30 мая 1924 г. – ARDA, f.57, siy.1, sax.vah. 275, v.9.
17. Совещания при агитпропотделе БК АК (б) по вопросу о реорганизации “ВУЗ”ов от 11.02.1924 г. - ARDA, f. 1114, siy. 2, sax. vah. 46, v. 2, 140.



**САМИР ИСМАИЛОВ**

*Доцент кафедры Источниковедение, историография и методологии исторического факультета БГУ*


## ВЛИЯНИЕ РЕФОРМ ВЫСШЕЙ ШКОЛЫ, ПРОВЕДЕННЫХ В АЗЕРБАЙДЖАНЕ В 1920-Е ГОДЫ, НА ПРЕПОДАВАТЕЛЬСКУЮ ЖИЗНЬ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА


В статье рассматривается влияние реформ высшей школы, проведенных в Азербайджанской ССР в 1920-х годах, на Бакинский государственный университет. Проведенные исследо-

вания показывают, что с 1923 года Наркомпросом Азербайджанской ССР были начаты «коренные работы по реконструкции» высших учебных заведений Азербайджанской ССР. Встал вопрос о коренном изменении организации преподавательской работы в высших учебных заведениях Азербайджана, максимальном приближении ее деятельности к нуждам государственной экономики и развития культуры. Хотя эти реформы проводились для достижения положительных результатов, на самом деле намерение было характерной чертой новой системы. Вскоре были предприняты практические шаги по приспособлению научной структуры Бакинского государственного университета и вопросов организации обучения к требованиям времени.

*Ключевые слова*: Бакинский Государственный Университет, высшая школа, реформа, Советы, Наркомпрос.

**SAMIR ISMAYILOV**
*Associate professor of the Department of Source Studies,*
*History and Methodology of the Faculty of History of BSU*

## THE IMPACT OF THE HIGHER EDUCATION REFORMS CARRIED OUT IN AZERBAIJAN IN THE 1920S ON THE TEACHING LIFE OF BAKU STATE UNIVERSITY

The article examines the impact of the higher education reforms carried out in the Azerbaijan SSR in the 1920s on the Baku State University. The conducted studies show that since 1923 the People's Commissariat of Education of the Azerbaijan SSR began "fundamental work on the reconstruction" of higher educational institutions of the Azerbaijan SSR. The question arose about a radical change in the organization of teaching work in higher educational institutions of Azerbaijan, the maximum approximation of its activities to the needs of the state economy and the development of culture. Although these reforms were carried out to achieve positive results, in fact the intention was a characteristic feature of the new system. Soon, practical steps were taken to adapt the scientific structure of the Baku State University and the organization of education to the requirements of the time.

*Keywords*: Baku State University, higher education, reform, Soviets, People's Commissariat of Education.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 32:93/94**

**ТАРИЭЛЬ АББАСОВ**
*Доктор философии по истории,*
*доцент кафедры «Новой и современной истории стран Европы и Америки» БГУ*
**tariel.abbasov@rambler.ru**

# ОПЫТ БОРЬБЫ С МЕЖДУНАРОДНЫМ ТЕРРОРИЗМОМ В КОНТЕКСТЕ ПОЛИТИКО-ПРАВОВОЙ БАЗЫ США

*Начиная со второй половины XX столетия мировым сообществом в целях борьбы с терроризмом была создана большая юридическая база в виде многочисленных законодательных актов, международных конвенций и соглашений, деклараций и резолюций как в рамках ООН, так и целого ряда региональных организаций. Борьба с международным терроризмом является одним из приоритетных направлений деятельности официального Вашингтона по обеспечению национальных интересов США. Вместе с тем, на сегодняшний день международному сообществу так и не удалось разработать всеобъемлющий конвенционный механизм по борьбе с международным терроризмом.*

*Ключевые слова*: события 11 сентября, Государственный Департамент, Совет Национальной Безопасности, Конвенция, международный терроризм, экстремизм, закон.

***Введение.*** Начиная с 1958 года в США было принято несколько десятков законов и подзаконных актов, в той или иной степени, касающихся борьбы с терроризмом. Эти законодательные акты значительно расширили права федерального руководства, правоохранительных органов и администрации штатов по выявлению и пресечению готовящихся террористических актов, как на территории США, так и за рубежом. Они определили новый, более системный подход к противодействию терроризма в новом XXI столетии. В первую очередь, в целях повышения эффективности борьбы с международными террористическими организациями и координации деятельности различных ведомств на этом направлении были разработаны обновляемые на регулярной основе документы с перечнем организаций, юридических и физических лиц, осуществляющих террористическую деятельность или оказывающих содействие в ее проведении. В их числе: список зарубежных террористических организаций, перечень юридических и физических лиц, чьи активы подлежат блокированию в рамках пресечения финансирования международного терроризма, а также наименование запрещенных в США организаций, оказывающих поддержку терроризму. В список запрещенных в США организаций, которые квалифицируются Госдепартаментом как «оказывающие поддержку терроризму», включаются и иностранные организации (юридические лица), в соответствии с законом «Об иммиграции и предоставлении гражданства» с изменениями и дополнениями, внесенными в него «Патриотическим актом» (Федеральный закон № 107-56 «USA PATRIOT Act, 2001») [4]. Это влечет за собой жесткие ограничения на въезд и пребывание на территории США представителей или членов таких организаций и предоставляет соответствующим органам США полномочия на выдворение их из страны (если они не являются гражданами США). В свою очередь, закон «О предоставлении дополнительных полномочий спецслужбам в сфере борьбы с терроризмом» (октябрь 2001 года) скорректировал определение терроризма, содержавшееся в действующем федеральном законодательстве, расширил понятие «федеральное преступление, связанное с терроризмом», включил в эту категорию ряд тяжких насильственных преступлений, дополнил «федеральный уголовный кодекс» ранее законодательно не существовавшим понятием «внутренний терроризм» [2].

Следует заметить, что в американской юридической доктрине традиционно сформировалось четкое определение «внутреннего» и «внешнего» (иностранного) терроризма. Термин «внутренний терроризм» обозначает деятельность, которая включает в себя акты, угрожающие человеческой жизни и являющиеся нарушением уголовного права США или одного из Штатов; имеют своей целью запугать или принудить гражданское население; повлиять на

политику правительства путем запугивания или принуждения; или повлиять на поведение правительства путем причинения массовых разрушений, убийством или похищением людей; и совершаются в пределах территориальной юрисдикции Соединенных Штатов. Под «внешним» терроризмом вплоть до последнего времени понимался терроризм в отношении США, объектов собственности США или американских граждан, субъектами которого выступают иностранцы, действующие из-за пределов США (отдельные террористы, иностранные террористические организации, поддерживающие терроризм правительства иностранных государств). Именно такое деление на внутренний и внешний терроризм было закреплено в американском законодательстве вплоть до 2001 года [1, с.22].

После событий 11 сентября ситуация кардинальным образом изменилась. В юридический оборот в США был введен термин «международный терроризм». Федеральный кодекс США содержит следующее определение понятия «международный терроризм». Термин «международный терроризм» означает деятельность, которая состоит в актах насилия или актах, угрожающих человеческой жизни, и являются нарушением уголовного права США или одного из штатов, или которые могли бы стать уголовным преступлением, если бы были совершены в юрисдикции США или одного из Штатов; которые направлены на то, чтобы запугать или принудить гражданское население; повлиять на политику правительства путем запугивания или принуждения; или повлиять на поведение правительства путем причинения массовых разрушений, убийством или похищением людей; и которые совершаются преимущественно за пределами территориальной юрисдикции США, или выходят за национальные границы за счет средств, которыми они достигаются, лиц, которые подвергаются запугиванию или принуждению, или мест, где злоумышленники действуют или ищут убежища [1, с.23]

Важной мерой, которую Соединенные Штаты Америки рассматривают как наиболее эффективное оружие в борьбе с терроризмом и экстремизмом, является также объявление американским Конгрессом с соответствующим законодательным закреплением ряда стран в качестве «государств-спонсоров терроризма» и введением против них санкций политического, торгово-экономического и военного характера. Диапазон санкций против таких стран, в основном исламских, включает в себя ряд запретов, в том числе на торговлю и инвестиции, оказание им любого вида помощи, арест их государственной собственности в США и счетов в американских банках, запреты на авиарейсы и заходы судов, а также принуждение других стран и их национальных компаний к аналогичным действиям с принятием к ним в случае «непослушания» соответствующих санкций. Объявляя ряд стран «спонсорами терроризма», США, безусловно, преследуют помимо целей борьбы с международным экстремизмом и терроризмом свои геополитические интересы, особенно в таких важных для «жизненных интересов» регионах, как Ближний и Средний Восток [2].

Особое место в вопросах борьбы с международными террористическими организациями занимают ежегодные доклады Государственного Департамента США, в которых предоставлена информация о международных террористических группах, а также дается аналитическая оценка эффективности международного сотрудничества по этой проблеме. Необходим отметить, что комплексных статистических данных о количественном размахе террористических акций до 1968 года не имеется. Хронология международных террористических актов впервые была составлена лишь в 1968 году корпорацией RAND (Research and Development) в Санта-Монике (Калифорния). Корпорация RAND была организована в 1946 году по заказу ВМС США как научно-исследовательское подразделение, которое занимается долгосрочными прогнозами и всесторонним анализом различных стратегических проблем. Хронология постоянно пополнялась с 1972 года корпорацией RAND, а с 1994 года данная работа выполняется Центром изучения терроризма и политического насилия. Университета Сент-Эндрю (Шотландия). Годовой отчет по международному терроризму впервые был подготовлен лишь в 1976 году ЦРУ, а с 1982 года этим вопросом стал заниматься Госдепартамент США. В декабре 1987 года последнему в законодательном порядке была поручена подготовка ежегодных докладов по глобальным тенденциям терроризма. В 1996 году Конгресс США внес изменение в соответствующее законодательство и поручил Госдепартаменту включить в ежегодные доклады не

только статистические данные о террористических актах и информацию о международных террористических группах, но также оценки других стран и международное сотрудничество по борьбе с терроризмом. С 2005 года подготовкой ежегодного доклада по международному терроризму занимается Национальный контртеррористический центр США. [3, с.54]

Политическое руководство США принимает меры по кадровому и материально-техническому укреплению специальных служб, повышению их роли в системе обеспечения национальных интересов. Так, в ноябре 2002 года был утвержден закон о создании Министерства Внутренней Безопасности (МВБ). МВБ полностью или частично объединило в одну структуру 22 ведомства (ЦРУ и ФБР не входят в состав МВБ). Его штатная численность достигает 170 тыс. человек, а годовой бюджет исчисляется десятками миллиардов долларов. Основные задачи МВБ включают в себя предупреждение террористических актов против США, снижение уязвимости страны от внутреннего терроризма, минимизация ущерба и устранение последствий террористических нападений. В ФБР создан ведомственный Центр по изучению и анализу терроризма, в структуре которого функционирует информационная система по террористам, содержащая в электронном виде данные, как на конкретных лиц, так и подозреваемые в причастности к терроризму группы и организации. Ряд аналитических подразделений и баз данных по проблемам терроризма существует и в других ведомствах и учреждениях США - Министерстве обороны, РУМО, АНБ, Службе береговой охраны, Командовании специальных операций США и др. С 2003 года в США действует независимая антитеррористическая структура - Объединенный центр по противодействию угрозе терроризму, главной задачей которого является сбор, обобщение и анализ всей поступающей информации по проблемам борьбы с терроризмом. Усилены меры обеспечения на транспорте, особенно авиационном. В аэропортах США введена процедура дактилоскопирования прибывающих в страну иностранных пассажиров. Обязательной процедуре снятия отпечатков пальцев подвергаются граждане Ирака, Ирана, Ливии, Судана, Сирии, причем список стран постоянно расширяется. В отношении ряда категорий иностранцев, прибывающих в США на длительные сроки, вводится обязательная регистрация в иммиграционных бюро с последующим ежегодным повторением этой процедуры. В отдельных случаях иностранцы обязуются уведомлять местные иммиграционные власти о своих выездах из США [2].

Создание системы выявления и перекрытия каналов финансирования террористических организаций во многих странах рассматривается как одно из главных направлений деятельности по борьбе с международным терроризмом. Тем не менее, несмотря на принимаемые в США энергичные меры по разрушению системы финансирования международного терроризма, они до сих пор не привели к решению проблемы. Террористические организации по-прежнему сохраняют доступ к источникам финансирования. В США считают, что межгосударственная кооперация с привлечением возможностей специальных и правоохранительных органов стран мирового сообщества должна в ближайшей перспективе стать важным звеном в борьбе с финансированием международного терроризма. Большое значение придается разъяснительной и пропагандистской работе, разоблачающей истинные намерения радикальных экстремистов, несостоятельность их теоретических подходов, противоречащих реалиям современного мира и коренным интересам исламских стран. Для реализации данной задачи прилагаются серьезные усилия со стороны ряда американских научных центров и институтов, в частности Центра исследований биологической защиты университета им. Дж.Хопкинса и Института стратегических исследований по проблемам терроризма в Сан-Антонио (штат Техас). С этой же целью регулярно проводятся специальные слушания в Конгрессе США с привлечением экспертов ЦРУ, а также видных исламских ученых и авторитетов [2].

***Заключение***. Сегодня политика официального Вашингтона в вопросах борьбы с международным терроризмом базируется на нижеследующих четырех основополагающих принципах: никаких уступок террористам, оказание всестороннего давления на страны, поддерживающие терроризм, использование в полной мере легальных механизмов наказания международных террористов и оказание помощи в этой сфере другим странам. Американские госу-

дарственные органы и структурные подразделения в противодействии экстремизму и терроризму на сегодняшний день включают:

1. В Совете национальной безопасности (National Security Council):

- заместитель советника по национальной безопасности, отвечающий за борьбу с терроризмом (National Director / Deputy National Security Advisor for Combating Terrorism);

- Комитет по антитеррору и национальной готовности (Principals Committee on Counterterrorism and National Preparedness);

- Национальный координатор по безопасности, защите инфраструктуры и контртерроризму (National Coordinator for Security, Infrastructure Protection and Counter-Terrorism).

2. Совет внутренней безопасности (Homeland Security Council).

3. Национальный контртеррористический центр (National Counterterrorism Center).

4. Центр по отслеживанию террористической активности (Terrorist Screening Center (TSC)).

5. Министерство внутренней безопасности (Department of Homeland Security).

6. В Центральном разведывательном управлении (Central Intelligence Agency) – Антитеррористический центр (Counterterrorist Center (CTC)).

7. В Федеральном бюро расследований (Federal Bureau of Investigation) - Управление по борьбе с терроризмом (Counterterrorism Division (CTD)).

8. В структурах армии США:

- Объединенные группы межведомственной координации борьбы с терроризмом (Joint Interagency Coordination Groups (JIACGs));

- Внутри Сенткома (U.S. Central Command (CENTCOM) - Объединенная межведомственная оперативная группа (Joint Interagency Task Force (JIATF)) (5).

Актуальное значение, в связи с этим, занимает, как известно, правовая составляющая данной проблемы. Хочется верить, что не далек тот день, когда всему цивилизованному мировому сообществу удастся разработать всеобъемлющий универсальный конвенционный механизм по борьбе с угрозами международного терроризма, что исключит какие-либо практические реализации его проявлений.

ЛИТЕРАТУРА

1. Блищенко, В.И Понятие «терроризм» в законодательстве США // - Москва: Противодействие терроризму. Проблемы XXI века, - 2013, № 2, - с.15-24.
2. Добаев, И.П. Истоки терроризма на Ближнем и Среднем Востоке и факторы, определяющие его современную активизацию // - Казань: Мусульманский мир, - 2016, № 2, - 156-164.
3. Севдималиев, Р.М. Международный терроризм и политико-правовые проблемы борьбы с ним / Р.М. Севдималиев. - Баку: Elm, - 2011. - 246 с.
4. «История Патриотического акта» /З акон США PATRIOT. - wikidea.ru/wiki/History_of_the_Patriot_Act [10.01.2023].
5. «Правовые и организационные аспекты противодействия экстремизму и терроризму в США». - https://studylib.ru/doc/2471436/pravovye-i-organizacionnye-aspekty-protivodejstviya [10.01.2023].

**TARYEL ABBASOV**
*t.ü.f.d., Bakı Dövlət Universitetinin dosenti*

## ABŞ-ın SİYASİ-HÜQUQİ BAZASI ÇƏRÇİBƏSİNDƏ BEYNƏLXALQ TERRORİZMLƏ MÜBARİZƏ TƏCRÜBƏSİ

XX əsrin ikinci yarısından başlayaraq dünya birliyi terrorizmə qarşı mübarizə məqsədilə həm BMT, həm də bir sıra reqional təşkilatlar çərçivəsində coxsaylı qanunvericilik aktları, beynəlxalq konvensiya və sazişlər, bəyannamə və qətnamələr şəklində geniş hüquqi baza yaratmışdır. Beynəl-

xalq terrorizmə qarşı mübarizə rəsmi Vaşınqtonun ABŞ-ın milli maraqlarının təmin edilməsində prioritet istiqamətlərdən biridir. Bununla yanaşı, bu günə qədər beynəlxalq ictimaiyyət beynəlxalq terrorizmə qarşı mübarizəsinə dair hərtərəfli konvensiya mexaniminin yaradılmasına müvəffəq olmadı.

*Açar sözlər*: 11 sentyabr hadisələri, Dövlət Departamenti, Milli Təhlükəsizlik Şurası, Konvensiya, beynəlxalq terrorizm, ekstremizm, qanun.

**TARYİEL ABBASOV**
*Phd, associate professor of Baku State University*

## EXPERIENCE IN COMBATING INTERNATIONAL TERRORISM IN THE CONTEXT OF THE US POLITICAL AND LEGAL FRAMEWORK

Since the $2^{nd}$ half of the $20^{th}$ century the world community to counter terrorism have created large legal framework with form of numerous legislature acts, international conventions and agreements, declarations and resolutions both within the UN and a number of regional organizations. The fight against international terrorism is one of the priority areas of official Washington on ensuring the national interests of the United States. However today the international community had failed to develop a comprehensive convention mechanism to combat international terrorism.

*Keywords*: september 11 events, State Department, National Security Council, Convention, international terrorism, extremism, law.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Elmira Hüseynova, s.e.d. Adil Mirabdullayev.*

UOT 94(479.24); UOT 32:93/94

**РАФИК АХУНДОВ**
*Доцент Азербайджанского Государственного Экономического Университета*
**Rafiqaxundov@yandex.ru**

# ЭНЕРГЕТИЧЕСКАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ НА СОВРЕМЕННОМ ЭТАПЕ (2022-2023)

*В статье проанализированы некоторые вопросы, касающиеся энергетической политики Азербайджанской республики на современном этапе. Подчеркивается важное значение энергетических соглашений, заключенных с ведущими мировыми компаниями. Отмечается актуальная значимость форумов, конференций по вопросам диверсификации, энергетической безопасности, региональных коммуникаций и «зеленой» энергетики.*

*Ключевые слова*: энергетика, безопасность, эффективность, цифровизация, инвестиции.

***Введение.*** После обретения Азербайджаном государственной независимости в стране успешно развивались экономические и политические процессы. 20 сентября 1994 года с участием ведущих энергетических корпораций мира был подписан знаменитый контракт века на освоение нефтяных месторождений Азербайджана. Освоение газоконденсатного месторождения «Шах-Дениз» означало, что Азербайджан стал не только нефтяной, но и газовой страной. Сформированная в Азербайджанской Республике бизнес сфера создавала благоприятные возможности для успешной деятельности, как своих, так и иностранных компаний, что в конечном итоге способствовало ускоренному развитию экономики. Благодаря этому в Азербайджанской Республике надежно обеспечивались все основные направления экономической безопасности- энергетическая, финансовая, продовольственная, цифровая, транспортная.

***Азербайджан и европейская энергетическая безопасность.*** 18 июля 2022 года во время визита председателя Европейской комиссии Урсулы фон дер Лейен в Баку был подписан Меморандум «О взаимопонимании по стратегическому партнерству в энергетической сфере между Азербайджанской Республикой и Европейском Союзом». В меморандуме определялись 3 основных направления: 1-е касалось увеличения объемов поставляемого в Европу газа, второе было связано с поставками возобновляемой энергии, 3-е направление относилось к климатической безопасности (1).

Президент Азербайджанской Республики Ильхам Алиев по итогам подписания меморандума заявил: «Мы уже начали вкладывать инвестиции в ветровую и солнечную энергетику. Сделали первую оценку наших возможностей. В освобожденных районах Карабаха и Восточного Зангезура потенциал солнечной и ветровой энергии составляет 9200 мегаватт и потенциал ветра в каспийском море 157 гигаватт. У нас действительно огромная ресурсная база» (2). Таким образом, энергетический диалог между Азербайджаном и Европейским Союзом имел долгосрочную основу, охватывал многие сферы и способствовал дальнейшему развитию экономического потенциала Азербайджана. Президент Азербайджанской Республики Ильхам Алиев подписал распоряжение о применении закона «Об Эффективном использование энергоресурсов и энергетической эффективности». Документ предусматривал создание фонда энергоэффективности призванного стимулировать и продвигать меры по рациональному использованию электроэнергии и энергоэффективности в Азербайджане. Фонд должен был финансироваться за счет отчислений от продаж энергоресурсов, грантов кредитов, добровольных пожертвований со стороны юридических и физических лиц, поступлений от международных организаций и прочих доноров, а также источников, не запрещенных законодательством Азербайджана. Проект закона был подготовлен при участии специалистов и консалтинговых компаний мирового уровня к тому же имеющих серьезный опыт в энергетической сфере. Как отмечал председатель комитета Милли Меджлиса по природным ресурсам, энергетике и

экологии Садиг Гурбанов, «вопросы эффективного и экономного использования энергетических ресурсов являются приоритетными для руководства нашей страны».

Модернизация производственных мощностей внедрение информационных и цифровых технологий, совершенствующих операционный цикл при управлении энергоэффективностью объектов жилой и нежилой недвижимости жилищно-коммунального комплекса позволило бы снизить объемы потребления тепловой и электрической энергии в быту и на производстве. Внедрение передовых цифровых технологий было нацелено на повышение уровня наблюдаемости, снижения, потерь в электросетях, мониторинга затрат на производство и транспортировку энергии. Таким образом, цифровизация энергетического хозяйства страны позволила четко определить, на что расходится более 11 млрд кубометров газа и 22 млрд кВт электроэнергии, используемой в народном хозяйстве Азербайджана (3).

В рамках энергетической политики, проводимой руководством Азербайджана, в феврале 2023 года в Баку проводил консультативный совет по Южному газовому коридору и впервые в рамках этого совета состоялось 1-е заседание министров по зеленой энергетике. В мероприятии приняли участие еврокомиссар по вопросам энергетики Кадри Самсон, высокопоставленные представители Турции, Италии, США, Великобритании, Венгрии, Греции и других стран. Кроме того, были представлены энергетические компании, также как SOCAR, BP, BOTAŞ, TAHAP, Bulgargaz и др, а также финансовые структуры- Всемирный Банк, Международная финансовая корпорация, Европейский банк реконструкции и развития, Европейский инвестиционный банк, Азиатский банк инфраструктуры и инвестиций. Президент Азербайджанской Республики Ильхам Алиев, выступивший на заседании Консультативного совета, заявил: «Мир изменился. Вопросы энергетической безопасности приобрели все большую важность для каждой страны. В 2021 года экспорт природного газа из Азербайджана составил 19 млрд. кубометров, в 2022 году – 2,6 млрд, а в 2023 году мы ожидаем 24,5 млрд кубометров» (4).

Вопросы энергетического сотрудничества обсуждались во время официального визита Президента Румынии Клауса Йоханниса в Азербайджан. Отношения между двумя странами характеризовались активным политическим диалогом на самом высшим уровне и строились на основе стратегического партнерства, в котором важное место отводилось энергетической безопасности. Так, азербайджанская компания SOCAR имела в Румынии более 70 автозаправочных станций и несколько межтоплинных дело. В 2021 году был успешно реализован проект TAP, являвшийся заключительным сегментом Южного газового коридора и сделавший Азербайджан надежным энергетическим партнером для Европейского Союза. Во время встречи также обсуждались вопросы, связанные с зеленой энергетикой, стратегического проекта, требующего огромных инвестиций, проекта, связывающего несколько стран и два моря (5).

***Инвестиции в азербайджанскую энергетику.*** За годы независимости крупнейшим иностранным инвестором в Азербайджане стала Великобритания, причем общая часть инвестиций этой страны приходилась на энергетический сектор. Великобритания поддержала соглашение, подписанное Азербайджаном с Грузией, Венгрией, Румынией о строительстве подводного энергетического кабеля в Черном море. Она организовала визит Министра Энергетики Азербайджанской Республики Шахбазова на крупнейшую в мире подключенную к сети плавучую морскую ветроэлектростанцию в Северном море. В январе 2023 года с участием ведущих британских компаний была проведена конференция по переходу к зеленой энергетике, на которой состоялся обмен мнениями с азербайджанской стороной о развитии сектора чистой энергетикой в Азербайджане. Британские коллеги также организовали серию вебинаров по обмену опытом для Министерства Энергетики и других энергетических партнеров по вопросам ветроэнергетики, интеграции возобновляемых источников энергии в сети и зон энергетических инноваций. Компания Ofgem являющаяся регулятором энергетического рынка Великобритании, поделилась с Агентством по регулированию энергетики Азербайджана передовым опытом в области регулирования сетей, энергетических реформ и зеленых тарифов (6).

Экспорт «Зеленый энергии» лишь больше укрепил роль Азербайджана на энергетическом рынке Европы и предоставил стране возможность выйти на европейский рынок электроэнергии. В рамках Консультативного совета по Южному газовому коридору, проходившего в

феврале 2023 года, в Баку Министр Энергетики Азербайджанской Республики Парвиз Шахбазов и комиссар Европейского Союза по вопросам энергетики Кадри Симсон сделали совместное заявление для прессы. В сообщении говорилось: «Стратегическое партнерство служит общим целям по расширению сотрудничества в области долгосрочной энергетической безопасности, устойчивого развития, диверсификации поставок и повестки дня по переходу к «зеленой» энергетике…» Сопредседатели выразили поддержку расширению Южного газового коридора и уверенность в том, что он создаст потенциальный источник поставок для новых энергетических рынков. Министерская встреча, проводимая впервые в рамках Консультационного совета по «зеленой» энергии, представляет прекрасную возможность для стран-партнеров, финансовых институтов и компаний провести продуктивные обсуждения по расширению сотрудничества по «зеленой» повестке дня. Эта платформа внесет свой вклад в налаживание международных связей по «зеленой» энергетике и превращение Азербайджана в поставщика «зеленой» энергии на европейские рынки (7).

С 1995 года в энергетическом секторе Азербайджана успешно работала итальянская компания ENI. Она владела 5% долей в нефтепроводном консорциуме Баку-Тбилиси-Джейхан. ENI и ряд других итальянских компаний получили проекты поставок и услуг на сумму более 6 млрд евро для строительства Южного газового коридора. В свою очередь SOCAR и ее дочерние компании подписали ряд крупных контрактов с ведущими компаниями Италии в областях инжиниринга, строительства и технологий. На основе этих соглашений итальянские компании осуществляли проектные инженерно-строительные работы в области строительства и реконструкции нефтехимических и энергетических предприятий в Азербайджане (8).

Таким образом, как отмечал Президент Азербайджана Ильхам Алиев в своем выступлении в Самарканде на саммите глав государств-членов Шанхайской организации сотрудничества (ШОС). «Азербайджан смог заложить энергетический коридор протяженностью 3500 километров, соединив берега Каспия и Адриатики. Этот уникальный проект уже стимулирует интерес крупных игроков к Баку» (9).

***Развитие внутренней энергетики.*** Распоряжением Президента Азербайджанской Республики Ильхама Алиева от 25 октября 2022 года в Мингечевире на территории ТЭС «Азербайджан», являющийся крупнейшей теплоэлектростанцией на Южном Кавказе, создавалась новая электростанция производственной мощностью 1280 МВТ. С этой целью на новой электростанции будут установлены и газовые турбины, 4 генератора и производства итальянской компании Ansaido Eneugia, 4 утильных котла 44 трансформаторных блока производства китайской компании Dongfang Electric. Кроме того, планировалось дополнительно провести новую газовую линию высокого давления, построить газораспределительную станцию, систему охлаждения и очищения воды, создать системы управления и охраны, а также осуществить комплексные работы по расширению на 500 и 330 киловольтных подстанциях. Параллельно с этим для повышения общей эффективности новой станции модернизировались связанные с ней действующие паровне турбины 7-го и 8-го энергетического блоков ТЭС «Азербайджан». В газовых турбинах новой ЕЭС, отработанный газ путем утилизации превращал воду в газ, что позволит получать энергию без дополнительного расхода газа на паровых турбинах 7-го и 8-го блоков ТЭС «Азербайджан» Благодаря этому соединению общая мощность после завершения строительства составит 1880 МВТ, что позволит ежегодно экономить 0,8-1,2 млрд. кубметров газа, а также ежегодно производить 12,5 миллиарда киловатт-часов энергии. Общая стоимость станции, ввод в строй которой планировался в 2025 году, составляла 400 млн. долларов США, что было 3-4 раза меньше средств, выделяемых на такие проекты. Таким образом, экономились значительные денежные ресурсы и при относительно небольших затратах республика получала значительный энергетический потенциал. 60% средств предоставлялись за счет собственных ресурсов ОАО «Азерэнержи», а остальные 40% за счет кредитов, которые покрывались в течение достаточно быстрого периода времени. Церемония закладки крупнейшей ТЭС в Азербайджане состоялась 13 февраля 2023 года в столичном дворце «Голистан». Президент Азербайджанской Республики Ильхам Алиев в своем выступлении подчеркнул,

что новая ТЭС позволит удовлетворить растущие потребности в энергии не только в Азербайджане, но и в Европе в целом и расширить экспортные возможности страны (10).

В феврале 2023 года Президент Азербайджанской Республики Ильхам Алиев принял участие в Мюнхенской конференции по безопасности, что явилось ярким подтверждением и признанием ведущий роли Азербайджана в международной системе энергетической безопасности и обеспечения безопасности на Южном Кавказе. Инициативы и успешная политика Азербайджана по таким вопросам, как обеспечение и диверсификация энергетической безопасности и обеспечения безопасности на Южном Кавказе. Инициативы и успешная политика Азербайджана по таким вопросам, как обеспечение и диверсификация энергетической безопасности Европы, «зеленая» энергетика, открытие региональных коммуникаций, активно продвигаемая руководством Азербайджана мирная повестка дня на Южном Кавказе входили в круг интересов Мюнхенской конференции по безопасности 17 февраля 2023 года в рамках Мюнхенской конференции по безопасности состоялся круглый стол на тему: «Трубопроводные мечты: энергетическая безопасность будущего». Выступивший на заседании Президент Азербайджанской Республики Ильхам Алиев предложил расширить Южный газовый коридор с тем, чтобы в большой степени обеспечить энергобезопасность Европейского Континента Ильхам Алиев подчеркнул, что до 2027 года «планируется увеличить транспортировку газа по TAP с 11 миллиардов до 20 миллиардов куб метров, а по TANAP с 16 миллиардов до 31 млрд куб метров». Он отметил, что возобновляемая энергия играет особую роль в сотрудничестве между Азербайджаном и Европейским Союзом и в этой связи в стране началась реализация совместных проектов, были подписаны различные документы, связанные с производством электроэнергии до 25 гигаватт (11). Все это создаст условия не только для внутреннего потребления производимой в Азербайджане «зеленой энергии», но и даст возможность ее экспорта в Европу, что станет важным вкладом в энергобезопасности Европы в среднесрочной и долгосрочной перспективах.

***Заключение.*** Благодаря взвешенной и продуманной энергетической политике Азербайджанской республики укрепился экономический и политический потенциал страны, усилились позиции на внешнеполитической арене. Азербайджан продемонстрировал себя всему миру, как надежный поставщик энергоресурсов и гарант энергетической безопасности Европы. Таковы вкратце некоторые аспекты энергетической политики Азербайджанской Республики на современном этапе.

## ЛИТЕРАТУРА

1. «Бакинский рабочий», 2022, 19 июля
2. «Новое время», 2022, 19 июля
3. «Новое время», 2022, 19 июля
4. «Каспий» 2023, 4 февраля
5. «Каспий» 2023, 4 февраля
6. «Вышка», 2023, 3-9 февраля, №5, с.6
7. «Бакинский рабочий», 2023, 4 февраля
8. «Бакинский рабочий», 2022, 28 октября
9. «Бакинский рабочий», 2022, 20 сентября
10. «Ежедневные новости», 2023, 17 февраля, №07 (1602), с.4
11. «Бакинский рабочий», 2023, 18 февраля

**RAFİQ AXUNDOV**
*t.ü.f.d., Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti*

## MÜASIR MƏRHƏLƏDƏ AZƏRBAYCAN RESPUBLIKASININ ENERJİ SİYASƏTİ

Azərbaycan Respublikası rəhbərliyinin enerji sahəsində siyasəti dinamizm və ardıcıllıqla səciyyələnir. Azərbaycanda formalaşmış iqtisadi mühit birgə enerji layihələrinin həyata keçirilməsi üçün

əlverişli imkanlar yaradıb ki, bu da ölkə iqtisadiyyatının bütün əsas sahələrinin – enerji, ərzaq, maliyyə, nəqliyyat, rəqəmsal və yaşıl enerjinin təhlükəsizliyini təmin edib. Regional kommunikasiyaların açılması, Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsində iştirak Azərbaycan Respublikasının etibarlı tərəfdaş kimi beynəlxalq çəkisini və əhəmiyyətini artırmış, ölkə əhalisinin həyat səviyyəsinin yaxınlaşmasına öz töhfəsini vermişdir.

*Açar sözlər:* enerji, təhlükəsizlik, səmərəlilik, rəqəmsallaşma, investisiya.

**RAFIG AKHUNDOV**
*Phd in History, associate professor of UNEC*

## ENERGY POLICY OF THE REPUBLIC OF AZERBAIJAN AT THE MODERN STAGE (2022-2023)

The policy of the leadership of the Republic of Azerbaijan in the field of energy is characterized by dynamism and consistency. The economic environment formed in Azerbaijan created favorable opportunities for the implementation of joint energy projects, which ensured the security of all the main areas of the country`s economy-energy, food, financial, transport, digital and green energy. The opening of regional communications, participation in the diversification of the energy security of Europe, increased the international weight and importance of the Republic of Azerbaijan as a reliable partner and contributed to the improvement of the living standards of the country`s population.

*Keywords:* energy, security, efficiency, digitalization, investment.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Vəkil Həsənov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 327: 140.8**

**MEHRİBAN BABAZADƏ**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti*
**mehribanbabazade@mail.ru**

**CAVAD ƏFQANLI**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının magistrantı*
**javadafganli@gmail.com**

# ABŞ VƏ AVROPA İTTİFAQI DÜNYANIN BİPOLYAR ŞƏRAİTİNDƏ

*Məqalədə müəlliflər müasir beynəlxalq münasibətlərin aktual sahələrindən biri olan ABŞ və Avropa İttifaqı arasında münasibətlərin konkret nümunələri və problemlərini təhlil edirlər. Tədqiqatın məqsədi əməkdaşlığın əsas səbəblərini, onun mərhələlərini, bipolyar şəraitdə hər iki aktor arasında qarşılıqlı münasibətlərin inkişaf trendləri və ziddiyyətlərini müəyyən etməkdir. Müəlliflər faktiki materiallardan istifadə edərək və faktları uğurla müqayisə edərək, Amerikanın Avropa İttifaqına təsiri haqqında nəticə çıxarırlar.*

*Açar sözlər:* Avropa İttifaqı, bipolyar dünya, əməkdaşlıq, qarşılıqlı münasibətlər, trend, aktual, genişlənmə, təhlükəsizlik.

***Giriş.*** İkinci dünya müharibəsi geosiyasi boşluq yaradaraq başa çatdı. Qüvvələr balansı pozuldu, hərtərəfli sülh müqaviləsi kağız üzərində qaldı. Dünya iki ideoloji düşərgəyə bölündü. Müharibədən sonrakı dövr müharibənin sonuna qədər liderlər tərəfindən diqqətdən kənarda qalan nizamlanmaya nail olmaq üçün uzun və ağrılı mübarizəyə çevrildi. Potsdam konfransında müttəfiq dövlətlərin liderləri arasında son qarşıdurma daha da şiddətləndi, bunun praktiki nəticəsi isə Avropanı iki təsir dairəsinə ayıran prosesin başlanğıcı oldu, yəni müharibə illərində Amerika liderlərinin qarşısını almaq istədiyi ssenari reallaşmağa başladı.

1945-ci ilin sonunda yüksək rütbəli Amerika siyasətçiləri qarışıqlığa düşdülər. Potsdam və ondan sonra keçirilən xarici işlər nazirlərinin konfransları boşa çıxdı. Təsir sferaları doğuldu və onlar kommunizmin süqutu gələnə qədər dörd onillikdə mövcud olmağa məhkum edildi. ABŞ-ın rəhbərliyi altında Almaniyanın qərb işğal zonaları möhkəmləndi, Sovet İttifaqı isə Şərqi Avropa ölkələrini öz əlavələrinə çevirməyə başladı. Keçmiş "ox" bloku dövlətləri: İtaliya, Yaponiya və 1949-cu ildən sonra Almaniya Federativ Respublikası - tədricən Amerika Birləşmiş Ştatları ilə müttəfiqliyə meyl etdi. Eyni zamanda, SSRİ Qərbin konsolidasiya prosesinə mane olmaq üçün hər şeyi etdi [1].

Vaşinqtonun yüksək siyasi sferasında müzakirələr getdiyi bir vaxtda Rusiya üzrə ekspertlərdən biri, amerikalı diplomat Corc Kennanın tərtib etdiyi sənəd (fevral, 1946) ortaya çıxdı. Bu sənəd Sovet xarici siyasətini başa düşmək üçün bir növ konseptual əsas oldu. Bu, Vaşinqtonun dünyaya baxışını dəyişdirmək üçün nəzərdə tutulmuş nadir sənədlərdən biridir. C.Kennan israr edirdi ki, ABŞ Sovetlərin güzəştə getməməsində özünü günahlandırmamalıdır, belə ki, sovet xarici siyasətinin əsasları sovet sisteminin daxilindədir. O, sovet xarici siyasətinin kommunist ideoloji qeyrətinin və çar dövründən qalma uzunmüddətli ekspansionizmin birləşməsindən ibarət olduğunu təkid etdi [2, s.5-6].

Yeni yanaşmanın ilk sistemləşdirilmiş baxış 1946-cı ilin aprelin1-də ABŞ Dövlət Departamentinin Hökumətlə Əlaqələr Komitəsinə təqdim etdiyi memorandumda təcəssüm etdirildi. Dövlət Departamentinin rəsmisi F.Metyus tərəfindən yazılmış bu memorandum Kennanın əsasən fəlsəfi müşahidələrini operativ xarici siyasət planına çevirmək cəhdi idir. Bütün bu az-çox fərqli təşəbbüslərin nəticəsi, bir nəsildən çox müddət ərzində "çəkindirmə" siyasətinin müqəddəs kitabı kimi xidmət edən bir sənəd oldu. Müharibədən sonrakı Amerika düşüncəsinin müxtəlif istiqamətləri bir araya gətirildi və 1947-ci ilin iyulunda "Foreign A Fairs" jurnalında məqalə dərc olundu. Məqalənin müəllifi Dövlət Departamentinin siyasi planlaşdırma aparatının rəhbəri C.Kennan idi [3, s.44-45].

Sovet İttifaqına qarşı "çəkindirmə" siyasəti ilkin olaraq diplomatik baxımdan passiv olsa da, siyasi ideologiyada "güc mövqeyi" yaratmağa gələndə diqqətəlayiq yaradıcı qüvvələri canlandırdı.

Bu, ona görə baş verdi ki, "çəkindirmə" siyasəti əvvəlki nəsil amerikalıların iki ən mühüm sınaqlarından götürülmüş dərsləri və təsəvvürləri özündə cəmləşdirdi. "Yeni sövdələşmə" siyasi sabitliyə təhdidlərin ilk növbədə iqtisadi və siyasi gözləntilər ilə reallıq arasındakı uçurumdan qaynaqlandığı fikrinin düzgünlüyünü göstərdi və buna görə də Marşal Planı yarandı. İkinci dünya müharibəsi Amerikaya öyrətdi ki, təcavüzə qarşı ən yaxşı müdafiə dominant qüvvəyə malik olmaq və ondan istifadə etməyə hazır olmaqdır və beləliklə, Atlantik Paktı yarandı. Marşal planının məqsədi Avropaya iqtisadi cəhətdən ayağa qalxmaq imkanı vermək idi, Şimali Atlantika Paktı Təşkilatı (NATO) isə onun təhlükəsizliyinə cavabdeh idi.

NATO Amerikanın sülh dövründə ilk hərbi ittifaqı idi. Paktın yaradılması üçün təkan 1948-ci ilin fevralında Çexoslovakiyada kommunistlərin hakimiyyəti ələ keçirməsi oldu. Çexoslovakiya çevrilişinin qəddarlığı Sovetlərin başqa yerlərdə kommunistlərin zorakılıqla hakimiyyəti ələ keçirməsinə kömək etməklə, yeni kommunist hökumətini tanıyaraq və onu hərbi güclə dəstəkləməklə eyni cür ələ keçirmələri təşkil edə biləcəyi ilə bağlı qorxuları artırdı. Buna görə də, 1948-ci ilin aprelində bir sıra Avropa ölkələrin demokratik hökumətləri güc yolu ilə devirmək cəhdinə qarşı çıxmaq üçün nəzərdə tutulmuş müdafiə paktı olan Brüssel paktında birləşdilər. Lakin qüvvələr balansının bütün təhlilləri göstərdi ki, Qərbi Avropa Sovet hücumunu dəf etmək üçün kifayət qədər gücə malik deyildi. Beləliklə, Amerika Qərbi Avropanın müdafiəsi ilə bağlı olan Şimali Atlantika Paktı təşkilatı yarandı. NATO Amerikanın adi siyasətindən görünməmiş bir gedişdir: ABŞ və Kanada qoşunları NATO-nun beynəlxalq komandanlığı altında Avropa ordularına qoşuldular. Nəticə iki hərbi ittifaq arasında – NATO və sonradan, Varşava müqaviləsi təşkilatı - qarşıdurma və Mərkəzi Avropada demarkasiya iki təsir sferasının yaranması idi.

1940-cı illərdə C.Kennan 1949-cu ildə yaradılan NATO-dan az fərqlənən öz alternativini irəli sürdü. O, müəyyən müddətə, müvəqqəti olaraq, Avropanı "sakitləşdirmək" üçün "qantel" adlandırılan bir-birinə bağlı olan iki hərbi bloku, Qərbi Avropada Brüssel blokunu və Amerikada ABŞ-Kanada blokunu yaratmağı təklif etdi. Qərbi Avropanın aktiv şəkildə özünə kömək etməsi şərti ilə silahlanma, birgə strateji planlaşdırma və ehtiyac yaranarsa Vaşinqtonun hərbi qüvvələrlə köməyə gəlməyə hazır olması ilə bağlı olan iki blok. Corc Kennan o zaman vurğulamışdı ki, ABŞ-ın Avropaya birtərəfli zəmanəti həddən artıq məcburi hərbi ittifaqa girməkdən yaxşıdır. Onun planına görə, zəmanət Yunanıstan, Türkiyə və digər qeyri-Atlantik ölkələrə şamil edilməyəcəkdi [3, s.141; 8, s.23].

"Çəkindirmə" siyasəti qəti şəkildə konkret forma aldığından, üç müxtəlif ictimai düşüncə məktəbinin nümayəndələri tərəfindən tənqid edildi. Bunlardan birincisi, "realizm məktəbi"nin nümayəndəsi Uolter Lippman iddia edirdi ki, həddən artıq geosiyasi gərginlik, eyni zamanda Amerika resurslarını da tükəndirir. "Güc mövqeyi" təmin olunana qədər danışıqların təxirə salınmasına etiraz edən Uinston Çörçill, ikinci məktəbin tərəfdarlarının düşüncələrini ən parlaq şəkildə əks etdirirdi. Çörçil bəyan etdi ki, Qərbin mövqeyi bir daha heç vaxt "soyuq müharibə"nin əvvəlindəki kimi güclü olmayacaq və buna görə də onun danışıqlar aparmaq imkanları daha da pisləşəcək.

Lippman israr edirdi ki, "çəkindirmə" siyasəti Amerikanı, sözün mükəmməl mənasında dövlət olmayan bir çox ölkələri özündə birləşdirən Sovet imperiyasının getdikcə genişlənən xarici sərhədlərindən uzaq bir küncə sıxışdıracaq. Vətəndən uzaqda olan hərbi öhdəliklər isə Amerikanın qətiyyətini zəiflədəcək və onun təhlükəsizliyinə töhfə verməyəcək.

Lippman Amerikanın xarici siyasətini universal tətbiq olunan ümumi prinsiplərlə deyil, hər bir konkret situasiyanın yarandığı kimi birdəfəlik təhlilini rəhbər tutmağa çağırıb. Onun nöqteyi-nəzərindən Amerika siyasəti daha çox Avropada pozulmuş qüvvələr balansının bərpasına yönəlməlidir. "Çəkindirmə" siyasəti Avropanın qeyri-müəyyən müddətə bölünməsini nəzərdə tutur, Amerikanın əsl maraqları isə sovet hakimiyyətinin Avropa qitəsinin mərkəzində məskunlaşmasına imkan verməməkdən ibarətdir [6, s.61].

Çörçill üçün "güc mövqeyi" artıq var idi, Amerika liderləri üçün isə hələ yaradılmalı idi. Çörçill danışıqları gücün diplomatiyaya tabe etmək üsulu kimi düşünürdü. Amerika liderləri öz nüvə inhisarından hətta təhdid kimi istifadə etmək istəmirdilər. Çörçill Sovet təsir dairəsini daraltmaq istəyirdi, lakin onun əhatə dairəsini məhdudlaşdıraraq Sovet hakimiyyəti ilə birlikdə yaşamağa hazır idi.

Nəhayət, Amerikanın "çəkindirmə" siyasətinə qarşı ən səs-küylü və ən davamlı çağırış Lippmanın "realist məktəbin"dən və ya Amerikanın radikal düşüncəsini doğuran torpaqda kök salmış ənənədən irəli gəlmədi. Radikal tənqidçilər, məsələn F.Ruzveltin vitse-prezidenti, sonra isə H.Trumen administrasiyasında kənd təsərrüfatı və ticarət naziri olan Henri Uolles, "çəkindirmə" siyasətinin bütün aspektlərini tamamilə rədd etdilər.

Yeni radikalizm Amerikanın azadlıq çırağı kimi tarixi imicini bərpa etdi, lakin prosesdə özünə qarşı çevrildi. Amerika və Sovet hərəkətlərinin mənəvi ekvivalentliyinə nəzarət etmək bütün soyuq müharibə dövründə radikal tənqidin xüsusiyyətinə çevrildi. Uolles hesab edirdi ki, Amerikanın beynəlxalq məsuliyyəti ideyası özü güclə öyünmə nümunəsi idi. Uollesin fikrincə, Amerika birtərəfli müdaxilə hüququnu bütün dünyaya yaymamalıdır. Müdafiə yalnız BMT-nin razılığı ilə qanuniləşə bilərdi, iqtisadi yardım isə beynəlxalq qurumlar vasitəsilə göstərilməli idi [5, s.129]. Uollesin Amerikanın müharibədən sonrakı xarici siyasətinə dair radikal tənqidi 1940-cı illərdə çöksə də, onun təsis tezisləri millətin ruhuna sehrli şəkildə təsir etməyə davam edən Amerika idealizminin dərin cərəyanını əks etdirirdi.

"Çəkindirmə" nəzəriyyəsi öz mahiyyətinə görə müstəsna idi: həm ayıq, həm də idealist, sovet motivlərinin qiymətləndirilməsində dərin, lakin qənaətlərində təəccüblü mücərrəd idi. Bu doktrina ölkənin mütləq gücü anında formalaşsa da, Amerikanın nisbi zəifliyini təbliğ edirdi. Bütün bu keyfiyyətlərə malik olmaqla, "çəkindirmə" doktrinası Amerikanı qırx ildən çox mübarizəyə və nəticədə qələbəyə aparan ilham verən nəzəriyyə idi.

Berlin böhranı, demək olar ki, iyirmi il Avropa qitəsini bölən bölücü xəttdə birləşən iki təsir dairəsinin son formalaşmasını qeyd etdi. Prosesin birinci mərhələsində, yəni 1945-ci ildən 1948-ci ilə qədər İ.Stalin Şərqi Avropa ölkələrini satellit dövlətlərə çevirərək və bununla da Qərbi Avropanı təhdid edən Sovet təsir dairəsinin əsaslarını qoydu. İkinci mərhələdə, 1949-cu ildən 1959-cu ilə qədər demokratik dövlətlər buna cavab olaraq NATO-nu yaratdılar, işğal zonalarını Federativ Respublikada birləşdirərək, Qərbi Avropada inteqrasiya prosesinə başladılar.

Konsolidasiya dövründə hər bir düşərgə vaxtaşırı bir-birinin təsir dairəsinin sərhədlərini pozmağa cəhdlər edirdi - təbii ki, öz xeyrinə. Bütün bu planlar iflasa uğradı. Nəticə Avropada bipolyar sabitlik oldu. Berlin böhranı başa çatdıqdan dərhal sonra Böyük Britaniya, Fransa və Amerika Birləşmiş Ştatlarının liderləri birliyin gələcək xarakteri, nüvə silahlarının təbiəti və Avropa üçün perspektivləri ilə bağlı çox fərqli plan və proqnozlarını bir-biri ilə uzlaşdırmağa məcbur oldular.

Harold Makmillan ölkəsinin artıq dünyanın super dövləti olmadığının acı reallığını aydın dərk edən ilk Britaniya baş naziri idi. U.Çörçill Amerika və Sovet İttifaqı ilə bərabərhüquqlu davranırdı. 1950-ci illərin sonunda Britaniya artıq Avropaya hörmətli məsafədən və onu yalnız növbəti potensial tirandan xilas olmaq üçün vaxtaşırı öz silahlı qüvvələrinin göndərildiyi yer kimi görə bilməzdi. Makmillan müşahidəçi mövqeyindən əl çəkdi və Böyük Britaniyanın Avropa İqtisadi Birliyinə üzv olmasını istədi. Bununla belə, onun əsas narahatlığı Böyük Britaniya və Amerika Birləşmiş Ştatları arasında "xüsusi münasibətlərin" qorunub saxlanması və möhkəmləndirilməsi idi. Böyük Britaniya özünü sırf Avropa dövləti kimi qəbul etmirdi. Nəhayət, onu ən çox təhdid edən təhlükələr məhz Avropada yaranırdı və xilas Atlantik okeanının o tayından gəlirdi. Məhz Makmillanın dövründə Britaniyanın hökmranlıqdan təsirə keçməsi başa çatdı. O, Vaşinqtonla münasibətləri məharətlə quraraq Britaniya siyasətini Amerika siyasətinin əsas axınına gətirmək və Britaniyanın seçim dairəsini genişləndirmək qərarına gəldi. Makmillan heç vaxt fəlsəfi və ya konseptual mövzularda mübahisə etmədi və Amerika siyasətinin əsas istiqamətlərinə nadir hallarda açıq şəkildə etiraz etdi. O, səhnədə mərkəzi yeri Vaşinqtona asanlıqla buraxdı, lakin pərdə arxasından dramın gedişatına təsir göstərməyə çalışdı. Şarl de Qoll tez-tez özünü itaətsiz aparırdı və ona məhəl qoymamaq olduqca ağrılı olurdu. Makmillan isə Birləşmiş Ştatların Böyük Britaniyanın fikirlərini dəqiqləşdirməsini o qədər asanlaşdırdı ki, ona məhəl qoymamaq sadəcə olaraq ədəbsizlik olardı.

Fransa, təbii ki, tamamilə fərqli vəziyyətdə idi, çünki Amerikanın qərarları üzərində İngiltərə ilə eyni təsirə sahib olmaq üçün perspektivi yox idi. Buna görə də, Fransa de Qollun rəhbərliyi altında Atlantik əməkdaşlığın mahiyyəti ilə bağlı fəlsəfi sual qaldırdı ki, bütün bunları Avropada liderlik uğrunda rəqabətə, Amerikanı isə - Avropa diplomatiyasının tarixi üslubu ilə yenidən tanışlığa çevirdi [7, s.137].

Birləşmiş Ştatlar, İkinci dünya müharibəsi başa çatdıqdan sonra, dünyanı heç bir dövlətin bacarmadığı şəkildə idarə etdi: dünya mallarının və xidmətlərinin demək olar ki, üçdə birini istehsal etdi. Nüvə texnologiyasında böyük irəliləyişlə dəstəklənən Amerika istənilən rəqib və ya rəqiblərin birləşməsi üzərində böyük üstünlüyü qoruyub saxladı. Bir neçə onilliklər ərzində əlverişli şəraitin birləşməsi Amerika liderlərini viran olmuş, müvəqqəti olaraq gücsüz və buna görə də güzəştə meyilli bir Avropa davranışının iki əsr ərzində dünya işlərində dominant rol oynadığı dövrün Avropasından nə qədər fərqli olduğunu unutmağa vadar etmişdir. Sənaye inqilabına səbəb olan Avropa dinamizmini, millətin suverenliyi konsepsiyasını doğuran siyasi fəlsəfəni, üç əsr ərzində güclər balansının ən mürəkkəb sistemini təşkil etməyə imkan verən Avropa diplomatiya stilini xatırlamırdılar. Əvəzolunmaz Amerika köməyi ilə Avropa dirçəldikcə bəzi ənənəvi diplomatiya nümunələri, xüsusən də Rişelyenin dövründə xarici və daxili dövlət siyasətinin müasir ideyasının yarandığı Fransada yenidən dirçəlməli idi.

Fransanın milli maraqlarına birbaşa sədaqət de Qoll diplomatiyasının barışmaz üslubunu rəngləndirdi. Amerika liderləri tərəfdaşlıq prinsipini vurğuladıqları halda, de Qoll dövlətlərin milli təhlükəsizliyi müstəqil şəkildə təmin etmək vəzifəsini vurğulayırdı. Vaşinqton bu ümumi tapşırığı alyansın bütün üzvlərinə paylamaq istərdisə də, de Qoll əmin idi ki, belə bölgü Fransanı tabeçiliyin roluna endirəcək və onun özünə hörmət hissini məhv edəcək.

De Qollun müstəqillik ideyası nəzəri olaraq qalıb, bir sıra təkliflərlə əlaqələndirməsəydi, bunun praktiki nəticəsi Amerikanın Avropadakı rolunu zəiflənməsinin təhlükəsi olmazdı. Bunlardan birincisi, Amerikanın Avropada daimi mövcudluğuna etibar edilə bilməyəcəyi iddiası idi. Avropa özünü - Fransanın rəhbərliyi altında - gələcəyə müstəqil baxışa hazırlamalıdır. De Qoll belə çıxış yolunun üstünlük təşkil etdiyini iddia etməmiş, avtomatik fəaliyyət göstərən peyğəmbərlik xarakteri daşıyan belə bir proqnozun şərhinə biganə qalmış kimi görünürdü [4, s.25; 5, s.175].

Lakin Fransa ilə Amerika arasında milli fikir ayrılığı mərkəzində bir məsələ aktual idi: nüvə əsrində hərbi strategiyaya nəzarət. Burada Amerikanın inteqrasiya israrının və Fransanın muxtariyyət çağırışının heç bir ortaq nöqtəsi yox idi və fikir ayrılıqlarını aradan qaldırmaq üçün heç bir bufer yox idi. Nüvə silahlarının gücü misilsiz olduğu sübut olunduğundan, tarix nüvə strategiyasının formalaşdırılması üçün etibarlı analogiya təklif edə bilmədi. İstənilən siyasətçi üçün yeni texnologiyanın həm siyasətə, həm də strategiyaya təsirini qiymətləndirmək üçün gözləri bağlı uçuş olub; bu mövzuda nəticələr akademik, nəzəri xarakterli oldu, çünki heç bir empirik təcrübə və ya konkret məlumat yox idi.

Müharibədən sonrakı eranın ilk onilliyində nüvə monopoliyası sanki Amerikanın hər şeyə qadir olmaq arzularını reallığa çevirdi. Lakin 1950-ci illərin sonunda aydın oldu ki, nüvə fövqəldövlətlərindən hər hansı biri tezliklə digərinin başına heç bir əvvəlki cəmiyyətin təsəvvür edə bilmədiyi dağıdıcılıq səviyyəsini gətirə biləcək. Beləliklə, sivilizasiyanın özünü qoruması təhlükə altında idi [9, s.41].

Nüvə strategiyasına Amerika və Avropa yanaşmalarındakı fərq həll olunmaz dilemma yaratdı. Böyük Britaniya və Fransanın öz taleyinə təsir edən qərarlar üzərində müəyyən nəzarəti saxlamaq istəyi başa düşüləndir və onların tarixi təcrübəsinə uyğun idi. Lakin Amerikanın təcrid olunmuş müttəfiq təşəbbüsü ilə nüvə əsrinin dəhşətlərini aradan qaldırmağın qarşılıqlı olması ilə bağlı narahatlıqları da çox əsaslı idi. Şübhəsiz ki, ingilis və fransızların əlavə qərar qəbuletmə mərkəzləri yaratmaq əzmində olmalarında müəyyən ləyaqət var idi; müstəqil nüvə qüvvələrinin mövcudluğu nəzərə alınarsa, təcavüzkarın mövqeyi daha da mürəkkəbləşəcək. Dözümlü müharibə strategiyasına malik olmaq baxımından Amerikanın vahid nəzarətdə israr etməsi eyni dərəcədə məna kəsb edirdi. Hər bir tərəfin narahatlığının ziddiyyətli xarakteri barışığı istisna edirdi və xalqın görünməmiş şəraitdə və gözlənilməz təhlükələr qarşısında öz müqəddəratını təyin etmək cəhdini əks etdirirdi. Amerikanın dilemmaya cavabı onu “həll etməyə” çalışmaq oldu; de Qoll bunun həll olunmaz olduğuna inanaraq Fransanın müstəqilliyini möhkəmləndirməyə çalışırdı.

1962-ci il iyulun 4-də Con Kennedi Birləşmiş Ştatlar və Birləşmiş Avropanın qarşılıqlı asılılığı haqqında əzəmətli Bəyannaməni elan etdi. Siyasi və iqtisadi cəhətdən inteqrasiya olunmuş Avropa ABŞ-ın bərabərhüquqlu tərəfdaşına çevrilib, dünya liderinin yükünü və məsuliyyətlərini onlarla bölüşdü. Liberal Almaniya Milli Assambleyasının 1848-ci ildə toplaşdığı Frankfurt Paulskirchedəki

sonrakı çıxışında bu simvolik mövzunu daha da inkişaf etdirən Kennedi Atlantik tərəfdaşlığın perspektivlərini Avropaya inteqrasiya ilə birləşdirdi: “Yalnız vahid Avropa ittifaqın parçalanmasının qarşısını ala bilər. Yalnız belə bir Avropa okeanın hər iki tərəfində Atlantik gündəmində olan məsələlərin həllində tam qarşılıqlılığı təmin edə bilər. Yalnız belə bir Avropanın mövcudluğunda tam qarşılıqlı fədakarlıq, məsuliyyət bölgüsündə bərabərlik və bərabər səviyyədə fədakarlıq vermək mümkündür” [10, s.54].

Deməli, Amerika ilə münasibətləri isteğe bağlı etmək üçün əvvəlcə de Qollun düşündüyü yolun sonunda Amerika eyni zamanda bu yolu NATO-ya daha dolğun inteqrasiya vasitəsi hesab etdiyi halda, belə köhnə dost-opponentlər arasında əməkdaşlıq bir qədər Böyük Britaniya ilə Amerika arasındakı “xüsusi münasibətləri” xatırladır. “Soyuq müharibə” Amerikanın sülh dövrünü gözlədiyi vaxtda başladı və Amerikanın uzun sürən münaqişələrin yeni dövrünə hazırlaşdığı bir vaxtda sona çatdı. “Soyuq müharibə”dən sonrakı dünyada heç bir üstünlük təşkil edən ideoloji çağırış yoxdur.

***Nəticə.*** Demək olar ki, hər bir vəziyyətin özünəməxsus məzmunu var. İstisnaçılıq Amerikanın xarici siyasətinə ilham verdi və ABŞ-a “soyuq müharibə”də dözmək gücü verdi. Lakin XXI əsrin çoxqütblü dünyasında bu qüvvəni daha incə və ehtiyatla qəbul etmək lazım gələcək. “Soyuq müharibə”dən sonrakı dünyada Amerika idealizmi yeni mürəkkəblikləri aradan qaldırmaq üçün geosiyasi təhlilə ehtiyac duyacaq. Bu asan olmayacaq. Amerika nüvə monopoliyasına malik olduğu zaman dünyaya hökmranlıq etməkdən imtina etdi və hətta, məsələn, “soyuq müharibə” dövründə milli maraqlara əsaslanan diplomatiya aparanda belə, qüvvələr balansı anlayışına nifrət edirdi. XXI-ci əsrdə isə Amerika da digər xalqlar kimi qəddar zərurətlə, seçim çevikliyi və beynəlxalq münasibətlərin sabit prinsipləri arasında hərəkət etməyi öyrənməli olacaq.

## ƏDƏBİYYAT

1.Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi (1945-2002-ci illər). II hissə. Dərslik. Bakı: Adiloğlu, 2008, 343 s.
2.Mustafayeva S., Qurbanova Ş., Cavadova Z. ABŞ-ın xarici siyasəti (1945-2010-cu illər). Dərs vəsaiti. Bakı: BDU nəşriyyatı, 2011, 301 s.
3.Барановский В.Г. Западная Европа. Военно-политическая интеграция. М.: Международные отношения, 1988, 194 с.
4.Киссинджер Г. Нужна ли Америке внешняя политика? М.: Ладомир, 2002, 352 с.
5.Михеев В.С. Франция и европейская безопасность. М.: Наука,2013, 192 с.
6.Попова Е.И. Внешняя политика США в американской политологии. М.: Наука, 2007, 230 с.
7.Хантингтон С. Столкновение цивилизаций. М.: АСТ,2003, 603 с.
8.Bergsten F. America and Europe: Clash of the Titans/ Foreign Affairs, March-April, 2019, p.19-24.
9.Huntington S. The Lonely Superpower/ Foreign Affairs, March-April, 1999, p.39-43.
10.Wills G. Bully of the Free World/ Foreign Affairs, March-April, 2010, p.52-54.

**МЕХРИБАН БАБА-ЗАДЕ**
*доцент кафедры Международных отношений*
*Бакинского Государственного Университета*

**ДЖАВАД АФГАНЛЫ**
*магистрант кафедры Международных отношений*
*Бакинского Государственного Университета*

## США И ЕВРОПЕЙСКИЙ СОЮЗ В УСЛОВИЯХ БИПОЛЯРНОГО МИРА

В статье авторы анализируют конкретные примеры и проблемы взаимоотношений США и Европейского Союза, что, несомненно, является одним из актуальных направлений современных международных отношений. Целью исследования является выявление первопричин сотрудничества, его этапов, тенденций и противоречий в развитии

сотрудничества обоих акторов в биполярных условиях. Авторы, используя фактический материал и удачно сопоставляя факты, делают выводы относительно американского влияния на Европейский Союз.

*Ключевые слова*: Европейский Союз, биполярный мир, сотрудничество, взаимоотношения, тенденция, актуальный, экспансионизм, безопасность.

**MEHRIBAN BABAZADEH**
*Associate Professor of the Department International Relations of Baku State University*

**CAVAD AFQANLI**
*master of the Department International Relations of Baku State University*

## USA AND EUROPEAN UNION UNDER THE CONDITIONS OF THE BIPOLAR WORLD

The article considers the process of phased admission of the countries of Central and Eastern Europe to the European Union membership. The authors with specific examples examines the objective and subjective reasons for this phenomenon. The essence of the problem is that the indicated countries of this region differ sharply from each other in terms of their development, both in the field of relations and in the sphere of democracy.

*Keywords*: European Union, bipolar world, collaboration, mutual relations, tendency, actual, expansion, safety.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: s.e.d. Adil Mirabdullayev, t.e.d. Sevinc Yusifzadə.*

UOT 32:93/94

**XƏYYAM İSMAYILZADƏ**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər kafedrasının dosent əvəzi,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
**Ekonika22@yahoo.com**

# ABŞ – ÇXR MÜNASİBƏTLƏRİNİN TƏŞƏKKÜLÜNƏ DAİR

*Məqalədə müasir dünya siyasətində ABŞ və ÇXR münasibətlərinin hərtərəfli istiqamətləri göstərilir. Həm də XXI əsrdə ikitərəfli əlaqələrin dünya siyasətindəki rolu və dünya nizamına təsiri istiqamətində formalaşan problemlər və onların perspektivləri müzakirə obyekti kimi xarakterizə olunur. Hal-hazırda dövlətlər arasında ilk təmasın nə zaman formalaşması və bu münasibətlərin potensial xarakterdən real vəziyyətə gətirilməsi istiqamətində görülən işlərin geniş məzmunu da burada öz əksini tapmışdır.*

*Açar sözlər:* ABŞ, ÇXR, XXI əsr, II Dünya Müharibəsi, Homindan partiyası, Kommunist partiyası, Tayvan, soyuq müharibə, dünya siyasəti, , diplomatik əlaqələr, faydalı əməkdaşlıq.

***Giriş.*** ABŞ-Çin münasibətləri müasir dünya siyasətinin ən aktual və qlobal xarakterli mövzularından biridir. XXI əsrdə ikitərəfli əlaqələrin dünya siyasətindəki rolu daha çox əhəmiyyət kəsb etməyə başladı. Ölkələr arasında ilk təmas XVIII əsrin sonlarında ticarət əlaqələri ilə yarandı. 1912-ci ildə Çində sülalələr dövrü bitdikdən sonra müstəqil respublika quruldu. Millətçi Homindan partiyası təsis edildi. 1928-ci ildə ABŞ Homindanın elan etdiyi hökuməti rəsmi olaraq tanıdığını bəyan etdi. ABŞ həmin dövrdə yerli kommunist qüvvələrə qarşı mübarizə aparan rəsmi Çin hökumətinə dəstək verirdi. İkinci dünya müharibəsinin gedişatında Yaponiya Çinin bir hissəsini işğal edəndə də ABŞ Çinə kredit yardımları göstərərək onu müdafiə etmişdi. Müharibənin sonunda Çinin itirdiyi əraziləri özünə birləşdirməsi ilə birgə, homindan-kommunist qarşıdurması da şiddətli xarakter aldı. 1oktyabr 1949-cu ildə kommunistlərin lideri Mao Tszedun qələbə çaldıqlarını elan edərək Çin Xalq Respublikasının əsasını qoydu. Homindan üzvləri isə Tayvan adasına sığınaraq Çin Respublikasını elan etdilər.

Çində qapalı rejimin və anti-imperialist baxışın hakim olması ABŞ-la əlaqələrin qurulmasını bir qədər təxirə salırdı. 1971-ci ildə isə ilk təmaslar müşahidə olunmağa başladı və ABŞ ÇXR-i müstəqil dövlət kimi tanıdı. Burada ABŞ prezidenti R.Niksonun qəbul etdiyi doktrinanın müstəsna rolu var idi. Əlaqələrin yaxınlaşmasına SSRİ amili, iqtisadi əməkdaşlıq niyyətləri də öz töhfəsini vermişdi. 1979-cu ilə qədərki yaxınlaşma təmas xarakterli olub, diplomatik münasibətləri özündə ehtiva etmirdi. Bu tarixdən diplomatik əlaqələrin qurulması ilə ABŞ-Çin əlaqələri fərqli format almağa başladı. 1980-ci illər əlaqələrin yüksək dövrü kimi qiymətləndirilir. İki ölkə arasında ticarət əlaqələrinin inkişafı da məhz bu illərdən intensiv xarakter aldı. Xüsusilə, Den Syaopinin islahatçı və açıq qapı siyasəti ilə Çin iqtisadi sıçrayışa nail olmuşdu.

Soyuq müharibə erasının bitməsi münasibətlərdə durğunluğun yaşanması ilə paralellik təşkil edirdi. Bu ərəfədə Tiananmen meydanında baş verən etiraz və nümayişlərə kobud müdaxilə Çinin dünyadakı nüfuzuna xələl gətirdi. ABŞ-la münasibətlərə təsir edən amillərin başında bu hadisələr gəlirdi. Həmçinin, soyuq müharibənin bitməsi ilə Çinin strateji əhəmiyyəti azalmışdı. 1990-cı illərdə Çin regional yaxınlaşmaya önəm verərək yeni axtarışlar aparmaq və regional güc rolunu artırmağa çalışırdı.

Münasibətlərin soyuq olduğu doxsanıncı illərin əksinə, yeni əsrdə yaxınlaşma müşahidə olunmağa başlandı. 11 sentyabr hadisələrinin ardından dünya yeni münasibətlər mərhələsinə qədəm qoyarkən ABŞ-Çin münasibətlərindəki yaxınlaşma da bu mərhələyə öz töhfəsini verdi. Münasibətlərini bərpa edərkən hər iki ölkə terrorizm təhlükəsinə qarşı birgə çıxış edərək dialoq axtarışları və əməkdaşlıq niyyətlərini büruzə verdilər. Vaxtaşırı problemlər yaşamasına baxmayaraq hər iki tərəf daima sülh və suverenlik prinsiplərini əsas tutaraq faydalı əməkdaşlıq qurmağa və qarşılıqlı qazanc əldə etməyə çalışırlar.

Soyuq müharibə dövründə (1949-1991) ikitərəfli münasibətlərin qurulması və inkişafını xarakterizə etdikdə üç mərhələ ön plana çıxır ki, onların hər birinin özünəməxsus inkişaf xətləri mövcuddur: 1) ÇXR-in qurulmasından tanınmasına qədər olan əlaqələrdəki ilk mərhələ (1949-1969); 2) yaxınlaşma dövrü, tanınma və diplomatik əlaqələrin qurulmasına qədər olan mərhələ (1969-1979); 3) diplomatik əlaqələrin qurulmasından Tiananmen meydanı hadisələrinə qədər olan mərhələ (1979-1989).

Birinci mərhələ (1949-1969). İlk mərhələdə Çin daxili quruculuq işləri həyata keçirməklə iqtisadi zəmin yaratmağa çalışırdı. Mao Tszedunun iqtisadi, sosial və mədəni sahələrdə həyata keçirdiyi islahatlar bu dövrlə sinxronizasiya olunur. Beynəlxalq münasibətlərdə bu dövr Koreya müharibəsi (1950-53), Tayvan boğaz böhranları (1955, 1958), Hindistanla sərhəd münaqişəsi (1962), Vyetnam müharibəsinin başlaması (1965), Sovet Rusiyası ilə ideoloji fərqliliklərin meydana gəlməsi ilə müşaiyət olunur. Çində kommunistlərin hakim qüvvə olması onun daxili və xarici həyata baxışında ciddi dəyişikliklərə səbəb olmuş və ABŞ-a münasibətdə də bu baxışın təsirləri olmuşdur. Çinin ilk baş naziri Çou En Layın başçılığı ilə hökumət qurulsa da, ABŞ-a olan münasibətdə yaxınlaşma qeydə alınmamışdır. Vətəndaş müharibəsində ABŞ-ın millətçi Homindana dəstək verməsi və Mao Tszedunun daxilə yönələn inkişaf planları xarici mühitlə, eləcə də ABŞ-la əlaqələrin yaranmasında ciddi təşəbbüslərin olmadığını ortaya qoymuşdur. Mao Tszedun gələcəkdə baş verəcəkləri təxmin edirmiş kimi bir çıxışında: “ABŞ gələcəkdə bizimlə əlaqə qurmaq üçün öz kəşfiyyat agentlərini buraya göndərə bilər, hələlik isə Homindana dəstək verməklə müxalifəti bizə qarşı istifadə etməyə çalışır” deyə qeyd etmişdir [1, s.116]. Mao ABŞ-ı təhdid olaraq görürdü və düşmənə qarşı birləşmək üçün Sovet Rusiyası ilə birgə kommunizm ətrafında birləşməyə çalışırdı. Çin təkcə böyük dövlətlərlə yox, inkişaf etməkdə olan digər ölkələrlə də əlaqələr quracağını qeyd edirdi və beləcə xarici aləmə yanaşmada Sovet Rusiyası ilə fikir ayrılıqları meydana gəldi. ABŞ bir tərəfdən Çini sıxışdırmaq üçün SEATO (Cənub-Şərqi Asiya Müqaviləsi Təşkilatı) blokuna dəstək verir və bu regiondakı kommunist qüvvələri zəiflətməyə çalışırdı. Digər tərəfdən Çin isə qonşu ölkələrdəki kommunist hərəkatlara dəstək verir və onlarla əlaqələrini gücləndirirdi. Belə ideoloji və hərbi-siyasi qütbləşmə düşmənçiliyi daha da artırır, gərginliyin yumşalma ehtimalını azaldırdı. ABŞ-ÇXR əlaqələrini zəifdədən bir nüans da Koreya müharibəsinin başlaması oldu. Müharibənin qızışması ilə Çin və ABŞ fərqli koalisiyalarda yer aldı və aralarındakı düşmənçilik daha da dərinləşdi. Bu müharibə iki ölkə əlaqələrində 1970-ci illərə qədər irəliləyişin olmamasına gətirib çıxarmışdı. Müharibədən sonrakı dövrdə ABŞ Çinə sanksiyalar tətbiq edir, səyahət və ticarət qadağaları gətirən qanunlar qəbul edirdi [2, s.66]. Münasibətləri gərginləşdirən daha bir hadisə Tayvan boğazında yaranan siyasi-hərbi böhran idi. Maonun göstərişi ilə Çin artilleriyası Tayvan adasına bağlı bir adanı bombaladıqdan sonra ABŞ Tayvandakı hökuməti müdafiə edərək ona hərbi dəstək göndərdi [3, s.12]. Gedişatdan razı qalmayan Çin adanı yenidən bombaladı və gərginlik daha da artdı. Çin Tayvanla əlaqəli bütün məsələləri daxili məsələsi kimi qəbul edir və ABŞ-ı onun daxili işlərinə qarışmaqda günahlandırırdı. SSRİ də Çinin bu mövqeyindən narazı idi və Tayvan böhranının regionda daha böyük böhranlara yol açacağını vurğulayaraq məsləhətləşmə aparılmasını təklif etdi. Lakin Çin bir daha məsələnin onun daxili işi olduğunu təkrar edirdi. ABŞ qitə təmsilçisi ÇXR-i tanımır, əksinə Tayvandakı Çin Respublikasını (ÇR) tanıyaraq onun BMT-yə üzv olmasını dəstəkləyirdi. Nəticədə Çin Respublikası BMT-yə üzv olmaqla ilk mərhələdə iyirmidən çox dövlət tərəfindən tanındı. Tayvan boğazı böhranından sonra əlaqələrdə nisbətən yumşalma müşahidə edildi. 1955-ci ildə səfirliklər səviyyəsində ÇXR və ABŞ arasında görüş baş tutdu [3, s.14-15]. Tayvanın gələcəyi ilə bağlı optimist düşüncələrə yer verən ÇXR heyəti ABŞ tərəfindən səmimi qarşılanmadı və dövrün ABŞ dövlət katibi C.F.Dalles ÇXR Baş naziri Çou En Lay ilə əl sıxışmaqdan imtina edərək münasibətlərin minimum səviyyəsini qorumağa çalışdı. Bu dövrün səs-küy gətirən hadisələrindən biri şübhəsiz Vyetnam müharibəsi oldu. Sovet Rusiyası və Çin Şimali Vyetnamı, ABŞ isə Cənubi Vyetnamı dəstəkləməklə ənənəvi qarşıdurma formatı özünü göstərdi. Çin sərt bəyanatlarla çıxış edərək Vyetnam Demokratik Respublikasına edilən hücumları özünə edilən hücumlar kimi qiymətləndirmiş və bütün dünyanı ABŞ əleyhinə aparılan təbliğata dəstək verməyə çağırmışdır. Çin Koreya müharibəsində etdiyi səhvləri təkrarlamamaq üçün yeni müharibə strategiyaları düşünürdü. Müharibə 1950-ci illərdə yaranan vətəndaş müharibəsi olsa da, ABŞ-ın müdaxiləsi ilə beynəlxalq status aldı. Vyetnam Çinlə quru sərhədinə malik idi və ABŞ Şimali Vyetnamı bomba-

ladıqda Çin üçün təhlükə meydana gəlirdi. O çalışırdı ki, Şimali Vyetnamda ABŞ-la birbaşa qarşıdurmadan qaçsın və manevr edərək onun hədəfindən yayınsın. Çin şimalda Sovet Rusiyası ilə sərhəd münaqişəsi yaşadığından Sovet ordusunun onun cənub sərhədlərinə yaxın Vyetnamda vuruşmasından narahat idi [4, s.298]. ABŞ müharibə ərzində Vyetnamdakı əsgərlərinin onda birini itirmişdi. 1973-cü ildə sülh müqaviləsinin imzalanması və ABŞ dəstəyinin kəsilməsi ilə Cənubi Vyetnam məğlub oldu. Vahid Vyetnam Sosialist Respublikası yaradıldı. Çin 1964-cü ildə ilk atom sınağını həyata keçirməklə öz gücünü bütün dünyaya nümayiş etdirdi. Çinin əsas məqsədi iki il əvvəl baş verən sərhəd münaqişəsində Hindistana öz gücünü nümayiş etdirmək idi. Atom sınağının həyata keçirilməsində Sovetlərin də "payı" var idi. Çin-SSRİ münasibətlərinin geriləməsi də bu dövrə təsadüf edirdi. O, Sovetlə sərhəd rayonlarında ordunun sayını artırır və münaqişənin kəskinləşməsinə səbəb olurdu. Bu mərhələnin ən mühüm hadisələrindən olan proletar mədəni inqilabın (1966-76) həyata keçirilməsi Çin tarixində unudulmayan, qeyri-insani xarakterli izlər qoyur [1, s.120]. M.Tszedunun təşkil etdiyi Qızıl keşikçilər adlı təşkilat cəmiyyətdə islahedici işlər aparır, insanların burjua həyatından imtina etməsi üçün şiddət və radikalizm dolu fəaliyyətlər göstərirdi. İdarəçilərin kollektivizm ideologiyasını mənimsəməsi üçün onlar əkinçilik və fabrik işləri görməyə məcbur edilirdi. Bütün məktəb və universitetlər bir illiyə bağlanılır, insanlar ancaq Maonun yazdığı seçmə prinsiplərdən ibarət ideoloji kitabları oxuyaraq yeni dövrə adaptasiya olmağa məcbur edilirdilər. Terror və şiddətlə dolu bu prosesdə minlərlə insan öldürüldü və həbs edildi. Dövlət qurumlarındakı kadrların əksəriyyəti edam və ya xaric edildi. Hadisələrin nəzarətdən çıxdığını görən M.Tszedun 1968-ci ildə Qızıl keşikçiləri ləğv etdi. Mədəni İnqilabın birinci mərhələsinin sona çatması ilə ABŞ-la münasibətlərdə yeni yaxınlaşmalar meydana gəlməyə başladı.

İkinci mərhələ (1969-1979). Mədəni inqilabın şiddətlə dolu birinci mərhələsi sona çatdı və 1976-cı ildə Maonun ölməsi ilə tamamilə dayandı. Bu dövrdə imperializm əleyhinə şüarlar səsləndirilir və SSRİ-yə olan münasibətdə dərin fikir ayrılıqları meydana gəlirdi. 1969-cu ildən əlaqələrin yaxınlaşmasında ilk addımlar atıldı. Həmin dövrü beynəlxalq miqyasda dəyərləndirsək yaxınlaşmanın konyuktural səbəbləri var idi. Bunun xəbərdaredici siqnalları ilk dəfə ABŞ-dan gəldi. ABŞ-ın 1968-ci ildə Vyetnamdan çəkiləcəyi ilə bağlı açıqlamaları buna misaldır. Bu niyyətlərin rəsmiləşdirilməsi istiqamətində atılmış əsas addım özünü Nikson doktrinasında (1969) göstərirdi. Doktrinanın elan edilməsi ilə ABŞ Vyetnamdakı hərbi varlığını azaldacağını və Çinə yanaşmada fərqli siyasət izləyəcəyini qeyd edirdi [1, s.122]. ÇXR-ABŞ yaxınlaşmasının əsas səbəblərindən biri də Çinin Sovet Rusiyası ilə gərgin münasibətlər yaşaması idi. Əvvəl də qeyd etdiyimiz kimi iki ölkə arasında sərhəd münaqişəsi daha da qızışır və hər ikisi də sərhəd ərazilərində ordunun sayını artırırdı. 1970-ci ildə ABŞ-ın məşhur dövlət xadimi və prezidentin müşaviri Henri Kissincer Çini ziyarət etdi [2, s.5]. Kissincer həmin dövrdə bir çox ölkələrə səyahət edərək Niksona birbaşa məlumatlar ötürürdü. ABŞ xarici siyasətinin şəkilləndirici şəxslərindən olan Kissincerin Pekinə səfəri özündə xüsusi məqamlar daşıyırdı. Bununla ABŞ həm Sovet Rusiyasına mesaj verir, həm də Çinə yaxınlaşaraq SSRİ-nin geri planda qalmağını istəyirdi. Əsas nüanslardan biri SSRİ-nin nüvə yarışında fəal iştirak etməsi idi. ABŞ Çinlə yaxınlaşaraq bu fəaliyyətləri məhdudlaşdırmağa, SSRİ-nin nüvə siyasətinə maneələr yaratmağa çalışırdı. Kifayət qədər yaxşı düşünülmüş bu təzyiq siyasətinin nəticəsində SSRİ güzəştə getmək və ABŞ-la müqavilə imzalamaq məcburiyyətində qaldı. Beləcə, 1972-ci ildə strateji silahların məhudlaşdırılmasına dair birinci müqavilə imzalandı [5]. Çin bu yaxınlaşmadan zərər görəcəyi təhlükəsi ilə ABŞ-la əlaqələri intensivləşdirməyə qərar verdi. İkitərəfli əlaqələrin yaranmasında Pinpon və Panda diplomatiyalarının xüsusi rolu oldu. 1971-ci ildə Yaponiyada pinpon (stolüstü tennis) çempionatı keçirildi. M.Tszedun Çin yığmasını yarışa göndərmək istəməsə də, sonradan onu razı salmaq mümkün oldu. Çin yığmasına ABŞ komandası ilə salamlaşmamaq, dialoq yaratmamaq kimi qaydalar öyrədildi, ancaq proses istənilən kimi baş tutmadı. Mao ABŞ komandasını Pekinə dəvət etməli oldu. Dünya mediyasında sürətlə yayılan hadisəyə ÇXR baş naziri Çou En Lay diqqət çəkərək bu jestin ABŞ-Çin əlaqələrində bir başlanğıca səbəb olduğunu qeyd etmişdir. Münasibətlərin yaxınlaşması ilə Nikson hökuməti Çinə tətbiq olunan sanksiyaların aradan qaldırılması üçün hüquqi səylər göstərdi, ticarət və səyahət qadağaları ləğv olundu. H.Kissincerin səfəri və Pinpon diplomatiyası ilə hələ ki diplomatik münasibətlər səviyyəsində olmayan ABŞ-Çin əlaqələri yeni fazaya daxil oldu. Tayvandakı Çin Respublikası BMT üzvlüyündən çıxarıldı və Çin Xalq Respublikası bütün Çinin

təmsilçisi olaraq tanındı. 1972-ci ilin fevralında Nikson öz xanımı və rəsmi şəxslərlə birgə Çinə səfər etdi. Çin hökuməti tərəfindən Niksonun xanımına iki panda hədiyyə olundu. Panda Çin təbiətinə aid özünəməxsusuluğu ilə bilinir və yalnız xüsusi qonaqlara hədiyyə olunurdu. Niksonun səfəri zamanı siyasi, hərbi, diplomatik mövzular müzakirə edilmiş və 28 fevral 1972-ci ildə Şanxay müqaviləsi imzalanmışdır. Burada göstərilir ki, əlaqələrin normallaşması hər iki ölkənin maraqlarına cavab verir və onlar hərbi münaqişələrin azaldılması və regionda sülhün bərpa olunması üçün birgə səy göstərməyə niyyətlidir. Burada Asiya-Sakit regionunda hegemonluq uğrunda mübarizə də müzakirə olunan mövzular arasında idi. Münasibətlərin qurulması Tayvan kimi mübahisəli məsələlərin həlli ilə bağlı müzakirələrin aparılmasını qaçılmaz etmişdir. Niksonun səfəri ərzində dəfələrlə vurğulanmışdır ki, ÇXR Çinin yeganə təmsilçisi və Tayvan onun tərkib hissəsidir, Tayvanla bağlı hər hansı məsələ Çinin daxili işi hesab olunur. Bu səbəblə ABŞ Tayvanı tanımamalı və ona hərbi yardımları dayandırmalıdır. ABŞ Çinin bu tələblərini müsbət qarşılamış və Tayvan məsələsində güzəştə gedəcəyini nəzərə çatdırmışdır. 1976-cı ildə M.Tszedunun ölümündən sonra mədəni inqilab tam olaraq sona çatdı. Çində islahatçı və praqmatist siyasət izləyən Den Syaopinin hakimiyyətə gəldiyi dövrdə isə ABŞ-da Cimmi Karter prezident təyin edildi. D.Syaopinin iqtidara gəlməsi ilə Çin həyatında islahatçı və xarici aləmə açılma fikirləri rol oynamağa başladı. Çin kənd təsərüffatı, sənaye, elm və texnologiya sahələrində ciddi irəliləyişlərə imza ataraq "böyük iqtisadi sıçrayış"a nail oldu və yeni mərhələdə modernizasiya yolunu tutdu [1, s.125]. Marksizm-leninizm-maoizm fəlsəfəsinə sadiq qalmaqla sosial-iqtisadi və siyasi sferalarda islahatlar həyata keçirildi. Diplomatik əlaqələr bir müddət qurulmasa belə hər iki ölkə siyasi və hərbi mövzularda müzakirələr aparır, strateji partnyorluğun əhəmiyyətini qeyd edirdilər. Bu əməkdaşlıq xüsusilə SSRİ əleyhinə birgə çıxış etməkdə özünü göstərirdi.

Üçüncü mərhələ (1979-1989). 1972-79-cu illərdə iki ölkə arasında yaxınlıq və dost münasibətlər hakim olsa da, rəsmi diplomatik əlaqələr qurulmamışdı. 1 yanvar 1979-cu ildə diplomatik əlaqələrin yaranması ilə ABŞ öhdəsinə düşən bəzi məsələləri həyata keçirməyə başladı. Bir müddət sonra Den Syaopin ABŞ-a rəsmi səfər etmiş, iqtisadi əməkdaşlıq, regional və qlobal məsələlərə baxış ətrafında müzakirələr aparılmışdır. ABŞ rəsmi əlaqələr qurduqdan sonra Tayvanla əlaqələri qoparmamaq üçün qeyri-rəsmi yollara əl ataraq "Tayvanla əlaqələr haqqında qanun"un imzalanmasına nail oldu [6, s.22]. Bu qanun Tayvanla iqtisadi, hərbi və mədəni əlaqələr yaratmaq üçün hüquqi zəmin yaradır, həmçinin onun statusu ilə bağlı ziddiyyətli məqamlar doğuran nüanslar daşıyırdı. Qanun ABŞ-Çin əlaqələrində problemli məqamlardan biri olmaqla öz faktiki mövcudluğunu davam etdirir. 1982-ci ildə ABŞ və Çin arasında birgə bəyannamə imzalandı [1, s.126]. Bəyannaməyə görə, ABŞ Çinin daxili məsələsi olan Tayvana qarışmayacaq və ona silah yardımlarını azaldaraq minimuma endirəcəkdi. D.Syaopinin iqtisadi modernizasiya və dünyaya açılmaq siyasəti Çini xarici aləm ilə daha yaxın münasibətlər qurmağa vadar edirdi. Daxili siyasətdə sosializm prinsiplərini pozmadan modernizasiyanı dəstəkləyən, xarici siyasətdə isə anti-imperialist mövqelərini qoruyan Çin getdikcə daha da güclü mövqeyə gəlirdi. Daxili həyatda canlanma və islahatların aparılması ABŞ-la əlaqələrə də öz təsirini göstərməyə bilməzdi. Nəticədə ABŞ-la ticarət əlaqələri daha da genişlənmiş, qarşılıqlı müqavilələr imzalanmışdır. Həmçinin Çinin Tayvanla bağlı yaşadığı gərginliklər nisbətən səngimiş, Tayvanda yaşayanların Çinə səyahətinə icazə verilmişdir [1, s.127]. ABŞ-ın növbəti prezidenti Ronald Reyqan Çinə olan münasibətdə əməkdaşlığı dəstəkləyir və 1984-cü ildə buraya rəsmi səfər etmişdi [6, s.14]. Nüvə məsələləri də daxil olmaqla bir çox sahədə əməkdaşlığın həyata keçirilməsi müzakirə olunan əsas mövzular idi. Həm daxildə rifaha nail olan, həm də dünyaya açılmağa başlayan Çin üçün ABŞ-la əlaqələrdə ən məhsuldar dövr məhz 1982-89-cu illər hesab olunur. 1989-cu ildə baş verən Tiananmen meydanı hadisələri Çinin ABŞ-la və bir çox dünya ölkələri ilə münasibətlərinə ciddi zərərlər vurmuşdu. 15 aprel-4 iyun 1989-cu ildə cərəyan edən Tiananmen meydanı hadisələri beynəlxalq mediyada geniş əks-sədaya səbəb oldu. Çinin qərb dünyası ilə, xüsusilə ABŞ-la əlaqələrinə böyük zərbə vuruldu [1, s.128].

***Nəticə***. Ümumi götürdükdə bu gün ABŞ və ÇXR həm bir biriləri ilə rəqabətdədirlər, həm də bir çox məsələlərdə müttəfiqlik edirlər. Dünyada baş verən istənilən hadisəyə həm ABŞ, həm də ÇXR rəsmiləri milli maraqlara uyğun olaraq müxtəlif reaksiyalar verirlər. Təbii ki, burada hər iki dövlətin milli maraqları nəzərə alınmaqla ümumi baxışlar uzlaşdırılır. Bütün məsələlərdə eyni mövqe olmasa da, ən azı dünya nizamının sabit qalması və burada hökmranlığı təmin etmək üçün hər iki

dövlət bütün səylərini birləşdirməyə çalışır ki, bunun da həm görünən, həm də görünməyən tərəfləri vardır.

ƏDƏBİYYAT

1. Pekcan C.R. Çinin uluslararası sisteme bakışı ve ABD'ye yönelik dış politikası. İstanbul: Çanakkale, 2015, 236 s.
2. Ropp P.S. China in World History. New York: Oxford, 2010, 138 p.
3. Matsumoto H.I. The Taiwan Strait Crisis of 1954-55 and U.S-R.O.C. relations. New York: West, 2010, 155 p.
4. Armaoğlu F.O. Yirminci Yüzyıl Siyasi Tarihi. İstanbul: Alkım, 2013, 879s.
5. Hatice Karahan. ABD-Çin-Kuzey Kore Üçgeni / SETA, 7 Nisan 2017. - https://www.setav.org/abd-cin-kuzey-kore-ucgeni/
6. Shirley K.M., Mark H.L. US-China Nuclear Cooperation // Council on Foreign Relations. New York: Atlantic, 2007, 55-56 p.

**ХАЙЯМ ИСМАИЛЗАДЕ**
*Бакинский Государственный Университет,*
*Кафедра международных отношений, доктор философских наук, и.о. доцента*

## ОБ УСТАНОВЛЕНИИ АМЕРИКАНО-КИТАЙСКИХ ОТНОШЕНИЙ

В статье показаны комплексные направления отношений США и КНР в современной мировой политике. Также в XXI веке в качестве объекта обсуждения характеризуются проблемы, формирующиеся в направлении роли двусторонних отношений в мировой политике и их влияния на мироустройство и их перспективы. В настоящее время, когда образовался первый контакт между государствами и здесь находит свое отражение и широкое содержание проделанной работы в направлении приведения этих отношений из потенциального характера в реальное состояние.

*Ключевые слова*: США, КНР, XXI век, Вторая мировая война, Гоминданская партия, Коммунистическая партия, Тайвань, холодная война, мировая политика, дипломатические отношения, взаимовыгодное сотрудничество.

**KHAYYAM ISMAYILZADEH**
*Baku State University, Department of International Relations,*
*Doctor of Philosophy in Political Science, Acting Associate Professor*

## ON THE ESTABLISHMENT OF USA-PRC RELATIONS

The article shows the comprehensive directions of the relations between the United States and the PRC in modern world politics. Also, in the 21st century, the problems formed in the direction of the role of bilateral relations in world politics and their influence on the world order and their perspectives are characterized as the object of discussion. At present, when the first contact between the states was formed and the broad content of the work done in the direction of bringing these relations from a potential character to a real state is also reflected here.

*Keywords*: USA, PRC, XXI century, World War II, Homindan party, Communist party, Taiwan, cold war, world politics, diplomatic relations, beneficial cooperation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: s.e.f.d. Fərhad Hüseynov, s.e.d. Adil Mirabdullayev.*

**UOT 327.7; UOT 94(479.24)**

**ZAUR MƏMMƏDOV**
*Lənkəran Dövlət Universiteti, Tarix-coğrafiya və incəsənət fakültəsi,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**dr.z.i.mammadov@gmail.com**

# UNESCO-NUN 43-CÜ BAKI SESSİYASI

*2019-cu ilin iyun ayının 30-dan iyul ayının 10-dək Bakıda keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında dünyanın 180-dən artıq ölkəsindən 2500-ə yaxın nümayəndə iştirakı ilə Dünya İrsi Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçirilmişdi. Eyni zamanda, UNESCO-nun siyahısında olan və təhlükə ilə üzləşən 166 abidənin hazırkı vəziyyəti müzakirə olundu. On gün davam edən Bakı sessiyasında 29 nominasiya (24-ü mədəni, 4-ü təbii və 1-i qarışıq) UNESCO-nun siyahısına daxil edildi, 45 qərar qəbul olundu, bir fayl geri götürüldü. Bununla da UNESCO-nun Ümumdünya İrs Siyahısında yer alan mədəni irs nümunələrinin sayı 1121-ə çatdı.*

*İyulun 7-də UNESCO -nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında isə Azərbaycanın qədim irsi, zəngin mədəniyyəti, həmçinin beynəlxalq miqyasda nüfuzu üçün müstəsna önəm kəsb edən qərar qəbul olunmuş, Şəki şəhərinin tarixi mərkəzi Şəki Xan sarayı ilə birlikdə Ümumdünya İrs Siyahısına salınmışdır.*

*Açar sözlər*: UNESCO, Bakı, sessiya, irs, mədəniyyət, nominasiya.

***Giriş***. Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsi sahəsində fəal iştirakdır. Bu məqsədlə ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan etibarən UNESCO ilə sıx əməkdaşlıq münasibətləri qurmuş və təşkilatın fəaliyyətinə öz töhfələrini vermişdir.

Ümumdünya İrs Komitəsinin 24 iyun - 4 iyul 2018-ci il tarixlərində Bəhreyn Krallığının Manama şəhərində keçirilmiş 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən Azərbaycan Respublikası Komitəyə sədr seçilmiş və 2019-cu ildə Komitənin 43-cü sessiyasına ölkəmizin ev sahibliyi etməsi qərara alınmışdır.

Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESCO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Dövlət başçısı İlham Əliyev iyunun 30-dan iyulun 10-dək davam edəcək sessiyanın Bakıda layiqincə keçirilməsini təmin etmək məqsədilə müvafiq Sərəncam imzalanmışdır [11].

***Ümumdünya İrs Komitəsinə Azərbaycanın sədrliyi***. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən Azərbaycan 2019-cu ildə bu qurumun 43-cü sessiyasına ev sahibliyi etmək hüququ əldə etmişdir[1].

Ümumdünya İrs komitəsinin hazırki üzvləri Anqola, Avstraliya, Azərbaycan, Bəhreyn, Bosniya və Herseqovina, Braziliya Burkina Faso, Çin, Kuba, Qvatemala, Macarıstan, İndoneziya, Küveyt, Qırğızıstan, Norveç, Sen-Kits və Nevis, İspaniya, Tunis, Uqanda, Tanzaniya və Zimbabve dövlətləridir. Azərbaycan isə 2015-ci ildə Ümumdünya İrs komitəsinə üzv seçilmişdir [18].

Komitənin əsas funksiyaları üzv dövlətlər tərəfindən təqdim olunmuş nominasiyalar əsasında universal dəyərə malik mədəni və təbii irs abidələrinin müəyyən edilməsi və "Dünya İrsi Siyahısı"na daxil edilməsi, siyahıya daxil edilmiş abidələrin qorunmasına nəzarət, təhlükə altında olan abidələrin "Dünya İrsi Siyahısı"na daxil edilməsinə və ya həmin siyahıdan çıxarılacağına qərar vermək, eləcə də "Dünya İrs Fondu" tərəfindən maliyyələşən beynəlxalq yardım üçün olan müraciətləri nəzərdən keçirməkdir [3: 11].

UNESCO-nun baş direktoru xanım Odri Azulay 43-cü sessiyada iştirak etmək üçün ölkəmizə səfərə gəlmiş və 30 iyun tarixində ölkə başçısı İlham Əliyev Baş direktoru, onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdi. Görüşdə Azərbaycan ilə UNESCO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi [8].

Eyni gündə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri (2019-cu il) Mehriban Əliyeva xanım Odre Azule ilə görüşmüş, Azərbaycan ilə UNESCO arasında əməkdaşlığın bir çox sahələrdə - mədəniyyət, elm, təhsil və digər istiqamətlərdə çox uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı [10].

İyunun 30-da Bakıda UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası respublikamızın beynəlxalq arenada yüksək nüfuzunun təsdiqi olmaqla bərabər, Azərbaycanın tarixinin və müasir inkişaf səviyyəsinin, zəngin mədəniyyətinin, incəsənətinin dünyaya nümayişi üçün mühüm imkan yaratdı.

***Ümumdünya İrs Komitəsinin 43-cü Bakı prosesinin gedişatı***. İyunun 30-da Bakıda, Heydər Əliyev Mərkəzində UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva çıxış edərək iştirakçıları salamladı [12].

UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru xanım Mextild Rossler çıxışında plenar sessiyalarla yanaşı, paralel olaraq panel və büro sessiyaları da keçiriləcəyini qeyd etdi. Sessiyaya hazırlıqla bağlı bütün məlumatlar komitənin veb-saytında əks olunduğunu və onlayn rejimdə hər bir sessiyaya aid sənədi buradan əldə etmək mümkünlüyünü vurğuladı [5; 5].

Gündəliyə əsasən Ümumdünya İrs Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayla baxılması nəzərdə tutulmuşdu. Namizədliyi irəli sürülmüş faylların 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq (təbiət və mədəni) abidələr sırasına daxildir.

Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasının məruzəçisi Anna E. Zeichner (Macarstan) çıxış edərək ötən sessiya haqqında məlumat verdi və sessiyada 225 qərar qəbul edildiyini, onlardan 19-nun mədəniyyət nümunəsinin UNESCO-nun Ümumdünya İrs Siyahısına salındığını bildirdi [13].

Azərbaycanın UNESCO yanında daimi nümayəndəliyinin əməkdaşı (2019-cu il) Rəşad Baratlı hesabatla çıxış edərək görülən işlərdən və qarşıda duran vəzifələr haqda məlumat verdi. Sonra Norveç, Zimbabve, Tunis, Tanzaniya, Braziliya, Bosniya və Herseqovina, Koreya Respublikası, Fransa və digər ölkələri təmsil edən nümayəndələr çıxış edərək tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını ifadə etdilər. Sonra iştirakçı ölkələr tərəfindən Bakı Bəyannaməsi [5;5] qəbul edildi.

UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 2-də plenar iclasla öz işini davam etdirdi. Müzakirələr zamanı həmçinin Azərbaycanın təklif etdiyi "Nominasiya prosesində ilkin siyahıların hazırlanması, reaktiv monitorinqin aparılmasında effektiv və konstruktiv dialoqun qurulması" bəndi də hesabata əlavə edildi [9]. Plenar iclasda gündəlikdə yer alan əsas məsələlərdən biri - Dünya irs mülkiyyətinin konservasiyası vəziyyəti də müzakirə edildi.

Dini irsin qorunmasına həsr olunan iclasda dini dünyagörüşlərlə bağlı ən yaxşı təcrübələrdən söz açıldı. Dünyada tolerantlıq, mədəni dialoq və vicdan azadlığı kontekstində dini irsin əhəmiyyəti diqqətə çatdırıldı. UNESCO siyahısında yer alan dini abidələrin qorunmasının mövcud problemləri müzakirə edildi. İştirakçılar mövzu ilə bağlı öz təcrübələrini bölüşdülər.

Üzv ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilən növbəti iclasda isə büdcə məsələləri müzakirə edildi. İclasda 180 ölkənin mədəni irisin qorunmasına ayırdığı maliyyə fondu və xərcləri nəzərdən keçirildi, işçi qrupların hesabatları dinlənildi [5; 6].

***Dünya İrs Komitəsinin 43-cü sessiyasında müzakirə olunan məsələlər.*** İyulun 2-də günün ikinci yarısında ilk müzakirələrdə Tanzaniyada Su Elektrik Stansiyasının (SES) tikilməsi ilə əlaqədar ekoloji mühit üçün yaranacaq ciddi problemlərdən söz açıldı. SES-in tikildiyi ərazidə 491 min ha ərazidə ekoloji vəziyyət pisləşəcəyi qeyd edildi. Mövzu ətrafında İspaniya, Braziliya, Qvatemala, Kuba, Uqanda, Avstraliya, Qırğızıstan, Zimbabve və Təbiətin Mühafizəsi naminə Beynəlxalq Birliyin (İCUN) nümayəndələri çıxış edərək öz fikirlərini bildirdilər.

Keniyadakı Turkana gölünə dair qərar isə xüsusi müzakirə obyektinə çevrilmədi. Sonrakı müzakirə isə Liviyadakı antik Qadames şəhəri ilə bağlı idi. Çünki Liviya nümayəndəsi ölkəsi tərəfindən dağılmaq təhlükəsi ilə üzləşmiş Qadamesdə xeyli konservasiya işləri görüldüyü üçün bu şəhərin təhlükə ilə üzləşən abidələr siyahısından çıxarılmasını təklif etmişdi. Tunis nümayəndəsi də bu ölkədə siyasi qarşıdurmadan sonra Qadames şəhərində vəziyyətin xeyli yaxşılaşdığını təsdiqlədi. Küveyt

təmsilçisi təklif etdi ki, Liviya hökuməti UNESKO ekspertlərinin Qadamesə səfərini təmin etməlidir [6; 17].

Bitliem (Qüds şəhəri) kilsəsinin təhlükə gözləyən abidələr siyahısından çıxarılması ilə bağlı qeyd edildi ki, Dünya İrs Komitəsinin 39-cu sessiyasında dağılmaqda olan dini abidə kimi siyahıya salınan həmin memarlıq abidəsi artıq bərpa edilmişdir. Çıxışçılar Fələstini bu nailiyyət münasibətilə təbrik etdilər. Sonda bu kilsənin təhlükə ilə üzləşən abidələr siyahısından çıxarılması ilə bağlı qərar yekdilliklə qəbul edildi [7; 119].

Suriyanın qədim Dəməşq şəhərinin vəziyyəti müzakirə olundu və UNESCO-nun Təhlükə ilə üzləşən abidələr siyahısına daxil edilən Dəməşqin bu siyahıdan çıxarılması təklif edildi. Abidə və Tarixi Yerlərin Qorunması üzrə Beynəlxalq Şuranın (İCOMOS) təmsilçisi qeyd etdi ki, əgər kənardan heç bir təhlükə olmasa, Dəməşqdə konservasiya baxımından sabitlik yaranmışdır. Bir neçə üzv ölkənin də rəyləri nəzərə alınmaqla Dəməşqlə bağlı müzakirələr başa çatdı və müvafiq qərar qəbul edildi.

Çilidəki Hamberson və Santa-Laura məzarlığında konservasiya və bərpa işləri ilə bağlı görülmüş tədbirlər müzakirə edilərkən qeyd olundu ki, burada vəziyyət çox yaxşıdır. 2005-ci ildən bəri görülən işlər öz nəticəsini vermişdir. Bütün çıxışçılar Çilini bu uğur münasibətilə təbrik etdilər və qərar yekdilliklə qəbul edildi [7; 72].

İiyulun 3-də günün birinci yarısında Hindistan ilə Banqladeşin sərhədində yerləşən, dünyanın ən böyük manqrov meşəsi olan Sundarbanda elektrik stansiyasının tikintisinə dair müzakirələr aparıldı. Vurğulandı ki, Banqladeş hökumətinin apardığı bu tikinti ətraf mühitə və milli irsə böyük təhlükədir.

Vyetnamda Phong Nha Ke Bang milli parkı ilə bağlı məsələ də müzakirə edildi. Qeyd olundu ki, parkda tikinti işlərinin aparılması planlaşdırılır və bu ərazidə flora və faunaya mənfi təsir göstərə bilər. Milli parkın Ümumdünya İrs Komitəsi tərəfindən nəzarətə götürülməsi və buna qarşı addımlar atması təklif edildi. Üzv ölkələr Vyetnamın qabaqlayıcı tədbir görməsini müsbət qiymətləndirdi və təklifləri dinlənildikdən sonra uğun qərar qəbul olundu [7; 93].

Şimali Makedoniyadakı Oxrid gölü və onun ətrafında təbii-mədəni duruma olan təhdidlər geniş müzakirələr doğurdu. Bununla bağlı Dünya İrs Komitəsinin hazırladığı hesabat dinlənildi. Çıxış edən ölkələrin nümayəndələri Şimali Makedoniyaya vəziyyəti düzəltmək üçün daha bir müddət vaxt verilməsini təklif etdilər. Qeyd olundu ki, əgər Dünya İrs Komitəsinin tövsiyələri nəzərə alınmazsa, o zaman Oxrid gölü təhlükə ilə üzləşən obyektlər siyahısına daxil ediləcək [6; 192].

Sessiyada Tanzaniya və Tunisdəki unikal təbii mühitini və arxeoloji zonanın qorunması da müzakirə edildi. Maraq doğuran növbəti məsələ Qazaxıstandakı Xoca Əhməd Yasəvinin məqbərəsi ətrafında bufer zonanın vəziyyəti ilə bağlı oldu. Qırğızıstan və Azərbaycan nümayəndəlikləri Türküstan şəhərində görülən abadlıq işlərinin abidəyə heç bir zərər verməyəcəyini vurğuladılar və təkliflər qəbul edildi [6; 210].

Müzakirələr zamanı Latın Amerikası və Karib regionunun təbii irsi, Meksikanın Kaliforniya boğazında qorunan adaların flora və faunası, orada balıqçılıq fəaliyyəti, balina növlərinin azalması məsələləri diqqət mərkəzinə çəkildi. Təbiətin Mühafizəsi naminə Beynəlxalq Birliyin (IUCN) nümayəndəsi bu məsələ barədə Meksika ilə əməkdaşlığı davam etdiriləcəyini və bu ərazinin təhlükə altında olan ərazilər siyahıya salınması ilə bağlı təkliflərə baxılacağını diqqətə çatdırdı və problemlə bağlı müvafiq qərar qəbul edildi. Sonra Avropa və Şimali Amerika regionunda qədim meşə əraziləri, milli parklar və təbii sistemlərin müzakirələri, Keniya ərazisində Turkana milli qoruğunun UNESCO-nun müvafiq siyahısına salınması ilə bağlı müzakirələr aparıldı [7; 91].

İyulun 4-də Sessiyada Nepalın Katmandu vadisində yerləşən mədəni irs abidələrinin vəziyyəti haqqında hesabat dinlənildi. Çin, İndoneziya, Tunis, Zimbabve, Küveyt və digər ölkələrin nümayəndələri çıxış edərək Katmandu vadisindəki abidələrin vəziyyəti barədə fikirlərini bildirdilər. Qeyd olundu ki, 2015-ci ildə Nepalda baş verən güclü zəlzələ zamanı ölkədə tarixi abidələrə xeyli ziyan dəymiş və onlar dağılmaq təhlükəsi ilə üzləşmişlər.

40-a yaxın maddi irs abidəsi olan Katmandu vadisi təhlükəli vəziyyətdə olan abidələr siyahısına daxil edilməsi məsələsi təxirə salındı və Nepal hökumətinə qeyd olunan çatışmazlıqların aradan qaldırılması ilə bağlı əlavə bir il vaxt verildi [7; 227-228].

Müzakirələrdən sonra təqdim olunan nominasiyaların Dünya İrsi Siyahısına qəbul olunması prosesinə başlanıldı. İlk olaraq təbiət, sonra qarışıq, ən sonda isə mədəni nominasiyalar siyahıya salındı.

***Dünya mədəniyyəti nümunələrinin qorunması məqsədilə onların UNESCO-nun irs siyahısına daxil edilməsi.*** Çinin təqdim etdiyi nominasiya - Sarı dənizin sahilində Bohai boğazında, miqrasiya edən köçəri quşların təbii sahəsinin Dünya İrsi Siyahısına salınması məsələsinə baxıldı. Bu nominasiyanı 18 ölkə dəstəklədi və Çin və Koreya yarımadası arasında yerləşən bu dəniz sahilində miqrasiya edən köçəri quşların təbii sahəsi Dünya İrs Siyahısına salındı[6; 210]. Qeyd edək ki, 43-cü Bakı sessiyasında Dünya İrs Siyahısına salınan ilk nominasiyadır.

İran İslam Respublikasının təqdim etdiyi Hirkan meşələri ilə bağlı nominasiya müzakirə olunmuş və İran tərəfinin təqdim etdiyi fayl Dünya İrs Siyahısına daxil edilmiş və yaxın gələcəkdə Azərbaycan da bu nominasiyaya qoşulacağı qeyd olundu.

Tailandın irəli sürdüyü Ken Kraçan Milli Parkı ilə bağlı fayla baxıldı və gərgin keçən müzakirələrdə bu faylla bağlı iradlar qeyd edilmiş və üzv ölkələrin nümayəndələrindən ibarət işçi qrup yaradıldı [4].

Yaponiyanın Xarici İşlər naziri Taro Kono Osaka prefekturasındakı Mozu-Furuiçi qədim qəbiristanlıq təpələrinin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi ilə əlaqədar bəyanatla çıxış etdi.

Bakı Konqres Mərkəzində iyulun 7-də keçirilən növbəti iclasında Şəkinin Xan Sarayı ilə birgə şəhərin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı fayla baxıldı.

ICOM-un hesabatı dinlənildikdən sonra müzakirələrə başlanıldı. Qeyd edək ki, 2017-ci ildə Polşanın Krakov şəhərində keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 41-ci sessiyasında ölkəmiz tərəfindən təqdim edilən "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiya müzakirə olunmuşdur [2; 216].

İtaliya nümayəndələri ölkənin Konelyano və Valdobbyadene bölgələrindəki Prosekko təpələri ilə bağlı nominasiya oldu. Nominasiyaya dair ICOMOS nümayəndəsinin hesabatında deyildi ki, bu mədəni relyefdə XIX əsrdən bəri heç bir sənaye obyekti inşa edilməmiş, buradakı üzüm bağlarında bütün kultivasiya işləri mexaniki qaydada aparırlır. Ötən sessiyada verilən tövsiyələr nəzərə alınaraq, qorunan sahə 90 min hektara çatmışdır. Görülən tədbirlər əsas verir ki, nominasiya Ümumdünya İrs Siyahısına daxil edilsin.

ICOMOS tərəfindən hazırlanmış hesabat dinlənildi. Vurğulandı ki, məşhur memar Frenk Lloyd Raytın "orqanik memarlıq" üslubu nəinki ABŞ-da, dünya miqyasında memarlığa öz təsirini göstərib və qısa müzakirədən sonra layihə düzəlişsiz qəbul edildi [7; 292].

Yamaykanın su altında qalmış Port Royal şəhəri ilə bağlı nominasiyası təkrar müzakirə olundu. 17-ci əsrdə salınmış şəhərin bir neçə il öncə təbii fəlakət nəticəsində su altında qalmış hissəsinin Ümumdünya İrs Siyahısına salınması təklif olundu. Müzakirələr zamanı çıxış edən Karib dənizi hövzəsi ölkələrinin nümayəndələri nominasiyanın təxirə salınması ilə bağlı fikirlərini bildirdilər. Yamayka heyəti ICOMOS-un mövqeyi ilə razılaşdığı üçün nominasiya təxirə salındı [6; 296].

Tədbirdə sonuncu məsələ Panamanın tarixi rayonu – Amerika qitəsində Sakit okean sahilində Avropa tipli ilk şəhər olan Panama Vyexo şəhərin xarabalıqları ilə bağı nominasiyası oldu. ICOMOS üzv dövlətin bu nominasiyanı hərtərəfli əsaslandırıb növbəti sessiyaların gündəliyinə salınmasını tövsiyə etdi. Geniş müzakirə yaranmadığı üçün qərar layihəsi qəbul edildi.

Əsas nominasiyalar üzrə müzakirələr bitdikdən sonra işçi qruplarının siyahıda olan nominasiyaları üzrə xırda düzəlişlərə dair qərarları nəzərdən keçirilirdi. Tailand və Myanmanın vahid ekoloji sistemindəki Kenq Kraçan meşələri bağlı bir sıra məqamlar iki ölkə arasında və işçi qrupunda razılaşdırılaraq müvafiq qərar qəbul edildi. Daha sonra Ümumdünya İrs siyahısına daxil edilmiş nominasiyaların hüdudları ilə əlaqədar 13 kiçik dəyişiklik və düzəliş qəbul edildi [6; 215].

İyulun 8-də günün ikinci yarısında Asiya, Afrika, ərəb dövlətləri qrupu, Karib dənizi ölkələri, Avropa və Şimali Amerika üzrə hesabatların dinlənilməsi oldu. İlk hesabatı Çin, sonra Afrika və ərəb dövlətləri qrupunun hesabatları dinlənildi və iradsız qəbul edildi. Karib və Latın Amerikası ölkələri

üzrə məruzədə regionda baş vermiş təbii fəlakətlərin nəticələri öyrənilmiş, mədəni risk qrupuna daxil olan məkanlar nəzərdən keçirilmişdi [7; 229-232].

İyulun 9-da Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası plenar iclasda Ümumdünya İrs Siyahısında olan Ekvadorun Qalapaqos milli parkı, Qvatemalanın Antiqua xristian dini məbədi, Nigeriyanın Aqades tarixi mərkəzi, Seyşel Adalarında yerləşən Valle-de-Mo təbii qoruğunun bərpası və konservasiyası, idarə olunması ilə bağlı beynəlxalq yardımın artırılmasının vacibliyi vurğulanmış, sonra maliyyə və inzibati məsələlər müzakirə olundu [7; 623].

İclasın sonunda 2020-ci ildə Ümumdünya İrs Komitəsinin 44-cü sessiyasına Çin Xalq Respublikasının sədrlik edəcəyi və sessiyanın Fuçjou şəhərində keçiriləcəyi bildirildi [6; 343].

Çin nümayəndə heyəti bu etimada görə minnətdarlığını bildirdi və Fuçjou şəhərinin tanışlıq video çarxı nümayiş etdirildi. Bununla da UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işçi iclaslarını başa çatdırdı.

***Nəticə.*** 30 iyun – 10 iyul tarixlərində UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçən 43-cü sessiyası uğurla yekunlaşdı və ölkəmizin beynəlxalq arenada mədəniyyət sahəsində uğurlu addımlara imza atmasının bariz göstəricilərindəndir.

İyulun 7-də 43-cü sessiyada ölkəmiz üçün daha mühüm qərar - Azərbaycanın qədim irsi, zəngin mədəniyyəti, həmçinin beynəlxalq miqyasda nüfuzu üçün müstəsna önəm kəsb edən Şəki şəhərinin tarixi mərkəzi Şəki Xan sarayı ilə birlikdə Ümumdünya İrs Siyahısına salınması dövlət mədəniyyət siyasətinin uğurudur və bu, Azərbaycanın dünya xəzinəsində yer alan üçüncü mədəni irs məkanıdır.

Ümumilikdə 2019-cu ilin iyun ayının 30-dan iyul ayının 10-dək keçirilən 43-cü sessiyasında Dünya İrsi Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçirildi. Eyni zamanda, UNESCO-nun siyahısında olan və təhlükə ilə üzləşən 166 abidənin hazırkı vəziyyəti müzakirə olundu. On gün davam edən Bakı sessiyasında 29 nominasiya (24-ü mədəni, 4-ü təbii və 1-i qarışıq) UNESCO-nun siyahısına daxil edildi, 45 qərar qəbul olundu, bir fayl geri götürüldü. Bununla da Ümumdünya İrs Siyahısında yer alan mədəni irs nümunələrinin sayı 1121-ə çatdı.

## ƏDƏBİYYAT

1. Mirzəbəyli İttifaq. (3 iyul 2019). Şərqlə Qərbin qovuşduğu Bakı UNESKO tədbirinə evsahibliyi edir. Xalq qəzeti- S. 1-2
2. Məmmədov Zaur (18 Dekabr 2020) YUNESKO-nun 43-cü Bakı sessiyası. Lənkəran Dövlət Universiteti, İnformasiya, Elm və Texnologiya mövzusunda Doktorantların və Gənc Tədqiqatçıların Onlayn Respublika Elmi Konfransı
3. Christiaan De Beukelaer and Thuy Tran.( 27 october 2022) Between cultural trade and cultural development: examining the first decade of UNESCO's International Fund for Cultural Diversity, Cultural Trends.
4. Majhoshev Darko. (2019) UNESCO's Role In The Protection Of Natural And Cultural Heritage: A Case Study Of The Ohrid Region, Second International Scientific Conference Challenges of Tourism and Business Logistics In The 21st Century. North Macedonia "ISCTBL 2019"
5. Marcinkowska Magdalena. (2019) 43.rd Session of World Hertiage Committee Baku, 30 June-10 July 2019, Santander Art & Culture L. Rev. 274 (2019)
6. WHC/19/43.COM/18. (23 July 2019) Original: English / French (Convention Concerning The Protection Of The World Cultural And Natural Heritage Summary Record) Paris.
7. WHC/19/43.COM/INF. (2019) Original: English / French (Decisions adopted during the 43rd session of the World Heritage Committee) Baku.
8. Prezident İlham Əliyev UNESKO-nun Baş direktoru Odri Azulayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. - https://culture.gov.az/az/umumi-xeberler/9922 [Müraciət tarixi: 22.01.2023].
9. Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası davam edir / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi https://culture.gov.az/az/umumi-xeberler/9946 [Müraciət tarixi: 22.01.2023].

10. UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası / Mehriban Əliyeva https://mehriban-aliyeva.az/news/node/847951 [Müraciət tarixi: 22.01.2023].
11. Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı / Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev https://president.az/az/articles/view/32849 [Müraciət tarixi: 22.01.2023].
12. Birinci vitse-prezident Mehriban Əliyeva UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində iştirak edib / Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev https://president.az/az/articles/view/33702 [Müraciət tarixi: 22.01.2023].
13. Decision 12 EXT.COM 3 Elections of the Bureau of the World Heritage Committee / UNESCO https://whc.unesco.org/en/decisions/7621/ [Müraciət tarixi: 22.01.2023].
14. Nine countries elected to the World Heritage Committee / IUCN https://www.iucn.org/content/nine-countries-elected-world-heritage-committee [Müraciət tarixi: 22.01.2023].

**ЗАУР МАМЕДОВ**
*Кандидат исторических наук,*
*доцент Ленкоранского государственного университета*
*Факультет истории, географии и искусства*

## 43-Я СЕССИЯ ЮНЕСКО В БАКУ

43-я сессия Комитета всемирного наследия ЮНЕСКО, завершившаяся 10 июля в Баку, прошла для нашей страны успешно. В завершение мероприятия Председатель Сессии и гости (делегации Туниса, Анголы, Кубы, Буркина-Фасо, Кыргызстана, Испании, Бразилии, Уганды, Индонезии, Венгрии, Гватемалы, Бахрейна, Австралии, Зимбабве поблагодарили -вы речь) что в Баку обсуждались очень важные вопросы и принимались важные решения. он подчеркнул, что это было принято. Китайская делегация завершила свою благодарственную речь призывом «Добро пожаловать в Фучжоу, где в 2020 году пройдет 44-я сессия Комитета всемирного наследия!»

7 июля на прошедшей в Баку 43-й сессии Комитета всемирного наследия ЮНЕСКО было принято решение, имеющее исключительное значение для древнего наследия Азербайджана, богатой культуры, а также его репутации в международном масштабе, и исторический центр города Шеки, наряду с дворцом Шекинского хана, был включен в Список всемирного наследия. Следует отметить, что после включения Старого города вместе с Девичьим замком и Дворцом Ширваншахов в 2000 году и наскальных рисунков Гобустана в 2007 году, это третий объект культурного наследия Азербайджана, включенный в мировую сокровищницу.

Всего на 43-й сессии, проходившей с 30 июня по 10 июля 2019 г., с участием около 2500 представителей из более чем 180 стран мира было рассмотрено 36 файлов-кандидатов, представленных государствами-членами для включения в Список всемирного наследия в Бакинская сессия. было проведено. В то же время обсуждалось текущее положение 166 памятников, находящихся в списке ЮНЕСКО и находящихся в опасности. В ходе десятидневной Бакинской сессии в список ЮНЕСКО были включены 29 номинаций (24 культурные, 4 природные и 1 смешанная), принято 45 решений и отозвано одно дело. При этом количество объектов культурного наследия, включенных в Список всемирного наследия ЮНЕСКО, достигло 1121. В итоге было принято решение, что Китайская Народная Республика будет председательствовать на 44-й сессии Комитета всемирного наследия в 2020 г., и сессия пройдет в Фучжоу.

*Ключевые слова*: ЮНЕСКО, Баку, сессия, наследие, культура, номинация.

**ZAUR MAMMADOV**
*PhD in history, associate professor of*
*Lankaran State University, Faculty of History, Geography and Art*

## 43rd BAKU SESSION OF UNESCO

The 43rd session of the UNESCO World Heritage Committee, which ended in Baku on July 10, was successful for our country. At the end of the event, the Chairman of the Session and the guests (the delegations of Tunisia, Angola, Cuba, Burkina Faso, Kyrgyzstan, Spain, Brazil, Uganda, Indonesia, Hungary, Guatemala, Bahrain, Australia, Zimbabwe gave a thank-you speech) that very important issues were discussed in Baku, and important decisions were made. he emphasized that it was accepted. The Chinese delegation ended its speech of gratitude with the call "Welcome to Fuzhou, which will host the 44th session of the World Heritage Committee in 2020!"

On July 7, at the 43rd session of the UNESCO World Heritage Committee held in Baku, a decision of exceptional importance for Azerbaijan's ancient heritage, rich culture, as well as its reputation on the international scale was made, and the historical center of the city of Sheki, along with the palace of Sheki Khan, was included in the World Heritage List. It should be noted that after the inclusion of the Old City together with the Maiden's Castle and the Shirvanshahs Palace in 2000, and the Gobustan rock paintings in 2007, this is the third cultural heritage site of Azerbaijan included in the world treasure.

In total, in the 43rd session held from June 30 to July 10, 2019, with the participation of about 2,500 representatives from more than 180 countries of the world, 36 candidate files submitted by member states for inclusion in the World Heritage List were reviewed in the Baku session. was held. At the same time, the current situation of 166 monuments on the UNESCO list and facing danger was discussed. During the ten-day Baku session, 29 nominations (24 cultural, 4 natural and 1 mixed) were included in the UNESCO list, 45 decisions were made, and one file was withdrawn. With this, the number of cultural heritage examples included in UNESCO's World Heritage List reached 1121. In the end, it was decided that the People's Republic of China will chair the 44th session of the World Heritage Committee in 2020 and the session will be held in Fuzhou.

*Keywords*: UNESCO, Baku, session, heritage, culture, nomination.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Müşfiq Bayramov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94(479.24)**

**GÜNEL ASLANLI**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*böyük elmi işçisi, T.ü.f.d.*
**g.aslanli-85@mail.ru**

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONALARINDA İDMANIN İNKİŞAFINA DAİR

*Azərbaycan Respublikasında sosial və mədəni həyatın prioritet sahələrindən biri olan bədən tərbiyəsi və idmanın inkişafı dövlətin regional siyasətilə sıx bağlıdır. Azərbaycanda regional idmanın başlıca vəzifələri – idmanın kütləviləşdirilməsi, idman turizminin inkişafı, regionda yaşayan gənclərin məşğulluq probleminin həllidir.*

*Hazırda Azərbaycanın regionlarında bədən tərbiyəsi və idmanla məşğul olmaq üçün bütün şərait yaradılmışdır, respublikanın müxtəlif şəhərlərində əhalinin idman obyektləri ilə təminatının səviyyəsi yüksəldilmişdir.*

*Açar sözlər:* idman siyasəti, gənclər siyasəti, regional idman, idman turizmi, kütləvi idman.

***Giriş***. Müasir Azərbaycan Respublikasında sosial və mədəni həyatın ən dinamik inkişaf edən sahələrindən biri bədən tərbiyəsi və idmandır ki, bu da bir neçə amillə şərtlənmişdir. Birinci amil idmanın ilkin funksiyası ilə bağlıdır: məlumdur ki, bədən tərbiyəsi (fiziki tərbiyə) şəxsiyyətin kamilləşməsinə, insanların sağlamlığının qorunmasına, əmək ehtiyatlarının yüksək səmərəliliyinin təmin edilməsinə xidmət etməklə ölkənin sosial-iqtisadi tərəqqisində mühüm rol oynayır. İkincisi, fiziki tərbiyə və idman insan fəaliyyətinin müstəqil növünü təşkil etməklə, müasir cəmiyyətdə böyük yerə və rola malikdir. Fiziki tərbiyə insanın sağlam həyat tərzini formalaşdırır, bu da öz növbəsində ictimai münasibətlərə ciddi şəkildə müsbət təsir edir. Üçüncüsü, idman təkcə sosial və mədəniyyət hadisəsi olmayıb, siyasətlə, o cümlədən xarici siyasət və diplomatiya ilə də sıx bağlıdır. Tarixin bütün dövrlərində idman bu funksiyasını bu və ya digər dərəcədə yerinə yetirərək, müasir dövrdə diplomatiya alətinə çevrilmişdir. Müstəqilliyinin 30-cu ilini yaşayan Azərbaycan Respublikası üçün isə idman cəmiyyətin inkişafının əhəmiyyətli faktorlarından biridir. Ümummilli lider Heydər Əliyevin də qeyd etdiyi kimi, “İdman, bədən tərbiyəsi, hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir” (8, s.227).

1993-cü ilin ikinci yarısından etibarən Azərbaycanın siyasi, hərbi, sosial-iqtisadi və mədəni həyatında kardinal pozitiv dəyişikliklərin başlaması ilə idmanın inkişaf pesrpektivləri də müəyyən olundu. Bu sahədə xüsusi dövlət siyasətinin və idman strategiyasının hazırlanıb həyata keçirilməsi qısa müddət ərzində respublikada idmanın inkişafının hüquqi-normativ bazasını yaratmaqla yanaşı, onun maddi-yexniki bazasını da qurmuş oldu. 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbərliyinə İlham Əliyevin gəlməsi ilə isə ölkədə idmanın sürətli inkişafında və onun maddi-texniki bazanın vəziyyətində əsaslı dönüş yarandı. Azərbaycan Milli Olimpiya Komitəsi ölkədə idmanın maddi-texniki bazasının yaradılması və inkişafı üçün iki vacib istiqamətdə işlər görməyə başladı: Azərbaycan Milli Olimpiya Komitəsinin maddi-texniki bazasının yaradılması və mövcud idman qurğularının yenidən qurulması, bərpası və avadanlıqla təchizatı (1, s.210-211). 2000-ci illərin əvvəllərindən başlayaraq bu proses böyük vüsət alaraq Azərbaycanın bütün bölgələrini ehtiva etdi.

Bu gün Azərbaycan Respublikasında idman siyasətinin ən mühüm istiqamətlərindən biri regionlarda bədən tərbiyəsi və idmanın inkişafıdır. Bədən tərbiyəsi və idman sahəsində dövlətin regional siyasəti ilk növbədə vacib dövlət proqramları və sərəncamları əsasında həyata keçirilir və ümumilikdə ölkədə bu sahədə islahat və yeniliklərin keyfiyyətinə də pozitiv şəkildə təsir edən amillərdəndir. Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi böyük diqqətin və xüsusi dövlət siyasətinin bariz nümunəsi olaraq həyata keçirilən proqramların (Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illərdə sosial-

iqtisadi inkişafı Dövlət Proqramları) başlıca məqsədi – "regionların sosial-iqtisadi inkişafı, qeyri-neft sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin, turizmin inkişafının təmin olunması, məşğulluğun səviyyəsinin yüksəldilməsi, eləcə də yoxsulluğun aradan qaldırılması" olmuşdur (17; həmçinin bax: 6). Qeyd edək ki, regionların sosial-iqtisadi inkişafı üzrə qəbul edilərək uğurlar həyata keçirilən bu proqramlar dövlətin gənclər və idman siyasəti üzrə strategiyası ilə çulğaşaraq reallaşdırılmışdır. Onların sırasında son illərdə qəbul edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" və "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Proqramı xüsusi yer tutur (2).

"Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın məqsəd və vəzifələri arasında regionlarda yaşayan gənclərin təhsil, məşğulluq və mədəniyyət sahəsində imkanlarının genişləndirilməsi (maddə 5.2.14.), gözlənilən nəticələr arasında isə gənclərin işçi qüvvəsi çatışmayan regionlara getməsini stimullaşdırmaq məqsədi ilə zəruri məişət və məşğulluq infrastruktutunun yaradılması (maddə 7.2.6.) və regionlarda yaradıcı gənclərin çıxışlarının, sərgilərinin və usstad dərslərinin təşkili (maddə 7.2.13.) xüsusi yer almışdır. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Proqramının 4.0.8. maddəsində də regionlarda yaşayan gənclərin həyatın bütün sahələrində iştirak imkanlarının arıtırlması məqsəd və vəzifələrdən biri olaraq göstərilmişdir (2).

Regionlarda yaşayan gənclərin təhsil, məşğulluq və mədəniyyət sahəsində imkanlarının genişləndirilməsi və aktiv həyatının stimullaşdırılmasında isə bədən tərbiyəsi və idmanın yeri şübhəsizdir. Bu məqsədlə ilk növbədə Olimpiya idman komplekslərinin və sağlamlıq mərkəzlərinin inşası zəruri olmuşdur. 2002-ci ildə Naxçıvanda, Şəkidə və Gəncədə, 2003-cü ildə Bərdədə və Qubada, 2005-ci ildə Şamaxıda, 2006-cı ildə Zaqatalada, 2007-ci ildə Masallıda və Qazaxda, 2008-ci ildə Ağdamda, Salyanda, Oğuzda, Kürdəmirdə, Sabirabadda, Qusarda və Biləsuvarda, 2009-cu ildə Şəmkirdə, Şərurda və İsmayıllıda, 2010-cu ildə Tovuzda, Ağdaşda, Göyçayda, Balakəndə, Horadizdə, 2011-ci ildə İmişlidə, Qəbələdə, Tovuzda və Sumqayıtda, 2012-ci ildə Füzulidə, Cəlilabadda və Astarada, 2013-cü ildə Qaxda, Saatlıda, Şirvanda, Xaçmazda və Qobustanda, 2014-cü ildə Göygöldə, 2015-ci ildə, 2016-cı ildə, 2017-ci ildə Abşeronda və Ağcabədidə, 2018-ci ildə Lənkəranda, 2019-cu ildə Beyləqanda, 2020-ci ildə Tərtərdə və Yardımlıda dünya standartlarına cavab verən Olimpiya İdman kompleksləri inşa edilmişdir (18). Bu komplekslərdə əhalinin bütün yaş qrupları, həvəskar və peşəkar idmançılar, milli yığma komandalar, eləcə də məhdud hərəkətli insanların idmanla məşğul olması üçün hər cür şərait yaradılmışdır.

Qeyd edək ki, bu komplekslər Respublika prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində inşa edilmişdir. "İdmanın müxtəlif növləri üzrə Azərbaycan milli komandalarının təlim-məşq toplanışlarının, idmançıların gündəlik məşqlərinin, həmçinin beynəlxalq idman turnirlərinin, respublika və zona yarışlarının keçirildiyi bu idman obyektləri" həm də vətəndaşların, xüsusilə gənclərin sevdiyi məkanlardandır və "idmanın kütləviliyinin təmin edilməsində, bölgələrdə yaşayan gənclərin sağlam həyat tərzi keçirməsində, gələcək idmançıların yetişdirilməsində mühüm rol oynayır" (23). Prezident İlham Əliyevin idman siyasətində böyük diqqət yetirdiyi məsələlərdən biri də idmanın kütləviləşdirilməsi, regionlarda bu sahəyə böyük diqqət ayrılmasıdır. Azərbaycanda 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdəki nitqində Prezident bu məsələyə xüsusi vurğu vurmuşdur: "Mən tövsiyə edərdim ki, hər bir vətəndaş idmanla məşğul olsun. Özü də həftədə, ayda bir də yox, müntəzəm olaraq. Bunun çox böyük xeyri var və əgər belə olarsa, hər bir insan öz həyatında bunu görəcəkdir" (5).

İstər beynəlxalq idman məkanına inteqrasiya olunmaq üçün, istərsə də idman siyasətinin sağlam cəmiyyət qurmaq strategiyası ilə çulğaşması üçün regionlarda bədən tərbiyəsi və idman sektorunun beynəlxalq tələblərə müvafiqliyi zəruri şərtləndəndir. Bu istiqamətdə iri miqyaslı tədbirlərdən biri də idman qurğularının və sağlamlıq mərkəzlərinin təkcə Bakıda deyil, regionlarda da yenilənməsidir. Mingəçevir, Gəncə, Cəlilabad, Goranboy, Göyçay, Lənkəran, Naftalan, Nefçala, Naxçıvan, Qax, Qazax, Qobustan, Şabran, Şəki, Şirvan, Yevlax və Zaqatalada Uşaq-Gənclər İdman Məktəbləri, Gəncə, Lənkəran, Şəki, Şirvan və Sumqayıtda Tibb Bədən Tərbiyəsi Dispanserləri, Gədəbəy və Sumqayıtda İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları, Goranboyda Üzgüçülük Hovuzu, Mingəçevirdə Kür-Ollimpiya Tədris-İdman Mərkəzi onların sırasında yer almaqdadır (7; 11). Azərbaycan dövləti-

nin strateji məqsədlərindən biri olaraq seçilən sağlam cəmiyyətin qurulması, sağlam nəslin formalaşdırılması, idmanın kütləviliyinin artırılması üçün bu mərkəzlərin böyük əhəmiyyəti vardır. Müasir Azərbaycan gənclərinin, o cümlədən regionlarda yaşayan gənclərin "hərtərəfli formalaşmış, rəqabətə davamlı yetişdirilməsi məhz dövlətin uğurlu gənclər siyasətinin davamıdır" (16).

Ağstafa, Ağcabədi, Astara, Balakən, Daşkəsən, Goranboy, Göygöl, Qusar, Kürdəmir, Lənkəran, Masallı, Mingəçevrir, Naxçıvan, Quba, Saatlı, Şəmkir, Siyəzən, Sumqayıt, Tərtər, Ucar, Yevlax, Zərdab, Gəncə, Şirvan və Tovuzda fəaliyyətdə olan Gənclər mərkəzlərinin başlıca istiqamətləri vətənpərvərlik tərbiyəsi, sağlam həyat tərzinin təbliği, ictimai həyatda iştirak, məşğulluq, asudə vaxt və yaradıcılıqdır (9). Bu istiqamətlər "Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın məqsəd və vəzifələri arasında yer alan regionlardakı gənclərin təhsil, məşğulluq və mədəniyyət sahəsində imkanlarının genişləndirilməsi işinə tam müvafiqdir.

Regionlarda idman infrastrukturunun beynəlxalq standartlara görə qurulması ölkənin sosial-iqtisadi inkişafının da prioritetlərindən birinə çevrilmişdir. Bu mənada respublikanın müxtəlif rayonlarında, xüsusilə əlverişli təbii-coğrafi mövqeyi olan bölgələrdə idman turziminin inkişafına böyük önəm verilməsi təqdirəlayiqdir. Azərbaycan Respublikası Prezidentinin 17 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin 7.3 bəndi regional turzimin inkişaf etdirilməsini nəzərdə tutur və 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışı müəyyən edir (4). Azərbaycanın regionlarında turizmin "sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafı daha çox kateqoriyanı əhatə edən turistlərin cəlb edilməsi məqsədini daşıyır" (19). Digər tərəfdən, bu, yuxarıda qeyd etdiyimiz kimi, regionlarda yaşayan gənclərin məşğulluq ehtiyaclarının ödənilməsi və sosial inkişaf üçün də əhəmiyyətli bazadır.

Regionlarda idman turizminin inkişafı üçün kifayət qədər zəngin təbii şəraitə və coğrafi mövqeyə malik olan Azərbaycanda qış idman növləri nisbətən yeni bir sahə olsa da, qısa bir müddətdə böyük potensiala sahib olduğunu göstərə bilmişdir. Hazrıda xizəkçilik də daxil olmaqla, bir çox açıq hava idman növlərini təklif edən Şahdağ Turizm Mərkəzi və Tufandağ Qış-Yay Turizm İstirahət Kompleksi fəaliyyət göstərir, 2016-cı ilin sonlarından isə Qax rayonu ərazisində "İlisu Snow Tubing Park" kompleksi istifadəyə verilmişdir (10). Beynəlxalq idman yarışlarının, o cümlədən Birinci Avropa Oyunlarının (2015-ci il), Dördüncü İslam Həmrəyliyi Oyunlarının (2017-ci il) və digər yarışların keçirilməsi də regionlarda idman turizminin inkişafına vüsət verən amillər sırasındadır.

Qeyd edək ki, Azərbaycanda regional idman siyasətinin son illərdə daha çox diqqət yetirilən sahələrindən biri də kənd idmanının inkişafıdır. Prezident İlham Əliyev yuxarıda qeyd etdiyimiz 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdəki nitqində bununla bağlı qeyd etmişdir: "İndi bizim böyük şəhərlərdə idman komplekslərimiz var, ancaq kənd yerində bu, yoxdur. Düzdür, bəzi kəndlər şəhərlərə yaın yerləşir və orada yaşayan umaqlar, yeniyetmələr idman komplekslərinə gedə bilərlər. Ancaq bəzi ucqar kəndlər var. Ona görə kənd idmanının inkişafı üçün xüsusi proqram tərtib edilməlidir, buna diqqət verilməlidir. Ucqar kəndlərdə yaşayan uşaqlar bəzi hallarda bilmirlər nə ilə məşğul olsunlar. Orada o bölgəyə uyğun olan formada idman qurğuları tikilməlidir, yarışlar keçirilməlidir, rayon yarışları ... Bu. Həm idmanın inkişafına xeyir verər, həm də idmanın kütləviliyini təmin edər" (5).

***Nəticə***. Göründüyü kimi, dövlətin regional siyasətində sosial və iqtisadi məsələlərlə yanaşı, bədən tərbiyəsi və idmanın inkişafına böyük diqqət ayrılması müasir Azərbaycan Respublikasının idman siyasətinin də konseptual məsələlərindəndir. Regionlarda idman infrastrukturunun qurulması, peşəkar idmançıların hazırlanması ilə yanaşı, idmanın kütləviliyinin də artırılması gənclər siyasətinin də effektiv istiqamətlərindən birini təşkil edir. Bu gün respublikanın regionlarında fəaliyyət göstərən ixtisaslaşmış mədən tərbiyəsi-idman təşkilatları bu sahədə beynəlxalq əməkdaşlıq funksiyasını da həyata keçirmək potensialına malikdirlər. Bu potensialdan maksimum istifadə etmək üçün bəzi idman növləri üzrə regional federasiyaların funksiyalarının genişləndirilməsi başlcıa şərtlərdən biri ola bilər. Digər tərəfdən, beynəlxalq idman yarışlarının mümkün olduğu qədər regionlara daşınması da bu istiqamətdə uğurlu fəaliyyətlərdən sayılmalıdır.

Azərbaycanda regional idmanın inkişaf istiqamətlərindən biri də, şübhəsiz, işğaldan azad edilmiş şəhər və rayonlarda idmanın kütləviləşdirilməsi, həmçinin sağlamlıq mərkəzlərinin qurulmasıdır. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında xalq-iqtidar birliyi nümayiş etdirən Azərbaycan xalqı və müzəffər Azərbaycan ordusu Vətən müharibəsinə qalxaraq 44 gün ərzində düşməni ağır məğlubiyyəyə uğradaraq, işğal edilmiş torpaqlarımızı azad etmiş və Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmişdir. İşğaldan azad edilmiş torpaqlarda quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi istiqamətində artıq hüquqi və infrastruktur fəaliyyətlərinə başladılmışdır (15). Bu fəaliyyətlərin içərisində sosial infrastrukturun qurulması o cümlədən sağlamlıq, bədən tərbiyəsi və idman məsələləri də önəmli sıralardadır (14). Hesab edirik ki, işğal edilmiş şəhər və rayonlarda infrastruktur quruculuğu, idmanın kütləviləşdirilməsi və Qarabağda idman turizminin başladılması Azərbaycanın sosial-iqtisadi inkişafının bir hissəsi olmaqla yanaşı, beynəlxalq imicinin daha da möhkəmləndirilməsi istiqamətində də böyük əhəmiyyət kəsb edəcəkdir.

## ƏDƏBİYYAT

1. Aslanlı G.M. Azərbaycan Respublikasında idmanın maddi-texniki bazasının möhkəmləndirilməsinə dair (2003-2017-ci illər) // AMEA Tarix İnstitutunun Elmi əsərləri, 69-cu cild, 2018, s.209-219.
2. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Proqramını təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı // https://president.az/articles/25237 [15.01.2023].
3. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı // https://president.az/articles/31697 [15.01.2023].
4. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" haqqında Azərbaycan Respublikası Prezidentinin 17 dekabr 2017-ci il tarixli Fərmanı // https://president.az/articles/22134 [15.01.2023].
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib // https://president.az/articles/35390 [15.01.2023].
6. Dövlət Proqramları. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi // https://www.mys.gov.az/qanunvericilik/dovlt-proqramlari [15.01.2023].
7. Elm və Təhsil Qurumları. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi // https://www.mys.gov.az/qurumlar/digr-qurumlar [15.01.2023].
8. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Bakı, Azərnəşr, 1997.
9. Gənclər Mərkəzləri. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi // https://www.mys.gov.az/qurumlar/gnclr-mrkzlri [15.01.2023].
10. Hüseynov F. Ölkəmizdə idman turziminin inkişaf istiqamətləri // "Mədəniyyət" qəzeti, 25.01.2017.
11. İdman Qurğuları. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi // https://www.mys.gov.az/qurumlar/idman-qurgulari [15.01.2023].
12. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq ediləsi haqqında Azərbaycan Respublikası Prezidentinin 26 yanvar 2015-ci il tarixli Sərəncamı // https://president.az/articles/14132 [15.01.2023].
13. İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Gənclər Mərkəzinin açılışında iştirak etmişdir. 07 aprel 2014 // https://president.az/articles/11349/print [15.01.2023].
14. İşğaldan azad edilmiş ərazilərdə bu idman növü inkişaf etdiriləcək // https://modern.az/az/news/267232/isgaldan-azad-edilmis-erazilerdebu-idman-novu-inkisaf-etdirilece [15.01.2023].

15. İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2021-ci il tarixli Fərmanı // https://president.az/articles/5028 [15.01.2023].
16. Məmmədov S. Azərbaycanda idmanın inkişafı dayanıqlı xarakter alır // "Xalq qəzeti", 27.12.2019.
17. Məmmədova N. Regionların sosial-iqtisadi inkişafının dövlət proqramları ölkənin sürətli tərəqqisinə mühüm stimul yaradır // "Xalq qəzeti", 20.08.2020.
18. Olimpiya Kompleksləri. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi // https://www.mys.gov.az/qurumlar/olimpiya-komplekslri [15.01.2023].
19. Ramazanov Q. Azərbaycanın regionlarında turizmin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülür // "Yeni Azərbaycan" qəzeti, 25.04.2019.
20. Regionlarda müasir idman komplekslərinin tikintisi istiqamətində işlər sürətlə davam etdirilir. AzərTac. 02.05.2019 // https://azertag.az/xeber [15.01.2023].
21. Regionların inkişafına dair dövlət proqramları // https://azerbaijan.az/related-information/276 [15.01.2023].
22. Sağlamlıq Mərkəzləri. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi // https://www.mys.gov.az/qurumlar/digr-qurumlar [15.01.2023].
23. Tikilməkdə olan Goranboy Olimpiya İdman Kompleksi modern memarlıq üslubunda layihələndirilib. 11.06.2019 // http://www.yeniazerbaycan.com/Idman_e47726_az.html [15.01.2023].

**ГЮНЕЛЬ АСЛАНЛЫ**
*Институт Истории НАНА имени А.А.Бакиханова,*
*старший научный сотрудник*

## О РАЗВИТИИ СПОРТА В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Физическая культура и спорт, являющиеся одним из приоритетных сторон социальной и культурной жизни в Азербайджанской Республике, органично связаны и с региональной политикой государства. Основными задачами регионального спорта в Азербайджане являются популяризация массового спорта и массовой физической культуры, развитие спортивного туризма, а также решение проблемы занятости молодежи в регионах.

В настоящее время в регионах Азербайджана созданы все условия для занятий физической культурой и спортом, повышен уровень обеспеченности населения разных городов республики объектами спорта.

*Ключевые слова:* спортивная политика, молодежная политика, региональный спорт, спортивный туризм, массовый спорт.

**GUNEL ASLANLI**
*PhD, ANAS Institute of History named after A.A. Bakikhanov, senior researcher*

## ON THE DEVELOPMENT OF SPORTS IN THE REGIONS OF THE REPUBLIC OF AZERBAIJAN

The development of physical education and sports, which is one of the priority areas of social and cultural life in the Republic of Azerbaijan, is closely related to the state's regional policy. The main tasks of regional sports in Azerbaijan are the popularization of sports, the development of sports tourism, and the solution of the employment problem of young people living in the region.

At present, all conditions for physical education and sports have been created in the regions of Azerbaijan, and the level of providing the population with sports facilities has been increased in various cities of the republic.

*Keywords*: sports policy, youth policy, regional sport, sport tourism, mass sport.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Ədalət Qasımov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**XOŞQƏDƏM İSLAM**
*t.ü.f.d., Bakı Dövlət Universiteti*
**xoshgedem-islam@rambler.ru**

**ANAR PƏNAHOV**
*Bakı Dövlət Universiteti*
**panaxov.anar@mail.ru**

# ŞUŞA -AZƏRBAYCANIN MİLLİ MƏDƏNİ SƏRVƏTİDİR

*Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.*

*Açar sözlər*: Şuşa, Zəfər yolu, Qarabağ, Pənahabad, Qələbə.

***Giriş***. Şuşa Azərbaycanın paytaxt şəhərlərindən biri kimi 1758-1823-cü illərdə Qarabağ xanlığının mərkəzi olmuşdur. İlk əvvəllər şəhər xanın şərəfinə "Pənahabad" adlandırılsa da, sonralar öz tarixi "Şuşa" adını yenidən qaytarır. Belə ki, eramızın II əsrində yaşamış qədim Roma tarixçisi Gaius Cornelius Tacitus (Tasit) Qafqaz ərazisində dondar türk tayfasına məxsus "Sosu" (latın dilində "ş" səsi yoxdur) şəhərinin olması barədə məlumat verir. Xalq əfsanəsinə görə isə sonralar bu yerlərin havasının büllur kimi saf və şəfalı olduğuna görə şəhəri – şüşə, yəni "Şuşa" adlandırırlar (1).1921-ci ildə isə Azərbaycanda Sovet hakimiyyəti zamanında Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılan zaman Şuşa vilayətin mərkəzi statusunu alır. Lakin bu status uzun sürmür. Belə ki, 1923-cü ildə vilayətin mərkəzi bir zamanlar xanın istrahət yeri, atlarının saxlanc yeri kimi istifadə olunmuş Xankəndi olur. Bunun isə başlıca səbəbi Şuşa əhalisinin azərbaycanlılardan ibarət olması idi ki, bu da məkrli düşmənin gələcək planlarını alt-üst edirdi. Doğrudur, Şuşa rəsmi olaraq bütün Qarabağın mərkəzi olmaq statusunu itirdi, lakin bu, yalnız rəsmiyyətdə öz əksini tapdı. Belə ki, tarixin bütün dövrlərdə insanların ürəyində məhz Şuşa Qarabağın mərkəzi kimi qəbul olunmuşdur. Şuşa şəhərinin Sovet hakimiyyəti dönəmində – ötən əsrin 70-ci illəri və 80-ci illərin əvvəlində keçdiyi sürətli inkişaf mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu Öndər Heydər Əliyev Qarabağın tacı olan Şuşa şəhərinin hər bir azərbaycanlı üçün dəyərini qiymətləndirərkən demişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" (2). Bu, Şuşanın bizim üçün nə dərəcədə dəyərli olduğunun böyük ifadəsi idi. Bu gün isə Şuşa yenidən qurulur, özü də daha möhtəşəm, daha əzəmətli. Bu günkü Şuşanın yenidən qurulması isə İlham Əliyevin adı ilə bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz onun şəxsi təşəbbüsü ilə qəbul edilmiş, böyük və əsaslı quruculuq işləri həyata keçirilmişdir (5). 1977-ci ildə görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan edilməsi haqqında" qərar qəbul edilmişdir (3). Həmçinin, Azərbaycan SSR Nazirlər Sovetinin 1985-ci il 27 dekabr tarixli 414 nömrəli Qərarı ilə "Şuşa dövlət tarix-arxitektura qoruğu" yaradılmışdır (6). Qəbul edilmiş bu kimi qərarlar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Belə ki, 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin, avqustun 2-də Xurşidbanu Natəvanın abidəsinin açlışı və bir sıra mühüm mədəni tədbirlərin həyata keçirilməsi buna bariz nümunədir (6). Bu bir daha Ulu Öndərin öz vətəninə, xalqına, onun tarixinə, mədəniyyətinə xüsusi qayğı və diqqətlə yanaşdığının göstəricisidir. Eyni zamanda onu da vurğulamaq lazımdır ki, həmin dövrdə erməni tarixçilər və rəsmi dairələr ölkəmizə qarşı saxtalaşdırılmış xəritələr, materiallar əsasında ərazi iddiaları ilə çıxış edirdilər. Lakin xalqının mənafeyini, dövlət maraqlarını hər şeydən üstün tutan, onu canı və qanı bahasına olsa belə müdafiə edəcək müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbirlik etdiyi o, dönəmlərdə (1969-1982) bütün bu kimi əsassız iddiaların qarşısını qətiyyətlə almış, Ermənistana bir qarış belə

vətən torpağının pay verilməsinə imkan verməmişdir. Şuşanın önəmini yüksək dəyərləndirən Ulu Öndər onun qorunması və inkişaf etdirilməsinə çox böyük həssaslıqla yanaşırdı.

Keçən əsrin 90-cı illərinin əvvəllərində həm xarici, həm də daxili faktorlardan yaranan mənfi təsirlər nəticəsində Azərbaycan bir dövlət, xalq, hətta coğrafi ərazi kimi böyük risklərlə üz-üzə qalmışdı. Xalqın səriştəsiz, zəif və qətiyyətsiz rəhbərliyə olan inamının tükənməsi xalq və hakimiyyət arasında böyük uçurumun yaranmasına səbəb olmuşdu. Eyni zamanda ölkədə yaranmış hərc-mərclik mühiti, geniş şəkildə tuğyan edən özbaşınalıq halları, vahid nizami ordunun yoxluğu və ölkədə baş verən vətəndaş qarşıdurması dövlətçiliyimizin sütunlarını ciddi şəkildə sarsıdaraq, onun gələcək mövcudluğunu böyük şübhə altına almışdı. Bütün bu yaranmış anarxik vəziyyətdən və xaosdan yararlanan məkrli düşmən öz çirkin planlarını reallaşdırmağa müvəffəq oldu. Tarixi və əzəli torpaqlarımız ardı-arda işğal edilməyə başlanıldı. Xüsusilə münaqişənin ilkin dövrlərində məhz Şuşanın itirilməsi digər rayonların da işğalına rəvac verdi. Belə ki, Şuşanın mənsub olduğu mühüm əlverişli coğrafi mövqe ümumilikdə bütöv Qarabağ və Şərqi Zəngəzur bölgəsinə tam nəzarəti həyata keçirməyə hərbi-strateji baxımından böyük imkanlar yaradırdı. Beləliklə, 1992-ci il may ayının 8-nə keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının hərbi qulluqçularının və 40 zirehli texnikasının köməyi ilə qədim və doğma şəhərimiz olan Şuşa şəhərinə hücuma keçdilər. Hücum nəticəsində 195 nəfər vətəndaşımız qətlə yetirildi, 165 nəfər isə yaralandı, onlardan 150 nəfəri əlil oldu, 522 uşaq valideynlərini itirdi (3). 20 mindən artıq Şuşa sakinin acı taleyinə isə doğma yurd-yuvalarından didərgin düşərək, məcburi köçkün olmaq yazıldı. İşğal dövründə qarı düşmən sanki şuşalılarsız tənha qalan, təklənən Şuşanın özü ilə döyüşməyə başladı. İşğal nəticəsində şəhər tamamilə talan edildi, zəngin muzey və kitabxanalara məxsus dəyərli tarixi əsərlər, eksponatlar, xalçalar yağmalanaraq Ermənistana daşındı. Tarix və mədəniyyət abidələri yerlə-yeksan edildi. Dini-inanc yerləri, qəbirstanlıqlar vandalizm aktları nəticəsində dağıdılaraq təhqir edildi, aşağılandı. Hətta xan qızı Xurşidbanu Natəvanın məzarı insanlıq simasını itirmiş düşmən tərəfindən qızıl-zinət əşyalarını talamaq məqsədilə dağıdıldı, yerlə bir edildi (7). Ən acınacaqlı hal isə ondan ibarət idi ki, şairəyə məxsus cənazədən əsər-əlamət belə qalmamışdı. Qarabağ şahzadəsinin Şuşanın Xanlıq məhəlləsində tikilən, tarixi XVIII-XIX əsrlərə gedib çıxan, bir zamanlar balaca Üzeyir Hacıbəylinin tez-tez şairə qonşusuna qonaq getdiyi, onun qəzəllərinə heyranlıqla qulaq asdığı, çəkdiyi rəsmləri məftunluqla seyr etdiyi sarayı da talanaraq dağıdıldı, xarabazara döndərildi. Bu o mülk idi ki, bir zamanlar Bülbülün təşəbbüsü ilə Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1932-ci ildə qəbul etdiyi Qərarı ilə Azərbaycanda ilk uşaq musiqi məktəbi olan "Şuşa Musiqi Məktəbi" yaradılaraq bu binada fəaliyyətə başlamışdı. Bütün bu kimi vandallıq aktları bizlərin nə qədər amansız və faşist düşmənlə mübarizə apardığımızın bariz nümunəsi idi (7). Cənab Ali Baş Komandan, Prezident İlham Əliyevin də vurğuladığı kimi: "... Görün biz kimlərlə üz-üzə idik və biz kimi məğlub etmişik? ... bu, təkcə ərazi bütövlüyümüzün bərpası deyil, erməni faşizminin belinin qırılmasıdır. Biz bölgəni erməni faşizmindən xilas etdik, dünyanı erməni faşizmindən xilas etdik..." (9). Bəli biz müzəffər xalq, qalib dövlət kimi, öz birliyimizlə, həmrəyliyimizlə erməni faşizmini məğlub etdik, onun başını əzdik, düşməni önümüzdə diz çökdürdük. Şuşa xalqımızın qədimliyini, onun zəngin mədəniyyətini özündə tərənnüm edən qədim və unikal memarlıq abidələri ilə zəngin yurd yerlərimizdən biridir. İşğala qədər şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan yerli daş döşəməli küçələr, 9 məhəllə, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. Həmçinin Şuşa 25 məktəb, 31 kitabxana, 20 səhiyyə müəssisəsi, 17 klub, 8 mədəniyyət evi, 4 texnikum, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatr, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya və turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi, Qafqazda tək və yeganə olan Şərq musiqi alətləri fabriki fəaliyyət göstərirdi (5). Eyni zamanda Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzünədək şəhərdə 72 mühüm sənət və tarixi abidə, dövlət xadimlərinə və digər tanınmış şəxsiyyətlərə məxsus ev və ev muzeyləri var idi. Bu abidələrin əksəriyyəti XIX əsrdə yaşamış və yaratmış Kərbəlayı Səfixan Qarabağı tərəfindən tikilib və həmin dövrün ən məhşur nəqqaşı olan Kərbəlayı Səfərəli tərəfindən bəzədilmişdi (3). Lakin çox təəssüflər olsun ki, bu 30 ilə yaxın davam edən işğal dövründə xalqımıza məxsus tarixi-mədəni irsin məhv edilməsi siyasətini həyata keçirən erməni vandalları tərəfindən yüzlərlə tarixi memarlıq abidəsi məhv edildi, Pənahəli xanın sarayı, Cümə məscidi,

Aşağı Gövhər Ağa məscidi, Xurşidbanu Natəvanın, Üzəyir bəy Hacıbəylinin, Bülbülün ev muzeyləri dağıdılaraq xarabalığa çevrildi. Əvəzində isə Şuşanın tarixi adını saxtalaşdıraraq "Şuşi" adlandıran, "bura qədim erməni yurdudur" deyə dünyaya tanıtdırmağa çalışan məkrli düşmən, şəhərdə oliqarxların öz şəxsi istirahətləri üçün tikdirdikləri malikanələri çıxmaqla daşı-daş üstünə qoymadılar, bir fidan belə əkmədilər. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Şuşada Vaqif Poeziya Günlərinin rəsmi açılışında çıxışı zamanı vurğuladığı kimi: "...Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb" (6). Bu real faktlar bir daha bu qədim Azərbaycan torpağının onlar üçün əziz və doğma olmadığının, bu yerlərdə qorxu və səksəkə içində müvəqqəti yaşadıqlarının bariz nümunəsidir. Bütün bu kimi əzablara və çətinliklərə baxmayaraq nə zamansa ədalətin bərqərar olacağına, sülh və danışıqlar yolu ilə münaqişənin sona yetəcəyinə, işğal edilmiş bütün tarixi torpaqlarımızın geri qaytarılaraq haqqın öz yerini tapacağına böyük inam və ümidlər var idi. Lakin çox təəssüflər olsun ki, dünya birliyi tərəfindən nümayiş etdirilən ikili yanaşma, siyasi riyakar münasibətlər qəbul edilmiş və icrasını gözləyən mühüm beynəlxalq əhəmiyyətli qərarların masa üzərində qalmasına səbəb oldu. Nəhayət, dünya birliyi tərəfindən sərgilənən ədalətsiz və haqsız mövqelərə rəğmən məğrur və qürurlu Azərbaycan xalqı işğalla heç vaxt barışmayacağını, ədalətsizliyə boyun əyməyəcəyini ortaya qoydu. Xalqımız üçün mədəniyyət qibləgahı olan müqəddəs Şuşanı içki məclisləri ilə murdarlayan, yallılar gedərək "Qarabağ Ermənistandır və nöqtə", "yeni ərazilər uğrunda yeni müharibə" kimi hədələyici, sərsəm və məsuliyyətsiz bəyanatlar səsləndirən, onu təbliğ edən azğınlaşmış düşmən öz layiq olduğu cavabı aldı. 44 günlük Vətən müharibəsində Qalib Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik rəhbərliyi altında qəhrəman Azərbaycan Ordusu otuz ilə yaxın düşmən tapdağında inildəyən vətən torpaqlarını işğaldan azad edərək, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə müvəffəq oldu. Qalib Azərbaycan əsgəri onun xalqına və dövlətinə qarşı illərdir həyata keçirilən işğalçılıq, talançılıq və soyqırımların qisasını döyüş meydanında və ona yaraşacaq şəkildə - ləyaqətlə aldı. Düşmənin başı xalqımızın birliyinin rəmzinə çevrilmiş Dəmir Yumruqla əzildi, ərazilərimizə soxulmuş qanlı əlləri kəsildi. 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan əsgəri öz igidliyi, qəhrəmanlığı, vətənə olan sonsuz məhəbbət və sədaqəti ilə bir növ qəhrəmanlıq salnaməsi yazdı. Xüsusilə qədim və doğma yurd yerimiz, mədəniyyət beşiyimiz - Şuşa şəhərinin ciddi zərər görməməsi məqsədilə yüngül silahlarla silahlanmış Azərbaycan oğulları o, hündür, sıldırım Şuşa dağlarını dırmaşaraq düşmənlə üz-üzə, diş-dişə gəldi, qanlı döyüşlə ona məxsus olanı geri aldı. Qalib Azərbaycanın şanlı bayrağını Şuşa Qalasında dalğalandırdı. Düşməni vahiməyə salan səhnələrdən biri də o idi ki, qəhrəman Azərbaycan əsgəri vurulsa da, yenidən ayağa qalxır, qana boyanmış əlləri ilə sıldırım qayaların kəsici daşlarından yapışaraq nəinki özünü, kürəyində yaralı, hətta şəhid qardaşını belə özü ilə o müqəddəs şəhərə qaldırırdı. Bu mərd, qorxmaz vətən oğulları kürəklərində təkcə əsgər yoldaşını deyil, sanki Şanlı Qələbəni də o, müqəddəs məkana daşıyırdılar. Məhz bu igid Azərbaycan oğullarının Şuşaya doğru addımladığı mübarək ayaq izləri Zəfər Yolumuzun cığırlarına çevrildi. Beləliklə şanlı qələbə yürüşümüzün əsas qayəsi, son missiyası olan qədim yurd yerimiz, Qarabağın tacı Şuşa şəhərinin işğalçılardan azad olunduğu gün, xalqımızın qüdrətinin və milli qürurunun təntənəsi olaraq – 8 noyabr Zəfər Günü kimi əbədi tarixə düşdü. Keçmiş sovetlər birliyi ölkələri sırasında işğal edilmiş torpaqlarını azadlığa qovuşduran yeganə ölkə kimi Azərbaycan - dünyada tarix yazmış, qüdrətli dövlət, qalib xalq olaraq öz layiq olduğu məqama sahibləndi. Məhz bu şücaətin nəticəsidir ki, bu gün Azərbaycan ordusunun qazandığı döyüş təcrübəsi, xüsusilə zərgər dəqiqliyi ilə hazırlanmış və böyük şücaət tələb edən Şuşa əməliyyatının detalları dünyanın nüfuzlu ekspert və hərbi-siyasi mərkəzləri səviyyəsində, hərbi təhsil ocaqlarında öyrənilir və tədris edilir. Ümumilikdə isə bu müharibə nəinki Azərbaycanın, bütöv dünyanın hərb tarixinə qazandırılan böyük hərbi-taktiki bilik təcrübəsi oldu. Hazırda post-münaqişə dövründə bütün işğaldan azad olunan ərazilərdə sürətli şəkildə böyük bərpa və quruculuq işləri həyata keçirilməkdədir. Əsas məqsəd bölgənin iqtisadi inkişafına nail olmaq, ən yaxın gələcəkdə qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına geri dönməsini təmin etməkdən ibarətdir. Bu məqsədlə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2021-ci ilin dövlət büdcəsindən 2 milyard manat sərf edilmiş, cari ilin dövlət büdcəsindən isə 2,2 milyard manat vəsaitin

ayrılması nəzərdə tutulmuşdur (10). Ən başlıcası isə ondan ibarətdir ki, bütün bu görülmüş işlər və gələcəkdə icrası nəzərdə tutulan tədbirlər, zəruri layihələr xarici yardımlar olmadan ölkəmizin bu günkü iqtisadi gücünə əsaslanan real maddi imkanlar hesabına həyata keçirilir. Bu isə əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasi-iqtisadi kursun möhkəm təməllər üzərində olduğunun və Prezident İlham Əliyev tərəfindən düzgün və uğurlu şəkildə davam etdirildiyinin sübutudur. İşğaldan azad olunmuş ərazilərdə ilk bərpa və quruculuq işlərinin məhz Şuşada həyata keçirilməsi isə Qarabağın tacı olan Şuşanın xalqımız üçün nə qədər önəmli, müqəddəs və əziz olduğunun göstəricisidir. Çünki Şuşa tarix boyu bütün çətinliklərə rəğmən, hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz bir parçası olmuş və bu cür də qalacaqdır. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmanı zəruri edir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 may 2021-ci il tarixli, 2632 nömrəli Sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir (8). Eyni zamanda, Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2021-ci il tarixli, 1375 nömrəli Fərmanı ilə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır. Həmçinin bərpa və quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi də məhz Şuşa rayonuna təyin edilmişdir (8). Şuşada işğalın səbəb olduğu dağıntılar nəticəsində milli-mədəni irsimizə məxsus bütün tarixi-memarlıq abidələrinin bərpası, eyni zamanda təbiətə vurulmuş zərərlərin aradan qaldırılması məqsədilə təxirəsalınmaz işlərə 2021-ci ilin yanvarın 14-dən başlanılmış və qısa müddət keçməsinə baxmayaraq, Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının əvvəlki görkəminə qaytarılması yönündə nəhəng layihələr gerçəkləşdirilməkdədir. Bu layihələr azad olunan ərazilərdə inzibati, tarixi və mədəni abidələrin bərpası ilə yanaşı, həm də tarixi torpaqlarımızda illərdir həyata keçirilməyən mədəni tədbirlərimizin, ənənələrimizin bərpasını da əhatə edir. Beləliklə, işğaldan azad olunan torpaqlarımız hazırda bərpa və quruculuq işləri ilə yanaşı, eyni zamanda mənən və ruhən də dirçəlməkdədir. İlk addım kimi vaxtilə ermənilər tərəfindən güllələbaran edilmiş dahi şəxsiyyətlərimizin – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri doğma yurdlarına geri gətirildi və Şuşa şəhərinin mərkəzi meydanında yerləşdirildi. Eyni zamanda mənfur düşmən tərəfindən dağıdılmış şərqdə ilk operanın müəllifi, müasir musiqimizin qurucusu – dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin abidəsi yenidən ucaldıldı, dahi bəstəkarın viran edilmiş evinin bərpası ilə bağlı işlərə başlanıldı. Görkəmli sənətkar, bülbül avazlı, məlahətli səs sahibi, böyük xanəndəmiz Bülbülün ev muzeyi bərpa edildi. Bu gün uzun sürən ayrılıqdan sonra azad Şuşamız yenidən festivallar, poeziya günləri və bir çox başqa mühüm mədəni tədbirlərə də ev sahibliyi etməkdədir. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" sözləri qürur və duyğulu hisslər fonunda hörmət və ehtiramla anıldı (11). 30 Avqust 2021-ci il tarixində isə ölkə başçısı, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Vaqif Poeziya Günləri böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri, Azərbaycan ədəbiyyatında, poeziyasında xüsusi yeri olan, yeni səhifə açan Molla Pənah Vaqifin doğma şəhərində yenidən təşkil olundu. Çox təəssüflər olsun ki, vaxtılə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də o, qarlı, şaxtalı, soyuq qış günündə açılışı olan məqbərə işğal dövründə bütün digər tarixi-mədəni abidələrimiz kimi erməni vandalizminin qurbanına çevrilmişdi. Şükürlər olsun ki, bu gün artıq azad Şuşada məqbərə Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən tam bərpa edildi, böyük şairin xatirəsinə ucaldılan məqbərə ye-

nidən öz əvvəlki əzəmətini geri qaytarmış oldu. Eyni zamanda Şuşada bir sıra infrasturuktur sahələrinin inşası da nəzərdə tutulmuşdur.

- Şuşa Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2021-ci il tarixli 2988 nömrəli Sərəncamı. Sərəncama əsasən Şuşa rayonunda 90 çarpayılıq mərkəzi xəstəxananın layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 500 min manat ayrılmışdır (10).

- Şuşa Radio-Televiziya Yayım Stansiyasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2021-ci il tarixli, 2989 nömrəli Sərəncamı. Sərəncama əsasən Şuşa Radio-Televiziya Yayım Stansiyasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə ilkin olaraq 200 min manat ayrılmışdır (11).

- Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin ilə 8 may 2021-ci il tarixli, 2643 nömrəli Sərəncamı. Sərəncama əsasən Şuşa şəhər 1 nömrəli 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılmışdır (9).

- Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 8 may 2021-ci il tarixli, 2642 nömrəli Sərəncamı. Sərəncama əsasən Şuşa şəhərində növbəti istilik mövsümündə 31 binanın isitmə və isti su ilə təmin edilməsi üçün qazanxanaların, binadaxili sistemlərin layihələndirilməsi, tikintisi və quraşdırılması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 1 milyon manat vəsait ayrılmışdır (11).

***Nəticə.*** Vətən müharibəsindən sonra regionda geosiyasi vəziyyət əhəmiyyətli dərəcədə dəyişmişdir. Yeni əməkdaşlıq imkanlarına yol açacaq yeni reallıqlar yaranmışdır.2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı (7). Bu Bəyannamə iki qardaş ölkənin mövcud birliyini daha üst səviyyələrə daşımağa xidmət edəcəkdir. Dostda güvən, düşməndə qorxu hissləri oyadacaq bu hərbi-siyasi təhlükəsizliyə və müttəfiqlik münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək birgə bəyannamənin məhz Şuşada imzalanması isə geosiyasi reallıqlar prizmasından xüsusi önəm daşıyır. Belə ki, tarixdə 100 il əvvəl imzalanmış Qars müqaviləsitək mühüm əhəmiyyət kəsb edən Şuşa Bəyannaməsi sayəsində Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanla dünyada ciddi potensiala və böyük nüfuza malik Türkiyə arasında yaranan bu birlik regionda sülhə, sabitliyə və tərəqqiyə öz dəyərli töhfəsini verəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli, 3096 nömrəli Sərəncamı ilə Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilmişdir (10). Sərəncama əsasən bu il bir sıra önəmli mədəni və dövlət əhəmiyyətli tədbirlərin, xüsusilə Şuşanın 270 illiyinin böyük qürur və sevinc hissləri ilə dövlət səviyyəsində, təmtəraqlı şəkildə qeyd olunması nəzərdə tutulmuşdur. Həm Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi, həm də 2022-ci ilin "Şuşa İli" elan edilməsi ilə bağlı Sərəncamlar gələcək uğurlara hesablanmış böyük məqsədləri və amalları özündə ehtiva edən müdrik qərarlardır. İmzalanmış bu Sərəncamlar Şuşanın əvvəlki statusunu və şöhrətini bərpa etməklə yanaşı, onun tarixi və əzəli Azərbaycan torpağı olduğunu, xalqımızın bu ərazilərdə çox əsrlik mədəniyyətə sahib olduğunu, milli-mədəni və tarixi irsimizin dərin köklərə əsaslandığını bütün dünyaya nümayiş etdirmiş olacaqdır. Beləliklə, azad Şuşanın bərpa-quruculuq və inkişafı fonunda qürurla deyə bilərik ki, vaxtılə düşmən tapdağı altında inildəyən müqəddəs vətən torpaqlarının, o cümlədən mədəniyyətimizin incisi, qədim, tarixi şəhərimiz olan Şuşanın dağıdılmış və xarabalığa döndərilmiş mənzərəsi

üzərində dolaşan Molla Pənah Vaqifin, Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün və digər böyük mədəniyyət xadimlərimizin narahat ruhları bu gün azad, firəvan və günü-gündən çiçəklənən, müasirləşən Şuşanı gördükcə sevinir və rahatlıq tapırlar. Şuşa sanki günəş kimi yenidən doğulur, yenidən yaranır.

ƏDƏBİYYAT


1. Abdullayev, Ə. Şuşanın işğalı / Əsgər Abdullayev // Qarabağ faciəsi / Ə. Abdullayev. – Bakı, 2016. – S. 118-129.
2. Aydınoğlu, T. Tarixi Qələbəmizin Şuşa təntənəsi: [professor Ramiz Quliyev, "Şuşa" qəzetinin baş redaktoru Vasif Quliyevin fikirləri] / Tahir Aydınoğlu // Xalq qəzeti. – 2021. – 18 may. – S. 6.
3. Асланов, А. Возвращение «Харыбюльбюль» и месседжи миру из Шуши: Музыкальный фестиваль «Харыбюльбюль» — еще одна история грандиозного успеха, являющегося продолжением карабахской По-беды / Аслан Асланов // Бакинский рабочий. – 2021. – 21 мая. – С. 3; Вышка. – 2021. – 21 мая. – С. 2-3.
4. Qarabağda Azərbaycanlılara qarşı soyqırımlar: [erməni-daşnak quldur dəstələrinin Qarabağın Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında azərbay- canlılara qarşı törətdikləri soyqırım və talanlar haqqında] // Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası: 2 clddə / baş red. Yaqub Mahmudov. – Bakı,2014. – Cild 2. – S. 133-134.
5. Президент Ильхам Алиев: "Благодаря воле и решимости великого лидера Мавзолей Моллы Панаха Вагифа был возведен" //Вышка. – 2021. – 3-9 сентября. – С.1.
6. Çingizoğlu, Ə. Şuşa və Şuşa qəzası erməni zülmündə: [ermənilərin buraya köçürülməsi, əhalinin etnik tərkibi, erməni fitnəkarlığı və törətdikləri zülmlər haqqında] / Ənvər Çingizoğlu // Qarabağ 1918-1920-ci illərdə: sənədlərin izi ilə / Ə. Çingizoğlu, B. Məmmədli. – Sumqayıt, 2010. – S. 12-20.
7. Məmmədova, H. Şuşa qəzası: [Şuşa şəhərinin və kəndlərində yaşayan ermənilərin Azərbaycan Respublikasının hakimiyyətini tanımaması, Qarabağı Azərbaycandan ayırıb Ermənistan Respublikasına birləşdirmək istəkləri və törətdikləri cinayətlər haqqında] / Həvva Məmmədova // Azərbaycan xalq cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920) / H. Məmmədova. – Bakı, 2006. – S. 36-41
8. В Шуше состоялось открытие после реконструкции отеля «Хары Бюльбюль» // Бакинский рабочий. – 2021. – 17 мая. – С. 13.
9. Şuşa – tarixi, mədəni və strateji əhəmiyyətli şəhər. - https://xalqqazeti.com/mobile/az/news/93451 [14.01.2023].
10. Şuşa İli" tarixi və mədəni dəyərlərə sahibliyin ifadəsidir. - https://azertag.az/xeber/Susa_Ili_tarixi_ve_medeni_deyerlere_sahibliyin_ifadesidir-2013674 [14.01.2023].
11. Шуша Культурная столица Азербайджана., БАКУ – 2021. - http://anl.az/down/SHUSHA.pdf [14.01.2023].



**ХОШГАДАМ ИСЛАМ**
*Доктор философии по истории,*
*Бакинский государственный Университет*

**АНАР ПАНАХОВ**
*Бакинский государственный Университет*


## ШУША – НАЦИОНАЛЬНО-КУЛЬТУРНОЕ ДОСТОЯНИЕ АЗЕРБАЙДЖАНА


Город Шуша, основанный Карабахским ханом Панахали ханом и отметивший в этом году свое 270-летие, получил богатое развитие и сыграл исключительную роль в культурной и общественно-политической жизни Азербайджана и всего Южного Кавказа, вписал замечательные страницы в наша летопись литературной, культурной, научной и общественной мысли.



*Ключевые слов*а : Шуша, Дорога Зафар, Карабах, Панахабад, Победы.

**KHOSHGADAM ISLAM**
*PhD, Baku State University*

**ANAR PANAHOV**
*Baku State University*

## SHUSHA İS THE NATİONAL CULTURAL TREASURE OF AZERBAİJAN

The city of Shusha, founded by the Karabakh Khan Panahali Khan and celebrating its 270th anniversary this year, has received rich development and played an exceptional role in the cultural and socio-political life of Azerbaijan and the entire South Caucasus, inscribed wonderful pages in our annals of literary, cultural, scientific and social thought.

*Keywords*: Shusha, Road of Zafar, Karabakh, Panahabad, Victory.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Nuru Məmmədov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94**

**GÜNAY QULIYEVA**
*Azərbaycan Dövlət Aqrar Universiteti*
**gunkakuliyeva@yahoo.com**

# XX ƏSRİN ƏVVƏLƏRİNDƏ (20-30-CU İLLƏR) TÜRKİYƏ-İRAN MÜNASİBƏTLƏRİ

*20-ci əsrin əvvəllərində Türkiyə-İran münasibətləri müxtəlif formalarda inkişaf etmişdir. Bu dövrdə baş verən hadisələr bu ölkələr arasında münasibətlərə öz təsirini göstərdi. 20-ci əsrin əvvəllərində bu ölkələr arasında iki problem var idi. Bu problemlərdən biri bu assosiasiya ilə, digərləri isə milli problemlə bağlı idi. Bu perspektivdə bu sazişlər arasında sazişlər imzalanıb və bu sazişlər əsasında bu sahədə mütəmadi olaraq yüksək inkişaf səviyyəsinə nail olmaq lazımdır.*

*Açar sözlər*: Türkiyə, İran, XX əsrin əvvələri, siyasi əlaqələr, anlaşmalar

***Giriş***. Birinci Dünya Müharibəsi dövründə İranın rəsmi mövqeyini Şah Sultan Əhməd Qacarın fərmanında görürük: *"Hal-hazırda təəssüf ki, Avropa dövlətləri arasında müharibə başladığına görə və ola bilsin ki, bu müharibə bizim dövlətimizin sərhədlərinə də çatsın, habelə müharibə edən dövlətlərlə bizim aramızda mövcud dostluq münasibətlərinə görə və bütün xalqın bizim müharibə edən dövlətlərlə dostluq münasibətlərinin saxlanılması ilə bağlı niyyətimizi bilməsi üçün biz Mostoufi ol-Məmalikə, baş nazir və daxili işlər nazirinə bildiririk ki, bizim şah fərmanımızı general-qubernatorlar və hökümət məmurlarına çatdırsınlar ki, bizim hakimiyyətimiz hal-hazırda neytrallığını qoruyur və müharibə edən ölkələrlə dostluq münasibətlərini saxlayır. Müvafiq hakimiyyətlər məmurlara göstəriş verməlidir ki, onlar heç bir vəchlə quru və ya dənizdə hər hansı müharibə edən dövlətə kömək etməməli və qarşı çıxmamalı, müharibə tərəflərindən hər hansı birinə silah və sursat verməməlidir"* (2, 295).

Mustafa Kamal 1920-ci ilin aprel ayında Türkiyədə yeni bir rejimin təməllərini atmışdı. Eyni şəkildə İranda da 1921-ci ildə fevralda Rza Şah yeni bir rejimə keçid prosesini başlatdı. Bu iki rejimin ortaq bir məqsədi vardı: Qərb qurum və normaları ilə müasir və tam müstəqil bir milli dövlət yaratmaq. Həm rəsmi ideologiyaların (din yerinə milliyyətçilik), həm də daxili (ənənəvi iqtisadi siniflər) və xarici (İngiltərə) düşmənlərin oxşarlığı səbəbilə yeni rejimlərin bir-birinə baxışı müsbət idi. Tarixi və sosial-iqtisadi səbəblər üzündən Rza Şahın aşmalı olduğu maneələr Mustafa Kamalın önündəki maneələrə görə daha böyük idi. Buna görə, Mustafa Kamalın Türkiyədə reallaşdırdığı dəyişikliklər Rza Şah üçün psixoloji dəstək oldu və ölkəsində buna oxşar islahatlar keçirməyə çalışdı. (4, 53).

Birinci Dünya Müharibəsinin bitməsi ilə birlikdə Türkiyədə Milli Mücadilə başlayarkən İran daxili və xarici problemlərinin ağırlığı altında əzilirdi. Ölkənin hər bir yanında böyük aşirətlər və etnik qruplar bir-birinin ardınca ayağa qalxarkən İngiltərə və Bolşevik Rusiyası da İranı öz tərəflərinə çəkmək üçün güclü rəqabət apardılar. İranın daxili və xarici düşmənlərə qarşı mücadiləsi 1921-ci ilin fevral ayında Rza Şah adlı mülkiyyətçi və antiimperialist bir zabitin hökümət çevrilişi etməsi ilə başlayır. Əvvəlcə ordu komandiri və Milli Müdafiə Naziri, daha sonra da Baş Nazir olaraq Rza Şah güclü bir ordu yaradaraq bir tərəfdən İranın daxilində ayağa qalxanları bir-bir yatırdıb mərkəzi dövləti gücləndirərkən, digər tərəfdən ölkənin İngiltərə ya da bolşevik Rusiyasının əlinə keçməməsi üçün mücadilə etmişdir (5, 148).

1920-ci ildə Türkiyənin Yunanıstanla müharibə vəziyyətində olması Ankaranı müsəlman qonşuları ilə əlaqələrini genişləndirməyə sövq etmişdir. İngiltərə Türkiyə ilə müharibə edən Yunanıstana maddi və mənəvi dəstək verirdi. Kamalçıların İranda bəzi fəaliyyətləri vardı. Xüsusilə Türkiyənin Tehrana səfir göndərməsindən sonra kamalçılar fəaliyyətlərini artırdılar və iki ölkəarasında olan əlaqələr daha da genişləndi (3, 687). Lakin bu əlaqələr də bir maneə ilə qarşılaşdı. Avqust ayında İstanbulda olan İran səfiri Muvafak İshaq Han etimadnaməsini vermək üçün Ankaraya getdi. Ankara etimadnaməsinin formasına etiraz edərək onu qəbul etmədi. Bundan başqa, 1923-cü il ərzində iki ölkə arasında başqa çəkişmələr də vardı. Bunların arasında bir türklə iranlının evlənməsi və Türkiyədə məskunlaşan iranlıların problemləri nəzərə çarpır. Bu arada Kamalçılar Mühittin Paşanı Tehrana ilk səfir olaraq təyin etdilər.

İran Ankara hökümətini hələ Türk qurtuluş müharibəsi ərəfəsində 22 iyun 1922-ci ildə tanımış və həmin ildə də Ankaraya səfir olaraq Mufakhan Eshaqı göndərmişdi. Türkiyənin ilk səfiri Mühittin Paşa da 7 fevral 1923-cü ildə Tehranda etimadnaməsini təqdim etmişdi. Beləliklə, iki dövlət arasında siyasi əlaqələr başlamışdı (6, 282).

1923-1925-ci illər arası İranla mövcud əlaqələr nə çox isti, nə də soyuq idi. Hər iki dövlət bir-birinə şübhə və ya simpatiya ilə baxırlar və bu cizgidə mövcud əlaqələri inkişaf etdirməyə çalışırdılar. Mustafa Kamalın 16-17 yanvar 1923-cü ildə İzmitdə qəzetçilərlə görüşdə o dövr Ankara hökümətinin İranla bağlı fikirlərinin xülasəsi idi. Mustafa Kamal bu görüşdə İranla bağlı fikirlərini bu şəkildə açıqlamışdır:

"...İranla rəsmi münasibətlərimiz büllurlaşmış deyil. Çünki görüldüyünə görə İranda hakim və ağıllı bir hökümət yoxdur. Şahları, zənnimcə, Avropada fərari vəziyyətdədir və İran daxilində vaxtilə ingilislərin təsiri ilə seçilmiş deputatlardan təşkil olunmuş bir məclis vardır və onlara istinad edən və lakin bir-birini başa düşməyən insanlardan meydana gələn bir hökümət heyəti var. Harbiyə Naziri olan bir Rza Şah var. Bu Rza Şah İranın sanki bir diktatorudur. Məclisə qarşı, digər yoldaşlarına və məmləkətə qarşı tam mənası ilə bir diktatordur. Bu adamın bir neçə qayəsi var. Yaxşı bir məclis yaratmaq üçün yaxşı bir hökümət qurmaq və ingilisləri məmləkətdən uzaqlaşdırmaq istəyir. Lakin göründüyü kimi, o da şəxsi olaraq, yəni mən edim və mən davam edəcəyəm deyən bir beyindir. Nə qədər buna nail olacağı da məlum deyil. İranın bizimlə sıx və səmimi və xüsusi münasibətləri, deyə bilərəm ki, Rza Şah vasitəsilədir. Bəlkə keçən dəfə gördünüz, mənə yavərini göndərmişdi. Rza Şahın yavəri vaxtilə İstanbulda təhsil almış, ağıllı bir adamdır. Onunla bəzi gizli görüşmələr keçirtdik. Lakin göründüyü kimi, onlar bizdən istifadəyə yönəlik hərəkət edirlər. Biz onlara top verək, topxana verək və başqa yardımlar edək. Buna qarşılıq olaraq hər əmrimizə hazır olaraq və lazım gələrsə İrana hərəkət etmək üçün dərhal hərəkət edəcəyini söyləyir..." (4, 53-54).

Türkiyənin cümhuriyyət elan olunmasından bir il sonra İsmət Paşanın 1923-cü il oktyabrın 30-da təşkil etdiyi hökümətin proqramı bütün ölkələrlə dostluq münasibətləri qurmaq yolu ilə ölkənin bütövlüyünü qorumaq uğrunda mübarizəni başlıca vəzifə elan edirdi. Ona görə də Türkiyə Cümhuriyyəti xarici siyasətdə ilk tədbirlərinə ayrı-ayrı ölkələrlə diplomatik münasibətlər qurmaq və müxtəlif səviyyəli müqavilələr bağlamaqla başladı (1, 105).

Türkiyə hələ qurulma mərhələsində olan yeni İran hökümətinin İraq kimi ingilislərin əlində oyuncaq olmasını istəmirdi. Rza Şahın iqtidara gəlməsini dəstəklədiyi kimi 1924-cü ildə Nasturi üsyanın qalxdığı və Şeyx Səid üsyanından əvvəl və şərtlərin çox çətin olduğu bir dönəmdə İran sərhəddinə təxminən yüz min türk əsgəri toplandı. Belə bir vəziyyətdə Mosulu nə bahasına olursa olsun əlində saxlamağı hədəfləmiş İngiltərə buna qarşılıq olaraq regiondakı etnik qrupları hərəkətə keçirmək üçün əlindən gələni edirdi və Türk-İran sərhəddini həlli olmayan problemlər nöqtəsinə çevirirdi. Bu təhriklər nəticəsində Türk-İran sərhəd bölgəsində yaşayan bəzi aşirətlərin hücumlar etməsi Türk və İran hökümətlərinin qarşılıqlı ittiham və etirazlarına səbəb oldu. Xüsusilə 1925-ci ildə meydana gələn Şeyx Səid üsyanı ərəfəsində qorxmadan hərəkət edən bəzi kürd aşirətləri üsyan edərək Türkiyənin hakimiyyətini tanımadıqlarını elan etmişdilər. Düz ərazidə Türk birlikləri qarşısında davam gətirməyən üsyançılar, Türkiyə-İran-Sovet Rusiyası arasındakı Ağrı dağının qayalıq bölgələrinə sığınmışlar, bəzən də İran torpaqlarına qaçaraq nəzarəti problem halına gətirmişdilər. Bu hadisələrlə bağlı Türkiyə İran hökümətinə təzyiq göstərərək bu itaətsiz insanlara hər nə şəkildə olursa olsun yardım etməməsini istədi (4, 58).

Cümhuriyyət dövrü Türk-İran münasibətlərində 22 aprel 1926-cı il tarixli Türkiyə-İran Dostluq və Təhlükəsiuzlik anlaşması bir dönüş nöqtəsini təşkil edir. Bu anlaşma bir çox amilin bir araya gəlməsi nəticəsində gerçəkləşdirilmişdir. İki tərəfli münasibətlərdə hüquqi bir zəmin yaratmaq ehtiyacı kürd və azəri milliyətçiləri Sovet İttifaqı və İngiltərə bu anlaşmanı imzalayarkən Türkiyə və İranın əsas hədəfi iki ölkə münasibətlərində zəruri hüquq zəmin yaratmaq idi. Osmanlı dövlətinə hüquqi olaraq son qoyulması ilə İranla münasibətlərin inkişaf etdirilməsində əsas götürülə biləcək bir zəmin qalmamışdı. Çünki bütün mövcud olan anlaşmalar ortadan qalxmışdı. Bundan sonra əlaqələrin inkişaf etdirilməsi və mövcud problemlərin həlli üçün belə bir zəmin yaratmaq hər iki tərəfin əsas hədəfi idi (5, 149).

İki ölkənin əlaqələrini yeni şərtlərə görə dəyişmək üçün 1926-cı ildə bir dostluq və təhlükəsizlik anlaşması imzalanmışdı (6, 282). Anlaşmanın birinci maddəsində hər dostluq anlaşmasında yer aldığı kimi iki tərəf arasında "barış və sonsuz dostluq" olacağı bildirilmişdi. İkinci maddəyə görə, tərəflərdən biri hücuma məruz qalsa, digər tərəfin bitərəf qalması nəzərdə tutulmuşdur ki, bu da anlaşmaya bir "bitərəflik" xarakteri verir. Üçüncü maddə ortaya ən geniş anlamı ilə bir "hücum etməmə" öhdəliyi gətirir. Dördüncü maddə isə bir üçüncü dövlətin tərəflərdən birinə qarşı düşməncə bir hərəkət görülərsə, digər tərəfin tərəfsizliyinin bir şərti olaraq bu hərəkətə başlayan dövlətə yardımçı və alət olmamaq: əksinə öz ölkəsində o dövlətin həmin hərəkəti asanlaşdırmaq üçün atıla biləcək addımların silahla qarşısını almaq öhdəliyini qoyur ki, bu "bitərəflik" anlamını bir "dayanışma" anlamı ilə eyniləşdirici səviyyədədir. Beşinci maddə tərəflərə öz ölkələrində digər tərəfə qarşı atıla biləcək düşməncə addımların qarşısını almaq öhdəliyini gətirir. Bu da anlaşmanın "dostluq" xarakterinin bir şərtidir. Altıncı maddə ilə tərəflər sərhəd bölgələrində əşirətlərin cinayət xarakterli əməllərinə qarşı lazımi tədbirləri görməyi bir həmrəylik olaraq nəzərdə tutmuşlar. Yeddinci və səkkizinci maddələrdə iki ölkə arasında əməkdaşlıq üçün müxtəlif anlaşmaların imzalanması nəzərdə tutulmuşdur. Dostluq və Təhlükəsizlik anlaşması, on birinci maddəsinə görə imzaladığı 22 haziran 1926-cı il beşillik bir müddətə qüvvəyə minmiş, təsdiq olunmuş sənədlər sonradan Tehrana verilmişdir (6, 282).

Türkiyədə baş verən Birinci Ağrı üsyanı (16 may – 17 iyun 1926-cı il) iki ölkə arasında münasibətlərin yenidən gərginləşməsinə səbəb oldu. Cümhuriyyətin ilk illərində çıxan üsyanların çoxu xarici qüvvələr tərəfindən dəstəklənirdi. Birinci Ağrı üsyanı da bunlardan biridir. İranın kürd üsyanlarına qarşı etinasız qalması və İngiltərənin dəstəklədiyi Hoybun Cəmiyyətinin yaradılması bu vəziyyəti sübut edirdi (8, 15).

1930-cu il boyunca Türkiyə-İran münasibətlərinə damğasını vuran hadisə Üçüncü Ağrı üsyanı oldu. Üsyan 1930-cu ilin yayı boyunca davam etmiş və yalnız sentyabr ayının ortalarında yatırdılmışdı. Bu üsyan boyunca Türkiyə üsyançıların İran tərəfindən dəstəkləndiyi və İranın sərhədd zəruri təhlükəsizlik tədbirləri almadığını dilə gətirmiş və bu məsələdə zəruri addımların atmasını İran hökümətindən tələb etmişdi. İran Türkiyənin bu istəklərinə qarşılıq bölgənin möhkəm olması səbəbilə sərhəddə tam olaraq hakim olmanın çətin olduğunu müdafiə etmiş və bundan əlavə, Türkiyənin üsyançıları təqib etmək bəhanəsilə ortaq sərhəddi tez-tez pozduğunu bildirmişdi (4, 68).

1931-ci ilə gəldikdə Türk-İran sərhəddinin Türkiyənin istədiyi kimi müəyyən olunması istiqamətində müzakirələr Hüsrev Bəyin səyləri ilə Tehranda davam edərkən İranın Ankaradakı səfirliyində dəyişiklik baş verdi. Mirza Sadık Xan yeni səfir olaraq təyin edildi (4, 77). Həmin ilin yazında iki ölkə arasında sərhəd problemi ilə bağlı keçirilən müzakirələrdə kifayət qədər irəliləyiş vardı. Tərəflər bəzi mövzularda müəyyən razılığa gəlmişdilər. Buna görə, Türkiyə Ağrı dağının hamısını alması qarşılığında İrana Kotur yaxınlığında olan və Bazirgan yaxınlığında yerləşən (Maku və Beyazıt yolunun sərhəddi kəsdiyi yerdə) iki torpaq parçası verməyi qəbul etmişdi. Türkiyə-İran sərhəddinin nizamlanması səylərində müsbət irəliləyişlərin olması üçün Hüsrev Bəy Ankaraya gedərək bu məsələ ilə bağlı hökümətdən qəti bir təlimat almağı məqsədəuyğun gördü. 1931-ci ilin oktyabr ayında Ankaraya getdi və Gazi Mustafa Kamalı ziyarət etdi. Bu ziyarətdə Hüsrev Bəy Gaziyə sərhədd müzakirələrinin son vəziyyəti haqqında məlumat verdikdən sonra sərhəd müzakirələrinin qısa bir zamanda sona çatdırılmalı olduğunu və buna görə də Xarici İşlər Naziri Tevfik Rüştü Bəyin özü ilə birlikdə İrana gedərsə, xüsusilə Şah Pəhləviyə təsir göstərmək baxımından çox yaxşı olacağını izah etdi. Gazi Hüsrev Bəyin bu istəyini müsbət qarşıladı və Tevfik Bəyə hazır olması üçün əmr verdi. Bundan əlavə, tərəflər arasında bir problem çıxarsa, Şahın hakim olaraq göstərilməsini istədi. Qısa bir müddətdən sonra Tevfik Rüştü və Husrev Bəy İrana hərəkət etdilər və 17 yanvar 1932-ci ildə Tehrana çatdılar. Beləliklə Türk hököməti Tevfik Rüştü Bəyi Tehrana göndərərək sərhəd probleminin həllinə nə qədər önəm verdiyini İran hökümətinə göstərmiş olurdu (4, 78).

Tərəflərin heyətləri arasında imzalanacaq anlaşmanın məzmunu ilə bağlı müzakirələr davam edərkən strateji əhəmiyyətə malik kiçik bir təpənin kimdə qalacağı məsələsində tərəflər arasında anlaşmazlıq meydana gəldi və müzakirələr tıxandı. Tevfik Bəy Gazinin göstərişlərinə söykənərək "Belə görünür ki bu işi bizlər həll edə bilməyəcəyik. Mən Şah Həzrətlərinin hakimliyini hökümətin adına qəbul edirəm" dedi. Türk tərəfinin gözlənilməyən bu çıxışı İran tərəfini çox təəccübləndirdi. Şah Türkiyənin bu istəyini qəbul etdi və problem Şahın hakimliyində qısa müddətdə həll olundu (4, 78).

Anlaşmanın imzalanması üçün heç bir maneə qalmayınca 23 yanvar 1932-ci ildə Tehranda Tevfik Rüştü bəylə İran Xarici İşlər Naziri Furuği arasında sərhəd probleminin həllinə yönəlik "Türkiyə ilə İran sərhəd xəttinin təyininə dair Etilafnamə" ilə iki ölkə arasındakı problemlərin həllinə yönəlik "Türkiyə ilə İran arasında Uzlaşma adlı Təsviyə və Hakim Sazişi" adlı iki anlaşma imzalandı (8, 21-22) Türkiyə-İran sərhəd xəttini təyin edən anlaşma ilə Ağrı dağının hamısı Türkiyəyə verilərkən, Van ətrafındakı Kotur ərazisinin bir hissəsi İrana verildi. Anlaşma üç maddədən ibarət idi və birinci maddədə iki ölkə arasındakı sərhəd dəqiqliklə izah olunurdu. İkinci maddədə birinci maddədə açıqlanan sərhədd xəttini ərazi üzərində təyin etmək üçün bir sərhəd çəkmə komissiyasının təşkil ediləcəyi, bu komissiyanın ikisi Türkiyə hököməti, ikisi də İran hökuməti tərəfindən təyin olunan dörd üzvdən təşkil olunacağı və komissiyanın 1932-ci ilin iyun ayı içərisində toplanacağı bildirilirdi. Üçüncü maddədə isə Anlaşmanın təsdiqi ilə bağlı məsələlər əks olunmuşdu. Həmin gün imzalanan "Uzlaştırma, Yargısal Çözüm və Hakemlik anlaşması" isə iyirmi altı maddədən ibarət idi və iki ölkə arasında meydana gələcək problemlərin dinc yollarla necə həll oluna biləcəyi izah edilirdi (4, 79).

İmzalanan bu anlaşmalarla Türk-İran münasibətlərində Ağrı üsyanının yaratdığı pis atmosfer qısa bir müddətdə dağılmış və münasibətlər yenidən düzəlmişdi. Bu əlverişli ortam içərisində İran Xarici İşlər Naziri Furuği Xan, oktyabr ayının sonunda həm Tevfik Rüştü Bəyin yanvar ayındakı ziyarətinin qarşılığını vermək, həm də imzalanması gözlənilən anlaşmaları müzakirə etmək üçün Ankaraya getdi. Bu arada 29 oktyabrda Cümhuriyyət bayram tədbirlərində iştirak etdi. Furuği Xan Ankarada olarkən Türkiyə hököməti yeni bir anlaşmanın imzalanması üçün Xarici İşlər Nazirliyinə səlahiyyət verdi. Qısa bir müddət sonra tərəflər arasında aparılan müzakirələr müsbət nəticələndi və Furuği Xanla Tevfik Rüştü bəy arasında 5 noyabr 1932-ci ildə Ankarada Türkiyə ilə İran arasında Dostluq Sazişi ilə "Təhlükəsizlik, Birətəflik və İqtisadi əmək bərabərliyi sazişi" imzalandı (4, 79-80).

İki ölkə arasında imzalanan dostluq anlaşması dörd maddədən ibarət idi. Anlaşmanın giriş bölümündə anlaşmanın imzalanma məqsədi, iki ölkə arasında dostluq və qardaşlıq bağlarını gücləndirmək və iki ölkənin əlaqələri ilə bağlı 22 aprel 1926-cı il tarixli Dostluq və Təhlükəsizlik Anlaşmasındakı maddələrin hökmlərini imzalanan dostluq anlaşmasına yenidən daxil edilərək bildirilirdi. Anlaşmanın birinci maddəsində iki ölkə arasında pozulmaz bir barış, davamlı və səmimi bir dostluğun var olacağı, ikinci maddəsində bir yenilik olaraq tərəflərin bir-birinin öhdəsindəki diplomatiya və konsulluq təmsilçilərinin ən çox nəzarətdə olan dövlət qaydasından yararlanmaları, üçüncü maddədə konsulluq, ticarət, gömrük, gəmilərin gediş-gəlişi və yerləşmə şərtləri mövzularında yeni müqavilələr imzalamaq niyyətləri açıqlanırdı (4, 80).

Həmin gün imzalanan "Təhlükəsizlik, Tərəfsizlik və İqtisadi Əməkdaşlıq anlaşması" isə səkkiz maddədən ibarət idi. Anlaşmanın giriş bölümündə anlaşmanın imzalanma məqsədi, dostluq bağlarını gücləndirmək, siyasi və iqtisadi əlaqələri inkişaf etdirmək olaraq bildirilmişdi. Anlaşmanın ilk iki maddəsində tərəflərə, 1926-cı il anlaşmasında olduğu kimi tərəfsizlik məsuliyyəti ilə yanaşı müdaxilə etməmə məsuliyyətini də gətirirdi. Anlaşmanın daha sonrakı üç maddəsində, üçüncü bir dövlət və ya dövlətlərin tərəf dövlətlərdən hər hansı birinə hücumu vəziyyətində digər dövlətin tərəfsiz qalmaqla bərabər necə mövqe və tədbir alacağı ortaya qoyulurdu. Anlaşmanın altıncı maddəsində tərəflər aralarında iqtisadi əməkdaşlıq şərtlərini ən qısa zamanda düzəltmək məsələsində razılığa gəlmişdilər. Anlaşmanın qüvvədə olma müddəti isə beş illə məhdudlaşdırılmışdı. Dostluq anlaşması 28 dekabr 1933-cü ildə Təhlükəsizlik, Tərəfsizlik və İqtisadi əməkdaşlıq anlaşması isə 10 iyun 1935-ci ildə TBMM-də təsdiqlənərək qüvvəyə mindi (4, 80).

İki ölkə arasında yalnız sərhəd problemləri mövcud deyildi. Eyni zamanda etnik ixtilaflar da əlaqələri gərginləşdirir və bəzən çıxılmaz vəziyyətə salırdı. Türkiyə İranın sərhəddə olan kürdləri dəstəklədiyi fikrini iddia edərkən, İran da Türkiyənin İranda yaşayan azəri və türkmənlərin Türkiyə tərəfindən ayağa qaldırıldığını iddia edirdi (8, 10).

1933-cü il içərisində Türkiyə digər ölkələrlə olan əlaqələrini genişləndirmək üçün qarşılıqlı səfərlər həyata keçirmişdi. Bu səfərlər çərçivəsində Yuqoslaviya kralı və kraliçəsi, Yunanıstan və Macarıstanın baş naziri, Rumıniyanın Xarici İşlər Naziri ilə yanaşı Müharibə və Donanma komissarının yaratdığı güclü bir sovet nümayəndəliyi də Türkiyəyə səfər etmişdi. Sovet nümayəndəliyi türk ordusu ilə birlikdə Ankara, İzmir və Çanakkalada yaxın əlaqələr qurmuş və bu səfər vasitəsilə Sovetlər Türkiyəyə dörd təyyarə hədiyyə etmişdi. Sovetlərin Türkiyəyə verdiyi bu təyyarələr "Silahsızlanma"

konfransından sonra Sovetlərlə Türkiyənin yaxınlaşmasını göstərməsi baxımından önəmli bir addım olaraq dəyərləndirilmişdi. Sovetlər atdıqları bu addımla Boğazlar məsələsində İngiltərə ilə problemli bir dövr yaşayan Türkiyəni özünə daha yaxın tutmaq istəmişdi. Bu il içərisində Türkiyə Respublikasının Xarici İşlər Naziri Tevfik Rüştü Aras isə Roma və Parisə səfər etmişdi. Dünya iqtisadiyyat konfransında iştirak etmək üçün Londona gedən Xarici İşlər Naziri qayıdarkən qısa bir müddət Roma və Parisdə qalmış, daha sonra Afina və Belqrada, oktyabr ayında da İsmət Paşa ilə birlikdə Sofiyaya getmişdi (7, 28).

Türkiyənin reallaşdırdığı bu səfərlərin əsas hədəfi Balkan qonşuları ilə ortaq bir anlaşma imzalamaq idi. Türkiyə Balkan qonşuları və Rusiya ilə paktlar imzalayaraq atdığı addımlarda uğur qazanmışdı. Yunanıstanla 14 sentyabrda Səmimi Anlaşma Paktı, 17 oktyabrda Rumıniya və 27 noyabrda Yuqoslaviya ilə Dostluq, Hücum etməmə, Hakem və Uzlaşma anlaşmaları imzalamışdı. Türkiyə bu paktlarla qərb sərhədlərini təhlükəsiz etmək istədiyi halda şərq sərhədlərini də təhlükəsizlik altında tutmaq üçün müəyyən addımlar atmışdı. Bu istiqamətdə Türkiyənin Londondakı səfiri 1933-cü ilin sonuna doğru İngiltərənin Xarici İşlər Naziri ilə görüş keçirmişdi. Səfir bu görüşdə İngiltərənin Xarici İşlər Nazirinə Türkiyənin hədəfinin Orta Şərq bölgəsində də təhlükəsizlik yaratmaq olduğunu bildirərək İngiltərə, Türkiyə, İran, İraq, Sovet Rusiyası və Əfqanıstan arasında bir hücum etməmə (Saldırmazlıq) paktının imzalanmasını təklif etmişd. Lakin belə bir paktın 1937-ci ildə İngiltərə və Sovetlər İttifaqının iştirakı olmadan reallaşması, dolayısı ilə bu təklifin İngiltərə tərəfindən müsbət qarşılanmadığı məlum idi (7, 28).

1933-cü il boyunca Türkiyə-İran münasibətləri hər baxımdan yaxşı idi. Hətta bu arada Şahla Qazinin Vanda və ya Şərqi Anadolunun başqa bir yerində görüşdüyü haqqında söhbətlər gəzirdi.

1934-cü ildə Türkiyə-İran münasibətləri daha yüksək səviyyəyə çatdı, belə ki, İran Şahının 1934-cü ildə Türkiyəyə rəsmi səfəri Türkiyədə böyük bir hadisəyə çevrildi (3,695).

1934-cü ildən sonra İranın kürd üsyanlarına qarşı tədbirlər görməsi ilə birlikdə bu ölkə ilə əlaqələrini düzəltməsi ilə yanaşı Sovetlər və İraqla da yaxşı münasibətlər içərisində olması Türkiyəyə İtaliya təhlükəsi qarşisinda hərbi nöqteyi-nəzərdən daha rahat hərəkət etmək imkanı vermiş və şərq sərhəddində mövqe tutan hərbi birliklərin bir çoxunu qərbə ötürmə imkanı vermişdi (7, 33).

Türkiyə 1935-ci ildə Orta Şərqdə təhlükəsizliyi təmin etmək üçün İran və İraqa "Hücum etməmə anlaşması" təklif etmişdir. Şərq ölkələri ilə olan münasibətlərdəki uzlaşma qərb ölkələri ilə münasibətlərində də özünü göstərirdi (7, 33).

Türkiyə heyəti 1936-cı ildə İranla apardığı altı aylıq müzakirələrdən sonra İranla on anlaşma imzaladı. Anlaşmalar bunları əhatə edirdi: hava, dəniz, telefon və teleqraf anlaşması, cinayətkarların ekstradisiyası, mülki vətəndaşlarla bağlı müamilələr, ticari məsələlərdə anlayış, baytarlıq xidmətləri, sərhəd təhlükəsizliyi, Türkiyə-İran arasındakı gömrük dəyişiklikləri, Trabzon-İran arasındakı tranzit yol problemlərinin həll edilməsi. (3,697).

1937-ci ildə Türkiyənin Xarici İşlər Naziri Sadabad paktının imzalanması üçün Tehrana səfər etdi (3, 697).

***Nəticə***. Bu dönəmdə (1921-1925-ci) iki qonşu ölkənin Rza Şah İranı və Mustafa Kamal Türkiyəsinin hədəfləri və maraqları üst-üstə düşürdü. Milliyyətçi tammüstəqillik tərəfdarı və dini təəssübdən arınmış iki rejimin də ortaq düşməniİngiltərə, qısa müddətli dostu Sovet Rusiyasıdır. Bu şəraitdə əməkdaşlıq etməkdən və bir-birilərinə mənəvi də olsa dəstək verməkdən çəkinməmişlər. Cümhuriyyət dövrü Türk-İran münasibətlərində 22 aprel 1926-cı il tarixli Türkiyə-İran Dostluq və Təhlükəsizlik anlaşması bir dönüş nöqtəsini təşil edir. Bu anlaşma bir çox amilin bir araya gəlməsi nəticəsində gerçəkləşdirilmişdir. İkitərəfli münasibətlərdə hüquqi bir zəmin yaratmaq ehtiyacı kürd və azəri milliyətçiləri Sovet İttifaqı və İngiltərə bu anlaşmanı imzalayarkən Türkiyə vəİranın əsas hədəfi iki ölkə münasibətlərində zəruri hüquq zəmin yaratmaq idi.

ƏDƏBİYYAT

1. Ağayev İ. Türkiyə-Almaniya siyasi münasibətləri (1924-1939) // Tarix və onun probelmləri, 2011 №3, s.105-110.
2. Новая история Ирана. Хрестоматия. М., Наука, 1988, 295.

3. Ahmet Özgiray. İngiliz belgeleri ışığında Türk-İran siyasi ilişkileri (1920-1938) // Atatürk Araştırma Merkezi Dergisi, Yıl 1995, Cilt XI, Sayı 33, s.687-698.
4. Barış Cin. Türiye-İran İlişkileri (1923-1938). İstanbul, IQ Kültür Sanat Yayıncılık, 2006,53-80
5. Gökhan Çetinsaya. Atatürk Dönemi Türkiye-İran İlişkileri, (1926-1938) // Avrasya Dosyası, Uluslararası İlişkiler ve stratejik araştırmalar dergisi, Sonbahar, 1999, cilt 5, sayı 3, s.148-175.
6. İsmayıl Soysal. Türkiyenin Siyasal Andlaşmaları (1920-1945). Cilt 1, Ankara, Türk Tarih Kurumu, 2000,282.
7. Mustafa Edip Çelik. İkinci Dünya Savaşı bitiminden Bağdat Paktına geçen süreçte Türkiyenin Orta Doğu politikası // Türkiyat Araştırmaları Enstitüsü Dergisi, 64, Ocak 2019, s.475-497.
8. Nezahat Demir. Türk-İran İlişkileri bağlamında Rıza Pehlevinin Türkiye seyahati. Van, Çağdaş Türkiye Tarihi Araştırmaları dergisi, 2020, 10-15.

**ГЮНАЙ ГУЛИЕВА**
*Азербайджанский Государственный Аграрный Университет*

## ТУРЕЦКО-ИРАНСКИЕ ОТНОШЕНИЯ В НАЧАЛЕ XX ВЕКА

Турецко-иранские отношения в начале XX века развивались в разных формах. События, происходившие в этот период, оказало влияние на отношения между этими странами. В начале XX века между этими странами существовали две проблемы. Одна из этих проблем была связана с этим объединением, другие были связаны с национальной проблемой. В этой перспективе между этими соглашениями подписаны соглашения, и на основе этих соглашений необходимо регулярно выходить на высокий уровень развития в этой сфере.

*Ключевые слова*: Турция, Иран, начало XX века, политические отношения, соглашения.

**GUNAY GULİYEVA**
*Azerbaijan State Agrarian University*

## THE RELATIONSHIPS BETWEEN TURKEY AND IRAN AT THE BEGINNING OF XX CENTURY

The relationships between Turkey and Iran at the beginning of the XX century were developing in the different forms. The events that happened in this period influenced on the relationships between Turkey and Iran. At the beginning of the XX century there were two problems between Turkey and Iran. One of these problems was the border between Turkey and Iran and the other one was the ethnical problem. In this period some agreements were signed between these countries and on the base of this agreements some of their problems were solved.

*Keywords*: Turkey, Iran, the beginning of XX century, political relationships, agreements.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Əsməd Muxtarova, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**GÜNEL CƏFƏROVA**
*Bakı Dövlət Universiteti*
*Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dissertantı*
**abutalibovagulnare@gmail.com**

# 1946-1950-Cİ İLLƏRDƏ BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ TƏDRİS VƏ ELMİ-TƏDQİQAT İŞLƏRİ

*Məqalədə İkinci dünya müharibəsindən sonra, 1946-1950-ci illərdə Bakı Dövlət Universitetində tədris və elmi-tədqiqat işlərinin vəziyyəti araşdırılır. Araşdırmalar göstərir ki, müharibənin başa çatmasından sonra bütün sahələrdə olduğu kimi Universitetin tədris və elmi-tədqiqat işlərində böyük çətinliklər qalırdı. Bakı Dövlət Universitetində ixtisaslı kadrlar, xüsusilə dərs vəsaitləri çatışmırdı.*

*Açar sözlər:* Bakı Dövlət Universiteti, İkinci dünya müharibəsi, tədris, ali təhsil müəssisəsi, elmi-tədqiqat işləri.

***Giriş***. İkinci dünya müharibəsi, müharibənin gedişi, müharibənin başa çatmasından sonra ortaya çıxan çətinliklər bütün SSRİ məkanında olduğu kimi, Azərbaycan, eləcə də onun ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetindən də yan keçmədi. Bütün sahələrdə olduğu kimi, təhsil sistemində də vahid mərkəzçilik prinsipləri davam edirdi.

Müharibədən sonrakı universitet həyatındakı çətinliklərlə bağlı olaraq Universitetin rektoru tərəfindən Azərbaycan SSR Nazirlər Sovetinin sədri və Azərbaycan SSR Maarif Nazirliyinə göndərilmiş məktubda deyilirdi: "S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti respublikanın mədəni, iqtisadi və mənəvi həyatında gənc mütəxəssis kadrların, yüksək ixtisaslı elmi-pedaqoji kadrların (elmlər namizədi, dosent, elmlər doktoru, professor) hazırlanmasında böyük rol oynayır. Bununla belə yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması böyük xərc tələb edir. Bundan əlavə, Universitetdə qiyabi şöbə fəaliyyət göstərir ki, bu şöbənin də dərs vəsaitləri, tədris planları və digər materiallar üçün vəsait lazımdır. Nəhayət, universitet həyatının ən vacib və ciddi məsələlərindən biri SSRİ Ali Təhsil Nazirliyi tərəfindən də təsdiq edilmiş dərsliklərin yazılması və hazırlanmasıdır..." [10, v.7].

16 may 1946-cı ildə Universitet rektoru tərəfindən Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevə və Azərbaycan SSR Maarif komissarı M.İbrahimova ünvanlanmış digər bir məktubda isə universitetlə bağlı vəziyyət aşağıdakı kimi göstərilirdi: "Son illərdə Respublika ali məktəbləri içərisində S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti demək olar ki, mühüm göstəriciləri ilə seçilməkdədir. Belə ki, universitetdə 50 kafedrası olan 8 fakültə, bir elmi-tədqiqat institutu, 3 muzey, 10 laboratoriya və kabinetlər, çoxlu sayda emalatxana, uşaq bağçası, kiçik mətbəə, yeməkxana var. Bütün bunlara baxmayaraq, Universitet keçən il 2 növbəli dərs rejimində və auditoriyaların çatışmazlığı şəraitində tədris həyatını keçirdi. 70 qrupu birləşdirən 2000 tələbə ilə Azərbaycan Dövlət Universiteti 25 auditoriyada dərs keçməyə məcbur oldu. Belə böyük fakültə və tələbə kontingenti ilə kiçik auditoriyalarda dərslərin aparılması olduqca çətinləşib. Filologiya fakültəsinin cəmi 2 kabineti, 3 kafedrası və 339 tələbəsi olan hüquq fakültəsinin isə bir kabinet və bir auditoriyası var. Bu çatışmazlıqlar Universiteti lazımi şəkildə irəli aparmağa imkan vermir. Universitet tələbələri, akademik heyət üçün geniş və yaraşıqlı, normal iş şəraiti qura biləcək otaqlar lazımdır."[12, v. 10]. Məlumatda daha sonra deyilirdi: "Azərbaycan Dövlət Universitetinin aspirantura pilləsinin vəziyyəti daha ağırdır. Belə ki, 84 nəfərlik aspirantura şöbəsinin cəmi 1 otağı var, bura həm dərs otağı, həm də laboratoriya kimi istifadə olunur. Bütün bunları nəzərə alaraq Universitet rəhbərliyi sizdən aşağıdakı məsələlərin həllinə kömək etməyinizi xahiş edir: 1. 1946-cı il 1 iyuladək Kaqanoviç küçəsində yerləşən 190 saylı məktəbin binasını ADU-nun tədris korpusu üçün istifadəsinə keçməsinə; 2. 199 saylı məktəbin ADU-nun yataqxanası kimi istifadəsinə keçməsinə; 3. Kommunist küçəsi 79-da yerləşən yeməkxananı ADU-nun tələbə yeməkxanası kimi istifadəsinə keçməsinə; 4. Kolodeznaya küçəsi, mənzil 21-də yerləşən, 1943-cü ildən xəstəxana kimi istifadə olunan ADU-nun əvvəlki yeməkxanasını özünə qaytarasınız" [12, v.11a].

Aparılan araşdırmalar göstərir ki, 1945-1946-cı dərs ilində Bakı Dövlət Universitetində səkkiz fakültə fəaliyyət göstərirdi. Bunlar filologiya, jurnalistika və mədəniyyətşünaslıq bölməsi olan Filologiya fakültəsi, tarix və fəlsəfə bölməsi olan Tarix fakültəsi, İran və Türkiyə bölmələri olan Şərqşünaslıq fakültəsi, geologiya, coğrafiya, geofizika bölmələri olan Geologiya-Coğrafiya fakültəsi, Hüquq fakültəsi, Fizika-Riyaziyyat fakültəsi, Kimya fakültəsi, Biologiya fakültəsi idi [2, s.140-141].

1946-1950-ci illərdə Bakı Dövlət Universitetində ştatda olan müəllimlərin sayı da kifayət qədər deyildi, əvəzçilik üzrə dərs deyənlərin sayı isə qalmaqda idi [2, s. 139]. Universitetdə ştat və əvəzçilik üzrə dərs deyən pedaqoji heyətin illər üzrə göstəricisi aşağıdakı kimi idi: "1946-1947-ci ildə ştat üzrə 292, əvəzçilik üzrə 56, faktiki vəziyyət-ştat üzrə 256, əvəzçilik üzrə 112 nəfər, 1947-1948-ci ildə ştat cədvəli üzrə 353 nəfər, əvəzçilik üzrə 64 nəfər, faktiki vəziyyət – ştat cədvəli üzrə 283 nəfər, əvəzçilik üzrə 102 nəfər, 1948-1949-cu ildə ştat cədvəli üzrə 353 nəfər, əvəzçilik üzrə 64 nəfər, faktiki vəziyyət – ştat cədvəli üzrə 283 nəfər, əvəzçilik üzrə 102 nəfər, 1949-1950-ci ildə ştat cədvəli üzrə 327 nəfər, əvəzçilik üzrə 55 nəfər, faktiki vəziyyət isə - ştat üzrə 298, əvəzçilik üzrə 67 nəfər idi" [2, s. 139]. Məlumatlardan da göründüyü kimi, BDU-da müharibədən sonra əvəzçiliklə məşğul olan müəllim heyətinin çəkisi qalmaqda idi. Bu rəqəmlərdə azalma yalnız 1950-ci ildə özünü göstərməyə başlamışdı.

Müharibə illərində meydana çıxmış böyük çətinliklər ilə bağlı Universitetdə tədris və elmi-tədqiqat işlərinin vəziyyəti olduqca ağır idi. Buna baxmayaraq, Universitet müharibədən sonrakı ilk illərdə çətin, lakin şərəfli fəaliyyətini davam etdirməklə yanaşı potensialını daha da gücləndirməyə çalışırdı. Əvvəlki illərdə olduğu kimi Universitetin dərs otaqları tədris prosesinin normal qaydada aparılmasına tam cavab vermirdi, elmi-tədqiqatların aparılması üçün zəruri avadanlıqlar və cihazlar çatışmırdı, elmi-pedaqoji və tələbə kollektivinin maddi vəziyyəti qənatbəxş deyildi. Zəruri sayda auditoriyaların olmadığı bir şəraitdə 1945/46-cı tədris ilində I kursda 26 qrupun təşkil olunduğunu nəzərə alsaq, bunun nə qədər çətin olduğunu müəyyən edə bilərik. Əvvəlki illərdə I kursda cəmi 10 qrupun təşkil olunduğu bir vaxtda bu otaq çatışmazlığı kimi problemi yaradırdı. Bu səbəblər üzündən Universitetdə tədris iki növbədə həyata keçirilirdi [4, v. 11].

Kadr çatışmazlığı məsələsində ağır vəziyyət özünü daha qabarıq göstərirdi. Belə ki, Universitetdə ştatda olan müəllimlərin sayı çox az idi. Elmi adı və elmi dərəcəsi olan müəllimlərin çatışmaması xüsusilə diqqəti çəkirdi. Professor-müəllim heyətinin say tərkibini aşağıda göstərilən cədvəldən [1, s.139] müəyyən etmək olar:

| **Dərs ili** | **Ştat cədvəli üzrə nəzərdə tutulmuşdu** | | **Faktiki vəziyyət** | |
|---|---|---|---|---|
| | ştat üzrə | əvəzçilik üzrə | ştat üzrə | əvəzçilik üzrə |
| **1946/47** | 292 | 56 | 256 | 122 |
| **1947/48** | 352 | 64 | 283 | 102 |
| **1948/49** | 353 | 64 | 283 | 102 |
| **1949/50** | 327 | 55 | 298 | 67 |

Bu dövrdə Bakı Dövlət Universitetində elmlər doktorları, elmlər namizədi, professor və dosentlərin çatışmaması kəskin hiss olunurdu. 1945-1946-cı tədris ilində universitetdə ştat cədvəli üzrə 52 professor, elmlər doktoru, onlardan 12 nəfəri əvəzçi, 137 dosent olmalı idi, lakin faktiki olaraq, 30 professor, onlardan 15 nəfər əvəzçi, 119 dosent, onlardan 39 əvəzçi işləyirdi. Bu göstərici 1949-1950-ci tədris ilində professorlar 39, onlardan 13 nəfər əvəzçi, elmlər doktoru 31, onlardan 12 nəfər əvəzçi, dosentlər 134, onlardan 31 nəfər əvəzçi, elmlər namizədi 124, onlardan 31 nəfər əvəzçi idi [2, s.140].

Bu problemlər səbəbindən kafedralara başçılıq etmək və mühazirə kursları oxumaq baş müəllimlərə, hətta müəllimlərə tapşırılırdı. 1949/50-ci tədris ilində Universitetin 53 kafedrasına Azərbaycan SSR EA-nın 3 akademiki (A.İ.Qarayev, M.Ə.Qaşqay, Y.H.Məmmədəliyev), 3 müxbir üzvü

(İ.A.Hüseynov, A.O.Makovelski, M.Ş.Şirəliyev), 14 professor, 27 dosent, 6 baş müəllim başçılıq edirdilər. Kafedraların 33-nün rəhbəri dosentlər və baş müəllimlər idilər [1, s.120].

Arxiv sənədlərindən aydın olur ki, 1947-ci ilin yanvarında Universitet hüquq, filologiya, tarix, geologiya-coğrafiya fakültələri üçün yeni tədris planları aldı. Yeni tədris planlarına uyğun olaraq, əvvəllər təhsil müddəti 4 il olan bu fakültələr 5 illik təhsil müddətinə keçirildi. Bununla əlaqədar olaraq, ikinci kursdan başlayaraq bütün kurslar üçün keçid tədris planları tərtib olundu [11, v.10].

İkinci dünya müharibəsindən sonra Universitetin bütün fakültələri (Şərq fakültəsi istisna olmaqla) 1948-1949-cu dərs ilinə SSRİ Ali Təhsil Nazirliyinin yeni tədris planları əsasında başladılar [5, v.20]. Universitetdə 54 fənn üzrə tədris gedirdi. 1949-1950-ci dərs ilində universitet, kitabxanaşünaslıq fənni istisna olmaqla, bütün fənlər üçün SSRİ Ali Təhsil Nazirliyindən yeni tədris planlarını aldı. Elə həmin ildə Azərbaycan SSR Ali Təhsil Nazirliyində bütün fənlər üzrə tədris planları yenidən işlənib dəyişdirildi [5, v.20].

Bəhs olunan dövrdə çətinliklərdən biri də Azərbaycan dilində ali məktəb tələbələri üçün dərslik və dərs vəsaitlərinin çatışmaması idi. Bu çatışmazlıq Azərbaycan dilində dərslərin tədrisini daha da çətinləşdirirdi. Azərbaycan dilində müvafiq dərsliklərin və dərs vəsaitlərinin olmaması, xüsusilə rus dilinin mənimsəmə səviyyəsi zəif olan I kurslarda dərslərin təşkilində çətinliklər yaradırdı. Azərbaycanlı tələbələrin rus dilini öyrənməsi işinə daha həssas yanaşan rəhbərlik rus dilində dərslik və dərs vəsaitlərindən istifadə edilməsi üçün bu dilə yiyələnməyin vacibliyini və müvafiq tədbirlər hazırlanmasını düşünürdülər.

İkinci dünya müharibəsinin başa çatmasından sonra Universitetin tarix fakültəsində də tədrisin təşkilini yaxşılaşdırmaq üçün əməli addımlar atıldı. Bu baxımdan tarix fənlərinin tədrisini yaxşılaşdırmaq sahəsində AK (b) P MK bürosunun respublikada tarix elminin vəziyyətinə dair 1950-ci ildə qəbul etdiyi qərar, eləcə də tarixçilərin 1950-ci ilin oktyabrında keçirilmiş respublika müşavirəsi böyük rol oynadı. Müşavirədə tarixə dair elmi-tədqiqat işlərinin mövzusuna yenidən baxıldı, universitetdə tarix fənlərinin, ilk növbədə Azərbaycan tarixinin tədrisini yaxşılaşdırmaq sahəsində əməli addımlar atıldı. Bütün bunlar Tarix fakültəsinin dekanı, dosent Ə.Quliyevin məruzəsi əsasında 1950-ci il dekabrın 21-də universitet Elmi Şurasının iclasında hərtərəfli müzakirə edildi [2, s.146].

***Nəticə***. Universitetin 1945-ci ildən etibarən fəaliyyətinin əsas istiqamətləri tədris və elmi-tədqiqat işlərinin dinc dövrün tələbləri səviyyəsində qurmaqla yanaşı, ali təhsil ocağının kadr və maddi-texniki potensialını daha gücləndirmək oldu. Çətin və mürəkkəb siyasi şəraitdə qarşıya qoyulmuş bu vəzifələrin öhdəsindən gəlmək əsasən mümkün olsa da Universitetin ölkəninin və dünyanın aparıcı ali təhsil ocaqlarından birinə çevrilməsi üçün hələ xeyli işlər görülməli idi.

## ƏDƏBIYYAT

1. Bakı Dövlət Universiteti-100 ilin elm və təhsil məbədi. Bakı: Nurlar, 2019, 296 s.
2. Əmrahov Z., İsmayılov S. Bakı Dövlət Universitetinin tarixi. Bakı: Elm və təhsil, 2019, 324 s.
3. Алимирзоев Х. АГУ за 50 лет. Исторический очерк. Баку: АГИ, 1969, 465 s.
4. АГУ им. С.М.Кирова. Справка по состоянию на 1 октября 1953 г. – ARDA, f. 1640, siy. 1, sax. vah. 24, v. 11.
5. Доклад доц. Джавадова М.А. об итогах весенный экзаменационной сессии в государственных экзаменов 1948/1949 уч.г. по АГУ им.С.М.Кирова. - ARDA, f.1640, siy.4, sax.vah.209, v.20.
6. Заседания Ученого Совета Азгосуниверситета им. С.М.Кирова. 06.10.1949 г. - ARDA, f. 1640, siy. 4, sax. vah. 211, v. 90-92.
7. Начальнику Главного Управления Университетов Министерства Высшего Образования СССР, проф. Фигаровскому Н.А. – ARDA, f. 1640, siy. 1, sax. vah. 135, v. 1.
8. Нацальнику соц. культотдела совнаркома Аз. ССР. - ARDA, f. 411, siy. 8, sax. vah. 252, v. 84.
9. Отчет АГУ им. С.М.Кирова за 1947-1948 уч. г. – ARDA, f. 1640, siy. 1, sax. vah. 151, v. 1.
10. Председателю Совета Министров Аз. ССР тов. Кулиеву. 03.05.1946. – ARDA, f. 411, siy. 42, sax. vah. 37, v.7.
11. Председателю Совета Министров Аз. ССР тов. Кулиеву. 16.05.1946. – ARDA, f.411, siy.42, sax.vah.37, v.10.

12. Председателю Совета Министров Аз. ССР тов. Кулиеву. 16.05.1946. – ARDA, f. 411, siy.42, sax.vah.37, v.10.
13. Председателю Совета Министров Аз. ССР. 23.05.1946. - ARDA, f.411, siy.42, sax.vah.37, v.18.
14. Приказ № 164. По Министерству Высшего Образования СССР. – ARDA, f.1640, siy.1, sax.vah.135, v.2.

**ГЮНЕЛЬ ДЖАФАРОВА**
*Диссертант Бакинского Государственного Университета*

## ПРЕПОДАВАТЕЛЬСКАЯ И НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКАЯ РАБОТА В БАКИНСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ В 1946-1950 ГГ.

В статье рассматривается состояние учебно-научной работы в Бакинском государственном университете после Второй мировой войны, в 1946-1950 гг. Исследования показывают, что после окончания войны, как и во всех областях, в учебно-научной работе университета возникли большие трудности. Бакинскому государственному университету не хватало квалифицированных кадров, особенно учебных материалов.

*Ключевые слова:* Бакинский Государственный Университет, Вторая мировая война, преподавание, высшее учебное заведение, научно-исследовательская работа.

**GUNEL JAFAROVA**
*Dissertation student of Baku State University*

## TEACHİNG AND RESEARCH WORK AT THE BAKU STATE UNİVERSİTY İN 1946-1950

The article discusses educational and scientific work at the Baku State University after the Second World War, in 1946-1950. Studies show that after the end of the war, as in all areas, great difficulties arose in the educational and scientific work of the university. Baku State University lacked qualified personnel, especially teaching materials.

*Keywords*: Baku State University, Second World war, teaching, higher education institution, research work.

*Məqalənin redaksiyaya daxil olduğu tarix:15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev..*

**UOT 94(479.24)**

**İLQAR HEYDƏROV**
*Bakı Dövlət Universiteti*
**TarixVeOnunProblemlery@gmail.com**

# AZƏRBAYCANDA SƏNAYE VƏ NƏQLİYYATIN İNKİŞAFI (1969-1982-ci illər)

*Məqalədə 1969-1982-ci illərdə Azərbaycanda sənaye və nəqliyyatın ən müxtəlif sahələrində inkişafdan danışılır. Burada göstərilən müddətə qədər respublika iqtisadiyyatında olmuş durğunluq və onu doğuran səbəblərlə yanaşı, 1969-1982-ci illər ərzində ölkəmizdə baş vermiş inkişaf, onun üçün görülmüş tədbirlər, onların rolu və əhəmiyyəti haqqında da ətraflı məlumat verilir.*

*Açar sözlər*: sənaye, nəqliyyat, neft, qaz, istehsal.

***Giriş***. Azərbaycan KP MK-nın 1969-cu il iyulun 14-də keçirilən plenumu böyük tarixi hadisə kimi tarixə düşmüşdür. Belə ki, həmin gün Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. Bununla da Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyulmuşdur. Həmin il avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək respublika iqtisadiyatını dərin və hərtərəfli təhlil etmiş, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu müəyyənləşdirmiş və onları aradan qaldırmaq yollarını göstərdi. [1, 174].

Göstərilməlidir ki, aşkar edilən nöqsanlara qarşı dərhal başlanılan qəti və güzəştsiz mübarizə tezliklə öz nəticəsini verməyə başladı. Belə ki, artıq 1976-cı il yanvarın 28-də keçirilmiş Azərbaycan KP-nın XXIX qurultayında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev özünün məruzəsində bildirirdi ki, "yaxın keçmişə qədər Azərbaycan sənayesi uzun müddət bütün texniki-iqtisadi göstəricilərdə İttifaqa aid orta səviyyədən geri qalırdı. Bunun başlıca səbəbləri iqtisadiyyata rəhbərlik səviyyəsinin aşağı olması, respublikada məhsuldar qüvvələrin planlaşdırılmasında və onlardan istifadə edilməsində səhvlərə, qüsurlara və nöqsanlara yol verilməsində idi" [2].

"Azərbaycan SSR xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1970-ci il 25 iyul tarixli qərarında göstərilmişdi ki, son illər respublikanın iqtisadiyyatı "qeyri-qənaətbəxş bir sürətlə inkişaf etmişdir, bu isə neft və qaz hasilatının azalmasından, maşınqayırma sənayesinin, yüngül sənayenin və yeyinti məhsulları sənayesinin, habelə kənd təsərrüfatının ləng inkişaf etməsindən, kimya sənayesində və əlvan metallurgiyada yeni qurğuların işlədilməsinin yarıtmaz vəziyyətdə olmasından irəli gəlmişdir" [2]. Eyni zamanda bu mühüm sənəddə respublikanın iqtisadiyyatını sürətlə yüksəltmək, nöqsanları aradan qaldırmaq üçün geniş proqram verilmiş, Azərbaycan sənayesinə böyük maddi – texniki yardım göstərmək üçün əməli tədbirlər kompleksi nəzərdə tutlmuşdu".

Göstərilməlidir ki, Azərbaycan Respublikasının rəhbərliyi o vaxtlar mövcud imkanlardan maksimal səvviyyədə bəhrələnərək respublikada sənayenin inkişafında irəliyə doğru doğurdan da çox böyük, inamlı addımlar atdı. Belə ki, elə XXIX qurultayın materiallarında göstərildiyi kimi sənaye istehsalı beş il ərzində (1971-1976) Sov.İKP-nin XXIV qurultayının Direktivlərində nəzərdə tutlan 43-46 faiz əvəzinə, 50 faiz artdı. Burada qeyd etmək yerinə düşərdi ki, ümumiyyətlə götürdükdə Azərbaycan SSR-də sənaye istehsalı o vaxtkı SSRİ respublikaları arasında artım sürətinə görə artıq fərqlənirdi. Belə ki, respublikamızda sənaye istehsalı 1913-cü ilə nisbətən 1940-cı ildə 5,9 dəfə, 1965-ci ildə 24 dəfə, 1970-ci ildə 33 dəfə artmışdırsa, 1975-ci ildə 49, 1976-cı ildə isə 53 dəfə artmışdır [5, 98]. Orta illik artım sürəti 1966-1971-ci illərdəkinə nisbətən 29 faiz artmış və əvvəlki 20 il ərzindəkindən çox olmuşdur. Qeyd etmək yerinə düşərdi ki, respublika iqtisadiyyatına sərmayə qoyuluşunun həcmi 1971-1985-ci illərdə 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi [4, 81]. Neftayırma və Kimya Sənayesi Nazirliyi, Yüngül Sənaye Nazirliyi, Ət və Süd Sənayesi Nazirliyi, Yerli Sənaye Nazirliyi, Əlvan Metallurgiya Birliyi və İttifaq Neft Maşınqayırma Müəssisələri Birliyi, Elektrotexnika Sənayesi Nazirliyinin müəssisələri, Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi və başqaları istehsalın həcminin artım

sürətinə dair tapşırıqları vaxtından əvvəl yerinə yetirmişlər. Məhsul istehsalı Naxçıvan MSSR-də təqribən iki dəfə, Mingəçevirdə 76%, Gəncədə (Kirovabadda) 68%, Sumqayıtda 56% artmışdır [2].

Əmək məhsuldarlığı 1971-1976-cı illər ərzində 31,1% əvəzinə 34% artmışdır. Sənaye məhsulu buraxılışı artımının təqribən 76%-i təkcə bunun hesabına əldə edilmişdir. 1971-1976-cı illər ərzində əmək məhsuldarlığının orta illik artım sürəti 1965-1970-ci illər ərzində artdığı 4,8% əvəzinə 6,1% artmışdır. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, bütün sənaye istehsalı 1970-ci ildə 1940-cı ilə nisbətən 552%, 1971-ci ildə isə 585% artmışdır [4, 50].

Xalq təsərrüfatı planında nəzərdə tutulduğu kimi, maşınqayırma və metal emalı daha sürətlə inkişaf etmişdir. Burada məhsul istehsalı 1970-ci ildəkinə nisbətən 73%, kimya və neft kimyası sənayesində 72%, yeyinti məhsulları sənayesində 71% artmışdır. Respublika xalq istehlakı malları istehsal edən sahələrin üstün sürətlə artırılmasını təmin etmək kimi mühüm vəzifənin öhdəsindən gəlmişdir. "B" qrupunda istehsal həcmi 1971-1976-cı illər ərzində 51% artmışdır ki, bu da plan tapşırıqlarında nəzərdə tutulduğundan çoxdur. Lakin eyni zamanda, məhsulu respublikada bütün sənaye istehsalının 73,7 %-ni təşkil edən ağır sənayenin üstün mövqeyi saxlanmışdır. Həmçinin qeyd edilməlidir ki, orta hesabla il ərzində "A" qrupunun artım sürəti 1965-1970-ci illər ərzindəkindən 41% çox olmuşdur. Sənaye istehsalının ümumi həcmində maşınqayırmanın ümumi həcmində maşınqayırmanın və metal emalının xüsusi çəkisi 1970-ci ildəki 12,7% əvəzinə təqribən 15%-ə çatdırılmış, həm də müasir sənayenin elektrotexnika kimi perspektivli sahəsində daha böyük irəliləyiş olmuşdur; bu sahədə məhsul buraxılışı 1,7 dəfə artmışdır. Bakı məişət kondisioneri zavodunun işə salınması ilə əlaqədar olaraq elektrotexnika sənayesi istehsalının həcmi təqribən 1,5 dəfə artacaqdır. Respublikada maşınqayırmanın yeni, mütərəqqi sahələri – elektron, radio, sənayesi sahələri, yüngül sənaye və yeyinti məhsulları sənayesi üçün maşınqayırma sahəsi və s. sahələr yaranmışdır.

Kimya və neft kimyası sənayeində irəliyə doğru yeni addım atılmış və bu sənayenin xüsusi çəkisi 1970-ci ildəki 7,5%-dən 1975-ci ildə 8,4%-ə çatmışdır. Ən mühüm məhsul növlərinin – mineral gübrələrin, plastik kütlələrin, sintetik qatranların, sintetik kauçukun, sulfanolun istehsalı həmin müddətdə 55-90%, sulfat turşusu istehsalı 3 dəfə, məişət kimyası malları istehsalı 2 dəfə artmışdır. Sənayenin strukturunda yeyinti məhsulları sənayesinin payı nəzərə çarpacaq dərəcədə artmış – 1970-ci ildəki 23,2 faizdən 1975-ci ildə 26,4%-ə çatmışdır [2]. Buna iki amil – yeni müəssisələrin işə salınması və Azərbaycanın kolxoz və sovxozlarından kənd təsərrüfatı xammalı alınmasının xeyli artması kimi amillər kömək etmişdir.

Sumqayıt sintetik kauçuk zavodunda, Gəncə (Kirovabad) alümünium zavodunda, Kirov adına Neft və Qazçıxarma İdarəsində, Bakı şin zavodunda və uzun illər planların öhdəsindən gəlməyən digər iri müəssisələrdə də irəliyə doğru inamlı addımlar atılmış, yüksək nəticələr əldə edilmişdir.

Məlumdur ki, neft kimyası və neftayırma sənayesi bilavasitə neft sənayesinin vəziyyətindən asılıdır. 1971-1975-ci illərdə Azərbaycan neftçiləri yeni müvəffəqiyyətlər qazanmışlar. Azərneft birliyi və Xəzər Dəniz Neft Birliyi məhsul satışına dair 1971-1975-ci illər üçün tapşırıqları vaxtından əvvəl ödəmiş, qaz çıxarılması planlarını artıqlaması ilə yerinə yetirmişlər. Qaz çıxarılması 1966-1970-ci illərdəkinə nisbətən təqribən bir dəfə yarım artmışdır. Neft hesabı ilə üst-üstə neft və qaz çıxarılması 1975-ci ildə 27,1 milyon ton olmuşdur ki, bu da respublikada 1941-ci ildəki ən yüksək hasilatdan bir milyon ton çoxdur. Azərneft birliyi üzrə hasilatın azalması sürəti 1966-1970-ci illərdəki 7,2%-ə nisbətən 4,3%-ə enmişdir. Neft sənayesində geoloji-kəşfiyyat işlərinin səmərəsi xeyli artırılmış, 8 yataq, 22 neft və qaz mədəni kəşf edilmişdir. Neftin sənaye ehtiyatlarının artımı 1966-1970-ci illərdəkinə nisbətən üç dəfə, qazın sənaye ehtiyatlarının artımı isə iki dəfə çoxalmışdır. Azərbaycanda milyardıncı ton neft hasil edilmişdir [2].

Göstərilməlidir ki, 1976-cı ilin yanvarında keçirilmiş XXIX qurultayda 1976-1980-cı illər ərzində neftçilər qarşısında daha mürəkkəb vəzifələrin dayandığı göstərilmişdir. 1980-cı ildə respublikada kondensatla birlikdə 22.150 min ton neft və 11 milyard kubmetr qaz çıxarmaq nəzərdə tutulmuşdu [2].

1971-1975-ci illər ərzində nəqliyyat və rabitənin işinin təkmilləşdirilməsinə və yaxşılaşdırılmasına xüsusilə ciddi fikir verilmişdir. Dəmir yol nəqliyyatının əsas fondları 1966-1970-ci illərdəkinə nisbətən ikiqat artmışdır. Yük dövriyyəsinin ümumi həcmi 28% coxalmışdır. Vaqonların və lokomotivlərin dövriyyəsi xeyli artmışdır. Beş il ərzində Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1970-

ci il 25 iyul tarixli qərarında nəzərdə tutulan 15 obyektin tikintisi və yenidən qurulması başa çatdırılmışdır.

Xəzər Dəniz Gəmiçiliyi İdarəsi 1966-1970-ci illər üçün nəzərdə tutlmuş planı artıqlaması ilə həyata keçirmişdir.

1966-1970-ci illər ərzində xalq təsərrüfatında aviasiyanın tətbiqi 1,8 dəfə artmışdır. Aviatorlar xüsusən kənd təsərrüfatına fəal kömək göstərirlər. İndi hava nəqliyyatı Azərbaycanın şəhər və rayonlarının əksəriyyətini bir-biri ilə, respublikanın paytaxtını isə ölknin ölkənin 50 şəhəri ilə birləşdirir. Lakin həll edilməmiş məsələlər də az deyildir. Lakin 1971-1976-cı illər ərzində aviadaşımalar da xeyli çoxalmışdır. Belə ki, 1960-cı ildə 2073 sərnişin və 47,5 ton yük daşınmışdırsa, 1970-ci ildə 35404 sərnişin, 12 ton poçt və 146 ton yük daşınmışdır. 10 il sonra isə sərnişin daşımalarının sayı 63843 nəfərə, poçt daşınmaları 16,7 tona, yük daşımaları isə 387,3 tona çatdırılmışdır [6, 48].

1971-1975-cı illər ərzində avtomobil nəqliyyatında yük dövriyyəsi və sərnişin daşınması xeyli artmiş, daşımaların maya dəyəri xeyli aşağı salınmışdır. Lakin bu dövr haqqında danışılarkən qeyd edilmişdir ki, bu sahədə ehtiyat imkanları hələ də çoxdur. Belə ki, yük maşınlarının təqribən 40%-i daşımalarda iştirak etmir, boş maşınların yola çıxması halları çoxdur. Azərbaycanda 4700-ə yaxın nəqliyyat təşkilatı vardır. Lakin onların üçdə ikisində avtomobillərin sayı 10-dan azdır. Avtomobil Nəqliyyatı Nazirliyində yük maşınları parkının yalnız 15%-nin cəmləşdirildiyi iriləşdirilmiş müəssisələr respublikada bütün yük dövriyyəsinin üçdə bir hissəsini yerinə yetirir [2]. İxtisaslaşdırılmış iri birliklər, istehsalat avtomobil kombinatları yaratmaq üçün qəti xətt yeritmək zərurətindən dəfələrlə danışılmışdır. Lakin bunun üçün görülən əməli tədbirlər azdır.

Göstərilməlidir ki, növbəti beş il – 1976-1980-cı illər ərzində də sənaye və nəqliyyat sahəsində kifayət qədər böyük nailiyyət qazanılmışdır. Belə ki, 1980-cı il martın 15-də Azərbaycan SSR sənaye istehsalına dair beşillik planın vaxtından əvvəl yerinə yetirilməsi haqqında raport vermişdir. 1976-1980-cı illər ərzində sənaye istehsalının həcmi planda nəzərdə tutulan 39% əvəzinə 47% artmışdır. Bu, o vaxtkı müttəfiq respublikalar arasında ən yüksək artım sürəti olmuşdur [3]. Bütövlükdə 1976-1980-cı illər ərzində sənaye istehsalının ümumi həcmi 40 milyard manata çatmışdır ki, bu da 1971-1976-cı illərdəki göstəricilərdən bir dəfə yarım artıqdır və ya üst-üstə təqribən altıncı, yeddinci və səkkizinci beşilliklərdə olduğu qədərdir [3]. İstehsal həcmlərinin mütləq artımı 3 milyard manat olmuşdur. Bu, bütün 1984-cü il ərzində buraxılmış məhsuldan çoxdur. Respublikanın məcmu ictimai məhsulunda sənayenin xüsusi çəkisi 63,8 faizdən artıb 65,1 faizə çatmışdır. Sənaye sahəsində strateji vəzifənin həyata keçirilməsi – onun strukturunun təkmilləşdirilməsi, sahələrarası və sahədaxili proporsiyaların yaxşılaşması, sənaye istehsalının ümumi həcmində mütərəqqi sahələrin xüsusi çəkisinin artması ardıcıllıqda davam etdirilmişdir. İndi ümumi məhsulun 28%-i mütərəqqi sahələrin payına düşür. 1975-ci ildə isə 24,7%-i və 1970-ci ildə 22,5 %-i düşürdü. Bu sahələrdə istehsalın ümumi həcmi 1976-1980-cı illərdə 11 milyardı ötüb keçmiş, 1971-1976-cı illərdəkinə nisbətən təqribən ikiqat artmışdır [3].

“1976-1980-cı illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsinin nəticələri haqqında” Sov.İKP MK-nın 1976-cı il 27 iyul tarixli qərarının həyata keçirilməsi bu çox mühüm iqtisadi və sosial vəzifənin yerinə yetirilməsində olduqca mühüm rol oynamışdır. Bu qərar elmi-texniki tərəqqi əsasında respublika sənayesinin, bütün iqtisadiyyatının hərtərəfli inkişafının prinsipcə yeni mərhələsinin başlanğıcını qoymuşdur. Orta və kiçik şəhərlərdə və rayonlarda istehsal edilən sənaye məhsulunun xüsusi çəkisi 1976-1980-cı illər ərzində 1,6 dəfə artmış və 1980-cı ildə 33,2% olmuşdur [3].

1976-1980-cı illər ərzində respublikada xalq istehlakı malları istehsal edən sahələrinin üstün inkişafı nəticəsində “B” qrupu üzrə artım sürəti 58,6% təşkil edərək plan tapşırıqlarını ötüb keçmişdir. Mütləq artım bir milyard manata çatmışdır ki, bu da üst-üstə yeddinci və səkkizinci beşilliklərdəkindən təqribən 1,7 dəfə çoxdur. Kütləvi tələbat olan məmulatın istehsalı on il ərzində 2,4 dəfə artmışdır. İstehlak mallarının 10 mindən çox yeni növ və modellərinin buraxılışı təşkil edilmişdir.

Bütün yetmişinci illər ərzində sənaye istehsalı yüksək sürətlə inkişaf etmişdir. 1970-ci ildə 1940-cı illə müqayisədə bütün sənaye istehsalı 106%, o cümlədən istehsal məhsulları istehsalı (“A” qrupu) 106%, istehlak məhsulları istehsalı (“B” qrupu) da öz növbəsində 106% artmışdır [4]. Bütövlükdə 1971-1976-cı və 1976-1980-cı illər ərzində ərzində sənaye istehsalı 2,2 dəfə artmışdır. 1980-cı

ildə sənaye məhsulunun ümumi istehsalı 9,4 milyard manatlıq olmuşdur. 1970-ci ildən əvvəlki 50 il ərzində isə 4 milyard manat səviyyəsində idi. 1971-1980-cı illər ərzində 1945-ci ildən 1970-ci ilədək olan bütün dövrdəkindən 1,3 dəfə çox məhsul buraxılmışdır. Sənaye məhsulunun orta illik artım sürəti 8,2% olmuşdur ki, bu da əvvəlki on illiyə (1961-1970) nisbətən 19% çoxdur. İndi sənayenin əsas istehsal fondları 8,3 milyard manat təşkil edir ki, bu da 1969-cu ildəkindən təqribən ikiqat artıqdır [3]. On il ərzində respublika müəssisələrində 3500 növ, o çümlədən SSRİ-də ilk dəfə olaraq təqribən 400 növ yeni maşın avadanlıq, cihaz, material və başqa məmulat yaradılmış və istehsal edilməyə başlanmışdır. Texniki tərəqqinin bütün istiqamətləri üzrə 52 min tədbir tətbiq edilmişdir ki, bunların da illik iqtisadi səmərəsi 500 milyon manatdan artıqdır.

Məlumdur ki, sənayenin inkişafının ən mühüm göstəricilərindən biri əmək məhsuldarlığının yüksəldilməsidir. Ümumiyyətlə, 1971-1980-cı illər ərzində əmək məhsuldarlığı 1,7 dəfə artmış və məhsul artımının 75%-i, 1980-cı ildə isə ilk dəfə olaraq 81%-i bu amil hesabına əldə edilmişdir. İndi bir milyon manatlıq məhsul istehsal etmək üçün 1975-ci ildəki 55 nəfər və 1970-ci ildəki 75 nəfər əvəzinə 43 nəfər işçi tələb olunur. Başqa sözlərlə deyilərsə, on il ərzində 300 min adamın əməyinə qənaət edilmşdir ki, bu da respublikanın 1965-ci ildəki bütün sənaye-istehsal işçilərinin sayına bərabərdir. Respublikanın bütün müəssisələrinin təqribən üçdə bir hissəsi əmək məhsuldarlığının yüksəldilməsinə dair 1976-1980-cı illərə dair tapşırıqların öhdəsindən gəlmişdir.

1976-1980-cı illər ərzində maşınqayırmada istehsalın həcmi tapşırıqda nəzərdə tutulan 1,8% əvəzinə 2 dəfə artmışdır. Respublikada sənaye istehsalının ümumi həcmində sahənin xüsusi çəkisi 1970- ci ildəki 11% əvəzinə 16,1% -ə çatmışdır. 1100-dən çox yeni növ maşın, aqreqat, avadanlıq, aparat, cihaz və məmulat buraxılışı qaydaya salınmışdır [3].

1976-1980-cı illərdə nəqliyyatın da inkişafında bir sıra nailiyyətlər əldə edilmişdir. Xalq təsərrüfatının bütün yük dövriyyəsinin 60%-dən çoxu dəmir yolu nəqliyyatının payına düşür və nəqliyyatın bu növü yük dövriyyəsini 5% artırmışdır. Elektrikləşdirilmiş xətlərin uzunluğu 1,1 dəfə artmışdır və indi onların xüsusi çəkisi 60%-ə yaxınlaşır. Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin donanmasının üçdə biri təzələnmişdir. Avtomobillərin sayı 25% artdığı halda, onlarla yük daşınması 54% artmışdır. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması 1,3 dəfə artmışdır [3]. Azərbaycanı ölkənin başqa şəhərləri ilə 60-dan artıq aviasiya xətti birləşdirir ki, bu da on il bundan əvvəl olduğundan iki dəfə çoxdur [3].

***Nəticə***. Göründüyü kimi 1969-1982-cı illərdə Azərbaycan SSR-də istər sənaye, istərsə də nəqliyyat sahəsində kifayət qədər böyük irəliləyiş olmuş, ölkəmiz ümumiyyətlə götürdükdə nəzərə çarpacaq müvəffəqiyyətlər əldə etmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, “Elm”, 2008, 608 s.
2. Azərbaycan KP-nın XXIX qurultayına Azərbaycan KP MK-nın hesabat məruzəsi. H.Əliyevin məruzəsi / “Kommunist” qəzeti, 29 Yanvar 1976-cı il.
3. Azərbaycan KP-nin XXX qurultayının materialları. H.Əliyevin məruzəsi / “Kommunist” qəzeti, 29 Yanvar 1981-ci il.
4. Народное хозяйство Азербайджанской ССР к 50-летию СССР. Юбилейный статистический ежегодник. Баку, 1972, 179 с.
5. СССР в цифрах в 1976 году. М., «Статистика», 1977, 128 с.
6. В небе Азербайджана. Баку, Азербайджанское Государственное Издательство, 1983, 81 с.

**ИЛЬГАР ГЕЙДАРОВ**
*Бакинский Государственный Университет*

## РАЗВИТИЕ ПРОМЫШЛЕННОСТИ И ТРАНСПОРТА В АЗЕРБАЙДЖАНЕ (в 1969-1982 гг.)

Данная статья посвящена проблеме развития разных областей промышленности и транспорта в период с 1969 по 1982 гг. Статья, наряду с подробным анализом застоя в экономике

республики, наблюдавшегося до указанного периода, причин, вызвавших его, содержит также и подробную информацию о развитии, которое наблюдалось в 1969-1982 гг. принятых для этого мерах, их роли и значении.

*Ключевые слова*: промышленность, транспорт, нефть, газ, производство.

**ILGAR HEYDAROV**
*Baku State University*

## THE DEVELOPMENT OF İNDUSTRY AND TRANSPORT İN AZERBAİJAN (1969-1982 YEARS)

In this article about the development in defferent fields of industry and transport during 1969-1982 years is spoken. Besides the stagnation including its causes existed in the economy of the republic up to the period of time stated above, and also the development that took place during 1969-1982 years, the measurements taken for it, their role and importance have thoroughly been mentioned in this article.

*Keywords*: industry, transport, oil, gas, production.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); UOT 94; UOT 32:93/94**

**EMIL ŞELEMANOV**
*Azərbaycan Dövlət Pedoqoji Universiteti*
**Emil Ibrahimli@gmail.ru**

# AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ SİYASƏTİNDƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ İLƏ QARŞILIQLI SİYASİ ƏLAQƏLƏR

*Məqalədə Azərbaycan Respublikası xarici siyasətində Şərqi Avropa ölkələri ilə qarşılıqlı siyasi əlaqələrinin qurulmasının müxtəlif aspektləri tədqiq edilmişdir. Burada müəllif Azərbaycan Respublikasının bu istiqamətdə aparılan xarici siyastinin konseptual amillərini araşdırmışdır. Daha sonra Bolqarıstan və Rumıniya ilə siyasi münasibətlərin qurulmasına və inkişafına toxunulmuşdur. Şərqi Avropa ölkələri ilə əlaqələrin vacibliyi və əhəmiyyəti vurğulanmışdır.Ümummilli Lider Heydər Əliyevin xarici siyasətində önəmli məsələlərdən biri də Şərqi Avropa ölkələri ilə olan münasibətlər idi.*

*Açar sözlər*: Şərqi Avropa ölkələri, Bolqarıstan, Macarıstan, Rumıniya, Polşa.

***Giriş***. Azərbaycan Respublikası xarici siyasətində Şərqi Avropa ölkələri ilə qarşılıqlı siyasi əlaqələrinin qurulması humanitar sahədə münasibətlərin inkişafının təməllərini təşkil etməkdədir. Bu ölkələrdən biri Bolqarıstandır. Bolqarıstan Azərbaycanın müstəqilliyini 1992-ci ilin yanvarında tanımışdır. Diplomatik münasibətlər isə həmin ilin iyununda yaradılmşdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bütöv bir dövr ərzində Bolqarıstan və Azərbaycan əlaqələri sabit və aktiv şəkildə inkişaf etmişdir. Qarşılıqlı əlaqələrin möhkəm təməli Bolqarıstan Respublikasının Prezidenti cənab Zhelyu Zhelevin (1990-1997) dəvəti ilə 19-30 iyun 1995-ci il tarixlərində Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Sofiyaya rəsmi səfəri zamanı iki ölkə arasında imzalanmış "Dostluq və əməkdaşlıq haqqında Saziş" ilə qoyulmuşdur. Qeyd edilən səfər zamanı Bolqarıstan prezidenti Ümummilli Lider Heydər Əliyevin səfəri ilə bağlı ziyafət vermişdir. Bu ziyafət zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bolqarıstan Azərbaycan münasibətlərinin strateji mahiyyətindən söz açmışdır. O bildirmişdir: "Azərbaycanın milli dövlət müstəqilliyinin və ərazi bütövlüyünün Bolqarıstan dövləti tərəfindən dəstəklənməsi bizə böyük köməkdir.." Müasibətlərin inkişafının məntiqi davamı olaraq Bolqarıstan Respublikasının Nazirlər Şurasının 19 fevral 1998-ci il tarixli qərarına əsasən, 1999-cu ilin dekabr ayında Bolqarıstan Respublikasının Bakıda səfirliyi açılmışdır. 1999-cu ilin dekabrında Bolqarıstan Prezidenti Peter Stoyanov Azərbaycanda rəsmi səfərdə olub və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşmüşdür. 2002-ci ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Bolqarıstan Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Azərbaycan Ölkələr arasındakı yüksək səviyyəli görüşlər münasibətlərin davamlı xarakter almasında böyük rol oynamışdır. Bu baxımdan Bolqarıstan Prezidenti G.Pırvanovun 2004-cü ildə Azərbaycana səfərini də yüksək qiymətləndirmək lazımdır. Bolqarıstan Prezidenti Georgi Pırvanov 2004-cü ilin oktyabrında Azərbaycana rəsmi səfər etmişdir. Onun Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətində hər iki ölkənin mövcud əlaqələri daha da inkişaf etdirmək niyyəti ifadə olunmuşdur. 2009-cu il Noyabrın 13-də Prezident İlham Əliyev Bolqarıstana işgüzar səfərə yola düşmüşdür. Həmin gün Prezident İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun görüşü olmuşdur. Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. İqtisadi əlaqələrin, o cümlədən enerji sahəsində əməkdaşlığın perspektivləri müzakirə edildi. Beləliklə, görmək olur ki, Azərbaycan-Bolqarıstan əlaqələri 1991-2010-cu illər arasında olan dövrdə qarşılıqlı intensivlik şəraitində inkişaf etmişdir.

Daha bir Şərqi Avropa ölkəsi olan Rumıniya ilə münasibətlər də tarixi baxımından maraq doğurmaqdadır. Rumıniya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 11-də tanımışdır. 1997-ci ildə Rumıniyanın Azərbaycanda səfirliyi, 2001-ci ildə isə Şərqi Avropa dövlətlərində ilk dəfə olaraq Azərbaycanın Rumıniyada səfirliyi açılmışdır. 1995-ci ilin iyulunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rumıniyaya rəsmi səfər etmişdir. 1996-cı ilin martında Rumıniya Prezidenti İon İliyesku Azərbaycana rəsmi səfərə gəlmişdir. 1998-ci il iyunun 29-da Rumıniya Prezidenti

Emil Konstantinesku Heydər Əliyevin dəvətilə Azərbaycana rəsmi səfərə gəlmişdir. Səfər zamanı "Azərbaycan Respublikası ilə Rumıniya Respublikası arasında dostluq münasibətlərinin və tərəfdaşlığın inkişafı haqqında" bəyannamə imzalanmışdır. Bəyannaməyə əsasən Azərbaycan Respublikası və Rumıniya BMT Nizamnaməsinin və ATƏT-in əsas sənədlərinin prinsiplərini rəhbər tutaraq, öz münasibətlərini bir-birinin müstəqilliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və dəstəklənməsinə əsaslanan qarşılıqlı hörmət, etimad və tərəfdaşlıq ruhunda qururlar 2002-ci il oktyabrın 29-da Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rumıniya Prezidenti İon İliyesku ilə təkbətək görüşü olmuşdur.

2003-cü ilin oktyabrında İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra da Rumıniya ilə əlaqələr uğurla inkişaf etdirilir. 2004-cü ilin oktyabrın 11-12-də İlham Əliyev Rumıniyaya rəsmi səfərə getmişdir. Rumıniya prezidenti T.Basesku 2006-cı il oktyabrın 11-də Azərbaycana ilk rəsmi səfərə gəlmişdir. Azərbaycan prezidenti İlham Əliyev 2009-cu il sentyabrın 28-29-da Rumıniyada rəsmi səfərdə olmuşdur. 1991-2010-cu illər Azərbaycan-Rumıniya münasibətlərinin inkişafı onu deməyə əsas verir ki, bu dövrlərdə müasir əlaqələrin möhkəm təməlləri qurulmuşdur.

Onu qeyd edək ki, Azərbaycan Polşa əlaqələri qədim tarixə malikdir. Azərbaycan-Polşa tarixi əlaqələrinə aid qədim sənədlərdən məlum olur ki, ilk dəfə olaraq 1472-ci ildə Azərbaycan Dövləti olan Ağqoyunlular sülaləsi və Polşanın Yaqellon sülaləsi dövründə iki ölkə arasında diplomatik missiya mübadiləsi baş vermişdir. Belə ki, 1472-ci ildə Ağqoyunlular tərəfmdən Polşaya diplomatik missiya göndərilmişdir. Bunu nəzərə alsaq, 2012-ci ildə Azərbaycan-Polşa diplomatik əlaqələrinin başlanmasmm 540 illiyi tamam oldu. Ağqoyunlular sülaləsindən sonrakı dövrlərdə də Azərbaycan-Polşa münasibətlərində inkişaf tendensiyası müşahidə olunmuşdur. Bunu təsdiq edən çoxlu sayda tarixi sənədlər mövcuddur.

Polşa 27 dekabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanımışdır. Azərbaycan ilə Polşa arasında diplomatik münasibətlər 21 fevral 1992-ci ildə qurulmuşdur. Polşanın Azərbaycandakı səfirliyi 23 avqust 2001-ci ildə fəaliyyətə başlamışdır. 30 avqust 2004-cü ildə Azərbaycanın Polşada səfirliyi açılmışdır. 25-28 avqust 1997-ci ildə Heydər Əliyevin Polşaya rəsmi səfəri gerçəkləşmişdir. Bu səfər zamanı Polşa ilə münasibətlərdə konseptual əsaslar Heydər Əliyevin çıxışında aşağıdakı kimi ifadə edilmişdir: "Hörmətli dostlar, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə qətiyyətlə gedir. Biz iqtisadi islahatları uğurla həyata keçiririk və artıq müsbət nəticələrə nail olmuşuq. Azərbaycanda köhnə rejim, köhnə sistem, kommunist ideologiyası yoxdur və olmayacaqdır. Bizim yolumuz azad, müstəqil inkişaf, demokratiya yoludur, dünyanın bütün mütərəqqi ölkələrinin getdikləri yoldur. Bütün bunlar Polşa ilə Azərbaycan arasında münasibətləri daha da möhkəmlətmək və inkişaf etdirmək üçün yaxşı əsasdır".

Araşdırdığımız dövr ərzində Polşa ilə Azərbaycan arasında bir sıra qarşılıqlı sənədlər imzalanmışdır. Onlardan münasibətlərin ilkin dövründə imzalanan Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq və ticarət haqqında Saziş. Varşava, 26 avqust 1997; Azərbaycan Respublikası və Polşa Respublikası arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişafı haqqında Bəyannamə. Varşava, 26 avqust 1997; Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında mədəni və elmi əməkdaşlıq haqqında Saziş. Varşava, 26 avqust 1997 xüsusi yer tutur. 1999-cu ilin oktyabrında Polşa Prezidenti A.Kvasnevskinin Azərbaycana rəsmi səfər etməsi, 2000-ci ildə Milli Məclisdə Azərbaycan - Polşa parlamentlərarası işçi qrupunun yaradılması iki ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişafından xəbər verirdi. İki ölkə arasında yüksək səviyyəli görüşlərin keçirilməsi, əlaqələrin ikitərəfli inkişafı dostluq münasibətlərini yüksək həddə çatdırmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci ilin martında Polşaya səfəri, bu səfər zamanı imzalanan sənədlər iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsinə böyük zəmin yaratdı. Polşa ilə Azərbaycan arasında müdafiə, gömrük və iqtisadi sahədə əməkdaşlıq barədə sazişlərin imzalanması Azərbaycanın Avropaya inteqrasiyasının daha da sürətləndirilməsində böyük rol oynamışdır.2006-ci ildə Hökumətlərarası birgə Komissiya yaradılmışdır. Azərbaycan Respublikası tərəfindən Komissiyanın həmsədri- sənaye və energetika naziri Natiq Əliyev, Polşa Respublikası tərəfindən həmsədr Baş nazirin müavini, iqtisadiyyat naziri Valdemar Pavlakdır. Komissiyanın indiyədək 4 iclası keçirilmişdir.

2007-ci il martın 30-da isə Polşanın yeni seçilmiş prezidenti Lex Kaçinski Azərbaycanda rəsmi səfərdə olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin təkbətək görüşündə siyasi, iqtisadi və humanitar sahələrdə Azərbaycan - Polşa əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanmışdır. Polşa Prezidentinin səfəri zamanı Azərbaycan Respublikası Prezidentinin və Polşa Respublikası Prezidentinin Birgə Bəyannaməsi imzalanmışdır. 2007-ci il iyunun 18-də Polşa Prezidenti Lex Kaçinski Azərbaycana növbəti dəfə GUAM- ın Zirvə görüşündə iştirak etmək üçün gəlmişdir. Azərbaycan Prezidenti İlham Əliyevlə görüşən Lex Kaçinski bütün sahələrdə uğurla inkişaf edən Azərbaycan - Polşa əlaqələrindən danışıb, iki ölkə arasında faydalı əməkdaşlığın genişlənməsində GUAM-ın rolunu vurğulamışdır.

2008-ci il fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya növbəti səfəri olmuşdur. Səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Lex Kaçinski arasında görüş olmuşdur. Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin və Polşa Respublikası Prezidentinin Birgə Bəyannaməsi imzalanmışdır. Bəyannamədə beynəlxalq məsələlərdə əməkdaşlıq da daxil olmaqla, Azərbaycan və Polşa arasında ümumi maraq kəsb edən sahələrdə ikitərəfli əlaqələr və əməkdaşlığın vəziyyəti və inkişaf istiqamətləri, münaqişələrin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət və riayət əsasında, BMT Nizamnaməsinə uyğun olaraq sülh yolu ilə həllini dəstəklədikləri qeyd edilmişdir. 2008-ci il iyulun 1-də Batumidə keçirilən GUAM-ın sammitində Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Lex Kaçinski arasında görüş keçirilibdir. Görüşdə Azərbaycanla Polşa arasında ikitərəfli münasibətlərin genişlənməsindən məmnunluq ifadə olunubdur. 2009-cu il iyulun 2-də Polşa Prezidenti Lex Kaçinski Azərbaycana növbəti rəsmi səfərə gəlmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin təkbətək görüşü olub. Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə inkişafından məmnunluq ifadə edilibdir. Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Lex Kaçinski "Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin Nizamnaməsi"ni imzalayıblar. Həmçinin, "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Polşanın "Grupa Lotos" Səhmdar Cəmiyyəti arasında niyyət haqqında Protokol", "Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu illər üçün əməkdaşlıq cədvəli" imzalanıb. Polşa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsindəki xüsusi xidmətlərinə görə Polşa Respublikasının Prezidenti Lex Kaçinski ölkəmizin ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilib. Polşa Prezidenti Lex Kaçinskinin Azərbaycana rəsmi səfərinə dair dövlət başçıları mətbuat üçün bəyanat veriblər.

2010-cu ildə Milli Məclisdə Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır. Qrupun sədri millət vəkili Səttar Möhbalıyev. 2012-ci ildə Polşa Parlamentində Polşa-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır. Qrupun sədri Malqojata Sadurskadır. 2009-cu ildə Polşa-Azərbaycan parlamentlərarası dostluq qrupu yaradılmışdır.

Bundan başqa Daha bir Şərqi Avropa ölkəsi olan Macarıstanla münasibətlər diqqəti cəlb edir. Belə ki, iki ölkələr arasındakı diplomatik əlaqələr Ümummilli lider Heydər Əliyevin apardığı uğurlu siyasətin nəticəsində sağlam təməllər əsasında qurulmuş və bugündə Cənab Prezidentimiz İlham Əliyev tərəfindən bu uğurlu siyasət davam etdirilir.

***Nəticə***. Beləliklə, biz görürük ki, 1991-2010-cu illər arasında Azərbaycan Şərqi Avropa ölkələri ilə əlaqələrini inkişaf etdirmişdir. Bu əlaqələrin sağlam təməllər üzərində oturdulması ilk növbədə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyev Şərqi Avropa ölkələri olan Bolqarıstan, Macarıstan, Rumıniya və Polşanın Azərbaycan üçün əhəmiyyətini strateji parametrlərlə müəyyən edə bilmişdir. Daha sonra bu baxış bucağı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin xarici siyasətinin əsas aspektlərindən birini təşkil etmişdir. Siyasi əlaqələrin qurulması isə öz növbəsində humanitar sahədə münasibətlərin mahiyyətinə və gedişatına təsir etmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bolqarıstan Xalq Məclisində çıxışı (Sofiya, 29 iyun 1995-ci il) sənədinə tarixi arayış. - http://lib.aliyevheritage.org/az/2139613.html [09.01.2023].

2. Xristova M. Bolqarıstan-Azərbaycan siyasi münasibətlərinin formalaşması prosesi. - html:/newtimes.az/az/diplomatik/4895/ [09.01.2023].
3. Azərbaycan - Polşa münasibətləri. - http://lib.aliyevheritage.org/az/7202360.html [09.01.2023].
4. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005, 631 s.
5. İmanova.S. Rumıniya-Azərbaycan diplomatik - siyasi münasibətləri strateji tərəfdaşlığa doğru. // Bakı Universitetinin Xəbərləri, №4 Humanitar elmlər seriyası 2013, s.98-104.
6. Azərbaycan və Rumıniya dost, müttəfiq ölkələrdir. "Azərbaycan" qəz., 2006, 12 oktyabr.
7. Minister of Foreign Affairs of Romania Teodor Baconschi pays official visit to Azerbaijan. - http://www.azembassy.ro [09.01.2023].
8. Azərbaycan-Macarıstan: mədəniyyətlərin dialoqu. - https://d-a-k.org/azərbaycan- macarıstan-mədəniyyəti-dialoqu/ [09.01.2023].
9. SEYİDOV V. Budapeştdə "Azərbaycan-Macarıstan: mədəniyyətlərin dialoqu" mövzusunda IV elmi konfrans başa çatmışdır / Azərbaycan.- 2009.- 22 noyabr.- S.2.
10. Manafova M. Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri. Dərs vəsaiti. Bakı, Sabah, 2008, 96 s.

**ЭМИЛЬ ШЕЛЕМАНОВ**
*Азербайджанский Государственный Педагогический Университет*

## ВЗАИМНЫЕ ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ СО СТРАНАМИ ВОСТОЧНОЙ ЕВРОПЫ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В статье были изучены различные аспекты установления взаимных политических отношений со странами Восточной Европы во внешней политике Азербайджанской Республики. Здесь автор рассмотрел концептуальные факторы внешней политики Азербайджанской Республики в этом направлении. Позднее были затронуты вопросы установления и развития политических отношений с Болгарией и Румынией. Было подчеркнуто значение и значение отношений со странами Восточной Европы. Одним из важных вопросов во внешней политике общенационального лидера Гейдара Алиева были отношения со странами Восточной Европы.

*Ключевые слова*: страны Восточной Европы, Болгария, Венгрия, Румыния, Польша.

**EMIL SHELEMANOV**
*Azerbaijan State Pedagogical University*

## MUTUAL POLITICAL RELATIONS WITH EASTERN EUROPEAN COUNTRIES IN FOREIGN POLICY OF THE REPUBLIC OF AZERBAIJAN

In the article, various aspects of the establishment of mutual political relations with Eastern European countries in the foreign policy of the Republic of Azerbaijan were studied. Here, the author examined the conceptual factors of the foreign policy of the Republic of Azerbaijan in this direction. Later, the establishment and development of political relations with Bulgaria and Romania were touched upon. The importance and importance of relations with Eastern European countries was emphasized. One of the important issues in the foreign policy of National Leader Heydar Aliyev was relations with Eastern European countries.

*Keywords*: Eastern European countries, Bulgaria, Hungary, Romania, Poland.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər:t.e.d. Mübariz Ağalarlı, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**DAŞQIN MƏHƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini,*
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi, doktorant*
*ORCİD: 0000-0002-6875-8091*
**dashqin.muhammedli@mail.ru**

**HACI QASIMLI**
*Bakı Dövlət Universitetinin*
*Kitabxana resursları və informasiya-axtarış sistemləri*
*kafedrasının doktorantı*
*ORCİD: 0000-0001-8246-1959*
**Haci_qasimli@list.ru**

# ŞƏKİ-ZAQATALA İQTİSADİ REGİONUNUN TURİZM SAHƏSİNƏ DAİR KİTABXANA-İNFORMASİYA TƏMİNATI

*Respublikamızda turizm sahəsində sənəd-informasiya ehtiyatlarının mövcud potensialının real inkişaf istiqamətlərini müəyyən etmək üçün kitabxana-informasiya sahəsində sənəd dövriyyəsinin mövcud vəziyyətinin dəqiq, hərtərəfli öyrənilməsinə ehtiyac vardır. Bütün bunlar turizmlə bağlı informasiya ehtiyatlarının kitabxana sahəsində oxucuların tələbatına uyğun qiymətləndirilməsinin, bu sahədə sənəd dövriyyəsinin inkişaf xüsusiyyətlərinin və problemlərinin dərindən araşdırılmasının vacibliyini ön plana çıxarır.*

*Açar sözlər*: Kitabxana, sənəd resursları, iqtisadi region, informasiya təminatı, turizm, bələdçi.

**Giriş.** Turizm sahəsi üzrə informasiya tələbatı müasir cəmiyyətin ən dinamik inkişaf edən iqtisadi sahələrindən biri olduğu və dillərin leksik tərkibinin inkişafına və doldurulmasına əhəmiyyətli təsir göstərdiyindən turizm üzrə informasiya təminatı sisteminin xüsusiyyətləri tədqiqat üçün böyük maraq doğurur. Turizm sahəsi üzrə terminologiya, mümkün olan ən yaxşı şəkildə terminlərin ümumi lüğət ilə əlaqəli sərhəd təbiətini göstərir və ədəbi dilin leksik vahidlərinin termin statusuna keçid dinamikasını izləməyə imkan verir. Müasir dövrdə turizm sahəsi üzrə informasiya təminatı həm kitabxanaların, həm də iqtisadiyyatın güclü amili, həm təsirli sosial institut, həm də cəmiyyətdə ictimai rifah və mədəniyyətin göstəricisi kimi insanın həyat səviyyəsinin yüksəlməsinə, mənəvi zənginləşməsinə kömək edir. Azərbaycan dövləti respublikanın hər yerində milli turizm sahəsinin inkişaf etdirilməsini iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqaməti elan etmişdir. Xüsusilə də, son illər turizmin təşviqi ilə bağlı görülən işlər, regionların turizm inkişafı üzrə qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Dövlət və regional səviyyələrdə həyata keçirilən sosial siyasətdə turizm strateji əhəmiyyətli məsələ kimi çıxış edir [1].

Azərbaycan Respublikası yenidən öz müstəqilliyini bərpa etdikdən sonra kitabxana işinin və biblioqrafik fəaliyyətin inkişafına dövlət qayğısı daha da artırıldı, "Kitabxana işi haqqında" (1998), "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" (1999) Azərbaycan Respublikasının Qanunları qəbul edilmiş, eləcə də "Azərbaycan Respublikasında kitabxanainformasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın (2008) qəbul edilməsi və "Azərbaycanda Kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (2007) Azərbaycan Respublikası Prezidentinin sərəncamları imzalanmışdır. Bu ali dövlət sənədlərində Azərbaycan Respublikasında kitabxana-biblioqrafiya və informasiya fəaliyyətinin kompleks inkişafını hərtərəfli əks etdirilmiş, eləcə də mütəxəssislər qarşısında müvafiq sahə üzrə əsaslandırılmış elm-nəzəri bazanın yaradılması kimi ümdə vəzifə qoyulmuşdur [3].

***Tədqiqatın əsas məqsədi*** Şəki-Zaqatala iqtisadi regionunun kitabxana-informasiya şəbəkəsində turizm sahəsinə dair sənəd axının və informasiya tələbatının mövcud vəziyyətinin tədqiqi, bu regionda fəaliyyət göstərən Turizm İnformasiya Mərkəzlərinin əsas fəaliyyət istiqamətlərini müəyyən etmək və müqayisə etməkdir. Turizm sahəsinə dair informasiya resurslarının təşkil olunduğu və top-

landığı fundamental elmi əsaslara malik olan "kitabxana fondu" anlayışı və onun öyrənilməsi ən mühüm məsələlərdən biridir. Şəki-Zaqatala iqtisadi regionunda fəaliyyət göstərən kitabxana fondları bir sosial təsisat kimi kitabxananın əsasını və oxucuların tələbatının ödənilməsinin əsas mənbəyidir. Bu kitabxana fondları milyon nüsxələrlə sənədləri özündə birləşdirən zəngin biliklər xəzinəsi, minlərlə oxucunun üz tutduğu mütaliə ünvanı, milli-mənəvi sərvətlər toplusunun bir hissəsidir [19]. "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"nda (1999) qeyd edilir ki, "Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur". Bu rəsmi sənəddən məlum olur ki, Kitabxana fondları insanlarda elmin, informasiyanın, mədəniyyətin, təhsilin, tərbiyənin formalaşmasının ən mühüm vasitələrindən biri olaraq yüksək dəyərə malikdir. Elə buna görə də Kitabxana fondlarının öyrənilməsi başlıca vəzifələr sırasına daxildir. Təcrübə göstərir ki, Kitabxana fondlarının mahiyyətini bilmədən onun praktik əhəmiyyətini müəyyənləşdirmək, formalaşması istiqamətini dəqiqləşdirmək, inkişaf yönlərini konkretləşdirmək mümkün deyildir [5].

Şəki-Zaqatala iqtisadi regionuna gələn turistlərə yüksək standartlara uyğun xidmətin göstərilməsi isə bir çox faktorlardan asılıdır. Bu baxımdan turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolunu xüsusi qeyd etmək lazımdır. Şəki-Zaqatala iqtisadi rayonunun turizm sektorunda ekskursiya xidməti mühüm əhəmiyyət kəsb edir. Bu xidmət informasiya-məlumatlandırıcı, təbliğat vasitəsi olmaqla yanaşı, həmçinin təşkilati, vasitəçi, ticarət, idman-əyləncə, bəzi hallarda operativ-nəzarət fəaliyyətini də əhatə edir. Ekskursiyalar əvvəlcədən planlı şəkildə həyata keçirilməlidir. İlk növbədə Şəki-Zaqatala iqtisadi rayonunda mövcud olan gəzməli, görməli yerlər, tarixi mədəniyyət abidələri müəyyənləşdirilməli, turistlərdə olduqları region haqqında ümumi mənzərə yarada biləcək informasiya onlara çatdırılmalıdır. Ekskursiya rəhbəri ekskursiya zamanı turistlərə hər bir abidə barəsində, ekskursiya təşkil edilən yer barəsində ətraflı məlumat verməli, onların suallarını cavablandırmalıdır [11].

Şəki-Zaqatala iqtisadi rayonuna yaxın məsafəli və qısa müddətli səyahətlər zamanı ekskursiya fəaliyyəti məhdudlaşır və turistlər yalnız gəldiyi yerin tarixi və mədəni obyektləri ilə tanış ola bilirlər. Belə halda informasiya-məlumatlandırıcı və reklam-təbliğat işi üstünlük təşkil edir. Təşkil olunmuş tədbirlərin proqram və tərkibindən asılı olaraq bələdçilər bu işdə mühüm rol oynayırlar. Ekskursiya bələdçisi tədbirin əsas təşkilatçısı və icraçısı olur, turistlər hər hansı bir obyektə, muzeyə baş çəkdiyi zaman o, tərcüməçi kimi də çıxış edir. Ekskursiya xidmətinin keyfiyyəti bu gün ilk növbədə bu sahədə çalışan mütəxəssilərin ixtisas səviyyəsi, peşə bilikləri, təcrübəsi, təşkilatçılıq bacarığı ilə müəyyən edilir [12]. Böyük bədii qalereyalar, ixtisaslaşmış muzeylər, sərgi salonları, yarmarkalar və digər turizm müəssisələri öz işini mükəmməl bilən ixtisaslı ekskursiya bələdçilərinin xidmətlərindən istifadə edirlər. Bəzən yüksək xidmət səviyyəsini saxlamaq üçün ekskursiya bələdçisindən səbr, yüksək ünsiyyət mədəniyyəti və nəzakət tələb olunur. Böyük qruplarda turistlərin bir qismi üçün bədii qalereyalar, digəri üçün tarixi abidələr, üçüncülər üçün isə ticarət obyektləri maraqlı ola bilər. Hamının istəyini yerinə yetirmək üçün bələdçi vaxtı elə bölüşdürməlidir ki, hər bir turist istədiyi yerə gedə bilsin və ekskursiyadan razı qalsın. Bir sıra mədəniyyət müəssisələri ilə yanaşı kitabxanalar da öz fəaliyyətində turizmin təbliğinə xüsusi diqqət yetirməlidirlər.

***Şəki-Zaqatala iqtisadi regionunun kitabxanaları.*** Burada ən çox məsuliyyət Şəki-Zaqatala iqtisadi regionunun kitabxanalarının üzərinə düşür. Şəki-Zaqatala iqtisadi regionunun kitabxanaları ilk növbədə öz diyarının təbliğini düzgün və operativ şəkildə həyata keçirməlidir. Bu kitabxanalarda turizmin təbliği ilə əlaqədar müxtəlif sərgi və guşələrin, məsləhət vitrinlərinin hazırlanması, diyarşünaslıq kartotekasının yaradılması, təqdimat mərasimlərinin keçirilməsi, sual-cavab gecələrinin, söhbətlərin təşkili, konfransların keçirilməsi və diyarşünaslıq ədəbiyyatı fondlarının formalaşdırılması məqsədəuyğun olardı [5].

Qəbələ rayonunda 2009-cu ilin statistik müayinənin nəticələrinə görə 134 kitabxana fəaliyyət göstərmişdir. Onlardan 13-ü – 9,7%-i şəhər yerlərində, 121-i – 90,3 % kənd yerlərində yerləşmişdir. Yekuna görə Qəbələ rayonundakı kitabxanalar respublika kitabxanalarının 1,6%-ni, şəhər yerlərində yerləşən kitabxanaların 0,6%-ni, kənd yerlərində yerləşən kitabxanaların 2,0 %-ni təşkil edir [14].




**Diaqram-1**

Yuxarıdakı diaqramdan göründüyü kimi, Qəbələ rayonunda yerləşən 134 kitabxananın 69-u – 51% Mədəniyyət və Turizm Nazirliyinin nəzdində, 2%-i ilk peşə ixtisas təhsili müəssisələrinin, 62-si – 46%-i ümumtəhsil məktəblərinin, 1%-i musiqi məktəblərinin kitabxanaları olmuşdur. Qəbələ rayonunda elmi kitabxana, ali təhsil müəssisələrinin kitabxanaları, orta-ixtisas təhsil müəssisələrinin, səhiyyə müəssisələrinin və digər müəssisələrin kitabxanaları olmamışdır [15].

Nümunə olaraq qeyd edə bilərik ki, Qəbələ inzibati rayonunun Mərkəzləşdirilmiş Kitabxana Sistemində aşağıdakı diyarşünaslıq ədəbiyyatı fondları formalaşdırılmışdır. “Ulu öndər Heydər Əliyev və Qəbələ”, “Qəbələnin tərəqqisinin memarı İlham Əliyev”, “Qədim Qəbələ”, “Qəbələ Qafqaz Albaniyasının paytaxtı”, “Qəbələnin təbiəti”, “Qəbələlilər”, “General Polad Həşimov”, “Qəbələ şəhidləri”, “İsmayıl bəy Qutqaşınlı”, “Gözəl Qəbələ” və s. Beləliklə, Qəbələ inzibati rayonuna dair yuxarıda adları qeyd olunan diyarşünaslıq fondları rayonun kompleks elmi-nəzəri diyarşünaslıq mənbələri rolunu oyanaraq, qədim Qəbələnin keçmişini, bu gününü və gələcəyinə dair təhlilləri işıqlandıran unikal informasiya vasitələrinin kommunikativ keçiricisi rolunda çıxış edir [14].

Zaqatala iqtisadi rayonunda şəhər yerlərində 21 kitabxana fəaliyyət göstərir. Onlardan 7-si – 33,3%-i Mədəniyyət və Turizm Nazirliyinin, 1-i – 4,8%-i ali təhsil müəssisələrinin kitabxanaları, 1-i – 4,8%-i orta-ixtisas təhsil müəssisələrinin, 8-i – 38,0%-i ümumtəhsil məktəblərinin, 1-i – 4,8%-i musiqi məktəblərinin, 1-i – 4,8%-i səhiyyə müəssisələrinin, 2-si – 9,5%-i digər müəssisələrin kitabxanaları olmuşdur.

Qax inzibati rayonunun Mərkəzləşdirilmiş Kitabxana Sistemində aşağıdakı diyarşünaslıq ədəbiyyatı fondları formalaşdırılmışdır:“Tarixi Qax”, “Ulu öndər Heydər Əliyev və Qax”, “Qaxın müasir inkişafı və Prezident İlham Əliyev”, “Şeyx Şamil”, “Qaxın təbiəti”, “Qaxlılar”, “Qax şəhidləri”, “Qaxın tarixi abidələri”, “İlisu”, “Qax meşələri”, “Qaxın coğrafiyası və iqlimi”, “Qaxın əhalisi” və s. Bu mənbələr Qax inzibati rayonunun tədqiqatçıları, rayona dair lokal informasiya tələbatçıları, rayonun kompleks istiqamətlər üzrə problem və perspektivlərinin elmi-nəzəri problemləri ilə məşğul olan oxucu qrupları üçün əvəzsiz informasiya resursları kimi xüsusi aktuallıq kəsb etməkdədir [15].

Şəki şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemində aşağıdakı diyarşünaslıq ədəbiyyatı fondları formalaşdırılmışdır. Ulu öndər heydər Əliyev və Şəki”, “Gözəl diyar Şəki”, “Prezident İlham Əliyev və Şəki”, “Hacı Çələbi Xan”, “Hüseyn xan Müştaq”, “Əbdülqəni əfəndi Nuxəvi Xalisəqarızadə”, “Mirzə Fətəli Axundov”, “Məhəmməd Şakəvi”, “Qasım bəy Nəbibbəyov”, “Şəki şəhəri xalqımızın elm, maarif və mədəniyyət mərkəzi kimi”, “Salman Mümtaz”, “Bəxtiyar Vahabzadə”, “Sabit Rəhman”, “Şəfiqə Axundova”, “Yaqub Mahmudov”, “Cövdət Hacıyev”, “Rasim Ocaqov”, “Lütvəli Abdullayev”, “İsmayıl Osmanlı”, “Şəki Xan Sarayı”, “Fuad Əbdürrəhmanov”, “Cəlil Hüseynov”, “Cəbrayıl Hüseynov”, “Məcid Rəsulov”, “Heydər Əfəndiyev”, “Zülfüqar Zülfüqarov”, “Mahmud İsmayılov”, “Şəki karvansaraları”, “Niyazi Səmədov”, “Qurban Cəlilov”, “Əbdüləzəl Dəmirçizadə”, “Şəki mətbəxi”, “Mikayıl Cəbrayılov”, “İsmayıl bəy Nakam”, “Əhmədiyyə Cəbrayılov”, “Rəşid bəy Əfəndiyev”, “Yaşar Qarayev”, “Şəki: 44 günlük Vətən müharibəsində” və s [14].

Şəki-Zaqatala iqtisadi regionunda yerləşən Oğuz rayonunun mərkəzi kitabxanası XX əsrin 30-cu illərində yaranmışdır. Oğuz rayonunda Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1979-cu ildən fəaliyyət göstərir və uzun illər əhalinin kitabxana-informasiya təminatını uğurla həyata keçirir. 2009-cu ilin statistik müayinənin nəticəsinə görə Oğuz inzibati rayonunda 68 kitabxana fəaliyyət göstərmişdir. Onlardan 8-i – 11,8%-i şəhər yerlərində, 60 kitabxana – 88,2% isə kənd yerlərində fəaliyyət göstərmişdir. Oğuz rayonunda mövcud olan kitabxanalar respublika kitabxanalarının 0,7%-ni, respublika üzrə şəhər yerlərində yerləşən kitabxanalarının 0,3%-ni, kənd yerlərində yerləşən kitabxanaların 1,0%-ni təşkil edir s.61, 24]. Oğuz rayonunda fəaliyyət göstərən kitabxanaların 33-i – 48,55-i Mədəniyyət və Turizm Nazirliyinin nəzdində, 1 kitabxana – 1,5%-i ilk peşə ixtisas təhsili müəssisələrinin, 32 kitabxana – 47,0%-i ümumtəhsil məktəblərində, 1-i – 1,5%-i musiqi məktəblərində, 1-i – 1,5%-i səhiyyə müəssisələrində yerləşmişdir. Oğuz inzibati rayonunun Mərkəzləşdirilmiş Kitabxana Sistemində aşağıdakı diyarşünaslıq ədəbiyyatı fondları formalaşdırılmışdır. "Ümummilli lider Heydər Əliyev və Oğuz", "Oğuzun inkişafı və Prezident İlham Əliyev", "Oğuz şəhidləri", "Oğuzun tarixi", "Oğuzun coğrafiyası", "Oğuzun əhalisi", "Oğuzlular 44 günlük Vətən müharibəsində", "Oğuz meşələri", "Oğuzun təsərrüfatı", "Oğuzun təbiəti", "Oğuzun keçmişi" və s [15].

2009-cu ildə statistikasına görə Balakən rayonunda cəmi 100 kitabxana fəaliyyət göstərmişdir. Onlardan 12-si şəhər yerlərində - 12,0%, 88-i kənd yerlərində - 88 %, yekuna görə respublika üzrə kütləvi kitabxanaların 1,2 %-i və şəhər yerlərində yerləşən kitabxanaların 0,5%-i, kənd yerlərində yerləşən kitabxanaların 1,4 %-i Balakən rayonunda olmuşdur. Balakən rayonunda yerləşən 100 kitabxanadan 52-si – 52,0% Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində, 2 kitabxana – 2,0%-i ilk peşə-ixtisas təhsil müəssisələrində, 45 kitabxana – 45,0% ümumtəhsil məktəblərində, 1-i – 1,0% musiqi məktəblərində fəaliyyət göstərmişdir [14].

Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan Turizm İnformasiya Mərkəzlərinin fəaliyyəti də bu sahə üzrə tələbatçıların informasiya marağına olan tələbinin yerinə yetirilməsində mühüm əhəmiyyət kəsb edir.

***Şəki Turizm İnformasiya Mərkəzi***. Şəki Turizm İnformasiya Mərkəzi (Şəki TİM) Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin (DTA) 2019-cu il 31 yanvar tarixli 06 nömrəli qərarı ilə təsdiq olunmuş əsasnamə ilə struktur olaraq yenidən formalaşdırılmışdır. Şəki TİM Şəki şəhəri, Balakən və Qax rayonları (Şəki bölgəsi) ərazisində DTA-nın təsdiq etdiyi Əsasnamə ilə müəyyən edilmiş turizm məsələləri üzrə fəaliyyəti həyata keçirir. Şəki TİM-ə cari rəhbərliyi Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri tərəfindən vəzifəyə təyin edilən direktor həyata keçirir. Şəki TİM-in fəaliyyət istiqamətlərinə Şəki bölgəsi daxilində DTA-nın müəyyənləşdirdiyi turizm siyasətinin həyata keçirilməsini təmin etmək; Şəki bölgəsinə səfər edən yerli və xarici turistlərin destinasiya və turizm məhsulları barəsində məlumatlılığını artırmaq; Şəki bölgəsinin turizm potensialının artırılması və turizm resusrlarının düzgün istifadəsi üçün zəruri tədbirlər görmək; Şəki bölgəsinə səfər edən turistlərlə bağlı informasiya toplamaq aiddir [16].

***Şəki şəhərində mədəni turizm sferası üzrə qəbul edilmiş və göndərilmiş turistlərin sayı***

| | **2022** |
|---|---|
| **Ölkə üzrə Qəbul edilmiş və göndərilmişturistlərin sayı, nəfər** | **53 999** |
| o cümlədən: | |
| qəbul edilmiş | 8 949 |
| göndərilmiş | 45 050 |
| **Qəbul edilmiş və göndərilmiş tur-günlərin sayı,adam-gün** | **349 496** |
| o cümlədən: | |
| qəbul edilmiş | 33 054 |
| göndərilmiş | 316 442 |

Mənbə: *Azərbaycan Dövlət Statistika Komitəsinin*
*2022-ci il məlumatları əsasında müəlliflət tərəfindən hazırlanmışdır.*

***Zaqatala Turizm İnformasiya Mərkəzi***. Zaqatala Turizm İnformasiya Mərkəzi 2009-cu ildən fəaliyyət göstərir. Zaqatala şəhəri, Heydər Əliyev prospekti 2 ünvanında yerləşir. Mərəzin əsas fəaliyyət istiqamətlərinə: Şimal-Qərb regionunun turizm potensialı öyrənilməkdə və araşdırılmaqda davam etdirilir. Turistlərin bölgəyə cəlb olunması və turizm imkanlarının inkişaf etdirilməsi məqsədilə 4 istiqamətdə turizm marşrutu- "Car-Honzoqor-Qəbizdərə", "Xalaxl gölü", "Yuxarı Çardaqlar-Qanslar şəlaləsi" və "Meşleş-Təzə göl" yaradılmışdır. 2021-2022-ci illər ərzində rayonda,xüsusən də dağ kəndlərində yerləşən kənd qonaq evləri araşdırılmış və vahid bazaya əlavə olunmuşdur. Qonaq evlərinin qeydiyyata alınması və xidmət səviyyəsinin ölçülməsi məqsədilə Car, Qəbizdərə, Meşleş, Kebeloba kəndlərində yerləşən kənd qonaq evlərində qonaqlar arasında sorğu həyata keçirilmişdir. Mövcud turizm potensialının araşdırılması məqsədilə Zaqatala TİM-in əməkdaşları ilə birgə Zaqatala ərazisində yerləşən bir çox ərazilərə-Yeni Gölə, Honzoqor yüksəkliyinə, Holoda dini ziyarətgahına infoturlar təşkil edilmişdir [17].

***Şəki-Zaqatala iqtisadi rayonları üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə işçilərin orta illik siyahı sayı***

| **İqtisadi rayonlar** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|
| **Ölkə üzrə - c ə m i** | **7321** | **8259** | **9 009** | **8 364** | **9 838** |
| **Şəki-Zaqatala iqtisadirayonu** | **408** | **434** | **445** | **368** | **1 091** |
| o cümlədən: | | | | | |
| Balakən rayonu | 54 | 51 | 48 | 21 | 21 |
| Zaqatala rayonu | 61 | 62 | 64 | 66 | 60 |
| Qax rayonu | 36 | 43 | 38 | 42 | 38 |
| Şəki rayonu | 166 | 183 | 197 | 177 | 115 |
| Oğuz rayonu | 22 | 23 | 22 | 25 | 22 |
| Qəbələ rayonu | 69 | 72 | 76 | 37 | 835 |

Cədvəldən də göründüyü kimi, Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan bölgələri müqayisə etsək, 2018-2022-ci illərdə mehmanxana və mehmanxana tipli müəssisələrdə çalışan işçilərin orta illik sayı hər bir il üzrə ən çox Şəkidə müşahidə edilmişdir. Belə ki, nümunə olaraq 2018-ci il üzrə verilən nəticələrə baxsaq, görərik ki, Şəkidə orta illik işçilərin sayı, ümumilikdə Şəki-Zaqatala regionnuna daxil olan rayonlardakı orta işçi sayının 11 faizini təşkil edir. Digər rayonlarla müqayisədə, əlbəttə, bu, Şəki üçün yaxşı göstəricidir. Şəkinin bu üstünlüyə malik olmasının başlıca səbəbi, digər rayonlarla müqayisədə Şəkinin daha qədim, daha tarixi bir şəhər olması, burada daha çox mehmanxananın mövcud olması, öz mətbəxi ilə seçilməsi, təbii şəraiti və s. amillərdir [8].

***Nəticə.*** Yuxarıda qeyd edilən ümumi məsələlər Şəki-Zaqatala iqtisadi regionunun kitabxana-informasiya infrastrukturunun mühüm tərkib hissəsini təşkil edən diyarşünaslıq ədəbiyyatı fondlarının zənginləşməsi və inkişafına əhəmiyyətli təkan verməyə başladı. Araşdırma nəticəsində məlum olmuşdur ki, zəngin turizm imkanları olan Şəki-Zaqatala iqtisadi regionunda mövcud olan problemlərin aradan qaldırılması nəticəsində həmin bölgəyə daha çox turist axınını təmin etmək və həmin bölgənin mənsub olduğu ölkənin də turizm imicinə müsbət təsir göstərmək mümkündür. Turizm destinasiyası olan bir bölgənin turizm növlərini, kitabxana-informasiya infrastrukturunu, alternativ turizm növlərini inkişaf etdirməklə ölkə iqtisadiyyatının inkişafına, gəlirlərin artmasına müsbət təsir göstərmək olar. Beləliklə, Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunda kitabxanaların informasiyalaşdırılması problemlərinin əsas istiqamətləri ümumilikdə respublikada informasiyalaşdırılmış cəmiyyət quruculuğu prosesinin mühüm tərkib hissəsi kimi öyrənilir və regional kitabxanaşünaslığın problemlərinin elmi-nəzəri təhlil və araşdırmalara cəlb edilməsi də milli və dünya kitabxanaşünaslıq elminin prioritet istiqamətləri sırasında əhəmiyyətli yer tutur.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proq-

ramı" təsdiq edilməsi haqqında Azərbaycan Respublikas Prezidentinin fərmanı:[Elektron resurs]/ URL: https: // www.azertağ.az/ xeber/ [14.01.2023].
2. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər) // Azərbaycan.- təsdiq edilməsi.-2004.-11 fevral.
3. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı// Respublika.-2008.-7 oktyabr.
4. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: Dövlət Proqramının həyata keçirilməsinə dair materiallar: biblioqrafik göstərici I bur. // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov adına Milli Kitabxanası; burax. haz. M.Vəliyeva, M.İbrahimova; red. G.Səfərəliyeva. I buraxılış.- Bakı: 2007.- 201 s.
5. Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu: metodik tövsiyələr /ixtis. red. və bur. məs. K. Tahirov; tərt. ed. A.Abdullayeva; red. M. Cəfərova; M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası. – Bakı, 2011. – 102 s.
6. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında: Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan.-2007.-21 aprel.
7. Bayramova İ.Z. Azərbaycan Respublikası regionlarının kitabxana-informasiya resurslarının yerləşməsi vəziyyəti // -Bakı. - Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal: Mütərcim nəşriyyatı, - 2011. № 2, - s.250-258.
8. İsmayılov, X.İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı / X.İ. İsmayılov, N.İ. İsmayılov //-Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi. - Bakı: Mütərcim nəşriyyatı, - 2007.-Bur.:7,-s.318-320.
9. İsmayılov, N.İ., Ağayeva, X.T. Regionların sosial-iqtisadi inkişafının informasiya təminatı həyata keçirilir // Azərbaycan qəzeti, - 13 noyabr, - 2010,-s.6 .
10. Kitabxanalarda metodik fəaliyyətin təşkili: metodik tövsiyələr / Tərt. ed. N.Alışova; ixtisas red. və bur. məs. K.Tahirov; red. A.Abdullayeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. - Bakı, - 2015. - 43 s.
11. Qasımlı, H.H. Azərbaycan Respublikasında turizm fəaliyyətinin inkişafının kitabxana-informasiya təminatı // – Bakı: Bakı Dövlət Universiteti, Kitabxanaşünaslıq və biblioqrafiya Elmi-nəzəri, metodik və təcrübi jurnal, – 2022. №1 (50), – s. 72-78.
12. Qasımlı, H.H. Azərbaycan Respublikasında turizm fəaliyyətinin kitabxana-informasiya təminatının biblioqrafik və analitik təhlili // – Bakı: Bakı Dövlət Universiteti, Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, – 2022. №3, – s. 144-149.
13. Qasımlı, H.H. Azərbaycan Respublikasında turizm fəaliyyətinin kitabxana informasiya təminatının təşəkkülü və inkişafı: tarixi icmal // – Bakı: Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2022. №3 (C 70), – s. 76-87.
14. Məhəmmədli, D. Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun kitabxana-informasiya sistemində diyarşünaslıq fondları // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. 2022. № 2(51). – Bakı: Mütərcim, 2022. –136 s.-S. 40-47.
15. Məhəmmədli, D. Müasir şəraitdə Azərbaycan Respublikasının regional kitabxana şəbəkəsində milli dövlətçilik, milli ideologiya və vətənpərvərliyə dair ədəbiyyatın təbliği vəziyyəti (Şəki-Zaqatala iqtisadi regionunun nümunəsində) // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. 2022.№ 1(50). – Bakı: Mütərcim, 2022. –140 s.-S. 60-68.
16. Şəki Turizm İnformasiya Mərkəzinin hesabatı.-2022-ci il.
17. Zaqatala Turizm İnformasiya Mərkəzinin hesabatı.-2022-ci il.
18. Борисова, О.Б., Тютюник, В.М. Документально-информационный поток по библиотековедению с позиции наукометрии // .-Москва: Библиотековедения. - 2005. №6, - с. 77-78.
19. Гаджиева, А.З. Формирование фонда: сравнительный библиометрический анализ //-Волгоград: Известия Волгоградского государственного педагогического университета, - 2016. №4 (108), - с. 133-135.

**ДАШГИН МАХАММЕДЛИ**
*Докторант Бакинского Государственного Университета,*
*Кафедра Библиотечные ресурсы и информационно-поисковые системы*

**ГАДЖИ ГАСИМЛИ**
*Докторант Бакинского Государственного Университета,*
*Кафедра Библиотечные ресурсы и информационно-поисковые системы*

## ТУРИЗМ ШАКИ-ЗАГАТАЛЬСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЕ ОБЕСПЕЧЕНИЕ

Для определения реальных направлений развития современного потенциала документально-информационных ресурсов в сфере туризма в нашей республике необходимо точное, всестороннее изучение и изучение современного состояния документооборота в библиотечно-информационном сети, работающей в регионе. Все это выдвигает на первый план важность оценки информационных ресурсов по туризму в соответствии с потребностями читателей в библиотечной сфере, углубленного изучения особенностей развития и проблем документооборота в этой сфере.

*Ключевые слова*: библиотека, документальные ресурсы, экономический район, информационное обеспечение, туризм, гид.

**DASHGIN MAHAMMEDLI**
*Baku State University*
*Deputy Dean of the Faculty of Library and Information Science,*
*Teacher of the department of library resources and information-research systems, Phd student*

**HAJI GASIMLI**
*Baku State University*
*Library resources and information-search systems*
*Phs student of the department*

## TOURISM OF THE SHAKI-ZAGATALA ECONOMIC REGION LIBRARY-INFORMATION SUPPLY ON THE FIELD

In order to determine the real development directions of the current potential of document-information resources in the field of tourism in our republic, there is a need for an accurate, comprehensive study and study of the current state of document flow in the library-information network operating in the region. All this brings to the fore the importance of evaluating information resources on tourism according to the needs of readers in the library field, and in-depth investigation of the development characteristics and problems of the flow of documents in this field**.**

*Keywords*: Library, document resources, economic region, information provision, tourism, guide.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. X.İ.İsmayılov, t.e.d. İsmayıl Məmmədov.*

UOT 32:93/94

**ШАМС НАГИЕВА**
*докторант Бакинского Государственного Университета*
**shemsnagiyeva16@gmail.com**

# СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ ЗАНГЕЗУРСКОГО КОРИДОРА

*В этой статье рассматривается значение и важность Зангезурского коридора, который представляет собой новую возможность для многочисленных транзитных проектов, соединяющих Азию и Европу через Азербайджан. Открытие Зангезурского коридора еще больше укрепит каспийскую транспортную сеть, включая международный транспортный коридор «Восток-Запад» и международный транспортный коридор «Север-Юг». Реализация данного проекта позволит создать прямую железнодорожную ветку Россия-Турция, Россия-Иран и Россия-Армения, что может в значительной степени способствовать развитию стратегических, экономических и политических отношений в регионе.*

*Ключевые слова*: Зангезурский коридор, международный транспортный коридор «Восток-Запад», международный транспортный коридор «Север-Юг», железнодорожные линии, транзитные проекты.

***Введение.*** Вторая Карабахская Война завершилась не только освобождением наших территорий, но и создала большие возможности для Азербайджана как для стороны-победительницы. Одним из таких возможностей является открытие Зангезурского коридора. Когда Зангезурский коридор будет открыт, Турция и Нахичеванская Автономная Республика будут связаны с Центральной Азией через Азербайджан и Каспийское море. Сегодня, Из Азербайджана в Нахичеван через Иран осуществляется только автомобильный и воздушный транспорт [2]. Зангезурский коридор в последнее время стал важным экономическим и торговым маршрутом не только для Азербайджана, но и в целом для стран Европы и Азии. Зангезурский коридор, помимо того, что он является одной из опор мира в регионе, сыграет важную роль в развитии экономических и торговых отношений между государствами региона.

***Реализацией Зангезурского коридора***. Наша историческая победа еще раз доказала, что благодаря независимой и основанной на национальных интересах политике Президента Ильхама Алиева, успешно продолжавшего политику Гейдара Алиева во всех направлениях, Азербайджан стал сильным государством, политическим, экономическим и гуманитарным центром региона, возросли финансовые возможности, экономический потенциал и военная мощь нашей страны. В ходе шестого ежегодного саммита прикаспийских государств Президент Азербайджана Ильхам Алиев заявил, что Азербайджан приступил к восстановлению Восточного Зангезура и Карабаха после победы в войне, предполагая скорое открытие Зангезурского коридора. По соглашению о прекращении огня Армения обязана обеспечить транспортное сообщение между западными районами Азербайджана и Нахичеваном, а также обеспечить свободное перемещение граждан и товаров в обоих направлениях. С реализацией Зангезурского коридора расстояние между Азербайджаном и Турцией сокращается. Железнодорожная линия, начинающаяся из Анкары, идет в Карс, а оттуда в Нахичеван. Ожидается, что с открытием коридора строящаяся железная дорога будет короче линии, следующей по маршруту Карс - Тбилиси - Карс. Открытие коридора сократит расстояние и создаст благоприятные условия для таможенного оформления. Коридор положительно повлияет на сообщение между странами региона и сократит автомобильное расстояние между Турцией и Азербайджаном до 400 километров.

После подписания 15 июля Турцией и Азербайджаном Шушинской декларации подход к проекту Зенгезурского коридора также приобрел формальный характер. Открытие Зенгезурского коридора и строительство железной дороги Нахичеван-Карс как продолжения вышеупомянутого коридора будет в значительной степени способствовать активизации транспортно-коммуникационных отношений между Азербайджаном и Турцией. Президент Турецкой

Республики Реджеп Тайип Эрдоган во время своего визита в Азербайджанскую Республику в 2021 году отметил, что наземные и железнодорожные линии, которые пройдут через эту географию, создадут экономические и коммерческие возможности не только для Азербайджана и Турции, но и для всех стран региона [4].

Открытие Зангезурского коридора еще больше укрепит Каспийскую транспортную сеть включая Международный транспортный коридор «Восток-Запад» и Международный транспортный коридор «Север-Юг». Это также облегчило бы строительство нефтегазовой трубопроводной системы от Каспийского моря до Европы. Это еще больше повысит транзитный потенциал региона, который уже сыграл важную роль для цепочек поставок газа в ЕС (Европейский союз), США, Россию и Китай. На нынешнем этапе Азербайджан работает над «Зангезурским транспортным коридором», который станет частью коридора Восток-Запад, соединяющего Азию и Европу, охватывающего обширную географическую территорию в Евразии.

С реализацией этого проекта будет усилен интеграционный процесс, обслуживающий сотрудничество в регионе. В то же время этот коридор укрепит геостратегическое положение нашей страны как транспортно-логистического центра Евразии, расширит транзитные возможности, и в силу этого Азербайджан получит важные политические и экономические дивиденды. Реализацией этого проекта значительно улучшит положение Азербайджана в международных транспортных коридорах «Восток-Запад» и «Север-Юг», так как он расположен на историческом «Шелковом пути» и стремится стать логистическим центром между Европой и Азией. В Азербайджане реализуются два проекта в направлении открытия коридора – железнодорожная линия Горадиз-Зенгилан-Агбанд и автомобильная дорога Горадиз-Джебраил-Зенгилан-Агбанд. Кроме того, с реализацией Зангезурского коридора в регионе возникают новые реалии, закладывающие основы экономического развития. В следующем году будет сдана в эксплуатацию железнодорожная линия Горадиз-Зенгилан-Агбанд общей протяженностью 110,4 километра с 8 станциями (Горадиз, Марджанлы, Махмудлу, Солтанлы, Гумлак, Миндживан, Бартаз и Агбанд). В целом стратегическое значение как автомобильного, так и железнодорожного пути весьма велико.

В частности, железнодорожная инфраструктура будет играть важную роль в обеспечении перевозки граждан Азербайджана на освобожденные земли, а самое главное будет в значительной степени способствовать созданию прямого железнодорожного транспортного сообщения между основной частью Азербайджана и Нахичевана [3]. В 2021 году, оценивая значение этого коридора, Ильхам Алиев отметил: «Зангилан находится в Восточном Зангезурском районе, и проходящий через него Зангезурский коридор соединит весь тюркский мир. И Азербайджан, и Турция предпринимают практические шаги для того, чтобы Зангезурский коридор стал реальностью. Уверен, что эти шаги принесут свои плоды в ближайшем будущем» [1]. По словам президента Азербайджана Ильхама Алиева, Зангезурский коридор как часть Международного транспортного коридора «Север-Юг» послужит также и связующим звеном между Россией и Ираном, расширив доступ Тегерана в регион. Однако Иран обеспокоен возможным сближением Армении, Азербайджана и Турции, которое, по мнению Ирана, ослабит его политические позиции, поставив под угрозу его национальные и региональные интересы. И в силу этого Иран, имеющий тесные связи с Арменией, не хочет, чтобы Зангезурский коридор функционировал [5].

Реализация данного проекта даст возможность установлению прямого железнодорожного сообщения Россия-Турция, Россия-Иран и Россия-Армения, что может в значительной степени способствовать развитию стратегических, экономических и политических отношений в регионе. В целом модернизацию Зенгезурского коридора планируется осуществить через железную дорогу Карс-Гюмри. Согласно этому проекту, общая стоимость строительства железнодорожной линии Карс-Гюмри-Нахичеван-Мегри-Баку составляет 434 миллиона долларов США. Если этот проект будет реализован, грузоподъемность на маршруте может достичь 10 миллинов тонн за 13 лет.

Помимо расширения железнодорожной линии между Россией, Азербайджаном, Турцией, Арменией и Ираном, это ускорит открытие многих торговых путей, что увеличит объем

торговли в Кавказском регионе. С превращением Азербайджана в евразийский транспортный узел автомобильные и железные дороги в Кавказском регионе повысят транзитную безопасность региона, создав новую конкуренцию и новые возможности. Конечно, в этом контексте строительство и маршруты международных транспортных коридоров «Восток-Запад» и «Север-Юг», строительство системы нефтепроводов и газопроводов от Каспийского моря до Европы принесут новые разработки.

В результате Зангезурский коридор представляет собой новую возможность для многих транзитных проектов, соединяющих Азию и Европу через Азербайджан. Это укрепит позиции Азербайджана как транспортно-логистического центра Евразии. Ожидается, что со строительством железных и автомобильных дорог Зангезурский коридор создаст инвестиционную среду в регионе, особенно для малых и средних предприятий, и тем самым будет способствовать развитию экономики страны. Кроме того, ожидается, что он предоставит значительные возможности для развития инфраструктурных проектов и новых инвестиционных возможностей в странах региона. Таким образом, весьма вероятно, что напряженность между странами региона снизится, а ее место займет среда сотрудничества, которая черпает силу из развивающихся экономических отношений.

Помимо расширения железнодорожной линии между Россией, Азербайджаном, Турцией, Арменией и Ираном, это ускорит открытие многих торговых путей, что увеличит объем торговли в Кавказском регионе. С превращением Азербайджана в евразийский транспортный узел автомобильные и железные дороги в Кавказском регионе повысят транзитную безопасность региона, создав новую конкуренцию и новые возможности. Конечно, в этом контексте строительство и маршруты международных транспортных коридоров «Восток-Запад» и «Север-Юг», строительство системы нефтепроводов и газопроводов от Каспийского моря до Европы принесут новые разработки.

***Заключение***. Зангезурский коридор – имеет значение в трех измерениях: локальном, региональном и межконтинентальном. Важность нового коридора на местном уровне заключается в его стимулирующем вкладе в местное экономическое развитие в странах, по территории которых он пройдет. Значение коридора на региональном уровне заключается в том, что он предлагает альтернативы в нескольких направлениях. Во-первых, это появление нового маршрута между Турцией и Центральной Азией. Во-вторых, реализация Зангезурского коридора создаст альтернативный маршрут между материковым Азербайджаном и Нахичеванской Автономной Республикой, что имеет большое значение в региональной политической конфигурации. И в-третьих, Зангезурский коридор предлагает новый транзитный маршрут между Россией и Турцией в обход Грузии. На межконтинентальном уровне важность Зангезурского коридора заключается в том, что он создаст альтернативный вариант для экономических обменов между Китаем и Европой. Этот маршрут облегчит транспортировку товаров из Китая в восточные провинции Турции, а затем в Европу через Средиземное море или Стамбульский пролив. Таким образом, Зангезурский коридор может стать важным торговым маршрутом между европейским и азиатским рынками.

## ЛИТЕРАТУРА


1. Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. [Электронный ресурс] / "president.az", 26.10.2022. URL:https://president.az/az/articles/view/53746/print [Дата обращения: 16.01.2023].
2. Kars-Iğdır-Nahçıvan hattı Türk dünyasını buluşturacak.[Электронный ресурс] / "trtavaz.com", 14.10.2020. URL:https://www.trtavaz.com.tr/haber/tur/avrasyadan/kars-igdir-nahcivan-hatti-turk-dunyasini-bulusturacak/5fafc55a01a30a37d42655d0 [Дата обращения: 16.01.2023].
3. Zəngəzur dəhlizi hökmən açılacaq. [Электронный ресурс] / "azerbaijan-news.az", 01.12.2022. URL: https://azerbaijan-news.az/az/posts/detail/zengezur-dehlizi-hokmen-acilacaq-1669844365 [Дата обращения: 16.01.2023].

4. Zengezur koridoru projesiyle ilgili bilinenler neler? [Электронный ресурс] / “bbc.com”, 17.09.2022. URL:https://www.bbc.com/turkce/articles/crgjd28700mo [Дата обращения: 16.01.2023].
5. What is the Zangezur Corridor and why does it matter to Eurasia? [Электронный ресурс] / “president.az”, 29.07.2022.
URL: https://www.trtworld.com/magazine/what-is-the-zangezur-corridor-and-why-does-it-matter-to-eurasia-58405 [Дата обращения: 16.01.2023].

**ŞƏMS NAĞIYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

## ZƏNGƏZUR DƏHLİLİNİN STRATEJİ ƏHƏMİYYƏTİ

Məqalədə Asiya və Avropanı Azərbaycan üzərindən birləşdirən bir çox tranzit layihələri üçün yeni fürsəti təmsil edən Zəngəzur dəhlizinin əhəmiyyəti və vacibliyi araşdırılır. Zəngəzur dəhlizinin açılması Xəzər nəqliyyat şəbəkəsini, o cümlədən Şərq-Qərb Beynəlxalq Nəqliyyat Dəhlizini və Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini daha da gücləndirəcək. Bu layihənin həyata keçirilməsi Rusiya-Türkiyə, Rusiya-İran və Rusiya-Ermənistan birbaşa dəmir yolu xəttinin yaradılmasına imkan verəcək ki, bu da regionda strateji, iqtisadi və siyasi əlaqələrin inkişafına böyük töhfə verə bilər.

*Açar sözlər*: Zəngəzur dəhlizi, “Şərq-Qərb” beynəlxalq nəqliyyat dəhlizi, “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi, dəmir yolu xətləri, tranzit layihələri.

**SHEMS NAGİYEVA**
*PHD of Baku State University*

## STRATEGIC SIGNIFICANCE OF THE ZANGEZUR CORRIDOR

This article examines the importance and significance of the Zangezur Corridor, which represents a new opportunity for many transit projects connecting Asia and Europe through Azerbaijan. The opening of the Zangezur corridor will further strengthen the Caspian transport network, including the East-West International Transport Corridor and the North-South International Transport Corridor. The implementation of this project will make it possible to establish a direct rail link Russia-Turkey, Russia-Iran and Russia-Armenia, which can greatly contribute to the development of strategic, economic and political relations in the region.

*Key words:* Zangezur corridor, international transport corridor "East-West", international transport corridor "North-South", railway lines, transit projects.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: s.e.d. Adil Mirabdullayev, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94**

**VƏSİLƏ İBADLI**
*Azərbaycan Dillər Universitetinin müəllimi,*
*Bakı Dövlət Universitetinin doktorantı*
**vesileelif@gmail.com**

## FRANSA PREZİDENTİ JAK ŞİRAKIN XARİCİ SİYASƏT KONSEPSİYASI

*Araşdırmalardan belə nəticəyə gəlmək olur ki, prezident Şirakın dövründə de Qoll siyasi baxışlarına əsaslanan Fransanın xarici siyasət konsepsiyası ümumi Avropa xarici siyasətinin formalaşmasına da təsir göstərmişdir. Şirak başda olmaqla Fransa rəhbərləri öz xarici siyasət fəaliyyətlərində bu konsepsiyasının əsas müddəalarını tətbiq edirdilər. Fransanın xarici siyasət konsepsiyasının praktiki tətbiqinin ən parlaq nümunələrindən biri onun Yaxın Şərq regionu ilə bağlı siyasəti oldu.*

*Açar sözlər*: Yaxın Şərq, Fransa, Jak Şirak, xarici siyasət.

***Giriş***. XX əsrin 90-cı illərində dünya inkişafında köklü dəyişikliklər baş verdi ki, bu da tədqiqatçılara dövlətlərarası münasibətlərin mahiyyətini və qanunauyğunluqlarını yenidən nəzərdən keçirmək zərurəti yaratdı. Berlin divarının yıxılması və Soyuq Müharibənin sona çatmasının ardınca bəzi gözləntilər var idi ki, bunların əksinə olaraq, bu hadisələrdən sonra nə Qərblə Şərqin yaxınlaşması, nə də qarşılıqlı yardım və əməkdaşlıq prinsiplərinə, ümumbəşəri dəyərlərə əsaslanan yeni dünya nizamının formalaşması baş vermədi.

1990-cı illərin əvvəllərindən bütövlükdə dünyada və xüsusilə Avropada baş verən siyasi və iqtisadi transformasiyalar ona gətirib çıxardı ki, Avropa dövlətləri öz xarici siyasətini formalaşmaqda olan ümumavropa siyasətini nəzərə almaqla həyata keçirməyə məcbur oldular. Prezident J.Şirakın dövründə Fransanın xarici siyasəti Fransa dövlətinin milli maraqlarının yeni reallıqları nəzərə almaq, dünya siyasətində öz yerini axtarmaq, İngiltərə və Almaniya kimi Aİ dövlətləri ilə kompromislər tapmaq zərurəti ilə mübarizəsinin əksi idi.

Prezident J.Şirakın xarici siyasət konsepsiyası, əslində Qollizm siyasi baxışlar sisteminə söykənirdi. Bunun da əsas məqsədi Fransanın hərbi qüdrətini gücləndirmək yolu ilə onun tam müstəqilliyinə və əzəmətinə nail olmaq idi. Odur ki, J.Şirakın xarici siyasətinin konseptual müddəalarını başa düşmək üçün Şarl de Qollun xarici siyasət doktrinasını da daha ətraflı araşdırmaq lazımdır.

***Şarl de Qoll siyasi baxışlar sistemi və Jak Şirakın xarici siyasəti***. İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra Fransanın qarşısında həll edilməli olan bir sıra xarici siyasət məsələləri var idi. Öz müstəmləkə ərazilərinin bütövlüyünü qorumaq və müharibədən sonrakı nizamlanmada iştirak etmək əsas məsələlər hesab olunurdu. O zamanlar "Fransa Mübarizə" adlandırılan Azad Fransız hərəkatına rəhbərlik edən general de Qoll yeni xarici konsepsiya olmadan ölkənin nüfuzunu gücləndirməyin və onu böyük dövlət statusuna qaytarmağın mümkün olmadığını ilk dəfə anlamışdı. Xatırladaq ki, İkinci Dünya Müharibəsinin nəticələri Fransa üçün məyusedici olmuşdu, çünki 1940-cı ildə faşist Almaniyası tərəfindən məğlub edilmiş, bundan sonra Marşal Pétain-in Vişi hökuməti Hitler ilə fəal əməkdaşlıq etmişdi. Müharibə Fransa üçün dəhşətli bir böhran gətirmişdi. General de Qoll müharibə dövründəki fəaliyyətinin nəticələrini hətta belə təsvir etmişdi: "Evi, hətta bəzi mebelləri saxladım". Ümumiyyətlə, bütün bunlara baxmayaraq isə, SSRİ, ABŞ və İngiltərənin dəstəyini qazanan de Qollun səyləri sayəsində Fransa Almaniyadakı işğal zonasını və BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin beş yerindən birini almışdı.

Ölkə üçün yaranmış bu böhranlı vəziyyətdə Fransanın dünya siyasətində nüfuzunu genişləndirərək dirçəlişini müdafiə edən bir ideyanın meydana çıxması tamamilə təbiidir. Şarl de Qoll özünün "Hərbi xatirələr" əsərində Fransanın əsas məqsədlərini belə müəyyənləşdirmişdir: "Fransa yalnız o halda həqiqi Fransadır ki, öndə gedir. Ölkəmiz digər dövlətlər qarşısında böyük məqsədlərə can atmalıdır, O heç kimin qarşısında baş əyməsin, çünki əks halda, ölümcül təhlükə ilə üzləşə bilər. Bir sözlə, hesab edirəm ki, böyüklükdən məhrum Fransa Fransa olmaqdan çıxır" [5, s.29].

Şarl de Qoll və onun Fransa parlamentindəki tərəfdarları hesab edirdilər ki, əgər Fransa əvvəlki əzəmətini bərpa etməsə, o zaman istər-istəməz xarici dünyanın tələblərinə uyğunlaşmalı olacaq, bu isə ölkəni daha güclü dövlətlərin əlavəsinə çevirəcək.

Nüfuzlu fransız politoloqu F.M.Defarjın fikrincə, Şarl de Qollun xarici siyasət konsepsiyası dörd əsas müddəadan ibarət idi:

- Fransanın beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirməyə qadir olan nüvə potensialının yaradılması;
- müstəqil xarici siyasət yeritmək;
- Fransanın rəhbərliyi ilə Avropa təşkilatının yaradılması;
- keçmiş fransız mülklərinin rasional idarə olunması [7, s.137].

Nüvə silahına sahib olmaq de Qoll üçün müəyyən mənada "böyük dövlətlər klubu"na "giriş bileti" idi. Onun fikrincə: "Fransa nüvə silahı əldə etməlidir, çünki başqaları onlara sahibdir, əks halda o, öz taleyini idarə edə bilməyəcək". Əslində, bu sözlər Qollizmin əsas mahiyyətini açır və iddia edir ki, nüvə silahı olmayan dövlət güclü və müstəqil ola bilməz.

Qeyd etmək lazımdır ki, De Qoll öz xələflərinə Məqrib və Yaxın Şərq ölkələrindəki keçmiş müstəmləkələri ilə möhkəm əlaqələr qoyub. Yeganə istisna Fransa-Əlcəzair münasibətləri idi, 1954-1962-ci illərdə Fransa Əlcəzairdə müharibə aparmağına baxmayaraq, onunla müharibəni dayandırmağa və Əlcəzairin uğrunda vuruşduğu müstəqilliyinin tanınmasının tərəfdarı idi. Fransa hökuməti tərəfindən keçirilən 1959-cu il sentyabr, 1961-ci il yanvar aylarında keçirilən referendumlarda seçicilərin əksəriyyəti bu ideyanın lehinə səs versə də, Əlcəzairdə yaşayan fransızlar hər iki ildə də qiyamlar qaldırmış, gizli hərbi təşilatlar yaratmış və Fransanın tələbi ilə silahları təhvil verərək, mübarizəni dayandırmışlar. Sonda 18 mart 1962-ci ildə imzalanan Evian sazişi Fransanın Əlcəzairin müstəqilliyini tanımasını təsdiqləyidi [2, s.111].

Şarl de Qollun xarici siyasət konsepsiyasının həyata keçirilməsi Fransaya çətin beynəlxalq şəraitdə beynəlxalq aləmdə aparıcı rollardan birini oynamağa imkan vermiş oldu. 1990-cı illərdə Qollist xarici siyasətinin əsaslandığı beynəlxalq kontekst dəyişdi: Sovet İttifaqının dağılması ikiqütblü dünyanın məhvinə və soyuq müharibənin sona çatmasına səbəb oldu. Bunun nəticəsi olaraq isə dünya siyasətində qüvvələr nisbətinin dəyişdi.

***Əsas istiqamətlər***. 1995-ci il 7 may vəzifəsinin icrasına başlayan J.Şirakın prezidentliyi Fransa üçün sadə prezident dəyişikliyi deyildi. Şirakın siyasi meylləri Qollçu olduğu üçün ondan Beşinci Respublikanın ilk prezidenti Şarl de Qollun qoyduğu konseptual prinsiplərə əsaslanan xarici siyasət yürütməsi gözlənilə bilərdi.

J.Şirak prezidentliyinin lap əvvəlindən aktual beynəlxalq problemlərin həllini öz üzərinə götürmüş oldu. Beynəlxalq aləmdə ABŞın Qərb dünyasının obyektiv liderinə çevrildiyi, Almaniyanın birləşərək Avropada və dünyada yeni rola iddia edə bildiyi, bir dövrdə Fransa da dünyada öz yerini tapmalı və dünya dövləti statusunu saxlamalı idi. Bu məqsədlə prezident Şirak nüvə sınaqlarına yenidən başlamağı və orduda islahatlar aparmağı düşünürdü.

Prezident Şirak dövründə Fransanın milli müdafiə konsepsiyası və hərbi-strateji doktrinası müəyyən dəyişikliklərə məruz qalmışdır ki, bu da Siyasi Müdafiə Bəyannaməsində "Müdafiə haqqında Ağ Sənəd 1994"də (Le Livre Blanc sur la Defense. 1994), baş nazir A.Juppe və müdafiə naziri S.Millon 1996-2002-ci illər və 2002-2008-ci illərdəki hərbi proqramlarında öz əksini tapmışdır [3].

Beynəlxalq arenada yeni şərtlər Fransanın milli təhlükəsizlik anlayışına düzəlişlər etməyi tələb etdi. İndi Fransa yerli böhranlara tab gətirməli və uzun sürən böhranlara nəzarət etməli idi. Döyüş meydanları milli sərhədlərdən kifayət qədər uzaqda yerləşə bilər. Bu münaqişələrin bəziləri Fransanın maraqlarına birbaşa təhlükə yaratmadı, lakin beynəlxalq hüququn prinsiplərini və ya dövlət suverenliyinə hörmət prinsiplərini, yəni Fransanın BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi dəstəkləməli olduğu prinsipləri pozdu [8, s.114].

Fransa rəhbərliyinin fikrincə, belə böhranlar ilk növbədə Kosovo münaqişəsi və Yaxın Şərqdəki gərginlik olub. Prezident J.Şirak dövründə milli müdafiə və hərbi siyasət konsepsiyası Şarl de Qollun hərbi siyasətinin əsas prinsiplərini davam etdirirdi. Fransa hərbi və nüvə gücünə düşmənin qarşısını almaq və böyük güc statusunu saxlamaq üçün əsas vasitə kimi baxmağa davam edirdi. Şirakın hərbi doktrinasının fərqli xüsusiyyəti Avropanın ümumi müdafiə siyasətinin işlənib hazırlanması və Avropa nüvə doktrinasının zəruriliyinin müzakirəsi idi. Bu, təkbaşına böyük dövlət statusunu saxlamaq üçün getdikcə çətinləşən şərait yaradan maliyyə xarakterli çətinliklərlə bağlı idi.

Beşinci Respublikanın ilk prezidenti Şarl de Qoll müstəqil xarici siyasət yeritməyə çalışırdı ki, bu da Fransanın NATO-nun hərbi strukturlarından çıxmasının səbəblərindən bir idi.

1990-cı illərdə ABŞ və SSRİ arasında heç bir münaqişə olmayıb. Yeni şərait NATO-nun yeni strateji konsepsiyasının qəbulunu tələb edirdi. Əgər əvvəllər NATO regional hərbi-siyasi blok idisə, 1990-cı illərdə NATO konsepsiyasında ehtimal edilirdi ki, potensial təhlükə mənbəyi Avropada sosial-iqtisadi problemlər, etnik fərqliliklər və regional münaqişələr nəticəsində yaranan qeyri-sabitlikdir. NATO müttəfiqləri NATO konsepsiyasındakı dəyişikliyi dəstəklədilər. Bununla belə, Vaşinqton və Paris arasında bəzi fikir ayrılıqları davam edirdi. J.Şirakın prezidentliyi dövründə Fransanın "xüsusi mövqe" adlandırdığı mövqe, De Qollun NATO ilə bağlı siyasətindən çox fərqli idi [6].

1990-cı illərdə Fransanın beynəlxalq arenada təkbaşına mübarizə aparması daha da çətinləşdi. Lakin Fransa, təbii ki, Avropa İttifaqındakı aparıcı rolunu müdafiə etməyə çalışırdı. Prezident Şirakın Avropa siyasəti üç əsas istiqaməti əhatə edirdi: inteqrasiyanın dərinləşdirilməsi və Avropa İttifaqı institutlarının islah edilməsi, Avropanın müdafiəsi və Aİ-nin genişlənməsi. Fransa baş nazirinin Avropa məsələləri üzrə nümayəndəsi Pierre Muscovy problemləri "Fransa və Aİ-nin üzləşdiyi ən çətin və mühüm problemlər" kimi xarakterizə edib [4].

1990-cı illər Aİ-nin Yaxın Şərq və Afrikada mövqelərinin gücləndirilməsi zərurəti də daxil olmaqla bir çox məsələləri gündəmə gətirdi. Ümumi Avropa təhlükəsizliyinin dərinləşdirilməsi Aİ-yə münaqişənin həllində effektiv iştirak etməyə imkan verəcək. Aİ-nin iqtisadi inkişafı Avropa valyutasının dövriyyəyə buraxılmasını tələb edirdi, bunun üçün iqtisadiyyatda Avropa Birliyinin dövlətlərüstü orqanlarına təhvil verilməsi problemini həll etmək lazım idi [1, s.138].

C.Şirakın Avropanın xarici siyasətini istiqamətləndirən başlanğıc nöqtəsi onun prezidentliyi dövründə imzalanmasa da, 1992-ci il Maastrixt sazişi oldu. Prezident J.Şirakın Avropa siyasəti 1992-ci il Maastrixt müqaviləsi əsasında qurulmuşdur.

Maastrixt müqaviləsinin hazırlanması zamanı keyfiyyətcə fərqli iki prinsip toqquşdu: millətlərüstü inteqrasiyanın yaradılması prinsipi və Avropa İttifaqına üzv dövlətlər arasında hökumətlərarası əməkdaşlıq prinsipi. Maastrixt Müqaviləsi Avropa Parlamentinin səlahiyyətlərinin genişləndirilməsində, bir çox sahələrdə qərarların ixtisaslı çoxluqla qəbul edilməsi prinsipinə keçiddə, iqtisadi və siyasi münasibətlərin yaradılmasında ifadə olunan inteqrasiya prosesinin "dərinləşdirilməsi" demək idi.

Prezident Şirakın xarici siyasət konsepsiyasını araşdırdıqda onun Qollizmin siyasi ənənəsinə tam uyğun gəldiyi qənaətinə gələ bilərik. Şirak bir vaxtlar general Şarl de Qoll kimi çətin beynəlxalq şəraitdə Fransanın milli maraqlarını müdafiə etməyə və ölkənin dünya miqyasında nüfuzunu gücləndirməyə çalışırdı. Bu məqsədlə silahlı qüvvələr yenidən təşkil edilib və nüvə sınaqları bərpa edilib. Mühafizə Fransa hərbi doktrinasının vacib komponenti olaraq qaldı. Prezident Şirakın Fransası Avropa İttifaqının ən güclü ölkələrindən biri olmaqda davam etdi. Şirak Aralıq dənizində ənənəvi fransız təsirini qoruyub saxlamağa və Yaxın Şərqdə onu gücləndirməyə çalışırdı.

Şirakın xarici siyasət metodları Qollizmə tam uyğun gəlirdi: ifadəlilik, ambisiya, dövlət başçıları və nüfuzlu şəxslərlə dostluq münasibətlərindən milli maraqlar naminə istifadə etmək bacarığı. Bütün Avropa üçün söz demək praktikasına başlayan Şirak B.N.Yeltsin, Q.Kol, B.Klinton, R.Həriri, Y.Ərəfat və H.Mübarəklə dostluğu sayəsində bir çox xarici siyasət problemlərini həll etdi.

***Nəticə***. Yuxarıda qeyd olunanlardan bu nəticəyə gəlmək olar ki, Prezident Şirak dövründə Qollizm siyasi baxışlarına əsaslanan Fransanın xarici siyasət konsepsiyası ümumi Avropa xarici siyasətinin formalaşmasına da təsir etdi. Xarici siyasət marşrutu ilə hərəkət edən Fransa rəhbərliyi, Şirak başda olmaqla, xarici siyasət konsepsiyasının əsas müddəalarını praktikada tətbiq etdi. Fransanın xarici siyasət anlayışının praktiki tətbiqinin ən parlaq nümunələrindən biri məhz Fransanın Yaxın Şərq regionu ilə bağlı siyasəti oldu.

## ƏDƏBİYYAT

1. Arthur G.J, Laürence D. "A concise history of the Middle East"/ ninth edition. Avalon Publishing, 2010, 555 p.

2. Baxışov Məmmədağa. Avropa və Amerika ölkələrinin müasir tarixi. 2 hissədə. II hissə: İkinci dünya müharibəsindən sonrakı dövr. Bkı, [n.y.], 2018, 333 s.

3. Déclaration de MM. Alain Juppé, Premier ministre, et Charles Millon, ministre de la défense, sur l'avenir de la politique de défense sur le plan stratégique, technologique et financier, à l'Assemblée nationale le 20 mars 1996/ Prononcé le 20 mars 1996 - Déclaration de MM. Alain Juppé, Premier ministre, et Charles Millon, min | vie-publique.fr [08.01.2023].
4. Entretien du Ministre delegue, charge des affaires europeennes, M.Pierre Moscovici avec le i journal "La Croix"/ Paris, 2000. - 3 april. - http://www.france.diplomatie.fr [08.01.2023].
5. Qoll, Ş. Hərbi xatirələr / Kolleksiya. 3 cilddə. Cild. 1: Müraciət (1940-1942). SPb., Astrel, 2003, 816 s.
6. La Liberation (1996- 21 April). From dissolution to the April 21 elections – Libération. - liberation.fr [08.01.2023].
7. Моро-Дефарж Ф. Введение в геополитику. М., Конкорд, 1996, 148 с.
8. Франция: Справочное издание МИД Франции / Перевод на русский язык и издание ЗАО «Интердиалект+». М., 1999.

**ВАСИЛА ИБАДЛЫ**
*Преподаватель Азербайджанского Университета Языков,*
*Докторант Бакинского Государственного Университета*

## КОНЦЕПЦИЯ ВНЕШНЕЙ ПОЛИТИКИ ПРЕЗИДЕНТА ФРАНЦИИ ЖАКА ШИРАКА

Из вышеизложенного можно сделать вывод, что концепция французской внешней политики, основанная на Голлистских политических взглядах в период правления президента Ширака, также повлияла на формирование общеевропейской внешней политики. Следуя внешнеполитическому пути, французское руководство во главе с Шираком претворило в жизнь основные положения внешнеполитической концепции. Одним из наиболее ярких примеров практического применения концепции французской внешней политики была политика Франции в отношении ближневосточного региона.

*Ключевые слова*: Ближний Восток, Франция, Жак Ширак, внешняя политика.

**VASILA IBADLI**
*Lecturer of Azerbaijan University of Languages,*
*Doctoral student of Baku State University*

## FRENCH PRESİDENT JACQUES CHİRAC'S FOREİGN POLİCY CONCEPT

From the above, it can be concluded that the concept of French foreign policy based on Gaullist political views during the period of President Chirac also influenced the formation of common European foreign policy. Following the foreign policy route, the French leadership, headed by Chirac, put into practice the main provisions of the foreign policy concept. One of the most striking examples of the practical application of the concept of French foreign policy was France's policy regarding the Middle East region.

*Keywords*: Middle East, France, Jacques Chirac, foreign policy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Namiq Əsədov, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94; UOT 32:93/94**

**CAVİD MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının*
*"Beynəlxalq münasibətlər tarixi" ixtisası üzrə doktorantı*
**mmmdlicavid1@gmail.com**

# GERHARD ŞRÖDER DÖVRÜNDƏ ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ AVRO-ATLANTİKA TƏHLÜKƏSİZLİK İSTİQAMƏTİ (1998-2005)

*Məqalədə Almaniya Kansleri G. Şröder dövründə Almaniya xarici siyasətinin Avro-Atlantika təhlükəsizlik istiqamətinin (1998-2005) inkişafı və formalaşması məsələləri araşdırılır. İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra Almaniya ABŞ-ın təmin etdiyi təhlükəsizlik çətiri altında öz yerini tutdu. Eyni zamanda, Avropaya inteqrasiya prosesinə diqqət yetirdi və bununla da, Avropanın iqtisadi və siyasi, təhlükəsizlik birliyinin formalaşmasında aparıcı rol oynadı. Lakin soyuq müharibənin başa çatmasından sonra yaranan yeni dünya nizamı Almaniyanın bu ənənəvi xarici siyasət yanaşmasını artıq qoruya bilməyəcəyini açıq şəkildə göstərdi. Bir tərəfdən müttəfiqlərinin Almaniyaya daha çox məsuliyyət götürmək üçün təzyiqləri, digər tərəfdən yeni problemlərin həllində ənənəvi yanaşmaların qeyri-adekvat olması Almaniya üçün yeni xarici siyasət strategiyasının yaradılmasını zəruri edirdi. Bu kontekstdə Almaniyanın yenidən birləşməsindən sonra da xarici siyasətində Avro-Atalntik təhlükəsizlik istiqaməti Almaniyanın xarici siyasətinin mühüm təkib hissəsi olmuşdur.*

*Açar sözlər*: G.Şröder Almaniya, ABŞ, Avro-Atlantika, Xarici Siyasət, Təhlükəsizlik.

***Giriş***. AFR-in kansleri Helmut Kolun dövründə, xüsusən Almaniyanın birləşməsindən sonrakı ilk illərdə AFR-nin xarici siyasəti əsasən həm beynəlxalq ictimaiyyətə, həm də öz vətəndaşlarına seçilmiş kursun "normallığını" sübut etmək istəyi ilə müəyyən edilirdi ki, bu da ilk növbədə ümumi humanist liberal demokratik dəyərlərə sadiqlik kimi, beynəlxalq hüquqa ciddi riayət etməklə şərh olunurdu. "Normallıq" həm də tam müstəqil və suveren milli dövlətin təbii vəziyyətini nəzərdə tuturdu. AFR-nin xarici siyasətini "normallaşdırmaq" çağırışları, digər məsələlərlə yanaşı, ölkənin tarixi inkişafının xüsusiyyətlərinə görə bir sıra özünüməhdudiyyətlərin rədd edilməsini nəzərdə tuturdu. Xüsusən də Xristian Demokrat İttifaqı (XDİ) liderlərindən biri V.Şöyble Bundesverin NATO ölkələrinin bütün hərbi əməliyyatlarında iştirakını Almaniyanın normallıq sınağı hesab edirdi. Hətta H.Kol dövründə vahid Almaniyanın bütün müsbət və mənfi cəhətləri ilə birlikdə xarici siyasətini "praqmatik cavab siyasəti" kimi qələmə vermək olardı. Bu xətt istər "qırmızı-yaşıl" koalisiyanın hakimiyyətə gəlməsi, istərsə də hökumətin Berlinə köçməsi ilə əsaslı şəkildə dəyişmədi. Bu, əslində, almanların əksəriyyətinin Almaniya prezidenti R.Hersoqun səsləndirdiyi "paytaxtın Bonndan Berlinə köçməsi sadəcə yer dəyişikliyidir, lakin oriyentasiya dəyişikliyi deyil" tezisi ilə razılaşdığını təsdiqləyir. On altı il ərzində (1982-1998) Almanlar və bütün dünya yalnız bir federal kansler H.Kol və iki xarici işlər naziri, Hans Dietrix Genşer (1982-1992) və Klaus Kinkellə (1992-1998) məşğul olmaq məcburiyyətində qaldı[1]. 1998-ci ilin payızında Almaniyada keçirilən parlament seçkiləri sosial demokrat Gerhard Şröderin Almaniya kansleri seçilməsini və Yaşılların nümayəndəsi Yoşka Fişerin vitse-kansler və xarici işlər naziri təyin edilməsini qabaqcadan təyin edərək SDP və İttifaq 90/Yaşıllar İttifaqına qələbə gətirdi. Bütövlükdə "qırmızı-yaşıl" koalisiyanın yaradılması ilə Almaniyanın vahid dövlət kimi yeni tarixi rola uyğunlaşması dövrü başa çatdı.[1, s.250 ] On altı il ərzində Almanlar və bütün dünya yalnız bir federal kansler H.Kol və iki xarici işlər naziri, H.D.Genşer (1982-1992) və K.Kinkellə (1992 –1998) məşğul olmaq məcburiyyətində qaldı. 1998-ci ilin payızında Almaniyada keçirilən parlament seçkiləri sosial demokrat Gerhard Şröderin Almaniya kansleri seçilməsini və Yaşılların nümayəndəsi Yoşka Fişerin vitse-kansler və xarici işlər naziri təyin edilməsini qabaqcadan təyin edərək Sosial-Demokrat Partiyasına (SDP) və İttifaq

[1] *1982-1998-ci illərdə Helmut Kol Almaniyaya rəhbərlik etmişdir.*

90/Yaşıllar İttifaqına qələbə gətirdi. Bütövlükdə "qırmızı-yaşıl" koalisiyanın yaradılması ilə Almaniyanın vahid dövlət kimi yeni tarixi rola uyğunlaşması dövrü başa çatdı [1, s.250].

1998-ci ildən isə Almaniyanın tarixində keyfiyyətcə yeni bir dövr başladı. Bu dövr xarici siyasət sahəsində ölkənin öz "mən"ini tapması və yeni beynəlxalq koordinatlar sisteminə daxil edilməsi ilə xarakterizə olunur. Federativ Respublika öz iqtisadi və siyasi çəkisinə və yeni geostrateji mövqeyinə uyğun olaraq beynəlxalq həyatın bir çox məsələlərində qətiyyətsizlik nümayiş etdirməyi dayandırdı. Bir çox ekspertlərin gözləntilərinin əksinə olaraq, pasifizm və liberalizmi ilə tanınan İttifaq-90 / "Yaşıllar"dan yeni Xarici İşlər Naziri Y.Fişer ilk növbədə Rusiyaya və keçmiş SSRİ ölkələrinə münasibətdə, kifayət qədər sərt, praqmatik xarici siyasət yeritməyə başladı [2, s.170]. 1998-ci ilin payızında Almaniyada hökumət dəyişikliyi bu hadisənin paytaxtın Bonndan Berlinə köçürülməsi ilə birlikdə AFR-nin siyasi, o cümlədən xarici siyasət mədəniyyətində əsaslı dəyişikliklərə səbəb olacağı barədə geniş müzakirələrə səbəb oldu. Kansler Şröder hamıya açıq şəkildə bildirdi ki, Sosial Demokratlar və Yaşılların yeni koalisiya hökuməti Almaniyanın qonşularının tarixə əsaslanan qorxularına xüsusi diqqət yetirilməsi dövrünün artıq başa çatdığı qənaətindədir. 1999-cu il aprelin 19-da Almaniya Bundestaqı Berlin Reyxstaqının köhnə binasında ilk dəfə öz plenar iclasında toplaşdı. Məhz bu vaxtdan etibarən "Berlin Respublikası" anlayışı geniş şəkildə istifadə olunmağa başladı və Şröder hökumətin bəyanatında yeni hədəflərə doğru irəliləyiş elan etmək və bununla da siyasi qüvvələr balansında yeni dövrü qeyd etmək üçün istifadə etdi. Onun sələfi Kol, əksinə, bu ifadəyə həmişə diqqətli yanaşırdı [3, s.105].

Göründüyü kimi, yeni federal hökumətin "Berlin Respublikası" terminindən intensiv şəkildə istifadə etməsi, suverenliyi məhdud olan keçmiş Federal Almaniya ilə müqayisədə yeni Almaniyanın keyfiyyətcə dəyişmiş xarakterini nümayiş etdirməli idi. Berlinin Bonna qarşı müxalifətinin qurulmasında əsas məqsəd mümkün qədər çox tərəfdar toplamaq və ölkə əhalisini "qırmızı-yaşıl" koalisiya hökumətinin həqiqətən qeyri-məhdud imkanlarına inandırmaq idi [4, s.150]. 1990-cı illərin əvvəllərində Bosniya və Herseqovinada baş verən hadisələr solçu parlament partiyalarının - SDP və İttifaq-90/"Yaşıllar"ın xarici siyasət münasibətlərinin təkamülünə gətirib çıxardı ki, bu da onları XDİ ilə paradoksal xarici siyasət konsensusa gətirib çıxardı. 1995-1996-cı illərdə SDP əsas diqqəti Balkan hadisələri, xüsusən də Bosniyaya alman "Tornado" döyüş təyyarələrinin göndərilməsinin qanuniliyi məsələsi ilə bağlı xarici siyasət məsələləri üzrə proqram xarakterli müzakirələrə başlayır. Əgər 1995-ci ilin noyabrında Manheymdə keçirilən konqresdə solçular öz anti-müharibə xəttini həyata keçirə bildilərsə, artıq 1996-cı ilin dekabrında Bundestaqdakı SDP fraksiyası Bundesver bölmələrinin Bosniyaya göndərilməsinə səs verdi. 1997-ci ildə "Sosial-demokratik xarici siyasət XXI əsrin astanasında" adlı proqram sənədində partiyanı təcrid vəziyyətindən çıxarmaq üçün onun yekun xarici siyasət kursuna yenidən baxıldı. Sənəd Bundesverin yalnız BMT mandatı çərçivəsində hərbi əməliyyatlarda iştirakına icazə verirdi. Bu mövqe 1997-ci ilin iyununda keçirilən xarici siyasət konqresində və nəhayət, 1997-ci ilin dekabrında Hannoverdə keçirilən konqresdə təsdiqləndi [4, s.140].

Gerhard Şröderin 10 noyabr 1998-ci il tarixli ilk hökumət bəyanatında Almaniyanın xarici siyasətinin yaxın gələcəkdə ideoloji istiqaməti səciyyələndirildi:

"Söhbət püxtələşmiş, özünü başqalarından üstün və ya aşağı hiss etməməli, tarixindən, məsuliyyətindən əl çəkməyən, irəliyə baxan xalqın özünüdərkindən gedir. Qonşularımız da bilirlər ki, biz almanlar özümüzə inandıqca, bizə etibar edə bilərlər" [1, s.180].

Hökumətin tərkibindən asılı olmayaraq, Almaniyanın xarici siyasəti həmişə müəyyən edilmiş Qərb standartlarına uyğun aparılıb və ənənəvi olaraq həyata keçirilir. Bunu Almaniyanın xarici siyasətinin "Nüfuz və yeniləşmə – Almaniyanın XXI əsrə aparan yolu" koalisiya sazişində müəyyən edilmiş məqsədləri sübut edir [5, s.150]. "Qırmızı-yaşıl" koalisiyasının bu və digər hökumət sənədlərini təhlil edərək, yalnız AFR-nin xarici siyasətində bəzi perspektivli düzəlişlərdən danışmaq olar. Onun vəzifələrində, xarakterində və istiqamətlərində köklü dəyişikliklər gözləmək mümkün deyil. Almaniyanın xarici siyasət strategiyasının bəzi əsas komponentləri bunlardır:

- Almaniyanın qərb cəmiyyətinin ayrılmaz hissəsi kimi Avropa Birliyinə daxil edilməsi Almaniya siyasətinin mərkəzi bəndidir. Milli və Avropa səviyyələrində islahatlara xüsusi diqqət yetiriləcək.

●Amsterdam Müqaviləsində müəyyən olunmuş birgə xarici və təhlükəsizlik siyasətinin alət və mexanizmlərindən istifadəsi.

●Güclü Avropa və dünya nizamının qurulması üçün zəruri olan Avropa sabitliyi və təhlükəsizliyinin sarsılmaz aləti kimi NATO ilə əməkdaşlığın genişləndirilməsi;

●ABŞ Almaniyanın ən mühüm qeyri-Avropa tərəfdaşıdır. ABŞ ilə sıx və dostluq münasibətləri ümumi dəyərlərə və ortaq maraqlara əsaslanır.

●ATƏT yeganə ümumavropa təhlükəsizlik təşkilatıdır, bununla bağlı Təşkilatın hüquqi bazasının möhkəmləndirilməsi və ATƏT məkanında münaqişəli vəziyyətlərin həlli istiqamətində təşəbbüslər irəli sürüləcəkdir.

●Xüsusi vəzifə BMT-nin siyasi və maliyyə cəhətdən gücləndirilməsi, islahatların aparılması və beynəlxalq problemlərin həlli üçün bacarıqlı orqana çevrilməsidir. Alman əsgərlərinin beynəlxalq hüquq və Almaniya konstitusiya hüququnu nəzərə alaraq sülhməramlı və beynəlxalq təhlükəsizlik fəaliyyətlərində iştirakı. Almaniya BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmaq fürsətindən istifadə edəcəkdir.

●Almaniyanın bütün qonşuları ilə əlaqələr xarici siyasətin ən mühüm elementidir. Almaniya-Fransa dostluğunun intensivləşdirilməsi istiqamətində addımlar atılacaq, Polşa və Çexiya ilə əməkdaşlıq intensivləşdiriləcək. Rusiya və Ukrayna ilə münasibətlərin məqsədi demokratik hüquqi, sosial və bazar islahatlarını dəstəkləməklə bu regionda sabitliyə nail olmaqdır.

Şröder-Fişer hökumətinin qarşısına qoyduğu ən mühüm vəzifələrdən biri də transatlantik tərəfdaşlığın yenilənməsi oldu. Avropalıların və amerikalıların ümumi marağı gələcəkdə Avropada və ona qonşu dövlətlərdə təhlükəsizliyin və sabitliyin təmin edilməsi üçün birgə çalışmaqdır. Əgər H.Kol dövründə Xristian Demokratlar, heç bir ciddi qeyd-şərtsiz, bütövlükdə Amerikanın xarici siyasət kursuna itaətkarlıqla hərəkət edirdilərsə, Sosial Demokratlar və Yaşıllar koalisiyasının bu məsələdə mövqeyi tamamilə fərqli idi. AFR-in xüsusi mövqeyini ölkənin yeni rəhbərliyi bir sıra digər problemlərlə bağlı da nümayiş etdirdi. Artıq 1998-ci ilin payızında xarici işlər naziri Y. Fişer Almaniyanın NATO ilə münasibətlərinə toxunaraq, qabaqlayıcı nüvə zərbəsi (“ilk istifadə”) konsepsiyasından imtinanın tərəfdarı olduğunu söylədi. Bundan sonra başlayan müzakirələr alyansda xeyli qarışıqlığa səbəb oldu, çünki bu məsələ, ilk növbədə, NATO hərbi təşkilatının aparıcı nüvə gücləri olan ABŞ və Böyük Britaniyaya təsir etdi. Təbii ki, AFR nüvə silahının ilk istifadəsindən imtina etmək qərarına gələ bilmədi. Lakin Almaniyanın xarici siyasətinin nailiyyəti artıq bu problemin ümumən alyans daxilində müzakirə mövzusuna çevrilməsi və NATO daxilində iş səviyyəsində hələ də müzakirə olunmaqda davam etməsi idi. Almaniya hökumətinin rəsmi sənədlərində ilk dəfə olaraq “nüvə silahı sahəsində o cümlədən tərksilah” sözləri də əsas vəzifələrdən biri kimi qeyd edilib. Əvvəllər ölkə liderləri yalnız “silahlara nəzarət”dən danışırdılar. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, Şröder hökumətinin nüvə tərksilahı probleminə diqqətinin artması təsadüfi deyil. AFR-nin atom silahı əldə etməsi qeyri-mümkün olduğuna görə, nüvə silahının ləğvi və digər aparıcı nüvə dövlətlərinin Almaniyaya münasibətdə yeganə strateji üstünlüyündən məhrum edilməsi prosesi ilə o, Amerika Birləşmiş Ştatları ilə müqayisədə dünya arenasında aparıcı mövqeyə çıxa bilərdi [1, s.190-195].

1999-cu il aprelin 23-24-də Vaşinqtonda NATO ölkələrinin dövlət və hökumət başçılarının NATO-nun yaranmasının 50 illiyi ilə əlaqədar yubiley müşavirəsi keçirildi. Eyni zamanda, bu forum 1991-ci ildə qəbul edilmiş və indiyə qədər qüvvədə olan strategiyanı əvəz etməli olan NATO-nun yeni strateji konsepsiyasının elan edilməsi üçün istifadə edilmişdir. Nüvə çəkindirmə təminatlarının mümkün olan ən aşağı səviyyədə saxlanması haqqında müddəa təsdiq edildi. Müharibə vasitəsi kimi nüvə silahının əhəmiyyətinin azaldılması məsələsi Almaniya tərəfinin müzakirəsində xüsusilə fəal şəkildə qaldırıldı. Şimali Atlantika Alyansının yeni strategiyasını tərtib edərkən Almaniya əsas diqqətini tərksilah və münaqişələrin qarşısının alınmasına yönəltdi. AFR-in təkidi ilə, sammitin yekunu üzrə kommünikedə deyilirdi ki, etimad və təhlükəsizliyin qurulması, yoxlanılması və kütləvi qırğın silahlarının yayılmaması və nüvə tərksilahı ilə bağlı tədbirlər nüvə silahının əhəmiyyətinin azalması fonunda yenidən qiymətləndirilməlidir. 1999-cu il aprelin 23-24-də Vaşinqtonda keçirilən sammitdə qəbul edilən alyansın strateji konsepsiyası “yeni” NATO-nun formalaşması istiqamətində ən həlledici addım oldu.

Əslində bu konsepsiya XX əsrin sonu - XXI əsrin əvvəlləri dövrü üçün koalisiya hərbi strategiyası idi. NATO-nun yeni strategiyasının əsas xüsusiyyəti siyasi fəaliyyətlərin blokun birləşmiş silahlı qüvvələrinin, o cümlədən NATO-nun məsuliyyət zonasından kənarda olan qüvvələrinin hərəkətləri ilə sıx əlaqədə olması idi.

1990-cı illərdə ilk dəfə olaraq Almaniya öz silahlı qüvvələrini milli sərhədlərdən kənarda, sonra isə NATO-nun məsuliyyət dairəsindən kənarda, əvvəlcə BMT mandatı altında, sonra isə onsuz istifadə etməyə başladı. Şröder-Fişer hökuməti "Almaniya silahlı qüvvələrinin sülhün və beynəlxalq təhlükəsizliyin qorunması üzrə tədbirlərdə iştirakı beynəlxalq hüquq normalarına və Almaniya Federativ Respublikasının konstitusiya hüququna tam uyğundur" deyə bəyan etdi. AFR artan beynəlxalq məsuliyyətinə əsaslanaraq, BMT çərçivəsində sülhməramlı məqsədlər üçün xeyli vəsait ayırdı. 20 iyun 2000-ci il tarixinə Almaniya o dövrdə fəaliyyət göstərən on doqquz missiyadan beşində iştirak etdi: UNOMİG (The United Nations Observer Mission in Georgia-Birləşmiş Millətlər Təşkilatının Gürcüstandakı Müşahidə Missiyası), UNIKOM (United Nations Iraq-Kuwait Observation Mission Birləşmiş Millətlər Təşkilatının İraq-Küveyt Müşahidə Missiyası), UNMIK (United Nations Interim Administration Mission in Kosovo, Birləşmiş Millətlər Təşkilatının Müvəqqəti İdarə Heyəti Missiyası Kosovo), UNMIBH (BMT-nin Bosniya və Herseqovinadakı Missiyası, UNTAET (BMT-nin Şərqi Timorda Keçid İdarəsi) [3, s.250]. Bundesverin keçmiş Yuqoslaviya ərazisində münaqişənin həlli üçün NATO-nun sülhməramlı qüvvələrində - SFOR və KFOR-da iştirakını nəzərə alaraq, Almaniya sülhməramlı fəaliyyət üçün nəzərdə tutulan insan və maliyyə resurslarının ümumi həcminə görə ABŞ-dan sonra ikinci yeri tutmuşdur. 1998-ci il seçkilərinə gedərkən G.Şröder öz seçicilərinə AFR-nin Avropada etibarlı sülh qalası olacağına söz verdi. Ancaq hələ yarım il hakimiyyətdə olmasına baxmayaraq, onun hökuməti Yuqoslaviya Federativ Respublikasına qarşı hərbi əməliyyatlarda iştirak etdi. Federal kanslerin sözlərinə görə, AFR-nin Kosovoda "qətlləri dayandırmaq" üçün başqa yolu yox idi. NATO-nun YFR-ə hərbi müdaxiləyə başlamaq qərarını ABŞ ilə birlikdə AFR-nin mövqeyi müəyyən etdi. Almaniyanın xarici işlər naziri J.Fişerin fikrincə, "bu münaqişə Almaniyanın öz tərəfdaşları ilə birlikdə üzərinə düşən vəzifəni yerinə yetirməsinin əslində nə demək olduğunu açıq şəkildə göstərməlidir". 1999-cu il martın 25-nə keçən gecə Avropanın ən yeni tarixində dönüş nöqtəsi oldu. Təhlükəsiz xarici mühiti, eləcə də iqtisadi maraqları təmin etmək üçün AFR ümum Avropa və Avro-Atlantik strukturların Mərkəzi və Şərqi Avropaya genişlənməsini dəstəkləmişdir. Bununla belə, Almaniyanın müdafiə siyasətinin xarici amillərdən, xüsusən də ABŞ-dan asılılığı praktiki olaraq azalmayıb. Alman politoloqu Q.Hoffmanın fikrincə NATO-nun 1999-cu ildə Yuqoslaviyada baş verən hadisələrə müdaxiləsi, rəsmi Berlinə bir daha sübut etdi ki, "ABŞ-sız Almaniya və Avropa hətta özlərinin evinin astanasında belə münaqişəni həll etməkdə acizdirlər." Görünməmiş miqyasda Atlantik həmrəylik nümayiş etdirən Almaniya 1999-cu ildə NATO-nun Balkanlarda və Əfqanıstanda keçirdiyi hərbi əməliyyatlarında iştirak etdi. Bosniya, Kosovo və Əfqanıstanda hərbi əməliyyatlarda 10 minə yaxın alman əsgəri iştirak edirdi. Məhz o zamandan etibarən Almaniya Avro-Atlantika təhlükəsizlik sistemində NATO-nun əməliyyatlarında iştirak edərək belə demək mümkünsə "təhlükəsizlik idxalçısı"-na və bərabərhüquqlu üzvünə çevrildi. Buna baxmayaraq, Almaniya cəmiyyətində regional münaqişələrin həlli üçün hərbi gücdən istifadəyə tənqidi münasibət güclənirdi və Berlin üçün Vaşinqtonun NATO-nun hərbi potensialından öz maraqları və mülahizəsinə uyğun istifadə etmək qərarları ilə razılaşmaq getdikcə çətinləşirdi. NATO-nun Balkanlardakı hərbi əməliyyatında iştirak etməklə Almaniya bəlkə də ilk dəfə olaraq müttəfiq həmrəyliyini və məsuliyyəti öz üzərinə götürməyə hazır olduğunu tam nümayiş etdirdi. Əgər yaxın keçmişdə bu məsələdə - məsələn, Fars körfəzi müharibəsi zamanı - tarixi səbəblərə və regionun coğrafi uzaqlığına görə o, hərbi əməliyyatlarda birbaşa iştirak etməsə də anti-İraq koalisiyasına siyasi və maliyyə dəstəyi göstərirdi. Bu da, Avropa qitəsində münaqişəli vəziyyətin yaranması ilə bağlı idi. Almaniya əvvəldən NATO-nun fəaliyyətlərinin planlaşdırılması və həyata keçirilməsində iştirak edmişdir. Bu münaqişədə AFR-nin xüsusi rolu artıq müzakirə predmeti olmadı. Bunu Kosovo müharibəsindən bir neçə həftə əvvəl kansler Şröder Münhendə təhlükəsizlik siyasəti ilə bağlı konfransda deyərkən açıq şəkildə bildirdi: "Almaniya konkret bir yolla gedə bilməz və getmək istəmir. Biz ittifaqda (NATO.) böyümüşük. Və biz onun içində qalmaq istəyirik. Ona görə də bu gün heç bir "əgər" və "amma"

olmadan biz “normal” üzvlər kimi - istər Aİ-də, istərsə də NATO-da məsuliyyəti öz üzərimizə götürməyə hazırıq”. NATO dövlətlərinin paytaxtlarında bu addım diqqətlə və tam təsdiqlə qarşılandı.

2000-ci illərin əvvəllərində, dünya birliyi beynəlxalq terror strukturlarının yaratdığı sürətlə artan təhlükə ilə üzləşdi. 11 sentyabr 2001-ci il terror aktlarından sonra genişmiqyaslı hərbi təhlükənin yaranmasına cavab olaraq Avro-Atlantik birliyin üzvü olan ölkələr kollektiv özünümüdafiə haqqında Vaşinqton Müqaviləsinin (1949) 5-ci maddəsini aktivləşdirdilər [Bundesver, 2009: 78]. NATO qüvvələrinin, ilk növbədə, Əfqanıstanda həyata keçirdiyi hərbi əməliyyatlar “Əl-Qaidə” nin yeni hücumları təhlükəsini aradan qaldırmağa imkan verdi. 1999-cu il Bundestaq seçkilərinin nəticələrindən sonra formalaşdırılan G.Şröder- Y.Fişer hökuməti Əfqanıstana ABŞ-dan sonra ikinci ən böyük hərbi bölmələrini göndərdi və onun fəaliyyəti 2000-ci illərdə aktiv olmuşdur. Hərbi uğurlar dalğası və həm Avro-Atlantik birlik daxilində, həm də ondan kənarda NATO güclərinin hərəkətlərinə geniş dəstək dalğasında, 29 yanvar 2002-ci ildə Qərbin aparıcı ölkəsi - ABŞ-ın prezidenti Corc V. Buş xalqa illik mesajını ünvanladı. Amerika prezidenti antiterror zonasını genişləndirərək, onu İraq ərazisinə keçirməyə çağırdı. S.Hüseyn rejimi kütləvi qırğın silahları (KQS) hazırlanması və istifadə etməkdə, terrorçulara kömək etməkdə ittiham olunurdu ki, bu da ABŞ-ın hərbi-siyasi böhrana başlamasının əsas səbəbi idi. Lakin İraqda Əfqanıstan ərazisindən fərqli olaraq, S.Hüseynin diktaturası şəraitində Əl-Qaidə və Taliban hərəkatının bazası mövcud deyildi. Bu faktı, eləcə də nəzəri cəhətdən radikal hərbiləşdirilmiş qrupların əlinə keçə biləcək kütləvi qırğın silahlarının mövcudluğunu ABŞ inandırıcı şəkildə təkzib edə bilmədi. Buna baxmayaraq, ABŞ Dövlət Departamentinin rəhbəri Kolin Pauel Corc Buş administrasiyasının İraqa qarşı genişmiqyaslı hərbi güc tətbiq etməyə hazır olduğunu vurğuladı. Onun bəyanatı İraqın hərbi-siyasi böhranının yaranmasına əsaslar qoymuşdur. Belə şəraitdə G.Şröder- Y. Fişer (SDP və İttifaq 90/" Yaşıllar") hökuməti ABŞ-ın niyyətləri ilə bağlı aydın mövqe tutmalı idi. ABŞ prezidenti Corc Buşun xatirələrinə görə, 2002-ci il yanvarın 31-də qapalı danışıqlar zamanı Almaniya kansleri G.Şröder ABŞ-ın İraqa mümkün hərbi zərbəsini dəstəkləməyə hazır olduğunu bəyan etmişdir. Lakin 2002-ci il seçki kampaniyası öncəsi alman elektoratının müharibə əleyhinə əhval-ruhiyyəsinin təsiri altında o, qəfil fikrini dəyişdi. Almaniyada 2002-ci il seçkiləri zamanı Sosial-Demokrat Partiyası seçkilərdə qələbə qazandı və G.Şröder ikinci dəfə Almaniya Fedrativ Respublikasının kansleri oldu.

Lakin prezident Buş onu bərabərhüquqlu tərəfdaş kimi tanımayanda kansler Şröder çox məyus oldu. 2002-ci il sentyabrın 13-də Bundestaqda çıxış edərkən Şröder : "Alman millətinin həyati məsələləri ilə bağlı qərarlar Berlində qəbul edilir, başqa yerdə deyil" deyə vurğuladı. Ümumiyyətlə, Almaniyada Amerika siyasətinə münasibət G.Şröderin dövründə daha mənfi xarakter aldı [7, s.150]. Görünür, Almaniya kansleri tərəfindən hələ 2002-ci ilin yayında seçki kampaniyası zamanı açıq şəkildə dilə gətirilən İraqla bağlı ABŞ-Almaniya fikir ayrılıqlarının kökləri buradadır. AFR rəhbərliyi İraqa qarşı hərbi əməliyyatlarda iştirak etməmək qərarına gəlməklə, AFR ilə ABŞ arasında münasibətlər tarixində bəlkə də ən ciddi böhrana səbəb oldu.2003-cü ilin sentyabrında Almaniyada keçirilən rəy sorğuları göstərdi ki, almanların 50%-i ABŞ-ın dünya siyasətindəki aparıcı roluna mənfi yanaşır ( 2002-ci ildə isə bu rəqəm 27% olmuşdur). ABŞ rəhbərliyi ilə həmfikir olanların sayı 68%-dən 45%-ə qədər azalmışdır. Eyni zamanda, Almaniya ictimai rəyində Avropa İttifaqına qarşı açıq-aşkar bir dəyişiklik baş verdi. Əhalinin 81% -i Aİ-nın Almaniyanın maraqları üçün Amerikadan daha vacib olması ilə razılaşdı (2002-ci ildə 55%). Bundan əlavə, almanlar öz ölkələrinin daha fəal xarici siyasət rolu oynamasının tərəfdarıdırlar.Əhalinin 82%-i bunun lehinə, yalnız 13%-i Almaniyanın təcrid mövqeyinin tərəfdarı idi. “Almanlar gözləyirlər ki, ABŞ mühüm qərarlar qəbul etməzdən əvvəl Avropanın, eləcə də Almaniyanın maraqlarını nəzərə alsın [8, s.178]. Qələbə qazanan Şröder bəyan etdi ki, tam həmrəylik avantürist hərəkətlərə şamil edilmir və İraqa qarşı hazırlanan hərbi kampaniyaya şübhə ilə yanaşır. O, 2002-ci il dekabrın əvvəlində əhalinin 71%-nin İraqdakı müharibəyə qarşı çıxış etdiyi öz ölkəsində ictimai rəyi nəzərə almalı oldu. AFR-də seçki kampaniyası zamanı hakim Sosial Demokrat Partiyasının dairələrindən, o cümlədən federal kanslerin özündən kifayət qədər kəskin antiamerikan bəyanatlar səslənmişdi. ABŞ administrasiyası açıq şəkildə bildirdi ki, ABŞ-ın “Almaniya siyasəti” seçki kampaniyası zamanı Şröderin ABŞ-ın İraqla bağlı mövqeyini tənqid etməsinə reaksiya kimi şərh edilməlidir. Daha sonra kansler bəyan etdi ki, BMT Təhlükəsizlik Şurası bunu tələb etsə belə, AFR heç bir şəraitdə İraqa qarşı müharibədə iştirak etməyəcək. Bundan başqa, ABŞ-da ən böyük qəzəbə Almaniya Federativ

Respublikasının ədliyyə naziri Herta Dubler-Gmelinin Corc Buşla Hitleri müqayisə edən bəyanatı səbəb oldu. Beləliklə, Vaşinqtonun gözündə Almaniya terrorizmlə mübarizədə beynəlxalq məsuliyyətindən imtina edərək, əvəzində ABŞ-a qarşı Avropanın əks tarazlığı yaratmaq istəyən və ərəb ölkələri ilə ənənəvi olaraq yaxşı münasibətlər saxlayan Fransa ilə yaxınlaşmağa başladı. Fransa rəhbərliyi də İraqa qarşı güc tətbiqini pisləyərək heç də az sərt mövqe tutmadı. Keçmiş yüksək rütbəli amerikalı diplomat Riçard Holbruk qeyd etdi ki, "2003-cü ilin birinci yarısında Fransanın mövqeyində həqiqətən yeni heç nə yox idi, lakin Almaniyanın mövqeyi tamamilə gözlənilməz və misilsiz idi. Almanlar öz xarici siyasətini fransızların ixtiyarına verdilər. Bu, mənim nəzərimdə Almaniyanın uzunmüddətli maraqlarına cavab verə bilməyən böyük sürpriz oldu". Alman politoloqu G.Şölgen hesab edir ki, AFR NATO-ya daxil olduqdan sonra ilk dəfə olaraq Amerikaya münasibətini və bununla da Qərb İttifaqına sıx bağlılığını şübhə altına aldı. Bununla o, eyni zamanda İkinci Dünya Müharibəsindən sonra Almaniyanın xarici siyasətinin əsas prinsiplərini pozmuş oldu. Britaniyanın baş naziri Toni Bleyerin Almaniyaya səfərindən sonra Almaniya kansleri Gerhard Şröder "sağlam transatlantik münasibətlərin zəruriliyi və əhəmiyyətindən" danışmağa başladı. Bu konteksdə Avropa-transatlantik əlaqələrin məzmunu daha çox Almaniyadan asılıdır. Federal kansler G.Şröder transatlantik tərəfdaşlığın rolunu azaltmaqla Fransa ilə əməkdaşlığa üstünlük verməyə başladı. Fransa və Rusiya liderləri ilə birlikdə O, 2003-cü ildə ABŞ-ın İraqdakı hərbi əməliyyatına mənfi münasibət göstərdi. 2003-cü il aprelin 11-də Sankt-Peterburqda baş tutan Rusiya-Fransa-Almaniya üçtərəfli görüşünün ertəsi günü "Spiegel" jurnalına müsahibəsində G.Şröder prezident Buşun ABŞ-Almaniya münasibətlərinin kəskin şəkildə pisləşməsinə səbəb olan İraq siyasətini "şişirdilmiş" tənqidindən təəssüfləndiyini bildirdi. Bununla belə, Berlin transatlantik alyansın birliyini şübhə altına almağa cəsarət etmədi. Fransa tərəfi də oxşar davranış nümayiş etdirdi. Və bu, Rusiya, Fransa və Almaniyaya İraqda müharibədən sonrakı nizamlanmanın BMT vasitəsilə həllində öz maraqlarını reallaşdırmağa imkan verdi. Bu əvvəllər bağlanmış müqavilələrin qorunub saxlanması, bərpa işlərinin aparılması və s. demək idi. Məhz buna görə də Rusiya, Fransa və Almaniya liderləri 2003-cü il aprelin 11-də Sankt-Peterburqda keçirilən görüşdə İraq problemini BMT-nin "çətiri altında" həll etmək istəklərini bir daha təsdiqlədilər [5, s.192].

Avropa İttifaqı da bu problemə eyni münasibəti nümayiş etdirdi. 2003-cü il aprelin 16-17-də Afinada keçirilən Aİ sammitində BMT-nin İraqda müharibədən sonrakı nizamlanmada "mərkəzi siyasi rol" oynamasının zəruriliyi vurğulayan qətnamə qəbul edildi. İraq müharibəsi göstərdi ki, ABŞ-ın güc tətbiqi ilə bağlı Qərb dövlətlərinin düşərgəsindəki fikir ayrılıqları taktiki xarakter daşıyır və onların xarici siyasətində hər hansı yeni strateji vektorlarla bağlı deyil. Xüsusilə, 2003-cü ilin yayında NATO-nun hərbi komitəsinin keçmiş sədri Klaus Naumann və ABŞ prezidentinin milli təhlükəsizlik üzrə keçmiş müşaviri Z.Bjezinski XDİ/XSİ fraksiyasının sədr müavininin iştirakı ilə Bundestaq, Konrad Adenauer Fondu çərçivəsində, Almaniyanın NATO-nu öz təhlükəsizliyinin əsas aləti kimi tanımasının zəruri olduğu bir sənəd hazırladı. Sənədi hazırlayanlar Almaniya hökumətinə alyansa qarşı yönəlmiş hərəkətləri dəstəkləməməyi, Avropa Təhlükəsizlik və Müdafiə Siyasətindən NATO-ya qarşı tarazlıq kimi istifadə etməməyi və XXI əsrin təhlükə və təhdidləri haqqında ümumi transatlantik məlumatlılığı inkişaf etdirməyi tövsiyə etdilər. Amerikaya da öz növbəsində hərbi üstünlüyünə baxmayaraq, öz tərəfdaşları və müttəfiqləri ilə bağlı olduğunu başa düşmək, real məsləhətləşmələrə, xüsusən də Almaniya ilə hazır olmaq tövsiyə olundu [6, s.180].

G.Şröder - Y. Fişer hökumətinin xəttini nəzərə alaraq Almaniyanın İraq hərbi-siyasi böhranının həlli ilə bağlı mövqeyində dörd amili qeyd etmək lazımdır.

Birincisi, İraq XX əsrin sonu və XXI əsrin əvvəllərində Almaniyanın xarici siyasət prioritetləri arasında deyildi. AFR-in bu Asiya ölkəsində ciddi iqtisadi və siyasi (xüsusən də hərbi) mövqeləri yox idi. Həm də maddi-texniki xərcləri ilə dolu olan hərbi gücdən birtərəfli istifadə "yeni AFR" in təkcə İraqda deyil, bütövlükdə Yaxın Şərqdə təsirini gücləndirməyə kömək etməyəcəkdi.

İkincisi, İraqın işğalını təşkil etmək üçün NATO mexanizmindən istifadə etməyə imkan verməyən Almaniya tərəfi beynəlxalq hüquq çərçivəsindən kənarda fəaliyyət göstərən "istəklilər koalisiyasını" dəstəkləməyə daha az hazır idi. Üstəlik, ABŞ-dan fərqli olaraq Almaniya, yuxarıda qeyd etdiyimiz kimi, BMT-nin imkanlarından fəal istifadə edirdi. Bundan əlavə, Almaniya NATO-da ABŞ-dan fərqli bir xətt tutmaqla alyansda Amerika tərəfinə paralel ikinci, siyasi cazibə mərkəzi kimi təsirini gücləndirdi. NATO-da yeni yaranmış təsir mərkəzinin bir xüsusiyyəti alyansın hərbi potensialından onun məsuliyyət

zonasından kənarda döyüşdə istifadəsinə ABŞ-dan daha balanslı yanaşma oldu. İraq böhranının gedişində özünü büruzə verən alyansın vəzifələrinin bu baxışından çıxış edərək, G.Şröder artıq qeyd etdiyimiz 2005-ci ildəki çıxışında bu strukturda dərin islahatların aparılması layihəsini irəli sürdü.

Üçüncüsü, 2003-cü ildə həm NATO daxilində (Fransa), həm də Avro-Atlantika regionundan kənarda (Rusiya) bəzi güclər böhranın əsas səbəbini siyasi yolla aradan qaldırmaq qabiliyyətini nümayiş etdirdilər. AFR rəhbərliyinin bu tendensiyadan xəbərdar olması onun Rusiya-Fransa-Almaniya üçtərəfli mexanizmi çərçivəsində əməkdaşlıqda iştirakını şərtləndirdi.

Dördüncüsü, Almaniya Bundestaqında, eləcə də hökumətdə həm 2002-ci il federal seçkilərindən əvvəl, həm də ondan sonra hərbi gücdən istifadə üçün lazımi dəstək yox idi. G. Şröder-Y. Fişer, eləcə də onların SDP və İttifaq 90/"Yaşıllar"dakı partiyadaşları problemin siyasi həlli istiqamətində kursu dəstəklədilər.

ABŞ və Almaniya liderləri arasında barışıq fonunda, demək olar ki, eyni vaxtda Aİ və NATO-ya yeni üzvlər qəbul edildi (2004). Əslində, 2003-cü il martın 20-dən mayın 1-dək davam edən Səddam Hüseynə qarşı müharibədə iştirak məsələsində ABŞ-ın avropalı tərəfdaşlarına və müttəfiqlərinə təzyiq siyasəti Moskvanın da qoşulması ilə Paris və Berlin arasında görünməmiş genişmiqyaslı xarici siyasət əməkdaşlığına səbəb oldu [3, s.145]. Amerikalılar bir neçə ay ərzində Almaniya hökuməti ilə mübahisəyə son qoymaqda maraqlı olmadılar. AFR-ABŞ arasında münasibətlər yalnız 2003-cü ilin iyulunda Y.Fişer amerikalı həmkarı Kolin Pauell və Kondoliza Rays ilə məsləhətləşmələr üçün Vaşinqtona gəlməsindən sonra düzəldi.

Bundan əlavə, Almaniyanın dəstəyi və iştirakı ilə 2002-ci ilin fevralında Somalidə üç patrul gəmisi, beş torpedo qayığı, iki tender və yük gəmisi, bir tanker və onlara qoşulmuş 1300 hərbçidən ibarət gəmilərin təşkil olunduğu bir hərbi dəniz bazası təchiz edildi. Bu əlaqə regionda naviqasiya təhlükəsizliyini təmin etməli idi. Cibutidə dəniz qüvvələrinə dəstək bazası da yaradıldı. Bundan əlavə, 2002-ci ilin mart ayından Mombasadan (Keniya) dəniz zolaqlarını patrul etmək üçün üç kəşfiyyat təyyarəsi yerləşdirildi. Nəhayət, Əfqanıstandakı hərbi əməliyyatda Bundesverin 100-dən çox xüsusi təyinatlı əsgəri və ABŞ ərazisi üzərində NATO AWACS sistemlərinin fəaliyyətinin təmin edilməsində 250 hərbçi iştirak etdi. Ümumiyyətlə, 2002-ci ildə Almaniya hökuməti Bundesverin xaricdəki əməliyyatlarda iştirakının xərclərini ödəmək üçün 1,25 milyard avrodan çox vəsait ayırmışdır. Məlum oldu ki, Almaniya XXI əsrin əvvəllərində qlobal miqyasda sülhməramlı əməliyyatları təmin etmək üçün öz hərbi kontingentini təmin edən ABŞ-dan sonra ən böyük dövlətə çevrilib [4, s.154].

Əgər ABŞ ÜDM-in 3,2%-ni hərbi məqsədlərə xərcləyirsə, Almaniya 1,5%-ni xərcləyir (1,1%-lik səviyyəyə çatmağa çalışır). Federal hökumətin qərarlarına əsasən, ölkənin hərbi büdcəsi 1998-ci ildəki 45 milyard markdan (Kosovoda Bundesverin istifadəsi üçün + 2 milyard) 2002-ci ildə 43,5 milyard marka düşüb. Vaşinqton bir sıra Avropa ölkələrində aparılan hərbi islahatlara şübhə ilə yanaşır. Bu, xüsusilə Almaniyaya aiddir, o, hərbi xərcləri azaltmaqla yanaşı (hazırda Lüksemburq istisna olmaqla, digər NATO ölkələrindən nisbətən azdır), daha kiçik ordunun xeyrinə çağırış qanunu əsasında formalaşan böyük ordudan tədricən imtina edir. Lakin bu fikir ayrılıqlarına və ziddiyyətlərə baxmayaraq, Almaniya və ABŞ arasında tərəfdaşlıq hələ də federal Nazirlər Kabinetinin xarici siyasətinin əsas elementidir [10, s.256].

2000-ci illərin əvvəllərində Aİ və NATO-ya uğurlu inteqrasiyadan sonra Almaniyanın ən yaxın qonşuları - Çexiya və Polşanın Avropa siyasətindəki rolu artdı. Bu ölkələr Qərbi Avropa dövlətləri kimi Avropaya inteqrasiya və transatlantik əməkdaşlıq prosesinin bərabərhüquqlu iştirakçıları oldular. Bu dövlətlərin ABŞ və onun müttəfiqlərinin İraqdakı hərbi əməliyyatları ilə bağlı mövqeyi, eləcə də prezident A.Kvasnevskinin Ukraynadakı siyasi böhranın aradan qaldırılmasında fəal iştirakı bu iki ölkənin, xüsusilə də Polşanın regional siyasətdə daha fəal rol oynamaq istəklərini nümayiş etdirdi [5, s.190].

Dəyişən vəziyyət Almaniyanın ənənəvi "Şərq Siyasəti"nə meydan oxudu, burada qonşu ölkələr bərabərhüquqlu tərəfdaşlardan daha çox kiçik tərəfdaşlar kimi baxırdılar. Almanlar Avropa Birliyinin mərkəzində olduqları üçün xüsusilə sülh və mehriban qonşuluqda maraqlıdırlar. Qitədə ən çox əhalisi olan və eyni zamanda Avropanın mərkəzində yerləşən iqtisadi cəhətdən güclü dövlət kimi vahid

Almaniya ilk növbədə Avropa inteqrasiya prosesində iştirak etməkdə və onların daha da inkişaf etdirilməsində və genişlənməsində maraqlıdır.

Almaniya-Amerika münasibətlərinə gəlincə, münasibətlər yalnız 2003-cü il sentyabrın 28-də bərpa olundu. 16 aylıq fasilədən sonra G.Şröder Nyu-Yorkda Corc Buşla görüşdü və bu münasibətlə çoxdan gözlənilən barışıq baş tutdu. ABŞ-Almaniya əlaqələrinin gücü Almaniyanın iqtisadiyyat, kosmik tədqiqatlar, ətraf mühitin mühafizəsi və mütəşəkkil cinayətkarlıqla mübarizədə ABŞ-ın ən böyük tərəfdaşı olması ilə müəyyən edilir. Almaniya Federativ Respublikası ABŞ silahlı qüvvələrinin Avropadakı ən böyük bölməsinə ev sahibliyi edir. 2005-ci il sentyabrın 18-də SDP və Yaşıllar koalisiyasının seçkilərdə məğlub olması Almaniyanın xarici siyasət tarixində daha bir mərhələnin sonu oldu. Yeni federal hökumətin yaxın gələcəkdə həll etməli olduğu bir sıra problemlər var idi. Bunlara ABŞ üçün gələcək strategiyanın seçilməsi, Almaniyanın Avropaya inteqrasiya prosesində iştirak strategiyası, o cümlədən Türkiyənin Aİ-yə daxil olması məsələsinin həlli; Polşa və digər Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Baltikyanı ölkələrlə əməkdaşlığın inkişafı, Rusiya ilə əlaqələri daha da genişlənməsi daxildir. Kansler A.Merkelin dövründə Atlantik vektorunun gözlənilən möhkəmlənməsi baş verdi və Almaniya ilə ABŞ arasında münasibətlərin "post-Şröder istiləşməsi" başladı. XSİ/XDİ və SDP arasında koalisiya sazişində "atlantizm" xarici siyasət prioritetlərində Avropadan sonra ikinci yeri tutdu. 2006-cı il oktyabrın 25-də Berlində Almaniya Atlantika Cəmiyyətinin yubiley iclasında çıxış edən hökumət başçısı vurğuladı: "Avropa inteqrasiyası ilə yanaşı, transatlantik əlaqələr Almaniyanın xarici və təhlükəsizlik siyasətinin sarsılmaz sütunu olaraq qalır. Bununla belə, Almaniya-Amerika münasibətlərində Vaşinqtonun BMT mandatı almadan beynəlxalq aləmdə münaqişələrin həllində fəaliyyət göstərmək cəhdləri, habelə ABŞ-ın RMS müqaviləsindən çıxması və bir sıra digər məsələlərlə bağlı ziddiyyətlər qalmaqdadır. Bütün bunlara baxmayaraq, təbii ki, AFR-nin siyasətində köklü atlantizm ənənəsindən kardinal qırılma olmadı və 2005-ci ildən sonra Almaniya hökumətinə başçılıq edən A.Merkel Şröder zamanında avropaçılıq və atlantizim arasında pozlumuş balansı bərpa etdi, AFR və ABŞ arasındakı fikir ayrılıqlarını xeyli dərəcədə yumşalda bildi [10, s.150].

***Nəticə.***Yuxarıda deyildiyi kimi kansler Gerhard Şröderin dövründə Almaniya Federativ Respublikasının Avro-Atlantik təhlükəsizlik sistemində iştirakı onun Amerika ilə münasibətlərində xeyli gərginliyə səbəb olmuşdur. Almaniya ABŞ-ın Avropadakı ən mühüm müttəfiqlərindən biridir. AFR transatlantik əlaəqləri çərçivəsində ABŞ və NATO nun Əfqanıstan, Kosovo və Yuqoslaviya əməliyyatlarında iştirak etməsinə baxmayaraq, İraq müharibəsi zamanı ABŞ-ın İraq müdaxiləsinə Fransa ilə birgə qarşı çıxmışdır. Bu da öz növbəsində Almaniya Federativ Respublikasının ABŞ-la münasibətlərində gərginliyə və soyuqlaşmaya səbəb olmuşdur. Burada gördüyümüz Almaniya təhlükəsizlik məsələlərində öz maraqlarını müdafiə etməsi, ölkəni beynəlxalq dövlətlər birliyinə tam olaraq geri qaytarmağa müvəffəq olması, NATO və ABŞ ilə transatlantik əlaqələrinə sadiq qalması konteksində Avropa və transatlantik əməkdaşlığının üzvü kimi əsas güc olaraq qalır. Aİ və NATO-nun genişlənməsi bir çox ekspertlər və hakim kabinet tərəfindən "təhlükəsizliyin Şərqə ötürülməsi", Avropanı daha təhlükəsiz və sabit etmək şansı kimi dəyərləndirilir. Təbii ki, belə bir mövqedə AFR-in iqtisadi və siyasi təsir zonasını genişləndirmək, yeni satış bazarları açmaq istəyini də görmək olar ki, bu da reytinqdə birinci yeri tutan ölkə üçün xüsusilə vacibdir. 20-ci əsrin ikinci yarısında Almaniyanın xarici və təhlükəsizlik siyasəti ənənəvi güc atributlarından deyil, diplomatiyadan, iqtisadiyyatdan, Avropa və transatlantik layihələrdə etibarlı tərəfdaş kimi nüfuzundan istifadə etməklə səciyyələnirdi. Böhranların idarə edilməsi təcrübəsi göstərdi ki, sosial və iqtisadi münaqişələr hərbi yolla həll edilə bilməz. Və məhz bu sahədə Almaniya avropalıların fəaliyyətini koordinasiya edən liderə çevrilə bilər. Almaniyanın daha böyük müstəqilliyinin göstəricisi onun diplomatiyasının Fransa və Rusiya ilə birlikdə Kosovo və İraq münaqişəsinin həllində çox fəal rol oynaması idi. Təhlükəsiz xarici mühiti, eləcə də iqtisadi maraqları təmin etmək üçün AFR ümum Avropa və Avro-Atlantik strukturların Mərkəzi və Şərqi Avropaya genişlənməsini dəstəkləmişdir. Bununla belə, Almaniyanın müdafiə siyasətinin xarici amillərdən, xüsusən də ABŞ-dan asılılığı praktiki olaraq azalmayıb Bununla belə, Almaniyanın təhlükəsizlik siyasəti getdikcə müstəqilləşir, ölkə öz siyasi çəkisinə və iqtisadi təsirinə tam uyğun gələn rol oynamağa çalışır.

## ƏDƏBİYYAT

1. Минин Е.М.- Внешняя политика Германии. Москва. Издательство: Проспект, 2023, с 560.
2. Павлов Н. В, Новиков А. А. Внешняя политика ФРГ: от Аденауэра до Шредера. Москва. ЗАО «Московские учебники - СиДиПресс», 2000, С 609.
3. Воробьева Л.М. Внешняя политика ФРГ на пороге XXI века. Москва— М.: РИСИ, 2000, с 354.
4. Германия Вызовы XXI. В.Б. Под редакцией Белова. 117342, Москва, ул. Бутлерова, д. 176, ООО Издательство «Весь Мир», с 794.
5. Евроатлантическое пространство безопасности: концептуальное и региональное разнообразие: сборник научных статей; под ред. А.С. Макарычева. – Н. Новгород: Издательство ННГУ, 2008. – с 200.
6. Германия. Факты. — Франкфурт-на-Майне: Издательство «Societaets- Verlag», 1996, с 352.
7. Завадски К. Политика обеспечения будущего. Основные моменты немецкой политики развития в 90-х годах. - Бонн: Интер Национес, специальная тема, 1993, с 170.
8. Германия 2013. Москва -2014, © ИЕ РАН, подготовка текста, 2014 с 140.
9. Böckenförde, S. Gareis, Sven B. Deutsche Sicherheitspolitik. Herausforderungen, Akteure und Prozesse. / Sven B. Gareis, S. Böckenförde (Hrsg.). – Opladen, Toronto: Verlag Barbara Budrich, 2014, p 156.
10. Chiari, B. Pahl, M. Auslandseinsätze der Bundeswehr. / B. Chiari, M. Pahl (Hrsg.). – Padeborn: Ferdinand Schöningh, 2010, p 150.
11. Glaser, K. Die vereinte Deutschland und die Transformation der NATO (1990-2008). / K. Glaser. – Hamburg: Verlag Dr. Kovac, 2011, p 217.
12. Kaim, M. Die deutsche NATO-Politik. // Deutsche Außenpolitik. Sicherheit, Wohlfahrt, Institutionen und Normen. / T. Jäger, A. Höse. (Hrsg.). / M. Kaim. – Wiesbaden: Verlag für Sozialwissenschaften/GWV Fachverlage GmbH, 2007, p 150.
13. Die Beziehungen von Deutschland zu den USA unter der rot-grünen Bundesregierung. Nymphenburger St 86, Munich, Bavaria 80636, DE 2006 GRIN Verlag p 170.

**ДЖАВИД МАМЕДЛИ**
*Докторант кафедры новой и новейшей истории стран Европы и Америки Бакинского государственного университета по специальности «История международных отношений»*

## НАПРАВЛЕНИЕ ЕВРОАТЛАНТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ ФЕДЕРАТИВНОЙ РЕСПУБЛИКИ ГЕРМАНИЯ ПРИ ГЕРХАРДЕ ШРЕДЕРЕ (1998-2005)

В статье рассматривается развитие и становление евроатлантического направления безопасности внешней политики Германии (1998-2005 гг.) в период правления канцлера ФРГ Г.Шредера. После окончания Второй мировой войны Германия заняла свое место под зонтиком безопасности, предоставленным Соединенными Штатами. В то же время Германия уделяла внимание процессу европейской интеграции и, таким образом, играл ведущую роль в формировании европейского экономического, политического союза и союза безопасности. Но новый мировой порядок, сложившийся после окончания «холодной войны», ясно дал понять, что Германия больше не может придерживаться этого традиционного внешнеполитического подхода. С одной стороны, давление союзников Германии с целью взять на себя больше ответственности, а с другой стороны, неадекватность традиционных подходов в решении новых задач обусловили необходимость создания новой внешнеполитической стратегии Германии. В этом контексте даже после воссоединения Германии направление евроатлантической безопасности в ее внешней политике было важной частью внешней политики Германии.

*Ключевые слова:* Г.Шредер Германия, США, Евроатлантика, внешняя политика, безопасность.

**JAVİD MAMMADLİ**
*Doctoral student of the Department of New and Modern History of European and American Countries of Baku State University, majoring in "History of International Relations"*

## EURO-ATLANTIC SECURITY DIRECTION IN THE FOREIGN POLICY OF THE FEDERAL REPUBLIC OF GERMANY DURING GERHARD SCHRODER (1998-2005)

The article examines the development and formation of the Euro-Atlantic security direction of German foreign policy (1998-2005) during the German Chancellor G. Schröder's tenure. After the end of World War II, Germany took its place under the security umbrella provided by the United States. At the same time, Germany paid attention to the European integration process and thus played a leading role in the formation of the European economic, political and security union. But the new world order that emerged after the end of the Cold War made it clear that Germany could no longer maintain this traditional foreign policy approach. On the one hand, the pressure of Germany's allies to take more responsibility, and on the other hand, the inadequacy of traditional approaches in solving new problems made it necessary to create a new foreign policy strategy for Germany. In this context, even after the reunification of Germany, the direction of Euro-Atlantic security in its foreign policy has been an important part of Germany's foreign policy.

*Keywords:* G. Schröder Germany, USA, Euro-Atlantic, Foreign Policy, Security.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Rövşən Hətəmov, t.e.d. Sevinc Yusifzadə.*

---

**UOT 94(479.24); UOT 94**

**ODƏR HÜSEYNLİ**
*Bakı Dövlət Universiteti*
**oder_huseynli@mail.ru**

# AZƏRBAYCANIN BALTİKYANI ÖLKƏLƏRLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ (LATVİYA, LİTVA, ESTONİYA TİMSALINDA)

*Məqalədə Azərbaycan və Baltikyanı ölkələr (Latviya, Litva, Estoniya) arasındakı mədəni əlaqələrdən bəhs edilir. Yaxın keçmişdə mədəni-tarixi əlaqələrin mövcudluğu müasir dövrdə dövlətlərarası münasibətlərin formalaşmasına və inkişafına potensial zəmin yaradır. Keçmiş sovet ittifaqı tərkibində uzun illər birlikdə yaşamaq müasir dövrdə dövlətlərarası mədəni münasibətlərin genişlənməsinə təkan vermişdir.*

*Açar sözlər*: Azərbaycan, Latviya, Litva, Estoniya, mədəni əlaqələr.

***Giriş.*** Azərbaycan Respublikası müstəqilliyini əldə edib Birləşmiş Millətlər Təşkilatına üzv olduqdan sonra, ona üzv olan dövlətlərlə əlaqələrin yaradılması və inkişafına çalışmışdır. Bu dövlətlərə, qonşuluqda yerləşən dövlətlərdən əlavə keçmiş postsovet ölkələri daxildir.

Pribaltika regionunda yerləşən və keçmiş postsovet ölkələri olan Litva, Latviya, Estoniya ilə diplomatik əlaqələr qurulduqdan sonra, Azərbaycan ilə həmin ölkələr arasında mədəni əlaqələrin inkişaf etdirilməsi planlaşdırılmışdır. Belə ki, SSRİ-nin tərkibində uzun illər birlikdə yaşadıqdan sonra, millətlərarası əlaqələr mövcud idi. Tarixi-mədəni əlaqələrin mövcudluğu müstəqillikdən sonra dövlətlərarası münasibətlərin bu sferasında inkişafına təkan vermiş olacaqdı.

Bunun məntiqi nəticəsi kimi həmin ölkələrdə yaşayan həmyerlilərimiz tərəfindən bir sıra təşkilat və cəmiyyətlər yaradıldı. Həmin təşkilat və cəmiyyətlərin qarşılarına qoyduqları əsas məqsəd orada yaşayan vətəndaşlarımızın ictimai-siyasi, mədəni fəaliyyətlərinin aparılması, iki dövlət arasında mövcud tarixi-mədəni əlaqələrin inkişaf etdirilməsi idi.

Xüsusilə Birinci Qarabağ müharibəsi illərində Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcavüzkar siyasət və bu siyasət nəticəsində tariximizə qanlı hərflərlə yazılan torpaqlarımızın düşmən tərəfindən itirilməsinə səbəb olan faciə barəsində təbliğ, təşviqat işlərinin həyata keçirilməsi idi. Düşmənin təcavüzünü çılpaqlıqla dövlət medya orqanlarında: televiziya, radio və qəzetlərdə qeyd edib ictimaiyyəti məlumatlandırmaq, gerçəyi aydın şəkildə izah etmək qarşıya qoyulan vəzifələrdən birincisi idi.

***Mədəni əlaqələrin qurulması və inkişafının ilk addımları.*** Ölkəmizdən kənarda yaşayan həmvətənlərimizin qurduqları ilk cəmiyyətlərdən biri "Estoniya-Azərbaycan" cəmiyyətidir. Cəmiyyət, qurulduğu ilk gündən etibarən Azərbaycan və Estoniya xalqlarının tarixi dostluq əlaqələrinin davamçısı olaraq fəaliyyətə başlamışdır. Cəmiyyətə Ağsaqqallar şurası rəhbərlik edir. Cəmiyyətin sədri Fərhad Heydərlidir (1).

"Estoniya-Azərbaycan Cəmiyyəti" respublikamızda baş verən ictimai-siyasi hadisələrin mahiyyətini, demokratik proseslərin xüsusiyyətlərini istər Estoniyada yaşayan soydaşlarımız, istərsə də Estoniya ictimaiyyəti arasında geniş təbliğ etməyə çalışır. Cəmiyyətin üzvləri mətbuat, televiziya və radio vasitəsilə Azərbaycan haqqında düzgün və dolğun informasiya bazasının formalaşmasına xüsusi diqqət yetirirlər.

Həmyerlilərimizin Estoniyada qurduqları mədəni cəmiyyətlərdən biri də "Ocaq Azərbaycan Mədəniyyəti" Cəmiyyətidir. Estoniyada yaşayan sayları 1000 nəfərdən çox olan soydaşlarımız əsasən ölkənin paytaxtı olan Tallin şəhərində məskunlaşmışdır. "Ocaq" 1989-cu ilin yanvarında təsis edilmişdir. Cəmiyyətə idarə heyəti rəhbərlik edir. Cəmiyyətə Niyazi Hacıyev sədrlik edir.

Cəmiyyətin "Ocaq" adlı qəzeti 1989-cu ilin dekabr ayından etibarən ayda bir dəfə olmaqla nəşr olunur. Qəzet cəmiyyətin məqsədi, gördüyü işləri, onun fəaliyyətinin əsas istiqamətləri barəsində məlumat verir. Qəzet vasitəsi ilə orada yaşayan soydaşlarımız, onların həyat şəraiti ilə tanış oluruq.

Cəmiyyətin başlıca məqsədi hər iki xalq arasında mədəni, iqtisadi, sosial sahədə əlaqələr yaratmaq və onların bir-birini yaxından tanımasına kömək etməkdir. Cəmiyyət Azərbaycan və Estoniya

mədəni əlaqələrinin, dostluq münasibətlərinin tarixinə əsaslanaraq öz hərəkət fəaliyyətini genişləndirir.

Hələ keçən əsrin sonlarında Estoniyanın Tartu şəhərində azərbaycanlı tələbələrin cəmiyyəti, əsrimizin əvvəllərində isə "Bakı Eston Cəmiyyəti" fəaliyyət göstərmişdir. "Ocaq" cəmiyyəti həmin tarixi ənənələri indiki zaman və şəraitdə inkişaf etdirməyə çalışır.

"Ocaq" cəmiyyəti Azərbaycan mədəniyyəti günlərinin keçirilməsində, Azərbaycan dilində kitabların satışının təşkil olunmasında və bir sıra başqa tədbirlərin keçirilməsində xeyli iş görmüşdür. Böyük əhəmiyyət kəsb edən fəaliyyətlərdən biri də Estoniyada Azərbaycan dilinin tədrisi ilə bağlı kursların yaradılmasıdır.

"Ocaq" cəmiyyətinin fəal olaraq gördüyü işlərdən birincisi və ən önəmlisi təbii ki, Azərbaycana qarşı erməni qəsbkarlarının xalqımıza qarşı törətdikləri cinayətlər haqqında doğru və aydın məlumatları eston ictimaiyyəti arasında geniş yaymaqdır.

"Ocaq" cəmiyyəti iki ölkənin xalqları arasında dostluğun və qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsi sahəsində öz fəaliyyətini durmadan genişləndirməyə davam edir.

Humanitar sahədə əməkdaşlıq, Azərbaycan ilə Estoniya arasında əlaqələrin daha da inkişaf etdirilməsində, iki ölkənin mədəniyyətinin və tarixinin təbliğ edilməsində əhəmiyyətli rol oynayır. Son dövrdə humanitar sahədə əlaqələrin möhkəmləndirilməsi məqsədilə Estoniyada Azərbaycanın dövlətçilik tarixi, mədəniyyəti, incəsənəti, kinematoqrafıyası, teatrı, mətbəxi və s. mövzulara həsr olunmuş bir sıra tədbirlər keçirilmişdir.

Tallində ənənəvi olaraq keçirilən "Black Nights" Film Festivalında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş faciəli hadisələrə həsr olunmuş, Azərbaycan istehsalı olan "Nabat" filmi (2014), "Qanlı Yanvar" filmi (2015) və "İçəri Şəhər" filmi (2016) nümayiş etdirilmişdir. Həmçinin, həmin festivalda, 2017-ci ildə Azərbaycan rejissoru İlqar Nəcəfin "Nar Bağı" filmi göstərilmişdir.

2018-ci ilin 11 oktyabr tarixində Tallində Azərbaycan Respublikasının və Estoniya Respublikasının 100 illiyi münasibətilə park salınmış və onun təntənəli açılış mərasimi keçirilmişdir. Parkın girişində ümummilli lider Heydər Əliyevlə Estoniyanın sabiq Prezidenti Lennart Meri arasında 1995-ci ildə Nyu-York şəhərində keçirilmiş görüşün fotoşəkilini özündə əks etdirən xüsusi lövhə yerləşdirilmiş, həmin lövhədə həmçinin, Azərbaycan, eston və ingilis dillərində Azərbaycan Respublikası, o cümlədən Bakı şəhəri haqqında məlumat əks olunmuşdur. Parkda, "Azərbaycan Respublikası – 100 il" və "Estoniya Respublikası – 100 il" yazıları həkk olunmuş xatirə daşı quraşdırılmışdır (1).

Estoniya və Azərbaycan arasında mədəni əlaqələr son illərdə yüksək inkişaf dinamikasındadır. Azərbaycan xalqının ən qiymətli milli abidələrindən olan "Kitabi-Dədə Qorqud" eston dilində nəşr olunub.[11] Estonca-azərbaycanca lüğətin nəşr olunması isə Eston və Azərbaycan xalqlarının ünsiyyət qurmağını asanlaşdıran gözəl vəsaitdir.

Şərq Mədəniyyəti Universitenin bir filialı da məhz Estoniyada yerləşir. Bu universitet akademik Zərifə Əliyevanın adını daşıyır.

Hər iki ölkə vaxtı ilə Rusiya İmperiyası və Sovet İttifaqının bir hissəsi olduğundan, bir-birlərinin mədəniyyəti ilə daha öncədən tanış olublar. Estoniya kitabxanalarında Mirzə Şəfi Vazeh, Molla Pənah Vaqif və Mirzə Fətəli Axundov kimi tanınmış şairlərinin tərcümə olunmuş əsərləri haqqında məlumatlar var. Alman dilindən Estoniyaya tərcümələr 1981-ci ildə Yukhan Kiyv, Gustav və Anna Haov Vulf ilə başladı. 1978-ci ildə Estoniyanın "Scala" qəzeti Molla Pənah Vaqifin bəzi əsərlərini nəşr etdirdi (2). Vidadi Mamedovun tərtib etdiyi ilk Azərbaycan-Estoniya lüğəti işıq üzü gördü.

Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə Estoniyanın Tallin şəhərində Azərbayca Evi açıldı (2).

Estoniya xalqının Azərbaycanı daha yaxından tanıması üçün zəngin mədəniyyətimiz, incəsənətimiz və turizm imkanlarımız haqqında müxtəlif tədbirlərin təşkil edilməsini nəzərdə tutulur. Burada yaradılacaq kitabxanada, qonaqlar, müasir ədəbiyyatımızın aparıcı yazıçı və şairlərinin, eləcə də, Azərbaycan ədəbiyyatının klassiklərinin əsərləri ilə tanış ola biləcəklər. Yaxın gələcəkdə musiqi və şeir gecələri ilə yanaşı müxtəlif sərgilərin təşkil edilməsi planlaşdırılır. Evin əsas məqsədlərindən biri də orada yaşayan və təhsil alan soydaşlarımız arasında həmrəyliyi gücləndirmək və diaspor fəaliyyətinin daha da inkişafına şərait yaratmaqdır. Azərbaycan Evi ölkəmizi tanıtmaq, Estoniya mədəniy-

yət və turizm qurumları, media ilə əməkdaşlığı inkişaf etdirmək, ölkədəki digər mədəniyyət mərkəzləri ilə sıx əlaqələr qurmaq və mədəniyyətlərarası əməkdaşlığı gücləndirmək üçün görülən işləri intensivləşdirmək üçün yeni imkanlar yaradır.

Latviyada təxminən sayları 3000 nəfərdən çox olan həmyerlilərimiz yaşayır. Sayları az olmasına baxmayaraq, həmyerlilərimiz Azərbaycan-Latviya münasibətlərinin genişlənməsində fəallıq nümayiş etdirir. Onların Latviyadakı fəaliyyətləri haqqında məlumatları diasporumuz və orada qurulan cəmiyyətlər vasitəsi ilə öyrənmiş oluruq.

Həmin cəmiyyətlərin ilk sırasında “Azəri” cəmiyyətini göstərə bilərik. Belə ki, "Azəri" Cəmiyyəti Latviyadakı azərbaycanlıların birləşdiyi ilk ən böyük təşkilat idi. Cəmiyyətin sədri hüquqşünas Əlipaşa Nəsirlidir. Cəmiyyətin qarşısına qoyduğu məqsədi qurulduğu ilk gündən etibarən Latviyada yaşayan azərbaycanlıları bir yumruq altında birləşdirmək, ölkəmiz haqqında həqiqətlərin, əldə olunmuş nailiyyətlərin, erməni vandalizminin acınacaqlı nəticələrinin Latviya siyasi və ictimai dairələrinin nəzərinə çatdırmaq və iki ölkə arasındakı əlaqələrdə körpü rolunda iştirak etmək olmuşdur.

“Azəri” cəmiyyəti torpaqlarımızda ermənilərin hərbi təcavüzünə qarşı gedən qanlı müharibə haqqında gerçəklərin Latviyada ictimaiyyət və mətbuatda yayılmasında təqdirəlayiq iş aparırlar. Cəmiyyətin üzvləri Riqa şəhərində keçirilən ictimai-siyasi tədbirlərdə, görüşlərdə fəal iştirak edir, televiziya ekranında, mətbuat səhifələrində Azərbaycandakı demokratik proseslərin izah olunması, erməni işğalçılarının sərsəm xülyalarının ifşa edilməsi ilə əlaqədar müntəzəm olaraq çıxışlar təşkil edirlər.

“Latviya-Azərbaycan mədəniyyət assosiasiyası” 1992-ci il mayın 28-də Riqada yaradılmışdır (1). Onun prezidenti Faiq Səfərovdur. Assosiasiyanın ətrafında əsasən ziyalılar toplaşmışlar. Assosiasiya nəinki Azərbaycanda, eyni zamanda keçmiş Sovet İttifaqının, Amerikanın, İsveçin, Avstraliyanın və digər ölkələrin azərbaycanlı icmaları ilə əlaqələr yaratmışdır. Onun üzvləri içərisində müxtəlif millətlərin nümayəndələri də təmsil olunmuşdur. Assosiasiya ilə məşhur latış şairi - türkoloqu Uldis Berzinş əməkdaşlıq edir. O, “Dədə Qorqud”u latış dilində tərcümə etmişdir (8).

Latviya televiziya və radiosu, bir sıra latış yazıçıları, incəsənət xadimləri Assosiasiya ilə əməkdaşlıq çərçivəsindədirlər. Assosiasiyanın fəaliyyət sahəsində ölkəmizdəki ictimai-siyasi hadisələr, erməni qəsbkarlarının torpaqlarımızda törətdikləri vəhşiliklər barədə həqiqətin yayılması əsas yer tutur.

“Latviya-Azərbaycan mədəniyyət assosiasiyası” Ermənistanın Azərbaycana qarşı törətdikləri əməllərin əsl mahiyyətini gün üzünə çıxarmaqla Latviya kütləvi informasiya vasitələrinə doğru xəbər çatdırmaqda fəal işlər görür . Onun təşəbbüsü ilə indiyə qədər yeddi latış jurnalisti Qarabağın müharibə gedən bölgələrində olmuş, bu barədə Latviya mətbuatında, radio və televiziyasında xeyli qiymətli materiallar verilmişdir (8).

“Təbriz” cəmiyyəti Latviyada həmvətənlərimizin qurduqları üçüncü milli mədəniyyət mərkəzidir. Ötən il mərkəzin idarə heyəti təşkil olunmuşdur. Cəmiyyətin rəhbəri Həsənzadədir. Hazırda Azərbaycan torpaqlarına erməni təcavüzü ilə bağlı həqiqətlərin Latviyada, eləcə də digər Baltik respublikalarında yayılması sahəsində xeyli iş görüblər.

“Təbriz” cəmiyyəti ölkənin paytaxtı Riqada, həmçinin ölkənin digər şəhərlərində də bir çox mədəniyyət və xeyriyyə tədbirləri həyata keçirmişdir.

Latviya azərbaycanlılarının "Ocaq" Mədəniyyət Mərkəzi Azərbaycanın Latviya səfirliyinin təşəbbüsü və dəstəyi ilə 2007-ci ilin əvvəllərindən etibarən fəaliyyətə başlamışdır (1).

30 may 2007-ci ildə Latviya azərbaycanlılarının "Ocaq" Mədəniyyət Mərkəzinin nəzdində Bazar Günü Məktəbi açılmışdır (1).

Azərbaycan-Latviya mədəni əlaqələri inkişaf etməkdədir. 31 yanvar 2007-ci ildə Riqada "M.F.Axundov adına Azərbaycan Milli kitabxanası ilə Latviya Milli kitabxanası arasında əməkdaşlıq haqqında Saziş" və "M.F.Axundov adına Azərbaycan Milli kitabxanası ilə Latviya Akademik kitabxanası dövlət agentliyi arasında əməkdaşlıq haqqında Saziş" imzalanıb (8).

2015-ci ilin 25 iyun tarixində Latviya Respublikasının sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Madrid Klubunun prezidenti Vayra Vike-Freyberqa Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə “Dostluq” ordeni ilə təltif edilmişdir.

2016-cı ildə Latviya Respublikasının milli-mədəni mərkəzlərindən biri sayılan Latviya Universitetinin Akademik Kitabxanasında Azərbaycan Mədəniyyət-İnformasiya Mərkəzi - "Azərbaycan guşəsi" açılmışdır. Guşədə Azərbaycanın son iqtisadi nailiyyətləri, zəngin tarixi, mədəniyyəti, ədəbiyyatı və milli-mədəni irsinin təbliği və bu istiqamətdə təqdimat xarakterli silsilə tədbirlər həyata keçirilir.

Azərbaycanla Latviya arasında birbaşa hava əlaqəsi mövcuddur. 2017-ci ilin fevralında Elmar Məmmədyarov və Latviya Xarici İşlər Naziri Edgars Rinkeviçs arasında xidmət pasportu sahibləri üçün vizadan azadlığa dair müqavilə imzalanmışdı.

2019-cu ilin 3 dekabr tarixində Riqa Klassik Gimnaziyasında dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Bu ilin fevral ayında Mədəniyyət naziri Anar Kərimov ilə Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dainis Qarançsin görüşü baş tutmuşdu (5). Mədəniyyət naziri Anar Kərimov, ölkəmizin bu sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayaraq, Latviya ilə yaradıcı mədəniyyət sənayeləri, habelə kino və musiqi sahələrində qarşılıqlı əməkdaşlıqda maraqlı olduğunu bildirdi.

Görüşdə qarşılıqlı mədəniyyət tədbirlərinin keçirilməsi, müasir incəsənətin inkişafı, kino sahəsində fəaliyyət göstərən ekspertlərin iştirakı ilə ustad dərslərinin təşkili, filmlərin çəkilməsi və digər sahələrdə təcrübə mübadiləsi və bu prosesə gənclərin, tələbələrin cəlb olunması məsələləri müzakirə edildi.

Müzakirə zamanı Azərbaycan Respublikasının işğaldan azad olunan ərazilərində Ermənistan tərəfindən dağıdılan tarixi-mədəni abidələrin, təcavüzkar siyasətə məruz qalan mədəni irsimizin bərpası ilə bağlı məsələlərə toxunuldu.

Görüşün sonunda gələcək əməkdaşlıq perspektivləri və tərəfləri maraqlandıran digər mövzularda fikir mübadiləsi aparıldı.

1988-ci ildə Litvada yaşayan azərbaycanlılar tərəfindən qurulan "Odlar Yurdu" cəmiyyəti keçmiş post-sovet ölkələri ərazisində həmyerlilərimizin qurduqları ilk cəmiyyətlərdən biridir (6).

Litva ilə Azərbaycan arasında ədəbi-mədəni əlaqələrin tarixi qədimdir. Litvalıların Azərbaycan ərazisində görünməsi əsrimizin ikinci yarısına təsadüf edir. Çarizmin milli zülmündən, iqtisadi çətinliklər ucbatından bir çox litvalı Bakıya pənah gətirmişlər (6). Əsrin əvvəllərində Bakıda təqribən səkkiz min litvalı yaşayırdı. Onların burada müxtəlif ictimai-mədəni cəmiyyətləri fəaliyyət göstərirdi. 1918-ci ildə Azərbaycan və Litva öz müstəqilliyini elan etdilər. 1919-cu ildə isə iki dövlət arasında konsulluq səviyyəsində diplomatik əlaqələr yaradılmışdı. Elə bu zamanlar fəaliyyətə başlayan "Odlar Yurdu" Cəmiyyəti Litva və Azərbaycan arasında əlaqələrin möhkəmlənməsinə, hər iki respublikada baş verən demokratik hərəkatın bütün çətinlikləri şəraitində öz işini qurmağa çalışırdı. Qarabağ böhranının başlanması, Azərbaycana qarşı erməni təcavüzünün müxtəlif informasiya vasitələri tərəfindən saxtalaşdırılması Litvada Cəmiyyətin fəaliyyətini xeyli dərəcədə çətinləşdirirdi. Buna baxmayaraq, cəmiyyətin üzvləri bu müddət ərzində faydalı iş aparırdılar. Onlar Azərbaycanda baş verən hadisələr barədə informasiya blokadasını yarmağa, bütün vasitələrdən istifadə edərək Litva ictimaiyyətinə həqiqət çatdırmağa çalışırdılar. Bakıda Qanlı yanvar hadisələri ilə əlaqədar 1990-cı il fevralın 1-də Litva, Estoniya və Latviya azərbaycanlıları paytaxt Vilnüs şəhərinin mərkəzində toplaşaraq matəm ayinlərin icra etdilər. Hər iki ölkənin müstəqillik əldə etməsindən sonra, dövlətlər arasında iqtisadi, siyasi və mədəni əlaqələrin yeni mərhələyə qədəm qoyması "Odlar Yurdu" Cəmiyyətinin fəaliyyətinin artmasına təkan verdi. Cəmiyyətin sədri Mahir Həmzəyevdir. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra iki ölkə arasındakı münasibətlər keyfiyyət etibari ilə daha da inkişaf etməyə başladı.

1997-ci ildən etibarən "Odlar Yurdu" cəmiyyəti "Litva-Azərbaycan" Assosiasiyası adını aldı. "Litva – Azərbaycan" Assosiasiyası adlanan təşkilat müstəqil yuridik şəxs hüququna malik olan ictimai qurum olaraq 11 yanvar 2007-ci ildə Litvanın Dövlət Reyestrində qeydiyyatdan keçdi (6). Assosiasiyanın fəaliyyətində 80 nəfərə yaxın müxtəlif millətlərdən olan (litvalılar, yəhudilər, ukraynalılar, estonlar, latışlar, almanlar, tatarlar, karaimlər, özbəklər, gürcülər, beloruslar, macarlar, rumınlar və b.) Litva vətəndaşları iştirak edirlər.

Azərbaycan və Litvanın regionları arasında da əlaqələr qurulmaqdadır. Azərbaycanın Qazax və Ağstafa rayonları ilə Litvanın Trakay və Birştonas rayonları arasında əməkdaşlıq sazişləri imzalanmış, həmçinin Şəmkir və Şyaulyay şəhərləri arasında qardaşlaşma münasibətləri yaradılmışdır. 17

oktyabr 2019-cu ildə isə Bakı şəhərində Səbail rayonu ilə Druskininkay şəhəri arasında Niyyət Protokolu imzalanmışdır.

Həmçinin, son illərdə "Qarabağ haqqında nə bilirəm" adlı inşa müsabiqəsi, "Azərbaycan Litvalıların gözü ilə" adlı rəsm müsabiqəsi, "Azərbaycan mənim yaddaşımda" adlı təqdimat yarışması, habelə "Painting Paradise" adlı rəsm sərgisi, "Azərbaycan litvalı gənclərin gözü ilə", "Azərbaycanı tanı" fotosərgilər təşkil edilmişdir.

Mədəniyyətimizin geniş təbliğinə xüsusi önəm verilir və bu məqsədlə konsertlər, sərgilər və digər tədbirlər təşkil olunur. Bu xüsusda, 2018-ci ilin fevral ayında Vilnüsdə Qara Qarayevin 100 illiyinə həsr edilmiş konserti qeyd etmək olar.

2019-cu ilin iyun ayında "Aypara" muğam qrupu Ağstafa şəhəri ilə qardaşlaşmış şəhər – turizm-kurort mərkəzlərindən olan Birştionasda "şəhər günü" festivalında iki günlük geniş konsert proqramı təqdim etmişdir.

Amazon Prime vasitəsi ilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mükafat alan yeganə uzun metrajlı sənədli film ərsəyə gəldi. Belə ki, Amazon, yalnız ABŞ və İngiltərədə 110 milyondan çox üzvü olan dünyanın ən böyük onlayn pərakəndəsidir. Sənədli filmin platformaya daxil edilməsi, bu hərəkətli hekayənin kinematoqrafiyasına və qlobal bir tamaşaçı üçün əhəmiyyətinə, Dağlıq Qarabağ münaqişəsinin tarixini və insan xərclərini daha yaxşı anlamağa imkan verir.

Qanunsuz olaraq işğal edilmiş Dağlıq Qarabağ bölgəsi bu günə qədər etnik ermənilər tərəfindən idarə olunur, lakin beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazisindədir. Sənədli filmdə 26 fevral 1992-ci il tarixdə Azərbaycanın Xocalı şəhərində baş vermiş münaqişə, Ermənistan ordusunun hücumunu və sonrakı mülki əhalinin kütləvi şəkildə öldürülməsini göstərən tarixi bir məlumat təqdim olunur. Minlərlə azərbaycanlı, 106 qadın və 63 uşaq olmaqla 613 azərbaycanlı öldürüldü. Faktlar sağ qalanların şahid və litvalı jurnalist Riçard Lapaitislə müsahibəsində sağ olduqları şəxsiyyət ifadələri ilə təqdim olunur. Bu şəxsi hekayələri bir araya gətirmək səy göstərən bir monumental sənədli filmin istehsalı 5 il çəkdi.

"Sonsuz Koridor" filmi, 2015-ci ildə Tenerife Beynəlxalq Film Festivalında Ən Yaxşı Sənədli və Ən Yaxşı Rejissor mükafatlarının, eyni il Accolade Humanitar Mükafatlarında Ən Yaxşı Müvəffəqiyyət Mükafatını aldı (10). Filmin prodüseri və rejissoru litvalı Aleksandras Brokas, münaqişənin son dərəcə artması və püskürməsi ilə əlaqədar olaraq filmin bu günkü aktuallığını şərh etdi. "Bu müharibə həm döyüş meydanında, həm də məlumat sahəsində aparılır" dedi. "Saxta xəbərlər mətbuata yayıldıqca beynəlxalq, təcrübəli və müstəqil jurnalistlərin həm təcavüzkarların, həm də qurbanların perspektivlərini göstərdikləri bizim kimi geniş miqyaslı araşdırma sənədli filmi hazırkı hadisələrə dəqiq baxış üçün vacibdir" (10). "Sonsuz Koridor" beynəlxalq satışa 2015-ci ildə çıxdı. İslam Konfransı Dialoq və Əməkdaşlıq Gənclər Forumunun Baş Koordinatoru Leyla Əliyevanın sədrliyi ilə Avropa tərəfindən dəstəklənən "Xocalıya Ədalət" maarifləndirmə kampaniyası ilə təqdim edildi. Azərbaycan Cəmiyyəti. Xocalının yarasını və dünya azərbaycanlıları üçün əhəmiyyətini qəbul etmək, Dağlıq Qarabağdakı mövcud gərginliyi və sonradan bütöv bir xalqı necə formalaşdırdığını anlamaq mərkəzindədir.

***Nəticə***. Müstəqilliyimizdən qısa zaman sonra, dünya ölkələri ilə, o cümlədən, keçmiş sovet ittifaqına daxil olan ölkələrlər ilə qurulan münasibətlər təkcə siyasi, iqtisadi sahələrdə deyil, həmçinin, tarixi-mədəni sahədə qurularaq dövlətlərarası əlaqələrin inkişafına təkan vermişdir. Baltikyanı ölkələr ilə olan tarixi keçmişi yaxınlıq həmin dövlətlərlə mədəni sahədə münasibətlərin inkişafında əsas rol oynamışdır. Qısa zaman kəsimində həm dövlətlər, həm də xalqlar arasında mədəni əlaqələrin formalaşması qloballaşan dünyada mədəni irsin təbliği və inkişafının önəmini bir daha vurğulayır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Azərbaycan diasporu. Diasporlarımızın fəaliyyəti 2015-ci il, 355s.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Azərbaycan diasporu. Diasporlarımızın fəaliyyəti 2018-ci il, V Fəsil, 616s.
3. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi. - http://diaspor.gov.az/xeberler2020/x1356.php [07.01.2023].

4. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri. (1991-2016) Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2017, 900s.
5. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi rəsmi portalı. - http://www.culture.gov.az/az/umumi-xeberler/13484 [07.01.2023].
6. Azərbaycan ünvanlı... Bakı: "Qorqud" Nəşriyyat, 1994, 94s.
7. Bakı Dövlət Universiteti Tarix fakültəsi Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" Elmi-tədqiqat labaratoriyası, Dünya azərbaycanlıları: tarix və müasirlik (Elmi-nəzəri toplu) IV Buraxılış. Bakı, Avropa nəşriyyatı 2015, 209s.
8. Baltikdən Xəzərə. Bakı: "AzAtaM" Nəşriyyat, 2018, 266s.
9. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə. Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilir məqalələr toplusu. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin nəşri, 2016, 648s.
10. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi "Xocalıya ədalət" kampaniyası, "Sonsuz dəhliz" filmi. - http://medeniyyettv.az/az/news/1290/sonsuz-dehliz-senedli-filmi-amazon-primeda [07.01.2023].
11. Mahir Həmzəyev. Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, Litva Respublikası Hökuməti yanında Milli İcmalar Şurasının üzvü. - https://525.az/news/68108-kitabi-dede-qorqud-baltik-xalqlarinin-dillerinde-iv-meqale [07.01.2023].

**ОДЕР ГУСЕЙНЛИ**
*Бакинский Государственный Университет*

## КУЛЬТУРНЫЕ ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И СТРАНАМИ БАЛТИИ. (НА ПРИМЕРЕ ЛАТВИИ, ЛИТВЫ, ЭСТОНИИ)

В статье говорится об экономических отношениях между Азербайджаном и странами Балтии. (Латвия, Литва, Эстония) Существование культурно-исторических связей в недавнем прошлом представляет собой потенциальную основу для формирования и развития межгосударственных отношений в современную эпоху. Совместное проживание в течение многих лет в составе бывшего Советского Союза придало импульс расширению межгосударственных культурных связей в современную эпоху.

*Ключевые слова*: Латвия, Литва, Эстония, культурные отношения.

**ODER HUSEYNLI**
*Baku State University*

## CULTURAL RELATIONS BETWEEN AZERBAIJAN AND THE BALTIC COUNTRIES (IN THE EXAMLE OF LATVIA, LITHUANIA, ESTONIA)

The article talks about cultural relations between Azerbaijan and the Baltic countries. (Latvia, Lithuania, Estonia) The existence of cultural and historical ties in the recent past constitutes a potential basis for the formation and development of interstate relations in the modern era. Living together for many years as part of the former Soviet Union has given impetus to the expansion of interstate cultural relations in the modern era.

*Keywords*: Azerbaijan, Latvia, Lithuania, Estonia, cultural relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94**

**NƏSRİN ABDULLAYEVA**
*Bakı Dövlət Universiteti*
*Qafqaz xalqları tarixi kafedrasının doktorantı*
**nesrin.abdullayeva99@mail.ru**

# CƏNUBİ QAFQAZDA ƏRAZİ-SƏRHƏD MƏSƏLƏLƏRİ: TARİXƏ EKSKURS

*Sovet hakimiyyəti dövründə Cənubi Qafqazda ərazi-sərhəd problemlərinin yaranması və təkamülünun araşdırılması çox aktual olan bir məsələdir. Cənubi Qafqaz dövlətlərinin sovet hakimiyyətinin tərkibinə qatılmasından sonra 1918-1920-ci illərdə respublikalar arasında müvəqqəti olaraq sərhədlər müəyyənləşdirildi. Lakin bu dövrdə ərazi-sərhəd məsələləri əsaslı həllini tapmadı. Mərkəzi sovet hakimiyyəti üç respublika arasında mübahisələri həll etmək yerinə onları özündən asılı salmaq siyasəti yürüdürdü. Sərhədlərin tez-tez dəyişdirilməsi və əhalinin köçürülməsi siyasətinə görə SSRİ-nin süqutu ərəfəsində etnik, tarixi və hüquqi nöqteyi-nəzərdən imperiyadaxili sərhədlər sabit olmamışdır. Bu səbəbdən çoxmillətli sovet imperiyasının süqutundan sonra həmin sərhədlər mübahisə obyektinə çevrilmişdir. Bugünədək davam edən münaqişələr həmin siyasətin nəticəsi hesab olunur və bu problemin öyrənilməsini aktual edir. Məqalədə Cənubi Qafqazda ərazi-sərhəd məsələlərinin tarixi kökləri, problemin bir çox tarixi aspektləri araşdırılır.*

*Açar sözlər:* Cənubi Qafqaz, Sovet imperiyası, ərazi-sərhəd məsələləri, inzibati-ərazi bölgüsü, milli maraqlar, mübahisəli ərazilər.

***Giriş***. Sovet dövründə Cənubi Qafqazda ərazi-sərhəd problemlərinin yaranması, təkamülü bir çox aspektləri ilə öyrənilməsi mühüm olan bir məsələdir. Cənubi Qafqazda ərazi-sərhəd problemlərinin kökləri çarizmin siyasəti ilə bağlı olmuşdur. 1918-ci ildə Gürcüstan, Azərbaycan və Ermənistan öz dövlət müstəqilliklərini elan etdikdən sonra ərazi-sərhəd məsələləri kəskinliyi ilə ortaya çıxdı. Ərazi-sərhəd problemlərinin səbəblərindən biri çarizmin köçürmə siyasəti nəticəsində regiona gətirilən ermənilərə süni şəkildə dövlətin yaradılması idi. Bu dövlətlərin arasında sərhədləri keçmiş quberniyaların inzibati əraziləri, etnoqrafiq və təbii sərhədlərlə müəyyənləşdirmək çətin olduğu üçün keçirilən bütün görüşlər nəticəsiz qaldı. Sonrakı dövrlərdə Ermənistan-Gürcüstan müharibəsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü baş verdi. Cənubi Qafqaz dövlətləri 1920-1921-ci illər ərzində Sovet Rusiyası tərəfindən işğal olundu və burada sovet hakimiyyəti qurulduqdan sonra respublikalar arasında 1918-1920-ci illərdə müvəqqəti olaraq sərhədlər müəyyənləşdirildi. Lakin ərazi-sərhəd məsələləri əsaslı həllini tapmadı. Dövlətlər arasındakı əraziyə sərhəd xətti kimi deyil, əksinə, yaradılması nəzərdə tutulan SSRİ dövlətinin gələcək ərazi-inzibati bölgü sisteminin tərkib hissəsi kimi baxılırdı. Sovet hakimiyyətinin ilk aylarında Azərbaycanın partiya rəhbərliyində erməni-gürcü-rus təbəqəsi hakim rol oynayırdı. Sovet hakimiyyəti adı altında əsasən antiazərbaycan siyasəti yeridilir, əhalinin milli mənafeyini nəzərə alınmırdı. Bu, mülkiyyətdən məhrum etmək, müsadirə aparmaq siyasətində, ərazi mübahisələrinin həllində özünü daha qabarıq şəkildə göstərirdi. Belə siyasət Gəncədə, Qarabağda, Zaqatalada və başqa ərazilərdə antisovet üsyanlara səbəb olurdu. Daşnak Ermənistanının və menşevik Gürcüstanının sovet Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bəzi ərazilərə iddia etməsi bu bölgədə düşmənçilik mühitini daha da gərginləşdirirdi. Q.K.Orconikidze 1920-ci il iyunun 8-də guya bu "mübahisəli" məsələləri göstərərək, V.İ.Leninə və İ.V.Stalinə göndərdiyi teleqramda yazırdı: "Bu məsələləri diqqət yetirilәsi məsələlər saymayın, belə ki, əks inqilab bunlarla möhtəkirlik edir" [1, s.40]. V.İ.Lenin həmin teleqramın üzərində belə bir qeyd yazmışdı: "Bu barədə Çiçerin ilə danışmağı yadıma salın". Teleqramın üzərində İ.V.Stalinin də qeydi var: "Artıq danışmışdır" [1, s.41].

1921-ci il 13 oktyabr tarixində imzalanan Qars müqaviləsi ilə Türkiyənin Cənubi Qafqaz respublikaları ilə ərazi-sərhəd problemləri tənzimləndi. Buna baxmayaraq Mərkəzi sovet hakimiyyəti üç respublika arasında mübahisələri həll etmək yerinə Azərbaycan və Gürcüstanı özündən asılı salmaq, ayrılmalarının qarşısını almaq məqsədilə ərazilərində muxtar qurumlar yaratdı [12, s.194]. Eyni zamanda Azərbaycanın əzəli torpaqları müxtəlif illərdə qəbul edilən qərarlarla Ermənistana verildi.

Sərhədlərin tez-tez dəyişdirilməsi və əhalinin köçürülməsi siyasətinə görə SSRİ-nin süqutu ərəfəsində etnik, tarixi və hüquqi nöqteyi-nəzərdən imperiyadaxili sərhədlər sabit olmamışdır. Məhz bu səbəbdən çoxmillətli sovet imperiyasının süqutu həmin sərhədləri mübahisə obyektinə çevirmişdir. Bu günədək davam edən münaqişələr həmin siyasətin nəticəsi hesab olunur və bu problemin öyrənilməsini aktual edir.

Tarixi faktlar sübut edir ki, 1918-ci ilin fevralında yaradılmış Cənubi Qafqaz Seyminin ümumi ərazisi 210.000 kvadratkilometr olmuşdur. Bu ərazinin 45.000 kvadratkilometri Brest-Litovsk (1918-ci il mart) və Batum (1918-ci il iyun) müqavilələrinin şərtlərinə görə Osmanlı Türkiyəsinə verilib, AXC MŞ-nın 1918-ci ilin 29 mayında qəbul etdiyi qərarı ilə İrəvan şəhəri daxil olmaqla 9 min kvadratkilometr ərazi ermənilərə güzəşt edilib, 100,6 min kvadratkilometri Azəbaycan Xalq Cümhuriyyətinə, 55,4 min kvadratkilometri isə Gürcüstana aid edilmişdir [2, s.149]. Ümumilikdə, Azərbaycan torpaqları mərhələlərlə 1918-ci il mayın 28-dən başlayaraq, xüsusilə 1920-1929-cu illərdə "Ermənistan SSR tərkibinə verilmişdir". 1922-ci ildə Cənubi Qafqaz (Zaqafqaziya) Sovet Federativ Sosialist Respublikası yarandıqdan sonra bu ərazidə mövcud olan inzibati-ərazi bölgüsünün yeni siyasi və iqtisadi tələblərə uyğun gəlməməsi ilə əlaqədar yeni inzibati-ərazi dəyişiklikləri aparıldı. Sovet Rusiyası Cənubi Qafqaz regionunda Bakı neft rayonunu tam şəkildə özünə tabe etmək şərtilə burada mürəkkəb iqtisadi rayonlar yaratmaq və respublikaların iqtisadi imkanlarını süni şəkildə bərabərləşdirmək siyasəti yürüdürdü. İnzibati-ərazi bölgüsünün əsas prinsipləri sənaye sahələrinin təmərküzləşdirilməsi, milli mədəniyyətlərin maksimum səviyyədə yaxınlaşdırılmasına nail olmaqla gələcək vahid sovet mədəniyyətinin özülünü qoymaq, əhalinin sənaye məntəqələrinə yaxın ərazilərdə yerləşdirilməsinin təmin edilməsi, rabitə xətlərinin istiqamətlərinin və xarakterinin araşdırılması, əhalinin sayı və milli tərkibinin müəyyən edilməsi idi. Moskva tərəfindən Cənubi Qafqazda həyata keçirilən sərhəd bölgüsü siyasətində birinci yerdə Sovet Rusiyasının iqtisadi maraqları dayanırdı. Bu regionun əhalisinin milli maraqları nəzərə alınmırdı. Sovet Rusiyasının siyasətində milli maraqların üstünlüyü və dövlətin Cənubi Qafqaz xalqlarının iqtisadi rifahından "narahat olması" ideyası ictimai şüura məqsədyönlü şəkildə təbliğ edilirdi. 1921-ci il avqustun 15-də RKP (b) MK-nın Qafqaz Bürosu Cənubi Qafqaz Sovet Respublikaları arasında sərhədlər məsələsini dinləyərək bu respublikaların Xalq Komissarları Soveti sədrlərinə və Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR İnqilab komitələri sədrlərinə müraciət ünvanladı [11, s.755]. Burada bildirilirdi ki, bu üç respublika arasında sərhədləri müəyyən edən müqavilə imzalanmalıdır. Lakin belə bir ümumi müqavilənin imzalanması baş tutmadı.

22 avqust 1922-ci ildə Cənubi Qafqaz Fövqəladə Komissiyasının sədrinin imzası ilə Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR Fövqəladə komissiyalarına həmin andan 24 saat ərzində sərhəd məntəqələrinin, gözətçilərin və nəzarət məntəqələrinin ləğv edilməsi haqqında sərəncam verildi. Bu sərəncama görə, artıq xarici sərhədlər Türkiyə və İranın sərhədləri sayılır və Cənubi Qafqaz Respublikaları arasındakı 1918-1920-ci illərdə yaranmış sərhədlər faktiki olaraq əhəmiyyətini itirirdi. 1921-ci ilin iyun ayında RKP (b) Qafqaz Bürosunun Plenumunda Cənubi Qafqaz respublikalarında maldarlıqla məşğul olan əhalinin otlaqlara sərbəst çıxışı haqqında qərar qəbul edildi. Bu qərara görə Cənubi Qafqaz respublikalarının maldarlıqla məşğul olan kəndliləri qərarla müəyyən edilən sərhədlər daxilində sərbəst hərəkət etmək hüququ əldə etdilər. Bu qərarın qəbulu bir sıra anlaşılmazlıqların yaranmasına və Cənubi Qafqaz respublikalarının sərhəd ərazilərində yaşayan azərbaycanlı və erməni əhalisi arasında qarşıdurmalara gətirib çıxardı. Bu mübahisəli məsələləri həll etmək üçün 1922-ci ilin dekabr ayında N.Nərimanov, S.Orconikidze, və Myasnikovun başçılığı ilə RKP (b) Cənubi Qafqaz MİK-nin xüsusi komissiyası yaradıldı. 1922-ci il oktyabrın 25-də Azərbaycan SSR Xalq Torpaq Komissarlığı Xarici İşlər üzrə Katibliyə Azərbaycan SSR-in ərazisi haqqında təqdim olunan arayışa görə, Azərbaycan SSR-in bütün ərazisi 7.989.105 desyatindir (1 desyatin = 1,09 hektar).

Üç ölkənin arasında bas tutan razılığa əsasən Azərbaycan ərazilərindən keçmiş Qazax qəzasından Ermənistana 379.984 desyatin (4.151 kvadrat km), keçmiş Zəngəzur qəzasından Ermənistana 405.000 desyatin (4.424 kvadrat km) və keçmiş Tbilisi qəzasından Azərbaycana 79.600 desyatin (869 kvadrat km) ərazi verilir. 1922-ci ildə Azərbaycan 7.989.105 desyatin ərazisindən (379.984; 405.000) 784.984 desyatin itirir, əvəzində cəmi 79.600 desyatin əldə edir. Bu da ümumilikdə 7.283.721 desyatin (79,577 kvadrat km) təşkil edir [13, s.180-181].

Azərbaycan SSR-in Ermənistan ilə mübahisəsiz ərazisi Qazax və Borçalı qəzalarının köhnə inzibati sərhədlərindən keçib, Qazax qəzasından Aleksandropol və Yeni Bəyazid qəzaları ilə Maralca dağlarına qədər çatırdı. Oradan Göyçə gölünə birbaşa enir, Çubuqlu kəndindən şərqə doğru bir onda iki verst (1 verst = 1.0668 km) keçir. Sonra Göyçə gölünü tən yarı bölür, onun cənub sahili ilə qərb istiqamətində irəliləyirdi. Göyçə gölünün cənub sahilində sərhəd Zağalı və Gödəkbulaq kəndləri arasından başlayır, sonra Yarnızlı, Qızıl Vəng və Yuxarı Alçalı kəndlərinin yanından Göyçə gölünün cənub sahilinin dağ rayonu ilə Qızıl Xarabaya, 10859 yüksəkliyinə və Ağmahan yüksəkliyinə, qərbdə Kiçik Ağdağ dağına doğru, İrəvan və Yeni Bəyazid qəzalarının sərhədinə qədər gedir, azərbaycanlıların yaşadıqları dağlıq rayonları erməni kəndlərinin tutduğu sahillərdən ayırırdı. Sonra sərhəd Kiçik Ağdağ dağından əvvəlcə şimal-qərb istiqamətinə doğru Toğmahan gölü istiqamətində, ardınca qərb istiqamətində Təzəkənd kəndinə, sonra Gərni çayı ilə Yuxarı Ağbaş kəndinə doğru gedir, onun qarşısından şimala doğru 3620 yüksəkliyə beş verstlik qalxır, oradan cənub-qərbə Uluxanlıya doğru, daha sonra Araz çayına, oradan da Rəncbər kəndindən şimal istiqamətində gedirdi. Rəncbər kəndindən Araz çayında sərhəd birbaşa qərbə doğru gedir, Sürməli və Eçmiədzin qəzalarının və Kars vilayətinin keçmiş inzibati sərhədlərində keçmiş rus-türk sərhədində Təndürək dağlarına qədər gedib çatırdı [3]. Azərbaycan ərazilərinə dair arayışın hazırlanması ilə bağlı verilən tələblər sovet rəhbərliyinin gizli niyyətlərindən xəbər verirdi.

Azərbaycan SSR ilə Ermənistan SSR-in ayrı-ayrı rayonları arasında baş vermiş sərhəd mübahisələri əksər hallarda erməni tərəfinin xeyrinə həll edilmişdir. Bununla bağlı bir çox faktlar var. Azərbaycan SSR Qazax qəzasının II Şıxlı kəndi ilə Ermənistan SSR Dilican qəzasının Qulp kəndi arasında mübahisəli ərazisi 940 hektar olan Çömçə sahəsi Qulp kəndinə verilmişdir. Ermənistan SSR-in Dilican qəzasının Kotkənd kəndi ilə Azərbaycan SSR Qazax qəzasının Daşsalahlı kəndi arasında mübahisəli ərazisi 700 hektar olan Qaraçöl ərazisi Ermənistan SSR-in Kökənd kəndinə verilmişdir. Ermənistan SSR Dilican qəzasının Lələkənd kəndi ilə MSSR Qazax qəzasının Çaxmalı kəndi arasında mübahisəli sahəsi 69 hektar olan torpaq sahəsi Azərbaycan SSR-in Lələkənd kəndinin arxasında qalıb. Ermənistan SSR Dilican qəzasının Aşağı Qızılbulaq, Noraşen, Moseskənd və kəndləri ilə Azərbaycan SSR-in Qazax qəzasının Qacalı və Əlibəyli kəndləri arasında mübahisəli olan 753 desyatin (8,2 $km^2$) ərazisi olan “Günəş” ərazisi Cənubi Qafqaz MİK-nin Torpaq Komissiyasının 8 noyabr 1924-cü il tarixli qərarı ilə iki hissəyə bölünmüşdür. Azərbaycan SSR-in Qazax qəzasının Şınıx-Ayrım ərazisindəki 4000 desyatinlik (43,7 $km^2$) torpaq sahəsi Ermənistan SSR-in Dilican qəzasının tərkibinə qatılmışdır [3].

Bundan başqa, Qazax qəzasının Bərxudarlı, Soflu və Yuxarı Əskipara kəndlərinin ümumi sahəsi 3104 desyatin, sayı 577 nəfər sakinin Dilican qəzası daxilində qalması məsələsi də mübahisəli məsələ idi. Qazax qəzasının (Gəncə dairəsi) inzibati sərhədlərinə daxil olan bu kəndlərin ondan zolaqlı bir xətlə ayrıldığı aşkarlandı. Cənubi Qafqaz MİK-nın yerli komissiyasının 1929-cu il iyulun 19-20-də keçirilən iclasında qərara alındı ki, zolaqlı xəttin aradan qaldırılmasının məqsədəuyğun həll forması hər üç kəndin Dilican qəzasının tərkibinə verilməsidir. MİK-nın sərəncamı ilə Dilican qəzasının Güney-Xeyrimli (100 ev) kəndi əhalisi (26 ev) kiçik sayda olan Qazax qəzasının Xeyrimli kəndilə birləşdirilərək Ermənistan SSR Dilican qəzasının tərkibinə qatıldı. Bu qərarın nəticəsində Qazax qəzasının əhalisi 50 faiz yaylaq torpaqlarından məhrum edildi. Ümumiyyətlə, Azərbaycan SSR-in Cənubi Qafqaz Federasiyasının qonşu respublikaları ilə sərhəd mübahisələri üzrə 1928-ci il MİK Torpaq Komissiyasının hesabatından göründüyü kimi, Ermənistan SSR-ə 75904 desyatin (829,2 $km^2$) münbit torpaq və 79208 desyatin (865,3 $km^2$) isə “yararsız” torpaq verilmişdir [3]. 1921-ci ilin iyul ayında Zəngəzurun Qərb hissəsinin işğal olunması və Ermənistan SSR-ə birləşdirilməsi, Qarabağın dağlıq hissəsində süni erməni muxtariyyətinin sərhədlərini müəyyən etmək üçün aparılan inzibati dəyişikliklər, Azərbaycan SSR-lə Ermənistan SSR arasında sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı Ermənistan SSR-in Zəngəzur qəzası ilə Azərbaycan SSR-in Qarabağ bölgəsinin ayrı-ayrı rayonları arasında yaranmış vəziyyəti daha da gərginləşdirirdi. Bu ərazi mübahisələri heç vaxt Azərbaycanın xeyrinə həll edilməmişdir. Şuşa qəzasının torpaq idarəsinin rəisi Roqozinin 1923-cü il 26 iyul tarixində verdiyi hesabatına görə, Zəngəzur və Şuşa qəzalarının maldar əhalisi arasında sərhəd mübahisəsi həll edilərkən tərəflər arasında silahlı toqquşma baş verməməsi üçün 20 yaylaq sahəsi Zəngəzur qəzasına verilmişdir.

Azərbaycan SSR-in Kürdüstan qəzası ilə Ermənistan SSR-in Dərələyəz və Novo-Bayazit qəzaları sərhədində, təxminən 12 min desyatin (131,1 $km^2$) ərazisi olan Alagöl gölünün ətrafında yerləşən Alagöl yay otlaqlarına da əsassız iddialar var idi. 1923-cü ildə Ermənistan SSR rəhbərliyi bu ərazilərin Novo-Bayazit qəzasının tərkibinə daxil edilməsi məsələsini gündəmə gətirmişdi. 1926-cı il iyunun 23-də Ermənistan SSR Mərkəzi İcraiyyə Komitəsi Azərbaycan SSR MSK sədrinə göndərdiyi teleqramda bildirirdi ki, hələ 1921-ci ildə sahəsi 13170 desyatin (143,8 $km^2$) olan Alagöllər otlaq sahəsi Dərələyəz qəzasına verilmişdir [3]. 1926-cı il iyulun 5-də Azərbaycan SSR MİK Rəyasət Heyətinin katibliyi Ermənistan SSR MİK-in katibliyinə bildirdi ki, Alagöllər sahəsinin otlaqlarının Dərələyəz qəzası tərkibinə verilməsi haqqında Cənubi Qafqaz MİK qərarının nə vaxt qəbul edildiyi barədə qərarı təqdim etsin. Bu sorğu 1926-cı il dekabrın 25-də Azərbaycan SSR MİK-nın katibliyi tərəfindən təkrar edilsə də Ermənistan SSR MİK katibliyi heç bir cavab verməmişdi.

Tarixi faktlar sübut edir ki, Naxçıvan Muxtar Respublikasının da bir neçə kəndi də Ermənistan SSR-in tərkibinə verilmişdir. Belə ki, Qars müqaviləsinə əsasən Ermənistan SSR Azərbaycan SSR tərkibində Naxçıvanın muxtariyyətini rəsmən tanısa da, öz mənfur niyyətindən əl çəkməmişdir. Cənubi Qafqaz MİK-nın 18 fevral 1929-cu il tarixli qərarı ilə Naxçıvan MSSR-in Horadiz, Qurdqulaq, Ağbın, Xaçık, Ağaç, Almalı, Dağalmalı, İtqıran, Sultanbəy kəndləri, ona bitişik suayrıcı silsiləsi və Qərçivan kəndinə qədər olan otlaqlar, habelə Ordubad sahəsinin Qərçivan və Kilid kəndinin torpaqlarının bir hissəsi, 1938-ci il 5 mart tarixli qərarı ilə isə Sədərək və Kərki kəndlərinin, Şərur qəzasının kəndləri ətrafındakı torpaqların bir hissəsi Sovet Ermənistanının tərkibinə verilmişdir [3]. Bu ərazilərin ümumi sahəsi 658,4 $km^2$ idi. Nəticədə 1 yanvar 1933-cü ildən Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ərazisinin ümumi sahəsi 5.329,6 $km^2$ olmuşdur.

Bu qərarlar Naxçıvan MSSR-in statusu və sərhədləri haqqında Moskva və Qars müqavilələrinin şərtlərinin kobud şəkildə pozulması demək idi. Belə ki, Cənubi Qafqaz FSR tərkibinə daxil edildikdən sonra Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədləri çərçivəsində yaranan ərazi-inzibati dəyişikliklər Azərbaycanın tarixən formalaşmış təbii sərhədləri və şərtləri nəzərə alınmadan pozuldu və SSRİ-nin birbaşa müdaxiləsi Azərbaycan torpaqlarının parçalanması hesabına Ermənistan SSR-in sərhədlərinin genişləndirilməsini təmin edirdi. Tarixin bütün dövrlərində Azərbaycana qarşı əsassız iddiaların yerinə yetirilməsi erməni dairələrini daha da azğınlaşdırırdı. Bu iddiaların yerinə yetirilməsi ermənilərin "Böyük Ermənistan" yaratmaq xülyalarının gerçəkləşməsi üçün real imkanlar yaradırdı. Sonrakı dövrlərdə də ermənilər bu mənfur niyyətlərini davam etdirmişlər.

***Nəticə***. XX əsrin 80-ci illərindən etibarən artıq Qafqaz regionunda ictimai-siyasi vəziyyət əməkdaşlıq siyasəti üzrə deyil, ixtilaflar üzərində qurulurdu. Belə ki, ictimai-siyasi vəziyyət, həlli mürəkkəbləşən etnik və ərazi münaqişələri, konfessional və geosiyasi ziddiyyətlərlə səciyyələnməyə başlamışdı [5, s.102]. Bu faktı vurğulamaq kifayətdir ki, M.S.Qorbaçovun başçılığı ilə keçən əsrin 80-ci illərinin sonlarında Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə qarşı düşmənçilik münasibəti aparıldığı üçün respublikanın sosial-iqtisadi inkişafı üzrə son illərdə qazanılan müvəffəqiyyətlərin üstünu örtməyə çalışırdılar. Heydər Əliyev 1989-cu il aprelin sonunda Sov.İKP MK-nin plenumundakı çıxışında DQMV-də sosial-iqtisadi inkişafın ümumi mənzərəsi təhlil edərək bütün iddialara tutarlı cavab vermişdi [7, s.102]. Ümumiyyətlə Ermənistan SSR rəhbərliyi tərəfindən 1945-ci ilin noyabrında, 1956, 1962, 1967, 1972, 1977 və 1987-ci illədə də Azəbaycan SSR-in Qarabağ regionunun dağlıq hissəsində ermənilər yaşayan ərazilərin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi SSRİ dövləti rəhbərliyi qarşısında qaldırılmışdır. Bu iddialar Azərbaycan SSR rəhbərləri M.C.Bağırov, İ.D.Mustafayev, V.Y.Axundov və Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən ciddi tədbirlər, göstərilən səylər nəticəsində rədd edilmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı. "Elm". 2008. 568 səh. + 48 səh. illüstrasiya.
2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası /Baş redaktor Y.M.Mahmudov: 2 cilddə, I c., Bakı: Lider, 2004, 440 s.; II c., Bakı: Lider, 2005, 475 s.
3. Baxşəliyev R. Tarixin acı gerçəkliyi. "Azərbaycan" qəzeti, Bakı, 2022, 2 fevral.

4. Əliyev H. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr,1997-2013. 1-46 cildlər.
5. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.
6. Hüseynova İ. Dövlətçilik naminə. Bakı, Bakı Universiteti nəşriyyatı, 2001.
7. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu.Bakı, «Təhsil», 2004, 472 səh.
8. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı, "Təhsil", 2003, 504 s.
9. Hüseynova İ. Tarix .Zaman.Düşüncələr.Çoxcildli əsər. I-IV cildlər. Bakı, "Elm və Təhsil", 2016-2020.
10. Nəsibzadə N. Sərhədlər. "Elm" qəzeti, Bakı, 1989, 17 iyun
11. И.М.Гусейнова История народов Кавказа. Баку, 2018. 1248 с.
12. И.М.Гусейнова Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. Монография. Баку, 2005. 502с.
13. С.О.Мустафаева.Изменения границ и территорий на Южном Кавказе (1917-1922 гг.) Баку, 2017, «Европа» , 304 с.

**НАСРИН АБДУЛЛАЕВА**
*Бакинский государственный университет*
*докторант кафедры истории народов Кавказа*

## ТЕРРИТОРИАЛЬНО-ГРАНИЧНЫЕ ВОПРОСЫ НА ЮЖНОМ КАВКАЗЕ: ЭКСКУРС В ИСТОРИИ

Изучение возникновения и эволюции территориально-пограничных проблем на Южном Кавказе в период советской власти является весьма актуальным вопросом. В 1918-1920 годах, после вхождения государств Южного Кавказа в состав Советского Союза, границы между республиками были временно определены. Однако принципиально территориально-пограничные вопросы в этот период не были решены. Вместо разрешения споров между тремя республиками центральное советское правительство проводило политику их подчинения себе. Накануне распада СССР из-за политики частой смены границ и переселения населения границы внутри империи не были стабильными с этнической, исторической и правовой точек зрения. По этой причине после падения многонациональной советской империи эти границы стали предметом споров. Конфликты, которые продолжаются и по сей день, считаются следствием той политики и делают актуальным изучение данной проблемы. В статье рассматриваются исторические корни территориально-пограничных вопросов на Южном Кавказе, а также многие исторические аспекты проблемы.

*Ключевые слова*: Южный Кавказ, Совет империи, территориально-пограничные вопросы, административно-территориальное деление, национальные интересы, спорные территории.

**NASRİN ABDULLAYEVA**
*Baku State University*
*Doctoral student of the Department of History of Caucasian Peoples*

## TERRITORIAL-BORDER ISSUES IN THE SOUTH CAUCASUS: AN EXCURSION TO HISTORY

Researching the emergence and evolution of territorial-border problems in the South Caucasus during the Soviet rule is a very relevant issue. In 1918-1920, after the South Caucasian states joined the Soviet government, the borders between the republics were temporarily defined. However, the territory-border issues were not fundamentally resolved during this period. Instead of resolving disputes between the three republics, the central Soviet government pursued a policy of making them dependent on itself. On the eve of the fall of the USSR, due to the policy of frequent border changes

and population relocation, the borders within the empire were not stable from an ethnic, historical and legal point of view. For this reason, after the fall of the multinational Soviet empire, those borders became the object of controversy. The conflicts that continue to this day are considered the result of that policy and make the study of this problem relevant. The article examines the historical roots of territorial-border issues in the South Caucasus, and many historical aspects of the problem.

*Keywords*: South Caucasus, Soviet empire, territorial-border issues, administrative-territorial division, national interests, disputed territories.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. İradə Hüseynova, t.e.d. Qabil Əliyev.*

**UOT 32:93/94**

**ANARA MƏMMƏDOVA**
*Bakı Dövlət Universiteti, bakalvr məzunu*
*Dövlət İdarəçilik Akademiyası, magistr məzunu*
**a.mammadli1986@gmail.com**

# AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ VƏ REGİONAL SÜLHMƏRAMLI FƏALİYYƏTİN TƏRƏFDAŞIDIR

*Bu məqalədə Azərbaycan Respublikasının beynəlxalq sülhməramlı qüvvələr institutunun fəaliyyətinə verdiyi töhfələrin 2 aspekti – beynəlxalq-regional və regional-lokal yönləri araşdırılmağa çalışılmışdır. Artıq uzun müddətdir ki, beynəlxalq miqyasda sülhməramlı əməliyyatların subyekti kimi çıxış edən Azərbaycan Respublikası, 44 günlük müharibədəki qalibiyyətdən sonra yaranan yeni siyasi reallıqların diktəsi ilə müvəqqəti olaraq regioanal miqyasda sülhməramlı fəaliyyətin obyektinə çevrilmişdir. Dünya sülh prosesində iştirak Azərbaycan Respublikasının beynəlxalq və regional münaqişələrin həllinin beynəlxalq hüququn norma və prinsipləri daxilində həyata keçirilməsinin zəruriliyinə dair konstruktiv mövqeyini ortaya qoyur. Sərgiləmiş olduğu bu mövqeyi də 1999-cu ilin sentyabrından başlayaraq nüfuzlu beynəlxalq təşkilatlar olan BMT və NATO-nun mandatına uyğun olaraq həyata keçirilən sülhməramlı missiyalardakı fəaliyyəti ilə sübuta yetirmişdir. Respublikamızın sülhməramlı qüvvələri İraq, Kosova, Əfqanıstan kimi dünyanın ən qaynar nöqtələrində sülhyaratma prosesinin tərəfdaşı kimi çıxış edərək bu vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəlmiş, hal-hazırda Cənubi Sudan Respublikasında həyata keçirməkdə olduğu missiyada uğurla irəliməkdədir, gələcəkdə də ehtiyac olacağı təqdirdə bu tipli fəaliyyətlərə tam dəstək nümayiş etdirəcəyi də danılmazdır.*

*Açar sözlər:* Azərbaycan Respublikası, sülhməramlı qüvvə, sülhməramlı fəaliyyət, BMT, NATO, Rusiya sülhməramlı qüvvələri.

***Giriş***. Yenidən müstəqilliyimizi əldə etməyimiz firavan yollarla deyil, qanlı-qadalı və keşməkeşli olsa belə, 30 ilə yaxın müddətdə ərazimizin 20% hissəsi işğal altında qalsa belə, Azərbaycan Respublikası daim sülhdən yana olmuş və bu sahədə də beynəlxalq aləmə və mövcud regiona sülhsever ölkə örnəyini nümayiş etdirə bilmişdir.

Ölkəmizin bu sahədəki fəaliyyəti haqqında geniş məlumat verməzdən öncə “sülhməramlı əməliyyat”, “sülhməramlı qüvvə” anlayışları haqqında qısa məlumat vermək istərdim.

Sülhməramlı əməliyyat – dövlətlərin və beynəlxalq təşkilatların, o cümlədən hərbi və mülki heyətin iştirakı ilə BMT-nin nizamnaməsinə, beynəlxalq və regioanal təşkilatların qərarlarına uyğun olaraq, yaxud beynəlxalq regional təşkilatlar və ya müqavilələr çərçivəsində, yaxud ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələr əsasında lokal və regional münaqişələrin qarşısının alınması və ya onların dayandırılması və nizamlanması məqsədi ilə həmin münaqişələrə müdaxilə üzrə sistemləşdirilmiş mütəşəkkil fəaliyyətdir. Sülhməramlı əməliyyatlar sülhün qorunması, sülhün məcburi surətdə bərqərar edilməsi və münaqişədən sonra sülhün bərpası və quruculuğu üzrə əməliyyatları əhatə edir (1, maddə 3.0.1.). Sülhməramlı qüvvələr isə bu cür fəaliyyəti həyata keçirən hərbi-silahlı birləşmələrdirlər. Beynəlxalq hüquqa görə bu qüvvələr 2 və ya daha çox döyüşən qüvvələr arasındakı qarşıdurmada bitərəf mövqe tutmalıdırlar. Onlar döyüşçü deyillər və hər zaman hücumlardan qorunmalıdırlar. İlk sülhməramlı missiya 1948-ci ildə Beynəlxalq Millətlər Təşkilatının (BMT) mandatı əsasında həyata keçirilib. Bu missiya çərçivəsində ilk sülhməramlı qüvvələr Ərəb-İsrail müharibəsindən sonra İsrail və qonşu dövlətlər arasında imzalanan barışıq müqaviləsinin reallaşma prosesini izləmək məqsədilə mövcud regiona göndərildilər. Məhz o dövrdən bu günə qədər BMT sülhyaratma işi sahəsində 70 missiya həyata keçirib ki, onların da əksər hissəsi 1988-ci ildən sonrakı dövrə təsadüf edir. Həmin əməliyyatlarda 120 ölkəni təmsil edən yüzminlərlə hərbi qulluqçu, onminlərlə polis və mülki əməkdaşlar iştirak ediblər. Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi zamanı 3300-dən çox sülhməramlı həyatını itirmişdir (6). Hal-hazırda BMT bayrağı altında sülhyaratma prosesi 4 qitədə 12 aktiv əməliyyatlar həyata keçirilməkdədir (13). BMT hal-hazırda sülhməramlı missiyaları həyata keçirən yeganə təşkilat deyil. Belə ki, bu sahədə Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO), Kollektiv

Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT), Qərbi Afrika Ölkələrinin İqtisadi Birliyinin (QAÖİB), Afrika İttifaqı, Ərəb Dövlətləri Liqası (ƏDL) və s.təşkilatların fəaliyyəti də xüsusi önəm kəsb edir (6).

*Əsas hissə.* Azərbaycan Respublikasının sülhməramlı əməliyatlarda iştirakı Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda Azərbaycan Respublikasının iştirakı haqqında Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və digər normativ hüquqi aktlarla tənzimlənir (1, maddə 1.1.).

Respulikamızın beynəlxalq sülhməramlı əməliyatlarda iştirakı 1997-ci ildən başlamışdır. Belə ki, 1997-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərkibində Azərbaycan Sülhməramlı Ordusu yaradılmışdır. Daha sonra Azərbaycan Sülhməramlı Bölməsi adı altında birləşdirildi və 2001-ci ildən isə Azərbaycan Sülhməramlı Taboru adı altında fəaliyyət göstərməkdədir.

Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı birləşmələri 1999-cu ildən başlayaraq bəlli aralıqlarla Kosova, İraq və Əfqanıstanda Beynəlxalq Sülhməramlı Ordu tərkibində sülhməramlı fəaliyyətlərdə iştirak ediblər. Yuxarıda qeyd etdik ki, sülhməramlı əməliyatlar BMT-nin mandatı ilə yanaşı digər nüfuzlu beynəlxalq regioanal təşkilatların mandatına uyğun olaraq da həyata keçirilir.

Respublikamız NATO çətiri altında sülhməramlı əməliyyatlara iştirak hüququnu 1994-cü ildə imzaladığı NATO-nun "Sülh Naminə Əməkdaşlıq" proqramına əsasən əldə etmişdir (5, s.500). Məhz bu proqram çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin Sülhməramlı Birləşmələri Kosova və Əfqanıstanda sabitliyin təmin oluması və sülhün dəstəklənməsi prsesinə öz töhfələrini vermişlər.

1999-cu ilin sentyabrından 2008-ci ilin martınadək ilk sülhməramlı taqımımız 32 əsgər, 1 gizr və 1 zabitdən təşkil olunan 34 nəfərlik şəxsi heyət ilə Kosovada sülhün yaradılması və dəstəklənməsi üzrə əməliyatlarda iştirak edib. Kosovadakı Azərbaycan taqımı qərargahı Kosovanın Draqaş şəhərində yerləşən Türkiyə taborunun tərkibində xidmət aparmışdır. Taqım Brod yaşayış məntəqəsinin 18 kəndinin təhlükəsizliyi məsələsində birbaşa cavabdehlik daşımışdır. Kosovada 1999-cu ilin sentyabrda baslayan sülhməramlı fəaliyyətimiz 2008-ci ilin aprel ayında Kosovanın müstəqilliyinin təktərəfli elan edilməsi nəticəsində sona yetmiş və oradakı Azərbaycan taqımı tam heyətlə geri çağırılmışdır (9).

NATO çətiri altında Azərbaycan Respublikasının cəlb edildiyi digər sülhməramlı fəaliyyət prosesi Əfqanıstanda həyata keçirilmişdir. Bu məqsədlə Ulu Öndər Heydər Əliyev tərəfindən 2002-cilin noyabr ayının 13-də "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda Təhlükəsizliyin Dəstəklənmsəsi üzrə Beynəlxalq Qüvvələrin Türk taborunun tərkibində fəaliyyət göstərəcək Azərbaycan taqımına dair Saziş"i imzalamaq səlahiyyətlərinin verilməsi barədə Sərəncam imzalanmışdır. Bu Sərəncama əsasən Əfqanıstanda bu sahədə Azərbaycan Hökuməti adından fəaliyyət göstərmək səlahiyyəti Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yüksək hərbi rütbəli bir nümayəndəsinə həvalə edilmişdir (2). Bu sənədin ardınca isə 15 noyabr 2002-ci il tarixində Azərbaycan Ordusunun sülhməramlı kontingentinin Türkiyə Respublikası Silahlı Qüvvələrinin və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı qəbul edilmişdir (3).

Azərbaycan Respublikasının Əfqanıstandakı sülhməramlı fəaliyyəti 2002-2021-ci illəri əhatə edir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 22 nəfərlik şəxsi heyəti siyasi baxımdan mürəkkəb bir coğrafiya olan Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) Türkiyə taboru tərkibində Kabil şəhərində yerləşən televiziya qülləsini, İSAF mərkəzi silah-sursat anbarının təhlükəsizliyini, Kabil Hava Limanının müdafiə və mühafizəsini həyata keçirmişdir. 2008-ci ilin 15 yanvar tarixində Azərbaycan Respublikasının Əfqanıstandakı sülhməramlı kontingentinin sayı 40 nəfərə çatdırılıb. 2 oktyabr 2009-cu il tarixdə isə yenidən Azərbaycan Respublikası Milli Məclisi tərəfindən Əfqanıstandakı sülhməramlı kontingentin sayının artırılması barədə qəbul edimiş və şəxsi heyətin sayı 90 nəfərə çatdırılmışdır. 2010-cu il 5 oktyabr tarixində NATO-nun İSAF üzrə əməliyyatlarında Azərbaycan Ordusunun daha məhsuldar fəaliyyət göstərə bilməsi məqsədilə missiyaya əlavə olaraq 2 hərbi həkim və 2 mühəndis-istehkamçı ixtisaslarını əhatə etməklə 4 zabit göndərilmiş və beləliklə, sülhməramlı kontingentin şəxsi heyətinin sayı 94 nəfərə çatdırılmışdır. 1 yanvar 2015-ci il tarixdən etibarən isə Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı kontingenti Əfqanıstanda "Qə-

tiyyətli Dəstək" adlı qeyri-döyüş missiyasında 6 aylıq plana uyğun olaraq rotasiya qaydasında fəaliyyət göstərmişdir. 2018-ci ilin 24 yanvar tarixində isə Əfqanıstandakı sülhməramlı kontingentin şəxsi heyətinin sayı yenidən artılmış və 120 nəfərə çatdırılmışdır. 2021-ci ildə Əfqanıstanda baş verən mürəkkəb siyasi proseslər və Taliban qüvvələrinin yenidən hakimiyyətə gəlməsi və ölkə daxilində heç bir xarici ölkənin silahlı birləşmələrinin qalmaması yönündəki radikal qərarı nəticəsində Azərbaycan Silahlı Qüvvələri sülhməramlı heyəti tam tərkibdə geri çağırılmışdır (9).

Azərbaycan Respublikasının BMT mandatı əsasında həyata keçirdiyi sülhməramlı missiyalar isə İraqda və Cənubi Sudanda həyata keçirilmişdir.

2003-cü ilin 7 may tarixində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Sülhməramlı Bölüyünün İraqda fəaliyyətə başlaması məqsədilə Azərbaycan Respublikası Silahlı Qüvvələri Kontingentinin Beynəlxalq Koalisiya Qüvvələri tərkibində İraqda sülhməramlı əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı qəbul edilmişdir (4). 2003-cü il 15 avqust tarixindən başlayaraq 2008-ci il 7 dekabr tarixinə qədər 152 nəfərlik şəxsi heyətlə Beynəlxalq Koalisiya Qüvvələri tərkibində fəaliyyət göstərərək sülhməramlılarımız Əl-Hədisə şəhəri yaxınlığında Amerika Birləşmiş Ştatları (ABŞ) Dəniz Piyadaları Komandanlığının tərkibində ən böyük su anbarının və güclü Su Elektrik Stansiyasının mühafizəsini həyata keçirmişdir.

Koalisiya qüvvələrinin 2008-ci ilin dekabrında İraqdan çıxması ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti də bütövlüklə geri çağırıldı. Çox təəssüf ki, İraqda həyata keçirilən sülhməramlı əməliyyatlarda bir azərbaycanlı hərbi qulluçu həlak olmuşdur (10).

Azərbaycan Respublikasının hazırki şəraitdə iştirak etdiyi və davam etməkdə olan sülhməramlı fəaliyyəti Cənubi Sudan Respublikasında həyata keçirilməkdədir. Belə ki, respublikamız beynəlxalq təhlükəsizliyə dəstəyin davamı olaraq 2019-cu ilin yanvar ayında BMT-nin Cənubi Sudan Respublikasında həyata keçirdiyi Sülh Missiyasına (UNMİSS) qoşulmuşdur. Azərbaycan Ordusu Missiyada illik rotasiya qaydasında BMT-də hərbi müşahidəçi qismində fəaliyyət göstərən iki zabitlə təmsil olunmaqdadır.

İrimiqyaslı, regioanal xarakter daşıyan münaqişələrin qarşısının alınması və ya onların dayandırılması və nizamlanması məqsədilə həmin münaqişələrə müdaxilə üzrə sistemləşdirilmiş mütəşəkkil fəaliyyət olan beynəlxalq sülhməramlı əməliyyatlardan başqa lokal sülhməramlı əməliyyatlar da həyata keçrilməkdədir. Bu əməliyyatlar BMT və başqa bir beynəlxalq regional təşkilatın mandatı olmadan dövlətlərin ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələri əsasında aparılan sülhün qorunması üzrə əməliyyatdır (1, maddə 3.0.7.).

Məqalədə yuxarıda Azərbaycan Respublikasının beynəlxalq sülhməramlı əməliyyatların subyekti kimi məqsədyönlü və töhfəverici fəaliyyətinə mənbələrə istinad edərək yenidən işıq salmağa çalışdıq. Lakin son 2-3 ildə Azərbaycan Respublikasının özünün də sülhməramlı əməliyyatın fəaliyyət meydanına, obyektinə çevrildiyi faktını görməzlikdən gəlmək olmaz.

44 günlük müharibənin sonunda 10 noyabr 2020-ci il tarixində Moskva şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında birgə Bəyanat imzalandı (11).

Bəyanatın imzalandığı gündən Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyunca Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilməyə başlanıldı. Rusiya sülhməramlı kontingentinin qalma müddəti 5 il müəyyən edilib və müddətin bitməsinə 6 ay qalmış sülhməramlı fəaliyyətin tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılacaqdır (11, maddə 4.). Bu prosesin gedişinə nəzarətin səmərəliliyini artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması nəzərdə tutulurdu (11, maddə 5.).

Bu sülhməramlı kontingent BMT və ya hər hansı bir digər nüfuzlu təşkilatın mandatına əsasən həyata keçirilmir. Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında imzalanan üçtərəfli Bəyanata əsasən müvəqqəti olaraq yerləşmiş, əsas vəzifələri qarşıdurma tərəfləri arasında atəşkəs razılaşmasına riayət edilib-edilməməsini izləmək, onlar arasında baş verə biləcək hər hansı bir toqquşmanın qarşısını alan qüvvə rolunu oynamaqdır. Onların oradakı ən əsas vacib vəzifəsi mülki əhalinin qorunması, insan hüquq və azadlıqlarının təmin olunmasıdır.

Rusiya sülhməramlıları Rusiya Müdafiə Nazirliyinə tabedirlər, onun silahlı qüvvələrinin struktur hissəsidir (12). Rusiya Federasiyasının bu formada,yəni hər hansı bir beynəlxalq-regioanal təşkilatın mandatı olmadan dövlətlərin öz aralarında əldə edilən razılaşmaya əsasən sülhməramlı əməliyyatları həyata keçirməsi təcrübəsi ilk deyildir. Rusiya sülhməramlı kontingentinin buna qədər Moldava Respubliaksının Dnestr regionunda, Cənubi Osetiyada və Suriya dövlətində bənzər hərbi təcrübəsi olmuşdur.

Qeyd olunmalıdır ki, Rusiya sülhməramlı kontingentinin Dağlıq Qarabağ ərazisində yerləşdirilməsi istər ölkənin rəsmi siyasi və ictimai dairələri, istərsə də, beynəlxalq aləm tərəfindən birmənalı qəbul edilməmişdir. Hətta Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xarici ölkələrin nüfuzlu mətbu orqanlara verdiyi müsahibələrdə ümumilikdə Rusiya sülhməramlı qüvvələrinin fəaliyyətini müsbət qiymətləndirsə belə, Azərbaycan Respublikasını qane etməyən, haqlı narazılıq və şikayətlərə səbəb olan məqamlarla bağlı Rusiya Federasiyasına rəsmi fomada məlumat verildiyi, qanunsuz əməllərə göz yumulmaması, dövlətimizin suverenliyimizə və ərazi bütövlüyümüzə hörmətlə yanaşılmasının qətiyyətlə tələb edildiyi vurğulanmışdır (8).

***Nəticə.*** Təəssüf ki, bəzi hallarda sülhməramlı əməliyyatların və qüvvələrin heç də həmişə sülhü təmin etmədiyinin, hüquq və vəzifələrindən sui-istifadə etdiklərinin, onların hərəkətsizliklərinin, qarşısını almağa mükəlləf olduqları qanun pozuntuları, münaqişəli vəziyyətləri nizama salmaq, mülki əhalinin təhlükəziliyini təmin etmək yerinə daha da qanunsuz vəziyyətlərin qol-qanad açmasına rəvac verdiklərinin, mülki əhalinin təhlükəsizliyinə biganə yanaşdıqlarının şahidi oluruq. Belə hallarda sülhməramlı missiyalar nəinki gözlənilən nəticəni verməyib, hətta sülhməramlıların destruktiv mövqeyi yerli əhali arasında böyük itkilərə səbəb olub. Bu kimi hallara misal olaraq 1995-ci il iyulun 11-də Xorvatiya-Bosniya müharibəsi zamanı BMT sülhməramlılarının nəzarəti altında olan Bosniyanın Serebrenitsa anklavında 8 mindən artıq müsəlmana qarşı törədilən soyqrımı göstərə bilərik. Bu hadisə məhz həmin ərazinin təhlükəsizliyi üçün məsuliyyət daşıyan Niderland sülhməramlı qüvvələrinin real vəziyyəti düzgün qiymətləndirməməsi, təzyiqlərə məruz qalan yerli əhaliyə yardım etməməsi ucbatından baş verdi.

Sülhyaratma prosesində yaşanan digər nöqsanlı hallar isə Rusiya sülhməramlılarının Gürcüstanın Cənubi Osetiya və Moldovanın Dnestryanı bölgəsində həyata keçirdiyi əməliyyatların nəticəsində yaşanmışdır. Belə ki, Cənubi Osetiyada həyata keçirilən sülhməramlı missiya həmin ərazinin Rusiya Federasiyasına ilhaq edilməsi, Dnestryanı bölgədəki fəaliyyət isə faktiki olaraq seperatçı respublikanın tam şəkildə formalaşmasını təmin etmişdir (6).

Sadalanan bu kimi mənfi hallar artıq beyinlərdə istər BMT-nin, istərsə də digər beynəlxalq-regioanal təşkilatların və ya ikitərəfli, üçtərəfli razılıq əsasında ayrı-ayrı dövlətlərin həyata keçirdikləri sülhməramlı missiyalarının fəaliyyətinin əksər hallarda özündə beynəlxalq hüquq norma və prinsiplərini deyil, bu və ya digər güc mərkəzlərinin geosiyasi maraqlarını ehtiva etdiyi fikrini möhkəmləndirir (6). Məhz bu kimi yanaşma Rusiya sülhməramlı kontingentinin Dağlıq Qarabağ regionundakı fəaliyyətində Azərbaycan Respublikasına qarşı həyata keçirilməkdədir. Ancaq artıq Cənubi Qafqaz regionunda aparıcı dövlətə çevrilən respublikamız bu kimi hərəkətlərə göz yummur və gələcəkdə də göz yummayacaqdır. Çünki Azərbaycan Respublikası Rusiya sülhməramlı missiyasının istər açıq-aşkar, istərsə də dolayı yolla seperatçı rejimin maraqlarını qorumasına imkan verməyəcəkdir. Həm də bunu etməklə dövlətimiz ümumilikdə sülhməramlı missiyaların imicinə kölgə salan və onun obyektiv mövqe sərgiləyən bir institut kimi mövcudluğunu risk altına qüvvələrə qarşı özünün sərt əks mövqeyini ortaya qoymuş olur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Sülhməramlı əməliyyatlarda iştirak haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 11 may 2010-cu il. №1000 – IIIQ.
2. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda Təhlükəsizliyin Dəstəklənməsi üzrə Beynəlxalq Qüvvələrin Türk taborunun tərkibində fəaliyyət göstərəcək Azərbaycan taqımına dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq

səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 13 noyabr 2002-ci il. № 1086.
3. Azərbaycan Ordusunun sülhməramlı kontingentinin Türkiyə Respublikası Silahlı Qüvvələrinin və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. Bakı şəhəri, 15 noyabr 2002-ci il . № 378 – II QR.
4. Azərbaycan Respublikası Silahlı Qüvvələri Kontingentinin Beynəlxalq Koalisiya Qüvvələri tərkibində İraqda sülhməramlı əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. Bakı şəhəri, 7 may 2003-cü il. № 432 –II QR.
5. Ə.M. Həsənov Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, “Azərbaycan” nəşriyyatı, 2005, 752 s.
6. Sahil İsgəndərov. Sülhməramlı müssiya necə olmalıdır: BMT təcrübəsi –Təhlil / Azvision.az, 16 dekabr 2022. - https://azvision.az/news/314674/--sulhmeramli-missiya-nece-olmalidir--bmt-tecrubesi--tehlil--.html [Müraciət tarixi: 10.01.2023].
7. Shahin Jafarli. The Karabakh Peacekeeper’s Legitimacy Problem / Baku Research İnstitute, 01 September 2021. - https://bakuresearchinstitute.org/the-karabakh-peacekeepers-legitimacy-problem-2/ [Müraciət tarixi: 10.01.2023].
8. İlham Əliyev: “Rusiya sülhməramlılarının fəaliyyətini müsbət qiymətləndirirəm” / Margin.az, 27 sentyabr 2022. - http://margin.az/az/post/glava-gosudarstva-v-celom-deyatelynosty-rossiyskih-mirotvorceskih-sil-mojno-ocenivaty-polojitelyno-20071 [Müraciət tarixi: 10.01.2023].
9. Beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak / Azərbaycan Respublikası Müdafiə Nazirliyinin saytı. - https://mod.gov.az/az/beynelxalq-sulhmeramli-emeliyyatlarda-istirak-027/ [Müraciət tarixi: 10.01.2023].
10. Ən qaynar nöqtələrdə: Azərbaycan sülhməramlı qüvvələri – Hərbi ekspert (araşdırma). - Hərbi ekspert Ədalət Verdiyevin araşdırması / Ordu.az, 16 dekabr 2016. - https://ordu.az/az/news/124180/en-qaynar-noqtelerde--azerbaycan-sulhmeramli-quvveleri-%E2%80%93-herbi-ekspert-arasdirma [Müraciət tarixi: 10.01.2023].
11. Azərbaycan Respublikasının Prezidenti Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı / Azərbaycan Respublikası Prezidentinin saytı, 10 noyabr 2020. - https://president.az/az/articles/view/45923 [Müraciət tarixi: 10.01.2023].
12. Hüquqşünas: “Sülhməramlı qüvvələr xarici hərbi baza kimi təsnif oluna bilməz” / Hüquqşünas Fərhad Mirzəyevin “Report”a müsahibəsi, 12 noyabr 2020. - https://report.az/qarabag/huquqsunas-sulhmeramli-quvveler-xarici-herbi-baza-kimi-tesnif-oluna-bilmez/ [Müraciət tarixi: 10.01.2023].
13. What is peacekeeping / United Nations Peacekeeping. - https://peacekeeping.un.org/en/what-is-peacekeeping [Müraciət tarixi: 10.01.2023].

**АНАРА МАМЕДОВА**
*Выпускница бакалавриата Бакинского Государственного Университета,*
*Выпускница магистратуры Академии государственного управления*

## АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА ЯВЛЯЕТСЯ ПАРТНЕРОМ МЕЖДУНАРОДНОЙ И РЕГИОНАЛЬНОЙ МИРОТВОРЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

В данной статье исследованы 2 аспекта вклада Азербайджанской Республики в деятельность института международных миротворческих сил - международно-региональный и регионально-локальный аспекты. Азербайджанская Республика, долгое время выступавшая субъектом международных миротворческих операций, временно стала объектом миротворческой деятельности регионального масштаба в силу диктата новых политических реальностей, возникших после победы в 44-дневней войне. Участие во всемирном мирном процессе свидетельствует о конструктивной позиции Азербайджанской Республики о необходимости осуществления разрешения международных и региональных конфликтов в рамках норм и принципов международного права. Эта позиция, которую она проявляла, была подтверждена ее

деятельностью в миротворческих миссиях, осуществляемых в соответствии с мандатом ООН и НАТО, которые являются авторитетными международными организациями, начиная с сентября 1999 года. Миротворческие силы нашей республики выступили партнером в миротворческом процессе в горячих точках мира, таких как Ирак, Косово, Афганистан, успешно справились с этой задачей и в настоящее время успешно продвигаются в своей миссии в Республике Южный Судан. Если в будущем возникнет необходимость неоспорима что окажет полную поддержку этому виду деятельности.

*Ключевые слова:* Азербайджанская Республика, миротворческие силы, миротворческая деятельность, ООН, НАТО, российские миротворческие силы.

**ANARA MAMMADOVA**
*Bachelor graduate of Baku State University,*
*Master's graduate of the Academy of Public Administration*

## THE REPUBLIC OF AZERBAIJAN IS A PARTNER OF AN INTERNATIONAL AND REGIONAL PEACEKEEPING ACTIVITY

In this article it was tried to be investigated two aspects of the contributions of the Republic of Azerbaijan for the institution of international peacekeeping, the international-regional and regional-local aspects. The Republic of Azerbaijan that acting as a subject of international peacekeeping operations for a long time has temporarily become the object of the peacekeeping activities on a regional scale according to the dictation of new political realities which emerged after the victory in the 44-day war. Attendance in the world peace process exhibits the constructive position of the Republic of Azerbaijan on the solution of international and regional conflicts within the norms and principles of international law. The Republic of Azerbaijan had proved this position in the peacekeeping missions carried out under the mandate of the influential international organizations such as UN and NATO since September 1999. The peacekeeping forces of our republic have acted as a partner in the peacekeeping processes in the hot destinations of the world such as Iraq, Kosovo and Afghanistan and have successfully coped with this task. Currently, our peacekeeping forces are successfully implementing their mission their mission in the Republic of South Sudan and it is undeniable that if needed The Republic of Azerbaijan will demonstrate its support to such activities in the future.

*Keywords:* The Republic of Azerbaijan, peacekeeping force, peacekeeping activity, UN, NATO, Russian peacekeeping forces.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Sevinc Nəsirova, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94; UOT 32:93/94**

**SALİHA GİZEM ÖNDER**
*Azerbaycan Cumhurbaşkanlığına Bağlı Devlet İdarecilik Akademisi*
*Doktora öğrencisi*
**ondersalihagizem@gmail.com**
ORCID: 0000-0003-0784-1729

# SOVYETLER BİRLİĞİNİN "BİR ETNİ-BİR TOPRAK" İLKESİ ÇERÇEVESİNDE TÜRKİSTAN HALKLARININ KENDİ KADERİNİ TAYİN HAKKININ MÜMKÜNLÜĞÜ

*Sovyetler Birliği 1917 yılında devrimle başlayan iktidarını içinde Türk Dünyası'nın da bulunduğu topraklarda sürdürmüştür. Geniş bir coğrafyada yer almasının da neticesi sayılabilecek bir insan çeşitliliğine sahiptir. Farklı milliyetlerden ve dinlerden pek çok insanın yaşam sürdüğü Birlik'te temel kimlik milliyetlerden ve dini mensubiyetlerden arındırılmış bir Sovyet insanı üzerine kurgulanmıştır. Sovyet halkı inşa etmek zorun yanı sıra yerine göre rızayı da beraberinde getirmiştir. 1917 Ekim Devrimi ile beraber Türk Dünyası coğrafyasının da içinde olduğu topraklarda Çarlık Rusya'dan farklı bir sosyal gerçeklik iddiasında olan Sovyetler Birliği yetmiş yılı aşkın bir süre hüküm sürmüştür. Bu süre boyunca "bir etni-bir toprak" ilkesine, "kendi kaderini tayin" hakkına yönelik kamu politikalarıyla sınırların yeniden çizildiğini söylemek mümkündür.*

*Anahtar Kelimeler:* Sovyetler Birliği, Türkistan, bir etni-bir toprak, sınır, kendi kaderini tayin hakkı.

***Giriş.*** SSCB, 5 Aralık 1936 Anayasası çerçevesinde "eşit haklara sahip Sovyet Sosyalist Cumhuriyetlerin gönüllü birleşmeleri temelinde kurulan federal bir devlettir ve proletarya diktatörlüğüne dayanan, köylü ve işçilerin sosyalist devletidir" şeklinde tanılanmaktadır. Sovyet Rusya idare anlayışında Çarlık Rusya'nın aksine özgürlük, bağımsızlık, egemenlik, halkın kendi kaderini tayin hakkı, kurtuluş, kardeşlik, enternasyonalizm, demokrasi, hak eşitliği, proletarya diktatörlüğü, ilericilik, milliyetler politikası gibi kavramları ön plana çıkarmaktadır.

Ekim Devrimi sonrasında proleterler birliğinin kurulmasını amaçlayan Bolşevikler, mevcut kültürel ve etnik kimliklerin, dilsel ve ırksal farklılıkların hayal edilen birlik içinde eriyeceğine inanmışlar ve politikalarını da bu doğrultuda belirlemişlerdir. Her millete "özerklik" adı altında kendi topraklarının verilmesi, idari birimlerin nüfusu çok olanın değil de bölgenin en eski sakinlerinin isimleriyle adlandırılması, alfabenin değiştirilmesi, rakip görülen ideoloji mensuplarının ya sürgün ya da idam edilmesi bahse konu birliğin ayakları üzerine sağlam basması için hayata geçirilen politikalardı (7, s.315).

Leninizm'de milliyetçilik altyapı üstyapı ilişkisine doğrudan bağlı kalmayacak şekilde kurgulandığı için milletler sorunları da sınıf mücadelesinden ayrı değerlendirilmiş, 1924 yılı itibariyle beş ayrı cumhuriyete bölünen Orta Asya bir bütün olarak bir araya gelmesini imkansız kılacak şekilde "her biri kendi ulusal bilinci, dili, kültürü ve ekonomik bağımsızlığına sahip ayrı ve farklı halklara" dönüştürülmüştür (1, s.251). Türk boyları arasındaki anlaşmazlıkların derinleştirilerek düşmanlığa dönüştüğü de olmuştur. Marksist ideologlar millet gerçeğini sınıf kavramının önemini zedelemeyecek şekilde izah etmektedirler. Milli topluluk vasfı sınıf varlıklarını ortadan kaldıramaz ama sınıflar arasındaki dayanışma milli sınırların ötesine taşmaktadır (14, s.178). Merkezi parti bir taraftan ulusal ayrılıkları zayıflatarak genel bir Sovyet Rus görüntüsü oluşturmak isterken bir taraftan da Rus olmayanlara kendi topraklarında dillerini ve kültürlerini yaşatmalarına kontrol edebildiği ölçüde izin vermiştir (7, s.324). Rus olmayanlara verilen kimlik, egemenliklerinin reddedilmesi şartıyla varlık gösterme fırsatı yakalayabilmiştir.

Lenin'in Doğu halklarına seslenerek: "Ey Rusya Müslümanları, Ey Volga ve Kırım Tatarları, Ey Sibirya ve Türkistan Kırgızları-Kazakları, Ey Kafkasya Tatar Türkleri ve Ey Kafkasya Çeçenzeleri! Bu saniyeden sonra sizin dünyalarınız, ulusal ve kültürel kurumlarınız her türlü karışma ve saldırıdan uzaktır. Ulusal yaşamınızı özgürce düzenleyiniz. Size bu hakkı veriyoruz" şeklinde

vaatlerde bulunduğu ifade edilmektedir (5, s.257). Fakat Lenin'in işçi sınıfı demokrasisinde herhangi bir ulusa ya da dile ayrıcalık tanınmayacağını dile getirmesi, Bolşeviklerin de, toprak açısından kendi kaderini tayin edebilme hakkının içerikte sosyalist biçimde ulusal bir kültürü gerekli kıldığını savunmasına yol açmıştır.

Sovyet Devleti mevcut şartlardan faydalanarak uluslar yaratmayı amaçlamış ve bunun için de etnografyacılarını dil, din, ekonomi, yerel kabile ilişkileri ve benzeri hakkında bilgi toplaması için ilgili bölgelere göndermiştir. Cumhuriyetlerin her düzeydeki yönetim biriminde Rusya'da eğitim almış ve Komünist Parti içerisinde kendi insanları adına söz söyleyebilen yerli kadroların oluşması teşvik edilmiştir. Korenizatsiya (yerlileştirme) politikaları kapsamında ha yata geçirilen bu uygulamalar 1930'lu yılların sonundan itibaren yerini Rus dilinin ve kültürü nün geliştirilmesi ve diğer milletlere öğretilmesine bırakmıştır. Kruşçev döneminden (1953 - 1964) itibaren ise komünist toplum inşasına giden yolda kültürlerin erimesi ve kaynaşmasına dair politikalar uygulanmaya başlanacaktır. Kruşçev hükümeti her ne kadar Stalinizmden dönüş olarak isimlendirilse de milliyetler politikası yine "Sovyet halkı"nı inşa etmeye yöneliktir. Kruşçev döneminde kültürlerin kaynaşması (sliyanie) ve yakınlaşması (sblijeniye) politikaları benimsendiği için yerelliğe ve ulusal bölgeciliğe karşı bir mücadelenin söz konusu olduğu söylenebilir. Ulusların kültürel ve dilsel kaynaşması ile sağlanacağına inanılan Sovyet toplumu inşası Brejnev döneminde (1964-1982) en iyi seviyesine ulaşmış ve ortak komünist kültürün varlığından söz edilmeye başlanmıştır (7, s.316). Başlarda "yerlileştirme" amacı güden politikalar zamanla sovyetleştirme uygulamalarına dönüşmeye başlamıştır. 1920'li yıllarda Stalin'in Sovyetler Birliği içerisinde Rus olmayan grupların "millet oluşturma" ve "yerlileştirme" politikaları doğrultusunda Parti'de yer almasına müsaade etmesi 1930'lu yılların başına kadar sürmüş, 1933'ten itibaren Ruslaştırma politikasına geri dönülmüştür (11, s.20).

1961 tarihli 22. Parti Kongresi Sovyetler Birliği Komünist Partisi 3. Programında Kruşçev Komünist Partisi doktrininin zamanla milli farkların eriyeceği bir zemin inşa ettiğini ifade etmektedir. Sınıf farklılıklarının yok edilmesinden önce milli dilin ve farklılıkların yok edilmesi önem arz etmektedir. Kruşçev'e göre yeniden dost olma (sblijenie) süreci beraberinde milletlerin kaynaşmasını (sliyanie) getirecektir (2, s.142). Kültürlerin yakınlaşması ve kaynaşması ise yerini ulusal ayrılıkların temizlenmesine bırakmıştır.

***Sınırların Çizilmesi: "Bir Etni-Bir Toprak" İlkesi.*** Çarlık Rusyası hükümeti Aral ve Başkal göllerinin güneyindeki bölgeleri 1866 yılında Türkistan vilayeti idaresi altında toplamıştır. 1917 yılı itibariyle Türkistan genel idaresinin yetkisi Rusya Hükümeti Türkistan Komitesine devredilmiştir. Aynı yıl Sovyet Rusya Hükümetinin Türkistan komitesini lağvetmesini, Türkistan genel idaresinin Sovyet Sosyalist Türkistan Muhtar Cumhuriyeti olması takip etmiştir. Rusya Sovyet Sosyalist Cumhuriyetleri Federasyonu içinde yer alan bu muhtar cumhuriyet, 1924'te Türkistan adının resmi kayıtlardan silinmesi ve Özbekistan, Türkmenistan, Tacikistan, Kazakistan ve Kırgızistan Sovyet Cumhuriyetlerinin kurulmasıyla varlığına devam etmiştir (8, s.102).

24 Kasım 1917 tarihli beyanname sonrasında Başkurt, Alaş-Orda ve Türkistan Muhtariyet Hükümetleri ilan edilse de çok geçmeden Türkistan Muhtariyet Hükümeti 13 Şubat 1918'de, Alaş-Orda Hükümeti 9 Mart 1920'de, Başkurt Muhtariyet Hükümeti 19 Mayıs 1920'de Bolşeviklerce sona erdirilmiştir (8, s.167). Buhara Halk Cumhuriyeti ise önce Buhara SSC'ne dönüştürülmüş, sonrasında Özbekistan ve Türkmenistan SSC'lerine katılmasına karar verilse de 27 Ekim 1924'de Buhara SSC'nin kaldırıldığı ilan edilmiştir. Harezm Halk Cumhuriyeti ise 20 Ekim 1924'te önce Harezm Sosyalist Sovyet Cumhuriyeti olarak ilan edilmiş sonrasında 30 Ekim 1924'te yapılan kurultayla toprakları Özbek, Türkmen ve Karakalpaklar arasında taksim edilerek Harezm Devleti tamamen ortadan kaldırılmıştır (8, s.163-166).

30 Aralık 1922'de resmen kurulan SSCB Stalin'in öngördüğü gibi Rusya Sovyet Federatif Sosyalist Cumhuriyeti, Ukrayna Sovyet Sosyalist Cumhuriyeti, Belorus Sovyet Sosyalist Cumhuriyeti, Transkafkasya Sovyet Federatif Sosyalist Cumhuriyeti olarak dört devletten oluşuyordu. 1924 yılına gelindiğinde ise "bir etni-bir toprak" ilkesiyle tüm idari varlıklar feshedilip, Orta Asya haritası yeniden çizilmiştir (7, s. 320). Böylece bir yanda Türkmenistan ve Özbekistan SSC'leri, diğer yanda

her ikisi de Rusya'ya bağlı olan Kırgızistan ve Karakırgızistan Özerk Cumhuriyetleri ve Karakalpakistan özerk bölgesi ortaya çıkmıştır. 1929'da Tacikistan Özbekistan'dan ayrılarak bir Sovyet Cumhuriyeti olurken Kırgızistan'ın adı Kazakistan, Karakırgızistan'ın adı ise Kırgızistan olarak değiştirilmiştir (12, s.99-100).

Sovyet hükümeti 31 Ocak 1924'te kabul edilen anayasa ile sonradan her birine asli bir halk atfedilecek Sovyet cumhuriyetlerinin kurulmasını karara bağlamıştır (12, s.9). 16 Haziran 1924 tarihinde Bolşevik Merkezi İdaresi'nin aldığı karar ile Türkistan kelimesi kullanımdan kaldırılarak Orta Asya tabiri kullanılmaya başlanmıştır (16, s.25). Sovyetler İttifakı Merkez İcra Komitesinin 09.01.1936 tarihli kararı ile Hocent Leninabad, 10.01.1936 tarihli karar ile Evliya-Ata Mirzoyan, Ak-Mescit Pervosky, Yeni Mergilan Skolebek, Çim-Kent Çerniyev, Pişpek Frunze, Duşanbe Stalinabad olarak değiştirilmiştir (4, s.1547).

Sovyet halklarının ulusal devlet inşasında Birlik Cumhuriyeti, Özerk Cumhuriyet, Özerk Bölge ve Ulusal Bölge olmak üzere dört biçim denenmiştir (6, s.182). Ulus olarak nitelendirilenler kendilerine ait bir devlete, ülke ve ulus adına, ulusal dile, bayrağa ve ulusal marşa sahip olmuşlardır. Rusya SFSC, Azerbaycan SSC, Özbekistan SSC, Kazakistan SSC, Kırgızistan SSC, Türkmenistan SSC, Tacikistan SSC, Gürcistan SSC, Ermenistan SSC, Estonya SSC, Belorus SSC, Letonya SSC, Litvanya SSC, Moldova SSC ve Ukrayna SSC ulus olarak kabul edilenler arasındadır. Ulus olmamakla birlikte farklı etnik kökende oldukları kabul edilenler ise gelişmişlik seviyelerine göre ayrı dilleri olan ve ulusun parçası haline getirilen özerk cumhuriyet veya daha alt statüdeki halkların idari birimi olan özerk bölge ve ulusal bölge içinde yer almışlardır (10, s.120).

Bugünkü dört Türk Cumhuriyetinin içinde bulunduğu Türkistan'ın adı Orta Asya olarak değiştirilmiştir. Türk halklarına kabile ve yerel adlar verilmiştir. Ahıska Türkleri hariç hiçbir Türk topluluğuna Türk denilmemiş, Türklerin Türkiye'de olduğu ve Türk Cumhuriyetlerindeki halkların Türk değil sadece Türk dilli olduğu ifadeleri hakim bir söyleme dönüşmüştür (11, s.23). Türklerin tek bir Türk kimliği çerçevesinde birleşme arzusu ve eğilimini engellemek amacıyla Türkler çeşitli küçük boylara ayrılarak başka milletler haline getirilmiştir. Kazak, Kırgız, Karakalpak, Özbek, Tatar, Başkırt, Kumuk, Karaçay-Balkar gibi yeni halklar imal edilerek var olmayan milliyetçilikler ortaya konmuştur (12, s.8-10). Bugün hala bu coğrafyadaki insanlar kendileri ifade ederken Kırgız, Kazak, Özbek ya da Türkmen olduklarına vurgu yapmaktadırlar.

***Kendi Kaderini Tayin Hakkının Mümkünlüğü.*** Bolşevik İhtilali sonrasında Lenin ve Stalin'in imzalarıyla 24 Kasım 1917'de neşredilen Rusya Halklarının Hakları Beyannamesi ile Rusya Müslümanlarının inanç, gelenek, milli ve kültürel kurumlar bakımından serbest oldukları ifade edilmiş ve ihtilali desteklemeleri istenilmişti. Bolşevikler bahse konu beyanname ile halkların kendi kaderlerini tayin hakkının yanında dilerlerse müstakil bir devlet kurabilme haklarını da tanımışlardır. (4, s.1545). Ancak tanınan bu hak uygulamada tam bağımsızlıktan ziyade özerklik talebi şeklini almıştır. Özerklik ya da ayrılmanın ulusun çoğunluğu için, emekçi kesimler için her zaman ve her yerde yararlı olmayacağını dile getiren Stalin'in söyleminden tanınan hakların hayata geçirilmesinin pek de mümkün olmadığı çıkarılabilir. Sovyet Anayasasına göre 6 Sovyet Cumhuriyetine Sovyetler Birliği'nden ayrılma fırsatı tanınsa da aynı anayasada Sovyetler Birliğinin bölünmez bir bütün olduğu da kabul edilmiştir (8, s.24-25). 1920 yılı, Sovyetlerin milliyetler politikasında yeni bir dönemin başlangıcını oluşturmaktadır. İç savaşın sonuyla birlikte bir birleşme ve yeniden kurma dönemine karşılık gelen bu süreçte "ayrılma hakkı" yerini "birleşme hakkı"na bırakmış, 1921 tarihi itibariyle de Bolşevikler merkezi bir kuruluşu önemsemeye, ayrılma talebinde olan milliyetçi hareketleri tasfiye etmeye başlamışlardır (3, s.333).

Sovyetler Birliği'nden ayrılma hakkı milletlere tanınmış, bu hakkın tespit ve uygulama yetkisi Merkez Komünist Partisi'ne bırakılmıştır. 1919 Ukrayna Komünist Partisi 3. Kongresinde konuşan Merkez İcra Komitesi Başkanı Sverdlov'in "Yarattığımız tüm müstakil Sovyet Cumhuriyetlerinde partimizin üstünlüğünü korumamız gerekir. Yönetim her yerde Rus Komünist Partisi Merkez Komitesi'ne aittir" ifadesi tanınan hakkın dilenen ölçüde kullanılamayacağını göstermesi açısından önemlidir (14, s.180-181).

20 Haziran 1920 tarihli Pravda gazetesinin haberine göre Türkistan'daki proletarya diktatörlüğünün gerçek temsilcisi Rus halkıdır (8, s.107). Sovyetler döneminde Türk ahalisinin çoğunluğu Ruslardan oluşmaktadır. Kruşçev'in ifadesiyle milli ayrılıkların silinmesinden şikayette bulunan kimselere verilecek cevap komünistlerin milli ayrılıkları muhafaza etmeyecekleri ve ebedileştirmeyecekleri yönündedir. Hatta milli kalıntıların en ufak belirtisinin bile kökü tam bir Bolşevik uzlaşmasıyla kurutulmalıdır (15, s.129). Yerlileştirme politikası burjuva milliyetçiliğine neden olmaya başlayınca Stalin temsilcileri cezalandırmaktan çekinmemiştir. Bazı Sovyet Cumhuriyetlerindeki Rus olmayanların Paris ve Berlin'e sığınarak Alman devlet adamları tarafından destek bulması Stalin'in onlara karşı belirlediği politikaların temel nedenlerinden birini oluşturuyordu (7, s.323). Otuzlu yıllar boyunca "Büyük Temizlik" operasyonları kapsamında çalışma arkadaşları hakkında dahi ölüm, sürgün, hapis cezalarını reva gören Stalin'den Rus olmayan kitlelere karşı sessiz kalmasını beklemek pek mümkün değildir.

"İnkılabı Rus inkılapçıları, Rus işçileri ve Rus askerleri gerçekleştirdiler. Onun için de Türkistan'da idare, hakimiyet biz Ruslara aittir. Yerliler kendilerine ne verirsek onunla yetinmelidirler." Bu ifadeler Taşkent'te bir toplantıda Hokant Ticaret Mektebi Muallimi Nekora ta rafından dile getirilmiştir (4, s.1545). Dönemin Sovyet yönetim anlayışını yansıtması açısından önem arz eden bu açıklama George Orwell'in "Hayvan Çiftliği" romanını akla getirmektedir. Domuzların iktidarı ele geçirdikten sonra bütün hayvanların eşit olduğunu ifade eden maddenin yerini "bütün hayvanlar eşittir, ama bazı hayvanlar (domuzlar) daha eşittir" maddesinin almasını hatırlatmaktadır: "Milletler eşittir ama Ruslar daha eşittir".

Halkın kimliğini ve kültürünü koruma yönünde göstermiş olduğu direnç aydınların öldürülmesine, halkın ise sürgün edilmesine yol açmıştır. Sürgünlerin çeşitli sebepleri arasında ise sosyalist anavatanın güvenliği, Hitler ordusu ve Almanlarla işbirliği, resmi adlandırmalarla özel istihdam gösterilmiştir (13, s.371). Bugün bile Türk Cumhuriyetlerinde kendi dilini bilmeyen ve Rus milliyetiyle kendi kimliğini özdeşleştiren Türklerin bulunmasının sebepleri arasında bu sürgünler gösterilebilir. İç savaştan sonra 1930'lu yıllara kadar milli-dini özellikler taşıyan ve Basmacılar hareketi olarak da bilinen direniş Sovyet rejimi karşısında başarıya ulaşamamış, sonraları ise sömürgeci sınıfın üstünlüğünü yeniden sağlamak isteyen bir haydutluk hareketi olarak anılmaya başlamıştır (5, s.263). Şeyh Şamil'in Çarlık Rusya'sına karşı yürüttüğü mücadele önceleri sırf Türkleri elde etmek için övülürken sonradan onun "Türkve İngiliz emperyalizminin kuklası" olduğu ilan edilmiştir (14, s.181). Lenin'e göre işçi sınıfına hizmet ettiği sürece milliyetçilik faydalı oluğunu söylemek mümkündür.

1919 tarihine kadar Türkistan'ın kendi kaderini tayin eden devlet kademelerinde görevli bir tek Türkistanlıya rastlamak mümkün değildir (8, s.106). Ruslar tüm ülke genelinde daha elit görevlere getirilirken politbüro üyeleri de tamamen Ruslardan seçilmiştir (7, s.333). Türkistan Sovyet III. Kurultayında "yerli nüfusun, ülkenin ihtilalci yüksek hakimiyet organlarında görev almalarının kabule şayan olmadığı" kararıyla yerli idarecilerin devlet yönetiminde görevlendirilmesinin önüne geçilmiştir (4, s.1547). Sovyet idaresine mukavemet gösterilmesi ihtimaline karşı 10 Temmuz 1919 yılında Rus Komünist Partisi Merkez Komitesi Türkistan'daki memurların %50 sinin yerel halk temsilcilerinden seçilmesini emretmiştir. Ancak bahse konu dönemde Türkistan'daki memurların sadece %17'sinin Türkistanlı olduğu hatırlandığında emrin çok da geçerli olmadığı söylenebilir (8, s.107). Üst görevlerde yer alan Rus olmayanların çoğu, Rusların bakış açısını kolayca benimsemiştir, aksi takdirde üst mevkilere gelme ihtimalleri oldukça düşüktür (7, s.322). Sanayi kollarında ve kamu hizmetlerinde görev almak isteyen Sovyet Müslümanları Rusça bilmek zorunda oldukları da hatırlanmalıdır (9, s.70).

Türkistan'da pamuk ve ipek temizleme fabrikalarında temizlenen pamuk ve ipekler Rusya'ya gönderilmekte ve orada tekstilde kullanılmaktadır. Türk topraklarındaki işçiler arasında Türklerin sayısı %30'luk gibi bir orana dahi tekabül etmemektedir (8, s.26). Kırgızistan Cumhuriyetinde 1967 yılında ilmi müesseselerde 4500 kişi çalışmaktaydı. Bunlardan 95'i doktor 1033'ü asistandı. "Sovyetskaya Kırgızya" gazetesi 13.10.1970 tarihli nüshasında Sovyet Cumhuriyeti içerisinde 1970

yılında 1411 akademik personelin 23 doktorun, 482 asistanın Kırgız Türklerinden olduğunu yazmaktadır. 1967 yılındaki 4500 personelin 1970 yılına gelindiğinde sadece 1411'i Kırgız Türklerinden oluşmaktadır (8, s.224). Hem ekonomi hem de bilim çevrelerinden olan bu örnekler sosyal hayatta Türklere ayrılan yer hakkında fikir vermesi açısından önem arz etmektedir.

***Sonuç.*** Bir etni-bir toprak ilkesi gereğince Türkistan coğrafyası sadece adının değişmesiyle kalmamış, etnik kimliklere göre cumhuriyetlere ayrılmıştır. Etnik kimliklerin, dilsel ve dinsel farklılıkların eritildiği bir idare anlayışını öngören Sovyetler Birliği temel kimliği tüm farklılıkların üzerinde bir Sovyet insanı inşasında bulmuştur.

Lenin dönemiyle başlayan yerelleşme politikaları Stalin ile giderek sertleşmiş ve Rusçanın hakim olduğu, eğitimin Birlik'in ideolojisine göre belirlendiği bir sistem meydana gelmiştir. Stalinizmden dönüş olarak değerlendirilen Kruşçev döneminde ise kültürlerin kaynaşması ve yakınlaşması politikaları çerçevesinde yerellik karşıtı uygulamalar benimsenmiştir. Politikaların şiddeti liderlere göre değişiklik gösterse de hemen bütün dönemler benzer bir amaç doğrultusunda hareket etmektedir: Sovyetler Birliği'nin resmi ideolojisi çerçevesinde toplumu dönüştürmek. Sınıf farklılıklarının yok edilmesinden önce milli dilin ve farklılıkların yok edilmesi önem arz etmektedir. Sovyetler Birliği'nin ilk dönemleri itibariyle yönetimindeki halklara kendi kaderlerini tayin hakkı tanınsa da bunun çok da kolay olmadığı başta Stalin olmak üzere dönemin devlet adamları tarafından dile getirilmiştir.

## KAYNAKÇA

1. Aydın, M. (2005). "Geçiş Sürecinde Kimlikler: Orta Asya'da Milliyetçilik, Din ve Bölgesel Güvenlik", Küresel Politikada Orta Asya: Avrasya Üçlemesi, (der. Mustafa Aydın), Ankara: Nobel Yayınları, 245-267.
2. Bilinsky, Y. (1962). "The Soviet Education Laws of 1958-1959 and Nationality Policy", *Soviet Studies* 14 (2), s. 138-157.
3. Carr, E. H. (2002). Bolşevik Devrimi: 1917-1923, C. I, (tr. Orhan Suda), İstanbul: Metis Yayınları.
4. Çelebi, E. (2020). "Sovyet Rus Kültür Politikası ve Türkistan Asar-ı Atikasının Akıbeti". *Akademik Tarih ve Düşünce Dergisi* 7 (3). s. 1542-1560.
5. Erdoğan A. (2018). "Sovyet Rusya Rejiminin Türkistan Halklarına Yönelik Asimile Politikası" *Toros Üniversitesi Sosyal Bilimler Dergisi* 5(9), s. 251-269.
6. Gürkan, Ülker (1964). "SSCB Siyasi Rejiminin Ana Hatları", *Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi*, XXI (1-4): 155-198.
7. Hasanoğlu, İ. (2015). "Homo Sovietıcus: SSCB'de Sovyet Halkı İnşası Çabaları". *Turkish Studies* 10 (1), s. 311-340.
8. Hayit B. (1978). *Türk Dünyasında Rus Emperyalizminin İzleri.* İstanbul: Sabah Gazetesi Kültür Yayınları.
9. Koçak M. (2016). *Sovyetlerin Orta Asya (Türkistan)'da Uyguladığı Kültür Politikaları (1917-1953).* Yüksek Lisans Tezi Ömer Halisdemir Üniversitesi Sosyal Bilimler Enstitüsü.
10. Kurubaş, E. (2006). "SSCB Sonrasında Türk Cumhuriyetlerinde Yeni Uluslaşma Süreçleri Üzerine Bir Değerlendirme", Uluslararası Hukuk ve Politika, II (5): 112-133.
11. Mustafalı C. (2019) "Türk Cumhuriyetlerinde Sovyet Mirası ve Değişimler". *Türkiye Rusya Araştırmaları Dergisi* 1, s. 18-33.
12. Roy, O. (2016). *Yeni Orta Asya ya da Ulusların İmal Edilişi.* İstanbul: Metis Yayınları.
13. Sağır A. (2012). "Sürgün Sosyolojisi Bağlamında Göçün Sosyo-Politiği: Sovyet Rusya Örneği. *Avrasya İncelemeleri Dergisi* 1 (1), s.355-391.
14. Saydam A. (1988). "Milliyetler Problemi ve Sovyet İdeolojisi". *Ondokuz Mayıs Üniversitesi Eğitim Fakültesi Dergisi* 3, s. 177-184.
15. Süleymanlı, E. (2005). "Sovyetlerin Milli Kimliği Yok Etme Faaliyetleri: 'Sovyet Halkı' Denemesi", *Karadeniz Araştırmaları*, (6): 128-134.
16. Togan, Z. V. (1981). *Bugünkü Türkili (Türkistan) ve Yakın Tarihi.* İstanbul: Enderun Yayınları.

**SALİHA GİZEM ÖNDER**
*Академия государственного управления*
*при Президенте Азербайджанской Республики*

## ВОЗМОЖНОСТЬ ПРАВА НАРОДОВ ТУРКЕСТАНА НА САМООПРЕДЕЛЕНИЕ ПО ПРИНЦИПУ “ОДИН ЭТНОС - ОДНА ЗЕМЛЯ" СОВЕТСКОГО СОЮЗА

Советский Союз сохранил свою власть на территориях Тюркского мира, начиная с революции 1917 года. Он имеет большое разнообразие людей, что можно считать результатом его расположения в широком географическом регионе. В Советском Союзе, где проживало много людей разных национальностей и религий, основная идентичность строилась на советском человеке, свободном от национальностей и религиозных принадлежностей. Советский Союз, претендовавший на социальную реальность, отличную от царской России, на территории, в которую входила география Тюркского мира, после Октябрьской революции 1917 года правил более семидесяти лет. Можно сказать, что за это время границы были перерисованы по принципу “один этнос - одна земля” с государственной политикой, направленной на право на “самоопределение”.

*Ключевые слова*: Советский Союз, Туркестан, этнос - территория, граница, право на самоопределение.

**SALİHA GİZEM ÖNDER**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*

## THE POSSİBİLİTY OF THE RİGHT OF SELF-DETERMİNATİON OF THE PEOPLES OF TURKESTAN WİTHİN THE FRAMEWORK OF THE SOVİET UNİON'S "ONE ETHNİCİTY-ONE LAND" PRİNCİPLE

The Soviet Union, which started with the revolution in 1917, continued its power in the lands including the Turkish World. It has a human diversity, which can be considered as a result of being located in a wide geography. In the Union, where many people from different nationalities and religions live, the basic identity is built on a Soviet person who is purged of nationalities and religious affiliations. With the 1917 October Revolution, the Soviet Union, which claimed a different social reality from Tsarist Russia in the lands including the Turkish World geography, ruled for more than seventy years. During this period, it is possible to say that the boundaries were redrawn with public policies aimed at the principle of "one ethnicity and one land" and the right to "self-determination".

*Keywords: Soviet Union, Turkestan, one ethnic-one land, border, right to self-determination.*

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: s.e.ü.f.d. Rəcəb Rəhimli, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 902**

**ƏMRAH DADAŞOV**
*Bakı Dövlət Universitetinin professoru*
**əmrahdadaşov@gimail.com**

# PALEOMETAL DÖVRÜNÜN MALDARLIQ TƏSƏRRÜFATI VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ

*Məlumdur ki, qeyd olunan proseslər və dəyiyişliklər arxeoloji tədqiqatların məlumatlarında daha aşkar görünür və məhz arxeoloji tapılılar çoxplanlı olub mötəbər informasitanı daşıyır. Onlar əsasən təsərrüfat-məişət əşyalarından ibarətdir. Lakin bu əşyalar əsasən erkən tunc dövrü abidələrindən tabılıb və bilavasitə həmin dövrə aiddir. Onların əsas əhəmiyyəti bəzi ev heyvanlarını təsvir etməklə paleometal dövrünün bu mərhələdə mal-qaranın tərkibi haqqında məlumat verməsidir.*

*Açar sözlər:* Qədim Qafqaz, paleometal dövrü, arxeoloji tapıntılar, onların informasiya mənbəyi, heyvanların əhilləşməsi, heyvandarlıq və onlara sitayiş.

***Giriş.*** Paleometal dövrünün istehsal təsərrüfatının Azərbaycan ərazisindəki erkən cəmiyyətlərin mədəni-tarixi səviyyəsinə müvafik yaranan və inkişaf edən ikinci vacib sahəsi maldarlıq olmuşdur. Məlumdur ki, mənimsəyici ovçuluq-balıqçılıq iqtisadiyyatından istehsal təsərrüfatına keçid, onun əsas formalarınnı, o cümlədən maldalığın təşəkkeülü, inkişafı və yayılması bəşər tarixinin vacib mərhələsi olmuşdur. Məhz bu amillər onun sonrakı gedişini müəyyən etmişdir. Bu proseslər ən qədim tarixin yeni mərhələsinin başlanğıcı olub əvvəlki 100 minillikdən köklü dəyişikliklərlə fərqlənirdi. Şübhə yoxdur ki, yığıcıların və ovçuların qədim icmaları öz imkanlarında təbii ehtiyatla məhdudlaşmırdılar. Onlar təbii ehtiyatların istifadəsini təkmilləşdirə bilərdilər. Eyni zamanda, bu ehtiyatları artırmaq, onların keyfiyyətini dəyişmək onlar üçün imkansız idi. Beləliklə, istehsal bazasının məhdudiyyəti, təbii şəraitdən tam asılılıq cəmiyyətin inkişafını kəskin şəkildə limitləşdirirdi və yalnız istehsal təsərrüfatına keçid nəticəsində erkən cəmiyyətlərin inkişafının bütün istiqamətlərində köklü dəyişikliklər yaratdı. Bu tarixi prosesdə maldarlıq da boyük əhəmiyyət kəsb etmişdir. Müəyyən edilmişdir ki, istehsal təsərrüfatının qədim mərkəzlərində maldarlıq əkinçiliklə birgə və sıx əlaqədə inkişaf etmişdir. Bundan əlavə, təbii mühitin özünəməxsusluğu, məşhur sovet-rus tədqiqatçısı N.Y.Merpertin təyininə görə, hətta vahid zona hüdudlarında, bir tərəfdən, inkişaf müstəsna olaraq əkinçiliyin inkişaf etdiyi qrupların təşəkkülünü müəyyən edirdi [1, c.9-10]. İlk növbədə erkən əkinçilik vilayətlərinə yaxın düzənliklər və dağlıq otlaqlar mənimsənildiyi üçün, bu qrupların arasında kəskin təbəqələşmə yox idi. Yalnız sonralar, "neolit inqilabı"nın şərtləndirdiyi əhali artımı daha geniş ərazilərin mənimsənilməsini zəruri etdi. Müvafiq olaraq əkinçilik və maldarlığın yeni formaları yarandı. Düzənlik, dağlıq və yarımsəhra vilayətlərdə meydana çıxan kollektivlərin aparıcı təsərrüfat sahəsi əkinçilik təsərrüfatının aparılmasını istisna edən maldarlıq olur. Bu cür təbəqələşmə artıq qəti şəkil alır və öz əksini həyatın müxtəlif sahələrində tapır. Maldarlığın üstünlük təşkil etdiyi geniş ərazilər ayrılır. Onların hər birində tarixi proses özünəməxsus yollarla gedir. Arxeoloji araşdırmalar müəyyən etmişdir ki, Qafqazın, o cümlədən Azərbaycanın qədim qəbilələri yerli təbii şəraitin əlverişliyi sayəsində belə tarixi hadisələrdən kənarda qala bilməzdi. Bu bölgədə xüsusi maldarlıq qruplarının yaranması, onların inkişafı, əkinçilərlə qarşılıqlı əlaqəsi və tarixi inkişafda rolu kifayət qədər böyük miqyaslı olmuşdur. Bu baxımdan görkəmli tədqiqatçı B.Piotrovskinin, Cənubi Qafqazın eneolit yaşayış məskənlərində nə əkinçiliyin, nə də maldarlığın təsərrüfatın bu sahələrinin erkən forması olmadığı haqqında fikri [2, c.40] diqqətəlayiqdir. Onun sözlərinə görə, maldarlıq eneolit dövründə intensiv inkişaf tapır və Cənubi Qafqazın bütün sonrakı mədəni yüksəlişi üçün böyük rol oynayır [2, c.40]. Maraqlıdır ki, bu görkəmli tədqiqatçı Cənubi Qafqazda mal-qaranın say artımını izləməklə yanaşı, onun keyfiyyət dəyişikliyini, dəqiq desək, xırda buynuzlu mal-qaranın artması istiqamətində dəyişikliyi aşkara çıxara bilmişdir. Bu dəyişiklik, onun fikrincə, yarımköçəri xarakter almağa başlayan maldarlığın öz inkişafı ilə bağlı idi [2, c.40]. Yaşayış məskəni ərazisindəki otlaq artıq tələbatı ödəməyə bilmədiyindən, mal-qaranı məskəndən xeyli uzaq yerlərə aparmaq lazım gəlirdi.

Qeyd etmək lazımdır ki, hazırda Qafqazın qədim maldarlıq təsərrüfatı haqqında nisbətən tam təsəvvür paleometal dövrünün erkən mərhələsi-eneolit dövrü ilə bağlıdır [3]. Müəyyən edilmişdir ki, bu dövrdə Cənubi Qafqazda ev heyvanlarının əsas növləri artıq əhilləşdirilmişdi. Bunun üçün zəruri fauna da var idi. Qafqazın, o cümlədən Azərbaycanın faunasında dağ keçisi, qoyun, keçi, donuz və d. heyvanlar təmsil olunmuşdu ki, onlar da iri və xırda buynuzlu mal-qaranın əhilləşdirilməsinə ilkin forma ola bilərdi [4, c.201-219]. Qobustandakı qayaüstü rəsmlər də bunu sübut edir [5]. Belə bir fakt da maraqlıdır ki, Azərbaycanda belə heyvanların təsvirinə digər qayaüstü rəsmlərdə rast gəlinir [6, c.91]. Bu məsələdə belə bir fakt da diqqətəlayiqdir ki, Cənubi Qafqazın qədim yaşayış məskənlərinin osteoloji materiallarda Qafqaz dağ keçisinin əhilləşdirilmiş nəsildən olan öküz sümükləri də vardır. Bütün bu faktlar göstərir ki, bəzi heyvanlar, o cümlədən iri buynuzlu mal-qara birbaşa Cənubi Qafqazın özündə əhilləşdirilmişdir [3]. Göründüyü kimi, Cənubi Qafqaz, o cümlədən Azərbaycan ərazisində paleometal dövründə maldarlıq təsərrüfatının sonrakı inkişafı üçün bütün şərait olmuşdur. Q.F. Korobkovanın fikrincə, insan heyvanları əhilləşdirmə gedişində bəzi heyvan növlərini yaymaqla yanaşı, həm də maldarlığın müxtəlif formalarını da inkişaf etdirir. Heyvanlardan əkinçilikdə işçi qüvvəsi kimi də istifadə olunur [7, c.4]. "Neolit inqilabı"nın əsasını təşkil etməklə o, ilk əmək bölgüsünü şərtləndirir. Məlumdur ki, qeyd olunan proseslər və dəyiyişliklər arxeoloji tədqiqatların məlumatlarında daha aşkar görünür və məhz arxeoloji tapılılar çoxplanlı olub mötəbər informasitanı daşıyır. Onlar əsasən təsərrüfat-məişət əşyalarından ibarətdir. Lakin bu əşyalar əsasən erkən tunc dövrü abidələrindən tapılıb və bilavasitə həmin dövrə aiddir. Onların əsas əhəmiyyəti bəzi ev heyvanlarını təsvir etməklə paleometal dövrünün bu mərhələdə mal-qaranın tərkibi haqqında məlumat verməsidir. Qeyd etmək lazımdır ki, belə tapıntıların ən erkən nümunəsi İranda Göytəpənin erkən tunc layında aşkar edilmişdir [8]. Bu, bişmiş gildən hazırlanmış kiçik öküz fiqurudur. Naxçıvan yaxınlığındakı Kültəpənin erkən tunc layında öküz, keçi, qoyun, it və d. Ev heyvanlarının fiqurları aşkar edilmişdir [9, c.72-73]. K.X. Kuşnaryova və T.N. Çubiniş-vilinin fikrincə, eneolit məskən-lərində iri buynuzlu mal-qara sümüklərinin aşkar edilməsi onlara daha çox sitayiş edilməsi ilə bağlı olmuşdur [10, c.163]. O.Həbibullayevin fikrincə, Kültəpədə tapılmış heyvan fiqurları xüsusi yer tutur. Onların sayı 24-ə çatır və hamısı erkən tunc layında aşkar edilmişdir(şəkil 2) [11, c.140-141].

Fiqurların hazırlanması üçün istifadə olunan gil qum qarışıqlıdır və erkən tunc dövrünün qablarından istifadə olunan gilə müvafikdir. Rəngi boz və qırmızmtıl-sarıdır. Bəzi fiqurlar kobud yarılıb. Buna baxmayaraq, onların böyük bir hissəsi çox realistcəsinə və proposional hazırlanıb. Sayca öküz fiqurları üstünlük təşkil edir. Onların sayı 21-dir. Fiqurların boynunda ikitərəfli dəlik var.

Qoyun fiqurları da diqqəti cəlb edir. Fiqurun burnu dəliklidir, gözləri dairəvidir. Digər fiqurunkeçi fiqurunun çənəsinin altında saqqalı bildirən çıxıntı var. Digər detallar qeyd olunmayıb.

Qeyd etmək lazımdır ki, Kültəpənin bütün gil fiqurları sitayiş məqsədi daşıyır. Öküz fiqurların üstünlük təşkil etməsi, O.Həbibullayevin fikrincə, Kültəpə sakinlərinin əsas təsərrüfat heyvanı kimi öküzə böyük əhəmiyyət verilməsindən irəli gəlir. Onun fikrincə, Kültəpədən tapılmış digər heyvan fiqurları da sitayişlə bağlıdır [9, c.72-73]. Aşkar olunmuş yeganə it fiquruna gəlincə, O.Həbibullayev onu da etiqat təsəvvürləri ilə əlaqələndirirdi. Bu fiqur, həmçinin qəbirlərdə insan skeleti ilə yanaşı, it sümüklərinin aşkar edilməsi göstərir ki, it obrazı Kültəpə sakinləri üçün evin, əmlakın, əkin sahələrinin, mal-qaranın, insanın özünün mühafizəsi ideyasını əks etdirmişdir [9, c.72-73].

Tunc dövrünün erkən mərhələsinin maldarlıq təsərrüfatı ilə bağlı olan kiçik gil fiqurlar Baba-Dərviş yaşayış məskənində də aşkar edilmişdir. Bu , əsasən öküz, keçi, qoyun, it və digər əhilləşdirilmiş heyvanların fiqurlarıdır. Baba-Dərvişdən tapılmış fiqurlarda sitayişlə əlaqələndirilmiş [12].

Azərbaycan ərazisində qədim maldarlıq təsərrüfatı haqqında bizim təsəvvürlərimizi genişləndirən maraqlı kolleksiya Kiçik Qafqazın cənub-şərq ətəklərində Quruçay və Kondələnçay abidələrində aşkar edilmişdir. Onlar əsasən Qaraköpəktəpə, Günəştəpə, Uzuntəpə, Xantəpə, Meynətəpə və Kültəpə abidə-ləridir. Bu öküz, keçi, it və d. ev heyvanlarının fiqurlarıdır. Fiqur-lar həm zəif, həm də kobud gildən hazırlanıb. Zərif gildən əsasən kiçik fiqurların hazırlanmasımda istifadə olunmuşdur. Bir qədər iri fiqurlar kobud gildəndir və qum qarışıqlıdır. Fiqurların ölçüləri müxtəlifdir. Ən böyüyünün uzunluğu 10 sm-i keçmişdir, ən kiçik fiqurun uzunluğu isə 3 sm-dir.

Qədim maldarlıq təsərrüfatı ilə bağlı olan tapılılar içərisində qırıntılı gil ocaq altlıqları xüsusi yer tutur. Belə tapılılar Cənubi Qafqazın Kür-Araz erkən Tunc mədəniyyəti üçün səciyyəvi olduğun-

dan, Azərbaycan abidələrində də rast gəlinir. Burada ilk belə tapılı Naxçıvan ərazisində Şortəpə adlanan yerdə qeydə alınıb [12]. Bu tip əşyaların nümunələri Baba-Dərviş yaşayış məskənlərində də tapılmışdır [13, c.56-57]. Buynuzşəkilli çıxıntıları olan ocaq altlıqlarına Qaraköpəktəpənin erkən tunc layında da rast gəlinmişdir [16, c.63].

Erkən Tunc dövründə maldarlığın əhəmiyyətini göstərən digər tapıntılar kiçik araba modellərinin gil çarxlarıdır ki, bəzi ev heyvanlarından işçi qüvvəsi kimi istifadəni göstərir. Təəssüf ki, Azərbaycan ərazisindəki erkən tunc dövrü abidələrində yalnız belə modellərin çarxları aşkar edilmişdir. Onların hamısı diskşəkilli, ortasında ikitərəfli dəlikləri olur. Tədqiqatçıların fikrincə, belə dəyişikliklərə nazik oxlar keçirilirdi və çarxlar fırlanırdı. Maraqlıdır ki, hazırda öküz qoşulmuş xeyli sayda araba modelləri bizə məlumdur. Bu isə iri buynuzlu mal-qaradan işçi qüvvəsi kimi istifadə olunduğunu göstərir [17].

Paleometal dövrünün maldarlıq təsərrüfatının əsas mənbələri başlıca olaraq osteoloji materiallardan ibarətdir. Qədim gil plastikaya bu abidələrə demək olar ki, rast gəlinmir. Amma bu komplekslərdən əmək alətləri, çoxlu sayda təsərrüfat-məişət inventarı tapılmışdır ki, onlar təkcə maldarlıqda deyil, bu qədim təsərrüfat formasının məhsullarının emalı ilə bağlıdır. Məlumdur ki, Azərbaycan ərazisində maldarlıq məhsullarının emalı ilə bağlı hazırda məlum olan alətlər və əşyaların ən qədim nümunələri e.ə. VI-IV minilliklərə aid əkinçilik-maldarlıq komplekslərində tapılmışdır. Bu məlum abidələr-Naxçıvan, Gəncə-Qazax düzü, Mil-Qarabağ və Muğan düzü və Cənubi Azərbaycanda Urmiya bölgədəki abidələrdir [18]. Beləliklə, ekspsrimental-trassoloji tədqiqatlar göstərmişdir ki, Qərbi Azərbaycanın ən qədim məskənlərindən aşkar olunan daş alətlərin böyük bir hissəsi heyvandarlıq məhsullarının emalı ilə bağlıdır. Ətin kəsilməsi üçün lazım olan bıçaq göstəriciləri say etibarilə aşağıdakı kimidir: Şomutəpə-11,3%,Qarğalartəpəsi- 14,4%, Töyrətəpə-18,6%, Baba-Dərviş-17% [19, c.94-95]. Daş alətlər içərisində gön-dəri istehsalı üçün daimi xammal materialı verən alətlər böyük əhəmiyyət kəsb edir, bunu ərsinlərin sayının çoxolməsı da sübut edir. Təkcə Şomutəpədə daş alətlərin 14%-ni dəri emalı üçün istifadə ərsinlər təşkil edir. Dairəvi və ya qövsşəkilli ərsinlər Naxçıvan Kültəpəsinin eneolit layından da tapılmışdır. Töyrətəpədən aşkar edilən bıçaq və ərsinlər də maraqlıdır. Bir qayda olaraq, onlar obsidiandan hazırlanırdı. Bıçaqlar iki ülgüclüdür. Belə alətlərin sayı 64-dür. Müəyyən edilmişdir ki, tək ülgüclü bıçaqlar onlardan 3 dəfə azdır. Törətəpənin daş sənayesində ərsinlər də xüsusi yer tutur, baxmayaraq ki, onlar sayca bıçaqlardan azdır. Ərsinlərin sayı 17-dir. Onların içərisində 1 və 2 ülgüclülərə rast gəlinir [19, s.94-95].

Bıçaqlar, həmçinin ərsinlər Muğan zonasının məskənlərində də rast gəlinən tapılılardır. Bəzi abidərələrdə sümük ərsinlər də qeydə alınmışdır: onlar daş ərsinlərdən sayca üstündür. Bu fakt onu göstərir ki, bu məskənlərin sakinləri sümükdən tez-tez istifadə etmişlər və onun emalı üsullarını yaxşı bilmişlər. Məsələn, I Kültəpənin sümük əşyaları içərisində ərsinlərə çoxlu sayda rast gəlinir (şəkil 1). Onlar iri buynuzlu mal-qaranın boru sümüyündən hazırlanmışdır, bəzi hallarda maral buynuzundan istifadə olunmuşdur. O.Həbibullayevin fikrincə, belə alətlər lətin çıxarılması üçün lazım olmuşdur [11, c.140-141].Sümük ərsinlər Azərbaycanın digər erkən əkinçilik məskənləri üçün də səciyyəvi alətlərdi və iri buynuzlu mal-qaranın boru sümüyündən hazırlanmış alətlər Azərbaycanın təkcə eneolit deyil, erkən tunc abidələrindən də məlumdur [13, c.56-57]. Adətən, bu alətlərin işçi ucu bu və ya digər dərəcədə istifadədən kütlənmişdir. Qeyd etmək lazımdır ki, azərbaycanın ən qədim məskənlərindən təsvir olunan ərsinlərlə yanaşı, maral buynuzundan olan alətlər də tapılmışdır [11, c.140-141]. Onlar başlıca olaraq dəridən olan geyim, ayaqqabı və digər məişət əşyalarının hazırlanmaında istifadə olunmuşdur. Sümük dəlikaçanlar və bizlər eneolit və erkən tunc kompleksləri üçün səciyyəvidir. Bir qədər sonrakı abidələrdə metaldan-tuncdan və bürüncdən olan alətlər üstünlük təşkil edir. Sümük əşyalara gəlincə, qeyd etmək lazımdır ki, təkcə Kültəpənin eneolit layında 117 belə alət tapılmışdır. Erkən tunc layında tapılanların sayı isə 36-dır [11, c.140-141]. Onlar həm xırda, hər iri buynuzlu mal-qaranın boru sümüyündən hazırlanmışdır. Belə alətlər Gəncə-Qazax düzünün eneolit abidələrində də tapılmışdır [20, c.149]. İ.H.Nərimanovun müşahidələrinə görə, bu zonada sümük iynəyə də rast gəlinmişdir. Sümük bizlər və iynələr Qafqazın digər abidələrindən də məlumdur [11, c.140-141]. Qeyd etmək lazımdır ki, bu cür sümük alətlər paleometal dövrünün sonrakı mərhələlərində də istifadə edilmişdir, Azərbaycanın erkən tunc və son tunc dövrü məskənlərindən tapılan alətlər bunu

sübut edir. Bura, əsasən, Naxçıvandakı I Kültəpə və II Kültəpə, Füzuli rayonundakı Günəştəpə və Qaraköpəktəpə, Ağdam rayonundakı Üzərliktəpə, Mingəçevir yaşayış məskəni və d. abidələr aiddir.

Analoji sümük əşyalar Ön Asiya abidələrində də tapılmışdır. Metal bizlərə gəlincə, onların ən erkən nümunələri erkən tunc məskənlərinə aiddir. Bu, əsasən Kültəpə, Qaraköpəktəpə, I Mişarçay və Astara yaxınlığındakı kurqanlardır. Adətən onların əksəriyyəti dördkünc formadadır; tökmə üsulu ilə alınmışdır. Uzunluğu 12 sm-dən çox deyil.

Qədim maldarlığın inkişafı və yayılması ilə bağlı olan abidələr və ayrı-ayrı tapılılar daha çox orta, son tunc və erkən dəmir dövrünə aiddir. Onların böyük bir hissəsi Azərbaycan ərazisində qədim maldarlıq təssərrüfatının birbaşa mənbələridir. Bu kütləvi osteoloji material, südçülük təsərrüfatı ilə bağlı material, gön-dəri, toxuculuq, nəqliyyat və d. Sahələr üzrə əşyalarla zəngin yaşayışməskənləri, həmçinin qəbir abidələrdir. Qəbir abidələri sitayiş əşyaları, ev heyvanlarının və təsərrüfat-məişət əşyaları ilə zəngindir; bu sonuncular da əsasən saxsı qablarla təmsil olmuşdur. Südçülük təsərrüfatı ilə bağlı olan qədim təsərrüfat-məişət əşyalarının tədqiqində Azərbaycanın məşhur arxeoloqu və etnoqrafı Teymur Bünyadovun rolu böyükdür. Onun əsərlərində etnoqrafik müşahidələr nəticəsində bu tapılıların təsnifatı və funksiyaları müəyyən edilmişdir.Azərbaycan ərazisində tapılan gil nehrələr onun tərəfindən iki qrupa ayrılmışdır. Birinci qrupa ovalşəkilli korpusu olan iri dəhnələr daxil edilmişdir. T.Bünyatovun fikrincə, uzun müddət yağ hazırlanması sahəsində texniki təkmilləşmə baş vermiş, nəticədə dəhnələrin ikinci qrupu yaranmışdır. Bu qrup dəhnələr aşağıdakı əlamətləri ilə birincilərdən seçilir: onların qövsşəkilli üfüqü dəstəyi var, divarları qalındır, yan dəliyinin diametri daha böyükdür. əgər birinci qrup dəhnələrə nadir hallarda rast gəlinirsə, ikinci qrup dəhnələr sayca üstünlük təşkil edir. Tədqiqatçının fikrincə, bu, maldarlığın inkişafı nəticəsində süd məhsulları istehsalının artımına dəlalət edir [21].

Maraqlı fakt ondadır ki, azərbaycan abidələrində Kür-Araz mədəniyyətinə aid arxaik dəhnələr də tapılmışdır.Onların hərtərəfli tədqiqi İ.H.Nərimanov tərəfindən aparılmışdır. Məsələn, onun tərəfindən "dəhnə"sözünün etimologiyası müəyyən edilmiş və belə bir fikri irəli sürmüşdür ki, e.ə.III minillikdə Cənubi Qafqzda gil dəhnələr yaranır və "dəhnə"sözünün yaranması da elə bu dövrə aiddir (Şəkil 3). Onların ikisi Naxçıvan yaxınlığındakı I Kültəpənin müvafiq layında tapılmışdır [9]. Bu dəhnə fraqmental şəkildə saxlanılmışdır.

Qədim dəhnələrin tapıldığı ikinci abidə Qazax yaxınlığındakı Baba-Dərvişdir. Baba-Dərvişin I və II təpəliklərində təxminən 20-dək gil dəhnə tapılmışdır. Onların dəhnə olduğunu sübut edən inkaredilməz fakt odur ki, yağ hazırlanması ilə bağlı olan dairəvi dəliklərə malikdirlər. Belə ki, burada tapılan dəhnələrin bir hissəsi silindirik boğazı olan amforşəkilli qablar növünə aiddir. Onlardan biri daha böyük ölçüdədir. Onun hündür boğazının 22-sm-lik parçası qalmışdır. Dəhnələrin birində ornament izlərinə rast gəlinir, halbuki Baba-Dərvişin Kür-Araz layı üçün ornament səciyyəvidir. İ.N.Nərimanova görə, bu onunla izah oluna bilər ki, Baba-Dərvişin birinci təpəliyinin Kür-Araz layı xronoloji baxımdan vahid kompleksə daxil deyil. Onun fikrincə həmin kompleksin ikinci təpəliyinin stratiqrafik cəhətləri də bunu sübut edir [13, c.56-57].

Dəhnənin aşkar olduğu digər erkən tunc mədəniyyəti abidəsi-Qusar rayonu ərazisindəki Qəflətəpələri yaşayış məskənidir. Dəhnə fraqmentlərinə Qobustandakı Dairə yaşayış məskəninin Kür-araz içərisində rast gəlinir [22, c.46]. Qədim dəhnələr Quruçay-Köndələnçay erkən tunc komplekslərində, o cümlədən Qaraköpəktəpə, Uzuntəpə, Günəştəpə yaşayış məskənlərində də tapılmışdır. Onlar geniş silindirik boğazlı amorfşəkilli iri qablardır, gildən hazırlanıb, tərkibində qum qarışığı var.

Qeyd etmək lazımdır ki, dəhnələrə Şərqi Anadolu və Cənubi Azərbaycan abidələrindəki dəhnələr yerli məişət sayılır, bununla əlaqədar, İ.H.Nərimanovun belə bir fikri ilə razılaşmaq olar ki, Azərbaycan dəhnələrin meydana çıxdığı, həmçinin süd məhsullarının emal olduğu başlıca mərkəz idi [23, c.62].

Aydın məsələdir ki, süd məhsullarının hazırlanması təkcə yağ hasilatı ilə məhdudlaşmırdı. Böyük sayda gil qablar pendir, turş süd, kəsmik, ayran və d.süd məhsullarının həm hasilatı, həm hasilatı, həm saxlanması üçün istifadə olunurdu. Təsadüfü deyil ki, paleometalın böyük bir mərhələsi-eneolitdən dəmir dövrünə qədər bütün təsərüfat-məişət abidələri Azərbaycan ərazisində qədim maldarlığın xarakteristikası üçün əsas mənbədir. Belə bir qiymətli arxeoloji mənbə ilə yanaşı, metaldan və saxsıdan olan digər əşya nümunələri də əhəmiyyət kəsb edir. Onların içərisində iaxçıvanın İbadul-

la kəndi yaxınlığında tapılmış təbii ölçüdə öküz başını qeyd etmək olar. Öküzü relyefli təsvirinə Azərbaycanın Cəlilabad rayonu yaxınlığında tapılmış tunc sancaqda da rast gəlinir [21]. Görünür, iri buynuzlu mal-qara ilə bağlı inanclar erkən qəbilələri zəruri qida ilə, gön və dəri ilə təmin edən, həmçinin işçi qüvvəsi və nəqliyyat vasitəsi kimi istifadə olunan maldarlığın böyük rolu ilə şərtlənirdi.

Tunc dövrünün təsərrüfat və məişətində xırda buynuzlu mal-qara da az əhəmiyyət kəsb etmirdi. Bununla bağlı tapılıların bir hissəi osteoloji materiallarla, bir hissəsi isə məişət, təsərrüfat və sitayişlə bağlı əşyalarla təmsil olunçuşdur. Onların hər biri yerli qəbilələrin xırda buynuzlu mal-qaradan geniş istifadəsinə dəlalət edir. Paleometal dövrü abidələrində xırda buynuzlu mal-qara sümüklərinin tapılması adi haldır. Maddi mədəniyyət nümunələrinə gəlincə, bu, əsasən çoxsaylı qoyun və keçi fiqurları, həmin heyvanların relyef təsviri olan saxsı və daş qablarıdır. E.ə.I minilliyə aid Mingəçevir qəbir abidəsindən tapılmış belə əşyalardan biri çəhrayı rəngli tuffitdən hazırlanmış kiçik qablar-bu, o qədər də dərin olmayan kasadır, qulpu ikiqoç başı formasınmadır (şəkil 3).

Böyük sayda arxeoloji tapılılar paleometal dövründə Azərbaycanın maldarlıq təsərrüfatında atın da əhəmiyyətli rolundan xəbər verir. Buna əsasən at qoşqusu, at təsviri qablar və d. əşyalar aiddir. At qoşqusu Azərbaycanın əksər rayonlarında, başlıca olaraq öyrənilən dövrün qəbir abidələrində tapılmışdırBu mənada Naxçıvanın Şahtaxtı kəndi yaxınlığındakı kurqan maraqlıdır. Azərbaycanın məşhur arxeoloqu Ə.K. Ələkbərov tərəfindən 1936-cı ildə tədqiq olunmuş kurqanda bütöv at skeleti və 30 gil qab tapılmışdır [12]. T.Bünyadovun fikrincə, bu qəbir at skeletinin aşkar olunduğu ən erkən tapılıdır və atın təsərrüfatda oynadığı rola dəlalət edir [21].

Qeyd edim ki, bu tədqiqatçıların əsərlərində paleometal dövrü abidələrində at skeletinin tapılması ilə bağlı çoxsaylı faktlar vardır. Bura əsasən Xaçenyanın sol sahilindəki 2 saylı kurqan, Gəncəçaydakı kurqandır.

Azərbaycan ərazisindəki arxeoloji mənbələr içərisində dəvə kimi iri ev heyvanının olması haqqında məlumatlar da maraqlıdır. Bu məsələ ilə bağlı ilk nümunələrdən biri Gəncədə tapılmış dəvə təsvirli qara gil qabdır. Həmin yerdə dəvə sümükləri də aşkar olunub.

Azərbaycan ərazisində ən qədim maldarlıq kompleksləri paleometal dövrü maldarlıq iqtisadiyyatının təşəkkül etmiş mərhələsi haqqında təsəvvür yaradır. Belə komplekslərdən biri Naxçıvan yaxınlığındakı çoxsaylı I Kültəpə yaşayış məskənidir [9, c.72-73]. Bu yaşayış məskənlərində maldarlığın meydana çıxması və inkişafı onun ən erkən laylarında tapılmış zəngin osteoloji materiallarla müəyyən edilir. I kültəpənin eneolit layının ail təbəqəsindəki osteoloji materialın da böyük bir hissəsini xırda buynuzlu mal-qara təşkil edir. Sümüklərin bir hissəsinin əhilləşdirilmiş ata məxsus olması maraq doğurur. İ.H. Nərimanovun fikrincə, bu, mai-qara sürüsünün tərkibində atın faizinin böyük olması Qafqaz ərazisində qədim zamanlarda at olmuş, onun yerli əhilləşdirilməsinə şərait yaranmış və artıq paleometalın erkən mərhələlərində o, yerli cəmiyyətlərin təsərrüfatında və məişətində geniş istifadə olunmuşdur. Bununla yanaşı, maldarlığın inkişafında yerli faunanın rolu da əhəmiyyətlidir. Kür vadisinin eneolit məskənlərində qoyunun 3 növünün qeydə alınması qoyunçuluğun erkən mərhələsindən yox, nisbətən inkişaf etmiş mərhələsindən xəbər verir.

***Nəticə***. Hesab edilir ki, bütün bu faktlar Azərbaycan ərazisində keçi və qoyunun yerli əhalilər tərəfindən əhilləşdirilməsi fikri üçün müəyyən mənada əsas ola bilər. Ümumilikdə Azərbaycan eneolit komplekslərində maldarlıq kifayət qədər inkişaf etmiş formada təmsil olunmuşdur və bütün mövcud məlumatlar onun erkən mərhələlərindən deyil, inkişaf etmiş mərhələlərindən xəbər verir. İqtisadiyyatın bu forması ərzaq məhsulunun alınması üçün, həmçinin gön-dəri emalı və toxuculuq üçün əsas mənbə olmuşdur.

Erkən Tunc dövrünün istehsal təsərrüfatının əkinçilik və maldarlıq kimi aparıcı sahələrinin ixtisaslaşması ümumi sosial-iqtisadi inkişafla şərtlənmiş qanunauyğun proses idi. Lakin tədqiq etdiyimiz dövrdə o, hələ mütənasibliyi poza bilməmişdi. Bu proses yalnız inkişaf etmiş tunc dövründə dərinləşir və xüsusiylə maldarlığın ixtisaslaşmasını sürətləndirir. Paleometal dövrünün yeni mərhələsində maldarlığın yüksəlməsi otlaq maldarlığına gətirib çıxarır.




*Şəkil 1.*




*Şəkil 2.*




Şəkil 3.

ƏDƏBİYYAT

1. Н.Я.Мерперт. Древнейшие скотоводы Волжско-Уральского междуречья. М., Наука, 1974, 173 с.
2. Б.Б. Пиотровский. Археология Закавказья с древнейших времен до 1 тысячелетия до н.э. Курс лекций. Ленинград, ЛГУ, 1949, 134 с.
3. Энеолит Кавказа, с.94-95.
4. Млекопитающие СССР. М., Мысль, 1970, 440 с.

5. И.М. Джафарзаде. Гобустан. Баку, Элм, 1973, 198 с.
6. Г.С. Исмаилов. К историко-культурной интерпретации древних наскальных изображений на территории Азербайджана / Проблемы изучения наскальных изображений в СССР. М., Институт Археологии АН СССР, 1990, с.91-96.
7. Г.Ф.Коробкова. Хозяйственные комплексы ранних земледельческого-скотоводческих обществ Юга СССР. М., Наука, 1987, 323 с.
8. T.Burton-Brown. Excavation in Azerbaijan. Publisher, Murray, 1948, c.13, t.V., 279 p.
9. О.А.Абибуллаев. Археологические раскопки в Кюльтепе. Баку, изд-во АН Аз.ССР, 1959, 128 с.
10. К.Х.Кушнарева, Т.И.Чубинишвили. Древние культуры Южного Кавказа. М.-Л., Наука, 1967, 192 с.
11. О.А.Абибуллаев.Энеолит и бронза на территории Нахчиванской АССР. Баку, Элм, 1982, 314 с.
12. А.К.Алекперов. Крашенная керамика Нахичеванского края и Ванское царство // СА, 1937, №4, с.249-263.
13. Г.С.Исмаилов. Археологическое исследование древнего поселения Баба-Дервиш. Баку, Элм, 1988, 102 с.
14. Б.А.Куфтин. Урартский «колумбарий» у подошвы Арарата и Куро-Аракский энеолит // Вестник Государственного Музея Грузии, Т.XIII, Тб., 1944, с.1-171.
15. А.К.Алекперов. Крашенная керамика Нахичевана и Ванское царство // СА, 1937, т.IV, с.254.
16. С.Исмаилов. Гаракепектепе. Б., 1989, с.63.
17. L.Wolly. Ur excavations. Philadelphia, 1959. v.IV, t.XXIV.
18. Т.А.Бунятов. Древние средства передвижения в Азербайджане. Баку, 1989, с.24; Г.С.Исмаилов. Раннебронзовая культура Азербайджана. Б., 1991, с.20-23.
19. Р.Б.Аразова. Каменные орудия труда раннеземледельческих скотоводческих племен западного Азербайджана. Баку, Элм, 1986, 163 с.
20. И.Г. Нариманов. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, Элм, 1987, 260 с.
21. Т.А.Бунятов. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы. Баку, изд-во АН Аз.ССР, 1957, 136 с.
22. Ф.М.Мурадова. Гобустан. Баку, Элм, 1986, 158 с.
23. И.Г. Нариманов. Архические керамические маслобойки и этимология азербайджанского слова «нехре» // Кавказ и Восточная Европа в древности. Москва, 1973, с.59-64.

**АМРАХ ДАДАШОВ**
*Профессор Бакинского Государственного Университета*

## ЖИВОТНОВОДСТВО ЭПОХИ ПАЛЕОМЕТАЛА И ЕГО ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ

Археологические исследования позволяют многое узнать о животноводстве палеометаллического периода на Кавказе, а также в различных регионах Азербайджана. Кости и изображения животных, найденные в Гобустане, Культепе, Гамигая, Кельбаджаре, Тойретепе, дают представление о появлении первых пиктографических знаков, хранящих в своей идеологии тайну культовых изображений наряду с социально-экономическим положением племен в этот период. Живущие в Азербайджане племена переняли с этого периода животноводство, а так как животные были важной частью их жизни, то первые картины и скульптуры с сюжетами были созданы именно в этот период и получили развитие и дошли до нашего времени.

*Ключевые слова*: Древний Кавказ, палеометаллический период, археологические находки, их источник информации, одомашнивание животных, животноводство и поклонение.

**AMRAKH DADASHOV**
*Professor of Baku State University*

## ANİMAL HUSBANDRY OF THE PALEOMETAL ERA AND İTS MAİN DİRECTİONS

Archaeological research accept us to learn a great deal about livestock farming of the Paleometal period in the Caucasus and also in different regions of Azerbaijan. Animal bones and images found in Gobustan, Kultepe, Gamigaya, Kalbajar, Toyretepe give an idea of the emergence of the first pictographic signs that keep the secret of the cult images in their ideology along with the socio-economic status of the tribes in this period. The tribes living in Azerbaijan adopted animal husbandry from this period, and since animals were an important part of their lives, the first paintings and sculptures with subjects were created in this period and have developed and reached our time.

*Keywords*: Ancient Caucasus, paleometallic period, archeological findings, their source of information, domestication of animals, animal husbandry and their worship.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 dekabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 902**

**İRADƏ AVŞAROVA**
*t.ü.f.d., Bakı Dövlət Universitetinin dosenti*
**iradaavshar@icloud.com**

# XOCALI-GƏDƏBƏY TAYFALARININ MADDİ-MƏDƏNİYYƏTİNDƏ QRİFON TƏSVİRLƏRİ

*Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı Son Tunc, İlk Dəmir dövrlərində insanların mifoloji düşüncələrində geniş yer almış heyvanlara, o cümlədən onların izdivacından yaranan əcaib məxluqlara çox rast gəlinir. Həmin obrazlarda bəzən kainat, təbiət, işıqlı dünya, axirət dünyası, insan və heyvanlara xas olan əlamətlər bir araya gəlir.*

*Bu tip sinkretik obrazlar maddi mədəniyyətdə bədiilikləri ilə seçilir. Belə obrazlar içərisində müxtəlif heyvanların bədən hissələrinin birləşməsindən yaranan fantastik məxluqlar xüsusilə diqqət çəkir. Onların arasında yer alan qrifonlar isə qədim də Şərqdə eyni məzmun daşıyıcıları sayılırlar.*

*Azərbaycan maddi mədəniyyət nümunələri üzərində təsadüf etdiyimiz və əcaib məxluq kimi qəbul etdiyimiz qrifonlar, qədim tayfaların dini dünyagörüşlərinin, mənəvi mədəniyyətlərinin və fəlsəfi düşüncələrinin məhsulu olub, onların həyatında önəmli rol oynamışdır.*

*Açar sözlər*: qəbir, mif, tayfa, dini inanc, fantastik obrazlar.

***Giriş***. E.ə. II minilliyin sonu I minilliyin əvvəllərində Azərbaycan ərazisində yaşamış qədim tayfaların inanclarında mifoloji xüsusiyyətləri ilə seçilən yeni obrazlar yaranır. Həmin obrazlar maddi mədəniyyətdə bədiilikləri ilə seçilir. Bu tip sinkretik obrazlar içərisində müxtəlif heyvanların bədən hissələrinin birləşməsindən yaranan fantastik və əcaib məxluqlar xüsusilə diqqət çəkir. Onların arasında yer alan qrifonlar maddi mədəniyyətdə şir və ya pələng bədənli, qartal, xoruz başlı bütöv fiqur şəklindədirlər. Onlar sinkretik obrazlar olmaqla yanaşı, qədim Şərqdə eyni məzmunun daşıyıcıları olmuşlar.

Azərbaycan maddi mədəniyyət nümunələri üzərində təsadüf etdiyimiz və əcaib məxluq kimi qəbul etdiyimiz qrifonlar və qriflər əslində qədim tayfaların dini dünyagörüşlərinin, mənəvi mədəniyyətlərinin və fəlsəfi düşüncələrinin məhsulu olub, onların həyatında önəmli yer tutmuşlar. Qrifonların ilk nümunələri e.ə III minilliyə aid Ur şəhərinin arxeoloji qazıntılarından məlumdur. Qrifon Urda İmduqurd adı ilə məşhur olan tanrılardan biri olmuşdur. O, qədim təsvirlərdə qartal başlı, şir bədənli təsvir olunurdu. Qrifonlar, əsasən, Qədim Şərqdə, o cümlədən Mesopatamiya, Manna, İran, Misir, Türkiyə, Altay və başqa dövlətlərin ərazilərində yaşamış tayfaların, eləcə də skif tayfalarının (maddi mədəniyyət nümunələrində yer alan) dini dünyagörüşlərində izlənilir.

Qrifonlar Azərbaycanın Son Tunc, Dəmir və Antik dövr incəsənəti üçün də xarakterikdirlər. Qrifon «Avesta»da mənfi surətlərdən olan yeraltı dünyanın padşahı Əhrimənin obrazında şir bədənli, qartal başlı təsvir olunmuşdur.

Müxtəlif hərəkət dinamikasında olan qrifon təsvirləri Azərbaycanın Son Tunc və İlk Dəmir dövrü abidələrində geniş yayılmışdır. Qrifonlar Gədəbəy rayonundan əldə olunmuş tunc kəmərlər üzərində öz həllərini daha geniş şəkildə tapmışdır. Qrifonların stilizə olunmuş fiqurları Naxçıvan ərazisində qeydə alınmışdır.

Culfa rayonu ərazisində yerləşən Zağalı kəndində təsadüfən tapılan iki ədəd qrifon fiqurundan (tuncdan tökülmüş) biri Dövlət Ermitajında, digəri isə Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyində saxlanılır. Ədəbiyyat muzeyində saxlanılan qrifonun yuxarı hissəsi qartal başını, aşağı hissəsi isə həm qartal, həm də şir ayağını xatırladır [1, s.75-79], [şəkil 1]. Ümumiyyətlə, Azərbaycan qrifonları Mesopotamiya qrifonları ilə yaxın analogiya təşkil edir. Onların başları qartal başını, bədən və ayaqları isə şiri xatırladır. Qrifonlar antropomorf cizgilərə də malikdirlər. Zağalı qrifonunda da antropomorf cizgilər yer alır. Onun insan gözlərini xatırladan qartal baxışları çox ustalıqla verilmişdir. Qrifonun qanadları yuxarıya doğru şaquli vəziyyətdə istiqamətlənmişdir. Güman etmək olar ki, qanadların yuxarı hissəsində bəzək elementi olmuşdur. Fiqura diqqətlə nəzər saldıqda bir neçə heyvanın bədən hissələrini özündə əks etdirdiyini görmək mümkündür. Bu fiqurlar bəzi tədqiqatçıların

fikrinə görə, taxtın ayaqlarıdır. Deməli, qədim Azərbaycan tayfaları arasında da mifik obraz olan qrifonlar güc və hakimiyyəti simvollaşdırmışdır.

Zağalı qrifonları mütəxəssislər tərəfindən Dəmir dövrünə aid edilir [1, s.75-76]. Belə ki, Zağalı qrifonlarının analoquna Şumer-Akkadlara məxsus Suzdan Kudurru adlanan yerdən tapılmış qəbirüstü daş kitabə üzərində rast gəlinmişdir. Kitabə e.ə. XII əsrə aid edilir. Beş hissədən ibarət olan həmin kitabə üzərində şumer tanrılarının simvolları yer almışdır. Kitabənin ikinci hissəsində, ortada müharibə və yeraltı dünya tanrıları olan iki qrifon, onların arasında qartal, onlardan sağ və sol tərəflərdə isə qanadlı şir təsvirləri ifadəsini tapmışdır [2, s.651], [şəkil 2]. Qrifonlardan sağdakı, görünüşünə görə eynilə Zağalı qrifonlarını xatırladır. Ehtimal etmək olar ki, Zağalı qrifonlarının təsadüfi tapıntı olması, onların dövrünün dəqiq verilməsində yanlışlığa gətirib çıxarmışdır. Belə ki, qrifonları bəzi tədqiqatçılar Dəmir dövrünə, bəziləri isə Orta əsrlər dövrünə aid edirlər. Şumer-Akkad analoji qrifonları Zağalı qrifonlarını daha qədim dövrə – Son Tunc dövrünə aid etməyə əsas verir. Əldə olunan materiallara əsaslanaraq deyə bilərik ki, qrifon təsvirləri Azərbaycan incəsənətinə və mifologiyasına Şumer-Akkad incəsənət və mifologiyasının təsiri nəticəsində daxil olmuş və sonrakı tarixi dövrlərdə «Avesta» da Əhrimən obrazı kimi yer almışdır.

Azərbaycan maddi mədəniyyətində bu obraza məxsus təsvirlər də geniş yayılmışdır. Bu tip təsvirlərə Son Tunc dövrü kəmərləri üzərində çox rast gəlinir. Müxtəlif hərəkət dinamikasında verilmiş qrifon və digər fantastik heyvan obrazları ilə zəngin olan tunc kəmərlər Gədəbəyin daş qutu qəbirlərindən, Xocalı kurqanından və Abşerondan məlumdur [3, s.68; 4, s.39; 5, s.54-65; 6, s.10;7, s.107-113]. Gədəbəy kəmərləri üzərində mürəkkəb süjetli, zəngin kompozisiya həlli əksini tapır. Kəmərlərin süjet xətti bir-birinə yaxın olsa da, təkrara yol verilmir. Hər bir kəmər yeni bir mifoloji səhifə açır. Kəmərlərdəki süjetlərdə mənfi və müsbət obrazlara rast gəlinir. Belə ki, qrifonlar təsvir edilmiş kompozisiyaların hər birində qəddarlıq, xeyirxahlıq, zülmət və işığın mübarizəsi öz ifadəsini tapır və hər bir kompozisiya bütövlükdə özündə kosmik aləmlə bağlı təsəvvürləri – dünyagörüşləri simvollaşdırır [şəkil 3, 4].

Qədim misirlilərin dini dünyagörüşünə görə, insan öləndən sonra onun ruhu quş kimi uçub Səma və Günəş tanrılarına qovuşur. Günəş Allahı isə onların mifologiyasında qrif obrazında təqdim.

Luristan vilayətindən tapılan tunc qrifon təsviri qanadlıdır. Bu təsvir e.ə. II minilliyin ortaları I minilliyin əvvəllərinə aid edilir [8, s.70-71]. Qrifonlara dəmir dövründə Skiflərin və Qara dəniz sahillərində yaşamış tayfaların maddi mədəniyyət nümunələrində də rast gəlinir.

Qrifonların böyük həcmli heykəlləri Şərq ölkələrində, o cümlədən Babilistan, İran və, Şərqi Anadolu, Cənubi Azərbaycan abidələrində qeydə alınmışdır. Cənubi Azərbaycanın Ziviyə mahalından tapılan qrifon təsviri İlk Dəmir dövrünə (e.ə. IX-VIII əsrlər) aid edilir.

Özbəkistanın Xarəzm şəhərinin Əhəməni dövrünə aid (e.ə. IV-III əsrlər) edilən Qalalı-qır abidəsindən qrifonun gipsdən hazırlanmış qəlibinin bir hissəsi tapılmışdır [9, s.198]. Qədim Yunan mifologiyasında da qrifonların təsvirləri geniş yayılmışdır. Hələ e.ə.V əsrdə yaşamış Yunan tarixçisi Herodot qrifonlar haqqında geniş məlumat vermişdir. Qədim Yunan əfsanələrində qartal başlı, şir bədənli qrifonlar güc, hakimiyyət simvolu olmaqla yanaşı, «Ulu Zevsin İti», xəzinə qoruyucusu kimi də ifadə olunmuşdur [2, s.336].

Ənənənin davamı sonrakı tarixi dövrlərin artefaktlarında da izlənilir. Azərbaycanın antik dövr incəsənət nümunələri üzərində təsadüf olunan qrifonlar mifologiyada, əsasən, mənfi obrazlarda yer alır və özlərində güc və hakimiyyəti simvollaşdırırlar. Qrifon təsviri Azərbaycanın Antik dövr abidəsi olan Torpaqqaladan əldə olunmuş gümüş qabın üzərində də qeydə alınmışdır.

Mingəçevirdə tapılan antik dövrə aid (e.ə. IV əsr) möhürün üzərində qrifon təsviri verilmişdir [10, s.93]. Göründüyü kimi, Qədim Şərq ölkələri ərazisində yaşamış tayfaların mifoloji dünyagörüşlərində qrif və qrifon obrazları mühüm əhəmiyyət kəsb etmişdir.

Şübhəsiz ki, qədim dövrlərdə yaşamış insanlar qrifon obrazında kosmik aləm və təbiətlə bağlı təsəvvürləri bir araya gətirməklə yanaşı (səma, günəş, torpaq, su), həm də bu iki güclü obrazın − şir və qartalın daxilində ölümsüzlük, əbədilik daşıyan ilahi bir qüvvənin olduğunu düşünmüş və onu axirət dünyası və hakimiyyət rəmzi ilə bağlamışlar.

Beləliklə, Azərbaycanın arxeoloji abidələrindən əldə olunmuş qrifonların ilk nümunələrinə e.ə. II minilliyin ortalarında rast gəlinir. Aparılan araşdırmalar ilk zamanlar bu təsvirlərin bir qaynaqdan

bəhrələndiyini, sonrakı dövrlərdə isə müstəqil şəkildə inkişaf etdiyini göstərir. Qrifon təsvirli maddi mədəniyyət nümunələri öz möhtəşəmliyi ilə qədim Şərqin, o cümlədən, Azərbaycanın mədəni irsinin tərkib hissəsi sayılmalıdır. Stilizə olunmuş tərzdə işlənmiş qrifon təsvirləri Azərbaycanın Orta əsr xalçaları üzərində də çox geniş yayılmışdır. Xalçalar üzərində həmin təsvirlər (xalq arasında) «Vağ-vağı» adı ilə tanınır [10, s.69-70].



**Şəkil 1.** Naxçıvan – Zağalı kəndindən əldə olunmuş tunc qrifon fiquru.



**Şəkil 2.** Kudurru daş kitabə (Suz) II Sırada Müharibə və yeraltı dünya tanrıları – qrilonlar.



**Şəkil 3.** Gədəbəy üzəri qrifon və fantastik heyvan təsvirli tunc kəmərlər.



**Şəkil 4.** Gədəbəy üzəri qrifon və fantastik heyvan təsvirli tunc kəmərlər.

Bunu da qeyd etmək yerinə düşər ki, qədim dövrlərdə ərazidə yaşamış tayfalar seçdikləri mifoloji obrazları insandan fərqləndirməyə çalışmış, onlarda insan və müxtəlif heyvanların əlamətlərini birləşdirərək antropomorf məxluqların yaranmasına nail olmuşlar.

Azərbaycandan əldə olunan bəzi arxeoloji maddi mədəniyyət nümunələrindən göründüyü kimi, bəzi canlılara hörmət, məhəbbət hərtərəfli olmuş, onlardan bəziləri dövrün insanlarının dünyagörüşlərində xeyir, bəziləri isə şər simvoluna çevrilmişdir.

Mifoloji varlıqların dini təsəvvürlərdə bu cür qəbul olunması, şübhəsiz ki, tayfaların inkişafına təsirsiz ötüşməmiş və məhz bu səbəbdən də təsviri sənət sahələrinin əsas mövzularına çevrilmişdir. Sintetik obrazlarda yer alan canlılar aləmi təsviri sənətdə müxtəlif səpkidə, tanınmış obrazlarla təmsil olunmuşdur. Bizcə, Azərbaycanda qədim dövrlərdə heyvanlarla bağlı yaranmış inanc və etiqadlar dövrün fəlsəfi təsəvvürlər sisteminin əsas tərkib hissəsidir

***Nəticə***. Beləliklə, müqəddəs sayılan heyvanların, quşların tədqiq olunan dövrlərdə animist xarakter daşıması, onların təsviri sənətdə ilahiləşdirilməsi, fantastik obrazlarda verilməsi qədim Azər-

baycandakı animist və totemist baxışların birləşməsi prosesinin nəticəsi kimi qəbul olunmalıdır.

Göründüyü kimi, Azərbaycanın Son Tunc, İlk Dəmir dövrü incəsənət nümunələri üzərində tanrılar, dualizmi özündə yaşadan xeyir və şər qüvvələri, mifoloji güc, qüvvət, hakimiyyət simvolları fantastik heyvan obrazında təqdim olunurdu ki, həmin təsvirlər də özlərində kainatı – kosmik aləmi, axirəti və işıqlı dünyanı simvollaşdırırdı.

ƏDƏBİYYAT

1. Əliyev, V.H. Zağalı kəndindən tapılmış tunc qrifon haqqında // V.H.Əliyev, T.D. Ağazadə. – Bakı: Azərbaycan SSR EA Xəbərləri. Humanitar Elmlər seriyası, Elm, –1986, №3, – с. 75-80.
2. Мифы народов мира: Энциклопедия: [в 2 томах] / Под ред. С.А. Токарева. – Москва: Издательство Советская Энциклопедия, – т. I. – 1991. – 671 с.
3. Вирхов, Р.О. О культурно-историческом значении Кавказа // перевод с немецкого О. Кун, НАИИ АН Азербайджанской ССР, AMEA TİEA, дело № 3869, – 116 с.
4. Урушадзе, Н.Е. Древнегрузинское пластическое искусство / Н.Е. Урушадзе. – Тбилиси: Издательство Хеловнеба, – 1988. – 179 с.
5. Урушадзе, Н.Е. К семантике прикладного искусства древнего Кавказа и Закавказья // – Москва: СА, – Наука, – 1973. № 1, – с. 54-69.
6. Aslanov, Q.M. 1963-cü ildə Abşeronda apardığı arxeoloji qazıntı işlərinin hesabatı (Bakı: 1963-cü il) // Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi, iş № 5782, vərəq – 21.
7. Ивановский, А.А. По Закавказью (Материалы по Археологии Кавказа) / А.А. Ивановский. – Москва: вып. VI. Т-во тип. А. И. Мамонтова, – 1911. – 196 с.
8. Кошкарлы, К.О. Ваза из Торпагкалы // – Баку: ДАН Азербайджанской ССР, – Издательство Академии Наук Азербайджанской ССР, – 1978. № 9, – с.70-74.
9. Толстов, П. Итоги работ Хорезмской археолого-этнографической экспедиции АН СССР в 1953 год // – Москва: Вестник древней истории АН СССР Институт Истории. Издательство Академия Наук СССР, – 1970. №3, – с.192-206.
10. Avşarova, İ.N. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər) / İ.N. Avşarova. – Bakı: Nurlan, – 2007. – 190 s.

**ИРАДА АВШАРОВА**
*доктор философии по историческим наукам,*
*доцент Бакинского Государственного Университета*

## ОПИСАНИЯ ГРИФОНА В МАТЕРИАЛЬНОЙ КУЛЬТУРЕ ХОДЖАЛИ-ГАДАБЕЙСКИХ ПЛЕМЕН

В ходе исследований, проводимых на территории Азербайджана, в эпоху поздней бронзы и раннего железного века часто встречаются животные, занявшие большое место в мифологических представлениях людей, а также странные существа, созданные из их последователей. В этих образах смыкаются мироздание, природа, мир света, загробный мир, признаки, свойственные человеку и животным.

Этот тип синкретических образов отличается своим художественным характером в материальной культуре. Среди таких изображений особого внимания заслуживают фантастические существа, созданные комбинацией частей тела различных животных. Среди них грифоны являются носителями того же содержания, как и в древнем Востоке.

Грифоны, которых мы встречаем в образцах материальной культуры Азербайджана и воспринимаем как странных существ, на самом деле являются продуктом религиозного мировоззрения, духовной культуры и философской мысли древних племен, которые играли важную роль в их жизни.

*Ключевые слова*: могила, миф, племя, религиозное верование, фантастические образы.

**IRADA AVSHAROVA**
*Ph.D., associate professor of Baku State University*

## GRIFFON DESCRIPTIONS IN THE MATERIAL-CULTURE OF THE KHOJALI-GADABEY TRIBES

During the research conducted in the territory of Azerbaijan, in the Late Bronze Age and the Early Iron Age, animals, which have taken a large place in the mythological thoughts of people, as well as strange creatures created from their followers, are often encountered. In those images, the universe, nature, the world of light, the world of the afterlife, the signs characteristic of humans and animals come together.

This type of syncretic images are distinguished by their artistic nature in material culture. Among such images, the fantastic creatures created by the combination of body parts of various animals are particularly noteworthy. Among them, the gryphons are the bearers of the same content in the ancient East.

Gryphons, which we encounter on Azerbaijan's material culture samples and perceive as strange creatures, are actually the product of the religious worldviews, spiritual culture and philosophical thoughts of ancient tribes, and played an important role in their lives.

*Keywords*: grave, myth, tribe, religious belief, fantastic images.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Qənirə Pirquliyeva, t.e.d. Qüdrət İsmayılov.*

UOT 902

**ЛАЛЕНДЕР ОРУДЖЕВА**
*Бакинский ГосударственныйУниверситет доктор философии по истории*
**lalandaroucova@gmail.com**

# РОЛЬ КУЛЬТУРЫ И ИСКУССТВА В ИЗУЧЕНИИ ОБЩЕСТВЕННОГО СТРОЯ НА ОСНОВЕ АРХЕОЛОГИЧЕСКИХ МАТЕРИАЛОВ В ЭПОХУ СРЕДНЕЙ БРОНЗЫ В АЗЕРБАЙДЖАНЕ

*Художественные произведения, найденные в различных памятниках эпохи бронзы, представляют собой ценнейшие источники для изучения истории культуры, истории мышления, религии, духовой жизни. Материалы, накопленные благодаря археологическим исследованиям поселений погребальных памятников, наскальные изображения и мелькая, пластика, определенные группы петроглифов позволяют в значительной степени изучить культуру и искусство, выявить религиозные и культовые представления среднего периода эпохи бронзы в Азербайджане.*

*Ключевые слова*: Бронза, искусства культура, поселения, ювелерные изделия, религия.

***Введение.*** При изучении истории древних племен Азербайджана нами установлены разные типы погребений - грунтовые, каменные ящики и курганы. Еще в период энеолита и на ранних этапах эпохи бронзы в Азербайджане возникают каменные ограждения вокруг грунтовых погребений (Кюльтепе, Овчулартепеси в Нахичиванской АССР).

Известно, что камень в древности являлся одним из основных строительных материалов и широко использовался в строительстве погребальных памятников. Вероятно, переход к созданию каменных ящиков был связан с религиозными представлениями древних племен. Вера первобытных людей в загробную жизнь подверждается найденными и погребальными памятниками, различными орудиями труда, оружием, бытовыми предметами, а также остатками пищи.

Религиозные представления, видимо, постипенно обусловливали изменения и в структуре погребальных памятников. В эпоху бронзы племена Азербайджана перешли от строительства глинобитных домов к возведению хорошо спланированных четырехугольных каменных и кирпичных жилищ. Мы считаем, что анологичные изменения произошло и в создании погребальных памятников. Можно даже предположить, что их модели (например, каменных ящиков) могли повторять модели жилих домов. Не случайно и размещение в определенных местах погребений бытовых сосудов, т.е. подобно тому, как они распологались в жилищах.

Создание памятников типа курганов также было связано с определенными религиозными, культовыми представлениями племен эпохи бронзы. Численность курганов была меньшей, чем каменных ящиков и грунтовых погребальний, что обусловливалось прежде всего внутриплеменным социальным расслоением в эпоху бронзы. Вожди, жерцы и знать, несомненно, выделялись среди остальных членов племени своим богатством и авторитетам и памятников-курганов.

Известно, что наряду с большими и богатами в материальном отношении курганами имеются и маленькие курганы. Археологические исследования показывают, что в рассматриваемый период племена, проживавшие в различных географических условиях, были экономически неодинаково развиты. Наряду с крупными племенными объединениями существовали малые так же, как богатые и бедные, сильные и слабые племена. Можно предположить, что различие курганов по объему и инвентарю определялось экономической мощью племен.

Весьма интересны структура и строение каменных насыпей курганов Азнабрюда и Шахтаты. Азнабюрда и Шахтахты. Азнабюрдские построены из речной гальки и обломков скал по определенному плану. Самые нижные камни расположены вокруг четырехугольных погребальных ям в виде нескольких плотных концентрических кругов-кромлехов. Шахтахтинские курганы также имеют кромлехи. С восточной и западной сторон кромлеха имеется стоячий

камень типа менгира. Кромлехом окружены и Гобустанские курганы, а это еще раз подтверждает, что курганы связаны с древними религиозными, культовыми представлениями. Известно, что концентрический круг в изобразительном искусстве и архитектуре древних племен характеризуется как солярный. Мы считаем, что такой круг связан с культом солнца и является символом обожествления. Поэтому он строился вокруг погребений жерцов и знатных людей племени.

Погребальные обряды, особенно расположение покойного в камере в скорченном виде и ориентирование в разных направлениях, также связаны с религиозными и культовыми представлениями. Расположение на правом или левом боку, вероятно, зависит от половой принадлежности покойников. Расположение покойников в согнутой позе вокруг скелета, находящегося в центре ямы, возможно, связано с появлением патриархально-рабовладельческих отношений в средний период эпохи бронзы. Поскольку считалось, что и в загробной жизни слуги патриархальных общин должны были подчиняться вождю племени и жерцам, их хронили в сидячем положении вместе с хозяином.

В грунтовых погребениях Аликемектепеси, каменных ящиках Кызылванка и в курганах Гобустана были обнаружены скелеты барана, лошади и большие части туши быка. Встречающиеся в шахтахтинских погребениях скелеты лошадей подтверждают, что в бронзе в Азербайджане существовал культ коня. Видимо, он помещался в захоронении как некая сила, которая якобы пригодится человеку и в загробной жизни для выполнения определенной функции. Не случайно, что Азербайджане говорять: «Конь-это желание» (at muraddır) [1 с.19-25].

Целый скелет овцы и бронзовый кинжал, найднный возле ее костей, из кургана в Гобустане также объясняют веру в загробную жизнь, стремление обеспечить мертвеца пищей. На одном камне кромлеха кургана №15 выгравированы рисунки двух коз, что отражает не только хозяйственную жизнь, но и религиозные представления людей, связанные с культом животных [2, с4-27].

Верав вечную жизнь была очень сильна, что подтверждается покрытием покойного красной охрой. В Азербайджане этот обычай прослежан еще в погребальных памятниках эпохи энеолита, в поселениях Кюльтепе I и Бабадервиша Казахского района, а также в курганах, Гянджачая, Ханлара и Килликдага. В эпоху бронзы этот обычай не был массовым, видемо, он был характерен для определенной этнической группы, но нет сомнения в том, что окраска покойного охрой в процессе погребальной церемонии имела символическое значение. Можно полагать, что красная охра-это символ вечной жизни человека.

Бытовая утварь, предметы украшения, оружие и ряд наскальных изображений, имеющие символическое значение также отражают религиозные, культовые, идеологические воззрения древних племен Азербайджана. В эпоху бронзы среди племен Азербайджана был широко распространен культ солнца, что отражено в орнаментах ремесленных изделий и памятниках изобразительного искусства. На простых и расписных сосудах, найденных в Кюльтепе I, Кюльтепе II, Кызылванке, Шахтахты, Нагаджире и других памятниках Нахичевани, нанесены круглые узоры-символическое изображение солнца. На наскальных изображениях Гемигая солярные знаки выгравированы как отдельно, так [3 с.10-35] и в композициях - в виде круга с двумя лучами или прекрестием [4с.25-65]. Подобные знаки, относящиеся к эпохе бронзы, известны по гегамским и сюникским наскальным изображениям в западном Азербайджане современной Армении, ямным погребениям в Евпатории, петроглифам каменных могил в Приазовье и Саймалы-таша в Киргизии. Рисунки лодок с сиянием солнца на насу в Гобустане датируется А.А. Формозовым II тысячелетием до н.э. и связываются с отражением распространения солярного мифа [5 с.7-98].

Мы считаем, что в эпоху бронзы солнце как источник жизни, света, тепла было одним из главных культовых объектов древних племен Азербайджана, как впрочем и у многих земледельческих племен. Культ небесных тел-Солнца, Луны и звезд широко распространился среди племен Азербайджана эпохи бронзы. Встречаются лепные лунарные знаки на керамике Кюльтепе I, Кюльтепе II и Гобустана, обнаружены также бронзовые подвески, серги, браслеты в форме полумесяца в погребальных памятниках Кызылванка. Полихромно-расписная керамика

из поселений Кюльтепе I орнаментирована звездами и летающими вокруг них птицами, так что, вероятно, в этой сцене изображены символизирующие небеса птицы и священные звезды, [6, с.31] которым поклоялось население Нахчивани в эпоху бронзы.

***Искусство***. Изобразительное искусство Азербайджана своими корнями уходит в глубокую древность- в эпоху каменного века (мезолита), к которому относятся петроглифы Гобустана-шедевры древнеазербайджанского искусства. Эпоха бронзы, особенно ее более поздние этапы, являлась периодом расцвета первобытного искусство Азербайджана.

Средний период эпохи бронзы в Азербайджане-особенно важный этап в развитии древнего искусство, в котором многовековый жизненный опыт древних племен, их разнообразные религиозные, культовые и эстетические взгляды впервые получили наиболее полное выражение. Замечательными образцами искусства указанного периода являются наскальные изображения Гемигая, Гобустана, Кельбаджара, Апшерона, расписная керамика Нахичивани, орнаментированные простые глиняные изделия из памятников Нахичивани, Мильско-Карабахской равнины, Талыша, Мугани, Апшерона, Гобустана, а также мелкая пластика, каменные изваяния, разные предметы украшений из бронзы, бусы.

Наскальные изображения-один из основных видов изобразительного искусства той эпохи. Они созданы в основном «художниками» земледельческого-скотоводческих племен.

В 1969-1971 гг. на южном склоне Гемигая, на яйлагах Гарангуш, Небиюрду, Джамышолен, которые расположены на высоте 3500-3700 м над Уровнем моря нами зафиксировано более тысячи наскальных рисунков. Среди них есть изображения человека, коз, олений, быков, фантастических животных, собак, птиц и разные условные знаки. Преобладают рисунки козлов, которые представлены поодиночке, попарно или же группами. Одиночно нарисованные козлы повернуты влево и вправо. Все эти изображения навелики и схематичны. Рога козлов «дугообразны, загнуты назад, у некоторых козлов рога нарисованы волнистыми линиями и концы их согнуты вперед».

Представляют значительный интерес сцена нападения хищнего зверя (волка) на козла и различные условные знаки, очевидно, имеющие магическое значение. Возможно, что они отражают борьбу между злым и добрым духами [7, с.25-78].

Среди наскальных изображений Гемигая часто встречаются быки, олени и леопарды, а также козлы. Привлекательна сцена встречи леопарда и быка. Прекрасно передана динамика напрягшегося, готового к броску, откинувшего голову назад леопарда. Внизу справа представлен бык с острыми рогами, направленными в сторону леопарда.

На Гемигая зафиксированы также отдельные изображения собак, лошадей и рисунки фантастических животных. Собака передана в движении, один из рисунков носит весьма реалистический характер [8 с.-25].

Некоторые животные на Гемигая нарисованы без рогов и ушей, у одного из них квадратная головка. Привлекает внимание животное с горбом, острым носом, чуть приоткрытым ртом. Его широкий рог напоминает саблю, длинный хвост загнут к спине. Ниже высечен якореобразный знак. В какой-то степени это напоминает дракона. Как известно, в древних мифах Азербайджана он является символом злого духа [9 с.25-90].

На некоторых рисунках Гемигая изображены змеи. Здесь можно встретить и парных змей. На двух скалах одновременно со змеями нарисованы и козлы. Обычно козел был на переднем, а змея-на заднем плане. В одной сцене змея находится рядом с козой, а за ней-бегущий человек. На одном из рисунков змея и разбегаюшиеся в разные стороны люди, желающие убежать от нее.

В искусстве рассматриваемого периода особенно важное месте занимает человек: единичные, парные и коллективные изображения встречаются и в композиционных сценах охоты. Зачастую человек показан силуэтно, тонкими прямыми линиями, его голова закруглена, ноги расставлены, иногда согнуты в коленях, руки подняты вверх. На некоторых рисунках руки раскинуты в стороны, одна кисть руки (правой или левой) обращена вниз. Очень динамично передана фигура человека в одежде: широко расставленные ноги, обутые в чарыке,

левая рука его отведена в сторону, кисть руки раскрыта, в правой руке он держит веровку (аркан) или же плет.

На одном из рисунков руки человека согнуты в локтях и подняты вверх, над головой выгравированы два знака, похожие на цифру «8» [10 с. 16-85].

Очень эффективен рисунок человека с козлом. Туловище пластично вытянуто вперед, ноги в движении, руки чуть подняты на уровне плеч и согнуты в локтях в направлении козла, стоящуго над его головою. Очевидно, эта сцена отражает культ тотема-козла. На одной скале высечены двое бегущих людей. Привлекает внимание композиция из двух фигур, стоящих лицом к лицу с протянутыми друг к другу руками. Вплотную к плечу человека примыкает рисунок, напоминаюший двузубые вилы, позади него волнистые линии.

Сложнокомпозиционный рисунок группового ритуально-обрядового танца (II тысячелетие до н.э.) типа азербайджанского яллы, который исполняется множеством людей, имеется и в Гобустане [11 с 8-25].

Материалы подверждают, что оседлые земледельческо-скотоводческие племена изменных районов Азербайджана использовали арбу еще в эпоху бронзы.

Приводя многочисленные примеры своеобразных грвированных рисунков на скалах, следует отметит, что древние художники реалистически воспроизводили окружающую действительность, изображали то, что хорошо знали. Несмотря на схематичность изображений, они с большим мастерством умели подчеркнуть наиболее характерное. Почему возникли эти рисунки? Одни исследователи видят в них своего рода магию, т.е. использование рисунков для обеспечения успкхов в охоте именно на данног зверя; другие предпалагают, что художники фиксировали на скалах наиболее важные моменты жизни племени. Из глубины тысячелетий они доносят нам свидетельство жизни древних племен.

Наибольший интерес среди наскальных изображеий Кавказа, несомненно, представляет комплекс Гобустана. Обилие изображений эпохи бронзы на Гобустане показывает, что в период развития скотоводческо-земледельческого хозяйства этот район сохранял свое значение и в качестве охотничьих угодий. Вместе с тем археологические раскопки убедительно подтверждают, что Гобустан в эпоху бронзы был одним из главных культурных центров земледельческо- скотоводческих племен Азербайджана. В эпоху бронзы размеры наскальных рисунков Гобустана продолжали уменьшаться. В отдельных случаях прежняя реалистическая манера передачи фигур животных все еще сохранилась. Силуэтные рисунки людей начинали заменяться линейными.

В указанную эпоху охота занимала все еще значительное место в хозяйстве оседлого населения Гобустана. Она велась пешими и конными охотниками, вооруженными луками и стрелами, копьями, трезубцами, арканами. Все это нашло отражение в рисунках Гобустана среднего периода эпохи бронзы. В изобразительном искусстве рассматриваемого периода наиболее распространенными были рисунки козлов-безоаров. Они нзовражены отдельно, парно и группами, в различных позах, стоящими неподвижно или бегущими.

На скалах Гобустана (Язылытепе, Беюкдаш-верхняя терраса) на рубеже II III- II тысячелетий до н.э. и в начале II тысячелетий до н.э. были высечены сцены охоты всадников на антилоп, оленей, козлов, выполненные с большим вкусом, реалистично, выразительно и динамично. Средствами охоты были трезубцы, копья, арканы и другое оружие.

Контуры мужских фигур, характерные для эпохи бронзы в Гобустане (Беюкдаш-верхняя и нижняя террасы), носят схематичный линейный характер, как в Гемигая. Все мужские фигуры переданы в анфас в позе ритуального танца, в движении. Интересна сцена схватки двух мужчин. Каждый из них держит в одной руке какое-то оружие (палку или нож). Датируются эти рисунки рубежом III- II тысячелетий до н.э. Привлекает внимание групповой ритуально-обрядовой танец типа азербайджанского танца яллы, исполняемый группой людей, стоящих в два ряда.

Интенсивное развитие экономики и культуры племен эпохи бронзы вызывало к жизни и создание высокохудожественных изделий. Искусстовед В.Б. Белк отмечал, что высокое эстетическое качество закавказских керамических и бронзовых изделий позволяет считать их од-

ним из видов изобразительного искусства. Большая часть простой и расписной керамики эпохи бронзы Азербайджана оформлена с высоким художественным мастерством. Еще в III тысячелетий до н.э. в Закавказье, в том числе в Азербайджане, изготовлялась керамика высокого качества. Поверхность многих керамических изделий покрыта черным, серым и светло-розовым раствором и лощена до зеркального блеска, украшена врезными, штампованными орнаментами, насечками и налепами. Внутри некоторые изделия домашней утвари покрыты красной и коричевой краской.

В средний период эпохи бронзы высокохудожественное оформление керамических изделий в Закавказье получило более широкое развитие. Это хорошо прослеживается на примере керамики средней Азербайджана.

В это время в Азербайджане (особенно на юге) появляется и широко распространяется высокохудожественная расписная керамика. Нахичиванские гончары в этом отношение стояли на высоком уровне, создав шедевры художественной керамики. В начале II тысячелетий до н.э. художники-оформители керамических изделий использовали черную и красную краски. В дальнейшем стали пользоваться белой, желтой, коричневой поверхность сосудов украшалась изящным красивым орнаментом разных цветов. Уникальные монохромно - и полихромно-рсписные сосуды, найденные в Яйджи, Кызылванке, Шахтахты, Кюльтепе I, орнаментированы оригинальными сложными композиционными мотивами. На этих сосудах изображены птицы, козлы, олени, кони и люди в реалистическом стиле. Такие композиционные сцены, несомненно, имеют символическое (культовое), значение, связаны с различными древними мифами.

К памитникам искусства Азербайджана рассматриваемого периода относятся также золотые, серебряные, бронзовые изделия (подвески, браслеты, булавки и др.), разные бусы (паста, сердолик). Подобные материалы найдены в Кызылванке, Шахтахты, Кюльтепе II и других памятниках.

***Заключение***. Памятники искусства той эпохи подтверждают, что в Азербайджане были развиты танцевальная и музыкальная культура, а также изобразительное и ювелирное искусство. Развитие изобразительного искусства помогало созданию первых пиктографических знаков (Гобустан, Гемигая, Кельбаджар), которые хранят тайну культовых представлений и идеологии племен эпохи бронзы Азербайджана.

Сюжеты произведений искусства Азербайджана того времени взяты из реальной жизни. Большенство из них связано с земледелем, скотоводством, охотой, которые являлись источником жизни для людей. Часть изображений, посвященная тотемам, астральным телам, отражает первые религиозные и идеологические взгляды древних племен Азербайджана.

## ЛИТЕРАТУРА

1. Джафарзаде И.М. Наскальные изображение Гобустана. Институт истории АН Аз ССР. Баку, 1958, 40 с.
2. Гулиев И.Я. Археологические очерки. Баку, АН Аз ССР, 1965, 250 с.
3. Алиев В.Т. Памятники эпохи бронзы Нахчиванской АССР. МСПИЭН 1965 г. в СССР. Баку, 1970, 95 с.
4. Алиев В.Т. Рисунки бронзового века на Гемигая // ПНОГ, 1969, №4, 280 с.
5. Формозова А.А. Очерки по первобытному искусству. МИА №165, М., 1969, 300 с.
6. Алиев В.Т. Памятники Кюльтепе II. 1970 г. № 1 (31).
7. Алиев В.Т. Культура бронзового века, средней бронзы Азербайджана АН АзССР. Институт истории. Баку, Элм, 253 с.
8. Алиев В.Т. Наскальные изображения Гемигая АССР 1977, №48 25 с.
9. Мунчаев Р.И. Кавказ на заре бронзового века. М., Наука, 1945, 450 с.
10. Мурадова Ф.М. Гобустан в эпоху бронзы. Баку, Элм, 1979, 350 с.
11. Афшарова И.Н. Прикулиева Г.А. Археология Кавказа. Баку, ИБУ, 2014, 300 с.

**LALƏNDƏR ORUCOVA**
*Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru*

## AZƏRBAYCANDA ARXEOLOJİ MATERİALLARA ƏSASLANARAQ ORTA TUNC DÖVRÜNDƏ MÖVCUD OLAN SOSİAL SİSTEMİN ÖYRƏNİLMƏSİNDƏ MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏTİN ROLU

Arxeoloji tədqiqatlar zamanı toplanmış materiallar bizə Azərbaycanın müxtəlif regionlarının mədəniyyət və incəsənətini əhəmiyyətli dərəcədə öyrənməyə imkan verir. Qobustanda, Gəmiqayada, Kəlbəcərdə rast gəlinən təsviri sənətin inkişafı bu dövrdə tayfaların ideologiyasındakı kult təsvirlərinin sirrini saxlayan ilk piktoqrafik işarələrin yaranmasına kömək etdi. Azərbaycan incəsənəti öz başlanğıcını bu dövrdən götürmüş və ilk sujetli əsərlər məhz bu dövrdə yaranmışdı.

*Açar sözlər*: Tunc, mədəniyyət, yaşayış evləri, zərgərlik işləri, din.

**LALANDAR ORUJEVA**
*Baku State University, PhD on history*

## THE ROLE OF CULTURE AND ART IN THE STUDY OF SOCIAL SYSTEM BASED ON ARCHAEOLOGICAL MATERIALS IN THE MIDDLE BRONZE AGE IN AZERBAIJAN

The materials that have accumulated during archaeological research allow us to study the culture and arts in the different region of Azerbaijan to a significant extent. The development of fine arts helped to create the first pictographic signs, which w found in Gobustan, Gemigaya, Kelbejar, which keep the secret of the cult representations in the ideology of the tribes during this era. The very subjects of Azerbaijani artworks taken from the early times of this period.

*Keywords*: Bronze, art culture, settlement, jewelry, religion.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. İradə Avşarova, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 902**

**ARİF ƏLİZADƏ**
*tarix üzrə fəlsəf doktoru*
*Qərbi Kaspi Universitetinin müəllimi,*
*Bakı Dövlət Universitetinin Elmlər doktoru proqramı üzrə doktorantı*
**elizade.arif1956@wcu.edu.az**

# AZƏRBAYCANDA SƏNƏTKARLIĞIN İNKİŞAF TARİXİNDƏN

*Məqalədə əl əməyinə əsaslanan sənətkarliğin inkişaf tarixinə, iri maşınlı sənayenin yaranmasınadək cəmiyyətin təsərrüfat-məişət həyatında hakim rol oynamış, bu sahənin keçdiyi tarixi yol tədqiq edilir. XIX yüzilliyin I yarısında Şimali Azərbaycanda iqtisadi həyatımızda mühüm rol oynamış, sənət istehsalı əvvəlki dövrlərdə olduğu kimi özündə bir sıra sənət və peşələri-dulusçuluğu, dabbaqlığı, dərziliyi, papaqçılığı, sərraclığı, nalbəndliyi, saatsazlığı, zərgərliyi, misgərliyi, silahsazlığı, xalçalığı və s. sahələri birləşdirdi. Qeyd edilən bu sənət sahələrini 5 əsas qrupa bölə bilərik. 1.Təsərrüfat-məişət, 2.Müdafiə xarakterli, 3.Ev və geyim məmulatları, 4.Yeyinti məhsulları, 5.Zərgərlik gümüşbəndlik (yaxud bəzək).*

*Şimali Azərbaycan Çar Rusiyası tərəfindən işğal edildikdən sonra bir çox sənət sahələri xüsusilə, odlu silahlarla bağlı sahələr tədricən aradan çıxdı.Əlbəttə, Çar Rusiyası müdafiə xarakterli sahələrin ləğvinə xüsusi önəm verirdi. Bu da yerli əhalinin müqavimətinin tədricən qırılmasına, imperiyanın mürtəce iqtisadi siyasətinin həyata keçirilməsinə xidmət edirdi.*

*Sənətkarlıq əl ilə xırda sənaye məmumatı istehsal edən, iri maşınlı sənayenin yaranmasınadək cəmiyyətin təsərrüfat-məişət həyatında hakim rol oynamış istehsal sahəsidir.*

*Açar sözlər:* əl əməyi, metropoliya, iqlim və sənətkarlıq.

***Giriş.*** İbtidai icma quruluşunda insanlar daş, sümük, ağac, gil və metaldan müxtəlif alətlər və məişət əşyaları hazırlamaq texnikasına yiyələnmişdilər. İbtidai icma cəmiyyətinin son mərhələsi sayılan dəmir dövrünün başlanması ilə cəmiyyətin iqtisadi həyatında köklü dönüş yaranır. Məhsullar qüvvələrin inkişafı sürətlənir. Tədricən sənət kənd təsərrüfatından ayrılır. Kənd dəmirçiləri, dulusçuları kənd təsərrüfatı ilə getdiçə az məşğul olurdular. Sənətkarlıq onalrın əsas məşğuliyyatınə çevrilirdi. Artıq şəhərlər meydana gəlirdi.

Sənayenin ictimai istehsalın müstəqil sahəsi kimi təşəkkül tapması sənətkarlığın kənd təsərrüfatından ayrılması prosesi ilə bağlıdır.

Sənətkarlıq müxtəlif ictimai-iqtisadi formasiyalar çərçivəsində texnikanın yüksəlişi ilə inkişaf edərək müxtəlif forma almışdır.

İctimai əmək bölgüsünün mərhələlərinə uyğun olaraq sənətkarlıq ev, sifarişli və bazar (yaxud şəhər) sənətkarlığına ayrılmışdır. Ev sənətkarlığı ibtidai-icma quruluşunda hakim rol oynamış, quldarlıq və feodalizmdə isə daha da geniş yayılmışdır.

Lakin sənətkarlığın inkişafında həlledici rol tədricən sifarişli və bazar (yaxud şəhər) sənətkarlığına keçmişdir. Kapitalist istehsal münasibətlərinin yayılması ilə sənətkarlığın təsərrüfat əhəmiyyəti, təşkili və sənətkarların sosial vəziyyəti kökündən dəyişmişdir. Kapitalizmin erkən mərhələsində ev sənətkarlığının xüsusi çəkisi azalmış, bazar sənətkarlığının rolu artmışdır. İri maşınlı istehsaldan sonra fabrik sənayesi sənətkarlığı sıxışdırılmışdır. Sənətkarların xeyli hissəsi öz iqtisadi müstəqilliyini itirir, onlar sələmçi tacirlərdən asılı vəziyyətə düşür və muzdlu fəhləyə çevrilirdilər.

Bu gün iqtisadi baxımdan zəif inkişaf etmiş ölkələrdə sənətkarlığın əhəmiyyəti sənayeçə inkişaf etmiş ölkələrə nisbətən daha böyükdür (1, s.388).

Sənət tarixində dünyanın bütün xalqları kimi, Azərbaycan xalqının da bənzərsiz, özünəməxsus yeri vardır. Xalqımızın əməyi sayəsində yaranıb onun həyatı və məişəti ilə sıx bağlı olan el sənətlərimizin çox böyük zəngin bir tarixi vardır. Araşdırmalar göstərir ki, hələ lap qədim dövrlərdən Azərbaycan ərazisində məskunlaşan tayfalar, daşdan, gildən, metaldan orginal qab-qacaq, silah və bəzək örnəkləri düzəldib öz həyat və məişətlərində istifadə etmişlər (2, s.5).

Azərbaycan xalqının bədii təfəkkür və yaradıcılığında regionun təbii iqlim şəraiti, təbii sərvətlərinin zənginliyi və s. səbəblər böyük təsir göstərmiş və bu da nəticə etibarı ilə onun sənət aləmin rəngarəng, dolğun və zəngin olmasına gətirib çıxarmışdır. Coğrafiyaçı alimlərin araşdırmalarına görə "şəhərlər, iqlimlərin toqquşduğu qurşaqların sərhəddində daha tez yaradılır. Ticarət əlaqələri yüksək inkişaf edir və sənətkarlıq daha çox yüksəlir. Mütəxəssislərin fikrinə görə Şimali Azərbaycanda yer üzərində mövcud olan II iqlim qurşağından 9-u mövcuddur. Aparılmış qazıntılar A.V.Dulovun "iqlim və sənətkarlıq" fikirlərini tamamilə təsdiq etmişdir" (3).

Xalqımızın zəngin yaradıcılıq tarixində ən mühüm yerlərdən birini onun məişəti, maddi həyatı ilə sıx bağlı olan sənət sahələri tutmuşdur. Qədim dövrlərdən bu günümüzədək davam edən sənət növü, xalqın geyimindən tutmuş müxtəlif təsərrüfat məmulatı və bəzəklərinə qədər geniş bir sahəni əhatə etmişdir.

Arxeoloqlarımız tərəfindən əldə edilmiş metal, daş və gildən düzəldilmiş sənət əsərlərinin yaşı təxminən 4-5 min ilə yaxındır. Respublikamızın ayrı-ayrı ərazilərindən tapılmış maddi-mədəniyyət nümunələri (dulusçuluq, metalişləmə, toxuçuluq, tikmə və s.) xalqımızın məişət mədəniyyətini, estetik zövqünü, milli varlığını və bu torpağa tarixi bağlılığını sübut edən əvəzsiz sənət əsərləridir.

Əldə edilmiş tapıntılar ilk əvvəllər Azərbaycanda ev sənətkarlığının e.ə.I minilliyin əvvəllərindən isə dəmirin geniş yayılması ilə əlaqədar olaraq bazar, yaxud şəhər sənətkarlığının yayıldığını göstərir.

Arxeoloji tədqiqatların nəticələri ilə təsdiq olunan yazılı mənbələr ərəb işğalı, xəzər yürüşləri, yerli əhalinin xilafətə qarşı çıxışları və s. əlaqədar iki əsrdən çox davam edən iqtisadi durğunluq dövründən sonra Azərbaycanda şəhərlərin, sənətkarlığın və ticarətin inkişaf etməyə başladığını göstərir. Tədricən şəhərlərin siması dəyişir, Gəncə, Beyləqan, Bakı, Təbriz, Marağa və bu kimi mühüm ticarət-sənətkarlıq mərkəzləri meydana çıxır. Mərkəzləşdirilmiş dövlət olan Xilafətin tərkibində bir-biri ilə əlaqəli sürətdə inkişaf edən belə şəhərlərin artması ilə onların əvvəlki müstəqilliyi və daxili muxtariyyəti əldə verilir. Şəhərin kənddən ayrılması prosesi gücləndikcə, şəhər əhalisi torpaq işlərindən tamam əl çəkib, yalnız sənətkarlıq və ticarətlə məşğul olmağa başlayır.

Sənətkarlığın, daxili və xarici ticarətin sürətli inkişafı bəzi şəhərlərin sosial-iqtisadi quruluşunda mühüm dəyişikliklərə səbəb olurdu. Şəhristanların (şəhərin qala divarları daxilindəki hissəsi) xaricində geniş sənətkarlıq və ticarət məhəllələri – rabadlar meydana gəlirdi. Şəhər əhalisinin sosial tərkibində sənətkarlar və tacirlər üstünlük təşkil edirdi. Müxtəlif sənət və peşə sahibləri bir qayda olaraq bazarların ətrafında, xüsusi məhəllələrdə məskən salırdılar. Bazarlarda ayrı-ayrı sənət sahələrinin öz sırası olurdu (4, s.132).

İlkin orta əsrlər dövründə Azərbaycanda məhsuldar qüvvələrin inkişafı cəmiyyətdə ictimai əmək bölgüsünü xeyli dərinləşdirmiş və beləliklə sənətkarlıq kənd təsərrüfatından daha çox ayrılmışdır.

Şəhərlərdə cəmlənmiş sənətkarlıq ölkənin iqtisadiyyatında mühüm yer tuturdu. Sənətkarlar metaldan, gildən və şüşədən müxtəlif şeylər, rəngləyici maddələr hazırlayırdılar. Dulusçuluq emalatxanalarında qab, kərpic və su kəməri borusu və s. düzəldilirdi. Qeyd etdiyimiz dövrdə Azərbaycanda təkcə yuxarıda adlarını çəkdiyimiz sənət əsərləri yox, xalçacılıq, dəri emalı, toxuculuq, tikmə və digər növləri də inkişaf etmişdir.

İstehsal qüvvələrinin artması, feodal münasibətlərinin inkişafı və möhkəmlənməsi nəticəsində, eləcə də Albaniya və Adurbadaqanın iqtisadiyyatında şəhərlərin rolunun yüksəlməsi ilə bağlı olaraq şəhərlərin sosial strukturunda da dəyişiklik baş verdi - əkinçiliklə əlaqəli kəsmiş azad sənətklarlar meydana çıxdılar. Bu sənətkarlar Azərbaycanda xırda alverçilərlə birlikdə xüsusi zümrədə birləşdilər.

Zəngin xammal bazası və hər cür maddi nemətləri olan Azərbaycanda sənətkarlığın müxtəlif növləri, o cümlədən toxuçuluq, dulusçuluq, metal və ağac, göndəri və şüşə məmulatı, zərgərlik və s. inkişaf etmişdi. Arxeoloji qazıntılar zaman Abaniyada (Beyləqanda, Mingəçevirdə, Qəbələdə, Şamaxıda, Torpaqqalada və s.) aşkar edilmiş parça və xalça qalıqları müxtəlif toxuculuq dəzgahları, saxsı və şüşə qablar, dulus kürələri, bəzək şeyləri və s. yazılı mənbələrin bu dövr sənətkarlığı üçün verdikləri məlumatla təsdiq olunur. Orta farsdilli mənbələr də III-VII əsrlərdə Azərbaycanın cənub hissəsində geniş inkişaf etmiş sənətkarlıq sahələri və bu sahələrdə məşğul olan sənətkar ustalar haqqında məlumat verir: dərzilərin, dəmirçilərin, dabbaqların, çörəkçilərin, sərbazların, boyaqçıların, xalçacı-

ların, dulusçuların, zərgərlərin, sərbazların, bənnaların, xarratların və b. sənətkarların adları çəkilir. İxtisaslarına görə ayrı-ayrı məhəllələrdə yerləşən bu sənətkarlar korporasiya və sexlərdə birləşirdilər (5, s.111).

Orta əsrlər tarixinin XI-XV əsrləri əhatə edən dövrü tariximizin mürəkkəb və zəngin dövrlərindən biri sayılır. Bu dövrü şərti olaraq iki tarixi mərhələyə bölmək olar. Birinci mərhələ XI-XIII əsrin əvvəllərini əhatə edir ki, həmin müddət ərzində Azərbaycan Şərqlə Qərb və Şimalla Cənub arasında ticarət əməliyyatlarında mühüm rol oynayır. Azərbaycan şəhərləri və orada cəmləşmiş sənətkarlar bu ticarətdə fəal rol oynayırdılar. Sənət ustalarımızın hazırladığı məmulatlar yurdumuzdan xeyli uzaqlarda məşhurlaşmışdır.

XI-XV əsr Azərbaycan sənətkarlığı tarixinin ikinci mərhələsi XIII əsrin ikinci yarısından başlayaraq XV əsrədək davam etmişdir.

XIV-XV əsrlər Azərbaycan ərazisində ardı-arası kəsilməyən feodal mübaribələri getmişdir. Təbiidir ki, ölkənin bu vəziyyəti sənətkarlığımızın inkişafında özünün mənfi təsirini göstərməli idi.

XI-XV əsrlərdə Azərbaycanda sənətkarlığın demək olar ki, bütün sahələri inkişaf etmişdi. Bu növlərin bəziləri dulusçuluq, misgərlik və s. bir çox sexləri olan böyük emalatxanalar əsl mənada geniş sənaye istehsalına çevrilir və məhsulları ilə xarici ölkə bazarlarında şöhrət qazanırdı. Lakin xalq sənətimizin bu dövrlərdə elə növləri olmuşdur ki, zəif inkişaf etmişdir (Məsələn, sümük, taxta, dəri məmulatları və s.) (2, s.36-37).

XV əsrin sonu, XVI əsrin əvvəllərində Azərbaycanda mərkəzləşdirilmiş dövlət yaratmaq uğrunda mübarizə genişlənir və bu da nəticə etibarı ilə Azərbaycan Səfəvilər dövlətinin yaranmasına gətirib çıxarır. Torpaqlarımızın mərkəzləşmiş dövlət daxilində birləşməsi xalqımızın ictimai həyatının bütün sahələrində, o cümlədən sənətkarlıqda da xeyli irəliləyişə səbəb olur. Bu vaxt Azərbaycanın şəhər və kəndlərində xeyli dulusçu, gümüşbənd, zərgər, toxuçu, misgər, nalbənd və digər sənət sahələri ilə məşğul olan sənətkarlar fəaliyyət göstərmişdir. Qeyd etdiyimiz tarixi dövrdə müstəqil sənət sahələri ilə məşğul olan sənətkarların rolu get-gedə artmaqda idi.

XVI-XVII əsrlərdə metaldan ev avadanlığı, bəzəklər və soyuq silahlar hazırlamaq Azərbaycanın Naxçıvan, Gəncə, Şamaxı, Bakı, Təbriz, Ərdəbil şəhərlərində daha geniş miqyas almışdı. Bu dövr ərzində Azərbaycanda hazırlanmış silah və hərbi geyimlər (metaldan hazırlanan başlıq, dizlik və s.) təkçə Qafqazda deyil, habelə uzaq xarici dövlətlərdə geniş şöhrət tapmışdı (2, s.68).

XVIII əsrin əvvəllərindən etibarən Azərbaycan siyasi və iqtisadi pərakəndəliyə məruz qalsa da tarixin çətin sınaqlarına sinə gərmiş bir sıra el sənətlərimiz hələ də geniş nüfuzlarını qoruyub saxlaya bilmişdi.

XVIII əsrin II yarısında natural təsərrüfatın hökm sürdüyü şəraitdə Azərbaycanın iqtisadi həyatında sənətkarlıq böyük rol oynayırdı. Şəhər və kəndlərdə əmək alətləri, silah, parça məmulatı, ev əşyası hazırlayan çoxlu sənətkarlıq emalatxanası var idi.

Şamaxıda ipək parça, Lahıçda mis qablar, silah, Qubada xalça, Şəkidə ağacdan düzəldilmiş bədii şeylər (şəbəkə) geniş şöhrət qazanmışdı.

Azərbaycanın bütün xanqlıqlarında dulusçuluq, dülgərlik, dəmirçilik, dəri, sərraclıq və s. sənətkarlıq sahələri bar idi ki, bunlar həm yerli əhalinin ən ümdə ehtiyaclarını ödəyir, həm də ixrac üçün lazım olan həcmdə sənətkarlıq məhsulları istehsal edirdi. Lakin, sənətkarlıqda geridə qalmış istehsal formaları tətbiq edilirdi, sənətkarlıq texnikası çox aşağı səviyyədə idi. Azərbaycanda hələ də manufaktura yox idi (6, s.385).

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində xalqımızın başı üstündən "Demokl qılıncı" yenidən asıldı. Yaranmış tarixi fürsəti əldə verməyən Rusiya və İran Azərbaycana sahib olmaq uğrunda qanlı döyüşlərə başladılar. Nəhayət, 1813-cü il 12 oktyabr (Gülüstan) və 1828-ci il 10 fevral (Türkmənçay) sülh traktatlarına görə dili, dini, ərazisi və soykökü bir olan xalqımız tarixdə görünməmiş ədalətsizliyin qurbanı oldu.

Əvvəllər Şimali Azərbaycanı hərbi-siyasi baxımdan özünə birləşdirən çar Rusiyası daha sonralar mürtəce "iqtisadi mənimsəmə" siyasəti ilə bu zəngin diyarı ilhaq etməyə başladı. Doğrudur, feodal ara müharibələrinə son qoyulduğundan, vahid maliyyə, çəki, ölçü sistemləri və nəhayət nisbi sosial-siyasi, sabitlik bərqərar olduqdan sonra Şimali Azərbaycanda məhsuldar qüvvələrin inkişafı üçün müəyyən mənada geniş meydan açıldı. Lakin bu inkişaf birtərəfli xarakter daşımışdır. Belə ki, çariz-

min "iqtisadi mənimsəmə" siyasəti nəticəsində rus hakim dairələri üçün sərfəli olan sahələr (xammal sahələri) inkişaf etdirilmiş, emaledici sahələr isə qəsdən, bilərəkdən ləngidilmişdi. Rus müəllifləri özləri etiraf edirlər ki, çarizmin Qafqazda həyata keçirdiyi iqtisadi siyasət bu regionu Rusiyanın qapalı qapalı sənaye malları bazasına və xammal istehsalçısına çevirdi.

Professor M.İsmayılov bu hadisəni belə qiymətləndirir. "İşğal nəticəsində Azərbaycan çar Rusiyası zadəganlarının və sənaye sahiblərinin xammal bazasına, tacirlərin isə satış bazasına çevrildi. Azərbacyan iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri aldı" (7, s.205).

Çarizmin yürütmüş olduğu "iqtisadi mənimsəmə" siyasəti Şimali Azərbaycanda tarixən mövcud olmuş ənənəvi sənət sahələrini öz məngərəsində sıxsa da, həmin sənət sahələri çətinliklə olsa da inkişaf edə bilmiş və hətta bəzi sahələr manufaktura səviyyəsinə yüksəlmiş, sənayenin fabrik mərhələsinə keçməsinin əsası qoyulmuşdu (7, s.205).

Daha sonralar isə xalqımızın mənəviyyatını, əxlaqını, dünyagörüşü, hətta mifoloji təfəkkürünü, özündə ehtiva edən bu nadir sənət sahələri Rusiyadan və digər ölkələrdən idxal edilən şablon sənaye malları tərəfindən sıxışdırılmış və hatta bəziləri aradan çıxmışdır. Bu proses xüsusilə 50-ci illərin sonlarından etibarən genişlənməyə başlamışdır.

Araşdırmalar göstərir ki, tədqiq olunan dövrdə iqtisadi həyatımızda mühüm rol oynamış, sənət istehsalı əvvəlki dövrlərdə olduğu kim özündə bir sıra sənət və peşələri, - dulusçuluğu, dabbaqlığı, dərziliyi, papaqçılığı, sərraclığı, dəmirçiliyi, nalbəndliyi, çilingərliyi, qalayçılığı, saatsazlığı, bənnaçılığı, dülgərliyi, xarratlığı qəssablığı, zərgərliyi, toxuçuluğu, misgərliyi, sabunbişirməni, silahsazlığı, kərpicbişirməni, boyaçılığı və s. sahələri birləşdirirdi (8, s.15).

Saydığımız bu sənət sahələrini konkret olaraq 5 əsas qrupa bölə bilərik. 1.Təsərrüfat-məişət (sərraclar, nalbəndlər, tornaçılar, dəmirçilər, qalayçılar, sabunbişirənlər və s.) və tikinti materialları istehsalı (bənnalar, dülgərlər, xarratlar). 2.Müdafiə xarakterli sənət sahələri (silahqayırma). 3.Ev və geyim məmulatları istehsalı (toxucu, dərzi, paparçı, çəkməci və s.). 4.Yeyinti məhsulları istehsalı (çörəkçi, şirniyyatçı, ətçi və b.). 5.Zərgərli, gümüşbəndlik (yaxud bəzək) məmulatı istehsalı. Biz ən qədim dövrlərdən tutmuş XIX əsrin əvvələrinədək el sənətkarları tərəfindən hazırlanmış ayrı-ayrı sənət sahələrinin ümumi vəziyyəti ilə tanış olduq. Nəzərdən keçirdiyimiz tarixi dövrlərdə el sənətlərimiz böyük bir inkişaf yolu keçmişdir. Ancaq bu, sənət sahələri müəyyən tarixi səbəblər üzündən gah yüksəlmiş, gah da tənəzzülə məruz qalmışdır.

Bulaq suyu kimi təmiz, zəngin bədii, tarixi irsə malik olan sənət nümunələrimiz bu gün də xalqımıza baş ucalığı gətirir və bundan sonra da gətirəcək.

Azərbaycan sənətkarlığının yüksək texniki və bədii xüsusiyyətləri həmişə onu görənləri valeh etmişdi. Hələ uzaq keçmişlərdə ölkəmizə gəlmiş xarici ölkə qonaqları bu sənət əsərlərini əldə etməyə can atmışlar. Bu barədə bizə müxtəlif vaxtlarda Azərbaycanda olmuş əcnəbi səyyah, diplomat və tacirlərin gündəliklərində çoxlu rəylərə rast gəlirik. Ancaq təəssüf hissi ilə qeyd etməliyik ki, bir müddət o "islam mədəniyyətinin" nümunəsi kimi qələmə verilmiş, sonra İran incəsənəti kimi qeyd olunmuşdur. Bu sənət əsərlərimizin bəzən Rusiyada və hətta Ermənistanda düzəldiyi fikri irəli sürülmüşdür.

Lakin son dövrlərdə Qərbi Avropa və digər ölkələrdə dərc olunan tədqiqat əsərlərində həmin sənət örnəklərinin əsil ünvanın dəqiq təyin olunduğu nəzərimizi cəlb edir. Bu xeyirxah işdə yeni nəsil Avropa alimləri ilə birlikdə Azərbaycan sənətşünaslarının da rolu vardır (2, s.5.-6).

***Nəticə***. Şimali Azərbaycanın təbii sərvətlərinin zənginliyi, kənd təsərrüfatının çoxşaxəli olması, xammal ehtiyatının bolluğu, qədim peşə ənənələrinin qorunub nəsildən-nəsilə ötürülməsi, işçi qüvvəsinin çoxluğu, işğaldan sonra yaranmış əlverişli əmin-amanlıq şəraiti və siyasi sabitlik ənənəvi sənət sahiblərinin inkişafına güclü təkan vermiş oldu. Xüsusilə XIX əsrin 30-cu illərindən etibarən Şimali Azərbaycanın sənət istehsalında nəzərə çarpacaq dərəcədə irəliləyiş özünü göstərdi. Bu mütərəqqi irəliləyişlərin başlıca səbəbi Rus-İran müharibələrinin ağır nəticələrinin tədricən aradan qalxması əhalinin öz doğma yurd-yuvasına dönməsi, bununla əlaqədar olaraq daxili bazarda yerli sənət məhsullarına tələbatın artması, habelə Rusiya vastəsi ilə Azərbaycanın dünya bazarına çıxması ilə izah olunur.

Tədqiq olunan dövrdə həm şəhərlərdə, həm kəndlərdə sənət istehsalının hər üç forması ev peşəsi sifarişli sənət və xarici əmtəə istehsalı özünü göstərməkdə idi. Yalnız Nuxada 1829-cu ildə ilk dəfə

olaraq xarici kapital hesabına ipəksarma manufakturası yaradılmışdır ki, həmin müəssisə Zaqafqaziyada kapitalist tipli ilk müəssisə hesab olunur. 30-cu illərdən etibarən ölkə əhalisi tədricə artmağa başladı. Bu hal təbii olaraq sənətkarların sayına da öz təsirini göstərirdi. Şimali Azərbaycan sənətkarlığının ən çox inkişaf etrdiyi şəhərlərin 7-də şəhər sənətkarlarının 86.6-i cəmləşmişdi.

Mənbələrin təhlili göstərir ki, tədqiq olunan dövrdə Nuxada 5274, Şamaxıda 2192, Şuşada 2878, Gəncədə 927, Ordubadda 730, Naxçıvanda 265, Qubada 305, Lənkəranda 72 sənətkar fəaliyyət göstərmişdir.

ƏDƏBİYYAT

1. ASE. 10 cilddə. VIII c. Bakı, ASE Baş redaksiyası, 1984, 608 s.
2. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı dünya müzeylərində. Bakı, İşıq, 1980, 165, [3]s.
3. Cəbiyev Q. Azərbaycanın çoxşaxəli qədim çalğı alətləri / Sərbəst düşüncə, 1992, 23 avqust.
4. Əliyev İ. Azərbaycan tarixi. Bakı, 1993, s.132.
5. Azərbaycan tarixi. Bakı, 1993, s.111.
6. Azərbaycan tarixi. Bakı, 1961, s.385.
7. İsmayılov M.Ə. Azərbaycan tarixi. Bakı, Azərnəşr, 1992, 260 s.
8. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX веке. Баку, изд-во АН АССР, 1964, 504 с.

**АРИФ АЛИЗАДЕ**
*доктор философии по истории,*
*Преподаватель Западно-Каспийского Университета,*
*Докторант по программе доктора наук Бакинского государственного университета*

## ИЗ ИСТОРИИ РАЗВИТИЯ РЕМЕСЛА В АЗЕРБАЙДЖАНЕ

В данной статье рассматривается история развития ремесла, основанного на ручной труд, исторический путь, пройденный этой отраслью, которая долгое время занимала главенствующее место в хозяйственно-бытовой жизни общества до возникновения крупной машинной промышленности.

В первой половине XIX века в Северном Азербайджане ремесленное производство все еще играло важную роль в экономической жизни и объединяло в себе такие направления как гончарство, кожевенное, медное, портняжное, кузнечное, ювелирное дело, ковроткачество, оружейное дело, изготовление головных уборов и т.д.

Можно выделить 5 групп выше перечисленных отраслей: 1.Хозяйственно-бытовые, 2.Оборонительные, 3.Дом и одежда, 4.Продукты питания, 5.Ювелирное дело (или украшения).

После завоевания Северного Азербайджана Царской Россией многие из ремесленных отраслей, особенно связанные с огнестрельным оружием постепенно вышли из обихода. Конечно же, Царская Россия особо обращала внимание на упразднение отраслей, имеющих оборонительный характер. Это привело к постепенному ослаблению сопротивления местного населения и проведению империей реакционной экономической политики.

*Ключевые слова:* метрополия, климат и ремесло.

**ARİF ALİZADEH**
*PhD in History, Lecturer at Western Caspian University,*
*Doctoral student under the program of Doctor of Science of Baku State University*

## FROM THE HİSTORY OF THE DEVELOPMENT OF HANDİCRAFTS İN AZERBAİJAN

The article examines the history of the development of handicrafts based on manual labor, the historical path of this field, which played a essential role in the economy and household life of the society until the emergence of large machine industry. In the first half of the 19th century, art

production played an important role in our economic life in North Azerbaijan, as in previous times, it included a number of arts and professions - pottery, tannery, tailoring, hat making, embroidering, shoemaking, watchmaking, jewelry, coppersmithing, gunsmithing, carpet making, etc. combined fields. We can divide these mentioned art fields into 5 main groups.1. Household 2. Defensive 3. Household and clothing products 4. Food products 5. Jewelry silver plating (or decoration).

After Northern Azerbaijan was occupied by Tsarist Russia, many art fields, especially those related to firearms, gradually disappeared. Of course, Tsarist Russia attached special importance to the elimination of defensive fields. This served to gradually break the resistance of the local population and to implement the reactionary economic policy of the empire.

*Key words:* handicrafts, metropolis, climate and craftsmanship.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Nurlan Nəsirov, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 902**

**VÜSALƏ ƏLİYAROVA**
*AMEA-nın Arxeologiya , Etnoqrafiya və Antropologiya İnstitutunun*
*“ Tunc dövrü arxeologiyası ” şöbəsinin kiçik elmi işçisi*
**aliyarova_vusala@mail.ru**

# BÖYÜK BORSUNLU KURQANINDAN TAPILMIŞ TƏBƏRZİN BALTA VƏ ONUN AZƏRBAYCANDA PARALELLƏRİ HAQQINDA

*Böyük Borsunlu kurqanı – Tərtər rayonu ərazisində qeydə alınmış zəngin abidələr sırasındadır. Burada kiçik fasilələrlə 1981-1987-ci illərdə sistemli arxeoloji tədqiqatlar aparılmışdır. Nekropol Borsunlu kəndi ətrafında , İncəçayı hövzəsinin orta axarına yaxın yerləşmişdir. Nekropol tunc və ilk dəmir dövrünə ad kurqanlardan ibarətdir. Borsunlu nekropolunda 30- dan artıq kurqan abidəsi tədqiq olunub öyrənilmişdir. Bunlar tunc dövrünün müxtəlif mərhələlərinə aiddir.*

*Borsunlu kurqanı çox halda torpaq və xırda çınqıl qatışığından , bəzi hallarda çınqıl və çay daşlarından qurulmuşdur. Bu tip kurqanlar bir qayda olaraq bir və ya iki cərgə daşlardan hörülmüş kromlexlə əhatə olunmuşdur. Böyük Borsunlu kurqanının hündürlüyü 7-8 metr, diametri 100 metrdən artıqdır. Burada aşkar olunan qəbir 256 kv metr sahəni əhatə. Nəinki Azərbaycanda, bütün Cənubi və Şimali Qafqazda belə böyük ölçüyə malik qəbir abidəsi məlum deyildir. Kurqanda çox böyük nüfuza malik tayfa başçısı dəfn olunmuşdur. Məhz buna görə Borsunlu kurqanını tədqiq etmiş görkəmli arxeoloq H.Cəfərov bunu "Çar kurqanı" adlandırmışdır [7, s.43]. Kurqanda arxeoloji qazıntılar 1982-ci ildə aparılmışdır.*

*Açar sözlər*: Qarabağ , arxeologiya , abidələr, Borsunlu kurqanı , artefaktlar, təbərzin balta.

***Giriş***. Borsunlu kurqanları Tərtər rayonunun eyni adlı kəndi ərazisində aşkar edilərək tədqiq olunmuşdur. Kurqanların dövrü e.ə. III – e.ə. II minillikləri əhatə edir. Kurqanlar barədə ədəbiyyatlarda kifayyət qədər məlumatlar vardır.

Xarici görünüş etibarilə Borsunlu kurqanları bir neçə tipə bölünür:

1. Örtüyü yalnız iri çay daşlarından ibarət olan kurqanlar.
2. Örtüyü iri parçalı çınqıldan ibarət olan kurqanlar.
3. Ətrafı kromlexlə əhatələnmiş, mərkəzi hissəsi daş örtüyə malik olan kurqanlar.
4. Ətəyi kromlexli, mərkəzi hissəsi gəc qatından ibarət olan kurqanlar.
5. Torpaq örtüklü kurqanlar [3, s.60-61].

Bu kurqanlar sırasında Böyük Borsunlu kurqanı artefaktların zənginliyi ilə digər abidələr arasında ön sıralarda durur. Kurqan e.ə. XIV – XIII əsrlərə aid edilir. Buradan tapılmış arxeoloji materiallar arasında saxsı qablar, tunc əşyalar diqqəti cəlb edir. Əldə olunmuş saxsı qablar forma və naxışlanmanın özunəməxsusluğu ilə seçilir. Buraya müxtəlif ölçülü küpələr, böyük ölçülü qablar, böyük küp (tiyan), tək qulp parç və üzəri şirlə örtülmüş “ assuriya” tipli qab daxildir.

Böyük borsunlu kurqanı materiallarının böyük əksəriyyəti metal əşyalardan ibarətdir. Onlar tuncdan hazırlanmışdır. Buraya silahlar, əmək alətləri, at əsləhələri, məşiət əşyaları, şəxsi əşyalar, bəzək nümünələri və s. daxildir.

Silahlar təbərzin balta, nizə və ox ucluqları, habelə bilavasitə döyüşlə bağlı olamasada onun tərkib hissəsi olan döyüş paltarı hissələri – zireh lövhələrindən ibarətdir. Kurqandan tunc təbərzin balta, tuncdan yastı baltalar, iskənələr, tunc nizə ox ucluqları, tunc və sümükdən at əsləhələri və cilov yüyüənlər, tunc düymə, mıxlar, tunc qazan sınıqları, qızıl toqqa başlığı, qızıl lövhə, əsası tunc, üzəri qızıl lövhə ilə örtülmüş düymə, sancaqlar və s. aşkar olunmuşdur. Təqdim olunan məqalədə onlardan biri – Tunc təbərzin balta haqqında məlumat veriləcəkdir .

***Təbərzin baltalar*** Azərbaycanın son tunc dövrü abidələrində, xüsusilə Xocalı – Gədəbəy mədəniyyətinin yayıldığı ərazidə tez-tez təsadüf edilir. Təbərzin baltalarının yayılma araealına Azərbaycanın digər rayonları (məsələn, Dəvəçi dəfinəsi), habelə Cənubi Qafqazın müvafiq regionlarıda daxildir. Cənubi Qafqazdan kənarda təbərzin baltalar Türkiyə (Boğaz – göy), İran (Luristan), Suriya (Ras –Şam) və s. tarixi ərazilərində aşkar edilmişdir. Bu tip silahların saplı formada gəzdirilməsi qaydası

Türkiyə - Xett ərazisindəki Boğaz köy abidəsindəki qapıya həkk olunmuş Teşüb ilahisi təsvirində əyani verilmişdir.( Şəkil.1)



*Şəkil 1.Böyük Borsunlu kurqanı,Tunc təbərzin balta.*

Azərbaycanın qədim tunc baltalarını vəzifələrinə uyğun həm döyüş silahı, həm də təsərrüfatın müxtəlif sahələrində işlədilən əmək aləti kimi səciyyələndirmək olar. Q.Aslanov baltaları iki tipə simmetriyasız və simmetriyalı baltalara ayırmışdır [ 1, s.14].

Simmetriyasız baltalar daha erkən yaranmış və arxeoloji ədəbiyyatda Koban-Kolxida tipli baltalar adlandırılır [11 , s.143]. Bu tip baltalar Azərbaycanda Cəlilabad, Tovuz [2, s.92], Oğuz [11, s.143- 144] rayonları ərazisindən aşkar edilmişdir.

Simmetriyasız baltaların tədricən inkişafı əsasında yaranan Cənubi Qafqazda geniş yayılmış yeni növ hücum silahlarından sayılan təbərzin formalə baltalardan Azərbaycan ərazisində aparılan arxeoloji qazıntı işləri və təsadüfi tapıntılar nəticəsində onlarla nümünə əldə edilmişdir. Tədqiqatçılar müxtəlif həcm və quruluşda hazırlanmış təbərzin baltaları dörd tipə ayırırlar [1, s.16].

Birinci tipə küp hissəsində bir neçə ədəd iti və baltanın özünə müvafiq uzun çıxıntıları olan təbərzin baltaları aid edilir. Bu tip baltalar Azərbaycan ərzisində iki ədəd tapılmışdır. Onlardan biri Gəncə yaxınlığında 4 №-li kurqandan,digəri isə Xanlar ətrafında 2№ li kurqandan tapılmışdır. Gəncə baltasının küp hissəsində beş ədəd, Xanlar baltasında isə üç ədəd iti və uzun çıxıntı vardır. Hər iki balta ayrı- ayrı qəliblərdə hazırlanmışdır.

İkinci tip balta iki ağızlıdır. Onun hər iki ağzı qövs şəklində hazırlanmış və ağız hissəsinin uc tərəfləri sap keçən dəstəyə doğru əyilmişdir. Sap keçirilən deşik baltanın hər iki ağzının birləşdiyi hissədə yerləşdirilmişdir. Bu tip balta Xanlar rayonu yaxınlığında 1№ li kurqandan aşkar edilmişdir.

Üçüncü tip baltarlar küp hissəsinin üzəri saya və ya müxtəlif şəkildə qabarıq xətlərlə naxışlanmış təbərzin baltalardır. Bu tip baltaların dairəvi, oval, aypara formalı ağızları, küplərinin baş tərəfində saya yaxud düyməvari çıxıntıları vardır. Bir çoxlarının üzərində müəyyən bəzək əşyaları əks olunub.Baltalar formaca eyniyyət təşkil etsələrdə, bir sıra morfoloji xüsusiyyətlərinə görə bir-birindən fərqlənir və dörd varianta ayrılırlar, 1. Küpünün üzəri saya və baş tərəfdən düyməvari çıxıntısı olan baltalar; 2. Küpünün üzəri və baş tərəfi saya baltalar; 3. Küpünün üzərində müxtəlif şəkilli qabarıq xətlər, baş tərəfində isə düyməvari çıxıntısı olan baltalar; 4. Çiyni düz, yastı və hamar formada küpünün deşik hissəsinin aşağısına birləşən baltalar [1 , s.18].

Birinci varianta aid təbərzin baltalardan Azərbaycan ərazisində səkkiz ədəd aşkar edilmişdir. Onlar Dovşanlı kəndi yaxınlığında, Gəncə - Zurnabad yolunun qərbində, Cənnət qalasında, Xanlar yaxınlığındakı kurqanlardan, Mingəçevirdən, iki ədəd Daşkəsəndən və Tərtər rayonun Borsunlu kurqanından tapılmışdır [4, s.105].

İkinci varianta aid baltalardan Azərbaycanda ərazisində hələlik dörd ədəd aşkar olunmuşdur. Bu varianta aid baltalar Gədəbəy rayonu ərzisində Cənnət qalasında 68 №-li qəbirdən tapılmışdır [13, tab.32, 3], Oğuz rayonu ərazisindən torpaq işləri zamanı dağıdılmış kurqandan [11, s.143-144], Qoşqar çayın sağ sahilində, Balçılı kəndindəki Paşa təpədə 4№ li kurqandan tapılmışdır [1, s.21].

Üçüncü varianta aid baltalar sayca nisbətən çoxluq təşkil etməklə hələlik on doqquz ədəddir. Bu növ baltalar Cənnət qalasından iki ədəd [13, tab.46, 1, tab.50, 1], Xankəni yaxınlığındakı Kərkicahan kəndindən [10, s.78], Mingəçevirdə Kür çayının sağ sahilində dağıdılmış qəbirdən [6, s.76], Xanlar rayonu yaxınlığıda Mollacəlili suvarma kanalının şimal tərəfindən [12, s.96-98] və bir neçə digər rayonlardan tapılmışdır.

Dördüncü varianata aid edilən baltalardan bizə hələlik iki ədədi məlumdur. Onların hər ikisi də Göygöl rayonunun Köşkü kəndində tikinti işləti zamanı dağıdılmış kurqandan tapılmışdır [1, s.27].

Üçüncü tipə aid edilən baltalardan qeyd edilən abidələrdən başqa Azərbaycanın digər yerlərində olan qəbir abidələrində rast gəlinmişdir.Onlardan biri Gəncə şəhəri şərqində, Zazalı kəndində E.Reslerin tədqiq etdiyi 9 №-li kurqandan [3, s.28 ], biri isə Y. Hümmelin Şəmkir rayonunun Çinarlı kəndi yaxınlığında açdığı 107 №-li kurqandan aşkar olunmuşdur [9, s.66].

Dördüncü tipə simmetriyalı, uzun tiyələri olan təbərzin baltalar daxildir. Bu baltalardan hələlik üç ədədi məlumdur. Onlar forma və quruluşuna görə Cənubi Qafqaz tipli təbərzin baltalardan tamamilə fərqlənir. Belə ki, onlar uzunsov formada, bir növ paza oxşar formada hazırlanmışdır. Baltaların tiyələrinin uc hissəsi bir qədər enli, küpə doğru və küp də daxil olmaqla ensizləşən formada düzəldilmişdir. Baltalar tökmə üsulu ilə qəlibdə hazırlansalar da, sonradan dömə üsulu ilə təkmilləşdirilmədikləri üçün onlar çox kobud görünürlər. Demək olar ki, bu tip baltalar sanki Koban tipli baltalarla Cənubi Qafqaz təbərzinləri arasında bir növ aralıq, keçid forması təşkil edirlər.

Azərbaycan ərazisində tapılmış üçüncü və dördüncü tip baltalar üzərindəki bəzək və naxış əlamətlərinə görə bir-birindən fərqlənirlər. Bu fərq sanki onların ayrı-ayrı ərazilərdə hazırlandığını göstərir. Belə ki, Daşkəsən, Gədəbəy, Qazax, Oğuz ərazilərindən tapılan baltalrın üzərində sünbülvari naxışlara çoxluq təşkil edirsə, Dağlıq Qarabağ, Göygöl ərazisində aşkar olunan baltaların üzərində dairəvi oyuqşəkilli naxış, Dəvəçi ərazisindən əldə olunan baltaların üzərində isə qabarıq düyməcik və ox şəkilli naxışlar üstünlük təşkil edir. Bu isə onların müxtəlif metalişləmə ocağına məxsus olduğunu göstərir.

Azərbaycanın müxtəlif abidələrindən əldə olunmuş Zaqafaziya təbərzin baltaları hərbi iş, təsərrüfat və məşiətin ayrı-ayrı sahələrində istifadə edilməklə bərabər, həm də dini mahiyyət daşımışdır.

Dini mahiyyət kəsb edən baltalara, heç şübhəsiz, dəfinə halında və bəzi varlı qəbirlərdən aşkar olunan təbərzinləri aid etsək yanılmarıq. Çox güman ki, bu baltalar xüsusi olaraq hərbi iş, təsərrüfat və məşiətdə gündəlik işlədilən baltaya oxşar hazırlanaraq , dini ayin və mərasimlərin icrası zamanı istifadə olunmuşdur. Yəqin ki,dini mahiyyət daşıyan belə baltalar xüsusi olaraq göy gurultusu və şimşək allahına qurban verməkdən ötrü hazırlanırdı. Hətta Ön Asiya xalqlarından olan arameylərin İldırım və Şimşək allahı Adadinin xüsusi emblemasıbalta olmuşdur [8, s.21-22].

Azərbaycandan əldə edilən təbərzin baltalar və onlara oxşar formada hazırlanmış dini, estetik səciyyə daşıyan bəzək nümunələrinin təhlili nəticəsində aydın olur ki, son tunc, ilk dəmir dövründə Azərbaycan ərazisində maldarlıq və əkinçiliklə bərabər sənətkarlıq da sürətlə inkişaf etməyə başlamışdır. Bu dövrdə qeyd etdiyimiz kimi metalişləmə sənəti xüsusilə geniş yayılmışdır. Bu da heç şübhəsiz ki, yerli mədənlərdən çıxarılan filizdən istifadə əsasında mümkün olmuşdur. Metalişləmə sənəti ən çox mis mədənləri ilə zəngin olan dağ rayonlarında daha çox yayılmışdır. Bunu arxeoloji materiallar çox gözəl şəkildə bir daha sübut edir.

Sənətkarlığın belə yüksək dərəcədə inkişaf etməsi göstərir ki, artıq tunc dövrünün sonlarında sənətkarlıq əkinçilik və maldarlıqla deyil, eləcə də sənətkarlıqla məşğul olmağa başlayır. Ona görə də onların böyük məharət və zövqlə yaratdıqları bu nümunələrin öyrənilməsi elmi – bədii baxımdanda böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda yerli metallurgiya və metalişləmə sənətini yüksək səviyyədə inkişafını özündə əks etdirən sübutlardan biri də bu ərazidə tapılmış təbərzin baltaların kimyəvi tərkiblərinin analizlərinin nəticəsidir.

Son onilliklərdə aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə olunan təbərzin baltaların bəzilərinin kimyəvi tərkiblərinin analizlərinin nəticələrinə fikir versək, onların tərkibindəki əlavə qatışıqların uyğunluğunu aydın görə bilərik [5, s.95], (cədvəl, 3.1).

| № | Əşya-nın adı | Tapıldığı yer | Kimyəvi tərkibi % -lə | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Cu | Sn | Pb | Zn | As | Sb | Ag | Au | Bi | Ni | Co | Fe |
| 1 | Balta | Daşsalahlı | əsas | 1.67 | 0.15 | 0.1 | 0.05 | 0.02 | 0.15 | 0 | 0.003 | 0.01 | 0.007 | 0.1 |
| 2 | Balta | Daşsalahlı | əsas | 2.4 | 0.3 | - | 4.05 | 0.2 | 0.08 | 0.001 | 0.008 | 0.5 | 0 | 0.07 |
| 3 | Balta | Sarıtəpə | əsas | 0.04 | 0.4 | - | 5.45 | 0.06 | 0.06 | 0 | 0.1 | 0.003 | 0 | 0.1 |
| 4 | Balta | Daşkəsən | əsas | 2.5 | 0.25 | 0.02 | 0.06 | 0.3 | 0.026 | 0 | 0.1 | 0.003 | 0 | 0.1 |
| 5 | Balta | Dəvəçi | əsas | 5.3 | 0.08 | 0 | 0.25 | 0.2 | 0.063 | 0 | 0.061 | 0.02 | 0.01 | 0.01 |
| 6 | Balta | Dəvəçi | əsas | 5.0 | 0.1 | 0 | 0.2 | 0.3 | 0.09 | 0 | 0.001 | 0.015 | 0.013 | 0.07 |
| 7 | Balta | Dəvəçi | əsas | 6.82 | 0.1 | 0 | 0.25 | 0.3 | 0.068 | 0 | 0.001 | 0.03 | 0.015 | 0.05 |
| 8 | Balta | Dəvəçi | əsas | 3.8 | 0.12 | 0 | 0.2 | 0.3 | 0.068 | 0 | 0.002 | 0.02 | 0.02 | 0.07 |
| 9 | Balta | Dəvəçi | əsas | 3.05 | 0.17 | 0 | 0.2 | 0.2 | 0.12 | 0 | 0.002 | 0.1 | 0.01 | 0.05 |
| 10 | Balta | Dəvəçi | əsas | 5.9 | 0.16 | 0 | 0.25 | 0.3 | 0.06 | 0 | 0 | 0.02 | 0.015 | 0.035 |
| 11 | Balta | Daşkəsən | əsas | 2.27 | 2.07 | - | 0.2 | 0.02 | 0.005 | 0.0005 | 0.004 | 0.08 | 0.008 | 0.2 |
| 12 | Balta | Lovayin | əsas | 7.0 | 0.015 | - | 0.5 | 0.015 | 0.019 | 0 | 0 | 0.015 | 0.01 | 0.1 |
| 13 | Balta | Mingəçevir | əsas | 2.8 | 1.45 | 0.64 | 0 | 0 | + | 0 | 0.01 | 0.03 | 0.07 | - |

Kimyəvi analizlərin nəticələri göstərir ki, baltalar əsasən, mislə qalayın və az miqdarda digər elementlərin (qurğuşun, arsen, dəmir, gümüş, nikel, qızıl və b.) süni qatışığından hazırlanmışdır. Çox güman ki, baltaların tərkibində qalayın həcminin 2,5-5% təşkil etməsi, qədim metal işləmə sənətkarlarının hazırladıqları əşyanın istifadə məqsədindən asılı olaraq, onun möhkəmlik və elastiklik dərəcəsini nəzərə alaraq, misin tərkibinə nə qədər başqa elementin əlavə ediləcəyini əvvəlcədən dəqiq etmələrindən irəli gəlir [5, s.94-95].



1 2 3



4 5



6



7

*Tablo 1. Təbərzin baltalar : 1, 2, 3 – Dovşanlı;*
*4, 5 - Mingəçevir; 6 - Cənnətqalası, 7 - Borsunlu kurqanı*

## ƏDƏBİYYAT

1. Aslanov Q.Q. Azərbaycanın tunc təbərzin baltaları. Bakı , Elm, 1982, 66 s.
2. Aslanov Q.Q. Avaz təpədən tapılmış tunc balta // Azərbaycan SSR EA Məruzələri, XX cild, 1964, №1, s.92-93.
3. Cəfərov H.F. Qədim Qarabağ (Tarixi arxeoloji tədqiqat: tunc və erkən dəmir dövrü). Bakı Elm, 2020, 526 s.
4. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində. Bakı, Elm, 2000, 187s.
5. Cəlilov B.M. Azərbaycanda qədim metallurgiya və metalişləmə. Bakı, "Elm və təhsil", 2018, 240s.
6. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, Издательство АН Азербайджанской ССР, 1959,191 с.
7. Джафаров Г. Курганы древних правителей Карабаха: Северный Азербайджан на пороге возникновения раннего государственного строя. Баку, Елм, 2022, 144 с.
8. Ниорадзе Г. Археологические раскопки в селе Квишари // ВГМГ, XV – В. Тбилиси, 1948.
9. Гуммель Я.И. «Археологические раскопки в районах Азерб.ССР // Изв. АзФАН ССР, Баку 1939 № 3, с.61-67.
10. Гуммель Я.И. Раскопки в Нагорно - Карабахской автономной области в 1939 году // Изв. Аз ФАН ССР,1939, № 4, с.77-88.
11. Иессен А.А. К вопросу о древнейшем металлургии меди на Кавказе // Изв. ГАИМК. М.-Л., 1935, вып.120, с.7-216.
12.Нариманов И.Г. Археологические материалы из сел. Дашсалахлы Казахского района // ДАН Азерб. ССР, 1962, № 3, с.96-98.
13. Nagel V., Ştrommenger Y. Qalakənd. Bakı, Diplomat nəşriyyatı, 1999, 185 s.

**ВУСАЛА АЛИЯРОВА**
*Институт Археологии, Этнографии и Антропологии НАНА*

## ТОПОР -СЕКИРА, НАЙДЕННЫЙ В КУРГАНЕ БОЛЬШОЙ БОРСУНЛУ И ЕГО ПАРАЛЛЕЛИ В АЗЕРБАЙДЖАНЕ

Курган Большой Борсунлу занимает особое место среди богатых курганов, расположенных в Тартарском районе Карабаха. В 1981-1987 годах здесь проводились систематические археологические раскопки. Курган Борсунлу выделяется не только в Азербайджане, но и среди всех кавказских памятников своеобразием погребальных камер, богатством артефактов и рядом других особенностей. К металлическим предметам относятся топоры, кинжалы, наконечники стрел, подковы и т. д. можно привести пример.

Древние бронзовые топоры Азербайджана можно охарактеризовать и как боевое оружие, и как орудие труда, используемое в различных сферах хозяйства. Основываясь на широком диапазоне использования, можно сказать, что топоры были важным инструментом для того периода. Именно по этой причине во время археологических раскопок, проводившихся во многих регионах Азербайджана, а также на Кавказе, были исследованы разные типы топоров-секира, использовавшихся для разных целей и имеющих разную форму.

*Ключевые слова*: Карабах, археология, памятники, курган Борсунлу, артефакты, топор-секира.

**VUSALA ALİYAROVA**
*Institute of Archaeology, Etnorgraphy and Antropology of ANAS*

## TABARZIN AX FOUND IN BOYUK BORSUNLU MOUND AND ITS PARALLELS IN AZERBAIJAN

Borsunlu mound occupies a special place among the rich mounds located in the Tartar region of Karabakh. Systematic archaeological excavations were carried out here in 1981-1987. The Borsunlu mound stands out not only in Azerbaijan, but among all the Caucasian monuments due to the specificity of the burial chambers, the richness of the artifacts, and a number of other features. Metal objects include axes, daggers, arrowheads, horseshoes, etc. an example can be given.

The ancient bronze axes of Azerbaijan can be characterized as both a combat weapon and a labor tool used in various fields of the economy. Based on the wide range of uses, it can be said that the axes were important tools for that period. It is for this reason that during the archaeological excavations conducted in many regions of Azerbaijan, as well as in the Caucasus, different types of axes used for different purposes and with different shapes were investigated.

*Keywords*: Karabakh, archeology, monuments, Borsunlu mound, artifacts, axe.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.f.d. Müzəffər Hüseynov, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 069:7**

**AİŞƏ VƏLİYEVA**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
**veliyevaaise95@gmail.com**

# AZƏRBAYCANIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİNİN XATİRƏ-EV MUZEYLƏRİ

*Məqalədə XX əsrin 30-40-cı illərindən etibarən Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş verən dəyişikliklər nəticəsində ölkənin mədəni quruculuğunun digər sahələrində olduğu kimi muzeylərin də inkişafında yeni bir dövrün başlanıldığı qeyd olunub. Bəhs olunan dövrdə görkəmli şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsi üçün onların xatirə muzeylərinin təşkili çox mühüm təşəbbüs idi. 1970-1980-ci illərdə isə respublikada muzey işinin daha da intensiv səciyyə daşıması ilə əlaqədar olaraq tarixi şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ev və xatirə muzeyləri təşkil edilmişdir. Bu tədbirlərin həyata keçirilməsinə xüsusi qayğı və diqqətlə yanaşan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın bir sıra görkəmli xadimlərinin xatirəsi əbədiləşdirilərək onların ev muzeyləri yaradılmşdır.*

*Açar sözlər*: Azərbaycan, muzey, memorial, tarixi və ədəbi şəxsiyyətlər, Heydər Əliyev, xatirə muzeyləri.

***Giriş***. Azərbaycan xalqı çox qədim dövlətçilik ənənələrinə malikdir. Ölkəmizdə ilk muzeylər XX əsrin əvvəllərində meydana gəlsə də, ancaq onun sələfi olan kolleksiyaçılıq ənənələrinin kökü lap qədim zamanlara gedib çıxır. Tarixən Azərbaycanda mövcud olmuş qüdrətli dövlətlərin hökmdarları elmə, mədəniyyətə, incəsənətə böyük dəyər vermişlər. Belə ki, qədim saraylarda, məbəd və kilsələrdə qiymətli əşyalar, nadir sənət əsərləri və s. qorunub saxlanılmışdır. Öz başlanğıcını bu istiqamətdən götürən muzey işi tarixin müxtəlif dövrlərində daha da inkişaf edərək tədricən formalaşmışdır.

Respublikamızda muzey şəbəkəsinin yaradılması tarixi sovet dövrü ilə bağlıdır. Çünki, 20-30-cu illər muzey şəbəkəsi üzrə profilli və diyarşünaslıq muzeyləri, görkəmli ictimai-siyasi və mədəni xadimlərin, yazıçı, alim, bəstəkarların, rəssamların ev muzeylərinin, xatirə-memorial komplekslərinin təşkilində əhəmiyyətli bir dövr oldu [2]. Muzeylər hər bir xalqın sahib olduğu maddi-mədəniyyət nümunələrini qoruyub saxlayan, onların gələcək nəsillərə ötürülməsini təmin edən və ən əsası isə muzey əşyalarının təbliği və nümayişini həyata keçirən mədəniyyət müəssisələridir. Ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanda muzey quruculuğu sahəsindəki tədbirlər daha intensiv xarakter almışdı. Ümummilli lider Heydər Əliyevin yaradıcı insanlara verdiyi dəyərin nəticəsi olaraq Azərbaycan mədəniyyətinin bir sıra görkəmli şəxsiyyətləri olan Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadə, Niyazi, Səməd Vurğunun ev muzeyləri yaradılmışdır [3]. “Azərbaycan xatirəsinin əbədiləşdirilməsi vacib olan dahi şəxsiyyətlərlə şöhrətlənmişdir. Gələcək nəsillər onların həyat və yaradıcılığını bilməlidirlər. Bu sahədə müxtəlif vasitələrdən istifadə etmək lazımdır. Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır” (Heydər Əliyev). Məhz onun hakimiyyəti illərində ölkəmizdə 111 müxtəlif profilli muzey yaradılmışdır.

“Memorial” sözü latınca “memoria” sözündən götürülmüşdür, mənası “xatirə” deməkdir. Adından da məlum olduğu kimi bu muzeylər adına muzey yaradılan şəxsin doğulduğu, bütün ömrünü və ya həyatının müəyyən hissəsini yaşadığı evdə, mənzildə və iş otağında yaradılır. Bu baxımdan xatirə muzeyinin profili də həmin şəxsin fəaliyyət istiqamətinə uyğun olaraq müəyyən edilir. Ölkəmizdə yaradılan memorial-ev muzeyləri sırasında yazıçı və şairlərə, onların həyat və yaradıcılıq fəaliyyətinə həsr olunmuş ədəbi xatirə muzeyləri daha çox üstünlük təşkil edir. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Dahi ədəbiyyat və incəsənət xadimlərinin xatirə muzeylərinin yaradılması haqqında” 16 iyun 1976-cı il tarixli qərarı bu mühüm işə təkan verdi. Memorial-ev muzeylərinin yaradılmasında əsas məqsəd Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirəsininin əbədiləşdirilməsi idi.

Bu istiqamətdə bir ilk olaraq, 1940-cı ildə böyük yazıçı, maarifpərvər ziyalı, filosof Mirzə Fətəli Axundovun Şəkidə ev muzeyi yaradılmışdır. Bu evdə yazıçı uşaqlıq illərinin bir hissəsini və

ilk gənclik illərini keçirmişdir. Yazıçıya həsr olunmuş muzey iki otaqdan- ekspozisiya zalı və Axundzadənin anadan olduğu evdən ibarətdir [4, s.53]. Hazırda muzeyin fondunda 516 ədəd qiymətli eksponat qorunub saxlanılır. Məlumdur ki, görkəmli dramaturq ömrünün əsas hissəni Tiflisdə yaşamışdır. Bu baxımdan onun Tiflis şəhərindəki evində də xatirə muzeyi fəaliyyət göstərir. Otaqlardan biri yazıçının şəxsi əşyaları, yazı masası, kitab dolabı, divar saatı və digər əşyalardan ibarət olmaqla onun iş otağı kimi qorunub saxlanılır. Muzeyin ekspozisiya isə altı zaldan ibarətdir. Bu zallarda Axundovun həyatına aid müxtəlif əşyalar və bir neçə fotolar var.

Artıq 1970-80-ci illərdə Bakıda Səməd Vurğun, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Bülbül, Hüseyn Cavid və digər şəxsiyyətlərin xatirə muzeyləri yaradıldı. 1975-ci il oktyabr ayının 6-da Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın ilk xalq şairi, ictimai xadim Səməd Vurğunun ev muzeyi Qazax rayonunun Yuxarı Salahlı kəndində açılmışdır. Muzeyin ekspozisiya zalı beş otaq və dəhlizdən ibarətdir. Əsas olaraq muzeydə üç otaq- şairin qonaq, iş və yataq otaqları olduğu kimi qorunub saxlanılır. Qonaq otağında isə şairin xalq rəssamı M. Abdullayev tərəfindən çəkilmiş portreti nümayiş etdirilir. Muzeyin qiymətli eksponatları sırasında bir saat da yer almışdır. Şairin iş otağında isə onun yazı stolu, kitab şkafları, son əlyazmaları, papirosları, ailə fotosu mövcuddur. Burada hər şey onun sağlığında olduğu kimi qorunub saxlanılır.

Azərbaycanda görkəmli şəxsiyyətlərin adına açılmış muzeylərdən biri də Hüseyn Cavidin ev muzeyidir. Onun ev muzeyinin yaradılması haqqında 604 saylı ilk qərar Heydər Əliyevin təşəbbüsü ilə AKP MK və Nazirlər Soveti tərəfindən 25 noyabr 1981-ci ildə qəbul edilmişdir. Ev muzeyinin açılışı isə 1984-cü il iyun ayının 9-da olmuşdur. 1995-ci il iyulun 10-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 160 saylı qərarına əsasən Hüseyn Cavidin ev muzeyi yaradılaraq Azərbaycan Elmlər Akademiyasının tabeliyinə verildi. Böyük dramaturqa həsr olunmuş muzeyin ekspozisiyası dörd otaqda yerləşmişdir. Ekspozisiya üçün ayrılmış bu otaqlar şərti olaraq belə adlanır : giriş otağı- “Cavidin əbədiyyəti” , 1-ci otaq - “Cavidin ömrü”, 2-ci otaq - “Cavidin faciəsi”, soldaki zal - “Cavidin şöhrəti”. Ev muzeyindəki ən böyük otaq ekspozisiya olaraq Hüseyn Cavidin və onun oğlu Ərtoğrulun ədəbiyyat və sənətdə qazandıqları sayqı və zəfərləri nümayiş etdirir[5]. Ümumilikdə muzeyin fondunda 9200 eksponat toplanmışdır. Eksponatlar arasında Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən fotoşəkillər, əsərlərinin ilk nəşrləri“İblis və “Siyavuş” əsərlərinin nadir nüsxələri, həmçinin müxtəlif xatirə və ev əşyaları vardır. Qeyd etmək lazımdır ki, yazıçının qızı Turan Cavid atasının ev muzeyinin yaradılmasında yaxından iştirak etmişdir. Hüseyn Cavidin həyatının Naxçıvan dövrü ilə bağlı sənədlər, o cümlədən, muzeyin ekspozisiyasında nümayiş etdirilən qiymətli ləl-cəvahirat əşyalarının əksəriyyətini də məhz Turan Cavid muzeyə bağışlamışdır.

Xatirəsi əbədiləşdirilən şəxsiyyətlərdən biri də Azərbaycan SSR İnqilab Komitəsinin sədri Nəriman Nərimanov olmuşdur. O siyasi xadim olmaqla yanaşı, eyni zamanda maarifpərvər və dramaturq yazıçı kimi Azərbaycan tarixində mühüm rola malik bir şəxsiyyət olmuşdur. N.Nərimanovun xatirə muzeyi 1977-ci il noyabr ayının 6-da açılmışdır. O, bu mənzildə ailəsi ilə birlikdə 1913-1918-ci illərdə yaşamışdır. Muzey dörd otaqdan-yemək otağı, qonaq otağı, yataq otağı və həkim otağından ibarətdir. Ümumilikdə bu otaqlarda Nərimanovun həyatının uşaqlıq illərindən tutmuş müəllimlik və ictimai fəaliyyətinin ilk dövrünü əks etdirən sənədlər, nadir fotolar, məktublar, təltifat sənədləri, həkimlik diplomu, cərrah alətləri, yazdığı reseptlər və digər qiymətli eksponatlar nümayiş olunur.

İncəsənət xadimlərinə həsr olunmuş muzeylərdən biri də görkəmli drijor və bəstəkar Niyazinin xatirəsini əbədiləşdirən mənzil muzeyidir. Muzeyin təşkili haqqında Mədəniyyət Nazirliyi tərəfindən 1990-cı il dekabrın 28-də əmr verilmişdir. 1994-cü il sentyabrın 18-də muzey ziyarətçilər üçün öz qapılarını açmışdır. 1958-ci ildən ömrünün sonuna kimi Niyazi bu evdə yaşamışdır. Mənzil muzeyi beş otaqdan ibarətdir. Bunlardan üçü memorial, digər ikisi otaq isə ekspozisiya və artistik qonaq otağı məqsədilə istifadə edilir. Ekspozisiya zalında maestro Niyazinin həyatının müxtəlif dövrlərinə aid olan fotoşəkillər, əlyazmalar, afişalar və s. eksponatlar nümayiş etdirilir. Bunlarla yanaşı vaxtilə Maestroya bağışlanmış və muzey tərəfindən əldə edilmiş rəngkarlıq əsərləri nümayiş olunur.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-80-ci illər milli muzey işi tarixinə bu sahənin dinamik inkişaf dövrü kimi daxil olmuşdur. Azərbaycan xalqının milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin dəyərini dərindən duyan Heydər Əliyev Moskvanın təzyiqlərindən asılı olmağımıza baxmayaraq, respublikada muzey şəbəkəsinin genişləndirilməsi, o cüm-

lədən, muzeylərin maddi-texniki bazasının gücləndirilməsi məsələsinə hər zaman xüsusi diqqət göstərmişdir. 1980-ci ildə məhz onun təşəbbüsü ilə ölkədə muzey işinin inkişafı məqsədilə xüsusi qərar qəbul edilmişdi. Bu qərara əsasən, respublika Mədəniyyət Nazirliyinin muzeylər idarəsi yaradılmış, muzey işi üzrə respublika elmi-metodiki mərkəzi, muzey sərvətləri və xatirə əşyalarının bədii bərpa mərkəzi təşkil olunmuşdur [5, s.38]. Görülən bu tədbirlərlə yanaşı, Azərbaycan mədəniyyətinin dahi simaları olan Ü.Hacıbəyov, H.Cavid, S.Vurğun, C.Məmmədquluzadə, Bülbül, Niyazi kimi görkəmli şəxsiyyətlərin memorial-xatirə və mənzil-ev muzeyləri yaradıldı.

Azərbaycanlı dahi bəstəkar, musiqişünas, pedaqoq və ictimai xadim, milli operanın və müsəlman Şərqində ilk operanın banisi Üzeyir Hacıbəylinin ev muzeyinin təşkilinə ümummilli lider Heydər Əliyev xüsusi təşəbbüs göstərmişdir. Onun da şəxsən iştirakı ilə 1975-ci il noyabr ayının 20-də muzeyin açılışı olmuşdur. Muzey dörd otaqdan ibarətdir : şüşəbənd, kinozal, sərgi salonu və adminstrativ hissədən ibarətdir. Muzeydə "Koroğlu" operasının əlyazmasının orijinalı, bəstəkarın iş masası, o cümlədən bəstəkarın istifadə etdiyi əşyalar qorunb saxlanılır. Bu evdə hər şey Üzeyir bəyin zamanında olduğu kimi qorunub saxlanılır. Hətta onun yemək masası da üzərindəki bəzi əşyalarla qorunub saxlanılaraq nümayiş etdirilir.

***Nəticə***. Qeyd etdiyimiz kimi, 1980-ci illərdə ölkədə muzey sahəsinə olan dövlət qayğısı respublikanın ayrı-ayrı bölgələrində də görkəmli şəxsiyyətlərin xatirə-ev muzeylərinin açılması işinə təkan vermiş oldu. Elə 1984-cü ildə Azərbaycanda realist nəsrin banisi olan və eyni zamanda ilk azərbaycanlı generallardan biri olan İsmayıl bəy Qutqaşınlının adına ev muzeyi yaradılmağa başlamış, 1986-cı il sentyabr ayının 9-da muzeyin açılışı olmuşdur[6]. 1989-cu ildə isə muzey rəsmi dövlət statusu almışdır. Muzeydə yazıçının həyat və yaradıcılığına dair çox qiymətli əşyalar nümayiş olunur. Ədibə məxsus olan eksponatlar sırasında tüfəng, sikkələr, gümüş sancaqlar, özünün şəxsən topladığı ədəbiyyatlar da vardır.

Azərbaycanın satirik şairi, filosofu və ictimai xadim Mirzə Ələkbər Sabirə həsr olunmuş xatirə muzeyi 1962-ci ildə Şamaxıda şairin 100 illiyi münasibətilə yaradılmışdır. Muzey iki mərtəbəli binadan - 6 sərgi salonu və bir eyvandan ibarətdir. M.Ə.Sabirin uşaqlıq, təhsil illərinə, səyahətlərinə aid olan eksponatlar və şairin sabun bişirdiyi qazanın maketi birinci sərgi salonunda nümayiş olunur. Digər sərgi salonlarında isə məişət əşyaları, "Molla Nəsrəddin" jurnalının nümunələri və digər eksponatlar nümayiş olunur. Sabirin xatirəsinin əbədiləşdirilməsi hər zaman diqqət mərkəzində olmuşdur. Bakı şəhərində onun adına kitabxana təsis edilmiş, Bakıda və Şamaxıda şairin heykəli ucaldılmışdır. Azərbaycan dövləti dahi şəxsiyyətlərin və vətənpərvər ziyalıların xatirəsinin əbədiləşdirilməsini hər zaman əziz tutmuş, bu istiqamətdə onların ev-xatirə muzeylərinin təşkili məsələsinə xüsusi diqqət yetirmişdir.

## ƏDƏBİYYAT

1. Bayramov Adilxan. Sənət, sənət məbədləri, sənət fədailəri. Bakı, "Vətənoğlu" 2015, 333 s.
2. Eyvazova Yeganə "Muzey işi- mədəni quruculuğun mühüm amili" / Xalq qəzeti, 17 iyul 2011, S.6
3. Əmirxanov Sabir. Azərbaycanda muzeyşünaslığın aktual problemləri. Bakı, "Bakı Biznes Universitetinin nəşriyyatı" 2011, 570 s.
4. Həvilova Fəxriyyə. Azərbaycanın xatirə muzeyləri və onların əhalinin mənəvi tərbiyəsində rolu: / tarix üzrə fəlsəfə doktoru dis. / Bakı, 2012, 169 s.
5. Məlikova Elfira. Azərbaycan muzeyşünaslığı. Monoqrafiya, II cild. Bakı, "Elm" 2022, 463 s.
6. AMEA Hüseyn Cavidin ev muzeyi. - www.huseyncavid.com

**АИША ВЕЛИЕВА**
*Азербайджанский Государственный Университет Культуры и Искусств*

## МЕМОРИАЛЬНЫЕ ДОМА-МУЗЕИ ВЫДАЮЩИХСЯ ЛИЧНОСТЕЙ АЗЕРБАЙДЖАНА

Статья повествует о результатах изменений, произошедших в общественно-политической и культурной жизни Азербайджана начиная с 30-х и 40-х годов XX века. В этот период началась новая эпоха в развитии музеев, а также и в других областях культурного строительства страны. В 1970-е 1980-е годы в связи с более интенсивным характером музейной работы

в республике были организованы мемориальные-дома музей выдающихся исторических деятелей литературы и искусства. По инициативе общенационального лидера Гейдара Алиева, уделившего особое внимание осуществлению этих мероприятий, была увековечена память ряда выдаюшихся деятелей Азербайджана и были созданы их дома-музей.

*Ключевые слова*: Азербайджан, музей, мемориал, исторические и литературные деятели, Гейдар Алиев, мемориальные музей.

**AİSHA VALİYEVA**
*Azerbaijan State University of Culture and Arts*

## MEMORIAL-HOUSE MUSEUMS OF PROMINENT PERSONALITIES OF AZERBAIJAN

As a result of changes that took place in the socio-political and cultural life of Azerbaijan from the 30s and 40s of the 20th century, a new era has begun in the development of museums, as well as in other areas of cultural construction in the country. In the mentioned period, the organization of memorial museums was a very important iniative to perpetuate the memory of prominent personalities. In the 1970s-1980s, due to more intensive nature of museum field in the republic home and memorial museums of prominent historical figures, literary and artistic figures are organized. With the iniative of the national lider Heydar Aliyev, who took special care and attention to the implementation of these events, the memory of a number of outstanding figures of Azerbaijan was immortalized and their home museums created.

*Keywords*: Azerbaijan, museum, memorial, historical and literary figures, Heydar Aliyev, memorial museums.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: s.ü.f.d. Nurlana Bağırova, t.e.d. Qabil Əliyev.*

**UOT 39; 572.9**

**ÜLFƏT SƏMƏDZADƏ**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun doktorantı*
**ulfet.semedzade@bk.ru**

# GƏNCLƏRƏ SOSİAL KATEQORİYA KİMİ YANAŞMA

*Tədqiqatın əsas məqsədi gənclərə sosial kateqoriya kimi yanaşmanın nəzəri əsaslarının xüsusiyyətlərinin öyrənilməsinə yönəlmişdir. Tədqiqat işi müqayisəli təhlil və məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatda gənclərə sosial kateqoriya kimi yanaşma nəzəri əsaslarının prinsipləri sistemləşdirilərək kompleks araşdırılmışdır. Həmçinin tədqiqat işində gənclərə sosial kateqoriya kimi yanaşmanın müasir dövrdəki vəziyyəti analiz edilmişdir.*

*Tədqiqat nəticəsində gənclərə sosial kateqoriya kimi yanaşmaın nəzəri əsaslarının spesifik xüsusiyyətləri təhlil edilmiş, həmçinin bu nəzəriyyədən istifadənin yüksək perspektivli olması müəyyən olunaraq bu nəzəriyyənin tətbiqinin verə biləcəyi səmərələr qeyd olunmuşdur. Tədqiqatın məhdudiyyətləri daha geniş praktik informasiya tələb etməsidir. Tədqiqatın praktiki əhəmiyyəti gənclərə sosial kateqoriya kimi yanaşmanın tətbiqinin nəzəri əsaslarının spesifik xüsusiyyətlərindən yararlanaraq, əsaslı şəkildə iş prinsipinin geniş miqyasda yaradılmasıdır.*

*Açar sözlər*: gənc, kateqoriya, sosial kateqoriya, yanaşma.

***Giriş***. Hər bir insanın həyat dövrü bir neçə əsas yaş dövrünü əhatə edir. Gənclik yeniyetməlik və yetkinlik arasında ara mərhələdir, bu, bioloji aspektdə fərdin yeniyetməlik dövrünün başa çatmasını, sosial aspektdə isə onun həyatının öz müqəddəratını təyin etməsi və müstəqillik əldə etməsi ehtiyacını xarakterizə edir [1]. Həyat dövrünün bir mərhələsi olaraq gənclik bioloji cəhətdən universaldır, lakin onun spesifik yaş hədləri, onunla əlaqəli sosial statusu və sosial-psixoloji xüsusiyyətləri sosial-tarixi xarakter daşıyır və sosial sistemdən, mədəniyyətdən və sosiallaşma qanunlarından asılıdır. Beləliklə, İ.M.İlyinskinin sözlərinə görə, məsələn, 20 yaşına çatmış bir şəxsin hansı yaş kateqoriyasına aid olduğunu aydın şəkildə izah etmək həmişə mümkün deyil [9]. Obyektiv reallıq əsas verir ki, bəzi insanlar artıq 13-14 yaşında işləyir, bəziləri isə 30 yaşında təlim prosesini davam etdirirlər, 13-14 yaşlarında bəzi insanlar müstəqil, bəziləri isə 30 yaşında valideynlərinin himayəsində və s. olur. Gənclik həyat dövrünün yaş mərhələsi kimi bir sıra paradiqmatik müddəalarla səciyyələnən gəncliklə əlaqələndirilir:

- gəncliyi sosial birlik, konkret mədəni altsistem (gənclərin subkulturası və s.) kimi şərh etmək olar;
- gənclərin həyat axınında cəmiyyətin təsiri (sosiallaşma) ilə bağlı ümumi həyat situasiyalarını, davranış və şüur xüsusiyyətlərini ayırmaq mümkündür;
- gənclik mühitinin diferensiallaşmasını tanımaq lazımdır .

Nəticələri elmi və dövri mətbuatda təqdim olunan bir çox fundamental əsərlər, monoqrafiyalar və elmi məqalələr, eləcə də tətbiqi tədqiqatlar “gənclik” kateqoriyasının ciddi və çoxölçülü təhlilinə həsr edilmişdir [2].

Sosioloq İ.S. Kohn gəncliyi hər ikisi tərəfindən müəyyən edilən yaş xüsusiyyətləri, sosial status və sosial-psixoloji xüsusiyyətlərin məcmusuna əsaslanan sosial-demoqrafik qrup kimi müəyyən etmişdir [9]. Vladimir Timofeeviç Lisovski demişdir ki, gəncliyin mahiyyətini müəyyən edən amil onun sosiallaşma mərhələsindən keçən, peşə, mədəni və digər sosial funksiyaları mənimsəmiş, cəmiyyət tərəfindən müəyyən sosial rolların mənimsənilməsi və yerinə yetirilməsi üçün hazırlanmış bir nəsil kimi sosial xüsusiyyətləridir [9].

Həyat dövrünün bir mərhələsi kimi gənclik cəmiyyətin strukturundan və mədəniyyətindən asılı olaraq formalaşan sosial ideya və dəyərlər aspektində öyrənilir və gənclik bu aspektdə obyektiv və subyektiv bir kateqoriya kimi qəbul edilir[3]. Bununla bağlı polşalı tədqiqatçı Y.Holasinski belə əsaslandırırdı: “Gənclik təbii və ya hormonal vəziyyət deyil, mədəniyyət elementi, sosial institutdur, ona görə də deyə bilərik ki, hər bir yeni gənc nəsil özünəməxsus şəkildə ayrı kateqoriyadır” [9].

Polşa alimini tamamlayan Q.Qrise deyirdi ki, gənclik özünəməxsus bir anlayış kimi, subkultura kateqoriyası kimi bütün formalarında müəyyən sosial parametrlərə tabedir [9].

Gənclərin yaşadığı cəmiyyəti dərk etmədən onun xüsusiyyətlərini anlamaq mümkün deyil, gəncliyin özünü dərk etmədən cəmiyyətin gələcəyini dərk etmək mümkün deyil ki, bu da daha çox gənc nəslin sosial mövqeyindən asılıdır [4]. Buna görə də V.İ.Dobrynin və S.N.İkonnikova, İ.S.Kon, gəncləri sosial quruluşdakı mövqenin xüsusiyyətləri, fəaliyyət xüsusiyyətləri, dünyagörüşü, maraq və ehtiyacların unikallığı, sosial münasibətlərin müxtəlifliyinə cəlb edilməsi ilə xarakterizə olunan xüsusi sosial-demoqrafik qrup kimi təyin etmişdir [9].

Gənclər yaş və sosial-demoqrafik qrup kimi başa düşülür və indiki dövrdə cəmiyyətin ən mobil hissəsi olduqları üçün ən son elmi biliklərin fəal istehlakçısıdırlar. Gənclər biliklərin formalaşmasına, istehlakına, dəyişdirilməsinə və konkret dəyərlərdən azad edilməsinə təsir göstərə bilən informasiya axınlarını mənimsəyir, beləliklə, cəmiyyətin və dövlətin inkişaf istiqamətinin vektorunu müəyyən edir [5].

Buna görə də A.S. Panarin gəncləri müasir cəmiyyət tərəfindən ən son peşəkar, elmi, texniki, sosial-mədəni və ərazi mühitinin sürətli inkişafı üçün nəzərdə tutulmuş konkret sosial-demoqrafik qrup kimi şərh edir [9].

Təriflərin hər biri gənclərin həyatının bu və ya digər tərəfini səciyyələndirir, lakin ayrıca götürüldükdə onun mahiyyətini tam açmağa imkan vermir. Bu baxımdan, gənclərin hərtərəfli səciyyələndirilməsi və fərdi müəyyən bir sosial qrupla əlaqələndirməyə imkan verən meyarların seçilməsi üçün gəncliyin inteqrativ sosioloji tərifini formalaşdırmaq lazımdır [6].

Burada nəzərə alınmalıdır ki, birincisi, gənclərin yaş həddi və sosial-psixoloji xüsusiyyətləri, ikincisi, gənclərin sosial statusunun, rol funksiyalarının və sosial-mədəni davranışının xüsusiyyətləri, üçüncüsü, gənclərin sosial-demoqrafik qrup kimi xüsusiyyətləri, dördüncü, gənclərin sosial adaptasiyası və fərdiləşməsinin vəhdəti kimi sosiallaşma prosesi, beşincisi, öz müqəddəratını təyinetmə, gənclərin özünü müəyyən bir icma (qrup) kimi tanıması zəruri amildir. Bu zaman gənclik müəyyən yaş həddi və bununla əlaqədar olaraq sosial-psixoloji xüsusiyyətlərə malik olan sosial qrupdur; sosial status və rol funksiyalarının xüsusiyyətləri ilə xarakterizə olunur [7].

Qeyd etmək lazımdır ki, gənc fərdlərə münasibətdə onların icmasını xarakterizə etmək üçün "gənclik" anlayışı ilə yanaşı, "gənc nəsil" termini də kifayət qədər tez-tez istifadə olunur [8].

Gənc nəslin ən mühüm xüsusiyyətlərindən biri yaşdır ki, bu, əksər hallarda fərdin yaşadığı illərin sayı kimi müəyyən edilir və onun həyatının xronoloji komponentini təmsil edir. Bununla belə, gənclər, biososial birlik olaraq, yalnız xronoloji yaş parametrləri ilə xarakterizə olunmur, elmi ədəbiyyatlarda bir insanın bioloji, sosial və psixoloji yaş inkişafı arasındakı əlaqə məsələsi uzun müddətdir müzakirə olunur. Belə ki, bioloji yaş orqanizmin inkişafının müəyyən mərhələlərini təsbit edir və müvafiq semantik əlamətlərlə müəyyən edilir, psixoloji yaş fərdin psixi inkişafının spesifik mərhələlərini əks etdirir, sosial yaş isə bu yaş qrupunun cəmiyyətdə hansı yeri tutduğunu göstərir [10]. Gənc nəslin yaş həddi sosial birlik olaraq onun psixoloji xüsusiyyətlərini əvvəlcədən müəyyən edir. Əgər bioloji baxımdan gənclik fizioloji yetkinliyə, sosial baxımdan isə qərar qəbul etməkdə müstəqilliyə nail olmaq dövrüdürsə, psixoloji baxımdan hər bir fərd üçün gənclik xarakterin formalaşması və özünü identifikasiya dövrüdür.

***Məqalənin praktik əhəmiyyəti və tətbiqi***. Məqalədən müəllimlər, tələbələr və geniş oxucu kütləsi istifadə edə bilərlər.

***Nəticə***. Dünya birliyi bütün dövrlərdə gələcəyə olan əsas ümid və istəklərini gənc nəsillə əlaqələndirir, çünki o, hakim sosial-iqtisadi sistemi müəyyən həyat şəraitinə uyğunlaşdıraraq dəyişdirməyə və ya modifikasiya etməyə qadir olan real sosial qüvvədir. Odur ki, insanlar gələcəkdə yaşamaq və özünü qorumaq üçün köhnəni təkmilləşdirməli və yeni dəyərləri, icma qaydalarını, əxlaq və əxlaq normalarını axtarmalı idi. Bu baxımdan, sosial-demoqrafik qruplardan biri kimi gənclərə nəzəri və praktiki maraq təsadüfi deyildir ki, onların sayı çoxluğuna, mütəşəkkilliyinə, təfəkkürünün çevikliyinə, yaradıcılıq potensialının xüsusiyyətlərinə, fəaliyyətlə məşğul olmaq qabiliyyətinə malikdir.

İnnovativ potensialını reallaşdıran ən mobil sosial qrup kimi gənclər sosial münasibətlər sisteminə daxil edilir və onları transformasiya edərək, cəmiyyətə yeni dəyərlər təqdim edir, onun gələcək inkişaf istiqamətlərini əvvəlcədən müəyyənləşdirirlər.

Müasir gəncin formalaşmasında həm yerli sosial-mədəni mühit amilləri, həm də qlobal düzən amilləri, mədəniyyətlərin və sivilizasiyaların dialoqu, elm, incəsənət və kütləvi kommunikasiyalar formasında qlobal mənəvi istehsal fəal iştirak edir.

Gənclər sosial inkişafda həm milli, həm də qlobal tendensiyalardan təsirlənir. Çoxsaylı araşdırmalar göstərir ki, gənclər arasında bir tərəfdən ənənəvi dəyərlərinin əhəmiyyəti qalır, digər tərəfdən həyata utilitar və istehlakçı münasibətə əsaslanan liberal (Qərb) dəyərlərin təsiri, firavanlıq və şəxsi uğur əldə etmək istəyi artır.

Gənclərin şüurunda dəyər plüralizmi inkişaf edir, fərdiyyətçilik və fərdin özünü dərk etməsinin inkişaf tendensiyası və gənclərin primitivləşməsi kimi ən sadə dəyərlərin (ailə, sağlamlıq, iş) əhəmiyyəti artır.

Şəxsi uğur əldə etməyə kömək etməyən bütün qeyri-iqtisadi kateqoriyalar (sosial-mədəni, siyasi, mənəvi) çox vaxt arxa plana keçir. Nəticədə gənclərin ictimai proseslərdə iştirakdan uzaqlaşdırılması, gənclərin məyusluğu, qəzəbi və aqressivliyi, sosial sabitliyə və ümumən ictimai asayişə təhlükə olan zorakılıqdan öz həyat şəraitini dəyişdirmək vasitəsi kimi istifadə etmək istəyi artır.

Nəzəriyyənin sosial reallıqla uzlaşdırılması özü ilə əsaslı təkliflər və həllər gətirir. Bu baxımdan gəncliyə yanaşma zamanı fərdi, psixoloji meylləri nəzərdən qaçırmamaq lazımdır. Müasir cəmiyyət modeli tamamilə yeganə məqsədə - gəlirli istehsalın genişləndirilməsinə tabedir, bunun üçün istehlakı müvafiq olaraq artırmaq lazımdır.

## ƏDƏBİYYAT

1. DENSTAD Yrjar, Finn, "Youth Policy Manual, How to Develop a National Youth Strategy", Council of Europe, Strasbourg, 2009
2. European Commission, "Erasmus+ Programme Guide, Valid as of 1 January 2014, Version 3 09/04/2014", Brussels 2014
3. European Commission, "Working With Young People: The Value of Youth Work in the European Union", Brussels, 2014
4. JENKINSON, Hilary, "Youth Work in Ireland – A Decade on", Irish Journal of Applied Social Studies, Vol.13(1), 2013, pp. 4-17
5. LAURİTZEN, Peter, "Youth Work, Internal Working Paper", Council of Europe, Strasbourg, 2005
6. Participants in the Final Seminar of the Series Challenging 'Social Inclusion': Perspectives for and from Children and Young People, (2004) "Setting the agenda: Social inclusion, children and young people", Children & Society, Vol. 18, 77-105.
7. Riele, Kitty (2006) "'Youth 'at risk': Further marginalizing the marginalized?", Journal of Education Policy, Vol. 21, No. 2, 129–145.
8. Roberts, Ken (2003) "Change and Continuity in Youth Transitions in Eastern Europe: Lesson for Western Sociology", The Editorial Board of The Sociological Review, Blackwell Publishing Ltd., 484-504.
9. Елишев С.О. Молодёжная проблематика и подходы к определению понятия «молодёжь" в социологии // Вестник Московского Университета, Серия 18, Социология и Политология, 2017, №3, с.200-223. - https://vestnik.socio.msu.ru/jour/article/view/296/250
10. Pinar Enneli. Türkiyede Toplumsal Bir Kategori Olarak Yoksul Gençlik // Antropoloji, Yıl 2010, Sayı 23, s.41-67. - https://dergipark.org.tr/en/download/article-file/646137

**УЛЬФАТ САМАДЗАДЕ**
*докторант Института археологии, этнографии и антропологии НАНА*

## ПОДХОД К МОЛОДЕЖИ КАК СОЦИАЛЬНОЙ КАТЕГОРИИ

Основной целью исследования является изучение особенностей теоретической основы подхода к молодежи как социальной категории. Исследовательская работа выполнена на основе таких методов исследования, как сравнительный анализ и логическое обобщение. В ис-

следовании были систематизированы и всесторонне исследованы принципы теоретической основы подхода к молодежи как социальной категории. Также в исследовательской работе проанализировано современное состояние подхода к молодежи как к социальной категории.

В результате исследования были проанализированы особенности теоретической основы подхода к молодежи как социальной категории, определены преимущества применения этой теории и определена ее высокая перспективность. Ограничения исследования заключаются в том, что оно требует больше практической информации. Практическая значимость исследования заключается в широкомасштабном создании принципа работы с использованием особенностей теоретической базы применения подхода к молодежи как социальной категории.

*Ключевые слова*: молодой, категория, социальная категория, подход.

**ULFAT SAMADZADEH**
*Doctoral student of ANAS Institute of Archaeology, Ethnography and Anthropology*

## APPROACHİNG THE YOUTH AS A SOCIAL CATEGORY

The main goal of the research is to study the features of the theoretical basis of the approach to young people as a social category. The research work was performed on the basis of research methods such as comparative analysis and logical generalization. In the study, the principles of the theoretical basis of the approach to youth as a social category were systematized and comprehensively investigated. Also, the current state of the approach to youth as a social category was analyzed in the research work.

As a result of the research, the specific features of the theoretical basis of the approach to the youth as a social category were analyzed, and the benefits of the application of this theory were determined and the use of this theory was determined to be highly promising. The limitations of the study are that it requires more practical information. The practical significance of the research is the wide-scale creation of the principle of work, taking advantage of the specific features of the theoretical basis of the application of the approach to youth as a social category.

*Keywords*: young, category, social category, approach.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Əliağa Məmmədli, t.e.d. İsmayıl Məmmədov.*

UOT 94(479.24)

**İSMAYIL HACIYEV**
*Akademik, AMEA Naxçıvan Bölməsi*
**haciyev.i1951@gmail.com**

# MİRZƏBAĞIR ƏLİYEVİN "QANLI GÜNLƏRİMİZ" ƏSƏRİ NAXÇIVANIN 1918-1920-Cİ İLLƏR TARİXİ ÜÇÜN MÜHÜM VƏ ETİBARLI MƏNBƏDİR

*Məqalədə Müsəlman Milli Komitəsinin (sonralar Milli Şurasının), Naxçıvan Araz-Türk Cümhuriyyətinin və Müvəqqəti hökumətin katibi işləmiş Mirzəbağır Əliyevin 1918-1920-ci illərdə Naxçıvanda baş verən erməni-azərbaycanlı qırğınından, Naxçıvan şəhərində, Naxçıvanın müxtəlif bölgələrində ermənilərin törətdikləri vəhşiliklərdən, A.Ozanyanın Naxçıvana hücumundan, türk hərbi hissəsinin Naxçıvana gəlməsindən və əhaliyə göstərdiyi köməkdən, yaradılmış qurumların fəaliyyətindən bəhs olunur. Burada İran, Rusiya, İngiltərə, Fransa və Amerika dövlətlərinin Naxçıvanda baş verən hadisələrə müdaxilə etmələri də əks olunur. Gəlinən nəticə ondan ibarətdir ki, bu əsər Naxçıvanın 1918-1920-ci illər tarixini öyrənmək üçün mühüm mənbələrdən biridir.*

*Açar sözlər: Mirzəbağır Əliyev, Qanlı günlərimiz, Naxçıvan, Milli Komitə, katib, soyqırım, mənbə.*

***Giriş***. Azərbaycanın milli istiqlal hərəkatının fəal iştirakçısı, Naxçıvanın erməni təcavüzündən və xarici müdaxilədən azad olunmasında fəal iştirak edən Mirzəbağır Əliyev 1918-1920-ci illərdə Milli Komitənin – Milli Şuranın katibi kimi həmin illərdə baş verən hadisələrin iştirakçısı olduğundan onları "Qanlı günlərimiz" əsərində-gündəliyində əks etdirmişdir. M.B.Əliyev (1882-1938) Naxçıvan şəhər qəza məktəbində və İrəvan gimnaziyasında təhsil almış, 1908-1911-ci illərdə Yaycı (Culfa), 1912-1916-cı illərdə Nehrəm kənd məktəblərində müəllim işləmişdir. Onun ərəb, fars, rus dillərini bildiyindən Müsəlman Milli Komitəsinin, sonra Milli Şuranın, Araz-Türk Cümhuriyyətinin və Müvəqqəti hökumətin katibi işləmişdir. 1920-ci ildən Daxili İşlər Şöbəsinin ümumi şöbəsində rəis olmuşdur [6]. Dövrünün ziyalıları ilə ünsiyyət saxlamış, onların bir çoxu, xüsusilə Hüseyn Cavidlə dostluq etmişdir [9, s.184]. Bədii yaradıcılıqla məşğul olmuş, "Səyyar" təxəllüsü ilə şeirlər yazmışdır. Naxçıvan sovetləşəndən sonra burada müəllim və vəkil işləmişdir. Qardaşı, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yüksək rütbəli zabiti, qoşun komandiri olmuş Nağı Əliyevə görə incidilmiş, 2 dəfə Dövlət Təhlükəsizlik Komitəsində saxlanılmış, nəticədə xəstəliyə tutulmuş, 1938-ci ildə qəflətən ürək tutmasından vəfat etmişdir.

Mirzəbağır Əliyev ərəb əlifbası ilə 250 səhifəlik şagird dəftərində gündəlik şəklində yazılmış xatirələrində erməni təcavüzkarlarının Azərbaycana və xalqımıza qarşı törətdikləri vəhşilikləri, habelə xarici dövlətlərin Naxçıvanda baş verən hadisələrə müdaxiləsi, Türkiyənin Naxçıvana qardaşlıq köməyi ilə bağlı iştirakçısı və şahidi olduğu hadisələri təfərrüatı ilə qələmə almışdır [9, s.184].

Mirzəbağır Əliyev əsərin əvvəlində yazır: "Qanlı günlərimiz" Naxçıvanda erməni-müsəlman müharibəsinə dair bir əhvalatdır ki, gələcək vətəndaşlar üçün tarixi yadigar deməkdir" [9, s.5]. Maraqlıdır ki, müəllif hadisələri aylar və günlər üzrə, gündəlik formasında qeyd etmişdir.

Əlyazmanı müstəqilliyin ilk illərində - 1993-cü ildə filologiya elmləri namizədi (hazırda elmlər doktoru, professor Tərlan Quliyev tərəfindən Azərbaycan əlifbasına (kiril) çevirib çap etdirib. Tarix elmləri doktoru, kitabın elmi redaktoru Həsən Əlibəyli kitaba Ön söz yazmışdır: "Bu əlyazma bir dəyərli qaynaq kimi ona görə diqqəti cəlb edir ki, müəllif iştirak etdiyi, gördüyü və eşitdiyi hadisələri qələmə almışdır. Bu qaynaq belə bir nəticəyə gəlməyə imkan verir ki, erməni millətçiləri tarix boyu Azərbaycanla bağlı fitnəkarlığa həmişə diqqətlə hazırlaşmış, uzunmüddətli plan əsasında əl atmış və atırlar" [9, s.3-4].

Mirzəbağır Əliyev əsərin həm Müqəddiməsində, həm də Ərzi-Məqsədində "ermənilərin müsəlmanlar əleyhinə qiyam edəcək xəyalinə düşərək əhvayi-təşəbbüsdə bulunurdular... Onlar daima cürbəcürə rollar oynayıb planlar tökür idilər" [9, s.7].

Müəllif qeyd edir ki, ermənilər silahlanıb qoşun və təşkilatlar düzəldib səfərbərlik edirdilər. Kazaklarla da əlaqə yaradıb, onları müsəlmanlara qarşı atəş açmağa təhrik edirdilər. Aydın olur ki, ermənilərin kazaklardan birinin silahını oğurlayıb və bunu müsəlmanların-azərbaycanlıların üzərinə

atması ilə aranı qarışdırdılar. Qaraxanbəyli ermənilərinin bunu törətməsi 21 dekabr 1917-ci ildə olmuşdur. 22 dekabrda kazaklar "Xoylu" məhəlləsindəki evlərdə axtarışlar aparmış, 22-sində isə kazaklar və ermənilər müsəlman məhəllələrini gülləyə tutmuşlar. Bir sıra kazaklar tərkisilah edilib, onların silahları ermənilərə satıblar. Bununla da hətta müsəlmanlar arasında ədavət yarandı.

Əsərdə 1918-ci il yanvar ayının 17-də Əznəbürtdə (Çalxanqala – İ.H.) ermənilər 22 nəfər müsəlman qadın və kişiləri qətlə yetirmələri qeyd olunur. Ermənilər bu hadisəni yayındırmaq üçün başqa bir versiyaya əl atdılar: "Şeyx Məhəmməd (indiki Şıxmahmud) və Dəmirzindan (?) kəndlərindən 2 erməni Cəhri kəndinin müsəlmanları qətlə yetiriblər" [9, s.10]. Qəza komissarı İbrahim Qədimov həmin kəndlərə gedib, bunun yalan olduğunu aşkar etmişdir. Müəllif qeyd edib ki, ermənilərlə müsəlmanlar arasında qarşıdurma qızışırdı.

Birinci müharibənin baş verməsini müəllif 2 mart – 15 aprel tarixində olduğunu göstərir. 42 gün ərzində baş verən hadisələr qeyd edilmişdir. Martın 2-də Qaraxanbəyli erməniləri araba ilə silah apararkən müsəlman gənclər bunu bilib arabanı saxlamaq istərkən hər iki tərəfdən atışmalar baş vermiş, ölənlər olmuşdur. Martın 3-dən müsəlman topları erməni hissələrini bombardman edirdi. Şahab və Əlixan məhəllələrinin müsəlmanları məharət göstərirdilər.

Ermənilər tələfat verdiklərindən martın 7-də sülh təklif edirlər. Lakin müəllif qeyd edir ki, ermənilərin fikri müsəlmanları top və qüvvə gələnədək aldatmaq idi. Müsəlmanlar martın 8-də Xalatovun binasını tutub xeyli patron və silah əldə etdilər. Cahan Poladovun imarətinə hücum edilsə də tuta bilmədilər. 7 və 8 martda 4 nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdi.

Martın 11-də sülh danışıqları aparıldı, lakin sülh baş tutmadı. Martın 13-də Zaviyə məhəlləsinə hücum edən ermənilərin 6 nəfəri qətlə yetirildi. Nehrəm və Şahtaxtı kəndlərindən 100-ə qədər adam Naxçıvan şəhər əhalisinə köməyə gəldi.

Maku sərdarı Murtuzaqulu xan Erməni Milli Komitəsinə və Cəfərqulu xana məktub göndərmişdi. Məktublarda hər iki tərəfə sülh təklif edilirdi. Lakin tərəflər buna əməl etmədilər və martın 16-20-də atışmalar davam etdi. Hərbi şura sədrinin müavini Hacı Mehdi Bağırov hər məhəllədən 25 nəfərin iştirakı ilə gecə yarısı erməni hissəsinə hücum etməyi təklif etdi. M.Əliyev qeyd edir ki, onun bu təklifi mümkün olmadı [9, s.17].

Ermənilər təklif edirdilər ki, müsəlmanlar toplarını təhvil verdikdən sonra onlarla sülh müqaviləsi bağlana bilər. Təbii ki, bu baş tuta bilməzdi. Kitabda qeyd olunur ki, ermənilər gündə bir müsəlman kəndini atəşə tutub əhalisini qətl və qarətə düçar edirdilər, Naxçıvan əhalisi isə bundan məlumatsız idi.

Martın 26-da Milli komitənin iclası olur və burada Rəhimxan Naxçıvanski hərbi rəis, Hacı Mehdi Bağırov müavini seçilir. Martın 28-i hadisələri göstərilib: İran təbəəsi Yəhya 3 ermənini qətlə yetirdi. Sərkisovun ipək zavodundan müsəlmanlar qənimət aparan vaxt milis rəisi Heydər Bənəniyarlı Yəhyanı vurub öldürdü. Naxçıvan əhalisi onu məzəmmət etdilər.

Martın 31-də Əlincəçay nahiyəsindən həyəcanlı xəbərlər alındı. Erməni silahlıları Bənəniyar, Qızılca, Saltax, Noraşen (Göydərə), Xoşkeşin kəndlərini yandırmış, qətl və qarətə düçar etmişlər. Bu gün müsəlmanlar Qaraxanbəyli kəndinə 12 saata yaxın hücum etsələr də 25 nəfər itki verib geri çəkilmişlər.

Aprelin 3-də Müsəlman Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirov erməni Milli Komitəsinin razılığından sonra 31 martda qətlə yetirilən müsəlmanlardan 6 nəfərinin meyitlərini alıb şəhər qəbristanlığında dəfn etdilər [9, s.23]. Bir gün sonra Canpoladovun evinin altına lağım vurulmuş və partladılmışdı.

Aprelin 8-də Erməni Milli Komitəsi tərəfindən Müsəlman Milli Komitəsinə sülhə dair məktub göndərilmişdi. Məktubda aşağıdakı təkliflər irəli sürülürdü: 1).Müsəlman toplarının dəmiryol xətti açılanadək erməni qoşununun ixtiyarına verilməsi. 2).Kənd və qəsəbə yolları erməni və müsəlmanlar tərəfindən mühafizə olunması. 3).Dəmiryol xəttinin hər iki millət tərəfindən mühafizə olunması. 4).İran adamlarının şəhərdən çıxarılması. 5).Xoylu və Sarvanlar məhəlləsinin müsəlmanlarını 1 il müddətinədək öz məhəllələrinə övdət etmələri. 6).Erməni və müsəlmanları tərksilah etmək. 7). Hər iki tərəfdən 100 nəfər olmaqla milisin yaradılması. Birinci maddənin əksinə qərar qəbul edildi.

Aprelin 10-da, gecə saat 6 radələrində Əkbər xan Naxçıvanski Naxçıvana 149 İran tüfəngçiləri ilə gəldi. Bir gün sonra atışma qızışmış, müsəlmanlardan ölənlər olmuşdu. Aprelin 12-də isə Hərbi

rəis Rəhim xan, Mirzə Nəsrulla Əmirov və Abbasqulu bəy Tahirov sonuncunun evində ermənilərlə görüşüb atəş açmamağı razılaşdılar. İrəvandan Əli xan Makinski və Hacı Rza Naxçıvana sülhü bərpa etmək üçün gəlmişlər. Məlumat alındı ki, Ənvər paşanın əmri ilə İqdıra 25 min süvari və piyada olan türk əsgərləri göndərilir. Osmanlı sərkərdəsi Bəkir Sadiq əfəndidən Müsəlman Milli Komitəsinin sədri Mirzə Nəsrullah Əmirova məktub göndərilmişdi. Məktubda Naxçıvan müsəlmanlarına kömək göstərəcəyini bildirirdi.

"Cəfərqulu xanın xəyanəti" başlığı ilə verilən məlumatlar aprelin 16-26-da baş verən hadisələri əhatə edir. Cəfərqulu xanın ailəsi ilə Makuya getməsi xəyanət kimi qəbul olunmuş və buna imkan verilməmişdir. Ermənilər müsəlmanların 1500-dən çox qoyunlarını aparmışlar. Müsəlman və erməni nümayəndələr məclisə yığışıb qərar qəbul etdilər ki, 1 nəfər müsəlman və 1 nəfər ermənidən ibarət komissarlar yaradılsın. Şəhər rəisliyinə Abbasqulu bəy Tahirov və Ruben Babaxanov təyin olundular [9, s.30]. Xanlıqlar və Ruben Babaxanov təyin olundular [9, s.30]. Xanlıqlar kəndindən 21 nəfər erməni vaqonlara minərək Naxçıvana gəlmək istərkən Təzəkənd qabağında kürdlər qatarı saxlayıb onları qarət etmiş, Levon ağanı isə öldürmüşlər. Aprelin 26-da məlumat yayılmışdı ki, türk əsgərləri Şahtaxtına çatmışlar.

"Türklərin Naxçıvana çatması xəbəri" hissəsində isə 27 aprel – 2 iyul hadisələri qələmə alınmışdır. Aprelin 27-də Tunbul və Əbrəqunus ermənilərinin 3 azərbaycanlını qətlə yetirməsi məlumatı yayıldı. Rəhim xan ilə Əmirov arasında soyuqluq aradan qaldırıldı. Məlum oldu ki, ermənilər batalyon yaradırlar, onların sayı 1800 nəfərə çatırdı. Erməni qoşunu Vənənd üzərinə hərəkət etmişdi. Məlumat alındı ki, Xarazyan istefa verib. Əmirov və Cəfərqulu xan erməni Milli Komitəsinə gedib Xarazyanın vəzifəsində qalmasını bildirdilər. Mayın 3-də Naxçıvan əhlinə məlumat çatdı ki, Osmanlı hissələri Qızılboğaza çatıb. Bununla əlaqədar Müsəlman Milli Komitəsinin üzvləri paşaları qarşılamaq üçün həmin əraziyə yollanıblar [9, s.34].

Mayın 3-də Əmirovun evinə toplaşan müsəlmanlara məlumat verildi ki, Xəlil bəy və Hüsnü bəy Qaraçuq tərəfə keçib. Lakin o Naxçıvan əhlinə çatdırıb ki, biz Şahtaxtı və Şərura getməliyik, 10 günə kimi Naxçıvanda görüşəcəyik.

Mayın 5-də topçu Hüsnü Əfəndi Şahab məscidinin həyətində ictimaiyyətə təqdim olundu. Hüsnü bəy xahiş etdi ki, onun ixtiyarına qüvvətli cavanlar versinlər.

Məlumat verilmişdi ki, Culfanın Əbrəqunus və digər erməni kəndlərinin erməniləri Qazançı kəndinə toplaşırlar. Gündəlikdə bəzən xronologiyanın pozulması, hadisələrin verilməsində uyğunsuzluq olduğunu da görürük. Qeyd olunduğu kimi, Hüsnü bəy mayın 5-də ictimaiyyətə təqdim edilməsi verilsə də, Əmirov mayın 15-də Şahtaxtında olan Xəlil bəydən xahiş edir ki, Hüseyn bəyi Naxçıvana göndərsin [9, s.36, 39].

Müəllif qeyd edir ki, Xəlil bəy Məşədi Bağır Rzayev vasitəsi ilə həm azərbaycanlı, həm də erməni milli komitələrinə məktub göndərmişdi. Mayın 16-da saat 4-də Xəlil bəyin məktubu iclasda oxundu. Xəlil bəy hər iki komitə sədrlərinə bildirdi ki, əhali tərk-silah olunsun və onun sərəncamına hər biri 5 nəfər versin. Həmin gün Şıxmahmud və Kültəpə erməniləri tərəfindən tutulan 35 nəfər müsəlman azad olundu. Erməni Milli Komitəsi Xəlil bəy tərəfindən onlara göndərilən məktuba inanmadıqlarını bildirmişlər. Əmirov isə 2 nəfərlə Şahtaxtıya Xəlil bəylə görüşə gedir.

Əmirov barəsində müxtəlif sözlər deyildiyindən o mayın 19-da istefa vermiş, onun yerinə müvəqqəti olaraq müavini Cabbar Kələntərov icra etməyə başlamışdı. Mayın 20-də isə Mehdiquluxan Diyarbəkirli təyin olundu [9, s.42].

Bu günlərdə ermənilər yenə də müsəlmanları qətlə yetirir, onların mal-qarasını sürüb aparırdılar. Noraşendə 5, Badamlıda 1 nəfər müsəlman öldürülmüşdü. Əbrəqunus erməniləri Bənəniyar, Ərəzin, Noraşen müsəlmanlarından 6 kişini və 1 qadını tutub aparmış, Xanağa kəndində isə bir neçə adamı qətlə yetirmişlər.

Müsəlman nümayəndələrindən Mirzə Nəsrulla Əmirov, Mehdiqulu xan Diyarbəkirli, Abbasqulu bəy Tahirov, Şahbaz ağa Kəngərlinski Şahtaxtıya Xəlil bəylə görüşə yollanırlar. Müəllif məlumat verir ki, mayın 30-da Xazaryan və Diyarbəkirli Xəlil bəylə Şahtaxtında görüşürlər. Bu vaxt Şahtaxtına türk əsgəri qüvvələri daxil oldular. Həm də məlumat yayılmışdı ki, min nəfərlik Türkiyə qüvvəsi Culfa körpüsünə çatmışlar.

İyunun 6-da qəhrəman türk zabitlərindən topçubaşı Hüsnü bəy, Helmi bəy və Şükrü bəyin qatarla Naxçıvana gəlməsi haqqında məlumat verilir. Onlar Bəylər ağa Kəngərlinin evində yerləşdilər. Bir neçə gündən sonra isə Xəlil bəyin adyutantları şəhərə gəldi.

"Qanlı günlərimiz" əsərində Andranik Ozanyanın Naxçıvan ərazisinə gəlməsi, körpü, tunel və dəmiryolunun dağıdılması haqqında da məlumat verilir. Onun əsas məqsədi Osmanlı qoşunlarının irəliləməsinin qarşısının alınması və yerli azərbaycanlıların öldürülməsi idi. Digər mənbə və tədqiqat əsərlərində də bu məsələ ya fakt kimi verilmiş, ya da tədqiq edilmişdir [1, s.56; 10, s.44].

Xəlil bəy hakimi olduğu Şahtaxtı və Şərurda inzibati və hərbi təşkilatlarla bərabər, xalqın rifahını yüksəltməyi, Osmanlı Ordusunun gəlməsini asanlaşdırmağı da düşünürdü. Onun rəhbərliyi ilə Şahtaxtında topçu hissəsi yaradılırdı. 4 top, 150 əsgər və 165 atdan ibarət bir süvari batareyası yaradıldı [9, s. 49; 6, s.51].

"Qanlı günlərimiz" əsərində əhali arasında vəba xəstəliyinin yayılması və insanların bu xəstəlikdən ölməsi barədə də məlumat verilir. Belə ki, iyunun 5-də 4, 6-da 13, 7-də 10, 8-də 15, 14-də 2, 16-da 4, 17-də 20, 18-də 5, 19-da 9, 20-də 5 nəfərin və başqa vaxtlarda da insanların vəbadan ölməsi qeyd olunur. Həmin vaxtlarda Naxçıvanda buğda və arpanın satış qiymətlərində də dəyişiklik baş verməsi göstərilir. İyunun 9-da buğdanın pudu 82 manata, arpanın pudu 62 manata satıldığı halda, 10 gün sonra – iyunun 20-də buğdanın pudu 50, arpanın pudu isə 45 manata endi.

Ümumiyyətlə, M.Əliyevin gündəliyində erməni-azərbaycanlı qarşıdurmasına daha çox yer verilib. O, gördüyü, məlumat aldığı, iştirakçısı olduğu hadisələrlə yanaşı, eşitdiyi məlumatları da qeyd edir. Özünün də yazdığı kimi bəzən bu məlumatlar düz çıxmırdı. Əsərdə bəzi yer adlarının yazılışında, tarixlərdə də səhv və uyğunsuzluqlara rast gəlinir. Lakin 1918-1920-ci il hadisələri haqqında bu qədər məlumat verən ikinci bir mənbəyə təsadüf edilmir. Hətta elə kənd adları yazır ki, indi bu adda kəndlərə rast gəlinmir. Məsələn, Gərfə, Baradaş (Paradaş – İ.H.), Quraq (güman ki, Qıvraqdır), Binənigar (Bənəniyar – İ.H.), Əvəzəmin, Qəzniyə, Hecaldin (çox güman ki, Camaldın), Zinədin, Urvəzin və başqaları.

Gündəlikdə ermənilərin müxtəlif kəndlərə hücumları, kənd sakinlərini qətlə yetirmələri haqqında məlumatlara da yer verilir. 30 iyun və 1 iyul günlrindən bəhs edərkən Xanağa kəndində ermənilərin vəhşiliklərindən, 400 nəfər erməni yaraqlılarının kənd sakinlərinə divan tutmalarından, kəndin mollası Hacı molla Əlinin külfəti ilə bir yerdə qətlə yetirmələrindən bəhs edir [9, s.65]. Qızılca, Ərəzin, Xoşkeşin, Bənəniyar və b. kəndlərə erməni hücumları qeydə alınmışdır.

Kitabın quruluşunda da bəzən uyğunsuzluqlar görünür. Dördüncü başlıq Üçüncü müharibə adlanır və bu 3 iyul-23 oktyabr 1918-ci il hadisələrindən bəhs edir. Səkkizinci başlıq da Üçüncü müharibə adlanır və 27 iyul 1919 – 12 dekabr 1920-ci il hadisələrini əhatə edir. Birinci üçüncü müharibə Nehrəm hadisələrinə həsr edilib. A.Ozanyanın iyulun 4-də Nehrəm kəndinə hücumu, top və pulemyot səslərinin şəhərdən eşidildiyini yazır. Müəllifin əldə etdiyi məlumata görə A.Ozanyanın qüvvələri nehrəmlilər tərəfindən məğlub edilmiş və 60-a qədər silahlı silahlarını itirmişlər. Bu barədə Naxçıvan şəhərindən nehrəmlilərə köməyə gedən və axşama yaxın qayıdan Hacı Heydər və Məşədi Heydər məlumat vermişlər.

M.Əliyev yazır ki, artıq bu vaxt Osmanlı qüvvələri Şornuya (Şorsuya – İ.H.) çatmış və ermənilər üzərinə hücum etmişlər. Başqa bir türk hərbiçilərinin Culfa tərəfindən keçib erməniləri atəşə tutması xəbəri yayılmışdı. İyulun 7-də Əliabad və Şeyx Mahmud kəndləri türk əsgərləri tərəfindən tutulmuşdu. Saat 12 radələrində Türkiyə əsgərləri şəhərə daxil olub Canpoladovun evini əhatə etmişdilər. Günorta Rəhim xanın evində türklər üçün ziyafət təşkil edilmişdi. Yamxana və Təzəkənd ermənilərinin təslim olmaları göstərilir [9, s.71].

Gündəlikdə şəhərin və ərazinin idarəetmə strukturunda dəyişikliklərin edilməsindən bəhs edilir. İyulun 11-18-də komissar Məhəmməd Əlixan zabit Mahmud bəy, Əfəndi Fazil Nehrəm, Qaraçuq və Bulqan (kitabda Bölqan kimi verilib) kəndlərindən 200-ə qədər yerli əsgər toplayıb şəhərə gətirirlər. Türkiyə XI alay komandanı Süreyya bəy də artıq şəhərdə idi. Bu zaman Müsəlman Milli Komitəsi ləğv edilib yerində jandarm, ədliyyə və bələdiyyə idarələri bərpa edildi. Jandarma komandanlığına Məhəmməd Əli xan, ona müavin Qəni bəy Vəzirov təyin edildi. Bələdiyyə idarəsinə rəis Cəfərqulu xan, üzvləri isə Hacı Abdulla Şeyxov, Tağı Nağdəliyev təyin edildilər. Ədliyyə məhkəməsinə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov, Vəliağa Kəndlinski, Abbasqulu bəy Tahirov və İbrahim paşa

Kəngərlinski təyin olundular. Avqustun 9-da Sürəyya bəyin yerinə Əli Şəfiq bəy XI alay komandanı vəzifəsini yerinə yetirməyə başladı. Şəhər jandarma komandanlığına isə Türkiyə zabitlərindən ən çalışqanı Cavid bəy (kitabda bəzən Cavad bəy kimi də verilir) rəhbərlik etməyə başladı [9, s.74-75].

Qeyd olunur ki, avqustun 6-da axşam saat 8-də komandan Kazım Qarabəkir oğlu 20-yə qədər zabit və jandarmların müşayiəti ilə Naxçıvana gəldilər. Kazım Qarabəkir paşanı Rəhim xanın evinin qarşısında nəğmələr və marşlarla qarşılayırlar. Avqustun 11-də idarəetmə strukturlarında bir sıra dəyişikliklərin aparılması haqqında qeydlər etmişdir. Belə ki, Qəni bəy Culfa əşyai-ənbar məmuru, Rəhim xan qardaşı Cəfərqulu xanın əvəzinə bələdiyyə rəisi, İbrahim bəy Qədimov Şərur nahiyəsi müdiri, Cabbar ağa Vəzirov şəhər polis məmuru təyin olundular. Şəhərdə məhəllə muxtarları müəyyən edildi. Şərurun xəritəsini hazırlanması Rəşid bəy Əfəndiyev, Mirzəbağır Əliyev və Mirzəkazım Qulubəyova tapşırıldı.

Kazım Qarabəkir paşa avqustun 23-də şəhər kazarmasında ittifaqımızla və gələcək işlərimizlə əlaqədar geniş nitq söyləyir. Avqustun 24-31-də baş verən hadisələri müəllif gündəliyində yazmışdır: İrəvan müsəlmanlarının təxliyyə olunması, ermənilərin boş evlərinin müzaidə yolu ilə satışa çıxarılması, erməni əsirlərindən 40 nəfərin şəhərə gətirilməsi, məhəllə muxtarlarına araba, at, qatır, dəvə verilməsi, Dərələyəz mahalının Cul, Keşişkənd və Martiruk kəndlərinə Andranik və Yaponun dəstələrinin hücum etmələri, Naxçıvan mahalının Gal, Bist, Paradaş kəndlərinə ermənilərin toplaşmaları və b. hadisələr.

M.Əliyev sentyabr hadisələrindən bəhs edərkən Rəhim xanın yerinə Hacı Məhəmməd Bağırovun bələdiyyə rəisi, Mirzə Tağı Nağdəliyevin Qəmərli nahiyyə müdiri, Abbasqulu bəy Tahirzadənin şəhər komissarı təyin olunduğunu yazır. Məhəllə hökumətinin rəisi Əli Şəfiq bəyin Qəmərliyə getməsini də qeyd edir. Müəllif Araz-Türk Cümhuriyyətinin yaradılması haqqında da məlumat verir. Qeyd edir ki, Qəmərli kəndinə gedən nümayəndələr bu gün – oktyabrın 19-da Naxçıvana qayıtdılar. Onlar hökumətin tərkibini xalqa elan etdilər. Nədənsə müəllif noyabrın 19 əvəzinə oktyabrın 19-u yazmışdır [9, s.82].

Araz-Türk Cümhuriyyətini yaradan nümayəndələr 1918-ci il noyabrın 18-də Qəmərlidə toplaşıb hökuməti yaradıblar. Lakin Qəmərli Ermənistanla sərhədə yaxın olduğundan hökumət fəaliyyətini Naxçıvanda davam etdirmişdir. Qeyd etməliyik ki, Lətif Hüseynzadə də cümhuriyyətin yaradılmasını oktyabr ayında baş tutduğunu yazır [5, s.46]. Oktyabr ayında türk qoşunları Naxçıvanda idi və onlar Mudros müqaviləsindən sonra – noyabrın 1-dən Naxçıvandan getməyə başlamışlar. Araz-Türk Cümhuriyyətinin Qurtuluş Bəyannaməsində Cümhuriyyətin yaradılması tarixi 18 Təşrini-sani (noyabr) 1334-cü ildə (1918) olduğu göstərilir [4, s.208]. Türkiyə Arxiv materiallarına istinad edən İ.E.Atnur da Cümhuriyyətin 18 noyabr 1918-ci ildə yarandığını qeyd edir [6, s.106].

"Qanlı günlərimiz" əsərində hökumətin tərkibi verilmişdir.

1. İbrahimağa Qarslı – vəziri-cəng (Cahangiroğlu İbrahim bəy – Hərbi nazir – İ.H.)
2. Əmir bəy Nərimanbəyov – hərbi diktator (Qurtuluş Bəyannaməsində Əmir bəyin titulu "əvvəlki diktator" kimi yazılıb – İ.H.)
3. Bağır Bəy Rzayev – vəziri – mülkiyyə (İnzibati nazir Bağır bəy – Məhəmmədbağır Rzayev (Rzazadə) Azərbaycan Parlamentinin üzvü olmuşdur – İ.H.)
4. Qəmbər Əli bəy Bənənigari – vəziri-maliyyə (Maliyyə naziri Qəmbər Əlibəy Bənəniyarlı – İ.H.)
5. Məhəmməd bəy Məhəmmədbəyov – vəziri-ədliyyə (Quruluş Bəyannaməsində Məhəmməd Bəyzadə - İ.H.)
6. Həsən bəy Səfiyev – vəziri-xariciyyə (xarici işlər naziri – Həsənağa Şərifzadə - İ.H.)
7. Mirzə Hüseyn Vaizi İrəvani – şeyxül-islam (Mirzə Hüseyn Mirzə Həsənzadə - şeyxülislam – İ.H.)
8. Əliəşrəf bəy (Kürd) – müfti (Fəxri üzv və aşirətlər rəisi – general Əli Əşrəfbəy – İ.H.)
9. Kürdlərin müftisi (Lütfi Xoca Ekid Əfəndi – İ.H.)

Əsərdə ad, soyad və bəzi vəzifələrdə yanlışlıqlar da vardır ki, biz mötərizə içərisində onun düzgün formasını vermişik. Bununla belə müəllif Əmir bəyin soyadını düzgün olaraq Nərimanbəyov vermişdir [9, s.82]. Bunu L. Hüseynzadə "Araz şahiddir" xatirələrində də təsdiq edir [5, s.46]. Lakin bir sıra müəlliflər Əmir bəyin soyadını Zamanbəyzadə, Vəzirov, Əkbərzadə, Əkbərov kimi yazmış-

lar. Əldə etdiyimiz Arxiv materialları da onun soyadının Nərimanbəyov olduğunu təsdiq edir [3, s.154-158].

M.Əliyev Naxçıvan nümayəndələri olan Mirzə Nəsrullah Əmirov və Bağır bəy Rzayevin Qars şəhərinə getmələri, orada Osmanlı paşası ilə görüşmələri və həmin səfərin yekunları ilə əlaqədar oktyabrın 23-də şəhər əhalisinə izahat vermələrini qeyd edir. 22 maddə ilə səfərin yekunları ümumiləşdirilir. Və yekunda belə bir fikri də çatdırır ki, Mirzə Nəsrullah Əmirov Əli Şəfiq bəyin yerinə məhəllə hökumətinin rəisi təyin olundu [9, s.84].

"İkinci müharibəyə dair" başlığında verilən materiallar 10 noyabr 1918-25 aprel 1919-cu il hadisələrinə həsr edilir. Burada yenə də üstün yer erməni-azərbaycanlı qarşıdurmasına həsr olunub. Müəllif göstərir ki, noyabrın 14-də IX ordu komandanı Rüşti bəy tərəfindən göndərilən teleqram məhəllə hökumətinin iclasında oxundu. Teleqramda ermənilərin Naxçıvan kəndlərinə basqınlarından bəhs olunurdu. Bu zaman Məhəmməd İmanzadə məclisə daxil olub Xəlil bəy və İbrahim ağa Şahtaxtinski cənablarının dillərindən söylədi ki, Naxçıvan ərazisində erməni hökuməti elan edilib. Məlum oldu ki, Xəlil bəy Naxçıvandan hicrət etmək istəyir. Əmirov Xəlil bəylə görüşdükdən sonra 2 topu Naxçıvanda saxlayıb, qalanlarını Şahtaxtı kəndinə apardı. Ailəsini də aparmaq istərkən qaynatası Məhəmməd Əli xan buna razı olmadı. Bu hadisə əhalini həyəcana gətirdi. Həmin gecə bölük komandiri Xəlil İmanov ailəsini, qardaşlarını götürüb İrana apardı. Şəhərdə hərbi vəziyyət elan olunmuş və fərarilərin cəzalanacaqları elan olunur.

Xəlil bəyin Mirzə Nəsrullaha göndərdiyi məktub noyabrın 26-da açıqlandı. Aydın oldu ki, erməni hökumətinin yaradılması yalan imiş və bunu dəqiqləşdirmək üçün Bağır Rzayev bir yoldaşı ilə IX ordu komandanı adından göndərilmiş teleqramı aydınlaşdırmaq üçün Qəmərliyə getdilər. Mirzə Nəsrullah İrəvana baş muxtar Rzaqulu bəy Teymurova məktub göndərərək əhalinin şayiəyə inanmamağı bildirir.

Əmir bəy Qəmərli kəndindən Şərur nahiyəsinə gəldiyindən ermənilər yürüş edib müsəlmanların evlərinə və ərzaqlarına yiyələnmişlər. Müsəlman dəstələri dekabrın 5-də hücum edib erməniləri Qəmərlidən qovmuşlar. Əylisdə, Havuşda, Xaçıkdə, Sədərəkdə, Dəhnədə baş verən hadisələrdən də bəhs edilir. Ermənilərin irəliləməsi xəbəri əhalini təşvişə salmışdı. 500 nəfər kişi və qadın qatar ilə Culfaya, bir qrupu isə arabalarla Bulqan vasitəsi ilə İrana keçdilər. Şahtaxtı kəndi yaxınlığında Məşədi Əsgər ağa Həmzəyevin dəstəsi ilə ermənilərin döyüşməsi sonuncuların məğlub olması ilə nəticələnmişdi.

Dekabrın 10-da məlumat yayıldı ki, Kəlbəli xanın komandanlığı ilə süvarilər Şərur nahiyyəsinin Zilvə (əslində Zeyvə - İ.H.) kəndində erməniləri məğlub etmiş, xeyli hərbi qənimət və azuqə ələ keçirmişlər [9, s.95]. Naxçıvan qoşunu Dəmirçi tərəfdən hücum edib 30-a qədər ermənini öldürmüş və qənimətlər ələ keçirmişlər. Tabor komandiri Bəhram xanın hissələri erməni qüvvələrini Şərurdan çıxara bildilər. Kəlbəli xanın I və II bölmələri dekabrın 16-da şəhərə daxil oldular (Şərur nəzərdə tutulur – İ.H.).

Bu gün (18 dekabr) Andranikin adından Milli komitə rəisi Mehdiqulu xan Diyarbəkir adına bir məktub alındı. Məktubda "Naxçıvan qəzasından olan qaçqınların öz əvvəlki yerlərinə qayıtmağını, Bakıdan Şuşaya qədər olan yolların açılmasını sizə təklif edirəm" yazılmışdı.

Adranikin məqsədi erməniləri bu ərazilərə qaytarmaq idi. Mehdiqulu xan Diyarbəkirinin Andranikə çox ciddi və sərt cavab verməsini M.Əliyev kitabında vermişdir: "Çox təəssüflə deyirəm ki, cənabınızın məktubu bu gün təzə stil olaraq dekabrın 18-də bizə vüsal oldu... Bizlər mərbur nümayəndələrin müraciətlərinin müntəziriyiz. Bizlər kəmali-məmnunniyyət ilə ingilis və Azərbaycan nümayəndələrini istiqbal etmək arzusunda varıq, hərgah bunlar təşriffərma olarsalar piş əz vəqt istiqbal etmək üçün məlumat yetirməyimizi rica və təmənna ediriz. Əzaminə mühacirlərini kəndi yerlərinə buraxmaq məsələsinə gəldikdə, biz məzkur nümayəndələrin İrəvandan müraciət etməmələrinədək razılıq verə bilmərik. Hərgah bu mühacirlər məzbur nümayəndələrin övdət etməklərin gözləməyib müsəlləh surətdə bu tərəfə yürüş etmiş olarsalar, ol vaxt üz verən hadisə barəsində biz özümüzdən məsuliyyəti kənar edib, Sizləri günahkar və məsul etməliyik. Naxçıvan Milli komitəsinin sədri Mehdiqulu xan Diyarbəkiri" [9, s.99-100].

Şərur nahiyyəsinin baş komandanı Kərim xan İrəvandakı vəziyyətlə bağlı müsəlmanları, məhəllələrdə parlamentə nümayəndələrin seçilməsi, erməni vəkillərindən müsəlmanlara təklifləri, parla-

ment seçkisinə dair müzakirələr, ingilislərin Naxçıvana gəlmələri, onlarla aparılan danışıqlar, Əmir bəyin həbs olunması, bu sahədə Hacı Mehdi Bağırovun mövqeyi, onun evinin təftişi, xəyanətinin üzə çıxması, Azərbaycan hökumətinin Naxçıvana göndərdiyi hərbçilər və b. məsələlər gündəlikdə öz əksini tapmışdır. İngilislərin Naxçıvandakı mövqeyi və fəaliyyətləri kitabda verilmişdir.

1919-cu il 25 apreldə Milli şura yerinə Milli komitə yaradıldı. M.N.Əmirov, K.A.Bayramov, H.B.Muradəsilov, Ə.B.Sultanov, M.C.Məhəmmədağa və K.Muxtar Nehrəmi Milli komitəyə üzv təyin olundular.

Kitabın 7-ci bölməsi Erməni hökumətinin Naxçıvana gəlməsinə həsr edilib. Bu 5 may 1919-cu ildən 23 iyul 1919-cu ilə qədər olan dövrü əhatə edir. Müəllif yazır ki, bu gün (5 may – İ.H.) saat 10 radələrində, erməni hökuməti tərəfindən 3 heyəti şəhər dəmiryol stansiyasına daxil oldu. Bunlar ingilis generalı Devinin müşayiəti ilə gələnlər Xatisov, Naxçıvana təyin edilən erməni general-qubernatoru və bir neçə nəfər erməni məmuru idi [9, s.122]. Lakin Devi və erməni məmurları qatarla Culfaya gedib səhər Naxçıvan şəhərinə gəldilər. Milli şuranın zalında görüş keçirildi və Xatisov Naxçıvanda erməni hökumətinin müvəqqəti olaraq yaradılmasını və müsəlmanların ona tabe olmasını bildirdi. Müsəlmanlar isə “biz erməni hökumətinə tabe olmarıq və onunla yaşamaq bizə müsaidə etməz” sözlərini ümumi bir səslə söyləyirdilər. Xatisov müsəlmanlara bildirdi ki, sizi bu əmrə tabe olmağı ingilis dövləti məcbur edir. Qeyd edək ki, Naxçıvanda erməni hökumətinin yaradılması və ingilislərin onları himayə etməsini ilk mənbələrdə olduğu kimi, Q.Mədətov, Ə.Əliyev, İ.Musayev və digər tarixçi alimlərin əsərlərində də göstərilmişdir [8, s.50-51; 1, s.67-68; 10, s.129-160]. Mayın 19-da qatarla erməni mühacirləri, süvariləri və general-qubernator Naxçıvana gəldilər. M.Əliyev yazır ki, müsəlmanlar erməni hökumətinə məmurlar verməmək barədə qərar qəbul etdilər. 21 mayda isə 250 nəfərdən ibarət piyada və atlı dəstələr Naxçıvana doldular. Bu günlərdə bir neçə müsəlmanın boğulmuş nəşi tapıldı. Naxçıvan şəhərində ermənilər Hacı Hüseyn bəy Camalbəyovu və Kərbəlayı Musanı öldürmək istəmiş, lakin istəklərini həyata keçirə bilməmişlər. Belə vəziyyətdə bir neçə ailə şəhəri tərk etdi. Sabiq süvari komandanı Hüseyn ağa Novruzov, sabiq nahiyə müdiri Cəfər bəy, Mirzə Əli bəy Bektaşi, şəhər sakinləri Heydər Mikayılzadə, İbrahim Xəlil, Kərbəlayi Mirzə Əlizadə və şəhər bazarında 12 müsəlmanı həbs etmişdilər. Erməni piyada və süvariləri Bulqan və Qaraçuq kəndlərinə daxil olub əhalini tərk-silah etmək istərkən ciddi qarşıdurma yaranmışdı. Cəhrinin ən rəşadətli və cürətli övladı Kərbəlayi Kərim xan 6 nəfər ermənini tutub həbs etmiş və həbs edilən müsəlmanlarla əvəzlənməsini “erməni hökumətinə” çatdırmışdı. Naxçıvan əhalisi ermənilərə tabe olmadığından, onlara tutarlı cavab verdiklərinin nəticəsi idi ki, “erməni hökuməti” məmurlarının ailələri 13 iyulda qatarla İrəvana getməyə başladılar.

Kitabın sonuncu -8-ci bölməsi Üçüncü müharibəyə həsr edilmişdir. Bu bölmədəki hadisələr 20 iyul 1919-cu ildən 13 yanvar 1921-ci ilədək olanlardan bəhs edir. Müəllif qeyd edir ki, 20 iyulda qarşı tərəflərin bir neçə saat çəkən atışmaları baş verdi. İyulun 21-də Nehrəm köyündən Kərbəlayı Muxtar Hacı Cəfər Əli oğlunun müşayiəti ilə 200-ə qədər süvari və piyada Naxçıvan müsəlmanlarına köməyə gəlirlər. Erməni qoşunu Şahab, Əlixanlı və Sarvanlar məhəllələrini top atəşinə tutdular. 22 iyul gecəsindəki atışmasında erməni dəstəsinə böyük bir tələfat verildi. Cəhri tərəfdən 400 nəfər erməni qüvvəsi Cəhriyə hücum etsələr də onlara böyük tələfat verdirildi. 24 və 25 iyulda müsəlmanlar tərəfdə vəziyyət ağırlaşdı və onlara məlumat verildi ki, Şahtaxtı cəbhəsində müsəlman döyüşçülər geri çəkilirlər. Əhali təşvişə düşüb İran tərəfə keçməyə başlayırdılar, bu zaman 100-ə qədər müsəlman Araz çayında boğulur. 30-31 iyulda məlumat alınır ki, bolşeviklərdən 1200 nəfər şəhərə daxil olmaqdadır. Xəlil paşanın dəstəsi isə Şahbuza gəlmiş və Naxçıvana doğru hərəkətdədirlər. İrəvana danışığa getmiş Heydərqulu bəy, İsgəndər xan və Hidayət bəy axşam şəhərə qayıdırlar. Bunlar müsəlmanların və şəhər əhalisinin ruhunu bir az yüksəldir [9, s.118-131].

M.Əliyev kitabın sonunda 10 və 12 oktyabr 1920-ci il hadisələrindən bəhs edir. Burada bəhs olunmasa da, digər əsərlərdən məlumdur ki, Şərur-Naxçıvan hissəsində süvari dəstə və top, pulemyotlarla birlikdə 6 minədək əsgərdən ibarət yarınizami qoşun hissələrimiz olmuşdur [10, s.143]. 1919-cu ilin mayın ortalarından iyulun sonlarınadək – təxminən iki aylıq bir müddətdə Naxçıvan bölgəsində erməni “idarəçiliyi” peyda olmuşdu. Kəlbəli xanın başçılığı ilə Naxçıvan qüvvələri bölgədən erməniləri qovmuş, “erməni idarəçiliyini” ləğv etmişlər. ADR-in Baş naziri N.Yusifbəylinin parla-

mentdəki çıxışında dediyi kimi, Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək təbii orqanizm saydığı Azərbaycanla birləşdirməyə hazır olduğunu bildirmişdir.

"Qanlı günlərimiz" əsərində 10 oktyabr 1920-ci il hadisələrindən bəhs edilmiş və göstərilmişdir ki, Bakıdan Şura hökuməti tərəfindən komissar Vəlibəyov, Əsgərov və digər təşkilatçılar Naxçıvana göndərilmişdir. 12 dekabr və 13 yanvar (1921) hadisələri də qələmə alınmış, bolşeviklərin hakimiyyəti ələ almaları və Qırmızı ordu qüvvələrinin şəhərə daxil olmaları göstərilir.

Kitabda Mirzəbağır Əliyevin qızı, Azərbaycan Respublikasının xalq artisti Zəroş Həmzəyevanın "Atam haqqında bir neçə söz" xatirəsi də verilmişdir. Xatirədə "Qanlı günlərimiz" gündəliyinin yazılması, onun qorunması və Əlyazmalar Fonduna təhvil verilməsinin əhəmiyyəti də göstərilir. Sonda ərəb və fars sözlərinin izahlı lüğəti də verilmişdir ki, oxucular üçün də bunun əhəmiyyəti vardır.

***Nəticə***. Beləliklə, Mirzəbağır Əliyevin "Qanlı günlərimiz" əsəri Naxçıvan bölgəsində 1918-1920-ci illərdə baş vermiş hadisələr, erməni-müsəlman qarşıdurması, türk qoşunlarının Naxçıvana köməyə gəlməsi və b. bu kimi hadisələr gündəlik formasında qələmə alınmışdır. Müəyyən çatışmazlıqlara baxmayaraq Naxçıvan bölgəsinin 1918-1920-ci illər tarixini öyrənmək üçün bu gündəlik ilk mənbə olaraq mühüm əhəmiyyətə malikdir.

ƏDƏBİYYAT

1. Əliyev Ə. Əlincə yaddaşı: Naxçıvan – 1914-1992. Bakı: Gənclik, 1997, 304 s.
2. General Veysəl Ünüvar. Naxçıvanda 8 ay bolşeviklərlə üz-üzə (1920-1921). Naxçıvan: "Əcəmi" NPB, 2014, 96 s.
3. Hacıyev İ. Araz-Türk Cümhuriyyəti. Naxçıvan: Əcəmi NPB, 2021, 160 s.
4. Hacıyev İ., Kəlbizadə E. Naxçıvan tarixinə dair qaynaqlar. Bakı: Elm və Təhsil, 2018, 240 s.
5. Hüseynzadə L. Araz şahiddir. Xatirələrim (1918-1920-ci illər). Bakı: Nurlan, 2001, 80 s.
6. İbrahim Ethem Atnur. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi NPB, 2013, 496 s.
7. Quliyev M. Mirzə Bağır Əliyev – fəal maarifçi və milli istiqlal sevdalısı. 525-ci qəzet, 2020, 10 oktyabr.
8. Mədətov Q. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958, 164 s.
9. Mirzə Bağır Əliyev. Qanlı günlərimiz (1918-1920. Naxçıvan). Bakı: Azərnəşr, 1993, 142 s.
10. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: BDU, 1996, 328 s.
11. Naxçıvan ensiklopediyası. İki cilddə, I cild. İstanbul, 2005, 356 s.

**ИСМАИЛ ГАДЖИЕВ**
*Академик, Нахчыванское отделение НАНА*

## НАШИ КРОВАВЫЕ ДНИ" МИРЗАБАГИРА АЛИЕВА - ВАЖНЫЙ И НАДЕЖНЫЙ ИСТОЧНИК ДЛЯ ИСТОРИИ НАХЧЫВАНА 1918-1920 ГГ.

В статье Мирзабагира Алиева, работавшего секретарем Мусульманского национального комитета (впоследствии Национального совета), Нахчыванской Аразо-тюркской республики и Временного правительства, рассказывается об армяно-азербайджанской резне в Нахчыване в 1918-1920 гг., обсуждаются зверства, совершенные армянами в городе Нахчыване и различных районах Нахчывана, о нападении А. Озаняна на Нахчыван, прибытие турецкой воинской части в Нахчыван, и помощи, оказанной населению. В ней также обсуждается деятельность созданных структур.

В статье также отражается вмешательство Ирана, России, Англии, Франции и Америки в события, происходящие в Нахчыване. Делается вывод, что данное произведение является одним из важных источников для изучения истории Нахчывана в 1918-1920 гг.

*Ключевые слова*: Мирзабагир Алиев, наши кровавые дни, Нахчыван, Национальный комитет, секретарь, геноцид, источник.

**ISMAIL HAJIYEV**
*Academic, Nakhchivan Department of ANAS*

## MIRZABAGIR ALIYEV'S WORK "OUR BLOODY DAYS" IS AN IMPORTANT AND RELIABLE SOURCE FOR THE HISTORY OF NAKHCHIVAN IN 1918-1920

The article deals with the Armenian massacre in Nakhchivan in 1918-1920, the atrocities committed by Armenians in the city and in various regions of Nakhchivan, A.Ozanyan's attack on Nakhchivan, the arrival of the Turkish military unit in Nakhchivan and its assistance to the population and the activities of the established institutions in the work of Mirzabagir Aliyev, who worked as the secretary of the Muslim National Committee (later the National Council), the Republic of Aras and the Provisional Government.

The intervention of Iran, Russia, England, France and the United States in the events in Nakhchivan is also reflected here. The conclusion is that this work is one of the important sources for studying the history of Nakhchivan in 1918-1920.

*Keywords*: Mirzabagir Aliyev, Our bloody days, Nakhchivan, National Committee, secretary, genocide, source.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*

**UOT 930:314**

**AYDIN MƏMMƏDOV**
*Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*
**aydin.mmmdov.67@ mail.ru**

# XX ƏSRİN II YARISI RUSİYA ALİMLƏRİNİN AİLƏ İLƏ BAĞLI TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

*Ailə qurmaq və nikah insanın bütün ömrü boyu qəbul etdiyi qərarlar arasında ən həyati əhəmiyyət kəsb edən və ən geniş nəticələrə malik olanıdır. Çünki evlilik təkcə müvəqqəti xoşbəxtlik deyil, həm də əbədi sevincdir. Bu, ailə sevincini ailə həyatı quran cütlüklərə yaşatmaqla yanaşı, həm də onların övladlarının, nəvə-nəticələrinin və gələcək nəsillərinin dünyaya gəlməsinə zəmin yaradan, başqa sözlə nəsillər arasında əlaqənin itməməsinə səbəb olan sosial hadisədir. Ailə cəmiyyətimizin təməli və əsas vahidi olan sosial institutdur. Təsadüfi deyildir ki, uzun əsrlər boyunca məhz ailələr makrososial sistemlərin təkamülünün ümumi istiqamətini müəyyənləşdirə biliblər. Cəmiyyətin hər bir üzvü sosial statusu, etnik mənsubiyyəti, əmlak və maddi vəziyyəti ilə yanaşı, doğulduğu andan ömrünün sonuna kimi ya hansısa bir ailənin üzvü, ya da müstəqil surətdə yeni bir ailənin yaradıcısı olmaq kimi xüsusiyyətə malikdir. Belə ki, hər bir insanın həyatının müxtəlif mərhələlərində onun ailədəki statusu ardıcıl olaraq dəyişir. Uşaq üçün ailə onun fiziki, əqli, emosional və intellektual inkişafı üçün şəraitin formalaşdığı bir mühitdir. Yetkinlər üçün isə, ailə onun bir sıra ehtiyaclarının təmin edilməsi mənbəyidir və ona müxtəlif və olduqca mürəkkəb tələblər qoyan kiçik bir komandadır.*

*Açar sözlər*: ailə, nikah, əhalinin təbii artımı, nəsil artımı, Rusiya tarixşünaslığı.

***Giriş.*** Ailə bəşər tarixinin bütün mərhələlərində cəmiyyətlə birlikdə daima inkişaf edən, dəyişən, insan nəsillərinin yenilənməsində iştirak edən mühüm demoqrafik institutlardan biridir. Ailə cəmiyyətin əsasını təşkil edən elə bir sosial institutdur ki, onun öyrənilməsinə və tədqiq olunmasına olan maraq nəinki azalmır, əksinə aktuallığı ilə həmişə diqqət çəkir. Ailə birgə həyat, məişət və qarşılıqlı məsuliyyət əlaqələrinə, bağlarına malik insanların nikah və ya qohumluğa əsaslanan birlik formasıdır. Başqa sözlə, ailə və ailədə uşaqların dünyaya gəlməsi, nəsil artımı ilə bağlı demoqrafik məsələlər hər bir müasir cəmiyyətin prioritet dəyərlərindən biridir. Çünki məhz ailənin cəmiyyətdəki mövqeyi, maddi-sosial durumu, nəsildən-nəslə ötürdüyü mənəvi dəyərlər və ictimai fəaliyyəti bəşər tarixinin bütün dövrlərində hər bir xalqın malik olduğu xüsusiyyətləri xarakterizə edən, onun gələcək inkişaf perspektivlərini müəyyənləşdirən ən mühüm amil kimi çıxış etmişdir. Bundan başqa ailə cəmiyyətin ən statik, əvəzedilməz elementlərindən biri olaraq qalmaqla yanaşı, onunla birlikdə daima inkişaf edir və dəyişir. Başqa sözlə desək, hər bir tarixi dövrün spesifik xüsusiyyətləri, ictimai xarakteri ailənin forma və məzmununa öz təsirini göstərir. Məsələn, XX əsrin ikinci yarısında cəmiyyətin qocalması problemi bəşəriyyətin üzləşdiyi son dərəcə ciddi, yeni sosial hadisədir. Artıq XX əsrin 60-cı illər Rusiya tarixşünaslığında bütün demoqrafik hadisələrin bilavasitə ya ailə daxili, ya da ailə ilə əlaqədar proseslərlə sıx surətdə bağlı olması kimi fikirlər səslənməyə başlandı. A.Sovinin fikrincə, yeni qurulan ailələrdə uşaq doğumun səviyyəsinin aşağı düşməsi əhalinin qocalmasının yeganə və əsa səbəbidir. Digər tərədən ölüm həddinin aşağı düşməsi əhalinin gəncləşməsini sürətləndirir [8, s.53].

İ.Faqt kişi ilə qadın arasında bağlanan nikahın bioloji qabiliyyətini (bioloji qabiliyyət dedikdə nikaha daxil olan cütlüklərin dünyaya uşaq gətirmək istəkləri, qabiliyyətləri, övlad sahibi olmaları nəzərdə tutulur. – A.M.) ön plana çəkərək, nəsil artımını ailənin əsas funksiyalarından biri kimi dəyərləndirir. O, yazır: "Hər bir ailədə doğulanların sayı üç əsas amillə müəyyən edilir, məhsuldar yaşda olan qadınların sayı, nikahların bağlanması tezliyi və eyni (bir) nikahdan doğulanların sayı ilə" [9, s.59] Müəllifin fikrincə, hər bir ailədə yeni uşaqların dünyaya gəlməsi, həmin ailədə doğum potensialına malik məhsuldar yaşda olan qadınların sayı ilə müəyyən edilir [9, s.60].

Rusiya tarixşünaslığında ailə və əhali artımının inkişaf tatixinə dair ilk elmi tədqiqat əsərlərinin müəllifi kimi tanınan A.Xomenkonun 1980-ci ildə nəşr olunan və müəllifin seçilmiş əsərlərindən iba-

rət olan “Ailə və əhali artımı” adlı kitabında ailə, nikah, yeni uşaqların dünyaya gəlməsi kimi məsələlər, o cümlədən boşanmaların əhalinin təbii artımına vurdugu zərərlər çoxsaylı real faktlar əsasında araşdırılmışdır [10, s.90-95]. Müəllif sözügedən kitabında ailənin qorunub saxlanılmasında ərlə arvadın qarşılıqlı münasibətlərinin düzgün təşkilinə, ailədə yeni uşaqların dünyaya gəlməsindən sonra valideyn məsuliyyətinin artırılması məsələlərinə daha çox diqqət ayırmışdır. Müəllifin sözügedən kitabında toxunduğu məsələlərdən biri də qadın tənhalığı yaxud nikah münasibətlərindən kənarda qalan tənha qadınların taleyidir. A.Xomenko tənha qadın dedikdə, o uşaqların anasını nəzərdə tutur ki, onların atası həmin qadınla rəsmi nikahda deyil. Müəllif bu qrupa heç vaxt nikahda olmayan, yaxud dul və ərindən boşanmış qadınları da aid edir. O, belə qadınları iki tipə ayırır. Birinci qrupa faktiki olaraq əri ilə vətəndaş nikahında yaşayan, lakin rəsmi nikah müqaviləsində olmayanları, yaxud əri ilə nikah münasibətlərinə xitam verənədək artıq ondan uşağı olan qadınları da aid edir. Bəzən nikah aktını rəsmiləşdirmək bu və ya digər səbəbdən mümkün olmadıqda da bu cür hallar baş verir. Bəzən kişi rəsmi nikahda olduğu qadınla bu və ya digər səbəbdən nikahı poza bilmədiyinə görə deyil, faktiki olaraq rəsmi nikahda olmadığı qadınla yaşayır. Lakin, həmin qadından övladı olduqdan sonra bir sıra obyektiv və subyektiv səbəblərdən onu da tərk etmiş olur. A.Xomenko bu cür ana olan qadınları da tənha sayır. Çünki çox vaxt belə qadınlar ərləri tərəfindən ananı və uşağı saxlamaqdan, onların maddi ehtiyacını ödəmək istəməməsində, bəzən isə ananın belə bir insanla faktiki yaşamaq istəməməsindən irəli gəlir [9, s.30-31].

A.Xomenko bu tip qadınları birinci qrup tənha qadınlara aid edir. İkinci qrup qadınlara isə, müəllif kişilərlə qeyri-rəsmi nikah münasibətləri əvvəldən çox zəif olanlara aid edir. O, yazır ki, belə münasibətləri nikah münasibəti adlandırmaq da çətindir. O, bu tip qadınları kişilərin xəyanətinə məruz qalanlar adlandırır. Həm I, həm II qrupa daxil olan qadınlar bəzən ümidsizliyə qapılmaları səbəbindən sonralar ailə qurmağa da meyilli olmurlar. Yaxu artıq onlar tərk edən ərlərindən olan övladları ilə kifayətlənirlər ki, bu da ana olmaq potensialına malik olan həmin qadınların gələcəkdə uşaq dünyaya gətirməkdən məhrum edir. Müəllif tənha qadınlara cəmiyyətin maddi-mənəvi köməyinin zəruriliyini xüsusi olaraq vurğulayır. Bəzən qadınların ruhdan düşməsini, elmi-mədəni və təhsil səviyyəsinin aşağı olmasında, cəmiyyətin dəstəyindən məhrum olmasında görür [10, s.33]. Bütün belə halların ailə münasibətlərinə vurduğu psixoloji zədəni müəllif qınayır [10, s.93-94]. O, belə bir qənaətə gəlir ki, məhdud doğum hallarının, azuşaqlılığın, hətta əhalinin təbii artımı aşağı düşmədiyi hallarda belə cəmiyyəti düşünməyə vadar etməli, belə hallara qarşı həssas olmağa və mübarizə aparmağa səsləyir [10, s.95].

B.Xorevanın redaktorluğu ilə 1982-ci ildə nəşr olunan “Urbanizasiya və demoqrafik proseslər” adlı kitabda da uşaqlarının sayı ailənin sabitliyinə və möhkəmlənməsinə təsir göstərən əsas amil hesab edilir. Burada da A.Xomenkonun toxunduğu qadınların təhsil səviyyəsinin doğuma təsiri məsələlərinə toxunulur: “Hesab etmək olar ki, təhsilin səviyyəsi doğumun aşağı düşməsinə birbaşa deyil, əsasən şəxsiyyətin həyat tərzinin və istehlak sisteminin dəyişməsi ilə bağlıdır” [11, s.67].

Eyni fikirlə V.Borisovun “Doğumun perspektivləri” adlı kitabında da rastlaşırıq: “Təhsil və mədəni səviyyənin inkişafı doğum prosesinə yalnız istehlakın artması ilə deyil, həm də onun strukturunun dəyişilməsi ilə də təsir edir. Belə ki, bir qisim tələblər şəxs üçün ön plana keçib I dərəcəli əhəmiyyət kəsb edərək ailə və onunla bağlı məsələləri arxa plana atır [2, s.157-158]. “Əhali artımı nəzəriyyəsinin əsasları” adlı kitabda V.Borisovun fikrindən fərqli olan mülahizə ilə rastlaşırıq: “İnsanın öz tələblərini ödəməsi içərisində ailə ön planda durmalıdır. Əhalinin təkrar istehsalına sənayeləşmə, urbanizasiya, təhsilin və əhalinin ümumi mədəniyyətinin yüksəlməsində təzahür edən məhsuldar qüvvələrin inkişaf səviyyəsi və sosial tərəqqi güclü təsir göstərir” [3, s.290-291].

Tədqiqatçıların fikrincə, məhz şəhər yerlərində əqli əməklə məşğul olan qadınların təhsil səviyyəsi artdıqca onların uşaq doğma istəkləri də məhdudlaşır [11, s.67]. Belə ki, ailədə ilk uşağın dünyaya gəlməsi qadına ətrafdakıların gözündə yüksəlmək və xüsusi statusa malik olmaq imkanı yaradır. İkinci uşağın dünyaya gəlməsi isə, sırf psixoloji motivlə bağlı olub ailənin emosional həyatını zənginləşdirir, nəsil artımına, nəsillərarası əlaqənin güclənməsinə imkan yaradır. Bu isə, sosial motivlə bağlıdır. Və nəhayət, iqtisadi motivlə bağlı olan yaşayış sahəsinin yaxşılaşdırılmasına xidmət edir [11, s.95-96].

Digər tərəfdən, əhalinin miqrasiyası da onun demoqrafik tərkibinin dəyişməsinə, o cümlədən doğumun aşağı düşməsinə ciddi təsir edir [11, s.125]. Belə ki, miqrasiyanın demoqrafik nəticələri ilk növbədə əhalinin köhnə ərazini tərk edib yeni ərazilərdə məskunlaşdığına görə (bir yerdə - əsasən kəndlərdə gənc nəsil iri şəhərlərə üz tutduğuna görə azalır, digərində, yəni şəhərlərdə çoxalır, urbanizasiya prosesi baş verir – A.M.) onun yaş və cins strukturunun dəyişməsinə səbəb olur [11, s.124-125]. Artıq yuxarıda deyildiyi kimi, iri şəhərlərdə ailələr təkuşaqlılığa meyilli olduğuna görə, doğumun səviyyəsi aşağı düşür [11, s.96-97]. Məhz bu səbəbdən də, şəhər əhalisinin sürətli artımı təbii deyil, mexaniki artımla bağlı olur [11, s.117-118].

1986-cı ildə ailə və nikah məsələlərinə həsr olunmuş maraq doğuran əsərlərdən biri də A.Volkovun redaktorluğu ilə işıq üzü görən "Demoqrafik proseslər və onların qanunauyğunluqları" adlı kitabdır [4]. Burada demoqrafik davranış (uşaqların sayı ilə bağlı istəklər, niyyətlər nəzərdə tutulur. – A.M.), əhali artımının bioloji komponentləri (uşağaqalma ehtimalı, anovulyar tsiklin müddəti, hamiləliyin müxtəlif cür, yaxud formada gedişatı, fəsadları, və s. bu kimi hallar – A.M.), doğuşlararası interval (doğuş tezliyi – A.M.), nikaha daxil olanların yaş və cins kateqoriyaları və bu kimi bir sıra faktorların öyrənilməsi çağdaş demoqrafiyanın ən mühüm, ümdə vəzifələri kimi təqdim olunur.

Qeyd etmək yerinə düşər ki, nikaha daxil olanların yaş və cins kateqoriyaları müasir dövrdə şəhər, yaxud kənd yerlərində yeni ailənin qurulması tezliyinə, müddətinə təsir edən ən mühüm faktorlardan biridir. Sözügedən problemə A.Xomenkonun yuxarıda təqdim olunan kitabındakı yanaşması maraq doğurur. A.Xomenko sözügedən kitabında yazır ki, gənc yaşlarında qızların nikaha daxil olma ehtimalı kişilərdən iki dəfə çoxdur. Lakin, 20-24 yaşlarında bu fərq bir qədər azalsa da, üstünlük yenə də qadınlarda qalır [10, s.26]. Kişilər üçün belə fərq yalnız sonrakı yaş qruplarında, 25-29 yaşlarında aradan qalxır, necə deyərlər evlənmək ailə qurmaq imkanını qaçırmamaq şansı kulminasiya həddinə çatır. Artıq 30-34 yaşlarında bu imkan kəskin surətdə yenidən azalmağa doğru gedir. Kişilər 45-49 yaş həddinə çatdıqda isə, onların evlənmə imkanları qadınlardan 9 dəfə çox olur [10, s.27].

"Demoqrafik proseslər və onların qanunauyğunluqları" adlı kitabda da ailə problemlərinin geniş surətdə araşdırılması üçün yeni qurulan ailənin demoqrafik inkişafına dair modellərin yaradılması ən optimal tədqiqat üsullarından biri kimi təqdir edilir: " Bu kitabda təqdim edilən modelin mahiyyəti ailənin struktur dinamikasını onun əsas əsas komponentlərini və bu komponentlərdən hər birinin ailəyə təsirini nəzərə alaraq imitasiya etməkdir" [4, s.80].

Burada ailənin strukturu dedikdə əhalinin üzvlərinin sayına və tipinə görə fərqlənən müxtəlif ailələrdə səpələnməsi nəzərdə tutulur. Ailə modellərinin yaradılmasında məqsəd: 1) Ölüm; 2) Uşaq doğumu; 3) Nikaha daxil olma; 4) boşanmalar; 5) Həddi-büluğa çatan övladların ailədən ayrılması; 6) Ailədə üzvlərinin qocalması kimi demoqrafik hadisələrin, yaxud proseslərin öyrənilməsidir [4, s.80-81]. Bundan başqa model ailənin aşağıdakı tiplərini də müəyyənləşdirərək öyrənmişdir: 1) Evlənməyən kişilər; 2) ərə getməyən qızlar; 3) uşaqları olmayan cütlüklər; 4) uşaqları olan cütlüklər; 5) uşaqlı qadınlar; 6) uşaqlı kişilər; 7) yetimlər (valideynləri olmayan uşaqlar) [4, s.80-81]. Hər bir ailə tipi üzvlərinin sayına və bu sayın dəyişkən olmasına görə də digərindən (yalnız axırıncıdan başqa) seçilmişdir [4, s.82]. Aparılan araşdırmalar nəticəsində hər bir ölkə əhalisinin təbii artımımda tam tərkibli ailələrin böyük önəm kəsb etməsi məlum olmuşdur. Bundan başqa 15 yaşına çatan kəs cinsindən asılı olmayaraq nikah münasibətlərinə daxil olmayıblarsa, o zaman həmin fərdlər artıq "nikah bazarına" daxil olmuş hesab edilirlər. "Nikah bazarı" ailə həyatı qurmağa meylli olan hər kəsi əhatə edir. Məhz nikahların, o cümlədən uşaq doğumunun tezliyi ailələrin mövcud olması, öz fəaliyyətini davam etdirməsini təmin edir. Yalnız 7-ci tip ailə bir nəfərdən ibarət olduğuna görə, onun vəfatı ilə həmin ailənin fəaliyyətinə son qoyulur. Digər tip ailələrdə isə: 4, 5, 6, 7 əgər böyük uşaq 15 yaş həddinə çatıb 1-ci və ya 2-ci tip ailə qurmaqla məxsus olduqları ailənin tərkibindən çıxmış olurlar [4, s.84].

A.Volkov "Ailə - demoqrafiyanın obyekti" adlı kitabında haqlı olaraq: "Əsasında nikah dayanan, bəzən demoqrafik münasibətlər adlanan ailə münasibətləri əhali artımının sabitliyini və nəsillərin bir-birini əvəz etməsini təmin edir" - deyə, yazır [5, s.100]. O da, yeni ailələrin yaranmasında nikahı mühüm amillərdən biri kimi səciyyələndirir: "İnsan populyasiyasında evli cütlüklərin formalaşması prosesi nikah adlanır" [5, s.100-101]. Müəllif həm qadın, həm də kişilər üçün nikah münasibətlərinin yaranmasında yaş faktorunu da vacib hesab edir: "Həm kişi, həm də qadınlar üçün nikahların

bağlanma tezliyi öncə gənc yaşlarında fəal olur. Lakin, 25-30 yaşlarda maksimum intervala çatdıqda tədricən bu fəallıq 60-65 yaşadək tədricən azalmağa doğru gedir [5, s.100-102]. Lakin, müəllifin tərtib etdiyi qrafik əyrilərdə yaş artdıqca qadınların evlənmə şansı azaldığı halda kişilərdə onun artmasını müşahidə edirik. Müəllif nikahın xarakteri və növlərini bəşər tarixinin inkişaf xüsusiyyətləri ilə əlaqələndirir və ictimai inkişafın obyektiv qanunlarının nikaha ciddi surətdə təsir etdiyini ön plana çəkir [5, s.107].

Ümumiyyətlə, XX əsrin II yarısına dair, Y.Semyonovun "Nikahın və ailənin mənşəyi" (Семёнов, Ю.И. Происхождение брака и семьи. М., Мысль, 1974. 309 с.), A.Vişnevskinin redaktəsi ilə "Nikah, əhali artımı, ailə üç əsr ərzində" (Брачность, рождаемость, семья за три века / под ред. А. Г.Вишневского. М. Статистика, 1979 г. 183 с.), V.Boykonun "Kiçik ailə: sosial-psixoloji araşdırma" (Бойко В.В.Малодетная семья: Социально-психологическое исследование М., Статистика, 1980 г. 231 с.), İ.Vlasovanın "XVII-XIX əsrin birinci yarısında Sibirdəki rus kəndlilərinin ailələrinin quruluşu və sayı" // Sovet etnoqrafiyası (Власова И. В. Структура и численность семей русских крестьян Сибири в XVII- первой половины XIX века // Советская этнография. 1980. № 3 С. 37-56.); V.L.Rugge, İ.İ.Yeliseyeva, T.S. Kadiburun birgə yazdıqları "Ailə qruplarının strukturu və funksiyaları" ( В.Л.Ружже, И.И.Елисеева, Т.С. Кадибур. Структура и функции семейных групп. М., Финансы и статистика, 1983. 160 с.); S.Qolodun "Ailənin sabitliyi: sosioloji və demoqrafik aspektlər" (Голод С.И. Стабильность семьи: социологический и демографический аспекты. – Л., Наука, 1984. – 135 с.); T.Qurko və M.Matskovskinin yazdıqları "Böyük bir şəhərdə gənc ailə" (Гурко Т.А., Мацковский М.С. Молодая семья в большом городе (Социология в системе научного управления обществом). М., Знание, 1986.204 с.); İ.Konun "Uşaq və cəmiyyət: tarixi və etnoqrafik perspektiv" (Кон И.С. Ребенок и общество: историкоэтнографическая перспектива. М., Наука, 1988. 269 с.); A.İ.Antonov və V.M.Medkovun "Ailə sosiologiyası" (Антонов А.И., Медков В.М. Социология семьи. М., Изд-во МГУ, 1996, 304 с.); A.S.Ahiezerin "Rusiya: tarixi təcrübənin tənqidi (Rusiyanın sosial və mədəni dinamikası)", "Keçmişdən gələcəyə" (Ахиезер А.С. Россия: критика исторического опыта (Социокультурная динамика России). Т.1.; От прошлого к будущему. Новосибирск: Сибирский хронограф, 1997, 600 с.) və digər rusiyalı alimlərinin ailə ilə bağlı tədqiqat əsərlərinin demək olar ki, əksəriyyətində çoxfunksiyalı fəaliyyətini həyata keçirən, o cümlədən öz üzvlərinin qrup və fərdi ehtiyaclarını ödəyən ailənin cəmiyyətin həyatında mühüm rol oynaması ön plana çəkilir. Bundan başqa, sözügedən tədqiqat əsərlərinin qayəsində belə bir fikir də aydın şəkildə nəzərə çarpır ki, ailənin həyatında yaranan bütün ehtiyaclar ondan kənarda da ödənilə bilər, lakin bu ehtiyacların hamısı tam və dolğun şəkildə yalnız ailə münasibətlərinin unikallığını təmin edən nikah münasibətlərinin yaratdığı ən ülvi, etibarlı mühitdə həyata keçirilə bilər. Digər tərəfdən yuxarıda adları sadalanan əsərlərdə ailənin ilk növbədə əhalinin təkrar istehsalını təşkil edən, (Əhalinin təkrar istehsalı dedikdə ilk növbədə əhalinin təbii artım və ölümü, habelə miqrasiyası səbəbindən insan nəsillərinin bir-birini əvəz etməsi zamanı əhalinin sayı və strukturunun daimi olaraq yenilənməsi prosesi nəzərdə tutulur. – A.M.) onu tənzimləyən sosial mexanizm olması ideyası mühüm demoqrafik konsepsiya kimi təqdim edilir. Həmçinin, bu əsərlərin qayəsindən aydın olur ki,əhalinin təkrar istehsalını tənzimləyən ailə dəyərlərinin qorunub saxlanılması hər bir tarixi zaman kəsiyində istər dövlətin malik olduğu coğrafi sərhədlər daxilində, istərsə də onun xaricində milli maraqların ən etibarlı formada qorunub saxlanması kimi həyati vacib həqiqətləri özündə ehtiva edir.

Rusiya alimlərinin XX əsrin II yarısına dair ailə ilə bağlı tədqiqat əsərlərinə nəzər saldıqda əhali artımı, məskunlaşması ilə bağlı bu və digər tarixi demoqrafiya məsələlərinə son dərəcə ciddi diqqət yetirdiklərinin şahidi oluruq.

***Nəticə.*** Layiqli, xoşbəxt və uğurlu evliliyi, şübhəsiz ki, istənilən normal insanın əsas məqsədi adlandırmaq olar. Yeni ailənin qurulması insanların həyatını sabitləşdirmək, onun keyfiyyətini yaxşılaşdırmaq imkanlarından ən ümdəsidir. Yeni ailələrin qurulması üçün motivasiya, nikahın qeydiyyatı, ailədaxili vəzifələrinin bölüşdürülməsi, əmlak münasibətləri, ailə və ailədə uşaqların dünyaya gəlməsi, nəsil artımı ilə bağlı demoqrafik məsələlər, yetkin uşaqların evləndirilməsi, qohumluq əlaqələrinin gücləndirilməsi və s. bir çox amillərdir.

ƏDƏBİYYAT

1. Бойко В.В. Малодетная семья: Социально-психологическое исследование Москва, «Статистика», 1980, 231с.
2. Борисов В.А. Перспективы рождаемости. Москва, «Статистика», 1976, 248 с.
3. Валентей Д.И. Основы теории народонаселения. Москва, «Высшая школа», 1986, 376 с.
4. Волков А. Г. Демографические процессы и их закономерности М. Мысль, 1986 г.191с.
5. Волков А.Г. Семья – объект демографии. Москва, «Мысль», 1986, 270 с.
6. Герасимова И.А. Моделирование формирования семейной структуры населения / В кн. «Воспроизводство населения и трудовых ресурсов». М., Наука, 1976.
7. Герасимова И.А. Структура семьи. Москва, «Статистика», 1976, 246 с.
8. Сови А. Старение населения и продление жизни // Методы демографических исследований Под редакцией Л.Е. Дарского. Москва, «Статистика», 1969, 142 с.
9. Фагт И. Компоненты числа рождений // Методы демографических исследований под редакцией Л.Е. Дарского. Москва, «Статистика», 1969, 142 с.
10. Хоменко А.П. Семья и воспроизводство населения. Москва, «Статистика», 1980, 221 с.
11. Хорева Б.С. Урбанизация и демографические процессы. Москва, «Статистика», 1982, 231с.

**АЙДЫН МАМЕДОВ**
*Доцент кафедры источниковедения, историографии и методики*
*Бакинского Государственного Университета, доктор философии по истории*

## ВОПРОСЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ СВЯЗАННЫЕ С СЕМЬЕЙ В ИССЛЕДОВАНИЯХ РОССИЙСКИХ УЧЕНЫХ ВО ВТОРОЙ ПОЛОВИНЕ XX ВЕКА

Создание семьи и вступление в брак - одно из самых важных и далеко идущих решений, который человек принимает на протяжении всей своей жизни. Ведь брак - это не только временное счастье, но и вечная радость. Так, ознакомившись с работами некоторых российских историков демографии, таких как А.П.Хоменко, А.Г.Волкова, И.А.Герасимова, Б.С.Хорева, В.В.Бойко, В.А.Борисова и др., можно сделать вывод, что семья - это светское событие, которое приносит семейную радость не только супружеским парам, но и создает основу для рождения их детей, внуков и будущих поколений, иными словами, способствует тому, чтобы связь между поколениями не теряется. Семья – это социальный институт, который является основой ячейкой нашего общества. Не случайно на протяжении многих веков именно семьи были способны определять общее направление эволюции макросоциальных систем. Каждому члену общества, независимо от момента своего рождения до конца жизни наряду со своим социальным положением, национальностью, имущественным и материальным положением, присуще свойство быть либо членом семьи, либо создателем новой семьи. Итак, на разных этапах жизни у каждого человека последовательно меняется его статус в семье. Для ребенка семья – это среда, создающая условия для его физического, психического, эмоционального и интеллектуального развития. Для взрослого человека семья является источником удовлетворения ряда его потребностей и малым коллективом, предъявляющим ему разнообразные и достаточно сложные требования.

*Ключевые слова:* семья, брак, естественный рост населения, рост поколений, российская историография.

**AYDIN MAMMADOV**
*Associate Professor of the Department of Source Study, Historiography and Methodology of Baku State University, Ph.D. in History*

## ISSUES OF HISTORICAL DEMOGRAPHY RELATED TO FAMILY IN RESEARCH WORKS OF RUSSIAN SCIENTISTS IN THE SECOND HALF OF THE XX CENTURY

Starting a family and getting married is one of the most vital and far-reaching decisions a person makes throughout his life. Because marriage is not only temporary happiness, but also eternal joy. So, after reviewing the works of some Russian demographic historians such as A.P. Khomenko, A.G. Volkova, I.A. Gerasimova, B.S. Khoreva, V.V. Boyko, V.A. Borisov et al., it can be concluded that this is a secular event that brings family joy not only to married couples, but also creates the basis for the birth of their children, grandchildren and future generations, in other words, helps to ensure that the connection between generations is not lost. Family is a social institution that is the foundation and main unit of our society. It is no coincidence that for many centuries it was families that were able to determine the general direction of the evolution of macro social systems. Each member of society, regardless of the moment of his birth until the end of his life, along with his social status, nationality, property and material status, has the property of being either a family member or the creator of a new family. So, at different stages of life, each person consistently changes his status in the family. For a child, a family is an environment that creates conditions for his physical, mental, emotional and intellectual development. For an adult, the family is a source of satisfaction for a number of his needs and a small team that presents him with various and rather complex requirements.

*Keywords*: family, marriage, natural population growth, generational growth, Russian historiography.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 dekabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

**UOT 94**

**İSRAİL ƏMİRLİ**
*Bakı Dövlət Universiteti*
**amirovisrail04@gmail.com**

## FORMASİYALARARASI TORPAQ FORMALARI

*Məqalə qədim dövrdən başlayaraq bu günə qədər mövcud olan torpaq formalarından bəhs etməkdədir. Burada formasiyalar daxilində torpaqların necə dəyişməsi göstərilmiş, torpaqların insanlar tərəfindən necə istifadə edilməsi göstərilmişdir. Burada insanların ilk istifadə etdiyi icma torpağından bəhs edilmiş, formasiyalar daxilində torpaqların necə dəyişdiyi qeyd olunmuşdur. Quldarlıq dövründə isə quldar mülkədarlar və icma torpaqlarının paralel şəkildə olmasından bəhs edilmişdir. Məqalədə feodalizmin torpaq üzərində məhdud mülkədarlıq formasiyası olması göstərilmiş, torpaqların ancaq mülkədarların nəzarətində olması vurğulanmışdır. Sosializm dövründə isə dövlətin bütün torpaqları inhisara aldığı qeyd olunmuşdur. Məqalədə yeni tarixi kəşflər öz əksini tapmışdır. Burada yeni icma torpaq forması, icma torpaq forması ilə quldarlıq torpaq formasının bərabər inkişaf etməsi, sülalə torpağının həm də mülk torpağı olması və s aid emək olar.*

*Açar sözlər*: torpaq, mülk, kəndli, qəbilə və tayfa.

***Giriş***. Müasir tarixşünaslıqda torpaq formaları demək olar ki, bütün dövrlər daxil olaraq işlənilməmişdir. Ona görə bu nöqteyi nəzərindən torpaq formalarının işlənməsi aktuallıq kəsb edir. Torpaq formalarının ilkin olaraq necə yaranması və hansı şəkildə inkişaf etməsi tarixilik nöqteyi nəzərdən çox mühümdür. Burada torpaq formalarının necə yaranmasının necə və hansı formada inkişaf etməsinin analiz və təhlil metodu ilə öyrənilməsi nəzərdə tutulmuşdur. Demək olar ki, hansı torpaq formalarının necə dəyişməsi qarşıya məqsəd kimi qoyulmuşdur.

***Torpaq formaları.*** Tarix elmində torpaq formaları müxtəlif dövrlərdə fərqli şəkildə meydana çıxmışdır. İnsanların ilk istifadə etdiyi torpaq forması icma şəklində meydana gəlmişdir. İcma formasiyasında meydana gələn bu torpaq forması iki forma şəklində əks olunmuşdur. Birinci forma, ümumi camaat torpağı şəklində, ikincisi isə şəxsi torpaqlar şəklində olmuşdur. Ümumi icma şəklində mövcud olan torpaqlara meşələr, çəmənliklər, məzarlıqlar və s aid edilmişdir. Şəxsi torpaq şəklində əks olunan mülkiyyət növünə isə həyətyanı sahələr və hər bir adamın əkin sahələri yeri aid olmuşdur.

Qəbilə və tayfalara aid olan icma torpaq formaları dəmyə əkinçiliyi nöqteyi nəzərindən geniş əraziləri əhatə edə bilməmişdir. Çünki insanlar süni suvarmanı daha sonralar kəşf etmişlər. Yəni suvarma üçün süni ləklərin mövcudluğu haqqında arxeoloji mənbələr mövcut deyildir. Bu barədə arxeoloji məlumatlar demək olar ki, əldə edilməmişdir. (Misal üçün Misirdə süni suvarmanın primitiv forması şadufdan istifadə edirdilər).

İcma şəklində əks olunan torpaqlarda xüsusi mülkiyyət daha erkən dövrdə yaranmışdır.

İnsanların evləri, həyətyanı sahələri, əmək alətləri, mal qarası və torpaq sahələri xüsusi mülkiyyət şəklində əks olunmuşdur.

Köçəri və yarımköçəri əhalidə isə otlaq torpaqları qəbilə və tayfaların ümumi icmanın mülkiyyətində idi. Bu amil köçəri və yarım köçəri xalqlarda feodalizm (torpaq üzərində məhdud mülkədarlıq) yaranana qədər davam etmişdir. Feodalizm dövründə feodallar otlaqların böyük hissəsini zəbt etmiş, köçəri və yarım köçəri xalqlarda da, torpaq üzərində məhdud mülkədarlıq başlamışdır. Bu dövrdən başlayaraq kəndlilər feodallardan asılı vəziyyətə düşmüşlər.

Oturaqlaşmış əhalidə isə zamanla şərq ölkələrində və Avropanın bir hissəsində quldarlıq formasiyası bərqərar olmuşdur.

E.ə.IV minillikdən başlayaraq baş verən müharibələr nəticəsində əldə olunan hərbi əsirlər qulçuluq münasibətlərinə cəlb olunmuş, quldar mülkədarlara məxsus torpaqlar meydana gəlmişdir. Quldar mülkədar torpaqları və azad kəndlilərin icma torpaqları paralel şəkildə mövcud olmuşdur. Lakin quldar mülkədar torpaqları icmanın torpaqlarına nisbətən çoxluq təşkil etmişdir. Bununla bərabər müharibələrə cəlb olunmayan ərazilərdə yaşayan xalqlarda, icma torpaqları inkişaf etmiş feodalizm dövrünə qədər davam etmişdir.

Torpaqların növlərinin yaranması isə dövlətlər meydana gəldikdən sonrakı dövrə təsadüf etməkdədir.

Quldarlıq formasiyası dövründə torpaq formaları haqqında yazılı məlumatlar az olduğundan demək olar ki, torpaq növləri haqqında da məlumatlar azdır. Buraya dövlət torpaqları, məbəd torpaqları, azad icma torpaqları (şəxsi və ümumi) və quldar mülkədarların torpaqlarını, aid etmək mümkündür. İnternet məqalədə verilən məlumat da bildirilir ki, torpaqları ilk təsnif edənlər çinlilər olmuşdur. Keçmiş Çin mənbələrinə görə imperator Yao dövründə (e.ə.2357-2261) torpaqların rəng və strukturu əsas götürülərək mühəndis Yu tərəfindən (cədvəl) doqquz bölməyə ayrılmışdır (1). Burada torpaqların təsnifi verilsədə formaları haqqında məlumat yoxdur.

Onu qeyd etmək lazımdır ki, bu zaman şərq ölkələrində Misir kimi güclü quldar dövlət yaranmışdı. Ona görə də burada torpaqlarda əmək fəaliyyətinin mövcudluğu haqqında bilgilər əldə edilmişdir. Yusif Yusifov öz əsərində qədim Misirdə əkinçilik və heyvandarlığın inkişafı haqqında məlumat verir (2, s.162-164). Lakin torpaqlarda kəndlilərin və qulların fəaliyyət göstərməsini göstərsədə, torpaq formaları haqqında məlumatlar verilmir.

İnternet məqalədə məlumat verilir ki, I-II əsrlərdə Roma imperiyası ən qüdrətli zirvəsinə çatdı. Lakin II-III əsrlərdən başlayaraq, quldarlıq quruluşunda tənəzzül başlandı. Çünki qul əməyi getdikcə əhəmiyyətini itirirdi, qul nəzarətsiz yaxşı işləmirdi. Qullar üçün yaxşı işləməyin əhəmiyyəti yox idi. Onlara ancaq yemək və paltar verirdilər. Qullara nəzarətçilər, keşikçilər, quldarların özləri nəzarət edirdi (3). Burada da torpaqların formaları haqqında məlumat verilməsə də yuxarıda qeyd edilən formaların Romada da mövcudluğu qənaətinə gəlmək mümkündür.

Onu da qeyd etmək lazımdır ki, bu dövrdə əkilən məhsullar da, çox çeşidlilik nöqteyi-nəzərindən məhdud olmuşdur. Burada bir məsələni qeyd etmək lazımdır ki, bizə məlum olan bitki, meyvə və tərəvəz məhsullarının əksəriyyəti Böyük coğrafi kəşflərdən sonra digər materiklərdən əsasən Amerika, Afrika və Asiyadan gətirilmişdir. Ona görə əkilən məhsulların növü və irqi də az olmuşdur.

Torpaq formalarının mövcudluğu haqqında bilgilər əsasən feodalizm dövründə meydana gələn dövlətlərdə təsadüf olunur. Bu dövrdə əsas torpaqlar dövlətə məxsus idi. Bütün torpaqlar dövlət torpaqlarından kəsilərək verilirdi. Feodallara dövlət iki cür torpaq verirdi. Hərbi xidmət müqabilində verilən şərti dövlət torpaqları və irsi şəkildə verilən dövlət torpaqları şəklində verilirdi. Şərti şəkildə verilən torpaqlar da sonradan mülkə çevrilə bilirdi. Əgər torpaq sahibi şəxs döyüşdə vəfat edərdisə bu şərti torpaqlar onun ailəsinə mülk olaraq verilirdi.

Feodal (mülkədar) torpaqları da iki forma şəklində əks olunmuşdur. Birinci formaya aid olan mülkədar torpaqlarında feodallar kəndlilərin yaşadıqları torpaq sahələrinə malik olmuş, özlərinin şəxsi fəaliyyət göstərdikləri torpaqlar olmamışdır. Demək olar ki, mülkədarlar bu ərazilərdən ancaq vergi almaqla kifayətlənmişlər. İkinci forma isə mülkədarlar kəndlilərin fəaliyyət göstərdikləri torpaq sahələri ilə bərabər şəxsi torpaqlara sahib olmuşlar. Bu ərazilərdə kəndlilər feodal torpaqlarında həm vergi vermiş, həm də biyara getmişlər. Buradan bu nəticə çıxır ki, birinci tipə aid olan feodal torpaqlarında biyar olmamış, mülkədarlar kəndlilərdən sadəcə vergi almışlar. İkinci tipə aid olan feodal torpaqlarında isə həm vergi, həm də biyar münasibətləri mövcud olmuşdur.

Feodalizm (torpaq üzərində məhdud mülkədarlıq) dövründə mülkədar torpaqlarının formaları bu şəkildə təsbit olunmuşdur. Hərbi xidmət müqabilində hərbçilərə irsi və şərti formada verilən torpaqlar, hökmdar və mülkədarlara məxsus sülalə, yaxud mülk torpaqları, din xadimlərinə məxsus torpaqlar şəklində mövcud omuşdur.

Ancaq icma və quldarlıq dövründə kəndlilər torpaqlara malik olsalar da feodalizm (torpaq üzərində məhdud mülkədarlıq) dövründə torpaqlara malik olmamışlar. Buna da səbəb zamanla torpaqların mülkədarlar tərəfindən ələ keçirilməsi ilə müşahidə olunmuşdur. Bu fərqli səbəblərdən müxtəlif ölkələrdə fərqli şəkildə baş vermişdir. Bu səbəblərə işğalçı müharibələrin baş verməsi, qarət müharibələrinin çoxalması, qorunmağa daha çox ehtiyyacın yaranması və digər səbəblərdən, kəndlilər öz torpaqlarını itirmiş mülkədarlardan asılı vəziyyətə düşmüşlər.

Burada bir faktı da qeyd etmək lazımdır feodalizm (torpaq üzərində məhdud mülkədarlıq) dövründə, dövlət vergi münasibətlərini feodalların vasitəsilə həyata keçirmişdir. Yəni dövlət vergiləri bir başa kəndlilərdən deyil, kəndlilərin tabe olduğu mülkədardan almışdır. Bu vergilər əvvəllər kəntlərdə

natural təsərrüfatın olması səbəbindən məhsulla, şəhərlərdə isə qismən natural təsərüfatın mövcudluğu şəraitində isə həm natura, həm də pulla alınmışdır.

Burada bir məsələni də qeyd etmək lazımdır ki, uzun zaman müddəti ərzində dövlətlər bir-birini əvəz etsədə bir neçə torpaq mülkiyyəti dəyişməz qalmışdır. Buraya dövlət, mülk yaxud sülalə (atadan oğula keçirdi), dini və icma (şəxsi torpaqlar olaraq -həyətyanı sahələr, (əkin yerləri buraya aid deyil) və ümumi torpaqlar olaraq- meşələr, çəmənliklər, qəbir yerləri, bataqlıqlar və s)) torpaqları daxildir. Həmişə dəyişən torpaqlar hərbi xidmət müqabilində verilən torpaqlar olmuşdur.

Feodalizm (torpaq üzərində məhdud mülkədarlıq) şərq ölkələrində XIX-XX əsrlərə qədər, qərbi Avropa ölkələrində XVII əsrə qədər davam etmişdir.

Sosializm dövründə isə bolşeviklər mülkədar torpaqlarını dövlət torpaqları ilə əvəz etdilər. Mülkədarlara məxsus torpaqlar zorla əllərindən alındı. Dövlət bütün torpaqların sahibi elan olundu. Buraya mülkədar torpaqları (hərbi xidmətə görə verilən torpaqlar və irsi şəkildə keçən torpaqlar) bununla bərabər icma torpaqları, dini torpaqlar aid edildi.

Kapitalist formasiyalı dövlətlərdə də mülkədar torpaqları ilə bağlı qərarlar verildi. Mülkədar torpaqlarının miqdarı azaldıldı. Çünki feodalizm formasiyası torpaq üzərində məhdud mülkədarlıq formasiyası idi. Ona görə də torpaq üzərində məhdud mülkədarlıq formasiyasının aradan qaldırılması ilə əlaqədar qanunlar verildi. Bu münasibətlər əksər ölkələrdə XX əsrdə baş vermişdir. Dövlət tərəfindən dəyəri ödənilməklə həmin torpaqlar alındı və kəndlilərə verildi. Bunun nəticəsində torpaq üzərində əkilən məhsulların çox çeşidliliyi yarandı. İlk dəfə olaraq, yeni bitki, meyvə və tərəvəz növləri əkilməyə başlandı. Əmtəə və pul münasibətləri inkişaf etməyə başladı. Bütün kəndlilər torpaq sahibi olaraq mülkədara çevrildilər. Dövlət torpaqları isə öz növbəsində bələdiyyə torpaqları şəklində əks olunmağa başladı. Bu torpaqları da kəndlilər icarə şəklində istifadə edə bilərlərlər.

Sosializm dövründə isə kəndlilər dövlət torpaqlarında çalışmağa başladılar. Burada dövlət inhisarçılığı meydana gəldi. Bu dövrdə kəndlilər ancaq həyətyanı sahələrə malik oldular. Sosializm dövründə torpaqların kəndlilərə verilməsi qeyd olunsada, o cümlədən kəndli və fəhlə hökuməti adlansa da nə kəndlilər, nə də fəhlələr torpaq sahibi olmadılar. Yəni nə fəhlələr, nə də kəndlilər mülkədara çevrilmədilər.

Sosializm cəmiyyəti bazar münasibətlərinə qarşı olsada dövlət ticarət münasibətlərini inkişaf etdirməyə başladı. Ancaq bu ticarət münasibətləri məhdud şəkildə idi. Sosializm cəmiyyətində dövlət bazar münasibətlərinə qarşı çıxış etdiyindən cəmiyyətdə qismən natural təsərrüfat hökm sürürdü.

Kapitalizm dövründə də icma torpaqları, dini torpaqlar, hərbi xidmət müqabilində mülkədarlara verilən torpaqlar dəyəri ödənilməklə dövlət tərəfindən alındı. Sonradan bu torpaqlar icarə şəklində fermerlərə verildi. Torpaq üzərində məhdud mülkədarlıq aradan qalxdı.

***Nəticə.*** Məqalədə torpaq formaları bütün dövrlər üzrə təhlil edilmiş və analiz edilmişdir. Burada formasiyalar daxilində torpaq formalarının necə dəyişilməsi göstərilmişdir. Məqalədə əsasən təhlil və analiz metoduna üstünlük verildiyindən ədəbiyyatlara çox müraciət edilməmişdir. Burada göstərilmişdir ki, uzun zaman müddət keçməsinə baxmayaraq bəzi torpaq formaları dəyişməz qalmışdır. Torpaq formaları icma dövründən başlayaraq xüsusi mülkiyyət şəklində əks olunmuşdur. Feodalizm (torpaq üzərində məhdud mülkədarlıq) və sosializmin bir məhdud mülkədarlıq formasiyası olması qeyd edilmişdir. Kapitalizmdə isə bütün kəndlilərin torpaq sahibi olması qeyd edilmişdir. Məqalədə torpaq formalarının öyrənilməsi tətbiqi baxımdan bu sahənin daha düzgün istifadəsinə şərait yarada bilər.

## ƏDƏBİYYAT

1. Hayati Çelebi. Toprak tasnifinin tarihçesi, gayeleri ve kullanıldığı sahalar // Atatürk Üniversitesi Ziraat Fakültesi Dergisi, 4 (3), 1973, s.127-140. - https://dergipark.org.tr/tr/download/article-file/34649 [18.01.2023].
2. Yusif Yusifov. Qədim Şərq tarixi. Bakı, Şərq-Qərb, 2007, 536 s.
3. Romada quldarlığın tənəzzülü. Xristianlığın meydana gəlməsi. - www. kayzen.az/blog/roma-tarixi [18.01.2023].

**ИСРАИЛ АМИРЛИ**
*Бакинский Государственный Университет*

## ИНТЕРФОРМАЦИОННЫЕ ФОРМЫ ЗЕМЛИ

В статье рассказывается о формах суши, существовавших с древнейших времен до наших дней. Здесь показано, как изменяется почва внутри пластов и как эта почва используется людьми. Здесь упоминалась общинная земля, используемая людьми впервые, и упоминалось, как земля менялась внутри образований. В период рабства упоминалось, что рабы-помещики и общинные земли были параллельны. В статье показано, что феодализм является формой ограниченного владения землей, и подчеркивается, что земля находится в ведении только помещиков. Отмечено, что в социалистический период государство монополизировало все земли.

В статье отражены новые исторические открытия. Здесь могут быть связаны новая форма общинной земли, совместное развитие формы общинной земли и формы земли рабства, династическая земля, являющаяся также землей собственности, и т. д.

*Ключевые слова*: земля, собственность, крестьянин, род и племя.

**ISRAIL AMIRLI**
*Baku State University*

## INTERFORMATIONAL LAND FORMS

The article talks about the land forms that have existed since ancient times until today. Here, it is shown how the soil changes within the formations, and how the soil is used by people. Here, the community land used by people for the first time was mentioned, and how the land changed within the formations was mentioned. During the period of slavery, it was mentioned that slave landlords and community lands were parallel. The article shows that feudalism is a form of limited ownership of land, and it is emphasized that the land is under the control of landlords only. It was noted that during the socialist period, the state monopolized all the lands.

New historical discoveries are reflected in the article. Here, the new community land form, the joint development of the community land form and the slavery land form, the dynastic land being also the property land, etc. can be related.

*Keywords*: land, property, peasant, clan and tribe.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər:t.ü.f.d. Atamoğlan Məmmədli, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**KÖNÜL HÜSEYNOVA**
*Bakı Dövlət Universitetinin dissertantı*
**hkonul.adpk@gmail.com**

# TÜRKİYƏ TARİXÇİLƏRİNİN TƏDQİQATLARINDA QARABAĞ PROBLEMİ

*Məqalədə türk alimlərinin araşdırmalarında Dağlıq Qarabağ problemindən bəhs edilir və bu mühüm problemə obyektiv və subyektiv yanaşmalar təhlil olunur. Bu araşdırmalar əsasında sübut olunur ki, Türkiyə alimlərinin yanaşması Dağlıq Qarabağ məsələsinə daha obyektiv yanaşmadır. Türkiyə tarixçiləri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyirlər.*

*Açar sözlər*: Qafqaz, Azərbaycan, Türkiyə, Ermənistan, Dağlıq Qarabağ.

***Giriş.*** Məqalədə Türkiyə tədqiqatları əsasında Qarabağ probleminin tarixşünaslığına nəzər Salınır. Məlumdur ki, iki yüz ildən artıqdır ki, Azərbaycan xalqı ermənilərin vaxtaşırı ərazi iddialarına, soyqırım və etnik təmizlənmə kimi ağır cinayətlərinə məruz qalmışdı. Yerli xalq olan azərbaycanlılar ermənilər tərəfindən təşkil edilən amansız hücumlara məruz qalıb öz doğma ocaqlarından qovulur, qaçqına və köçkünə çevrilirdilər. Ermənilərin ərazi iddiaları azərbaycanlılara qarşı planlı şəkildə həyata keçirdikləri qırğınlar və soyqırımlarla dəhşətli faciələrlə nəticələnirdi.Nəhayət 30 ilə yaxın davam edən bu problem 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi altında tarixi zəfərlə həll edilmişdir. Qarabağ problemi həll edilsə belə ermənilər Qarabağa dair niyyətlərindən heç də əl çəkmək istəmirlər. Bu baxımdan problemin Türkiyə tədqiqatlarında araşdırılması bu gün erməni yalanlarının ifşa edilməsi üçün olduqca əhəmiyyətlidir.

***Qarabağ probleminin Türkiyə tədqiqatlarında əksi***. Dağlıq Qarabağ problemi ortaya çıxdıqdan sonra Türkiyədə bu istiqamətdə müxtəlif əsərlər işıq üzü gördü və xeyli sayda tədqiqatlar aparıldı. Artıq 1989-cu ildə Ankarada “Azərbaycan Kültür Derneği” tərəfindən Azərbaycan, türk və alman dillərində “Dağlıq Qarabağ: uydurmalar və həqiqətlər” adlı əsər [5] işıq üzü gördü. Bu polemik yazı Abdulhalük Çayın giriş yazısı ilə çap olunub. Qeyd edək ki, məqalənin Azərbaycan türkcəsində olan mətni “Azərbaycan” ədəbi-bədii jurnalında dərc olunub. Məqalənin tam mətni Süleyman Əliyarlının müxtəlif illərdə çap olunmuş əsərlərinin toplusu olan “Tariximiz açıqlanmamış mövzuları ilə” adlı əsərdə [6] də tanış olmaq mümkündür. Həmin məqalədə ölkəmiz xaricində “Dağlıq Qarabağ “məsələsi” ilə bağlı necə və nə yazılar?”, “Bu yazılarda... milli münasibətlərin tarixi həqiqəti obyektivliklə nəzərə alınırmı?” kimi suallarla cavab tapılmasına çalışılır və 5 yazı təqdim olunur. Qarşılıqlı məktublaşmalarda Qarabağın tarixi ilə bağlı qəsdən yaradılmış dolaşıqlıqlara əhatəli və qaynaqlara söykənən cavablar öz əksini tapmışdır.

Yasin Aslan müəllifi olduğu “Can Azərbaycan (Qarabağda talan var)” əsəri [2] də problemin tədqiqi baxımdan dəyərlidir. Bu əsər Azərbaycan SSR-ə aid qaynaqlar əsasında yazılmışdır. Əsərdə Dağlıq Qarabağ haqqında məqalələrə geniş yer verilmişdir. Müəllif bunu problemin hələ bitməməsi, həyəcan və gərginliyin davam etməsi ilə əsaslandırır və belə yazırdı: “Azərbaycan türkləri Dağlıq Qarabağın ermənilərə verilməyəcəyi, ermənilər isə Dağlıq Qarabağ onlara verilməyəcəyi üçün həyəcan içindədirlər” [2, 10]. Əsərdə Dağlıq Qarabağla bağlı müəllif qarşıya maraqlı suallar qoyur: “Türkiyədə neçə nəfər Dağlıq Qarabağın harada olduğunu son hadisələr baş verməden əvvəl bilirdi? Dağlıq Qarabağın mərkəzinin adını, aylarla bəhs edilməsinə baxmayaraq hələ də neçə nəfər bilir? Digər Sovet Türk Respublikalarını bir kənara qoyaq, burnumuzun dibindəki Azərbaycan haqqında, tarixi, ədəbiyyatı, iqtisadiyyatı, demoqrafik inkişafı haqqında nə bilirik? Azərbaycan mətbuatını, radio buraxılışlarını izləyə bilirikmi?” [2, 10]. Müəllifin də təəssüflə qeyd etdiyi kimi “bu suallara müsbət cavab ala bilmiriksə, elm adamları gərək bu barədə düşünsünlər” [2, 10]. Təəssüf ki mövcud problem son illərə qədər nəinki qardaş Türkiyə Respublikasında, Azərbaycan Respublikasının özündə belə yaşanırdı. Araşdırdığımız problemlə bağlı əsərdə “Bakı nümayişləri və Topxana meşəsinin

məhvedilməsi təşəbbüsü" adlı məqalədə [2, 35-40] ermənilərin Dağlıq Qarabağla bağlı tələblərinə layiqli cavab verildiyi, Azərbaycan türklərinin haqlı mövqelərini müdafiə etməsi qeyd olunur.

Türkiyədə Dursun Yıldırımın redaktoruluğu ilə nəşr edilən "Qarabağ dosyası" əsərini də xüsusi qeyd etmək lazımdır. Türk Kültür Araştırma İnstututunun 1991-ci ildə nəşr etdirdiyi bu əsərə Dursun Yıldırım tərəfindən yazılan ön sözdə bu tədqiqatın məqsədi barədə belə məlumat verilir: "Qarabağ dosyası adı verilən bu tədqiqat ilə XIX əsr müstəmləkəçi dövlətlərinin, XX əsrin son 20 ilində doymaq bilməyən çirkin ehtirslarını razı salmaq, mənfəətlərini qorumaq və müstəmləkə rejimini davam etdirmək üçün səhnəyə qoymağa çalışdığı keçmiş oyunlarından birinin həqiqi simasını və bu oyunla davamlı olaraq ön plana çəkilən oyunçuların düşdüyü qeyri-insani vəziyyətləri dünya ictimaiyyətinin və maraqlananların diqqətinə çatdırmaqdır" [13, V]. D.Yıldırım Dağlıq Qarabağ problemi ilə Türkiyədə baş verən Zeytun hadisələrini qarşılaşdıraraq hər iki hadisədə - müstəmləkəçi qüvvələr tərəfindən alət rolunu ermənilərin oynadığını qeyd edir. Əsərdə "erməni iddiaları və həqiqətlər" başlığı altında təqdim edilən hissədə isə müəllif haqlı olaraq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu və ermənilərin bu ərazilərə iddialarının puç və əsassız olmasını qeyd edir. "Qarabağ və Naxçıvan bölgələri, ən azından 1000 ildir ki, Azərbaycan Türk damğası daşımaqdadır", "Qarabağın Evliya Çələbi tərəfindən Kiçik Azərbaycan adlandırıldığını" yazan müəllif Tadeuş Svyataxovskiyə istinadən Qarabağda sovet işğalına qədər əsas say üstünlüyünün Azərbaycan türklərinə aid olduğunu[13, 25-26] da qeyd edir. 1995-ci ildə Cemalettin Taşkıranın "Keçmişdən günümüzə Qarabağ məsələsi" [21] adlı kitabı çapdan çıxdı. Əsərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin mahiyyəti, gündəmə gəlməsinin səbəbləri, Türkiyənin Qarabağ məsələsində tutduğu mövqe, apardığı siyasət araşdırılır, Qarabağ probleminin rusların və ermənipərəst qərb siyasətçilərinin təhriki ilə ortaya çıxdığı, bölgədə azlıq təşkil edən ermənilərin sayının süni şəkildə artırılması üçün dinc Azərbaycan türklərinin kütləvi qətlə yetirilməsi, deportasiyası və s. məsələlər izlənilir. O da Qarabağı türk yurdu [21, VII], türk məskəni [21, 4] kimi qeyd edir. Bu əsərdən sonra 1997-ci ildə Nizamettin Onk tərəfindən nəşr edilən "Azərbaycan Qarabağ tarixi" əsəri [15] Qarabağla bağlı Türkiyə oxuyucuları üçün növbəti bələdçi kitab rolunu oynadı. Bütövlükdə bu əsərdə Nizamettin Onkun fikirləri tariximizin mühüm problemlərindən biri olan Dağlıq Qarabağ məsələsinə baxışda daha çox obyektivliyi ilə fərqlənir. Müəllif problemi təhlil edərkən hadisələrin inkişaf dinamikasına da izləməyə çalışmış və fikirlərini hisslərinə deyil, qaynaqlara söykənərək qələmə almağa nail olmuşdur. XX əsrin sonlarında olduğu kimi XXI əsrin əvvəllərində də Dağlıq Qarabağ problemi ilə bağlı Türkiyə tarixşünaslığında tarixi gerçəkliyin müdafiəsi istiqamətində mövqe nümayiş etdirilmişdi. Belə ki, Aygün Attar öz əsərində Qarabağda baş verən münaqişəyə qədər və münaqişə illərindəki vəziyyəti təhlil etməyə cəhd etmişdir. Qarabağ məsələsini beynəlxalq bir problem olduğunu yazan müəllif onu "Şərq məsələsi"nin bir kabusu kimi dəyərləndirir. Tədqiqatçı problemin mənbəyini araşdırmaq üçün Qarabağın adı, coğrafi mövqeyi və tarixinə dair [3, 1-16] ümumi məlumat verdikdən sonra Rusiyanın erməni siyasəti, Cənubi Qafqazı işğalı və həyata keçirdiyi erməni köçlərinə qısaca nəzər salır [3, 17-44]. Əsərin yekununda da müəllif "Qarabağ müharibəsi"nə ayrıca bir fəsil həsr edir.

Türkiyədə araşdırdığımız problemlə bağlı dərc olunan maraqlı əsərlərdən biri də Rasim Ekşinin redaktoru olduğu "Şanlı tarixi, acı taleyi Qarabağ" əsəridir [9]. Bu əsər əsasən Qarabağ tarixi ilə bağlı Azərbaycan tarixçilərinin əsərlərinin tərcüməsindən ibarət topludur. Turqut Demirtepenin müəllifi olduğu əsərdə [7] isə hadisələri daha obyektiv şəkildə təhlil etmək üçün müəllif ilk öncə Dağlıq Qarabağ probleminin həlli istiqamətində Azərbaycanın [7,5-21], Ermənistanın [7, 23-36], daha sonra da problemin həllində aktor dövlət rolunu oynayan Türkiyə [7, 37-42], Rusiya [7, 43-56], ABŞ [7, 57-62], İranın [7, 63-76] mövqeyini qələmə almışdır. Müəllif apardığı tədqiqatın yekununda belə nəticə hasil olur ki, Azərbaycan və Ermənistanın mövqeyi problemin həllində tamamilə ziddir və hər iki tərəfin dinc yolla qazana biləcəyi bir həll yolu yoxdur. Müəllif həm də qeyd edir ki, Rusiya amili də problemin həllinə, o cümlədən də Minsk qrupunun təşkil etdiyi tərəflər arası dialoqların əhəmiyyətinə xələl gətirir [7, 91-93]. Müəllif təklif edir ki, problemin həlli üçün ilk öncə Dağlıq Qarabağın statusu, Ermənistan Silahlı Qüvvələrinin işğal altında olan torpaqlarda çıxarılması, qaçqınların geri qaytarılması, beynəlxalq sülh qüvvələrindən istifadə olunması, tərəflərarası görüşlərin formatı məsələsi razılaşdırılmalıdır. Yalnız bu halda hansısa bir həll yoluna ümid etmək olar [7, 94-95].

Ertan Efegilin Cavid Qasımlı ilə birgə tərtib etdiyi "Dağlıq Qarabağla bağlı yazılar" əsərində [8] isə ayrı-ayrı məqalələr toplanılmışdır. Bu məqalələrin müəllifləri əsasən Azərbaycan tarixçiləridir. Burada həm Qarabağın keçmişi, həm də Dağlıq Qarabağ problemi barədə dəyərli məlumatlar öz əksini tapmışdır. Asena Boztaşın müəllifi olduğu məqalədə isə Türkiyənin xarici siyasətində Dağlıq Qarabağ probleminin 1990-2014-cü illərdə qoyuluşu məsələsi tədqiq olunmuşdur [8, 231-240]. Burada da məqalənin əsas xəttini Türkiyənin Qarabağ məsələsində Azərbaycana hər zaman diplomatik dəstək göstərməsi təşkil edir.

2018-ci ildə Qarabağ problemi ilə bağlı daha bir dəyərli əsər işıq üzü gördü. Erdem Karacanın müəllifi olduğu "SSRİ-dən sonra Türkiyə siyasətində Qarabağ məsələsi (1991-1994)" adlı əsər [14] Azərbaycan respublikasına rəhbərlik edən şəxslərə görə fəsillərə bölünmüşdür. Müəllifin gəldiyi nəticələr xüsusilə maraq doğurur. Müəllif belə bir qənaətə gəlir ki, Qarabağ məsələsi, xüsusilə də Dağlıq Qarabağ probleminə torpaq uğrunda mübarizə kimi baxılsa da problemin kökü tarixi olaraq Azərbaycan türklərinə aid torpaqlarda, ruslar tərəfindən həyata keçirilən məskunlaşdırma siyasəti nəticəsində ermənilərin köçürülməsi ilə başlanan azərbaycanlı kimliyi ilə erməni kimliyi arasındakı mübarizəyə əsaslanır [14, 173]. Müəllif əsərdə hadisələri Türkiyə ilə yanaşı, Azərbaycan, Ermənistan, Rusiya və aktor dövlətlərin mövqeyindən də tədqiq etməyə çalışsa da, İranın mövqeyini diqqətdən kənarda qoymaqla ciddi qüsura yol vermişdir. Buna baxmayaraq müəllifin ərsəyə gətirdiyi əsər problemin tədqiqi baxımdan Türkiyə tarixşünaslığının ən dəyərli nümunələrindən biridir.

Türkiyə tarixşünaslığında Dağlıq Qarabağ problemi ilə bağlı barmaqla sayılacaq qədər kitablar işıq üzü görsə də, elmi məqalələrin yazılmasında fəallıq daha çox özünü göstərir. Belə ki, problemin ən yüksək həddə çatdığı bir vaxtda - 1992-ci ildə Şükrü Gürel "Qarabağ problemi ilə bağlı bir qeyd" [11] məqaləsini çap etdirdi. Həmin məqalədə müəllif haqlı olaraq qeyd edirdi ki, "Qarabağda çox az sayda olan ermənilərin bu ərazidəki varlığı 1828-ci ildən sonra Çar Rusiyasının yeritdiyi siyasətlə sürətlə artdı... ermənilər də 1978-ci ildə Qarabağdakı varlıqlarının 150-ci il dönümünü qeyd etdilər. Dağlıq Qarabağda 1919-cu ildə ingilis mənbələrinə görə, Azəri (Azərbaycan türkü – red.) - erməni əhalisinin faiz nisbəti 3-ün 2-ə olmaqla azərbaycanlıların lehinə idi. Erməni əhalisinin Dağlıq Qarabağda bugünkü kimi əksəriyyət təşkil etməsi SSRİ idarəçiliyi altında baş vermişdir" [11, 182]. Məqalədə müəllif Qarabağın keçmiş və yaxın tarixinə xülasə şəklində nəzər salaraq problemlə bağlı belə bir nəticəyə gəlir: "Bu gün Ermənistanın niyyəti Qarabağda müstəqil bir erməni dövlətinin qurulmasını təmin edən şərtləri formalaşdıraraq daha sonra bölgəni özünə birləşdirməyin yollarını açmaqdır" [11, 184]. Məqalə Dağlıq Qarabağ probleminin ən gərgin dövrünə təsadüf etdiyinə görə məqalədə Türkiyə Cümhuriyyəti tərəfindən maraqlı bir həll yolu təklif edilir. Bu təklifə görə "Azərbaycan Qarabağın bir qismini əlində saxlamaqla yanaşı qalan hissəsini Ermənistana güzəştə gedəcəkdi. Azərbaycan isə bunun əvəzində Zəngəzuru (yəni Azərbaycan ilə Naxçıvanı ayıran və indi Ermənistanının əlində olan ərazini) alacaqdı. Torpaq mübadiləsi ilə yanaşı bu ərazilərdə əhali dəyişikliyi də reallaşacaq, erməni ərazisində Azəri (Azərbaycan türkü – red.), Azəri bölgəsində də erməni saxlanılmayacaqdı" [11, 184]. Təbii ki bu fikirlər reallığa uyğun deyildi. Dağlıq Qarabağda rusların köçürmə siyasəti ilə erməni əhalisinin mexaniki artımı heç də bu ərazinin ermənilərə verilməsinə əsas ola bilməzdi. Eləcə də ermənilər Azərbaycandan İrəvan torpağından sonra qopardıqları Zəngəzuru güzəştə getməyə əsla yanaşmazdılar. Məqalədə müəllifin gəldiyi qənaətdən belə məlum olur ki, Türkiyə Cümhuriyyəti tərəfindən Qarabağ probleminin həlli yolunda yalnız diplomatik yolla cəhdlər edilmişdir. Hadisələrin sonrakı inkişafı isə Dağlıq Qarabağın ermənilər tərəfindən işğalını önləmək baxımdan bunun yetərli olmadığını göstərdi.

Dağlıq Qarabağ problemi ilə bağlı yazılmış digər bir dəyərli məqalənin müəllifi Ömər Göksel İşyardır. 2003-cü ildə dərc olunan bu məqalədə [12] müəllif ermənilərin Dağlıq Qarabağ məsələsində bir qərara gəlinməməsi ilə bağlı tutduqları mövqenin daxili səbəblərini tədqiq etməyə çalışmışdır. Müəllifin fikrincə bu gün Dağlıq Qarabağ probleminin həllində yaranan ən mühüm çətinliklərdən biri ermənilərin sahib olduqları torpaqları genişləndirmək istəyi ilə bağlıdır [12, 14]. Bu fikrini əsaslandırmaq üçün müəllifin gətirdiyi dəlillər də maraqlıdır: "Ermənistanın həyata keçirdiyi təşviqat kompaniyası, silahlı qruplarını bölgəyə göndərməsi, Dağlıq Qarabağ ermənilərini silah və ləvazimatla təmin etməsi, Azərbaycanın hava sahəsinə müdaxilə etməsi, terorçuların təlimində öz torpaqlarını istifadə etməsi, Ermənistan Silahlı Qüvvələrinin davam edən müharibəyə və qonşu bir dövlətin tor-

paqlarının işğal edilməsi prosesinə birbaşa qoşulması" [12, 15]. Müəllif qeyd edir ki, bu yolla ermənilər "Böyük Ermənistan" xülyasını reallaşdırmağa çalışırlar. Problemin həllində bir başqa əngəl olaraq tədqiqatçı ermənilərin bütün dünyaya yayılmış bir millət olmasından qaynaqlanan düşüncələrinin heterogenliyi, yəni müxtəlif xüsusiyyətliyidir. Müəllif bunu ermənilərin hətta öz aralarında belə bir çox məsələlərdə razılığa gəlməkdə çətinlik çəkməsi ilə izah edir [12, 21]. Əslində müəllifin bu fikrində təzad var. Belə ki, müəllif özünün də qeyd etdiyi kimi Dağlıq Qarabağ problemi indiki vəziyyətə gələnə qədər bir inkişaf yolu keçmişdir. Bu inkişaf yoluna da nəzər saldıqda görürük ki, ermənilər arasındakı fikir birliyinin və Dağlıq Qarabağ problemə verilən vahid dəstəyin nəticəsi olaraq bu gün hər hansı bir düşüncə baxımdan onlar arasında heterogenlikdən danışmaq yersizdir. Müəllifin fikrincə, Dağlıq Qarabağ probleminin həllini çətinləşdirən digər amillər ermənilərin bütövlükdə türklərə qarşı tarixi düşmənçilik hiss etməsi [12, 24], bu torpaqlara qarşı hiss etdikləri bağlılıq duyğusu [12, 25], ifrat erməni millətçiliyi [12, 25], kilsə amilinin erməni təfəkkürünün qorunması və inkişaf etdirilməsinə mühüm rol oynamasıdır [12, 26]. Sadaladığımız bu amillər müəllifin qeyd etdikləri arasında ən mühümləridir. Bütövlükdə bu məqalə Dağlıq Qarabağ probleminin tədqiqi baxımdan olduqca uğurlu və dəyərli bir əsər hesab oluna bilər.

Dağlıq Qarabağ problemi ilə bağlı 2005-ci ildə Demet Acar, Murat Çemrekin "Qafqazın Xronikalaşan münaqişə bölgəsi: Dağlıq Qarabağ Muxtar Vilayəti" [1] adlı məqaləsi də problemin tədqiqinə dair əhəmiyyətlidir. Bu məqalənin nəticəsində müəlliflər belə qənaətə gəlir ki, bu gün problemin həlli tərəflərin beynəlxalq hüquqa riayət etməsindən asılıdır. Müəlliflərə görə "Dağlıq Qarabağ münaqişəsini Azərbaycan və Ermənistanın arasındakı əlaqələri gərginləşdirmədən həll etmək regional və qlobal aspektdə aktor dövlətlərin sülh cəhdlərini dəstəkləməsi ilə mümkündür" [1, 134]. Təbii ki müəllifin də qeyd etdiyi kimi Rusiyanın hər iki tərəfə silah satdığı [1, 133], "Ermənistanın Rusiyadan hərbi, Qərbdən isə maddi və mənəvi dəstək aldığı" [1, 131] bir şəraitdə problemin dinc yolla və beynəlxalq güclər vasitəsi ilə həll bir o qədər də real görünmür.

Dağlıq Qarabağ problemində Ermənistan və Azərbaycan ictimai fikrinə mətbuatın təsiri də Türkiyə tarixşünaslığında tədqiqata cəlb edilmişdir. Leyla Budakın bu mövzuda müəllifi olduğu məqalədə [4] Dağlıq Qarabağda baş verən böhran əvvəlcə tarixi, etnik və regional problemlər baxımdan dəyərləndirilir, daha sonra əlaqədar ölkələrin kütləvi informasiya vasitələrinin böhranla əlaqəsi ümumi şəkildə nəzərdən keçilir. Məqalənin nəticə hissəsində isə əlaqədar ölkələrin ictimai rəy formalaşdırılmasında ölkə medialarının yeri və rolu dəyərləndirilir. Müəllif belə bir nəticəyə gəlir ki, Qarabağda baş verən hadisələrin işıqlandırılmasında problemin sülh yolu ilə həlli istiqamətində Azərbaycan və Ermənistan KİV-i çox az dəstək olurlar. Xüsusilə də erməni mediası, istər diasporun istiqamətləndirdiyi, istərsə də Ermənistanda olan media Qarabağ hadisələrini ictimaiyyətə çatdırmaq işində demək olar ki, oxşar mövqe nümayiş etdirir. Lakin, burada türkiyəli tədqiqatçının yanaşmasında yanlışlıq var. Bu cür məsələləri şərh edərkən bir məqamı diqqətdən kənarda qoymaq olmaz ki, işğala məruz qalan Azərbaycan, işğalçı tərəf isə Ermənistandır. Belə olan halda heç bir halda tərəflərdən məsələyə yanaşma baxımdan hər hansı bir güzəştli mövqe gözləmək yersizdir. Osman Özkul, Hüseyin Vermezin 2009-cu ildə qələmə aldığı "Dağlıq Qarabağ qaçqınlarının sosial-iqtisadi problemləri" adlı məqalədə isə daha maraqlı bir məqama diqqət yetirilir. Müəllif 1980-ci illərin sonlarına doğru ortaya çıxan qaçqın və məcburi köçgünlər problemini tədqiq etməyə çalışır. Problemin kökünü XIX əsrdə ermənilərin Çar Rusiyası tərəfindən Qafqaza köçürülməsində görən müəlliflər xüsusilə XX əsrdə Azərbaycan türklərinin başına gətirilənləri ermənilərin "Türksüz Böyük Ermənistan" siyasətinin tərkib hissəsi [16, 142] kimi qeyd edirlər. Məqalədə də qeyd olunduğu kimi 1978-ci ildə Qarabağdakı mövcudluqlarının 150 illiyini qeyd edən ermənilərin sayında xüsusilə Sovet dövründə artım müşahidə olunduğu halda, Azərbaycan türklərinin sayında azalma müşahidə olunmuşdu [16, 148]. Məqalədə əldə edilən nəticə budur ki, Dağlıq Qarabağ probleminin həlli beynəlxalq hüquq əsasında belə mümkün görünmür. Ən azından ona görə ki, Qərb ölkələri işğalçı tərəf olan Ermənistana təzyiq göstərmək əvəzinə, xristian həmrəyliyi nümayiş etdirərək onu mükafatlandırır və hətta ATƏT-in Minsk qrupunun timsalında problemi dinc yolla həll etməkdənsə Azərbaycanı işğalla barışmağa sövq edirlər [16, 165-166].

2010-cu ildən 2018-ci ilədək Türkiyədə Dağlıq Qarabağla bağlı aparılan tədqiqatların sayı daha da genişlənmiş və çoxsaylı məqalələr işıq üzü görmüşdür. Bu məqalələr içərisində xüsusilə Reha Yıl-

maz, Ahmet Sapmaz, Emine Vildan Özyılmaz, Mustafa Gökçe, Nasrin Sarıahmetoğlu, Çağlar Sökerin [10; 17; 18; 19; 20; 22] tədqiqatlarını qeyd edə bilərik. Reha Yılmazın müəllifi olduğu məqalədə müəllif haqlı olaraq Qarabağ probleminin Azərbaycan-Ermənistan məsələsi deyil, xristian-müsəlman münaqişəsi olduğunu qeyd edir. Müəllifin yazdığına görə problemin dinc yolla həlli mümkünsüz görünür və bütün Qafqaz əhatə edən bir müharibənin baş verməsi qaçılmazdır [22, 88]. Məqalədə də qeyd olunduğu kimi Ermənistan dövləti və Qarabağ problemi mövcud olması Rusiyanın 3 əsrlik siyasətinin nəticəsidir. Eyni mövqe Ahmet Sapmazın müəllifi olduğu məqalədə də müdafiə olunur. Xüsusilə də Gürcüstana Rusiya Federasiyası tərəfindən qoşun yeridildikdən sonra müəllifin də qeyd etdiyi kimi bu gün Azərbaycanın diqqət etməli olduğu ən mühüm amil Rusiyadır [18, 1]. Emine Vildan Özyılmaz da problemin tarixçəsinə qısa şəkildə nəzər salaraq bu gün problemin həllində ən mühüm amilin Rusiya olduğunu və regiondakı nüfuzunu qorumaq baxımdan hər hansı bir güzəştə getməyəcəyini qeyd edir. Müəllif haqlı olaraq qeyd edir ki, bu gün Ermənistan tamamilə Rusiya tərəfindən idarə edilən bir ərazidir [17, 88]. Rusiya faktorunun güclü olduğu bir şəraitdə türkiyəli tədqiqatçıların əksəriyyəti tərəfindən problemin həlli yolunda Azərbaycanın Türkiyə ilə birlikdə irəliləməsinə ehtiyac duyulduğu qeyd olunur. Bunu Mustafa Gökçenin "İki qardaş dövlətin ortaq problemi", Nasrin Sarıahmetoğlunun "Qarabağ probleminin həlli prosesində Türkiyə və Rusiya", Çağlar Sökerin "Dağlıq Qarabağ probleminin münaqişəni həll etmə perspektivindən tədqiqi" adlı məqalələrindən [10; 19; 20] daha aydın görmək mümkündür.

***Nəticə***. Bütövlükdə Türkiyə tarixşünaslığında mövcud fikir bundan ibarətdir ki, Dağlıq Qarabağ probleminin həlli yolunda beynəlxalq şəraitə uyğun rəftar edib münasib imkan gözləməyə ehtiyac duyulur. Yazılan tədqiqatlarda Azərbaycanın mövqeyi dəstəklənir və Ermənistanın mövqeyi işğalçı tərəf kimi pislənir. Hasil olan bir başqa fikir isə ondan ibarətdir ki, bu gün problemin həlli Ermənistandan çox Qərb dövlətləri və Rusiya Federasiyasının timsalında xristian təəssübkeşliyindən asılıdır. Bu gün müsəlman dünyasında baş verən qanlı hadisələrə diqqət etdikdə bu xristian təəssübkeşliyində hər hansı bir dəyişiklik olması real görünmür.

## ƏDƏBİYYAT


1. Acar D., Çemrek M. Kafkasyanın kronikleşen çatışma alanı // Karadeniz Araştırmaları, 2005, Sayı 8, s.114-136.
2. Aslan Y. Can Azerbaycan (Karabağ'da Talan Var). Editör: Dr. Buğra Atsız. Ankara: KÖK yayınları, 1990, 109 s.
3. Attar A. Karabağ sorunu kapsamında ermeniler ve ermeni siyaseti. Ankara: Atatürk Araştırma Merkezi, 2005, 224 s.
4. Budak L. Karabağ Krizinde Ermenistan ve Azerbaycan Kamuoyuna Medyanın Etkisi // Karadeniz Araştırmaları, 2007, Sayı 14, s.131-147.
5. Dağlık Karabağ: hayaller ve gerçekler. Ankara: Azerbaycan Kültür Derneği, 1989, 71 s.
6. Dağlıq Qarabağ: Uydurmalar və həqiqətlər // Əliyarlı S. Tariximiz açıqlanmamış mövzuları ilə. Bakı: Mütərcim, 2012, s.389-406.
7. Demirtepe T.M. Dağlık Karabağ Sorunu: Dar Alanda Büyük Oyun. Ankara: USAK, 2011, 112 s.
8. Efegil E., Kasımlı C. Dağlık Karabağ üzerine yazılar. İstanbul: Gündoğan yayınları, 2015, 252 s.
9. Ekşi R. Şanlı Tarihi, Acı Talihi Karabağ. İstanbul: Doğu Kütüphanesi, 2010, 278 s.
10. Gökçe M. İki Kardeş Devletin Ortak Sorunu. Karabağ ve Ermeni meselesi // Yeni Türkiye, 2014, №60, s.1-11.
11. Gürel Ş.S. Karabağ sorunu üzerine bir not // Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Dergisi, 1992, sayı 47(1), s.181-185.
12. İşyar Ö.G. Ermenilerin Dağlık Karabağ uyuşmazlığına ilişkin tutumlarının içsel nedenleri // İ.Ü. Siyasal Bilgiler Fakültesi Dergisi, 2003, №29, s.1-43.
13. Karabağ dosyası. II Baskı. Ankara: Türk Kültürünün Araştırma Enstitüsü yayınları, 1991, 127 s.
14. Karaca E. SSCB Sonrası Türkiye Siyasasının Karabağ Mesaisi 1991-1994. Ankara: Gece Kitaplığı, 2018, 228 s.
15. Onk N. Azerbaycan Karabağ tarihi. İstanbul: Fatih ofset, 1997, 142 s.

16. Özkul O., Vermez H. Dağlık Karabağ Göçmenlerinin Sosyo-Ekonomik Sorunlar // Ahmet Yesevi Üniversitesi Mütevelli Heyet Başkanlığı. Bilig, Güz, 2009, Sayı 51, s.139-170.
17. Özyılmaz E.V. Geçmişten Günümüze Dağlık Karabağ // Gazi Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2013, 15/2, s.191-208.
18. Sapmaz A. Dağlık Karabağ Sorununda Azerbaycan Tarafından Kuvvet Kullanım Olasılığının Analizi // Güvenlik Stratejileri, 2012, Yıl: 8 Sayı: 15, s.1-31.
19. Sarıahmetoğlu N. Karabağ Sorununun Çözüm Sürecinde Türkiye ve Rusya // Marmara Türkiyat Araştırmaları Dergisi, 2016, Cilt III, Sayı 2, s. 93-119.
20. Söker Ç. Dağlık Karabağ sorununun çatışmayı çözme perspektifinden incelenmesi // Kafkas Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi, 2017, Cilt, 8, Sayı 16, s.555-574.
21. Taşkıran C. Geçmişten günümüze Karabağ meselesi. Ankara: Genelkurmay Basım Evi, 1995, 267 s.
22. Yılmaz R. Kafkasyada çözülemeyen kördüğüm. Dağlık Karabağ sorunu // Çankırı Karatekin Üniversitesi Uluslararası Avrasya Strateji Dergisi, 2010, 2(1), s.71-90.

**КОНУЛ ГУСЕЙНОВА**
*Диссертант Бакинского Государственного Университета*

## НАГОРНО-КАРАБАХСКАЯ ПРОБЛЕМА В ИСТОРИОГРАФИИ ТУРЦИИ

В статье рассматриваются Нагорный Карабахский вопрос в исследованиях турецких ученых, предпринимается попыток анализировать объективные и субъективные подход к этой важной проблеме. На основе этих исследований доказывается, что подход турецких ученых различаются с более объективным подходом к Нагорно-Карабахскому вопросу. Турецкие историки поддерживает позицию Азербайджана по Нагорно-Карабахскому конфликту.

*Ключевые слова*: Кавказ, Азербайджан, Турция, Армения, Нагорный Карабах.

**KONUL HUSEYNOVA**
*Dissertation student of Baku State University*

## NAGORNO-KARABAKH PROBLEM IN THE HISTORIOGRAPHY OF TURKEY

The article examines the Nagorno-Karabakh problem in the researches of Turkish scientists, attempts are being made to analyse the objective and subjective approach to this important problem. On the basis of these studies it is proved that the approach of Turkish scientists to this problem differ with a more objective approach to the Nagorno-Karabakh issue. Turkish historians support the position of Azerbaijan on the Nagorno-Karabakh conflict.

*Keywords*: Caucasus, Azerbaijan, Turkey, Armenia, Nagorno-Karabakh.

*Məqalənin redaksiyaya daxil olduğu tarix:15 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. İsmayıl Məmmədov.*

UOT 94(479.24); UOT 930

**SƏİDƏ HƏSƏNOVA**
*Bakı Dövlət Universiteti, doktorant*
**saida.hasanova.n@bsu.edu.az**

# AZƏRBAYCAN SƏFƏVİ İMPERİYASININ TƏNƏZZÜLÜNƏ DAİR TARIXŞÜNASLIQ MATERİALLARININ QISA TƏHLİLİ

*Azərbaycan Səfəvi dövləti XVII əsrin sonları - XVIII əsrin əvvəllərindən etibarən obyektiv və subyektiv səbəblərdən zəifləməyə başladı və bu məsələ istər yerli tarixşünaslıqda, istərsə də xarici tarixşünaslıqda müxtəlif istiqamətlərdən araşdırıldı. Heç şübhəsiz ki, bu mövzu haqqında çoxşaxəli fikirlər fonunda bir mənalı olmayan və bəzən də həqiqəti əks etdirməyən məsələlər də əks olundu. Mövcud məqalə də bu fikirlərin kiçik bir qismi haqqında məlumat verməyə cəhd edilmiş, əsasən xarici tarixşünaslığa toxunulmuşdur.*

*Açar sözlər*: Səfəvi imperiyası, Osmanlı imperiyası, Rusiya imperiyası, Şah Sultan Hüseyn.

***Giriş***. Səfəvi imperiyasının tənəzzülü haqqında Azərbaycan tarixşünaslığında keçmiş SSRİ-dən qalma bir fikir mövcuddur ki, Səfəvilər zəiflədiyi bir dövrdə Azərbaycan iki imperiyanın, yəni Rusiya və Osmanlı imperiyasının çəkişmə meydanına çevrilmişdir. Bu fikir qismən həqiqəti əks etdirsə də bir sıra məqamları unutmaq olmaz. Birincisi Azərbaycan Səfəvilər imperiyası xarıcı təsirlər, işğalçı qüvvələr. separatist çıxışlara rəğmən tam olaraq yox olmamışdı və müəyyən tədbirlər həyata keçirirdi ki, yenidən işğal altındakı torpaqları geri qaytara bildi. İkincisi isə Osmanlı dövlətinin planları tamamilə işğalçılıq yönümlümüydü bu haqda da bir az düşünmək lazımdır. Bəhs olunan dövrlə bağlı T.Mustafazadə, F.Əliyev, Ə.Əbdürrəhmanov, R.Dadaşova, Ə.N.Quliyev və digərlərinin rolu danılmazdır [2; 3; 4; 5; 6; 7]. Azərbaycan tarixşünaslığında Səfəvi tarixinin tam olaraq əks olunduğu Z.H.Bayramlı və B.Ş.Şabiyevin müəllifi olduğu "Azərbaycan Səfəvi dövləti" əsərində Səfəvilərin tənəzzül dövrünün başlanma səbəblərinə dair təqdirəlayiq faktlar mövcuddur [1].

Səfəvilər zəifləməsi və tənəzzülünə səbəb olan siyasi və sosial-iqtisadi məsələlərlə bağlı Rusiya tarixşünaslığında bir çox tarixçilər tədqiqat obyektinə çevirsələr də, daha çox İ. Petruşevksi, T.Y. Kruşinski, K.Bruin, E.S.Zevakin, V.P.Listsov, M.V.Leviatov, P.O.Markova, N.N.Molçanov, N.A. Smirnovun tədqiqatları bu istiqaməti daha geniş şəkildə işıqlandırmışdır. Bu tarixçilərin də əksəriyyəti Rusiya meylli çıxış etmiş olsalar da bir sıra obyektiv faktlara da rast gəlmək mümkündür [8; 9; 10; 11; 12; 13; 14].

Tədqiqat obyektinə çevrilmiş məsələ ilə bağlı ingilisdilli tarixşünaslıqda da bu haqda kifayət qədər araşdırmalara rast gəlinir. Bunlarda C.Hanvey. Ə.Nyuman, R.Seyvori, L.Lokxard, R.Matsi və digərlərinin araşdırmaları maraq doğurur [18; 19; 21; 22; 23]. Bu tarixçilər içərisində L. Lokxard öz qeyri-obyektivliyi ilə seçildiyi halda, Ə.Nyuman və R.Seyvori daha çox təsvir mövqeyindən çıxış edir. Səfəvilərin son dövrü və ölkədəki proseslərlə bağlı ən ətrafli məlumat Rodolf Matsiyə məxsusdur. O, özünün "Persia in crisis Safavid decline and the fall of Isfahan" adlı monoqrafiyasında bu məsələni ətraflı şəkildə araşdırmışdır [20].

Həm siyası baxımdan, həm də sosial – iqtisadi baxımdan öz güclü qonşularından – Osmanlı və Rusiya imperiyasından geridə qalan Səfəvilər imperiyasının tənəzzülündə sosial-iqtisadi məsələlərin də rolu az deyildi. Ölkə üçün əhəmiyyətli olan taxıl tədarükü demək olar ki, edilməmiş, taxıl əkilməmişdi [3, 21] və bu proses də digər əskik qalmış problemlər kimi sosial vəziyyətin kəskin şəkildə pisləşməsinə səbəb olmuşdu. Səfəvi dövlətinin tarixinə öz tədqiqatlarında yer ayırmış T.Y. Kruşinski məlumat verməkdədir ki, Şah Sultan Hüseyn (1694 – 1722) zamanında əyləncələrə başı qarışan məmurlar dövlətin get-gedə zəiflədiyinin fərqində deyildilər [8, 17]. Lakin, ölkədə taxıl başda olmaqla lazımlı bitkilərin becərilməməsinin əsas səbəbi idarəetmə ilə bağlı deyildi. Bu dövrdə ölkədə quraqlığın baş verməsi idi. 1703-cü ildə Şamaxı şəhərində olmuş K. Bruin şəhərdə malların bahalaşması və əsgərlərin qarətlə məşğul olması haqında məlumat verməkdədir. Çünki, əsgərlər xidmət haqqı kimi müəyyən edilmiş məvaciblərini ala bilmirdilər [20, 16]. Obyektiv və subyektiv səbəblərin mövcudluğu xarici qüvvələrin təsiri ilə ölkədə narazı təbəqələrin əsas iştirakı ilə separatist çıxışların

və ya qiyamların baş verməsinə səbəb olurdu. Daim Xəzər ətrafı ərazilərə təsir etmək istəyində olan Rusiya heç şübhəsiz ki, uyğun bir zaman gözləməkdə idi və bütün bunların baş vermə ehtimalına müəyyən təsir etmək məqsədi ilə Osmanlı imperiyası da bu hadisələrlə yaxından maraqlanırdı.

İmperiya daxilində mərkəzi hakimiyyət əleyhinə baş vermiş qiyamlar da mərkəzi hakimiyyətin zəifləməsi, xarici işğalçılara qarşı dövlətin dayanıqlı olmaması və bu kimi neqativ hallara səbəb olurdu. Səfəvilər əleyhinə ilk belə üsyan 1707-ci ildə çar Balakəndə baş vermişdi, daha sonrakı dövrlərdə bu cür üsyanlar daha da genişləndi. Xüsusilə əfqan təhlükəsi bu proseslərdə katalizator rolunu oynayırdı (10, 310). Belə bir şəraitdə, öz planlarını gerçəkləşdirmək istəyən I Pyotr da yaxşı bilirdi ki, Osmanlı imperiyası baş verəm hadisələr biganə qalmayacaq. P.V.Listsov öz əsərində yazırdı ki,, knyaz Bekoviç Çerkasski 1714-cü il hesabatında Qafqazın Osmanlıların təsirinə düşməsinin yolverilməz olduğunu əks etdirmişdir (11, 109). İ Pyotr, Bekoviç Çerkasskinin verdiyi məlumatın dəqiqləşdirilməsi, Səfəvilər haqqında dəqiq məlumat alınması və başda dağlı xalqları başda olmaqla Osmanlı yönümlü xalqı öz tərəflərinə çəkmək, yerli xristian əhalidən dayaq kimi istifadə etməyin mümkün olub – olmamasını yoxlamaq və digər bu kimi kəşfiyyat məlumatlarını öyrənmək məqsədi ilə Artemi Volinskini 1716-cı ildə Azərbaycan göndərdi (6, 3). A.N.Smirnov isə Artemi Volinkski Qafqazın müsəlman xalqlarının tabe olunması üçün mütləq hərbi qüvvə sərf etməyin labüd olduğunu, ölkədə xaotik vəziyyətin hökm sürdüyünü, narazıçılıqlardan bu istiqamətdə maksimum istifadənin mümkünlüyünü öz məktub və hesabatlarında bildirdiyi haqqında məlumat verir (15, 371). Bir çox tarixçilər Rusiyandan çox Osmanlı imperiyasının Qafqazı işğal etməsini önə çıxarsalar da yuxarıda qeyd etdiyimiz faktlar onun göstərir ki, Osmanlıdan daha çox Rusiyanın işğalçılıq planları mövcud olmuşdur. O ki, qaldı Osmanlı imperiyasının baş vermiş hadisələrə yaxından nəzər yetirməsinə heç şübhəsiz ki, Osmanlı imperiyası dili və dini bir olan xalqların Rusiyanın işğalına məruz qalmasına göz yuma bilməzdi. Hətta, A. Volinskinin məlumatlarını təhlil etdikdə aydın olur ki, Rusiya nəinki, Xəzəryanı vilayətləri, həmçinin bütövlükdə Səfəvilər imperiyasının işğal olunmasının mümkünlüyü haqqında da düşünürmüş (14, 407). Bütün bunların baş vermə ehtimalını göz önündə saxlayan Osmanlı Sultanı Dürri Ahmet Efendini 1720-ci ildə İsfahan elçi olaraq göndərdi. Ahmet Dürri Efendi heç şübhəsiz ki, müvafiq məlumatlarla İstanbula qayıtmışdı (16).

1722-ci il Rusiyanın Xəzəryanı bölgəni işğal etmək hazırlıqlarından heç şübhəsiz ki, Sultan III Ahmet də xəbərdar idi və bu haqda P.Q.Butkov da məlumat verir. O yazır ki, Rusiyanın Xəzəryanı vilayətləri işğal etməsi Osmanlını dərindən narahat edirdi (20, 58). Həmin ildə əfqanların İsfahanı işğal etmə təhlükəsi Rusiya təhlükəsini daha da artırdı. ən sonunda Rusiyanın işğala başlaması, Osmanlı sarayında daha ciddi mübahisələrə səbəb olmuşdu. E. S. Zevakin qeyd edir ki, mübarizə Rusiya ilə Osmanlı arasında baş verirdi. Hər kəs öz ərazilərini Səfəvi torpağı hesabına genişləndirmək məqsədi güdürdü (9, 325). O həmçinin vurğulayır ki, hələ şahzadə olan II Şah Təhmasib və işğalçı əfqanlar bir o qədər də rol oynamırlar. Məsələ burasındadır ki, Rusiya konkret olaraq işğalçılıq nümayiş etdirsə də Osmanlı imperiyasının siyasətində bunu bir o qədər də müşahidə etmirik. Digər bir tərəfdən daim müşahidə mövqeyini seçmiş Osmanlılar Rusiya işğalçılıq niyyətini göstərdikdən sonra aktiv addımlar atmağa başlayırlar. R. Seyvori da Osmanlıların müharibə etmək istəyinin olduğunu yazsa da bunu təsdiq edən hər hansı bir fakta rast gəlinmir (23, 248). Maraqlı məqam bundadır ki, bu barədə Ə. Nyuman ümumiyyətlə bəhs etmir, R. Matsi isə Rusiya Səfəvi münasibətlərindənsə digər səbəbləri daha çox vurğulamağı üstün tutur.

Belə bir zamanda Azərbaycanda öz separatist mövqeyi və məqsədsiz addımları ilə önə çıxan Hacı Davud Rusiyaya müraciət etdi, lakin, ona etibar etmənin namümkün olduğunu anlamaqda çətinlik çəkməyən ruslar ona etibar etmədilər. Ruslar burada başda ermənilər və gürcülər olmaqla xristian əhalının dayağından istifadə etməyi üstün tuturdular. Ona görə də, o Osmanlı imperiyasından kömək istəmək qərarına gəlir. C.Hanvey məlumat verir ki, Şamaxıdakı üsyançılar Osmanlı imperiyasından dəstək gələcəyinə ümid edirdilər (18, 46). Osmanlı dövləti isə Rusiyaya qarşı təsir vasitəsi kimi Hacı Davuddan istifadə olunmanın mümkün ola biləcəyinə qənaət gətirsələr də sonradan bunun bir yanılqı olduğunu anladılar və öz dəstəklərindən imtina etdilər.

Rusiya da Osmanlı dövləti ilə müharibə aparmaq üçün maraqlı deyildi. Ona görə də, İ Pyotr Osmanlı imperiyası ilə müharibənin önünü almaq və ya gecikdirmək məsələsini İ. Neplyuyevə həvalə etmişdi O, İ. Neplyuyev vasitəsi ilə Xəzəryanı vilayətləri işğal etmək fikrinin olduğunun

Osmanlıya xəbər verdirmişdi. Bu haqda məlumatlar İsmayil Hakkı Uzunçarşılının "Osmanlı tarixi" adlı əsərində yer almaqdadır (17, 563-564).

Səfəvi imperiyası ərazilərinin Rusiya tərəfindən işğalı Osmanlını narahat etməyə bilməzdi. Doğrudur, A.Əbdürrəhmanov Osmanlı ordusunun Səfəvi ərazisinə daxil olmasını Avropa ölkələrinin təkidi ilə gerçəkləşdiyini bildirir (4, 33-35). Heç şübhəsiz ki, bu istisna deyil, lakin, bu məsələdə Osmanlı imperiyasının həssasiyyət göstərməsini tamamilə bu səbəblərə bağlamaq olmaz.

V.N. Leviatov Ruslanın Xəzəryanı bölgədə get-gedə möhkəmləndiyini müşahidə edən Osmanlı imperiyası ordusunun 1723-cü ilin yazında Əruzum şəhərindən Kartliyə daxil olaraq oranı tutması haqqında məlumat verir (12, 85). P.O. Markova bildirməkdədir ki, 1723-cü ilin 12-13-cü ilin iyununda Tiflis şəhəri də heç bir müqavimət olmadan təslim oldu. (13, 97). Bu məlumatlardan Osmanlının işğalçılığını müşahidə etmək mümkündür, lakin, Osmanlı imperiyası Rusiyanın onlara qarşı istiqamətlənmiş işğalçı mövqeyi qarşısında eyni siyasəti ruslara qarşı həyata keçirirdilər. Lakin, həm V.N. Leviyatov, həm də O.P. Markova bu məsələ haqqında səthi məlumat verirlər. Yəni, Rusiya müsəlman əhalini öz təsir dairəsinə salmaq niyyətini göstərdiyi üçün Osmanlı da xristian əhalini öz təsir dairəsinə sala biləcəyini və bu istiqamətdə heç bir maneənin olmayacağını Rusiyaya göstərmək istəmişdir. Halbuki, Rusiya müsəlman əhalini zorla öz təsir dairəsinə salırdı.

Belə bir şəraitdə, Rusiya Osmanlı imperiyasının Xəzər sahilinə çıxmasını önləmək üçün 1723-cü ilin iyun ayında Həştərxan şəhərindən Matyuşkinin başçılığı ilə Bakıya yola düşdü və 6 iyulda Bakı divarları mühasirə olundu. Daha sonra Bakı, ardından Kür ətrafı bir sıra şəhərlər işğal olundu (5, 58).

Şah I Təhmasib Osmanlılarla diplomatik əlaqələr qirmağa hələ şahzadə olduğu zamanlardan maraqlı idi və bu məqsədlər Osmanlı imperiyasına elçi göndərmişdi, lakin bu cəhdlər nəticəsiz qalmışdı. Onun heç bir zaman Rusiya ilə diplomatik əlaqələr qurma cəhdi olmamışdır. Hətta, 1723-cü il 12 sentyabr tarixində 5 maddədən ibarət İbrahim bəy tərəfindən zorla imzalanmış Peterburq müqaviləsi də Şah I Təhmasib tərəfindən tanınmadı (7, 51). Çünki, bu müqavilə ilə Xəzəryanı vilayətlərin işğalı təsdiqlənirdi.

Daha sonra Osmanlı Şirvan məsələsini qabardaraq Şamaxının Osmanlı təbəəliyinə girdiyini əsas gətirib İ Pyotrdan işğalı dayamdırmasını tələb etdi. Nəticədə, 6 noyabr 1723-cü ildə İstanbulda müqavilə imzalandı və Xəzəryanı vilayətlər Rusiyaya birləşdirildi. Bütün bu proseslər artıq iki əsrdən uzun bir müddət mövcud olmuş böyük bir imperiyanın tənəzzülünü tezləşdirirdi.

***Nəticə***. Gördüyümüz kimi, XVII əsrin sonu – XVIII əsrin əvvələrində Azərbaycan Səfəvilər imperiyasının tənəzzülü ilə bağlı sovet dönəmində kifayət qədər araşdırma olsa da, bu məsələ hərtərəfli şəkildə tədqiq edilməmiş, tənəzzül və durğunluğun əsl mahiyyəti açılmamışdı. Sovetlərdə işıq üzü görmüş tarixi əsərlərdə Qızılbaşların son dönəmi ilə bağlı hadisələr marksist-leninist metodologiyaya əsaslanaraq araşdırılmış, siyasi hadisələrə birtərəfli yanaşılmış, səthi öyrənilmiş, dərinliyinə varılmadan subyektiv nəticələr ortaya qoyulmuşdu. Bu baxımdan Səfəvilərin tənəzzülü ilə bağlı siyasi, iqtisadi və sosial prosesləri ilkin qaynaqlardan istifadə edərək araşdırmaq və onlara düzgün tarixi qiymət vermək müasir Azərbaycan tarix elminin qarşısına qoyulan zəruri problemlərdəndir.

## ƏDƏBİYYAT

1. Bayramlı Z., Şabiyev B. Azərbaycan Səfəvi dövləti (XVI-XVIII əsrlər). Bakı: "Elm və təhsil" nəşriyyatı, 2017, 360 s.
2. Dadaşova R. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı: "Nurlan", 2003, 440 s.
3. Quliyev Ə. N. Azərbaycan – Rusiya münasibətləri tarixindən (XV-XVIII əsrlər). Bakı: Azerb. SSR SEBY cəmiyyəti, 1958, 53 s.
4. Абдурахманов А. Азербайджан во взаимоотношениях с Россией, Турцией и Ираном в I-ой половине XVIII в. Баку, Издательство Академии наук АССР, 1964г., стр. 98.
5. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в I-ой половине XVIII в. Баку, Элм, 1975, ст.230.

6. Алиев Ф.М. Миссия посланника русского государства А.П. Волынского в Азербайджане. Баку, Элм, 1979, ст.122.
7. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку, Элм, 1993, стр. 240.
8. Kruşinski Y.T. Xristian səyyahın tarixi. Farscadan tərcümə edən Ş.Fərzəliyev. Bakı: Azərbaycan, 1993, 105 s.
9. Зевакин Е.С. Прикаспийские провинции в эпоху русской оккупации XVIII века // Известия Общества исследования и изучении Азербайджана, №5, Баку, 1927, ст.133.
10. История Ирана с древнейших времен до конца 18 века / Под редакцией Струве В.В., Орбели И.А., Петрушевского И.П. Ленинград: Издательство Ленинградского университета, 1958, 390 с.
11. Лысцов В.П. Персидский поход Петра I (1722-1723 гг.). Москва, Издательство МГУ, 1951, ст.245.
12. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII века. Баку, Издательство АН. АзССР, 1948, стр. 225.
13. Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII века. Москва, Наука, 1966, стр. 325.
14. Молчанов Н. Н. Дипломатия Петра Первого. Москва, Изд. МА, 1986, стр. 440.
15. Смирнов Н.А. Политика России на Кавказе XVI-XIX вв. Москва, Соцэкгиз, 1958, стр. 244.
16. Ahmet Dürri Efendiendinin İran Sefernamesi Hazr. Ürkündağ A. Yüksek lisans tezi. Afyon, 2006, 140 s.
17. Uzunçarşılı İ.H. Osmanlı tarihi. IV c. I bölüm. Ankara, Türk tarih kurumu basımevi, 1988, dördüncü baskı, 687 s.
18. Hanway J. An historical account of the British trade over the Caspian Sea: with the author's journal of Travels from England through Russia into Persia and back through Russia, Germany and Holland. Vol.-I, London, 1762, p. 460.
19. Lockhart L. The fall of the Safavi dynasty and the afghan occupation of Persia. Cambridge, Cambridge University Press, 1958, p. 583.
20. Matthee P. R. Persia in crisis Safavid decline and the fall of Isfahan. London: I.B.Tauris & Co. Ltd, 2012, 419 p.
21. Newman A. J. Safavid Iran. Rebirth of a Persian Empire. London: I.B.Tauris & Co. Ltd, 2009, 297 p.
22. The Cambridge history of Iran: The Timurid and Safavid periods. Edited by P. Jackson, late by Lockhart L., Vol. VI, Cambridge, Cambridge University Press, 1986, p. 1087.
23. Savory R.M. Iran under the Safavids. Cambridge, 1980, p. 277.

**САИДА ГАСАНОВА**
*Докторант Бакинского Государственного Университета*

## КРАТКИЙ АНАЛИЗ ИСТОГРАФИЧЕСКИХ МАТЕРИАЛОВ ПО УПАДКУ АЗЕРБАЙДЖАНСКОЙ ИМПЕРИИ СЕФЕВИДОВ

Статья изучает краткий анализ историографических материалов по упадку Азербайджанской империи Сефевидов. Некоторые предвзятые научные проблемы, в том числе в англоязычной историографии, также анализируются с использованием первичного и вторичного ресурса в статье. В Статье также дается информация об Сефевидо-Российских и Сефевидо-Османскаяих отношениях и различных влияний упадка Сефевидов.

*Ключевые слова*: Сефевидская империя, Османская империя, Российская империя, Шах Султан Хусейн.

**SAIDA HASANOVA**
*Baku State University, PhD Candidate*

## A BRIEF ANALYZE OF THE HISTEOGRAPHY MATERIALS ON THE DECLINE OF AZERBAIJAN SAFAVIDS EMPIRE

The Paper deals with a brief analyzes of the histeography materials on the decline of Azerbaijan Safavids Empire. Some biased scientific problems including in English-language historiography is also analyzed with the primary and secondary resource in the article. The Paper also gives information about the relationships Safavid-Russia, Safavid-Ottoman and the different influences of the decline of Safavids.

*Keywords*: Safavid Empire, Ottoman Empire, Russian Empire, Shah Sultan Hussein.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.ü.e.d.Zabil Bayramov, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24)**

**AYNUR HƏŞİMOVA**
*Bakı Dövlət Universiteti*
*Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının doktorantı*
**aynur.hashimova@arti.edu.az**

# ORTA ƏSRLƏR DÖVRÜNDƏ QARABAĞIN ƏRAZİSİ VƏ SƏRHƏDLƏRİ

*Məqalədə "Qarabağ" adının etimologiyası, mənşəyi, Qarabağın ərazisi, təbii-coğrafi sərhədləri araşdırılmış, Qarabağın orta əsrlər dövründə tarixinə ekskurs edilmiş, bölgənin xarici düşmənlərdən və ara müharibələrindən qorunması üçün müxtəlif qalaların, o cümlədən Şuşa qalasının salınması, Pənahəli xan və İbrahimxəlil xanın dövründə Qarabağ xanlığının genişləndirilməsi məsələləri tədqiq edilmişdir.*

*Açar sözlər*: Qarabağ, sərhədlər, ərazi, etimologiya, qədim tarix, Qafqaz Albaniyası.

***Giriş.*** Qarabağ ərazisi Azərbaycanın mühüm strateji əhəmiyyətə malik bölgələrindən biridir. Qarabağın sərhədləri, bölgənin Azərbaycanın hansı ərazilərini əhatə etməsi ilə bağlı məsələlər aktualdır və Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində meydana gələn Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin dərk edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Qədim dövr mötəbər mənbələrdən aydın olur ki, Qarabağ ərazisi Azərbaycanın əzəli və əbədi torpağıdır. Məsələn, Azərbaycan Qarabağ xanlığının vəziri olmuş Mirzə Camal Cavanşirin "Qarabağ tarixi" (1847) əsəri Qarabağın Azərbaycan ərazisi olmasını sübut edən qiymətli mənbələrdən biridir [7].

Ermənistan nəinki müasir dövrdə, eyni zamanda tarix boyu Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüş, nəticədə Azərbaycanın mühüm əraziləri işğal olunmuş, əhalinin öz tarixi torpaqlarından didərgin salınaraq qovulması, qaçqın və məcburi köçkün vəziyyətinə salınması nəticəsində ölkədə humanitar böhran yaranmışdır. Bu baxımdan mövzunun araşdırılması mühüm əhəmiyyətə malikdir.

Qarabağ problemi, onun ərazisi və sərhədləri məsələsi ilə bağlı olan mənbələrin araşdırılması, İkinci Qarabağ müharibəsindən sonra yeni geosiyasi reallıqlarınn yaranması, münaqişənin həll edilməsi istiqamətində həm diplomatik, həm də güc vasitələrindən istifadə edilməsi problemlə əlaqədar yeni yanaşmanı və problemin yeniliyini şərtləndirir.

***"Qarabağ" adının etimologiyası***. Azərbaycanın qədim tarixi vilayətlərindən olan Qarabağın adı Azərbaycan dilindəki "qara" və "bağ" sözlərindən əmələ gəlmişdir. "Qara" və "bağ" söz birləşməsi qədim tarixə malikdir və onun Azərbaycanın konkret ərazisinə aid edilməsi də danılmaz faktdır. "Qarabağ" sözü ilk mənbələrdə hələ 1300 il bundan əvvəl, yəni VII əsrdən etibarən işlənməyə başlamışdır. Əvvəllər bir tarixi-coğrafi anlayış kimi istifadə edilən Qarabağ konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir. Bu sözün Azərbaycan və digər türk dillərində "qara"nın rəngdən başqa "sıx", "qalın", "böyük", "tünd" və digər mənaları da vardır. Bu baxımdan, "Qarabağ" termini "qara bağ", yəni "böyük bağ", "sıx bağ", "qalın bağ", "səfalı bağ" və s. mənanı kəsb edir.

Orta əsrlər dövründən etibarən Qarabağın ərazisi və sərhədləri məsələsi, burada baş verən etnik, siyasi proseslər aktual mövzulardandır. Qarabağ xanlığının vəziri olmuş Mirzə Camal Cavanşir özünün "Qarabağ tarixi" (1847) əsərində bu məsələdən bəhs edərkən yazırdı: "Qədim tarix kitablarının yazdığına görə Qarabağ vilayətinin sərhədləri belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər – Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi-Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahilə Krasnı most, yəni Qızıl körpü adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər – Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır" [8].

Bəzi tədqiqat əsərlərində isə "Qarabağ" sözünün yaranması Qarabağ bölgəsində yaşayan tayfaların adı ilə də əlaqələndirilir. Arxeoloq Rəşid Göyüşov "Qarabağın keçmişinə səyahət" adlı əsərində

bu sözün yaranmasını Qarqar türk tayfasının adı ilə bağlayır, antik və erkən orta əsrlər dövründə Qarabağın bir hissəsinin "Qarqarlar ölkəsi" adlandırılması barədə məlumat verirdi [4, s.5; 5].

Tarixçi alimlərdən Yaqub Mahmudov və Kərim Şükürovun birgə müəllifi olduqları tədqiqat əsərində qədim dövrdən Qarabağ regionuna aid edilən "Arsak" sözünün mənasını türk dilində Ər-sak "igid", "sak kişisi" olduğu qənaətinə gəlmişlər. Çünki Azərbaycan türk dilində olan "ə" səsi başqa dillərdə olmadığı üçün mənbələrin çoxunda bu "a" hərfi kimi tələffüz edilmiş və yazılmışdı. Bu da Ərsak sözü kimi yox Arsak kimi işlədilmişdir [10, s.3].

Qarabağın ərazisi və sərhədlərinin dəqiq təsvir edilməsi bir sıra amillə əlaqədar idi. İlk növbədə, bu fakt Qarabağın idarə edilməsi ilə məşğul olan dövlət adamı tərəfindən yazılır, həmin fakt rəsmi sənədlərə əsaslanır və Rusiyanın işğalı dövründə Rusiyanın xidmətində olan dövlət adamının rəsmi sözüdür. Eyni zamanda bu fakt yalnız təcrübəyə əsaslanmır, həm də ilk mənbələrlə də sübut olunur. Mirzə Camal fikirlərinin doğruluğunu sübut etmək üçün qədim tarix kitablarına istinad edir. Göründüyü kimi, siyasi-coğrafi məkan olaraq, tarixdə həmişə "Dağlıq Qarabağ" deyil, Qarabağın bütün ərazisini – onun dağ və düzənliklərini əhatə edən ümumi bir "Qarabağ" anlayışı mövcud olmuşdur. "Dağlıq Qarabağ" anlayışı isə sonradan meydana gəlmiş, heç bir əsas olmadan, separatizm toxumu səpmək üçün Qarabağın bir hissəsinə verilmiş addır. Deməli, buradan belə bir məntiqi nəticəyə gəlmək olar ki, əgər Dağlıq Qarabağ varsa, onda düzən və ya aran Qarabağ da var! Tarixi mənbələr sübut edir ki, həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycan xalqına məxsus olmuşdur. "Qarabağ" adının etmologiyası da bunu sübut edir. Dilində "qara" və "bağ" sözləri olan Azərbaycan xalqının yüzlərlə ən qədim və nadir folklor nümunələri, musiqi inciləri məhz Qarabağda yaranmışdır, Qarabağla bağlıdır [8].

***Qarabağın qədim tarixinə ümumi baxış***. Qarabağ ərazisi qədim Albaniya dövlətinin Uti, Paytakaran və Arsak vilayətlərini əhatə edir. Kür və Araz çayları arasında yerləşən Qarabağ ərazisində əsasən yerli tayfalar – albanlar, utilər, qarqarlar və savdeylər, həmçinin gəlmə tayfalar maskutlar, saklar, gellər və ballar məskunlaşmışdılar.

Ərəb işğalından sonra Qarabağ xilafətin şimaldakı mərkəzinə çevrildi. IX əsrin sonlarında Ərəb xilafəti dağıldıqdan sonra Yuxarı Qarabağ ərazisində Sünik və Arsax-Xaçın knyazlıqları yarandı. Qeyd edək ki, burada "Arsak" anlayışı türk mənşəli ərsak mənasındadır.

Qarabağ ərazisi Azərbaycanın bütöv ərazisi ilə birlikdə XII əsrin birinci rübündən Azərbaycan Atabəylərinin, XIII əsrin əvvəllərində isə Hülakilər dövlətinin hakimiyyəti altına düşdü. XIV əsrin sonlarında Qarabağ Teymurun, XV əsrdə isə Teymurilər və Qaraqoyunluların müharibə meydanına çevrildi. 1410-cu ildən etibarən Qarabağ da daxil olmaqla Kürdən cənubda yerləşən Azərbaycan torpaqları Qaraqoyunluların hakimiyyəti altına salındı. 1467-ci ildə Qaraqoyunlular dövlətinin süqutundan sonra Qarabağ Ağqoyunlu dövlətinin tərkibinə daxil oldu.

Azərbaycan Səfəvilər dövləti dövründə yaradılan inzibati ərazilərdən biri olan Qarabağ bəylərbəyliyi idi. XVII əsrdən XVIII əsrin əvvəlinə qədər Qarabağ bəylərbəyliyin tərkibinə Astabad, Cavanşir, Bərgüşad, Qazax, Şəmşəddil əraziləri daxil idi.

Ümumiyyətlə, Qarabağ qədim zamanlardan Azərbaycanın ərazisi olmuş, X-XVII əsrlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuş, orta əsrlər dövründə Sacilər, Salarilər, Eldəgizlər, Hülakülər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi türk hakimlərinin idarə etdikləri dövlətlərin tərkibində olmuşdur. Qarabağ əhalisinin əsas əhalisini türk tayfaları təşkil etmişdir.

XVIII əsrin əvvəllərində Qarabağ Nadir şah Əfşarın nəhəng imperiyasının tərkibində olmuşdur. İmperiya dağıldıqdan sonra Azərbaycan ərazisində yaranmış 20 xanlıqdan biri də Kür və Araz çayları arasında böyük əraziyə malik Qarabağ xanlığı olmuşdur. Qarabağ xanlığının əsası cavanşirlər sülaləsinin sarıcalı oymağından olan Pənah Əli xan tərəfindən qoyulmuşdur [9].

XVIII əsrdən etibarən Qafqazın Rusiyanın təsiri altına düşməsi onun iqtisadi maraqlarının təmin edilməsi baxımından həlledici əhəmiyyətə malik idi. 1805-ci ildə Qarabağ xanı ilə Rusiya imperatoru arasında imzalanmış "Kürəkçay" müqaviləsi ilə Qarabağ xanlığı Rusiyanın himayəsinə qəbul edildi. 11 maddədən ibarət "Andlı öhdəlik" adlanan bu traktat ilə Qarabağ xanlığı Rusiya imperiyasının vassalına çevrildi. Azərbaycanı ikiyə bölünməsi ilə nəticələnən, Rusiya ilə İran arasında imzalanan 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra, Rusiya qısa müddətdə İrandan 40 min və Türkiyədən 90 min ermənini Qarabağ ərazisinə köçürdü və burada məskunlaşma

həyata keçirərək demoqrafik, etnik dəyişikliyə səbəb oldu. Bununla da Azərbaycanın Qarabağ ərazisi münaqişə zonasına çevrildi.

SSRİ yarandıqdan sonra ermənilər əlverişli şəraitdən istifadə edərək, 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti kimi (DQMV) kimi nə tarixi, nə də sosial-iqtisadi əsası olmayan bir qurumun yaradılmasına nail oldular. SSRİ dövründə DQMV-nin Ermənistana birləşdirilməsinə dəfələrlə cəhdlər edilmiş, 1988-ci ilin əvvəllərindən etibarən Ermənistanın Azərbaycanın DQMV-ə növbəti ərazi iddiası irəli sürülmüşdür. Ermənistan adlandırılmış qədim oğuz-türk yurdu olan Qərbi Azərbaycandan 10 minlərlə azərbaycanlı öz tarixi-etnik ərazilərindən qovulmuş, İrəvanda kütləvi mitinqlər başlanmış, "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürülmüşdür [9].

1988-ci ilin iyulunda DQMV-nin Azərbaycanın tərkibindən çıxması, 1989-cu ildə isə Ermənistana birləşdirilməsinə dair Ermənistan parlamenti tərəfindən qeyri-konstitusion qərar qəbul edilmişdir [11]. Ermənistan SSR Ali Sovetinin qərarları Ermənistanın təcavüzkar mahiyyətini açıq-aydın ortaya qoyurdu. Azərbaycana qarşı ərazi iddiaları təkcə millətçi qruplar tərəfindən deyil, həm də Ermənistanın hakimiyyət strukturları tərəfindən irəli sürülürdü. Ermənistan nəyin bahasına olursa-olsun Azərbaycan ərazisinin bir hissəsini zəbt etmək istəyirdi [2].

Erməni separatçıları 1991-ci il sentyabrın 2-də Yuxarı Qarabağda qeyri-qanuni qondarma bir qurum – "Dağlıq Qarabağ Respublikası"nın yarandığını elan etdilər. 1992-ci ildə erməni silahlı birləşmələri Yuxarı Qarabağda irimiqyaslı hərbi əməliyyatlara başladılar. Erməni və rus hərbi birləşmələri 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndlərini işğal etdilər, fevralın ortalarında Qaradağlı kəndini ələ keçirdilər. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Rusiya Federasiyasının Stepanakertdə (Xankəndində) yerləşən silahlı qüvvələrinin 366-cı alayının iştirakı ilə 7 min əhalisinin hamısı azərbaycanlı olan Xocalı şəhərini yerlə yeksan etdilər. Dinc mülki əhalini ermənlər dəhşətli soyqırıma məruz qoydular [6]. 1992-1993-cü illərdə Dağlıq Qarabağ ərazisi və Azərbaycanın digər 7 ətraf rayonu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan Ermənistan Respublikasının hərbi qüvvələri tərəfindən işğal olundu. Ermənistan hərbi qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan Respublikasının torpaqlarının 20%-i işğal olundu, 20 min nəfərdən artıq insan qətlə yetririldi, 50 min nəfərədək adam yaralandı və şikəst oldu, 1 milyonadək azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi, 4581 nəfərdən çox adam əsir və itkin düşdü. Müharibənin birinci mərhələsi imzalanmış atəşkəs müqaviləsi ilə başa çatdı. 1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılmışdı [2].

Azərbaycanın Qarabağ ərazisi 30 ilə yaxın müddət ərazində Ermənistanın işğalı altında qaldı. Bu illər ərazində aparılan sülh danışıqları, diplomatik addımlar Ermənistanın destruktiv siyasəti nəticəsində pozulmuş, Ermənistanın ardıcıl təxribatları və yeni müharibə planlarına son qoyulması üçün dünya birliyi tərəfindən heç bir praktiki addım atılmamışdır. Bütün bunlar İkinci Qarabağ müharibəsinin başlamasını, Azərbaycanın öz ərazilərini işğalçılardan azad etməsini şərtləndirmişdir. Bundan daha da ürəklənən Ermənistan 2020-ci il sentyabrın 27-də bir neçə istiqamətdən Azərbaycan Ordusunun mövqelərinə doğru hücuma keçdi, ağır artileriyadan istifadə edərək yaşayış məntəqələrinə şiddətli atəş zərbələri endirdi. Ermənistanın növbəti hərbi təcavüz cəhdinə cavab olaraq Azərbaycan Ordusu əks-həmlə əməliyyatına başladı və 44 gün davam edən Vətən müharibəsi nəticəsində Ermənistan ordusunu məhv etməyə, onu diz çökdürməyə, işğal altında olan əraziləri azad etməyə nail oldu [1].

***Qarabağın ərazisi və sərhədləri: Şuşa şəhərinin salınması***. Qarabağ xanlığının əsası 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Cavanşir sülaləsindən olan Pənahəli xan tərəfindən qoyulmuşdur. Xanlığın ərazisi Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşirdi. Qarabağ xanlığının sərhədləri Araz çayından Göyçə gölünədək, Tərtər çayından bütün düzənlik və Dağlıq Qarabağı, Zəngəzuru, Bərgüşadı əhatə etməklə Mehri, Tatev və Sisiana qədər uzanırdı. Xanlıq Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi. Pənahəli xanın fəaliyyətində xanlığın paytaxt şəhərinin yaradılması mühüm əhəmiyyət kəsb edirdi. Daxili çəkişmələr, qonşu xanlıq-

ların və İranda hakimiyyət uğrunda mübarizə aparan ayrı-ayrı feodal hakimlərin hücum təhlükəsi güclü müdafiə imkanları olan şəhər-qala tikilməsini labüd edirdi. Bu qala eyni zamanda Qarabağ xanlığının paytaxtı rolunu oynamalı idi. Məhz bu məqsədlə 1748-ci ildə Bayat qalasının əsası qoyulmuşdur. Lakin Bayat qalası düşmən hücumlarının qarşısını almaq üçün etibarlı olmadığından Pənahəli xan 1751-ci ildə daha bir şəhər qalanın – Şahbulaq qalasının əsasını qoydu [12]. Şahbulaq qalası üç-dörd il ərzində Qarabağ xanlığının paytaxtı funksiyasını yerinə yetirə bildi. Bölgədə ara müharibələrinin qızışması etibarlı və düşmən hücumu üçün ciddi maneə olan, əlçatmaz yeni bir şəhər-qalanın tikilməsini zəruri edirdi. Bu məqsədlə toplanmış məşvərət məclisində Pənahəli xan əyanlara müraciətlə demişdi: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz bir an belə kəsilməməlidir" [12]. Nəhayət, 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylası xanlığın yeni paytaxtı üçün əlverişli hesab edildi. 1756-1757-ci illərdə xanlığın paytaxtı Şahbulaq qalasından yeni tikilmiş şəhərə köçürüldü. Yeni şəhər-qala mövcud olduğu ilk illərdə öz banisinin adı ilə Pənahabad, sonralar isə bu yerin qədim adı ilə Şuşa adlandırıldı və Qarabağ xanlığının daimi paytaxtına çevrildi. Şuşa şəhərinin yaranması Qarabağ xanlığının hərbi-siyasi tarixində mühüm rol oynadı. Şuşa qalası Qarabağ xanlığına qarşı çox güclü düşmənlərin hücumlarının qarşısını almış, öz müstəqilliyini qoruyub saxlamağa müvəffəq olmuşdu [3, s.21]. Pənahəli xanın və İbrahimxəlil xanın siyasətində Qarabağ xanlığının ərazisini genişləndirmək və pərakəndə Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək mühüm yer tuturdu. Pənahəli xan xanlığın daxilində öz mövqelərini möhkəmləndirməklə yanaşı, qonşu xanlıqların da torpaqlarını ələ keçirmək siyasəti yeridirdi. Qarabağ tarixçisi Mirzə Adıgözəl bəyin verdiyi məlumatdan aydın olur ki, Pənahəli xan Şuşa şəhərinin əsasını qoyduqdan sonra əvvəllər Qarabağ xanlığının tərkibində olmuş Mehri və Sisian mahallarını, Təbriz xanlığının tərkibində olmuş Zəngəzur və Qafan mahallarını, habelə İrəvan və Gəncə xanlıqlarına məxsus olmuş bir çox torpaqları ələ keçirib Qarabağ xanlığının tərkibinə qatmışdı. Pənahəli xanın Qarabağ xanlığının sərhədlərini genişləndirmək siyasəti İbrahimxəlil xan tərəfindən uğurla davam etdirilirdi. Ayrı-ayrı vaxtlarda Azərbaycanın Təbriz, Ərdəbil, Qaradağ, Naxçıvan və Gəncə xanlıqları Qarabağ xanlığından asılı vəziyyətə salınmışdı [12]. Beləliklə, XVIII əsrin 60-80-ci illərində Qarabağ xanlığı yalnız Azərbaycanın deyil, bütün Cənubi Qafqazın ən güclü dövlət qurumlarından birinə çevrilmişdi.

***Nəticə.*** Aparılan tədqiqat orta əsrlər dövründə Qarabağın tarixi, sərhədləri, ərazisi haqqında bir sıra elmi nəticələrə imkan verir. Azərbaycanda həm dağlıq Qarabağ var, həm də aran Qarabağ və ya düzən Qarabağ olmuşdur. Qarabağ bölgəsinin həm düzəni, həm də dağlıq ərazisi bütün tarixi dövrlərdə Azərbaycana məxsus olmuş, bir xalqın – Azərbaycan xalqının Vətəni olmuşdur. Azərbaycanın Qarabağ bölgəsi əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir.

## ƏDƏBİYYAT

1. "Dəmir yumruq" əməliyyatı: [Elektron resurs] / URL: https://azerbaijan.az/related-information/303 [14.01.2023].
2. Ermənistan – Azərbaycan münaqişəsi: [Elektron resurs] / URL: https://president.az/az/pages/view/azerbaijan/karabakh [14.01.2023].
3. Ələsgərova, N.Q. Qarabağ xanlığının təşəkkülü. Bakı: Qanun, – 2017. № 03 (269), – s. 18-23.
4. Göyüşov, R. Qarabağın keçmişinə səyahət / R. Göyüşov. – Bakı: Azərnəşr, – 1993. – 83 s.
5. Həsənov, B. Şimali Azərbaycanın Qarabağ bölgəsinin tarixi-coğrafiyası // Atatürk Araştırma Merkezi Dergisi: AAM Derg, – 2018, 34 (2): 98, – s.445-468.
6. Xocalı soyqırımı – tariximizin unudulmayan acı həqiqəti: [Elektron resurs] / URL: https://science.gov.az/az/news/open/19994 [14.01.2023].
7. Qarabağ: etimalogiyası, ərazisi və sərhədləri: [Elektron resurs] / URL: https://www.virtualkarabakh.az/az/post-item/22/31/qarabag-etimalogiyasi-erazisi-ve-serhedleri.html [14.01.2023].

8. Qarabağ: etimalogiyası, ərazisi və sərhədləri: [Elektron resurs] / URL: https://azerbaijan.az/related-information/180 [14.01.2023].
9. Qarabağ: etimologiyası, ərazisi və sərhədləri: [Elektron resurs] / URL: https://www.trt.net.tr/azerbaycan/proqram/2016/04/04/qarabag-etimologiyasi-razisi-v-s-rh-dl-ri-464452 [14.01.2023].
10. Mahmudov, Y. Qarabağ suallar və faktlar. / Y. Mahmudov, K. Şükürov – Bakı: Qismət, – 2005. – 156 s.
11. Mustafa, N. 1988-1989-cu illər deportasiyası: [Elektron resurs] / URL: https://iravan.preslib.az/1988-1989_deportasiyasi.html [14.01.2023].
12. Mustafayev, C. Qarabağ xanlığı: [Elektron resurs] / URL: http://www.anl.az/down/meqale/azerbaycan/2015/fevral/421188.htm [14.01.2023].

**АЙНУР ГАШИМОВА**
*Докторант Бакинского Государственного Университета*

## ТЕРРИТОРИЯ И ГРАНИЦЫ КАРАБАХА В СРЕДНЕВЕКОВЫЙ ПЕРИОД

В статье исследуются этимология и происхождение названия «Карабах», территория Карабаха, его природно-географические границы. В статье автор сделал экскурс в историю Карабаха в период средневековья, исследовал вопросы строительства различных крепостей, в том числе Шушинской крепости для защиты региона от внешних врагов и междоусобных войн, расширения территории Карабахского ханства при Панахали-Хане и Ибрагимхалил-Хане.

*Ключевые слова*: Карабах, границы, территория, этимология, древняя история, Кавказская Албания.

**AYNUR HASHIMOVA**
*Doctoral student of Baku State University*

## TERRITORY AND BORDERS OF KARABAKH IN THE MEDIEVAL PERIOD

In the article, the etymology and origin of the name “Karabagh”, the territory of Karabakh, and its natural-geographical boundaries are investigated. In the article, the author made an excursion into the history of Karabakh during the Middle Ages, studied the construction of various fortresses, including the Shusha fortress, to protect the region from foreign enemies and intermediate wars, and the expansion of the Karabakh Khanate during the reign of Panahali Khan and Ibrahimkhalil Khan.

*Keywords*: Karabakh, borders, territory, etymology, ancient history, Caucasian Albania.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

**UOT 930, UOT 1**

**BALAMİRZƏ MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin "Slavyan ölkələri tarixi" ixtisası üzrə magistrantı*
**balamirza.mammadli@bsu.edu.az**

# TARİXİ İDRAK VƏ ONUN PRİNSİPLƏRİNƏ DAİR

*Tarix məlum olduğu kimi bəşər cəmiyyətinin keçmişini öyrənən bir elmdir. Bu elm çoxşaxəli olub, tarixi idrakın bir sıra müstəqil sahələrini özündə ehtiva edir. Tarix elminin rolundan danışarkən qeyd edilməlidir ki, o, əsl vətəndaş formalaşdırır, tarixi təfəkkürü, özünüdərki, vətənpərvərlik borcunun dərk olunmasını inkişaf etdirir. Keçmişi bilmək insana öz vətəndaş mövqeyini formalaşdırmağa, müasir həyatı, ona xas olan tendensiyaları daha yaxşı anlamağa kömək edir. Müasir dövrdə tarixi idrak dünyagörüşü və tarixi proseslərin müasirlik nöqteyi-nəzərindən metodoloji olaraq yenidən nəzərdən keçirilməsi zərurəti ilə üzləşmişdir. Ona görə də belə görünür ki, tarixi idrak problemlərinin tədqiqi hazırdı böyük aktuallıq kəsb edir. Məqalədə humanitar idrak növləri içərisində özünəməxsus yer tutan tarixi idrakın bir sıra özünəməxsus xüsusiyyətləri və prinsipləri araşdırılıb.*

*Açar sözlər*: tarix elmi, tarixi idrak, tarixşünaslıq, tarixilik, obyektivlik, səbəbiyyət.

***Giriş.*** Tarixi idrak humanitar idrak növlərindən biridir və onun nəticəsi tarixi biliklərdir. Bu idrak növü keçmiş haqqında təsəvvürlər sistemini formalaşdırır. Tarixi idrak nədir? sualına müxtəlif alimlər müxtəlif cavablar vermişlər. İsveç tarixçiləri Devid Dyuner və Krister Alberger yazırlar: "Tarixi idrakı tarixdə insanların ətraf aləmi dərk etmək və ona uyğunlaşmaq üçün üçün öz idrak qabiliyyətlərindən necə istifadə etdiklərini, eyni zamanda onları əhatə edən dünyanın onların düşüncə tərzinə necə təsir etdiyini öyrənmək kimi izah etmək olar" [1, s.1-2]. Rusiyalı alim L.İ.Kuzevanova görə, tarixi idrak "mühüm tarixi faktların axtarışı, müəyyənləşdirilməsi və şərh edilməsi prosesidir" [9, s.6].

Tarixi idrak prosesi üç komponentdən ibarətdir: tarixi idrakın obyekti (idrakın predmet sahəsi), subyekti, metodologiyası (həyata keçirilməsi üsulları). Məlum olduğu kimi, tarixçilər fizik, yaxud kimyaçılardan fərqli olaraq öyrənilən obyekti birbaşa müşahidə edə və təsvir edə bilməzlər. Tarixçi üçün öyrənilən obyekt haqqında hər hansı bir məlumatı ehtiva edən yeganə mühüm dəlil tarixi mənbələrdir. Tarixi idrakın mühüm xüsusiyyəti ondan ibarətdir ki, keçmişə aid olan tədqiqat obyekti burada keçmişin hadisələrini bərpa etməyə imkan verən müasir dil alətləri və anlayışlardan istifadə etməklə izah edilməlidir. Eyni zamanda, yadda saxlamaq lazımdır ki, tarixi hadisələrlə bağlı bir çox dəlillər ümumiyyətlə qorunub saxlanmayıb. Onların bir qismi müxtəlif səbəblərdən bizə gəlib çatmayan mənbələrdə yer alıb. Üstəlik bu da həqiqətdir ki, bu və ya digər tarixi hadisələrdən nə qədər uzaqlaşırıqsa, onlar haqqında məlumatımız da bir o qədər az olur. Məsələn, ibtidai icma dövrü üzrə tədqiqatçıların yazdıqları və ya iddia etdikləri faktlar dünya tarixşünaslığında çox vaxt ümumiyyətlə hipotetik qəbul edilir. Yuxarıda deyilənlərə əsaslanaraq belə nəticəyə gələ bilərik ki, keçmişi tam dəqiq şəkildə bərpa etmək prinsipcə mümkün deyil.

***Tarixi idrakın xüsusiyyətlərinə dair.*** Tarixi idrakın xüsusiyyətlərindən biri onun subyektiv və obyektiv, şüurlu və kortəbii olanların bir-birinə qarışdığı bəşər keçmişindən bəhs etməsidir. Cəmiyyətdə insanlar öz şəxsi məqsəd və maraqlarını güdürlər və fərdlərin şüurlu hərəkətlərindən çox vaxt bütün cəmiyyət üçün gözlənilməz nəticələr yaranır. Bütün bunlar o deməkdir ki, tarixi idrak subyekti əsasən subyektiv ölçüyə malikdir.

Tarixi idrakın spesifik xüsusiyyəti ondan ibarətdir ki, tarixi idrak obyekti ilə subyekti arasında subyekt tərəfindən şərh edilən tarixi faktlar mövcuddur. Hadisələr ayrı-ayrı əhəmiyyətli faktlardır. Bunlara Türkmənçay müqaviləsi, Mart soyqırımı, İkinci Qarabağ müharibəsi və d. misal göstərmək olar. Tək və unikal faktların və ya hadisələrin öyrənilməsi tipik hadisələri anlamağa və mənimsəməyə kömək edir. Belə ki, tarixi təsəvvür ayrı-ayrı nizamlı faktların birləşməsindən yaranır. Faktlarla işləməyin də öz xüsusiyyətləri var. Bəzən faktlar bir-biri ilə ziddiyyət təşkil etdikdə və eyni hadisə haqqında bir-birini təkzib edən məlumatlar ehtiva etdikdə burada təfəkkürün, onun forma və qanunlarının rolu müstəsna dərəcədə böyükdür. Göründüyü kimi, tarixi idrak həmişə dərk edilən varlıqdır.

İnsanların idrak fəaliyyətinin bilavasitə istiqamətləndiyi konkret şeylər, hadisələr, proseslər adətən tarixi idrakın obyekti adlanır. Tarixi idrakın obyekti insan cəmiyyətinin keçmişidir. Tarixi prosesin əsasını tarixi faktlar, yəni baş vermiş və ya baş verən, xalqların həyatına ciddi təsir göstərən ictimai həyat hadisələri təşkil edir. Bu hadisələr son dərəcə müxtəlif olub, maddi istehsalın inkişafından tutmuş ölkənin xarici və daxili siyasəti, beynəlxalq münasibətlər, tarixi şəxsiyyətlərin fəaliyyətinə qədər geniş hadisələri əhatə edir. Tarixi mənbələr kimi arxeoloji mənbələrdən, memarlıq abidələrindən, keçmişə aid məişət əşyalarından, yazılı sənədlərdən, rəsmlərdən, qravüralardan, diaqramlardan, çertyojlardan, foto, audio və kino sənədlərindən, elektron daşıyıcılardan və s. istifadə olunur. Eyni zamanda qeyd etmək lazımdır ki, tarixçi-tədqiqatçını mənbənin özü deyil, hadisələrlə bağlı oradakı məlumatlar maraqlandırır. Göründüyü kimi, idrak prosesinin inkişaf istiqamətlərinin müəyyən edilməsində, tarixi idrakın müxtəlif forma və növlərinin formalaşmasında tarixi idrak obyektinin rolu şübhəsizdir.

Tarixi idrakın subyekti isə, idrak fəaliyyətini həyata keçirən, keçmiş hadisələri araşdıran tədqiqatçıdır. Subyekt ayrıca fərd və ya sosial qrup (məsələn, alimlər qrupu) ola bilər. Subyekt (tarixçi, tədqiqatçı) şüur, hissiyyat, qavrayış. intuisiya və emosiyalara sahibdir, obrazlar və anlayışlarla işləmək qabiliyyətinə malikdir. Obyektə münasibətdə subyekt fəaldır. İctimai hadisələrin dərk edilməsi prosesində subyektin fəal rolu tədqiqatın xüsusi metod və üsullarının, kateqoriyalar aparatının işlənib hazırlanmasında və istifadəsində, tarixi faktların seçilməsində, əvvəlki biliklərdən istifadə edilməsində, problemlərin qoyuluşunda və s. özünü göstərir. Subyektin tarixi gerçəkliklə əlaqəsi müxtəlif mənbələr (maddi, yazılı, təsviri, səsli) vasitəsilə baş verir. Tarixi idrakda subyekt obyekt ilə ayrılmaz vəhdət təşkil edir. Subyekt tarixi faktların tədqiqatçısı olmaqla yanaşı, həm də öz növbəsində tarixin obyektidir, çünki o da, cəmiyyətin həyatında iştirak edir.

***Tarixi idrakın prinsipləri.*** Tarixi idrakın bir neçə prinsipləri mövcuddur. Onlardan biri **tarixilik** prinsipidir. Tarixilik bütün predmet və hadisələri öz inkişafında, yaxud onların tarixində nəzərdən keçirməyi, yəni onların necə meydana gəlməsi, dəyişməsi və mövcudluğunu aydınlaşdırmağı nəzərdə tutan təfəkkür və tədqiqat prinsipidir. Tarixilik prinsipinin əsas tələbləri konkret-tarixi hadisələri necə varsa o cür də nəzərdən keçirmək, bu hadisələri indi də o vaxtkı kimi təsəvvür etmək və beləcə müasirləşdirməni, yəni keçmişin müasirlik kontekstində başa düşülməsini aradan qaldırmaqdır. Məsələn, orta əsr klassik "fransız mütləqiyyəti"ni tarixilik kontekstində nəzərdən keçirmək təkcə onu müəyyənləşdirmək, onun klassik zirvəsi olan XIV Lüdovik dövründən bəhs etmək deyil, həm də onun XIII, XIV, XV, XVI Lüdoviklər dövründəki mənşəyi, inkişafı, çiçəklənməsi, böhranı və süqutu haqqında bəhs etmək deməkdir.

Əsl tarixilik keçmişin bu və ya digər aspektinin bütün tərəflərini təfərrüatı ilə əhatə edir. Məsələn, Uzun Həsən nahar edirdi – müasir boşqabın, çəngəlin və salfetin nə olduğunu bilməyən bir orta əsr adamının "nahar süfrəsi" görəsən necə görünürdü? İngiltərədə inqilab zamanı I Karl şimala qaçdı və Nottingemdən qiyamçı parlamentə müharibə elan etdi – o, necə qaçdı və hətta niyə karetası ilə deyil, at belində qaçdı? kimi suallar vermək tarixi idrakın tarixilik prinsipinin göstəricisidir.

Tarixilik prinsipi müxtəlif tarixçilər tərəfindən müxtəlif cür izah edilir. N.Eydelmana görə, tarixilik – "bir dövrü başqa bir dövrün kateqoriyalarına görə deyil, öz daxili qanunlarına görə ehtiyatlı şəkildə qiymətləndirməkdir" [15, s.41]. S.Utçenkonun fikrincə: "Tarixilik – hadisənin öz inkişafında qavranılmasıdır. Bəs hadisənin öz inkişafında nə deməkdir? Bu o deməkdir ki, hadisə həm öz keçmişi (genezisi) və həm də indiki halında, başqa hadisələrlə əlaqələri ilə birlikdə nəzərdən keçirilməlidir" [14, s.243]. Britaniya tarixçisi R.Kollinqvud yazır: "Tarix – hansı hadisələrin bir-birinin ardınca getdiyini bilmək deyil. O, digər insanların mənəvi dünyasına nüfuz etmək, onların yaşadıqlar hadisəyə, vəziyyətə onların gözü ilə baxmaq və bu vəziyyətdən hansı çıxış yolunun düzgün olub-olmaması sualına onların istəkləri nöqteyi-nəzərindən qərar verməkdir. Özünüzü bortunda yaxın mənzilli döyüş topları olan hərbi yelkənli qayığın göyərtəsindəki bir adamın yerində təsəvvür edə bilməyənə qədər, siz sadəcə olaraq hərbi dəniz tarixini öyrənə bilməzsiniz" [8, s.355]. Başqa bir britaniyalı tarixçi Con Toş isə yazır: "Tarixiliyin əsas şərti keçmişin sərbəstliyinə hörmət etməkdir. Tarixiliyin tərəfdarları hesab edirlər ki, hər bir dövr özünəməxsus mədəniyyət və dəyərlərə malik insan ruhunun təkrarsız təzahürüdür. Əgər müasirimiz başqa bir dövrü öyrənmək istəyirsə, başa düşməlidir ki, keçmiş dövrdə insanların həyat şəraiti, mentaliteti – bəlkə də insan təbiətinin özü də indikindən tamamilə fərqli

olub. Tarixçi əbədi dəyərlərin qoruyucusu olmamalıdır, hər dövrün öz dəyərlərini və prioritetlərini dərk etməli, müasir dəyər və prioritetləri isə ona sırımamalıdır” [13, s.16].

Qədim dövrdə və orta əsrlərdə tarixilik təfəkkür və tədqiqat prinsipi kimi mövcud deyildi. Bu boşluq o dövrün saxta sənədlərinə münasibətdə daha yaxşı izlənilir. Məsələn, VIII əsrdə papalıq kuriyasında yaradılmış məşhur “Konstantinin hədiyyəsi” adlı saxta sənəd IV əsrdə baş vermiş hadisəni (imperator Konstantinin imperatorluğunun qərb yarısını guya papa Silvestrə bağışlaması) imitasiya etmək məqsədi daşıyırdı. Lakin onun müəllifləri IV əsrdəki klassik latın dilinin VIII əsrin vulqar latın dilindən fərqli olması barədə düşünməmişdilər. Bunun da səbəbi tarixilik prinsipinin olmamasında idi. İlk dəfə olaraq, yalnız XV əsr İtaliya humanisti Lorenso Valla “Konstantinin hədiyyəsinin” saxta və uydurma olduğunu tutarlı dəlillərlə sübut etməyi bacarmışdır [5, s.50]. Bununla yanaşı, qeyd etmək lazımdır ki, qədim dövr və erkən orta əsrlərdə tarixiliyin formalaşa bilməsi üçün heç bir əsas olmamışdır. Belə ki, o dövrdə tarix hələ fundamental elm kimi mövcud deyildi, tarixi biliklər son dərəcə natamam idi, tarix sadəcə olaraq hadisələr yığını kimi başa düşülür və biləvasitə orta əsr teoloji-providensialist konsepsiyaya əsaslanırdı.

Tarixilik biləvasitə yeni dövrün nailiyyətidir. Belə ki, o, XVIII əsrdə tədricən meydana gəlmişdir. İlk dəfə italyan mütəfəkkiri Cambattista Viko (1668-1774) tarixə cəmiyyətdəki dəyişikliklərin qanunauyğunluqları kimi baxmışdır. XVIII əsrdə tarixilik prinsipi Mönteskyo, Volter və Türqonun proqress (tərəqqi) nəzəriyyələrində püxtələşmişdi. Bu nəzəriyyələrin kulminasiyası fransız ensiklopediyaçısı Kondorse və alman tarixçisi Herderin XVIII əsrin sonlarında formalaşmış fikirləri olmuşdu.

Tarixilik prinsipinin yaranmasına həlledici töhfəni isə, XIX əsrin ilk onilliklərində romantizm tarixşünaslığı vermişdir: Prussiyada “tarixi hüquq məktəbi”, Fransada “restavrasiya dövrünün tarixçiləri məktəbi” və şotland yazıçısı, tarixçisi Valter Skott (1771-1832). Tarixi roman janrının banisi olan V.Skott tarixilik prinsipinin formalaşmasında və geniş yayılmasında mühüm rol oynamışdır. O, Şotlandiya tarixi cəmiyyətinin üzvü olmuş və tarixi mənbələrin nəşr olunmasına böyük töhfələr vermişdir. O, özünün 1814-cü ildən etibarən işıq üzü görməyə başlayan tarixi romanlarında keçmişin müxtəlif dövrlərinin həyat tərzi və adət-ənənələrini təfərrüatları ilə əks etdirmişdir.

Tədqiqatlarında nəinki tarixilik prinsipini tətbiq edən, həm də onu nəzəri cəhətdən əsaslandıran romantiklər arasında əsas yeri Restavrasiya məktəbinin nümayəndəsi Ogüsten Tyerri (1795-1856) tutmuşdur. O.Tyerri keçmişin təsviri zamanı konkretlik tələb edir, onun müasirləşdirilməsinə, ona müasir kateqoriyaların tətbiq edilməsinə qarşı çıxırdı. Tyerri yazırdı ki, “fərqləndirmək lazımdır, qarışdırmaq yox, çünki hərflər qalır, ruh isə dəyişir”. Daha sonra isə o, qeyd edirdi ki, “kral”, “parlament”, “aristokratiya”, “fransız” sözləri müxtəlif tarixi dövrlərdə fərqli məzmunlar kəsb etmişdir. Məsələn, Xlodviq (481-511) və XIV Lüdovik (1643-1715) tamamilə fərqli krallar olublar. IX əsrdə “fransız” sözü XIX əsrdə olduğundan tamamilə fərqli bir mənanı ifadə etmişdir. Buna görə də, O.Tyerriyə görə, keçmişi dərk etmək üçün abstraksiyalar, sxemlər, xarici konturlar kifayət deyil, çünki onlar müxtəlif məzmunlu ola bilər. İnsanlar və hadisələrinin mahiyyətini öyrənmək, onların təkrarsız və konkret özünəməxsusluqlarını, xırdalıqlarını və təfərrüatlarını, dilini, üslubunu, adlarını, yerli koloritini canlandırmaq lazımdır [12, s.104].

Tarixilik prinsipinin inkişafına səmərəli töhfələr tarixiliyi dialektika ilə birləşdirən görkəmli alman filosofu Georq Vilhelm Fridrix Hegel (1770-1831) tərəfindən verilmişdir. Hegel tarixi inkişafın mahiyyətini, daxili mexanizmini – əksliklərin mübarizəsində görürdü. O göstərirdi ki, inkişaf təkcə olaraq qeyri-kamillikdən daha mükəmmələ doğru hərəkət demək deyil, qeyri-kamillik artıq öz əksini özündə ehtiva edir. İnkişafın gedişatında, hər bir anda hökmranlıq edən elementlər, yəni köhnə ilə yeninin ünsürləri mövcud olanı inkar edən elementlər olur: “ölümün baş verməsi eyni zamanda yeni həyatın yaranmasıdır”. Hegel tarixiliyi yalnız ideyaların, fikirlərin təkamülü, inkişafı kimi şərh edir və mövcud rejimləri onların tarixi mənşələri ilə əsaslandırırdı.

Tarixilik XVIII əsrdən formalaşmağa başlayıb XIX əsrin ilk onilliklərində qəti şəkildə yaransa da, bu terminin özü uzun müddət mövcud olmamışdır. Bu termin belə hesab olunur ki, ilk dəfə 1879-cu ildə Avstriya tarixçisi Karl Verner tərəfindən istifadə edilmişdir. Birinci Dünya müharibəsi ərəfəsində, xüsusilə də bu müharibədən sonra geniş şəkildə istifadə edilmişdir. Lakin, hətta 1923-cü ildə də alman tarixçisi Otto Hintse yazırdı: “Tarixilik nisbətən yeni və tam aydın olmayan anlayışdır” [7, s.70]. 1920-ci illərdə alman alimi E.Trelç, 30-cu illərdə isə F.Mayneke tarixilik prinsipinin tədqiqinə

xüsusi diqqət yetirmişdilər. Qərb ölkələrinin tarixçiləri tarixilik prinsipini "historismus", "historisizm" kimi adlandırırlar.

Azərbaycan tarixşünaslığında da tarixilik prinsipinə geniş şəkildə rast gəlmək olar. Məsələn, görkəmli tarixçi O.Əfəndiyev "Azərbaycan Səfəvilər dövləti" adlı fundamental monoqrafiyasında Səfəvi hökmdarlarının həyatını xarakterizə edərkən tarixilik prinsipi özünü qabarıq şəkildə göstərir. Belə ki, misal üçün müəllif şah I Təhmasibdən bəhs edərkən Həsən bəy Rumludan iqtibas gətirərək yazır: "Təhmasib yetkinlik yaşına çatdıqdan sonra səhərdən axşama qədər dövlət işləri ilə məşğul olur və bütün işləri özü görürdü. ...O, vasvası dərəcəsində təmizkar, hər şeydən şübhələnən adam idi və heç kimlə yemək-içməyi xoşlamırdı. O, ömrünün son 20 ilində ata minməmişdi. Şah zahiri əlamətlərinə görə hündürboylu, gərilmiş simalı, uzun əlli, sarı bənizli və saqqalı tamam ağarmış bir şəxs idi" [2, s.130].

Tarixi idrakın ən mühüm prinsiplərindən biri də **obyektivlik** prinsipidir. İlk baxışdan sadə görünsə də, özlüyündə kifayət qədər mürəkkəb olan obyektivlik prinsipini başa düşmək üçün biz əvvəlcə belə bir müddəadan çıxış etməliyik: söhbət obyektivlikdən deyil, obyektivizmdən gedir. Lüğətlərdə "obyektiv" sözü: 1) bizdən kənarda, yəni bizim iradəmizdən asılı olmayaraq mövcud olan obyekt(lər); 2) qərəzsiz mənasında şərh olunur. Keçmişin obyektiv (yəni obyektə uyğun və qərəzsiz şəkildə) öyrənilməsi təkcə tədqiqatçının təqdim etdiyi aksioloji (qiymətləndirici) amilin qaçılmazlığı ilə deyil, həm də tədqiqatçının və tədqiqat obyektinin subyektivliyi ilə qəlizləşir.

Müxtəlif elmlərin biliklərində fərq görməyən pozitivistlər öz qnoseoloji optimizmləri ilə əmin idilər ki, mənbələrin mövcudluğu və tarixi tənqidin həyata keçirilməsi ilə keçmiş dərk oluna bilər. Almaniya tarixçisi L.Ranke obyektivlik fenomenini nəzəri cəhətdən dərk edən ilk şəxslərdən biri olmuşdur. Ranke söyləyirdi ki, tarixçinin vəzifəsi keçmişi qiymətləndirmək deyil, onu restavrasiya etməkdir. Artıq ilk böyük əsərində (1824-cü il) o yazırdı ki, tarixçi keçmişi mühakimə etməməli, "yalnız onu göstərməlidir ki, hadisələr əslində necə baş verib". Sonradan Ranke tez-tez öz əsərlərinin girişində bu postulatı təkrar etmişdi. Ranke hesab edirdi ki, keçmişi təsvir edərkən tədqiqatçının özünü sanki öz "mən"ini unutmağa, simpatiya və antipatiyalarını aradan qaldırmağa məcbur etməsi qərəzsizliyin həyata keçirilməsinin əsas şərtidir. Lakin, Rankenin özü də tədqiqat praktikasında mühafizəkar və mürtəce dünyagörüşünə uyğun olaraq obyektivliyi pozmasına görə qınanmışdı. Belə ki, o, "Reformasiya dövründə Almaniya tarixi" adlı əsərində kəndli müharibəsini qaranlıq mövqedən göstərərək, kəndli müharibəsi düşmənlərinin şahid ifadələrindən qeyri-tənqidi şəkildə istifadə etmiş və bu xalq hərəkatına yalnız kiçik bir fəsil həsr etmişdir.

XX əsrin görkəmli dövlət xadimi, Hindistanın ilk baş naziri, eyni zamanda bir neçə tarixi əsərlər müəllifi C.Nehru 1930-cu illərdə ingilis həbsxanasında olarkən qızına göndərdiyi məktublarından birində ona obyektivliyi belə aşılamağa çalışırdı: "Bir hindistanlı kimi qərəzli deyiləm və qorxuram ki, Hindistan tərəfdarı mövqeyindən çıxış edə bilməyim. Amma mən bunu etməyə çalışdım, lakin istərdim ki, tərəflərdən hansının doğru olub-olmadığını sübut etməyə çalışan millətçi kimi yox, faktları qərəzsiz şəkildə öyrənən bir alim kimi bu məsələləri nəzərdən keçirməyə çalışasan. ...Hindistanın yeni tarixini nəzərdən keçirərkən biz ehtiyatlı olmalıyıq və bədbəxtliklərimizə görə ingilisləri günahlandırmamalıyıq" [10, s.240-241].

Fransız alimi Antuan Pro XX əsrin sonlarında Sorbonna Universitetində öz tələbələrinə belə deyirdi: "... obyektivliyə iddia edən, ona can atan tarix heç vaxt istədiyinə tam nail ola bilməz. Çünki, ciddi mənada tarixdə mütləq obyektivlik mümkün deyil" [11, s.301].

Tarixi idrak prosesində obyektivliyi mürəkkəbləşdirən amillərdən biri, ilk növbədə tədqiqatçı ilə tədqiq olunan hadisə arasında böyük zaman və məkan fərqinin olmasıdır. Bəzən tədqiqatçı məkan problemini öyrəndiyi obyektin mövcud olduğu yerə getməklə aradan qaldıra bilir. Məsələn, Qız qalası abidəsini tədqiq edən tarixçi həmin abidənin dəqiq tikilmə tarixini və nə üçün, hansı məqsədlərə görə tikildiyini, obyektiv surətdə müəyyənləşdirən zaman bir sıra problemlərlə üzləşir. Belə ki, həmin abidənin e.ə. VIII-VII əsrlərdə, b.e. XII əsrdə tikildiyini sübut edən tarixi faktlar mövcuddur. Abidənin müdafiə, yaxud astronomik müşahidə aparmaq məqsədilə (Qız deyil "göz qalası" olması) tikildiyini sübut edən faktlar (qalanın pəncərələri Günəş sistemindəki planetlərin düzülüşünə uyğun şəkildə yerləşdirilməsi, səmaya doğru yönəlməsi və s.) təbii ki, problemin çözülməsi üçün ən müxtəlif mənbələrin diqqətlə toplanılmasını, ciddi surətdə müqayisə və analiz edilməsini tələb edir, çünki

tədqiqatçının abidəni tikildiyi dövrə "səyahəti" mümkünsüzdür. Sözügedən abidə haqqında məlumatlar isə, mənbələrdə əksini tapan məlumatların obyektivlik dərəcəsindən çox asılıdır.

Bu fikrə aydınlıq gətirmək üçün Vətən tarixşünaslığında mənbələrdən geniş istifadə əsasında ərsəyə gələn bəzi tədqiqat əsərlərinə nəzər salaq. Tarixçi-arxeoloq S.Qazıyev 1948-ci ildə nəşr olunmuş "Azərbaycanın qədim abidələri" adlı kitabda yazır: "Bu qala XII əsrdə tikilmişdir. O, silindr şəklində olub çox yüksəkdir. Qalaya girmək üçün balaca bir qapı vardır. Bu qapıdan girdikdən sonra 160-a qədər pillə vasitəsilə qalanın üstünə çıxırlar. Qalanın üstü çox genişdir. Cəmi 50-60 il bundan əvvəl qala dənizin kənarında idi. Bu qalanın hərbi əhəmiyyəti olmuşdur. Qədimdə bu qalada yeddi tağ və səkkiz mərtəbə olmuşdur" [3, s.12-13]. Bir sıra tədqiqatçıların fikrincə abidədəki yeddi tağ yerin və göyün yeddi təbəqəsinə, məqamı, yüksəlişin, dünya anlayışının, mövcudluğun mahiyyətinin dərki ilə bağlıdır (səkkiz duran iki sinusoidal təsvirdən, elementdən ibarətdir ki, bunlardan biri yerdən göyə ucalmanı, digəri isə eyni trayektoriya ilə göydən yerə enişi ehtiva edir). Memarlıq tarixinin görkəmli tədqiqatçısı C.Qiyasi 1991-ci ildə nəşr olunmuş "Nizami dövrü memarlıq abidələri" adlı əsərində yazır: "Tikilmə çağı ətrafında mübahisələrin heyrətləndirici böyük zaman intervalı çərçivəsində aparılması baxınından memarlıq tarixi baxımından memarlıq tarixində Bakı Qız qalası ilə tutuşdurula bilən abidə yoxdur. Belə ki, onun yaşının Şumerlər dövründən başlandığını iddia edənlər də var" [4, s.162]. Müəllif sözügedən problemin mürəkkəbliyi ilə bağlı yazır: "Tarixi və funksiyası məsələlərində bu çaşqınlığın başlıca səbəbi Qız qalasının yazılı qaynaqlarla aparılmamasıdır" [4, s.163]. Beləliklə, gətirilən misalda tədqiqatçı ilə tədqiq olunan obyekt və ya hadisə arasında zaman və məkan fərqliliklərinin yaratdığı problemlərin kiçik bir hissəsi aşkar surətdə görünür.

Tarixi idrakın digər prinsipi **səbəbiyyət (kazuallıq)** prinsipidir. Argentinalı alim Mario Bunqe "Səbəbiyyət: bu prinsipin müasir elmdə yeri" adlı fundamental əsərində yazır ki, elmi tədqiqatın əsas məqsədi "beş növ suala, yəni nə, harada, nə vaxt, haradan və niyə suallarına başa düşülən və dəqiq formada cavab verməkdir. Qısaca onları elmin beş sualı adlandıracağıq. Bu suallardan ən mürəkkəbi və çətini "niyə?" sualıdır. Dahilərdən biri haqlı olaraq müdrikcəsinə demişdir: "Elm "niyə" ilə başlayır" [6, s.283].

Bəs səbəbiyyət və ya kazuallıq (latınca causa – səbəb; ingiliscə causality) nədir? Səbəbiyyət – səbəb və nəticənin iştirak etdiyi hadisələr arasında qarşılıqlı əlaqənin mühüm formasıdır. Səbəb – fəaliyyəti başqa bir hadisəni doğuran hadisədir. Səbəbin doğurduğu hadisə isə, nəticədir. Məsələn, İngiltərənin Şimali Amerikadakı müstəmləkələrində zülm və əsarəti gücləndirməsi bu müstəmləkələrdə istiqlaliyyat uğrunda müharibənin səbəbi, istiqlaliyyat uğrunda müharibə isə bu zülm və əsarətin nəticəsi idi. Yaxud başqa bir misala baxaq: imperialist dövlətlər arasındakı ziddiyyətlər Birinci Dünya müharibəsinin ən mühüm səbəbi idi. Eyni zamanda Birinci Dünya müharibəsi sözügedəb ziddiyyətlərin nəticəsi idi (tarix retrospektiv bir elm olduğundan, tədqiqat nəticədən səbəbə doğru gedir).

XX əsrin görkəmli Rusiya riyaziyyatçısı, akademik A.Aleksandrov belə bir sözü var idi: "Həqiqətin bir xoşagəlməz xüsusiyyəti var ki, o, düz bir səth üzərində qalmır və onu tapmaq çətin olur". Heç vaxt geri qaytarılması, təkrar olunması, təbiət elmlərindəki kimi eksperiment ilə müşahidə olunması mümkün olmayan keçmişi öyrənən tarix elmində isə həqiqəti tapmaq daha çətindir. Xüsusilə, keçmişdə baş verən hadisələr üçün səbəb-nəticə əlaqəsi qurmaq mürəkkəb və çətindir. Bəs bu mürəkkəbliyi necə izah etmək olar?

1) çox vaxt bir deyil, bir neçə səbəb hər hansısa nəticəyə gətirib çıxarır. Məsələn, Birinci Dünya müharibəsini təkcə imperialist dövlətlər arasındakı ziddiyyətlər deyil, həm də bir sıra başqa səbəblər doğurmuşdu: iri və kiçik xalqların millətçiliyi, liderlərin ambisiyaları və s.

2) nəticəni doğuran səbəblər müxtəlif səviyyələrdədir, yəni hər biri müxtəlif cür əhəmiyyət kəsb edir. Belə ki, məsələn bir çox tarixçilər 1871-ci ildə Elzas və Lotaringiyanın Almaniya imperiyasına birləşdirilməsini işğal kimi qiymətləndirərkən həlledici səbəb kimi birləşdirilmənin sözügedən ərazilərin əhalisinin əksəriyyətinin iradəsinə zidd olaraq həyata keçirildiyini göstərirlər. Baxmayaraq ki, birləşdirilmənin lehinə və əleyhinə olan müxtəlif səviyyəli motivlər var idi: tarixi, coğrafi, iqtisadi və d.

3) səbəb zaman baxımından nəticədən əvvəl olsa da, nəticə də səbəbə öz təsirini göstərir. Məsələn, müharibə nəticəsində başlayan sülh danışıqları aramsız olaraq davam edən hərbi əməliyyatlarla birgə aparılırsa deməli səbəb (müharibə) nəticəyə (sülh danışıqları) gətirib çıxardığı kimi, nəticə (sülh danışıqları) də səbəbə (hərbi əməliyyatların davam etməsi) təsir göstərir.

4) pedaqoji məqsədlə biz səbəblərdən biri və onun doğurduğu nəticə üzərində nümunəyə baxdıq. Lakin hər şeyin bir-biri ilə qarşılıqlı əlaqədə olduğu konkret həyatda nəticə özü səbəbə çevrilə bilər, o da öz növbəsində başqa bir nəticəyə gətirib çıxarır, o da başqa bir səbəbə... və bu sonsuza qədər davam edə bilər. Fəlsəfədə buna "səbəb-nəticə zənciri" deyilir. Məsələn, XX əsrin I yarısı üçün belə bir səbəb-nəticə zənciri qurmaq olar: imperialist dövlətlərarası ziddiyyətlər – Birinci Dünya müharibəsi – 1919-cu il Paris sülhü – məğlub dövlətlərlə qaliblər arasındakı ziddiyyətlər – İkinci Dünya müharibəsi... və s.

5. Səbəbi başa düşmək üçün həmin səbəbin təsir göstərdiyi şəraiti (vəziyyəti) nəzərə almaq lazımdır, çünki müxtəlif şəraitdə bir səbəb müxtəlif nəticələrə gətirib çıxara bilər.

6. Səbəb ilə bəhanəni bir-birindən fərqləndirmək lazımdır. Bəhanə bir səbəbin təzahürünə şərait yaradan hadisə, proses, birdəfəlik fəaliyyətdir. Belə ki, məsələn Ems depeşesi 1870-ci ildə Fransa-Prussiya müharibəsinin başlamasının, yaxud 1914-cü ildə Qavrilo Prinsipin Avstriya taxt-tacının vəliəhdi, ershersoq Frans Ferdinandı və onun xanımı Sofiyanı qətlə yetirilməsi Birinci Dünya müharibəsinin başlanması üçün bəhanədir.

***Nəticə.*** Məlum olduğu kimi, fakt ayrılıqda, təcrid olunmuş halda deyil, digər faktlarla qarşılıqlı əlaqədə tarixi fakt ola bilər. Bu əlaqələr müxtəlif ola bilər: məkan-zaman (dünyada baş verən hər şey yalnız müəyyən zaman və məkan çərçivəsində baş verə bilər), səbəb-nəticə və s. Burada biz tarixçiləri xüsusilə səbəb-nəticə əlaqələri maraqlandırır. Çünki onlar olmasaydı tarix sadəcə olaraq xaotik faktlar toplusundan ibarət olardı. Yalnız səbəb-nəticə silsiləsi və anlayışlar aparatının köməyi ilə tarix əsl elmə çevrilə bilər. Səbəb-nəticə əlaqəsinin axtarılması tədqiqatçı üçün mühüm vəzifədir. Məlum olduğu kimi, orta əsrlərdə tarixşünaslıqda providensializm ideyası üstünlük təşkil edirdi, yəni insanların fəaliyyətləri yerdən kənar (ilahi, fövqəltəbii) qüvvələr tərəfindən əvvəlcədən müəyyən edilir. Hətta İntibah dövründə də yer üzündəki hadisələrin gedişatı izah edilən zaman təsadüflərə üstünlük verilirdi. Yalnız XVIII əsrin maarifçiləri tarixin təsadüflər yığını kimi şərh edilməsinə qarşı çıxmış və səbəbiyyət, şərtilik kimi prinsipi formalaşdırmışdılar. XIX əsrdə səbəb-nəticə zənciri kimi təkamül haqqında təsəvvürlər geniş yayılmış, bu ideyalar aparıcı fəlsəfi təlimlər – pozitivizm və marksizm tərəfindən qəbul edilmişdi.

## ƏDƏBİYYAT

1. Dunér, David, Ahlberger, Christer. Cognitive History: Mind, Space, and Time. Berlin, "De Gruyter", 2019. 181 p.
2. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007, 344 s.
3. Qazıyev S. Azərbaycanın qədim abidələri. Bakı, "Uşaqgəncnəşr", 1948, 66 s.
4. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı, "İşıq", 1991, 264 s.
5. Məmmədli B. Mənbələrin tarixi tənqidi – tarix elminin metodoloji problemlərindən biri kimi. Tarix, insan və cəmiyyət, 2022, 3 (36), s.46-54.
6. Бунге М. Причинность: место принципа причинности в современной науке. Москва, «Изд-во иностранной литературы», 1962, 512 с.
7. Вайнштейн О. Л. Очерки развития буржуазной философии и методологии истории в XIX-XX веках. Ленинград, «Наука», 1979, 272 с.
8. Коллингвуд Р.Дж. Идея истории. Автобиография. Москва, «Наука», 1980, 486 с.
9. Кузеванов Л. И. Академизм исторического познания. Москва, «НЭИ Академическая жизнь», 2010, 212 с.
10. Неру Дж. Взгляд на всемирную историю. В 3 томах. Т. 2. Москва, «Прогресс», 1981, 376 с.
11. Про Л. Двенадцать уроков по истории. Москва, «Изд-во РГГУ», 2000, 336 с.
12. Реизов В.Г. Французская романтическая историография (1815-1830). Ленинград, «Изд-во ЛГУ», 1956, 535 с.
13. Тош Д. Стремление к истине. Москва, «Весь Мир», 2000, 296 с.
14. Утченко С.Л. Глазами историка. Москва, «Наука», 1966, 263 с.
15. Эйдельман Н.Я. Пушкин. Москва, «Советский писатель», 1984, 368 с.

**БАЛАМИРЗА МАМЕДЛИ**
*Магистрант Бакинского государственного университета*
*по специальности «История славянских стран»*

## К ИСТОРИЧЕСКОМУ ПОЗНАНИЮ И ЕГО ПРИНЦИПАМ

Как известно, история – это наука, изучающая прошлое человеческого общества. Эта наука многогранна и включает в себя ряд самостоятельных областей исторического познания. Говоря о роли исторической науки, следует отметить, что она формирует истинного гражданина, развивает историческое мышление, самосознание, понимание патриотического долга. Знание прошлого помогает человеку сформировать свою гражданскую позицию, лучше понять современную жизнь и тенденции, присущие ему самому. В наше время историческое когнитивное мировоззрение и исторические процессы столкнулись с необходимостью методологического пересмотра с точки зрения современности. Поэтому представляется, что исследование историко-когнитивных проблем имеет большую актуальность. В статье рассматривается ряд уникальных особенностей и принципов исторического познания, которому принадлежит особое место среди видов гуманитарного познания.

*Ключевые слова:* историческая наука, историческое познание, историография, историзм, объективность, причинность.

**BALAMIRZA MAMMADLI**
*Master student of Baku State University in the specialty "History of the Slavic countries"*

## ON HISTORICAL COGNITION AND ITS PRINCIPLES

History, as it is known, is a science that studies the past of human society. This science is versatile and includes a number of independent areas of historical cognition. When talking about the role of history science, it should be noted that it forms a true citizen, develops historical thinking, self-awareness, and understanding of patriotic duty. Knowing the past helps a person to form his/her civic position, to better understand modern life and the trends inherent in themselves. In modern times, the historical cognitive worldview and historical processes have faced the need to be methodologically revised from the point of view of modernity. Therefore, it seems that the study of historical cognitive problems has great relevance. The article examines a number of unique features and principles of historical cognition, which has a special place among the types of humanitarian cognition.

*Keywords:* historical science, historical cognition, historiography, historicism, objectivity, causality.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 dekabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94(479.24); UOT 902**

**İLHAMƏ SADIQOVA**
*AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, t.ü.f.d.*
**imaibrahim@mail.ru**

# İ.H.NƏRİMANOV VƏ ONUN ARXEOLOQ-QADIN TƏLƏBƏLƏRİ

*(İdeal Həmid oğlu Nərimanovun xoş xatirəsinə ithaf olunur)*

*Məqalədə görkəmli, dünya şöhrətli tədqiqatçı alim, professor, AMEA-nın müxbir üzvü İdeal Həmid oğlu Nərimanovun elm aləmində olan qadın yetirmələrindən söhbət açılır. Habelə İdeal Nərimanovun elmə getirdiyi yeniliklər vurğulanır. İ.H.Nərimanovun yetirmələri R.B.Arazova, M.Ə.Hüseynova, V.Ə.Mahmudova, D.H.Cəfərova və İ.V.Sadıqovanın elmi fəaliyyətləri, yaradıcılıq və tədqiqatlarından bəhs edilir.*

*Açar sözlər*: İ.H.Nərimanov, qadın yetirmələri, R.B.Arazova, M.Ə.Hüseynova, V.Ə.Mahmudova, D.H.Cəfərova, İ.V.Sadıqova.

Böyük alim, vətənpərvər ziyalı, görkəmli arxeoloq AMEA-nın müxbir üzvü İdeal Həmid oğlu Nərimanov ömrünün 60 ilini elmə həsr etmiş, Azərbaycan arxeoloqlarının bugünkü və gələcək nəsilləri üçün böyük elmi məktəb yaratmışdır. Fədakar alimin elmi araşdırmaları arxeologiya elminin mühüm problemlərinin tədqiqinə yönəldilməklə arxeologiya elminin inkişafına təkan verdi. Tarixə Leylatəpə və Şomutəpə kimi arxeoloji mədəniyyəti gətirən İ.Nərimanovun yetişdirdiyi aspirant, dissertant və doktorantlar böyük fəxrlə onun yolunu davam etdirirlər.



*Cabbar Xəlilov Qaraş Mədətov İdeal Nərimanov*

İdeal Nərimanovun yetirmələrı arasında qadın aspirant və tədqiqatçılar mühüm yer tutur. Hətta onun ilk aspirantı da məhz qadın t.ü.f.d. Roza Binnət qızı Arazova olmuşdur. R.B.Arazova (15.04. 1947) Azərbaycan Dövlət Universitetinin (1965-1970) tarix fakültəsini bitirdikdən sonra, Azərbaycan SSSR EA Tarix İnstitutunun aspirantı (1970-1973) olmuşdur. 1974-cü ildə Azərbaycanın qədim arxeologiyası üzrə tarix elmləri namizədi elmi dərəcəsi adını almışdır. 1974-1980-ci illərdə Arxeologiya və Etnoqrafiya sektorunda (indiki AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda) çalışmışdır.



*Roza Arazova (1980-ci illər)*



*İdeal Nərimanov və Roza Arazova arxeoloji qazıntıda (1970-ci illər)*

Hal-hazırda Xəzər Universitetində dosent və deportament müdiri vəzifəsində çalışır. Roza Arazovanın elmi axtarışları Cənubi Qafqazda, o cümlədən Azərbaycanda, e.ə. VI-IV min. qədim əkinçilik mədəniyyəti, istehsal təsərrüfatı və əmək alətlərinin öyrənilməsinə həsr edilmişdir. Bu elmi araşdırmalarla əlaqədar Roza xanım ilk dəfə Azərbaycan arxeologiyasında eksperimental-trassoloji üsuldan geniş istifadə edərək, bu sahədə özünü təsdiqləmişdir. O Rusiyada, Moldovada, Baltikayanı dövlətlərdə, Orta Asiyada aparılan arxeoloji ekspedisiyalarda və bir sıra beynəlxalq elmi konfrans və simpoziumlarda (İtaliya, Almaniya, Rusiya) iştirak etmişdir. Roza xanımla söhbət edərkən, onun xatirələrində böyük hörmətə malik olan İdeal müəllimin hər zaman öz yetirmələrinə qarşı xoş münasibəti, mülayim və sadəliyi ilə seçilib, tədqiqatçını ruhlandiraraq ona dəstək olmasının şahidi oluruq.



*Minəvvər Hüseynova (1980-cı illər)*

Sonrakı dissertantı t.ü.f.d. Minəvvər Əhməd qızı Hüseynova olmuşdur. Minəvvər Hüseynova (19.01.1939) Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini (1956-1961) bitirdikdən sonra təhsilini Tarix İnstitutunun aspiranturasında (1967-1970) davam etdirmişdir. 1982-ci ildə İdeal Nərimanovun rəhbərliyi altında “Azərbaycanın son tunc - ilk dəmir dövrü keramikası” adlı namizədlik dissertasiyasını müdafiə edərək tarix elmləri namizədi (27.07. 1983) adını almışdır. Minəvvər xanım Tarix İnstitutunda (1967), daha sonra Arxeologiya və Etnoqrafiya İnstitutunda (1971) çalışmışdır. Onun tədqiqatlarının istiqaməti son tunc-ilk dəmir dövründə qədim tayfaların tarix və mədəniyyətinin bir sıra problemlərinin işıqlandırılması dövrün yeni xronologiyası və mərhələlərin tarixinin deyişdirilməsi olmuşdur. Bütün bunlar onun 1982-ci ildə müdafiə olunmuş dissertasiya işində əks olunmuşdur. Əsərdə təklif olunan keramikanın öyrənmə metodu perspektivləri yeni istiqamət kimi qiymətləndirilmişdir. 1983-cü ildə o “Azərbaycanın arxeologiya və etnoqrafiya biblioqrafiyası” kitabının nəşrində iştirak etmiş, 1989-cu ildə “Şərqi Qafqazın keramikası (e.ə. XIV-IX əsrlər)” adlı monoqrafiyası nəşr olunmuşdur. Ümumiyyətlə Minəvvər xanımın 40-a yaxın elmi məqaləsi nəşr olunmuşdur. M.Ə.Hüseynova son tunc-ilk dəmir dövrü kardinal problemləri ilə məşğuliyyətini davam etdirmiş, mədəniyyət adidələrinin tarixi analizi və interpretasiyası ilə abidələrin xüsusiyyəti və xronologiyası məqalələrdə öz əksini tapmışdır. Bunlardan etnobirləşmələr haqqında yazılmış məqalələr: “Ayin və hökm rəmzləri”, “İlk at dəfnlərinin xüsusiyyəti”, “Son tunc dövrünün etnik problemləri” haqqında olan məqalələri çap olunmuşdur. Son tunc dövrünün mənşəyini əks etdirən “Qaracəmirli kurqanları”na həsr olunmuş əsəri qərb abidələrinin qazılması və təsvirindən ibarət olmuşdur. Minəvvər xanım son illər “Azərbaycan ərazisində son tunc-ilk dəmir dövründə məskunlaşmış tayfaların etno-mədəniyyəti” adlı monoqrafiyası üzərində işləyirdi.



*Vəfa Mahmudova arxeoloji qazıntıda (2019-cu il)*

Növbəti aspirantı Vəfa Əzbər qızı Mahmudova ali məktəbi fərqlənmə diplomu ilə bitirdikdən sonra Tarix İnstitutunun aspiranturasına qəbul olunmuşdur. 1992-ci ildə İdeal Nərimanovun rəhbərliyi altında “Azərbaycanın ilk oturaq əkinçi-maldar tayfalarının qəbir abidələri (b.e.ə. VI-IV minilliklər)” mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək “tarix elmləri namizədi” elmi dərəcəsi almışdır.

Vəfa xanımın eyni adlı monoqrafiyası (2003), “Южный Кавказ в кавказско-переднеазиатских этнокультурных процессах” (2008, müştərək), “Xələc” (2010) adlı (müştərək), “Azərbaycanın neolit-eneolit tayfalarının Yaxın Şərqlə iqtisadi-mədəni əlaqələri” (2018) elmi əsərləri çapdan çıxmışdır. “Qarabağın erkən əkinçi-maldar tayfalarının qəbirləri” adlı monoqrafiyası isə hal-hazırda çapdadır. Geniş elmi biliyə və təfəkkürə malik olan V.Mahmudova “Azərbaycanın erkən oturaq əkinçilik mədəniyyətləri və onların Yaxın Şərq paralelləri” adlı doktorluq dissertasiyasının müdafiəsi ərəfəsindədir. Ümumiyyətlə, V.Mahmudova bununla kifayətlənməyib müntəzəm olaraq Cəliladab rayonu ərazisində arxeoloji ekspedisiyada (2009-2017), Azərbaycan-Almaniya Beynəlxalq ekspedisiyada və Qarabağ neolit-eneolit ekspedisiyasının tərkibində (2019) arxeoloji tədqiqatlarda yaxından iştirak etmişdir. T.ü.f.d., dosent Vəfa

Mahmudova bir sıra beynəlxalq elmi konfransların iştirakçısı, 5 monoqrafiyanın və 85-dən yuxarı elmi məqalənin müəllifidir.

İdeal müəllimin aspirantlarından biri də t.ü.f.d.Diana Hidayət qızı Cəfərova idi. Diana Hidayət qızı Cəfərova Azərbaycan tarixinin və qədim dövrünün arxeoloji materiallar əsasında tədqiqi ilə məşğuldur. Müəllimlikdən dosent vəzifəsinə qədər yüksələn Diana xanım tədrislə yanaşı arxeoloji tədqiqatları da paralel olaraq davam etdirir. O İdeal Nərimanovun rəhbərliyi altında "Qarabağ tayfalarının son tunc və ilk dəmir dövrü silahları" adlı namizədlik dissertasiyasını müdafiə etmiş (2007) t.ü.f.d. adını almışdır. D.H.Cəfərova 2008-ci ildən mütamadi olaraq "Qarabağ" arxeoloji ekspedisiyanın, habelə Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda fəaliyyət göstərən bir çox başqa arxeoloji ekspedisiyaların çöl-tədqiqat işlərində aktiv iştirak edir. D.Cəfərova yeni, milli konsepsiya əsasında yazılmış ali məktəblər üçün (H.F.Cəfərovla müştərək) yazılmış dərsliyin, habelə bir çox dərs vəsaiti, metodik vəsait və göstərişlər, fənn proqramları, dərslik tərcümələrinin, 60-dan çox elmi məqalənin müəllifidir. O, Respublika, Cənubi Qafqaz və Beynəlxalq miqyaslı elmi konfrans və simpoziumlarda dəfələrlə dərin məzmunlu elmi məruzələrlə çıxış etmişdir. Onun müxtəlif səpkili elmi tədqiqatlaranın nəticələrindən dərslik və dərs vəsaiti, dissertasiya və monoqrafik əsərlərin yazılmasında istifadə edilmiş, əsərlərinə istinaq olunmuşdur. Hazırda Diana xanım "Qarabağ tayfalarının son tunc və ilk dəmir dövrü mədəniyyəti" mövzusunda tarix üzrə elmlər doktoru elmi adı almaq üçün dissertasiya üzərində çalışır.

Bu məqalənin müəllifi İlhamə Vaqif qızı Sadıqova İ.H.Nərimanovun sonuncu dissertantı olmuşdur. O, BDU-nun tarix fakültəsini bitirdikdən sonra, həmin fakültənin arxeologiya ixtisası üzrə aspiranturaya daxil olmuş, İdeal müəllimin rəhbərliyi altında tədqiqatlar aparmışdır. İ.V.Sadıqovanın müdafiə etdiyi "Azərbaycanda arxeologiya elminin təşəkkülü (XX əsrin 20-ci illəri) tarixi-arxeoloji tədqiqat" adlı elmi işində arxeologiya elminin təşəkkülü, formalaşması, inkişafı, arxiv materialları, elmi ədəbiyyat və İdeal müəllimin geniş təfəkkürü və məlumatlarından bəhrələnərək ərsəyə gətirilən bir dissertasiya mövzusudur. Elmi işdə XX əsrin 20-ci illərində Azərbaycanda yaranan elmi müəssisələrin, cəmiyyət və komitələrin yaranması, fəaliyyəti, gördüyü işlər çap olunmuş əsərlər, yerli milli və qeyri-milli kadrların yetişdirilməsi və onların fəaliyyətindən söhbət açılır. XX əsrin 20-ci illərində Azərbaycanın hər yerində planlı şəkildə aparılan elmi ekspedisiyalar, yeraltı və yerüstü arxeoloji, etnoqrafik, tarixi, incəsənət abidələrinin üzə çıxarılıb tədqiq edilib araşdırılmasından xəbər verilir. İ.V.Sadıqovanın bu qəbildən 2015-ci ildə həmmüəlliflər tarixçi alimlər T.S.Kərimova və İ.N.Əliyevlə çap edilmiş "Alimin həyati, yaradıcılığı və taleyi" adlı əsəri geniş arxiv materialları əsasında yazılmışdır. Əsərdə 30-cu illərin repressiya qurbanı olmuş, ilk milli arxeoloq, tanınmış alim-tədqiqatçı tarix, arxeologiya, etnoqrafiya, filologiya və incəsənət sahəsində geniş biliyə və təfəkkürə malik olan arxeologiya elminin banilərindən biri Ələsgər Hacı Kazım oğlu Ələkbərovun həyat və yaradıcılığından, elmi fəaliyyətindən bəhs edilir. Bu əsərin ərsəyə gəlməsində bir növ İdeal müəllimin də rolu olmuşdur. O həmişə Ə.Ələkbərov və onun kimi repressiyaya məruz qalmış elm adamlarının haqqının yerdə qoyulmamasının və elmi fəaliyyətlərinin yüksək qiymətləndirilməsinin tərəfdarı olmuşdur. İ.V.Sadıqovanın elmi tədqiqatları arxeologiya elminin tarixşünaslığı və arxiv materiallarının araşdırılmasından ibarətdir. Arxiv materialları əsasında yazılan arxeologiya elminin tarixınə həsr olunmuş məqalələri təqdirə layiqdir. Bu gün AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda çalışan t.ü.f.d. İ.V.Sadıqova bu mövzuda olan tədqiqatlarını davam etdirir və doktorluq dissertasiya mövzusu üzərində çalışir.

Böyük tədqiqatçı və alim İ.H.Nərimanov bir insan kimi çox təvazökar, öz qadın yetirmələrinə qarşı həm çox ciddi, həm də bir ata qədər qayğıkeş idi. Görkəmli alim, professor, AMEA-nın müxbir üzvi İdeal Nərimanovun elmi irsi onun yetirmələrinin fəaliyyətində davam edir. Böyük hörmətə malik dünya şöhrətli alim hər zaman bizim qəlbimizdə xoş xatirələrlə xatırlanacaq.

## ƏDƏBİYYAT

1. Müseyibli N. Arxeologiya elminin görkəmli nümayəndəsi / Xalq qəzeti, 06.01.2017.
2. Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun eimi arxivi, inventar №275 (Hüseynova M.Ə).

3.İnternet,vikipediya: - https://az.wikipedia.org/wiki/%C4%B0deal_N%C9%99rimanov, https://az.wikipedia.org/wiki/Roza_Arazova.
4. AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun rəsmi saytı.

**ИЛЬХАМА САДЫГОВА**
*Институт Археологии, Этнографии и Антропологии НАНА, д.ф.и.*

## И.Г.НАРИМАНОВ И ЕГО СТУДЕНТКИ-АРХЕОЛОГИ

Статья посвящена женщинам-археологам, которые были подготовлены всемирно известным исследователем, ученым-археологом, профессором, членкором НАНА Идеал Гамид оглы Наримановым. В работе приводится информация о научной деятельности женщин-археологов закончившие школу И.Г.Нариманова, таких как: Р.Б.Аразова, М.А.Гусейнова, В.А.Махмудова, Д.И.Джафарова, И.В.Садыгова.

*Ключевые слова*: И.Г.Нариманов, женщины - археологи, Р.Б.Аразова, М.А.Гусейнова, В.А.Махмудова, Д.Г.Джафарова, И.В.Садыгова.

**ILKHAMA SADIGOVA**
*Institute of Archeology, Ethnography and Anthropology of ANAS, PhD*

## I.H. NARIMANOV AND HIS ARCHAELOGIST-FEMALE STUDENTS

In the article talks about the female-archaeologists of world science of the world famous research scientis, professor, corresponding member of ANAS Ideal Hamid oglu Narimanov’s. Ideal Narimanov’s innovations in science are also emphasized. I.H.Narimanov’s archaeologists B.B.Arazova, M.E.Huseynova, V.E.Mahmudova, D.H.Jafarova and I.V.Sadigova’s scientific activities, creativity and research are discussed.

*Keywords*: I.H.Narimanov, female-archaeologists, R.B.Arazova, M.A.Huseynova, V.A.Mahmudova, D.H.Jafarova, I.V.Sadıgova.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 yanvar 2023-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 27 yanvar 2023-cü il.*
*Jurnalın Redaksiya heyətinin qərarı ilə nəşr edilir.*

**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər**

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr  Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Dissertasiyaların tərtibi qaydaları”  barədə qüvvədə olan təlimatının “İstifadə edilmiş ədəbiyyat” bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda “*əvvəli ötən sayımızda*”, *“ardı növbəti nömrədə”* adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
**TarixVeOnunProblemleri@gmail.com**

## Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

***Электронный адрес журнала "История и ее проблемы":***
**TarixVeOnunProblemleri@gmail.com**

## Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the “Used literature” section 10.2-10.4.6 of the current instruction on the “Rules for writing dissertations” of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

**Email**: **TarixVeOnunProblemleri@gmail.com**

*Çapa hazırlayanlar:* *Sevinc Ruintən, Şəbnəm Cəfərova, Elmar Axundov*
*Tərcüməçi radaktorlar:* *Anar Kərimov, Aynur Məmmədova, Elmira İsmayılova*
*Web-redaktor:* *Bağırov Elşad Altay oğlu*

**Yığılmağa verilmişdir: 23.01.2023. Çapa imzalanmışdır: 27.01.2023.**
**Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56**
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**